*İnsanlara hürriyyət,*
*millətlərə istiqlal!*

ƏSƏRLƏRİ
I
MƏHƏMMƏD ƏMİN
RƏSULZADƏ



**MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ**

# ƏSƏRLƏRİ

**(MÜHACİRƏT DÖVRÜ: Türkiyə, 1922-1929)**

**I**

MƏHƏMMƏD ƏMİN
RƏSULZADƏ

# ƏSƏRLƏRİ

## (MÜHACİRƏT DÖVRÜ: Türkiyə, 1922-1929)

## I CİLD

Bakı - 2016

Əsərləri toplayıb nəşrə hazırlayan,
ön sözün və məqalənin müəllifi,
lüğəti və izahları tərtib edən, redaktor:
**Nəsiman Yaqublu**
*tarix üzrə elmlər doktoru*

Məsləhətçilər: **Cəmil Ünal,**
*"Azərbaycan Kültür Dərnəyi"nin Başqanı (Türkiyə)*

**Yavuz Akpinar**,
*Egey Universitetinin professoru (Türkiyə)*

Transliterasiya redaktoru: **Samir Xalidoğlu**

Texniki redaktorlar: **İradə Quliyeva**
**Nəzakət Muradova**

**Məhəmməd Əmin Rəsulzadə.**
**ƏSƏRLƏRİ (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I CİLD**
Bakı, 2016. "Ziya" NPM. səh. 596

*Oxuculara təqdim olunan bu kitabda müəllifin 1920 –ci illərdə yazdığı əsərlər toplanıb.Kitabda Azərbaycanın tarixi, müstəqillik mübarizəsi, 1918-1920 – ci ildə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti haqqında geniş məlumatlar vardır.Eyni zamanda müəllif bu əsərlərində sovet rejiminin işğalçı mahiyyətini, xalqları əsarərdə saxlayan,onları azadlıqdan məhrum edən siyasətini kəskin edir.Kitabdan Azərbaycan və XX əsr tarixini araşdıran tədqiqatçılr,siyasətçilər,diplomatlar,mətbuat təmsilçiləri ciddi faydalana bilərlər.*

ISBN:

# M.Ə.RƏSULZADƏNİN MÜHACİRƏTDƏKİ ƏSƏRLƏRİNİN NƏŞRİ

Azərbaycanın görkəmli dövlət xadimi, Azərbaycan MİLLİ Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadənin mühacirətdəki əsərlərinin sistemli və ardıcıl olaraq nəşrinə başlayırıq. Buraya onun 1920-ci ildən 1955-ci ilə - ömrünün sonlarına qədərki əsərləri daxil ediləcək. Ümumilikdə 10 cildi əhatə edəcək bu əsərləri müxtəlif dövrlərə bölmüşük:

1. Türkiyə dövrü: 1922-1929-cu illər (nəşr edilən kitabları və məqalələri, çıxışları).
2. Avropa dövrü: Fransa, Almaniya, Polşa - 1929-1939-cu illər.
3. Rumıniya - Almaniya: 1940 - 1947-ci illər.
4. Türkiyə dövrü: 1948 - 1955-ci illər

Beləliklə, M.Ə.Rəsulzadə mühacirətdə (buraya Türkiyə və Avropa ölkələri - Fransa, Polşa, Almaniya və Rumıniya daxildir) olduğu ölkələrin hər birində ciddi siyasi, mətbu və ictimai fəaliyyət göstərmişdir(qeyd edim ki, onun 1908-1911-ci illərdə İrandakı fəaliyyəti və burada nəşr etdiyi yazıları, eləcə də 1911-ci ildə Türkiyədə yazdığı "İran Türkləri" "Əsərləri"nin 1-ci (1903-1909; Bakı, 1992;) və 2-ci cildində (1909-1914; Bakı, 2001;) çap olunub.

Bu nəşri reallaşdırmaqda başlıca məqsədimiz onun həmin ölkələrdəki əsərləri ilə Azərbaycan oxucularını tanış etməkdir. Məhz bu əsərlərin təqdimatından sonra oxucular M.Ə.Rəsul-

zadənin Azərbaycanın azadlığı uğrunda həqiqətən böyük mücadilələr apardığının şahidi olacaqdır.

Oxuculara təqdim olunan I clddə M. Ə. Rəsulzadənin 1922 - 1929-cu illərdə Türkiyədəki fəaliyyətinə aid əsərləri daxildir (bu dövrə aid çıxışları və 1922-ci ildən Türkiyədən yazdığı məktubları sonrakı cildlərdə ayrıca olaraq toplanıb çap ediləcək). II cilddə isə onun "Yeni Qafqasiya"da, "Azəri Türk"də, "Odlu Yurd"da və "Bildiriş"dəki yazıları çap olunacaq.M.Ə.Rəsulzadənin I cilddə toplanan əsərləri müxtəlif illərdə Azərbaycanda kirill və latın hərfləri ilə nəşr edilib. Lakin həmin nəşr edilmiş əsərlərin mətnini bir daha yığdırmış, oxumuş, redaktə etmiş, orijinalla dəqiqləşmələr aparıb müəyyən nöqsanları aradan qaldırmışıq. Bu cilddəki **"İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi" (çevirəni S.Xalidoğlu)** və "Qafqasiya Türkləri"əsəri tərəfimizdən hazırlanıb ilk dəfədir ki, oxuculara təqdim olunur. Bu cilddə verilən **"Azərbaycan Cümhuriyyəti: keyfiyyəti - təşəkkülü və şimdiki vəziyyəti"** kitabı üç dəfə çap edilib: 1) 1990-cı ildə ərəb qrafikasından transfoneliterasiya edəni, qeydlərin və lüğətin müəllifi,filologiya üzrə elmlər doktoru, professor **Asif Rüstəmli,** redaktorları: **Filologiya üzrə elmlər doktoru İmamverdi Həmidov, Fəlsəfə doktoru Ağanəcəf Həmidovdur.** Bu kitab kiril əlifbası ilə hazırlanıb;2) 1990-cı ildə İstanbulda Türkiyə türkcəsində **Yavuz Akpınar, İrfan Murat Yıldırım və Səbahəddin Cağın** tərəfindən nəşr edilib; 3) 2015-ci ildə isə Bakıda Türkiyə türkcəsində **Yadigar Türkel** tərəfindən çap olunub..

Biz bu cilddə professor Asif Rüstəmlinin çevirməsinə üstünlük verdik. Lakin digər nəşrlərdən və orijinaldan da faydalanıb dəqiqləşmələr apardıq.Onların hazırladığı nəşrin lüğətinə

və izahlarına da yeni əlavələr etdik. Bu cilddə çap olunan **"Rusiyada siyasi vəziyyət", "Milliyyət məsələsində bolşevik nəzəriyyə və əməliyyatları", "Bolşeviklərin Şərq siyasəti"** əsərlərini də 1994-cü ildə kirill əlifbası ilə nəşr etdirən **profes-sor Asif Rüstəmlidir (**redaktoru isə akademik Teymur Kə-rimlidir).Bu əsərləri də yenidən latın qrafiksında yığıb lüğət və geniş izahlar tərtib etdik,orijinal mətnə uyğunlaşdırdıq.

**"Əsrimizin Siyavuşu"** 1923-cü ildə ərəb**,** 1989-cu ildə isə latın əlifbası ilə Türkiyədə çap edilib.Əsər 1991-ci ildə Bakıda da kirill əlifbası ilə nəşr olunub. Üç əsərdən ibarət olan ("Əs-rimizin Siyavuşu", "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi") kitab **Arif Acalovun** redaktorluğu, **Möv-süm Əliyevin** "Məhəmməd Əmin Rəsulzadənin ömür yolu" adlı giriş məqaləsi ilə başlayır. Əsəri Azərbaycan türkcəsinə **Mayis Əlizadə** çevirib. Sonralar isə onu yenidən 2014-cü ildə nəşr edən **Yadigar Türkel** olub.Bu əsəri orijinaldan - ərəb qra-fiksından xahişimizlə **Aslan Kənan** (yığıcı Xatirə Qədirova) cevirib, izahlar isə tərəfimizdən hazırlanıb,əvvəlki nəşrlərdə olan qüsurlar aradan qaldırılıb.

M.Ə.Rəsulzadənin **"İstiqlal məfkurəsi və Gənclik"** əsə-ri(bu M.Ə.Rəsulzadənin konfransda çıxışıdir) ilk dəfə 1990-cı ildə "Azadlıq" qəzetində **Nəsib Nəsibzadənin** çevirməsi ilə (kirilə) çap edilib, dəyərli ziyalımız **Kazım Salahov** tərəfindən latın qrafikasında hazırlanıb. Bu əsər də orjinal mətnlə yenidən işlənib. Lüğət və izahları isə hazırlayıb nəşrə əlavə etmişik.

Bu əsərlərdən "Bolşeviklərin Şərq siyasəti", "Milliyyət məsələsində bolşevik nəzəriyyatı ilə əməliyyatı" əsərlərinin dili qismən sadələşdirilərək oxuculara təqdim olunur. Digər əsərlərində isə müəllifin dil üslubu qorunub saxlanılır.

**“Qafqasiya Türkləri”** əsərini isə ilk dəfə 1993-cü ildə Yavuz Akpınar, **İrfan Murat Yıldırım və Səbahəddin Cağın** Türkiyədə nəşr etdirib və biz də onu çevirib çap etdik. Həmin müəlliflərin tərtib etdikləri lüğət və izahlara da müəyyən əlavələr, məlumatlar daxil etməyi məqsədəu yğun saydıq, orijinal mətnlə işləyib hazırladıq(qeyd edim ki, bu əsər də tədqiqatçı Y.Türkel tərəfindən 2012-ci ildə Türkiyə və Azərbaycan türkcəsinin qarışığı olaraq ümumi bir dildə çap olunub).

Bu cildi nəşrə hazırlayarkən yaxından kömək etmiş **Yadigar Türkelə** və M.Ə.Rəsulzadənin bəzi əsərlərinin orijinalını təqdim edən Egey Universitetinin professoru **Yavuz Akpinara** təşəkkür edirəm.”Azərbaycan Cümhuriyyəti” əsərinin orijinalını müəllifə çatdıran dəyərli gənc ziyalımız **Ruslan Rəhimova**, mətndə ərəb, fars, osmanlı türkcəsində olan sözlərin dəqiqləşmələrini aparan professor **Ramiz Əsgərə,** tədqiqatçılar **Səməd Bayramzadəyə, Həsən Səfəriyə**, materialların yazılmasında zəhmət çəkmiş **Nəzakət Muradovaya**, mətnlərin orijinalla yoxlanılmasına yardım etmiş **Samir Xalidoğluna** minnətdarıq.Kitabın nəşrinə etdiyi köməyə görə tanınmış ziyalımız,millət vəkili **Cavanşir Feyziyevə** təşəkkürümü bildirirəm.

Oxucular 2-ci cilddə M.Ə.Rəsulzadənin “Yeni Qafqasiya”, “Azəri Türk”, “Odlu Yurd” jurnallarında və “Bildiriş” qəzetindəki yazıları ilə tanış ola biləcəklər.

**Redaktordan**

# M.Ə.RƏSULZADƏNİN MÜHACİRƏTDƏKİ FƏALİYYƏTİ - TÜRKİYƏ DÖVRÜ

Azərbaycanın tanınmış ictimai - siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli lideri, Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu **M.Ə.Rəsulzadə (1884-1955)** Azərbaycan tarixində dərin iz qoymuşdur. Təsadüfi deyil ki, XX əsr Azərbaycan İstiqlal tarixini onsuz təsəvvür etmək qeyri - mümkündür. Azərbaycan xalqının milli - mədəni maariflənmə prosesini keçməsində, ərazi muxtariyyəti uğrunda mübarizəyə başlamasında, İstiqlal fikrinə sahib çıxmasında onun müstəsna xidmətləri vardır.

Qeyd olunmalıdır ki, Azərbaycanın azadlığına gətirib çıxaran bu üç mərhələnin hər biri ayrıca ümumi prosesə ciddi təkan versə də, üçüncü, yəni İstiqlal mərhələsi çox məsuliyyətli idi. Əgər birinci mərhələdə M.F.Axundov, H.Zərdabi, Ə.M.Topçubaşov, M.Şahtaxtinski, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi şəxsiyyətlər bu mərhələdə mühüm rol oynamışdılarsa da, ikinci mərhələdə həm Azərbaycan daxilində, həm çar Rusiyası daxilində (müsəlman, türklər nəzərdə tutulur) müəyyən qüvvələr "Ərazi muxtariyyəti"nə dəstək verirdilərsə də, üçüncü mərhələ üçün bu fikirləri söyləyə bilmərik. Əksəriyyət insanlar tərəddüd edir, Azərbaycanın müstəqil bir dövlət halında yaşamasına inanmırdılar. Bu vacib məqamda kəskin mövqe ortalığa qoyan, Azərbaycan İstiqlalı fikrini sonadək müdafiə edən M.Ə.Rəsulzadə və onun sayca çox olmayan məsləkdaşları oldu.

1918-ci ilin mayın 28-də Azərbaycan öz istiqlalını elan etdi, 23-ə qədər dövlət tərəfindən tanındı, ərazi bütövlüyünü qorudu, əsaslı dövlət quruculuğu prosesinə başladı.

1920-ci ilin 27 Aprelində Azərbaycan rus - bolşevik qüvvələri tərəfindən işğal edildi. Azərbaycan xalqının bütün hüquqları əlindən alındı, ölkədə qanlı bir kommunist - bolşevik rejimi formalaşdı.

Bu ağır şəraitdə M.Ə.Rəsulzadə və silahdaşları mücadilələrini davam etdirdilər. Azərbaycanda istilaçılara qarşı çoxlu sayda üsyanlar, etirazlar baş verdi. Həm ölkə daxilində, həm ölkə xaricində Azərbaycanın yenidən istiqlala qovuşması üçün mücadilələr başlandı. M. Ə. Rəsulzadə fəaliyyətini dayandırmadan,yorulmadan sovet rejiminə qarşı xarici ölkələrdə də mübarizəsini davam etdirir, mühacirət həyatı yaşayır. Əvvəl Rusiyada ciddi nəzarət altında olur, sonradan böyük çətinliklə Türkiyəyə gəlir və 1922-ci ilin sonlarından bu ölkədə fəaliyyətə başlayır. M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyətini, əsasən, 3 dövrə bölmək olar: birinci dövr-1911 - 1913-cü illər; ikinci dövr- 1922-1929-cu illər; üçüncü dövr- 1947-1955-ci illər.

Qeyd edək ki, M.Ə.Rəsulzadə 1911-ci ildə İrandan çıxarıldıqdan sonra gizli olaraq Bakıya gəlmiş,bir müddət burada qaldıqdan sonra Türkiyəyə getmişdir. **Bu zamanlarda İstanbulda 1911-ci ilin avqustunda "Türk Yurdu" cəmiyyəti yaradılmışdı.** Bu cəmiyyətin fəaliyyətinə "İttihad və Tərəqqi" təşkilatı daha ciddi diqqət göstərirdi. Əhməd Ağaoğlu, Əlibəy Hüseynzadə, Məhəmməd Əmin bəy (türk şairi), Yusif Akçuraoğlu və digərləri cəmiyyətin fəalları idilər. 1911-ci ilin noyabrından isə bu cəmiyyət "Türk Yurdu" dərgisini çıxarmağa başladı. Bu jurnalın imtiyaz sahibliyi şair Məhəmməd Əmin bəyin adına alınmışdı. Məhəmməd Əmin 1911-ci ilin avqustunda Ərzrum valisi olduğundan dərginin imtiyaz sahibliyi və müdirli-

yi Akçuraoğlu Yusifə həvalə edildi. Jurnalın nəşr proqramında aşağıdakılar nəzərdə tutulurdu: 1) Türklərə məqbul olan bir ideal cəmiyyət yaratmaq; 2) Türklərin bir-birlərini tanımalarına xidmət etmək; 3) Osmanlı türkləri arasında türk milli ruhunun inkişafına və qüvvətlənməsinə kömək etmək; 4) Dövlətlərarası siyasətdə əsas fikri, türk aləminin mənafeyini müdafiə etmək.

Belə geniş proqramla fəaliyyətə başlayan "Türk Yurdu" jurnalının 1911-ci ilin 4-cü sayından M.Ə.Rəsulzadənin "İran türkləri" başlıqlı yazıları çap edilməyə başladı.

Onun "Türk Yurdu" və "Səbilürrəşad" ("Doğru yol") məcmuələrində nəşr edilən yazılarının o dövr üçün böyük əhəmiyyəti vardı. Çünki bu yazılar ilk dəfə idi ki, Türkiyədə İran türkləri haqqında ictimaiyyətə geniş məlumatlar verirdi. Məqalələri maraqlı edən digər bir cəhət isə onun müəllifinin İran mühitinə dərindən bələd olması idi.

M.Ə.Rəsulzadənin **"İran türkləri"** əsəri 6 məqalədən ibarət idi. Az sonra onun digər bir məcmuə olan "Səbilürrəşad"da İran və İran türkləri ilə bağlı 8 yazısı da çap edilir. Əslində bu yazılar da "Türk Yurdu"nda çap olunanların bir davamı idi. M.Ə.Rəsulzadə bu yazılarda daha çox İranın ümumi tarixini təsvir etmişdir ki, bu da İran türklərinin keçmişinin öyrənilməsində ciddi bir mənbədir. Qeyd edək ki, M.Ə.Rəsulzadə sonradan verdiyi bir açıqlamasında İran türkləri ilə bağlı "Səbilürrəşad"da çıxan yazılarını tamamlamadığını bildirirdi.

Türkiyədə olduğu müddətdə M.Ə.Rəsulzadə müsəlman dünyasının böyük mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin yaradıcılığı və dünyagörüşü ilə ciddi maraqlanır. Onun böyük əhəmiyyət daşıyan fikirlərini, fəlsəfi düşüncələrini öyrənir. Bəs Şeyx Cəmaləddin Əfqani hansı işıqlı ideyaları ilə M.Ə.Rə-

sulzadənin diqqətini cəlb edirdi?. İlk öncə böyük mütəfəkkir milliyyət şüurunu oyatmağın vacibliyini vurğulayır və bütün xoşbəxtliyi də bu problemin həllində görüb yazırdı: "Milliyyət xaricində səadət yoxdur".

**Məhz bu illərdə o, Cəmaləddin Əfqaninin "Milli birlik fəlsəfəsi" əsərini farscadan türk dilinə çevirib "Türk Yurdu" jurnalında nəşr etdirdi.**

Türkiyədə olarkən M.Ə.Rəsulzadə "Türk Ocaqları"ndakı dəyərli mütəfəkkirlərlə də yaxın təmaslar qurmuşdu. Belə ki, burada olan tanınmış şəxsiyyətlər arasında "türkçülük" ideyası ilə bağlı fikir mübadiləsi aparılırdı. Bu məsələdə Əli bəy Hüseynzadə ilə Ziya Göyalpın mövqeləri müxtəlif idi. Türk dünyasında ilk dəfə olaraq "türkləşmək, islamlaşmaq və müasirləşmək" fikrini irəli sürən Əli bəy Hüseynzadə "Osmanlı lisanını" qızğınlıqla müdafiə edirdi. Ziya Göyalp isə Əli bəyin "Türkləşmək, islamlaşmaq və müasirləşmək" fikrini əsaslı şəkildə işləyib sadə türkcə yazmağı, danışmağı irəli sürürdü.

**Qeyd edək ki, Ziya Göyalpın dərin təhlil edib təkmilləşdirdiyi türkçülük ideyasının M.Ə.Rəsulzadəyə böyük təsiri olmuşdu.** Bu haqda o, belə yazırdı: "...Mərhumun (Ziya Göyalpın) "Türk Yurdu"nda nəşr olunan "Türkləşmək, islamlaşmaq və müasirləşmək" məqalələri məni vəcdə gətirdi. Bakıya getdim. Mətbuat dil məsələsi ilə məşğul idi. Bu məsələdə Ziya nəzəriyyəsini müdafiə etməyə başladım. Türkçülüyü təbliğ üçün müharibə ərəfəsində çıxarmağa başladığımız "Açıq söz" qəzetinə Ziyanın sözlərini bir "şüar" götürdük. Daha sonra Ziyanın son zamanlarda "Türk millətindənəm, islam hümmətindənəm, qərb mədəniyyətindənəm" şəklində dediyi bu şüar türkçülük, xalqçılıq vəzifələri üzərində təşəkkül edən milliy-

yətpərvər "Müsavat" qəzetinin proqram müqəddiməsində yer tapdı. Rus istibdadında mütəbərrik xanlıqlar şəklində deyil, müttəhit və milli bir kütlə surətində nicat bulan Azərbaycan türklüyü bu istiqlalını tərtəmiz edəcək bayrağa, əsri məfkurəsi ilə mütənasib bir məna vermək istəyirdi. Bu mənanı da "türkləşmək, islamlaşmaq və müasirləşmək" məfhumlarında buldu: Bayrağı mavi, yaşıl və al rəngli qumaşlardan yapdı".

Türkiyə həyatı, "Türk Ocaqları"nda işıqlı düşüncə sahibləri ilə qarşılıqlı təmasları onun türkçülük fikirlərini möhkəmləndirdi və bilgilərini artırdı. Bakıya qayıtdıqdan sonra "Şəlalə" jurnalında "Yeni lisançılar və türkçülər", "Dil ictimai mühüm bir amil"  adlı məqalələr çap etdirdi. 1915-ci ilin oktyabrından isə redaktoru olduğu "Açıq söz" qəzetini məhz ədəbi Azəri türkcəsi ilə nəşr etdi.

Qeyd edək ki, M.Ə.Rəsulzadə Türkiyədə olarkən Bakıda fəaliyyət göstərən müsavatçılar Balkan müharibəsi ilə bağlı xalq arasında gizli yayılan bəyannamələr hazırlayırdı. Balkan müharibəsində çar Rusiyası əleyhinə yazılan və Türkiyəyə yardıma çağıran bəyannamə hökumət dairələrini bərk narahat etmişdi. Həmin bəyannamə müsavatçı Yusif Ziya tərəfindən İstanbula çatdırılmış və M.Ə.Rəsulzadənin dəstəyi ilə "Səbilürrəşad" məcmuəsinin 1912-ci ildə (IX cilddə) 33-cü sayında nəşr edilmişdi. "Müsavat"ın qurucularından olan Məhəmməd Əli Rəsuloğlu öz xatirələrində bu haqda yazırdı: "Axtarış aparan polis müavini: "İstanbulda olan qardaşın (Rəsulzadə Məhəmməd Əmin bəyi nəzərdə tuturdu) tərəfindən sənə bir bəyannamə göndərildiyini və sənin də onu bütün Qafqaziyaya yaydığını dedilər. Sizdə də bu bəyannamə çıxmadı" – dedi və getdi".

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibəti ilə verilən əfvi-ümumidən (bağışlamadan) sonra M.Ə.Rəsulzadə Bakıya qayıtmaq imkanı əldə etdi.

M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyətinin ikinci dövrü 1918-ci ilə aiddir.

**1918-ci ildə iyunun 17-də** Azərbaycan Respublikası nümayəndələrinin İstanbul Beynəlxalq Konfransına (orada Almaniya, Avstriya, Macarıstan, Türkiyə, Bolqarıstan və Qafqaz – Gürcüstan, Azərbaycan, Ermənistan və Dağlılar İttifaqının nümayəndələri iştirak edirdi) göndərilməsi müəyyənləşdi. Konfransda iştirak etmək üçün M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti təsdiq edildi (buraya əlavə dörd nəfər məsləhətçi və texniki heyət də daxil idi). Nümayəndə heyətinə konfrans iştirakçıları ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi.

**M.Ə.Rəsulzadənin başçılıq etdiyi nümayəndə heyəti iyunun 24-də İstanbula gəldi və** burada nümayəndə heyəti çox gərgin vəziyyətdə işləməli oldu. Bu vəziyyət M.Ə.Rəsulzadənin göndərdiyi məlumatda daha dəqiq ifadə olunmuşdu. M.Ə.Rəsulzadənin 1918-ci ilin avqustun 6-dakı 18 saylı məlumatında bildirilirdi: "Xarici İşlər Naziri cənab Məmməd Həsən Hacınskiyə. Mən bir daha Tələt Paşa və Ənvər Paşa ilə görüşdüm. Sual çox qaranlıq idi, indi hər şey keçdi, onlar mənə ümid verdilər. Mən alman səfiri Bernsdorfolmla görüşdüm. Bakının neytral olması xəbərini qəzetə məlumat verən Tiflis nümayəndəliyindəki bir məmurdan öyrəndim... Hər ehtimala qarşı Bakı məsələsi əhəmiyyət kəsb edir. Azərbaycanın səlahiyyətli nümayəndəliyinin sədri – Məhəmməd Əmin Rəsulzadə".

M.Ə.Rəsulzadə İstanbuldan yazdığı məktublarda narahatlıqla bildirirdi: "Nəyin bahasına olursa-olsun Bakını tutmaq lazımdır".

O, Nazirlər Şurasının sədri F.Xoyskiyə göndərdiyi məktubda isə yazırdı: "Siyasi mənzərə tamamilə dəyişib. Vilsonun prinsipləri əsasında sülh təklif edilib. Konfrans baş tutmayacaq. Ermənilər Qarabağı tələb edirlər. Avropada mütləq gecikmədən təbliğat lazımdır. Biz getməyə hazırlaşırıq. Əlimərdan bəy Avropaya gedir".

Göründüyü kimi, Bakının alınması həyati bir məsələyə çevrilmişdi. "Müsavat" Partiyasının yaradıcılarından olan M.Ə.Rəsuloğlunun xatirələri bu mənada çox maraqlıdır: "Türk ordusu qərargahına xəritə, plan yetişdirmək üçün "Müsavat" Partiyası bütün qüvvəsilə çalışırdı. Hər gün dəniz və quru yolla türk ordusu qərargahı nəzdində bulunan arkadaşımız Abbas bəy vasitəsilə şəhərdəki əsgərlərin hərəkəti haqqında türk ordusu qərargahına lazımi məlumatlar verilirdi. Bolşeviklər bu məlumatın sürətlə öyrənilməsinə heyrət edirlərdi..." .

**1918-ci il sentyabrın 15-də türk qoşunlarının və Azərbaycanın yeni yaranmaqda olan hərbi hissələrinin kəskin hücumu ilə Bakı şəhəri alındı.**

M.Ə.Rəsulzadə o günlərdə İstanbulda idi və bu xəbəri ona Türkiyənin Hərbi Naziri Ənvər Paşa çatdırdı.

Qeyd edək ki, M.Ə.Rəsulzadə hələ İstanbulda olarkən Almaniya ilə sovet Rusiyası arasında Brest-Litovsk müqaviləsinə əlavə sazişə (27 avqust) cavab olaraq (həmin sazişə görə Almaniya Bakı neftinin bir hissəsini almaqla, Azərbaycanın bütün zəngin neft yataqlarının Kür sahilinə qədər Rusiyaya verilməsinə razı olurdu) Azərbaycan hökuməti adından Almaniya-

nın səlahiyyətli nümayəndəsi qraf Valdburqa bəyanat təqdim etmişdi.

M.Ə.Rəsulzadə bu problemlə bağlı qəti və kəskin mövqeyini "İqdam" qəzetindəki yazılarında da bildirirdi. Bundan əlavə ona müraciət edən qəzetlərin müxbirlərinə danışdı: **"Bakısız Azərbaycan – başsız bədəndir"** .

Göstərilən ciddi-cəhdlər nəticəsində 1918-ci il sentyabrın 23-də Tələt Paşa ilə Almaniya arasında gizli protokol imzalandı və həmin protokola əsasən Türkiyə qoşunları Azərbaycandan çıxır, Almaniya isə Azərbaycanın istiqlalının Rusiya tərəfindən tanınmasını təmin edirdi.

Lakin sonrakı vəziyyət Almaniyanın bu prosesi təmin etməyinə imkan yaratmadı. Məlum oldu ki, müharibədə Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövləti ilə Bolqarıstan məğlub olmuş, hadisələrin istiqaməti dəyişmiş və Azərbaycan üçün yeni bir imtahan dövrü başlamışdı. Belə ki, Almaniya artıq məğlub dövlətə çevrilmişdi və 1918-ci il oktyabrın 30-da Lemnos adasının Mudros limanında, ingilislərin "Aqamemnon" gəmisində imzalanan sülhə əsasən Bakı, Batumi və digər yerlər müttəfiqlərin nəzarəti altına keçirdi.

Türk qoşunlarının Bakıdan çıxarılmasından sonra şəhərə girən ingilislər Azərbaycanı müstəqil dövlət olaraq qəbul etmirdilər. Lakin genaral Tomsonla aparılan uğurlu danışıqlar getdikcə real nəticələr verirdi. Təəssüflər ki, 1920-ci ilin aprelində Azərbaycan bolşeviklər tərəfindən işğal edildi.

**Qeyd edək ki, 1920-ci ilin məlum 27 Aprel işğalından sonra, M.Ə.Rəsulzadə bir müddət həbsxanada qaldı.** İ.V.Stalin tərəfindən azad edilib Rusiyaya aparıldıqdan sonra, oradan Finlandiyaya, Finlandiyadan isə Türkiyəyə getdi.

M.Ə.Rəsulzadənin və müsavatçıların İstanbuldakı fəaliyyətinə qədər mühacirlərimiz tərəfindən müəyyən işlər görülmüşdüsə də, lakin bu sistemli xarakter daşımırdı. Dağınıq halda olan bu qüvvələr vahid təşkilatda təmsil olunmurdu. Qeyd edək ki, hələ 1920-ci ilin əvvəlində Almaniyada-Berlində 100-ə qədər tələbə təşkilatlanmışdı. Azərbaycan Xalq Cumhuriyyətinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Parlamentinin sabiq sədri Əlimərdan bəy Topçubaşov isə 1920-ci ilin sentyabrında Millətlər Cəmiyyətinə Azərbaycanın işğal olunması məlumatını rəsmi şəkildə çatdırsa da, bir faydası olmamışdı. "Kommunist" qəzeti isə onu bu fəaliyyətinə görə kəskin tənqid etmişdi.

Bu illər həm də Azərbaycan nefti uğrunda ayrı-ayrı dövlətlərin mübarizəsi dövrü idi. Belə ki, 1922-ci ilin aprel ayının 10-da Cenevrədə keçirilən konfransda məqsəd Bakı neftinin imtiyazı idi və bu da gizli saxlanılmışdı.

Bununla əlaqədar mühacirətdəki Azərbaycan nümayəndələri fəallıq göstərmiş, etiraz notaları vermişdilər. Beləliklə, mühacirlər "Azərbaycan davası"nı bu və ya digər şəkildə davam etdirirdilər.

M.Ə.Rəsulzadənin bu dövrdə milli mücadilə tariximizdə ən böyük xidmətlərindən biri azərbaycanlı mühacirləri (o zaman mühacirlər iki qrupa bölünmüşdü: siyasi və qeyri-siyasi) birləşdirib toplamağı oldu. Parisdə, Tehranda, Almaniya, İtaliya, Fransa, Xorasan, Mazandaran, Qars, Ərzrum kimi şəhərlərdə nümayəndələrimizin, əski mühacirlərimizin olmasına baxmayaraq, İstanbulda bu işi M.Ə.Rəsulzadə öz üzərinə götürmüşdü.

O, "Milli Mərkəz" təşkil edib, müsavatçı olmayan siyasətçiləri də bir təşkilat halında birləşdirdi. Tezliklə bütün Sovetlər Birliyini həyəcana gətirən "Yeni Qafqasiya" jurnalını nəşr etdi.

Az müddət içərisində M.Ə.Rəsulzadə "Azərbaycan Cumhuriyyəti, (keyfiyyəti-təşəkkülü, şimdiki vəziyyəti)" əsərini yazıb çap etdirdi. Əsər böyük maraqla qarşılandı. Vyanada çıxan "Doyçe Ostrey – Xişe Tades Saytunq" qəzetində, Türkiyədə çap edilən məşhur "Tan", "İqdam", "Axşam", "Əməl" mətbu orqanlarında əsərə yüksək qiymət verilirdi.

**M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyətini iki dövrə bölmək olar: birinci dövr 1922-1931-ci illəri əhatə edir, ikinci dövr isə 1948-ci ildən başlayır.** Hər iki dövrdə o, böyük çətinliklərlə qarşılaşmışdı. Mühacirət həyatının ağır şərtləri daxilində mübarizə aparmaq, maddi imkansızlıq, yurdsuzluq kimi çətinliklər içərisində yaşamaq və nəhayət kənar ölkə daxilində (istər Türkiyə olsun, istərsə də digər Avropa ölkələri) siyasi mücadiləyə uyğunlaşmaq çox çətin idi. Digər tərəfdən buraya nəhəng bir imperiya maşını – Sovetlər Birliyi də təsir edir, M.Ə.Rəsulzadənin və başqa mühacirlərin fəaliyyətinə maneçilik göstərirdi.

M.Ə.Rəsulzadə yazırdı: "Bulunduğumuz mühacirət şərtləri daxilində, Azərbaycan davası naminə birləşmək milli davanı yaşatmış və yaşadan fikir sistem və nümayəndələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və hisslərdən sıyrılaraq fikrə önəm vermək lazımdır".

Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadənin istiqlal tariximizdəki ən böyük xidmətlərindən biri də Azərbaycanın azadlığı, müstəqilliyi mübarizəsini elmi və sistemli şəkildə aparan mətbuat orqanlarını yaratmasıdır.

**M.B.Məmmədzadə yazırdı:** "Çünki o, (yəni M.Ə.Rəsulzadə - N.Y.) mətbuatın nə kimi bir qüvvə olduğunu yüksək

qiymətləndirirdi. Mətbuat aydınlaşdırma ilə birlikdə fikirləri və beyinləri bir ideal ətrafında birləşdirmək, tərbiyə və sövq etmək qüdrətinə də malikdir".

Əslində Azərbaycan mühacirət mətbuatının yaranma tarixi məhz **1923-cü il sentyabrın 26-dan –** "Yeni Qafqasiya" jurnalının nəşrindən başlayır.

1927-ci ildə sovet dövlətinin təzyiqi ilə Türkiyə hökuməti "Yeni Qafqasiya"nın nəşrini qadağan etdi. "Yeni Qafqasiya"nın nəşri dayandırıldıqdan sonra M.Ə.Rəsulzadə böyük cəhdlərlə "Azəri Türk" jurnalının çapına nail oldu. **Jurnal 1928-ci ildə** İstanbulda nəşrə başladı. Jurnalın abunə şəraiti belə idi: illiyi 200 quruş, altı aylığı 110 quruş, bir nüsxəsi 10 quruş, xaricdə bir nüsxəsi 10 quruş, jurnal on beş gündən bir çap olunurdu. Ədəbi-ictimai, elmi və siyasi, milliyyətçi bir məcmuə idi. Jurnalın məsul müdiri Məmməd Sadiq idi. Jurnalın baş məqaləsi "Tutacağımız yol" adlanırdı. Məqalənin müəllifi M.Ə.Rəsulzadə idi. O, yazırdı: "Gedəcəyimiz yol əski zaman şairlərinin iftixar etdikləri kimi "Rəhi-narəbdə" (getməyən yol) deyildir. Əksinə, bu yol çox müşkül və tikanlı olmaqla bərabər, gedilmiş şanlı bir yoldur. Bu haqq yolu və millət yoludur. Bir yol ki, müasir şərq hal-hazırda o yolla salih olmuşdur. Bir yol ki, sabit Rusiya imperatorluğu daxilində yaşayan məhkum millətlər, dəxi o yola girmişlərdir. Bir yol ki, milliyyət hədəfi istiqlaldır!".

**1929-cu il martın 1-də M.Ə.Rəsulzadə daha bir mətbu orqanın – "Odlu Yurd"un nəşrinə başladı.** Milli hərəkata güc verməyə, bolşevizmlə mücadiləni şiddətləndirməyə yönələn "Odlu Yurd" oxucuların böyük marağına səbəb oldu. Dərginin ilk sayında M.Ə.Rəsulzadənin "Çöhrəmiz" adlı məqaləsi çap olundu: "Odlu Yurd! Bu iki söz türkcə kəlmənin – "Azərbayca-

nın müqabil olduğunu söylərsək, məsələ yarı-yarıya anlaşılmış olur. Yarı-yarıya deyirik, çünki hal-hazırda bir deyil, iki Azərbaycan vardır: Rus istilasına rəhbərlik rolunu oynayan “qızıl Azərbaycan” ilə qəlbində hürriyyət və istiqlalın sönməz odunu daşıyan “milli Azərbaycan!”. Milli Azərbaycan bayrağı – işdə bizim çöhrəmiz!.. Milli hürriyyət uğrunda çarpışan, çalınmış istiqlalını geriyə almaq üçün çalışan bir millət çöhrəsi!”.

Azərbaycanlı mühacirlərin fəaliyyətinə əsas dəstəyi **“Türk Ocaqları”** göstərirdi. Əsası 1912-ci ilin martın 25-də qurulan bu dərnəyin Nizamnaməsində göstərilirdi: “Türk təbəələrini bir islam millətinin ana fəsi olaraq tanıtmaqda, böyləcə osmançılıq, islamçılıq və türkçülük akımlarının bir arada var olduğu bu keçiş dönəminin bəlirsiz xarakterini sərgi-ləməkdəydi”.

Sonrakı fəaliyyətində Türkiyə xaricində yaşayan türklərə dəstək verən “Türk Ocaqları” Cumhuriyyət elanından sonra yeni problemlərlə üzləşdi. 1929-cu ildə “Yeni Məcmuə”dəki söhbətində Türkiyənin tanınmış dövlət adamı Həmdullah Sübhi Tanrıövər “Türklük” anlayışının siyasi sərhədlər hüduduna çıxmasının əleyhdarı olduğunu bildirmişdi. Həmdulla Sübhi demişdi: “Kaşğar, Türküstan, Krım, Bakı, Azərbaycan... Bütün türk məmləkətləri ilə aramızda könül və fikir birliyi vardır. Türk ocağı dar millətpərvərlik güdməz. Ocaqlı bilir ki, bu müəssisə Şərqdə Qərbin müməssimidir. Mədəniyyət birdir, yalnız şəkli başqadır”.

Əslində Həmdulla bəy təşkilatın milliyyətçiliyini “kültürəl milliyyətçilik” olaraq tanıtmaq istəyirdi. Lakin onun əksinə olan müəyyən qüvvələr isə “Türk Ocaqları”nın “Dış türklər” nəzdində daha “fəal” bir politika izləməsi gərəkliyi” önə sürdülər”.

**1924-cü ildə** 64 nümayəndənin iştirakı ilə keçirilən "Türk Ocaqları"nın ilk konqresində yenə iki məsələ xüsusi olaraq vurğulanırdı: 1) Dil hüdudlarını istilahlara qarşı qorumaq; 2) Türk inqilabının beşikçisi olmaq.

"Türk Ocaqları"nın 1925-ci il qurultayı da ciddi mübahisələrlə keçdi. "Xaricdəki türklər" mövzusu ətrafında ciddi müzakirələr aparıldı. "Türkiyə xaricində yaşayan türklərin "Türk Yurdu" dərgisi vasitəsi ilə aydınladılması və yüksəldilməsi vəzifəsinin üstələnməsi" fikrinə çoxluq üstünlük verdi.

**1927-ci ildə** "Türk Ocaqları"nın qurultayında edilən bir dəyişiklik isə bu qurumun fəaliyyətini məhdudlaşdırırdı. Belə ki, Cumhuriyyət Xalq Partiyası Nizamnaməsinin 40-cı maddəsindəki dəyişikliyə əsasən türk ocaqlarının partiya təsiri altında bir quruluş olduğu vurğulanırdı. Və xüsusi qeyd olunurdu ki, "Türk Ocaqları"nın şöbələri ancaq Türkiyə Cumhuriyyəti dövlətinin sərhədləri daxilində qurulub fəaliyyət göstərməlidir.

**1928-ci ildə** isə Həmdullah Sübhi bəy Ədalət naziri Mahmut Ecat Bozqurdun hüzurunda etdiyi bir çıxışında "Türk Ocaqları" milli hüdudların xaricində heç bir fəaliyyət sahəsi qəbul etməmiş və etməyəcəkdir" fikrini söyləmişdi .

Türkiyədə artıq tək partiya rejiminin güclənməsi bütün sahələrdə hiss olunurdu. Son olaraq isə "Türk Ocaqları"nın 1930-da qurulan sərbəst partiya ilə əlaqələrinin müəyyənləşməsi hər ikisinin bağlanmasına daha bir səbəb oldu.

Beləliklə, azərbaycanlı mühacirlərin də fəaliyyətinə ciddi dəstək verən "Türk Ocaqları" qurumu fəaliyyətini dayandırdı.

**Bu prosesin sonu olaraq azərbaycanlıların Türkiyədəki siyasi fəaliyyəti qapadıldı. Əlavə edək ki, 1931-ci ildə Türkiyə Xarici İşlər Naziri Tövfik Rüştinin və SSRİ Xari-**

**ci İşlər Naziri M.M.Litvinovun ölkəyə müvafiq səfərindən sonra azərbaycanlı mühacirlərin Türkiyədə Sovet İttifaqı əleyhinə təbliğatı dayandırıldı.** Mühacirlərin düşdüyü vəziyyəti Azərbaycanda Kommunist Partiyasının XX Bakı Konfransında partiya katibləri Polonski və Ağa Sultanov çıxışlarında belə bildirirdilər: "Müsavatçılar xarici ölkələrdə bizim əleyhimizə ciddi mübarizə aparırlar, lakin onlara yeni zərbə vurulmuşdur. İstanbulda Məhəmməd Əmin Rəsulzadənin ümumi redaktəsi altında çıxan mətbuat orqanları "Odlu Yurd", "Azəri Türk", "Bildiriş" kimi məcmuələr... bağlanmışdır".

M.Ə.Rəsulzadə isə Türkiyədə fəaliyyətlərinə imkan verilmədiyinə bərk təəssüflənir, Azərbaycan istiqlalçılıq məfkurəsi səsinin boğulmasından narazılıq edir, bildirirdi ki, bu iş qardaş Türkiyənin əli ilə edilmişdir. **M.Ə.Rəsulzadə yazırdı: "Heyif bu dövrə!"** .

Təəssüflər ki, Sovetlər Birliyinin təsiri altında Türkiyə dövlətinin bütün siyasi qafqazlılara münasibəti kəskinləşdi. 1931-ci ildə siyasi baxışlı mühacirlərin, o cümlədən M.Ə.Rəsulzadə və başqalarının, ölkəni məcburən tərk etməsindən sonra növbəti bir addım atıldı. 1938-ci ilin sentyabrın 6-da Türkiyə hökumətinin göstərişi ilə Qafqazdan və Türküstandan olan bəzi tanınmış siyasi mühacirlər də Türkiyə vətəndaşlığından məhrum edilərək ölkədən çıxarıldı. Bununla əlaqədar Parisdə nəşr edilən "Qafqaz" jurnalı yazırdı: "Bu sərt cəzaya heç bir siyasətlə məşğul olmayan adamlar da məruz qaldılar... Dekretdə hansısa törədilmiş konkret bir cinayət haqqında danışılmır, yalnız bir məqam – təbliğat, inqilabi və kəşfiyyat təşkilatlarının "Bizim ölkəmizin başqa bir dost ölkənin əleyhinə yönəldilmiş bazasına çevrilməsi" vurğulanır. Məlum olduğu kimi, belə bir cəhd üçün

ortalıqda heç bir fakt yoxdur... Bizim mübarizəmiz azadlıq uğrunda, Qafqazın müstəqilliyi uğrunda vətənimizi işğal etmiş Sovet dövlətinə qarşı aparılan mübarizədir. Bu, heç kim üçün sirr deyildir. Biz bu mübarizəni açıq aparırıq və bütün ölkələrdə aparırırq və həmin ölkələrin qanunlarından, beynəlxalq öhdəliklərdən kənara çıxmırıq. Türkiyədə baş verən bu hadisənin səbəbini dostlarımızın qeyri-leqal çalışmalarında deyil, ictimai-siyasi şəraitdə axtarmaq lazımdır “.

Məqalədən bir daha aydın olurdu ki, Türkiyə dövləti bu addımı Sovetlər Birliyinin təzyiqi ilə atmışdır.

**Sovetlər Birliyinin Türkiyə ilə yaxınlaşmasını M.Ə.Rəsulzadə belə dəyərləndirirdi:** “Cümhuriyyət Türkiyəsi ilə Sovet Rusiyası siyasətcə dost ola bilərlər; mənfəətləri bir qaldıqca bu dostluq ta varlığını mühafizə edə bilir. Fəqət unutmamalıdır ki, Türkiyə Cümhuriyyəti ilə Sovetlərin siyasi mənfəətləri bir zaman üçün, bir olsa da, bu iki təşəkkülü canlandıran əsl əsaslar arasında dərin bir müxalifət vardır. Milliyyətçiliklə kommunizmin dost bir qüvvət olduğunu kim iddia edə bilər?”.

M.Ə.Rəsulzadə doğru olaraq göstərirdi ki, “Türk-Rus dostluğundan” çox faydalar gözləmək əbəsdir. Çünki bolşevizm burjua sisteminin düşmənidir. Milliyyətçilik isə onun görünüşündə burjua sinfinin məfkurəsidir. Bu mənada M.Ə.Rəsulzadə haqlı sual edirdi: “Nə zamana qədər milliyyətçi şərq kommunist Rusiyanın dostudur?”.

Qeyd edək ki, Türkiyə dövləti getdikcə Rusiya ilə münasibətləri yaxşılaşdırmağa çalışırdı. **Bu mənada Mustafa Kamalın 1922-ci ilin aprelin 10-da Leninə yazdığı məktub da çox maraqlıdır.** Atatürk yazırdı: “Əziz sədr! Rusiya ilə bağlanan xoşbəxt müqavilədən sonra biz Qafqaz respublikaları və

Ukrayna ilə də müqavilə bağladıq. Türkiyə Böyük Millət Məclisi hazırda həmin sənədləri ratifikasiya edir... Rusiya ilə dostluq Böyük Millət Məclisi hökumətinin keçmişdə olduğu kimi hazırda da siyasətinin əsasını təşkil edir" .

Belə vəziyyətdə isə azərbaycanlı mühacirlərin Türkiyədə fəaliyyət göstərməsi ciddi çətinliklər yaratmaya bilməzdi. Bununla əlaqədar M.Ə.Rəsulzadə yazırdı: "1923-cü ildə İstanbulda Azərbaycan haqqında nəşr etdirdiyimiz ilk kitab bolşeviklərin müəyyən reaksiyasına səbəb oldu. Bakıda və Tiflisdəki kommunist qəzetlərində M.D.Hüseynov və Ə.Qarayev və başqaları bizim tezisləri təkzib edib sübut etməyə çalışırdılar ki, "Müsavat" idarəçiliyi dövründə Azərbaycan müstəqil olmayıb və onun müstəqilliyi ancaq sovet rejimində təmin edilib.

Stalinə yaxın olan, Zaqafqaziyanı işğal etmiş XI Ordunun Baş Qərargah üzvü, Rusiya Kommunist Partiyasının Qafqaz Dairə Komitəsinin Baş katibi Orconikidze isə Bakıdakı partiya auditoriyası qarşısında çıxış edərək M.Ə.Rəsulzadənin tezisləri ilə polemika apararaq deyirdi: "Mənim cibimdə M. Ə. Rəsulzadənin bir kitabı var. "Müsavat"ın uzaqgörəni tələb edir ki, rus yoldaşlar Azərbaycanı tərk etsinlər. Yox, onlar buradan getməyəcəklər".

"Yeni Qafqasiya" jurnalının nəşrə başlamasından sonra isə Bakı ilə İstanbul arasında gərginlik daha da artdı. Sovet mətbuatı orqanlarında azərbaycanlı mühacirlərin, əsasən isə M.Ə.Rəsulzadənin əleyhinə yazılar çap edilirdi.

Bolşeviklər isə mühacirlərin əleyhinə olaraq başqa vasitələrdən də istifadə edirdilər. Onlar xüsusi təşkil olunmuş fəhlə "mitinqləri" keçirir və guya sosialist "vətəni"nin kapitalistlər tərəfindən devrilməsindən danışırdılar. Keçirilən qu-

rultay, Ümumbakı konfransları və digər təşkilatların adından SSRİ Xarici İşlər Komissarı Çiçerin Türkiyə hökumətindən öz ərazisində antisovet nəşrləri dayandırmaq və azərbaycanlı mühacirlərə sığınacaq verməmək xahişini edirdi. 1925-ci ildə, AKP-nin Bakıda keçirilən XVI konfransında isə Türkiyə ictimaiyyətinin sovet rejiminə münasibəti və xüsusən "Yeni Qafqasiya"nın xarici təbliğatı tənqid edilirdi. Bəzi çıxışçılar isə tələb edirdi ki, sovet hökuməti Türkiyədən "Yeni Qafqasiya"-nın nəşrinin dayandırılmasına nail olsun.

Bakıda sovetlərin IV qurultayında çıxış edən SSRİ Xarici İşlər Komissarı Çiçerin isə bildirirdi ki, o, dəfələrlə Türkiyə hökumətinin diqqətini azərbaycanlı mühacirlərin "zərərli" fəaliyyətinə yönəldib.

**"Yeni Qafqasya"nın texniki səbəblərə görə 1927-ci ildə fəaliyyətini dayandırması kommunistlərin əsl bayramına çevrilmişdi.** "Kommunist" qəzeti özünün baş məqaləsini bütövlükdə bu hadisəyə həsr etmişdi. Sonradan isə mühacirət mətbuatı orqanlarımız başqa adlarla Türkiyədə nəşrini davam etdirmək məcburiyyətində qaldı: "Azəri Türk", "Odlu Yurd", "Bildiriş". Çox ehtimal ki, bu mətbuat orqanlarının başqa adlarla çıxmasının səbəblərindən biri də diqqəti yayındırmaq, müəyyən müddətə nəşr imkanları əldə etmək idi.

Lakin SSRİ dövləti Türkiyə ilə münasibətini yaxşılaşdırdıqca mühacirlərin siyasi fəaliyyətini dayandırması ciddi qoyulurdu.

Türkiyə dövləti isə yalnız 1931-ci ilə qədər azərbaycanlı mühacirlərin mətbuat orqanları nəşr etməsinə imkan yarada bildi. 1931-ci ildə SSRİ ilə Türkiyə arasında imzalanan müqavilədən sonra bu mümkün olmadı.

**1931-ci ildə avqustun 17-də Atatürkün imzası ilə 11631 saylı belə bir qərarnamə qəbul edildi:** "Əcnəbi politikasına alət olaraq qonşu və dost hökumət əleyhinə nəşr olunan "Yeni Qafqasiya", "Odlu Yurd", "Bildiriş" və "Azəri Türk" qəzet və risalələrinin Mətbuat Qanununun 50-ci maddəsinə uyğun olaraq qapadılmaları; Xariciyə Vəkili Bəyəfəndinin şifahən bükubulan təklifi üzərinə İcra Vəkilləri Heyətinin 17\8\931 tarixli ictimayında təsvib və qəbul olunmuşdur. 17\8\931. Rəisicümhur: Qazi M. Kemal".

Bu qərardan sonra azərbaycanlı mühacirlərin Türkiyədə mətbu fəaliyyətləri qeyri-mümkün oldu. Bundan əlavə Türkiyədə sonradan kitab, almanax və digər nəşrlərə də yasaq qoyuldu. Belə ki, 1936-cı ilin sentyabrın 12-də Atatürkün imzası ilə başqa bir qərar veridi. Həmin qərarda göstərilirdi: "Mehmed Sadıq tərəfindən yazılıb 1935-ci ildə İstanbulda "Milli Məcmuə" mətbəəsində türkcə olaraq basılan "Ərgənəqon yolları" adındakı kitabın zərərli yazılar daşıdığı anlaşıldığından Mətbuat Qanununun 51-ci maddəsi hökmünə görə toplatdırılması və satışının yasaq edilməsi; Daxiliyyə Vəkilliyinin 8\8\1936 tarix və 1413 saylı təzkərəsi ilə yapılan təklifi üzərinə İcra Vəkilləri Heyətincə 18\9\936-da qəbul edilmişdir. 12\9\936. Rəisicümhur: K. Atatürk".

Atatürk tərəfindən 1936-cı ilin sentyabrın 15-də verilən 5322 saylı başqa bir əmrdə göstərilirdi: "Qərarnamə. F. Dəryal tərəfindən yazılan və İstanbulda "Milli Məcmuə Mətbəəsində Türkcə" basılan "Qafqaz almanaxı adındakı kitabın zərərli yazılar daşıdığı anlaşıldığından, Mətbuat Qanununun 51-ci maddəsi hökmünə görə toplatdırılması və satışının yasaq edilməsi; Daxiliyyə Vəkilliyinin 8\9\936 tarix və 1414 saylı təzkərəsiylə yapılan təklifi üzərinə İcra Vəkilləri Heyətincə 15\9\936-da qəbul edilmişdir. 15\9\936. Rəisicümhur: K. Atatürk".

Azərbaycan mühacirlərinin mətbuat orqanlarının Türkiyədə qadağan edilməsi bolşeviklərin böyük razılığına səbəb oldu. 1932-ci ilin yanvarında XX Ümumbakı Partiya konfransında AKP katiblərindən olan Ağa Sultanov çıxışında bu hadisəni xüsusi olaraq qeyd etmişdi.

Türkiyədə azərbaycanlı mühacirlərin nəşrlərinə qoyulan qadağadan sonra mühacirət mətbuatımızın Avropa dövrü başladı. Almaniyada (Berlində) və Polşada (Varşavada) mühacirlərimiz milli nəşriyyatlarını yaradıb fəaliyyətini davam etdirdilər.

Qeyd edək ki, “Azərbaycan” jurnalının nəşri də M.Ə.Rəsulzadənin İkinci Dünya müharibəsindən sonra Türkiyəyə qayıdıb reallaşdırdığı mühüm xidmətlərindən biri idi. **1952-ci il aprelin 1-də o, “Azərbaycan Kültür Dərnəyi”nin orqanı olan “Azərbaycan” jurnalının ilk sayını nəşr etdirdi. Dərginin ilk nüsxəsinin üz qabığında bu sözlər yazılmışdı: “Birlik dirilikdir”, “Türkləşmək, islamlaşmaq, müasirləşmək”. Jurnalın üz səhifəsində Azərbaycanın xəritəsi verilmişdi.** “Azərbaycan” məcmuəsi Anafartalar caddəsində - “Azərbaycan Kültür Dərnəyi”nin yerləşdiyi binada çıxarılırdı. Qiyməti 25 quruş idi.

Jurnalın ilk sayında M.Ə.Rəsulzadənin Azərbaycanın tarixindən, ümumi vəziyyətindən bəhs edən yazısı verilmişdi: “Doğuda Xəzər dənizi, quzey Qafqaziya, Bakıda Gürcüstan ilə Ermənistan və güneydə İran ilə sərhəddir. Başı qarlı dağlarla, bəzi yerlərində okean səthindən aşağıda yerləşən burası türlü bitkilərlə, heyvanlar baxımından çox çeşidli bir mənzərəyə malikdir”.

“Azərbaycan” jurnalı Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, adət və ənənələri ilə bağlı çoxlu sayda yazılar çap edirdi. M.Ə.Rəsulzadənin, M. B.Məmmədzadənin, Ə.V.Yur-

dsevərin, K.Odərin, M.Kəngərlinin, C.Ünalın, Ə. Qaracanın Azərbaycan həqiqətləri ilə bağlı yazıları böyük maraq doğururdu. "Azərbaycan" jurnalı bu günədək Ankarada nəşrini davam etdirməkdədir.

Qeyd edək ki, M.Ə.Rəsulzadə Türkiyəyə qayıtdıqdan sonra əski legionçuların və mühacirlərin bir mərkəz ətrafına toplanmasını vacib sayırdı. **Elə bu məqsədlə də o, 1949-cu ilin fevralın 1-də Ankarada "Azərbaycan Kültür Dərnəyi"ni yaratdı**. Dərnəyin ilk toplantısında doktor İbrahim Bədəl Məhəmməd Əmin Rəsulzadənin yaradılan qurumun Fəxri Başqanı seçildiyini elan etdi. Qeyd edək ki, M. Ə. Rəsulzadə ömrünün sonuna qədər Dərnəyin Fəxri sədri olaraq qaldı.

"Azərbaycan Kültür Dərnəyi"nin əvvəlinci maddələrində qeyd olunmuşdu: "Maddə 1. "Azərbaycan Kültür Dərnəyi" adı ilə bir dərnək qurulmuşdur. Dərnək siyasətlə məşğul deyildir. Mərkəzi Ankaradadır. Şöbəsi yoxdur. Maddə 2. Dərnəyin qayələri bunlardır: a) Azərbaycanı, onun tarixini, kültürünü araşdırmaq, işləmək və yaymaq; b) kitab, dərgi və qəzet olaraq çap etmək və mədəniyyət yığıncaqları tərtib etmək; c) möhtac Azərilərə maddi və mənəvi köməklik göstərmək".

"Azərbaycan Kültür Dərnəyi"nə 18 yaşını bitirmiş hər bir türk üzv ola bilərdi. Bundan ötrü Dərnək üzvlərindən ən azı iki adam ona zəmanət verməli idi. Birinci maddədə yazılmış "Dərnək siyasətlə məşğul deyildir" fikri M. Ə. Rəsulzadənin mürəkkəb bir şəraitdə Azərbaycanın müstəqillik mübarizəsini apardığını təsdiqləyirdi.

İkinci Dünya hərbindən sonra isə mühacir təşkilatların birləşib antisovet mübarizə aparmasına getdikcə daha çox ehti-

yac duyulurdu. Digər tərəfdən müxtəlif ölkələri təmsil edən ayrı-ayrı mühacir təşkilatlarının mövcudluğu və bəzi hallarda bu qrupların daxili çəkişmələrə meylliyi reallığa çevrilirdi. Bu illərdə bir neçə rus, gürcü, erməni, tatar təşkilatları ilə yanaşı iki azərbaycanlı təşkilatı da mövcud idi. Təşkilatlardan biri 1924-cü ildən fəaliyyət göstərən "Azərbaycan Milli Mərkəzi" idi. "Azərbaycan Milli Mərkəzi" İkinci Dünya hərbindən sonra Ankarada yerləşirdi və Milli Mərkəzin Başqanı M.Ə.Rəsulzadə idi.

İkinci mühacir azərbaycanlı təşkilatı "Azərbaycan Milli Birlik Məclisi" adlanırdı. Təşkilat 1943-cü ildə Berlində yaradılmışdı. Təşkilatın rəhbəri Ə.Fətəlibəyli Düdənginski (sonradan rəhbər C. Hacıbəyli olmuşdu), Başqanlıq Heyətinin üzvləri isə Ceyhun Hacıbəyli, Əkbərağa Şeyxülislam idi. Hər iki təşkilat arasında çəkişmələr, ziddiyyətlər mövcud idi.

**Belə bir vaxtda antibolşevik cəbhənin yaradılmasını vacib sayan "Amerikan Komitəsi" fəaliyyətə başladı.** "Amerikan Komitəsi"nə əvvəl C.Layons, sonradan isə Amerikanın Moskvadakı keçmiş böyük elçisi Alan Gerk başçılıq edirdi. 1962-ci ildən isə Sovet Rusiyasını yaxından tanıyan, Moskvada Amerika attaşesi olmuş Stevens Komitənin başqanı oldu. Komitə üzvləri arasında tanınmış siyasətçilər də çoxdu. Onların arasında aşağıdakılar vardı: Çarlz Edison (məşhur Tomas Edisonun oğlu), Vilyam Hanri Çemberlin (Amerikada sovet məhkumu millətlərin istiqlal haqlarının müdafiəsi ilə məşhur idi), general-mayor Con Dein (Moskvada olmuş, "Streync Əlleyinc" kitabı ilə böyük rəğbət qazanmışdı), Nikolas Ruzvelt (yazıçı və diplomat, Amerikanın Macarıstan elçisi olmuşdu).

"Amerikan Komitəsi" bildirirdi ki, millətlər, xalqlar Sovet hökumətinin diktatorluğu altında qaldıqca, insanların azad və hürriyyət içində yaşaması mümkün olmayacaq. "Amerikan Komitəsi" proqramına müvafiq surətdə fəaliyyətə başladı.

"Amerikan Komitəsi"nin yardımı ilə **1951-ci il yanvarın 16-da bir çox rus partiyalarının iştirakı ilə Füssen konfransı** keçirildi. Konfransda mühacir ruslar yalnız Rusiyanın ərazi bütövlüyünün qorunması şərtilə qeyri-rus təşkilatları ilə işbirliyini mümkün saydılar.

Bu işin davamı olaraq yenə "Amerikan Komitəsi"nin yardımı ilə 1951-ci il avqustun 28-də Qərbi Almaniyanın Ştutqart şəhərində mühacir ruslar konfrans keçirdi. Bu konfransda onlar "Rusiya millətlərinin Qurtuluş Şurası" yaradılmasına qərar verdi. Bununla bərabər Rusiyadakı milli azlıqların da nümayəndələrini bu "Şura"ya cəlb etmək məqsədi ilə ayrıca büro da yaradılmışdı.

**Vəziyyət belə olduqda M.Ə.Rəsulzadə "Amerikan Komitəsi"ni ciddi tənqidə başladı.** Qeyri-rus xalqların uzun illər idi ki, apardığı "qurtuluş dava"sına etinasız yanaşan mühacir rus təşkilatlarının maliyyələşməsini düzgün olmayan hərəkət adlandırdı. Vəziyyətin getdikcə gərginləşdiyini, əski mühacirlərin güclü etirazlarını hiss edən "Amerikan Komitəsi" rus mühacir təşkilatlarına qeyri-rus mühacir təşkilatları ilə işbirliyinin vacibliyini bildirdi.

**Bunun davamı olaraq 1951-ci il noyabrın 7-də Qərbi Almaniyanın Visbaden şəhərində** beş mühacir rus təşkilatlarının (1. "Rusiyanın Hürriyyəti üçün Mücadilə Birliyi". 2. "Milli Əmək Birliyi". 3. "Rus Xalq Hərəkatı". 4. "Xalqın Hür-

riyyəti üçün Mücadilə Cəmiyyəti". 5. "Rusiya Xalqlarının Qurtuluşu üçün Mücadilə Birliyi) və beş də rus olmayan millətlərə mənsub təşkilatların nümayəndələrinin iştirakı ilə konfrans keçirildi. Konfransda ukraynalıların və gürcülərin, türküstanlıların, şimali qafqazlıların tanınmış adamları iştirak etmirdi.

Konfransda çıxış edən A.Kerenski "Bölünməz Rusiya" fikrini müdafiə edirdi. Qeyri-rus mühacirlər isə Birləşmiş Millətlər Təşkilatının insan haqlarına aid prinsiplərə əsaslanırdılar. Konfransın yekunu kimi bir bəyannamə imzalandı. Bəyannaməni azərbaycanlı təmsilçilər də imzaladılar.

"Rusiyanın bölünməzliyi" ideyası ilə çıxış edən, Azərbaycanın istiqlalını (eləcə də digər rus məhkumu xalqların) xalqın öz "iç işi" kimi qəbul etməyən, Azərbaycanın azadlıq mübarizəsini (yenə digər xalqların) Rusiyanın daxili məsələsi kimi anlayan rus mühacirləri ilə bəyannaməni imzaladığına görə "Milli Birlik Məclisi" M. Ə. Rəsulzadənin şiddətli hücumuna məruz qaldı. Bir çox şəhərlərdə yığıncaqlar keçirildi, təmsilçilərin hərəkəti pislənildi.

**M.Ə.Rəsulzadə Kerenskinin** hansı ideyalarla mübarizə apardığına bələd olduğundan onun başçılıq etdiyi rus təşkilatı ilə birgə işin əleyhinə idi. Kerenski "Bölünməz Rusiya"nın qəti tərəfdarı idi və hələ 1920-30-cu illərdən bu mübarizəsini davam etdirirdi. 1930-cu ildə Kerenskinin "Dni" ("Gün") qəzetndə (№ 60) "Rus xalqı üzərində diktatura" adlı məqaləsi çap edilmişdi. Və elə həmin ildə M.Ə.Rəsulzadə "Odlu Yurd" dərgisində Kerenskiyə "Nə gübrədir, nə material" adlı cavab məqaləsi nəşr etdi. M.Ə.Rəsulzadə məqalə-məktubda Sovet İttifaqında yaşayan xalqların istiqlalına və azad dövlət qurmaq

istəklərinə istehza ilə yanaşan Kerenskini tənqid etdi. O, Kerenskini xalqların apardığı milli-azadlıq hərəkatının mahiyyətini anlamağa çağıraraq yazırdı: "Biz həmişəlik olaraq cənab Kerenskiyə bildiririk ki, heç bir "separatizm"dən, "Rusiyanın bölünməsi"ndən söhbət gedə bilməz. Bizcə, bu söz tamam başqa anlamda işlədilir: birincisi, öz ölkəsini xarici işğaldan qurtarmağa yönəldən xalq hərəkatını "separatçı" adlandırmaq düzgün deyildir".

Məhz buna görə də "Azərbaycan Milli Birlik Məclisi" təmsilçilərinin belə bir şəxslə, hələ 50-ci illərdə də "bölünməz Rusiya" ideyası ilə yaşayan Kerenski ilə eyni sənədə imza atması haqlı olaraq, M. Ə. Rəsulzadədə ciddi narazılıq doğururdu.

**1951-ci ilin noyabrən 21-də** Ankarada Doktor Həmid Atamanın sədrliyi və mühəndis İsmayıl Sanyalın katibliyində Azərbaycan mühacirlərinin etiraz toplantısı keçirildi. Toplantı iştirakçıları M. Ə. Rəsulzadənin çıxışını dinlədikdən sonra yayımlanmaq şərti ilə aşağıdakı qərarı verdi: "Visbadendə beş rus partiyasının nümayəndələri ilə birlikdə 7 noyabr 1951-ci ildə keçirilən toplantıda Azərbaycan adına iştirak etmək və beynəlmiləl mahiyyətdəki davamızı Rusiyanın bir iç məsələsi halında müzakirə etdirmək cürətini göstərərək Milli Azərbaycan davasına xəyanət edən və Milli davanı mövcud olmayan "Azərbaycan Milli Birlik Məclisi" adına təmsilə qatılmaqla ictimaiyyəti çaşdıranlara şiddətli protesto(etiraz) edir".

Qeyd edək ki,bu illərdə M.Ə.Rəsulzadə çağdaş Azərbaycan ədəbiyyatının problemləri və tanınmış ədəbiyyat xadimlərimizin fəaliyyəti ilə bağlı da dəyərli məqalələr çap etdirdi. Şübhəsiz ki, özünün zəngin və çoxşaxəli fəaliyyətində belə bir ətraflı

araşdırma ilə məşğul olması M.Ə.Rəsulzadənin Azərbaycan ədəbi prosesini diqqətlə izləməsindən irəli gəlirdi.

**M.Ə.Rəsulzadə 1950-ci ildə nəşr etdirdiyi "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində** H.Cavidin, Ə.Cavadın, C.Cabbarlının və başqalarının yazılarındakı sətiraltı mənalarda milli ruha bağlılığın duyulduğunu bildirirdi. Böyük şair Hüseyn Cavidin yazılarında siyasi motivlərin güclü olduğunu vurğulayan M.Ə.Rəsulzadə yazırdı: "Məsələni sonradan başa düşən bolşeviklər pyesin göstərilməsini qadağan edirlər. "Sovet çörəyini yediyi halda tarixin pantürkist tiplərini idealizə etməyə cəsarət edən" şairə sovet tənqidçiləri atəş püskürürdülər".

Bu araşdırmalar sırasında, heç şübhəsiz, M.Ə.Rəsulzadənin Nizaminin 800 illik yubileyi münasibəti ilə yazdığı, lakin müharibənin çətinlikləri ucbatından 1951-ci ildə nəşr etdirdiyi **"Azərbaycan şairi Nizami"** monoqrafiyası da olmuşdur. Müəllif Nizami yaradıcılığındakı milli və bəşəri dəyərləri dərin elmi təhlil əsasında oxucuya çatdıra bilmişdir.

Göründüyü kimi, M.Ə.Rəsulzadə mühacirətdə siyasi fəaliyyət göstərməklə yanaşı, eyni zamanda ədəbiyyatımıza aid də maraqlı tədqiqatlar aparmışdı.

**1953-cü ildə O, Azərbaycan İstiqlalının 35-ci ildönümü münasibəti ilə "Amerikanın səsi" radiosunda Azərbaycan xalqına müraciət etdi və** bu müraciət səsyazma vala alınaraq bu günədək qorunub saxlanılmaqdadır.

27 Aprel işğalı və Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması (12 yanvar) münasibəti ilə də M.Ə.Rəsulzadə və digər mühacirlər "Qurtuluş" ("Azadlıq") radiosu ilə Azərbaycan xalqına müraciətlər edirdilər. 1953-cü ildə M.Ə.Rəsul-

zadə "Azərbaycan Milli Mərkəzi"ni yenidən formalaşdırmış, oraya gənc qüvvələri cəlb etmişdi.

1954-cü ilin sonlarında "Amerikan Kommunizm ilə Mücadilə Komitəsi"nin yeni Başqanı professor Kuneholt Ankaraya gəlib M.Ə.Rəsulzadə ilə görüşmüşdü. O, Komitənin Azərbaycanın istiqlalı məsələsinə diqqətli olduğunu ifadə edərək onun bu mübarizə önündə layiq olduğu yeri almasını istəmişdi. Bu yaxınlaşmanı qəbul edən M.Ə.Rəsulzadə Komitə ilə yaxın münasibətlər yaratmışdı.

**1955-ci il martın 6-da Azərbaycan Milli Qurtuluş hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadə Ankarada vəfat etdi.** Ankara radiosu martın 7-də saat 22.45-də M.Ə.Rəsulzadənin vəfatı xəbərini bütün dünyaya yaydı. O, Ankarada "Əsri" məzarıstanlığında dəfn edildi.

**Milli Azərbaycan nəşriyyatı: sayı-1**

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ
**(Sabiq Azərbaycan Şurayi-Millisi rəisi)**

# AZƏRBAYCAN CÜMHURİYYƏTİ
**Keyfiyyəti-təşəkküli və şimdiki vəziyyəti**

**“Millət yoludur, həqq yoludur tutduğumuz yol,**
**Ey həqq yaşa, ey sevgili millət yaşa, var ol!”**
***Tofiq Fikrət***

**“Ovqafi-İslamiyyə” mətbəəsi, 1339-1341**

# BİR MÜTALİƏ

Əzizim, Əmin arkadaş! “Azərbaycan Cümhuriyyəti” ünvanilə vücuda gətirdiyiniz əsər həqqində fikir və mütaliəmi soruyorsunuz… Cahan hərbinə qədər Azərbaycanın həyati – hərsiyyə və ictimaiyyəsini yaxından – uzaqdan az – çox təqib edə bilmişdim. Fəqət hərb başladıqdan sonra buna layiq vəchlə davam bittəb mümkün olmadı. İki qardaş türk şəhər olan İstanbulla Bakı vəələumum **Azərbaycan** arasında sövqi – hadisat ilə peyda olan qalın siss pərdəsi bir şey görməyə, eşitməyə, duymağa mane oldu. Bu gün pərdə yavaş – yavaş qalxıyor. Siz də bu pərdəni qaldıranlardan biri olursunuz. Həqiqət yekdigərə müariz tərəfləri dinləməklə meydanə çıxarıla bilir. Ötədən bəri hökmləri vermək üçün “Andiatur et alter a ar”, yəni “digər tərəflər də dinlənməli” qaydasına riayəti kəndimə bir vəzifə ittixaz etmiş olduğumdan əsəriniz həqqində ancaq bu nöqteyi – nəzərdən bəyani mütaliə edə bilirəm: **Siz Azərbaycanın ən böhranlı zamanlarında fəal bir mücahid sifətilə çalışdınız,** bir çox mühüm vəqaye və hadisatı rəyüleyn yaxından gördünüz, müxtəlif cərəyanların içində bulundunuz və sərgüzəştlərlə mali bir həyat yaşadınız!.. Və zatən mövcud və müsəlləm olan elm və ürfanınıza əlbəttə, pək çox qiymətdar və mübid müşahidat və məlumat əlavə etdiniz və şübhəsiz, bunları əsərinizdə qeyd və təsbitə çalışdınız. Lakin Siz Azərbaycanda bir tərəfi, bir firqəyi, bir firqəyi – siyasiyyəyi təmsil ediyorsınız. Arzunuza rəğmən nə dərəcə bitərəf qala bilirsiniz, bunu şimdiki halda təyindən acizəm. Məmafuh, şübhə yoxdur ki, əsəriniz bir boşluğu dolduruyor: **Türkiyə** nəşriyyatının ən böyük qü-

surlarından biri – qonşu məmləkətlər, ələlxüsus həmcivar türk ölkələri həqqində sədrə şəfa verəcək kafi məlumatı ehtiva etməməsidir. Bu cəhətlə əsəriniz, hadisatı vəlov vəhidücanib bir zaviyəyi – röyətdən görüyorfərz edilsə belə, mətbuatımıza pək qiymətli bir hədiyyə olacaqdır. Çünki mövzuti, vəziyyəti – iqtisadiyyə və siyasiyyəsi ilə aləmşümul bir əhəmiyyəti haiz olan Bakının, Azərbaycanın və dolayısı ilə bütün türklüyün müqəddəs və müəzzəz istiqlalı, istiqbalı məsələlərinə təmas ediyor. Bir xəlqin, bir millətin asudə və müsəmmər bir həyatə, rifah və səadətə nail ola bilməsi nasıl sünufi – ictimaiyyə beynində iqtisadi bir təsanüd vədalətin vücuduna vabəstə isə öylə də aləmin, bütün bəşəriyyətin sülh və asayiş nemətlərindən mütənəm ola bilməsi beynəlmiləl münasibatda ədalət və insaf məfhumlarının hakim və cari olmasilə qabildir. Beynəlmiləl insaf və ədalətdən doğan sülhi – ümumiyi – aləm isə Azərbaycanın dəxi hürriyyət və istiqlalını istilzam edər. Ancaq bu istiqlalın mücahidləri, nigahbanları qəvi və mütəqəyyiz olmalıdırlar**!.. İzmir İqtisad konqresində** "İqtisadi misaq" proqramında, bir də "Kitab bayramı" ehdasından bəhs olunuyor. **Ümid edirəm ki, "Azərbaycan Cümhuriyyəti" ilk "Kitab bayramı" ziyafətində ən dadlı, ən müğdi qidayi – ruhiyyələrindən biri olur və… Türk istiqlalının mücahidlərini, nigahbanlarını bəslər, təqviyə edər və oyandırar!**

**Hüseynzadə Əli**

## MÜQƏDDƏMƏ

Şübhəsiz ki, Şərq pək dərin bir həyəcan içində bulunuyor. Hərbi – ümuminin sarsıtdığı bu aləm əsrlərdən bəri məluf olduğu ətalətdən silkinərək ciddi bir həyat əsəri göstəriyor.

Bütün dünyayı rəşədar edən bu həmləyi – inqilab bittəb İslam millətlərini dəxi istila etdi. **Milliyyət dövri** – təşəkkülləri-ni adlayan məmləkətlərdə əsamil ictimaiyyəyi təhriklə ictimai inqilab məfkurəsini doğuran bu həmlə, İslam məmləkətlərində digər bir inqilab məfkurəsi doğurdu: hakimiyyəti – milliyyə məfkurəsi.

Anadolu türklüyünü əqilləri şaşırdan tarixi bir möcüzə ehdasına sövq edən məfkurəyi – istiqlal, bütün **Şərq** millətlərinin müqəddəs məfkurəsidir.

Hakimiyyət və istiqlal məfkurəsi ilə aşılanan Şərq hərəkati – milliyyəsi hənuz sərmənzil məqsudinə doğru rəhsüpar oluyor. **Gediləcək daha çox yol var**. Xətər və məşəqqətlərlə dolu olan bu yolu sühulətlə gedə bilmək üçün həmrah bulunan şərqlilər yekdigərini bilmək zərurəti qətiyyəsindədirlər. Aləmi – islam "Fətəarafu" əmri – quranisinə bilxassə bu zamanda riayət etmək zərurətindədir.

Məqami – xilafəti haiz bulunan Türkiyə aləmi – islamın ittihad mərkəzidir. Hakimiyyəti – milliyyə əsasilə qurulan yeni Türkiyə - türk əqvamının ümid nöqtəsidir. Milli məfkurənin şanlı zəfərini təmsil edən böyük Türkiyə Şərq millətlərinin əməl məşəlidir.

Əvət! **Türkiyə ilə Şərq**, İslam və bilxassə Türk aləmi arasında mövcud rabitəyi – hissiyyə isbatə möhtac bir qəziyyə deyildir.

Fəqət bu rabitənin elmi bir təarüf üzərinə müstənəd olduğu məəttəəssüf isbatə pək möhtacdır. Əsri – hazırın vasiteyi – təarüfi, məlum ki, mətbuatdır. Şərq mətbuatına müraciət edərsək, şərqlilər yekdigərinə tanıdacaq mənbəi təarüf kaç kitab buluruz?!..

Halbuki Avropada "Şərqiyyat" bəlli – başlı bir elmdir. Burada həyatını Şərqə həsr etmiş alimlərlə bərabər Şərqə aid nə qədər kitablar, nə qədər məcmuələr bulursunuz! Burada məsaili Şərqiyyə ilə mütəvəğğüli – müəssisat yalnız lisaniyyat, ətiqiyyad, tarix və ədəbiyyat kibi məbahisi – elmiyyə ilə məşğul olmayıb, Şərqdə güzəran edən siyasi, ictimai, iqtisadi vəqaye və cərəyanları dəxi günü – günə təqib və məmləkətlərini daima tənvir edirlər.

Biz şərqlilərin bu babdakı məlumatımız isə qırıq, dönük qəzetə həvadisi ilə mütərcəm məqalələrə inhisar ediyor. Biz biliyoruz ki, Əfqanıstan elani – istiqlal eyləmiş, **Azərbaycan Cümhuriyyəti** təsis etmiş, İran əcnəbi əsgərlərindən təmizlənmiş, İraq, Hicaz[1][1] və Fələstin mandat təhtinə alınmış, Hindistanda bir hərəkəti – milliyyə varmış, Misir dəvayi – istiqlal ediyormuş. İştə bu qədər. Bundan fəzlə məlumat edinmək üçün ciddi bir mərcə və geniş məlumatlı haiz bir mənbə ararsaq, tək bir kitabə dəstrəs olacağımız pək müstəhildir.

Bu hal "Təarüfi" işkal edən ən böyük nöqsanlardandır. Bu nöqsanın bütün Şərq millətlərinə nə dərəcə isnad edildiyini cəsarətlə iddia bilməzsək də, İslam aləminə aid olan qismində israr edə biliyoruz. Bu nöqsan bilxassə aləmi – islamın mərkəzi və türk əqvamının ümidgahı bulunan Türkiyədə pək müəssirdir.

Məsələn, mövzumuz Azərbaycan məsələsini alalım: təmas etdiyimiz əşxasdan bu məsələnin Türkiyə əfkari – ümu-

[1] [] Bu işarədəki rəqəmlər üçün «İzahlar» bölməsinə baxmalı.

miyyəsincə nə dərəcədə möhtaci – tənvir olduğunu öyrəndik. Məsələn, Milli Azərbaycan ilə şimdiki Azərbaycan arasındakı fərqi bir çoxları idrak edəmiyorlar. Azərbaycanın müstəqil ikən get – gedə bütün hüququnun Rusiyaya nədən tərk edildiyini, azərbaycanlıların buna nə üçün razı olduqlarını soranlara rast gəldik. Bolşeviklərin Azərbaycana millət tərəfindən çağırılmış olduqlarına inananlar var. **Bolşeviklərə qarşı çıxarılan üsyanlar nasıl anlaşılmış**, nasıl tələqqi edilmiş?!.. Bu da pək fəci bir hekayə. Bolşevik idarəsində bulunan Azərbaycanı məsud görənlər də yox deyil. Xülasə cəhlidən mütəvəllid bir çox sui – təfəhhümlər, yanlış təsəvvürlər və bundan doğan uğbirar ki, iki qardaş millət arasında arzu olunmayan infial və tapğınlığı mucib oluyor.

Biz kəndi hesabımıza "Milli Azərbaycan nəşriyyatı" ünvani – ümumisi ilə nəşr edəcəyimiz bir silsileyi – rəsail ilə Azərbaycan əhvalına aid mövzuları tənvir etmək surətilə bu babdakı təarüf nöqsanını azaltmaya səy edəcəgiz.

**Azərbaycan Cümhuriyyəti aləmi – islamda təşəkkül edən ilk Cümhuriyyətdir. Bu Cümhuriyyət eyni zamanda bir Türk hökumətidir: təbiri – digərlə kiçik Türkiyədir.**

Kiçik Türkiyə xəlqi ilə böyük Türkiyə xəlqi arasındakı münasibat iki qardaş münasibatı qədər səmimianədir. Bu səmimiyyətin ən canlı dəlili "Sevr müahidəsi"nin hömi – edamı altında müztərr ikən belə Türkiyə əfkari – ümumiyyəsi Azərbaycan istiqlalının etilaf dövlətlər necə təsdiqini kəndi məsərrəti kibi təsid eyləməsi idi. Vətənim, Azərbaycan xəlqi dəxi bolşevik istilası altında inləməkdə ikən Türkiyənin möcizeyi – zəfərini mənimsəməklə sevinmişdir. Keçirdiyimiz bu istihalə günlərində Osmanlı imperatorluğunun ünsüri - əslisini təşkil edən Anadolu

türklügü yeni bir hökuməti – milliyyə təsis ediyor. Bu hökumətin xarici siyasəti Şərqdəki vəzifəsini hüsn – ifa etmək istərsə, qənaəti – acizanəmizcə Azərbaycan Cümhuriyyətinin müqəddəratına laqeyd qalmaması icab edər**. Bu nöqteyi – nəzərdən Azərbaycan məsələsi Türkiyə üçün ciddi düşünüləcək bir məsələdir.**

Bir məsələyi ciddi düşünmək, o məsələyi iyicə tədqiq etmək və öyrənməklə qabil olur. Artıq beynəlmiləl bir şəkli haiz olan Azərbaycan məsələsi eyni zamanda Türkiyə üçün əhəmiyyəti – həyatiyyəyi haiz Qafqasiya məsələsinin də bir cüzidir. Halbuki, bu məsələdə dəxi Türkiyə nöqteyi – nəzərindən möhtaci – tənvir bir çox cəhətlər vardır.

Biz bu xüsusdakı nəşriyyatımıza ibtida "Azərbaycan Cümhuriyyətinin təşəkkülü və şimdiki vəziyyəti"ni izahla başlamayı mürəccəh bulduq. Hərb və ixtilal günlərində cərəyan edən kaç sənəlik vüquat ilə, bu vüquatə təqəddüm edən ədəbi və hərsi hadisələri bir vəchi – ixtisar təlxis etmək surətilə zati – məsələ həqqində ümumi bir fikir vermək cəhətini düşündük. Vəqaye və hadisati nəql edərkən vaqiələrin şəxslərindən ziyadə hadisələrin səbəblərinə əhəmiyyət verdik.

İləridə, tovfiq olursa, davam etdirəcəyimiz nəşriyyatın bir müqəddəməsini təşkil edən **bu risaləmizlə möhtərəm Türkiyə qarelərində Azərbaycan məsələsi üzərində ciddi bir təvəccöhi – nəzər cəlbinə müvəffəq olursaq, vəzifəmizi görmüşədd ediriz.**

Nəticədə, yazılarımızda İstanbul şiveyi - ədəbisindən təbaüd görülürsə, Azəri olduğumuz hesabilə möhtərəm qarelərimizdən qüsurə baxmamalarını rica eyləriz.

# I

# AƏZRBAYCAN XƏLQİ

**Hərbi – ümumidən əvvəlki rəsmi coğrafiyaya görə Azərbaycan, Şimali İranda vaqe Təbriz ilə həvalisinə deyilirdi. Hərbdən və böyük Rusiya ixtilalından sonra dillərdə dolaşan Azərbaycan salifüzzikr Azərbaycanın Şimalında Cənubi – Şərqi Qafqasiya qitəsindən ibarətdir ki, mərkəzi Bakıdır.**

**Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti - əsasiyyə etibarilə şərqlidirlər.**

Kəndi ləhceyi – məxsusəsilə Anadolu türkcəsinə yaxın şivə ilə qonuşan Azərbaycan türkü müxtəlif şivələrə malik və olduğu yerlərə nisbətlə müxtəlif isimlər daşıyan böyük türk ağacının bir dalıdır.

Azəri türklərinin hal – hazırda oturduqları yerlər min illər qədim türk xəlqi ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil və sairə kibi vilayətlər və gərək Muğan, Arran, Qarabağ və Qarabağ kibi məmləkətlər daima türk elinin oturağı və türk xanlarının ovlağı olmuşdur. Bu yerlər kəndilərində bir çox türk sülalələrinin irili – ufaqlı hökumətlər qurduqlarını və yıllarla səltənət sürdüklərini görmüşlərdir.

Atil[2] Quzğun dənizə[3] töküldüyü yerində böyük bir səltənət quran Xəzər türkləri miladi 700 sənələrində Kalmık

---

[2] Volqa nəhrinin tatarca ismi. Bu ismin At ili ismindən müxəffəf olduğu məlhuzdur.

[3] İsmin məbzuliyyətilə məşhur bəhri Xəzərin bir ismi də Quzğun dənizdir.

səhrası və Kumık sahili ilə aşağıya doğru enmiş, Muğan çölünə yayılmışlardır. Daha sonra onları digər türk axınları təqib eyləmiş, böyük Çingiz[2] ilə Teymurun[3] cəngavər köçbələri Kür nəhri boyu ilə Əras nəhri hövzələrini, Ceyhun ilə Seyhunə məmatül bulunduqlarından kəndilərini oturaq etmişlərdir. Səlcuqilər[4] zamanında buralar artıq qəti bir surətdə türk məmləkəti halına qoyulmuşdur. Səlcuqlardan sonra bu ərazi əldən - ələ keçmiş, müxtəlif hökmdar sülalələri idarəsində qalmışdır. Fəqət yekdigərini təqib edən bu sülalələr dəxi əksəriyyən türk olub, böyükləri münqəriz olduqda yerlərini, köçündə olsalar yenə birər türk xanlığına tərk etmişlərdir. Bunlardan Azərbaycan Atabəyləri namilə elani – istiqlal edən Şəmsəddin Eldəgiz[5] sülaləsi 80 sənə hökumət sürmüşdür. Bu vəqiəyi – istiqlal 541 sənəsində Gəncədə elan olunmuşdur. Bundan başqa Qaraqoyunlu[6] və Ağqoyunlu[7] türkmən sülalələri dəxi burada hökumət eyləmişlərdir.

**Bundan yüz sənə müqəddəm Rusiya çarizmi tərəfindən istiqlal və mövcudiyyətlərinə xatimə verilən Dərbənd, Quba, Lənkəran, Şəki, Şirvan, Bakı, Qarabağ, Gəncə, İrəvan və Naxçıvan xanları dəxi azərbaycanlı türk hökmdarları idilər.**

Türklərin buradakı hökmranlıqları Hindistan, Ərəbistan, İran və Misirdə olduğu kibi başqa cinsdən bir xəlqə əsgəri bir sinif olaraq hökumət sürməkdən ibarət olmamışdır. Osmanlılardan başqa əksər türk köçbələri hökumət etdikləri xəlqə qəməssül etmişkən, Azərbaycan türkləri – kütlə etibarilə milliyyətin rükni – mühümmünü təşkil edən lisanlarını halilə ibqa etmişlərdir.

1808 sənəsi ilə 1828 sənələri arasında, başda qəhrəmani – milli Cavad xanın[4] dastanı bir müdafiəsi olmaq üzrə, müxtəlif səhifələrə girən mücadilə və müharibəsi nəticəsində Azərbaycan xanlıqları kəndi mənliklərini həqqilə dərk etmədən, kəndisini idrak etmiş bir sima göstərmədən, təmamilə İran hərs və nüfuzi – mənəvisi altında ikən – mövqelərini müasir bir ordu ilə gələn rusun qüvvət bazusuna tərk və qəzayə təslim oluyorlarsa da, xəlq kəndinə məxsus ədəbiyyatı, şairləri, aşıq və dərvişləri ilə hüzn və məsərrətini kəndi lisanı ilə tərənnüm ediyor və kəndi idrakı ilə bir vücud olduğunu sezdiriyordu.

**Əvət! Rəhləsi üstündən enməyən Füzulisi, Koroğlu ilə bağrı yanıq Kərəmə ağlayan aşiqləri, bu aşiqlərin ürək dağlayan sazları ilə çobanların ruhə sinən türküləri, cocuqların sevə - sevə oxuduqları mahniləri, anaların yavrularını uydururkən çağırdıqları ninniləri – xəvvasının düşüncəsilə - kəndisini İranlı bilən bu xəlqin müdhiş bir zəlalətdə olduğunu göstəriyor: “Xayır, degil, sən türksən!” – deyordu.**

---

[4] Cavad xan[8] Gəncəyi knyaz Sisyanova qarşı müdafiə edən qəhrəmandır. Bu qəhrəman kəndisinə dəfələrlə təkrar olunan təslim təklifini kəmali – cəsarətlə rədd edərək son nəfəsinə qədər müdafiə eyləmiş və qələ topu üzərinə oturduğu halda parça – parça edilincəyə qədər düşmənlə vuruşmuşdur.

# I

# ƏDƏBİ VƏ MİLLİ İNTİBAH

**Bu türklər Azərbaycanı ikiyə bölən Ərəs nəhrinin iki tərəfində sakin olub** və qismən İrana şu və ya bu surətlə bağlı nim müstəqil bir halda yaşadıqları zaman məhkum bir millət deyil, hakim olaraq yaşayorlardı. Çünki, əsrlərdən bəri İranın hakim sinfini türklər təşkil ediyordu.

Azərbaycan xəlqi idarəcə gördüyü ağırlığı başqalarından deyil, öz cinsindən gördüyü üçün həqiqi məhkumiyyətini, mənəviyyatca başqa bir hərsin məhkumu olduğunu dərk etmiyordu. O, get – gedə farslaşıyordu. Xəvvas təhsilini farsca görüyor, fars tərbiyəsi alıyor, fars kibi düşünüyor və kəndisinin doğrudan – doğruya iranlı olduğuna qane oluyordu. Xəlqin həll və əqdini əlində bulunduran bu xəvvas kibi mənəviyyatına hakim olan üləma sinfi dəxi eyni ruhda, eyni tərbiyədə və eyni zehniyyətdə idi.

Fars ədəbiyyatına Nizamilər[9], Xəqanilər[10], Məhsətilər[11] kibi ustadlar bəxş edən bu torpaqda yetişən Azərbaycan xəvvası pək təbii idi ki, bir zaman Süleyman Qanuninin[12] belə az qala qəbul elədiyi Sədi[13] lisanı qarşısında əriyib kəndiliyindən keçmiş, türk ilə türkcəyə xor baxmışlardı.

İranın o parlaq və cəhanbəha ədəbiyyatı və o ədəbiyyat sayəsində tərbiyə bulan qüvvətli mənəviyyatı qarşısında təslim olub da təməssül edən türk xəvvasının bittəb əvam üzərinə də böyük təsiri olacaqdı. Həm olmuşdu. Türkcə, əvam və köylü lisanı ədd olunmuş, lisani – rəsmi və ədəbi olmaq üzrə farsi

təmim eyləmiş, nəticədə tühəf bir millət vücudə gəlmişdi: dili başqa, yazısı başqa bir millət!

**Mavərayi – Aras Azərbaycanının halı bu haldır. Orada hər kəs türkcə söylər, fəqət iş yazıya gəlincə farsi kəsilir.**



***Bakıda 400 sənəlik qədim bir tarixin yadigarı bulunan Xan sarayından bir mədxəl. Bu saray, sənətkar bir rus memarının ifadəsincə "təhəccür etmiş musiqi"dir. Xan sarayı, estetik gözəlliyindən başqa, texnik etibariylə də təmayüz edər. Bir kaç zəlzələ keçirmiş olan bu bina kirəcsiz və çimentosuz yapılmışdır.***

Xəvvas düşdüyü bu yanlış girəvənin çıxılmaz bir yol olduğunu sezmədiyi halda əvam, pək və laqeyd deyildir. Xəlq qeyri – təbii olan bu halə ünsüri bir müqbilə yapıyordu. Türk xəlqi xəvvasdan heç bir kimsənin əhəmiyyət vermədiyi bu halə kəndi milliyyətindən isqat edilməsinə qarşı qiyam etmişdir. Bu qiyamın qəhrəmanları xəlq hissiyyati – şairanəsindən mülhəm və bu hissiyyatə tərcüman olan aşiqlər idi. Laədri müəlliflərin yaratdıqları “Koroğlu” və “Əsli və Kərəm”, “Aşıq Qərib” və sair bu kibi dastanlar, ürək yaxan aşıq sazlarının ruhnəvaz ahəngləri altında Azərbaycan türk kütləsinin qəlbinə öylə siniyor, öylə yerləşiyordu ki, onunla degil farsın “Nuş afərin”i, “Fərhad və Şirin”i, hətta Firdovsi[14] ilə Hafizi[15] belə rəqabət edəmməzdi. O, öz Firdovsisini, öz Hafizini, öz Sədisini kəndindən doğma türk şairini və ruhundan xəbər verən Azərbaycan müğənnisini arayırdı.

Bərəkət versin ki, xəvvasının həpsi kəndisindən üz döndərməmişdi. İştə bu, doğduqları mühitə daha ziyadə mərbut qalan Azərbaycan şairləri, xəlqin zövqünü tətmin üçün türkcə şeirlər yazmağa başladılar. Xəlq ədəbiyyatı yanında bir də yazı ədəbiyyatı vücudə gəldi.

Bu xüsusda yalnız Azərbaycanın deyil, bütün türklüyün dahi şairlərindən, azərbaycanlılarca Əbu – şüəra günyəsini daşıyan Füzuli mərhumun dərin bir nüfuzu, böyük bir mürşüdlüyü vardır.

**Füzuli Azərbaycanda hər yerdən ziyadə mərufdur.** Azərbaycanın ən çox oxuduğu və ən çox sevdiyi şair Füzulidir[16]. Azərbaycan şeiri son zamanlara qədər adətən Füzuliyi tənzirdən ibarət idi. Füzuli Divanı hər yerdən ziyadə Təbrizdə basılmışdır. Hafiz Divanı farslar üçün nə isə, Azərbaycan türkləri üçün də Füzuli Divanı odur.

*"Ol səbəbdən farsi ləfzilə çoxdur nəzmi kim,*
*Nəzmi nazik türk ləfzilə ikən düşvar olur.*
*Bəndə tovfiq olsa bu düşvari asan eylərəm,*
*Növbahar olğac dikəndən bərgi – gül izhar olur"* –

deyə türkcə yazmağa başlayan Füzuli, zamanında təsəvvür olunan "düşvarı" həqiqətən asan eyləmişdir. Füzuliyə böylə bir əzm təlqin edən zamanı, eyni zamanda, müasiri bulunan İran şahını belə türkcə şeirlər yazmağa sövq eyləmişdir[5]. Bu böyük şair və dahinin müvəffəqiyyəti ilə türkcə şeir yazmaq "sühuləti" kəşf edildikdən sonra Füzulini tənzir və təqlid edənlər çoxaldı. Azərbaycan türk ədəbiyyatı müstəqil bir cərəyan aldı.

Bu ədəbiyyatın hankı xüsusiyyət və müvəffəqiyyətlərlə irəlilədiyini və nə kibi əsərlər vücudə gətirdiyini göstərmək kəndi başına müstəqil bir mövzu təşkil edir. Burada isə biz yalnız bu qədərini söyləmək istəriz ki, Azəri ədəbiyyatının təkamüli – təbəqi Füzulinin həyati - ədəbisinə bənzər. Füzuli ilk öncə farsicə yazmış, sonra türkcəyə başlamış, türkcə yazarkən də ibtida Azərbaycan şivəsi ilə yazmış, Bağdadın Osmanlılara keçidindən sonra Füzuli lisanı getdikcə Osmanlılaşmış, Şərq şivəsindən təbaüdlə Qərb şivəsinə yaxınlaşmışdır.

Azərbaycan ədəbiyyatı da böylədir: azərbaycanlılar ibtida farsicə yazmışlar, sonra sırf Azərbaycan şiveyi – məhəlliyyəsi ilə yazan Füzuli məşrəb şairləri ilə qocaman bir dövr dəvam eyləmişdir. **Bu dövrdə əvvəl Qövsi**[18]**, Nəbati**[19]**, sonra Vaqif**[20]**, Seyid Əzim**[21]**, Ləli**[22]**, Raci**[23] **kibi şairlər yetişmişdir.** Nəhayət, üçüncü dövr gəlmiş: Qərb həyat və əfkarının təsirinə girən Azərbaycan ədəbiyyatı Osmanlı türk ədəbiyyatından mül-

[5] Səfəvilərdən Şah İsmayıl[17] türkcə şeirlər yazar və Xətai nam müstəarilə imza edərdi. Xətai Divanı mərufdur.

həm, müasir ədəbi türkcə ilə yazmaya başlamışdır. Bir tərəfdən rus ədəbiyyatı, digər tərəfdən də Osmanlı ədəbiyyatı təsirində bulunan bu dövrün şairləri – **Əbdülsəlimzadə Məhəmməd Hadi**[24], **Sabir**[25], **Hüseyn Cavid**[26], **Əhməd Cavad**[27], **Səhhət**[28], **Müznib**[29] **və sairləridir.**

Şimali Azərbaycan, Rus təhti – idarəsinə keçdikdən sonra siyasi hüququnu kamilən itirmiş, məhkumiyyətin acısını təmamilə dadmışdı. Əvvəlki zamanda o, gördüyü hərs məhkumiyyətini müştərək bir din və müştərək mədəniyyət təsiri ilə sezmiyordu. Çünki, o zaman milliyyətini - sözün bu günkü mənasilə - daha müdrik deyildi. Getdikcə farslaşan Azərbaycan türkü bu dəfə ruslaşdırmaq siyasətinə məruz qalıyordu. Təbii idi ki, bu hal xəlqin həssas əsəblərinə toxunuyor, müdafiəyi – nəfs hisslərini dərindən qıcıqlıyordu. Bunun üçün də xəlq kəndisini düşünməyə məcbur idi.

**Çarizm Azərbaycanı ruslaşdırmaq üçün iki cəbhədən gəliyordu**. Bir tərəfdən xəlqin hissiyyəti – diniyyəsini idarə edən üləma və mollaları kəndi kontroluna tabe tutur, digər tərəfdən də milli tərbiyəyə meydan verməyərək, xəlqi rus məktəblərində (uşkol) oxumağa icbar ediyordu. Birinci məqsədin təmini üçün şiə və sünnilərə məxsus olmaq üzrə ayrı –ayrı iki idarəyi – ruhaniyyə təsis eyləmiş, bütün molla və əfəndiləri bu idarə vasitəsilə kəndisinə tabe birər məmur kibi qullanmışdı. İkinci məqsədi təmin üçün də müəyyən ruslaşdırma proqramilə uşkollar (məktəblər) təsis edilmişdi.

Xəlqdə nə bu məmurluğu qəbul edən mollalara etimad, nə də məzkur uşkollardan çıxan bəyzadələrə etibar vardı. Hökumət tərəfindən təyin olunan mollalara "dəftər mollası"[6] , rus

[6] Hökumət tərəfindən təyin olunan imamlara (mollalar) vəqaye – ərbəə dənilən nigah, təlaq, təvəllüdat və vəfiyyat vaqiələrini qeydə təsbit etmək üzrə hökumət tərəfindən divani dəftərlər verilmişdi.

uşkolunda oxuyan gənclərə də "rus balası" deyən xəlq kəndi hissi – fitrisilə sezdiyi ruslaşdırma siyasətinə bildiyi kibi müqabilə etmişdir. O, dəftər mollasına öz "axund"unu, hökumət uşkolunda kəndi "məktəbxanə"sini qarşı qoymuşdu.

Hər nə qədər xəlqin möhkəm tutduğu "axund" ilə "məktəbxanə" tamamilə kəndisinin deyil, İran nüfuzunun müəssələri olsa da, ruhuna yabançı bulunan rusluğa qarşı bu müəssələr daha milli, daha doğma idi. Buna görə də o, "axund"un hürriyyəti və "məktəbxanı"nin istiqlalı üçün yapdığı mübarizədə pək həqli və bu mübarizə dəxi pək məqul idi. Çünki o, siyasətən məğlub olmuşsa da, mənən bərbad olmaq istəmirdi.

Fəqət xəvvas yenə yanılmışdı. Vaxtilə Firdovsinin romantizmi, Sədinin dərin hikməti, Hafizin dadlı qəzəlləri qarşısında bayılan "mirzə" bu dəfə də Lermontovun[30] dağlarda uçan ruhu, Puşkinin[31] su kibi axan nitqi, Tolstoyun[32] məsihanə fəlsəfəsinə vurulmuş bir "uçitel" idi[7]. Sənələr keçdi, bir tərəfdə "mirzə", digər tərəfdə "uçitel" durdu. Bunlar bir çox zaman anlaşmadılar. **Farslaşmış mirzə kibi ruslaşmış "uçitel" dəxi xəlqin hədsən duyduğu mətləbi bir çox zaman dərk edəmmədi.** Nəhayət, bir çox kəcvaclardan keçildi. Məktəb və mədrəsələrə qarşı üsulsuz mübarizələrdən sonra "uçitel" məqsədi anladı, bildi ki, Sədini də, Tolstoyu da türk xəlqinə öyrətmək, türkü onlarla aşna etmək həm lüzumlu, həm faydalıdır. Fəqət bununla bərabər türkü kəndi Sədisindən, kəndi Tolstoyundan məhrum etmək olmaz. Sədini, Tolstoyu və sair dünya məşahiri - ədibini anlamaq üçün kəndi Füzulilərini, Nəbatilərini – nə qədər kiçik də görünsələr Seyidlərini, Sabirlərini, Cavidlərini, Cavadlarını öyrənməlidirlər. Bu zəmində rus məktəbi vasitəsilə

[7] Farsidəki "mirzə" istilah olaraq "müəllim" mənasına gəldiyi kibi, rusca "uçitel" dəxi eyni mənanı ifadə edir.

mədəniyyəti – hazirəyi az – çox dərk etmiş ürəfa ilə xəlq arasında yekdigərini anlamaq dövrü başladı.

Bundan 50-60 sənə əvvəl müasir Azərbaycan ədəbiyyatının binası quruldu. Şərq mədəniyyəti ilə mükəmməl surətdə mücəhhəz və rusca vasitəsilə də Qərb mədəniyyətinin əsasatı ilə aşna bulunan **Mirzə Fətəli Axundzadə**[33] **ilə başlayan teatro ədəbiyyatı, Nəcəf bəy Vəzirov**[34], **Əbdülrəhim Haqverdiyev**[35], **Sultan Məcid Qənizadə**[36], **Nəriman Nərimanov**[37], **Cəlil Məmmədquluzadə**[38] **kibi mühərrirlər tərəfindən tənzir və idamə edildi**. Mirzə Fətəlinin komediyaları türk aləmində yazılmış ilk komediyalardır. Münəqqidlərcə "Şərq Molyeri" ləqəbini qazanan Mirzə Fətəlinin məcmuəye – asari ruscaya, almancaya, ingiliscəyə, qismən də fransızcaya tərcümə edilmişdir.

Teatrodan bəhs edincə Azərbaycan musiqisindən bəhs etməmək qabil deyildir. Teatro sənəti Azərbaycanda olduğu kibi İslam aləminin heç bir tərəfində irəliləməmişdir. Burada türkcə opera, operetta təsis edilmişdir. İlk Azərbaycan bəstəkarı **Üzeyir bəy**[39] **tərəfindən** kaffətəsi Füzulinin olmaq üzrə "Leyli – Məcnun" operası bəstələnmiş, bundan başqa "Əsli və Kərəm", "Aşıq Qərib", "Şah Abbas və Xurşudbanu" kibi digər operalarla "Arşın mal alan" kibi operettalar dəxi bütün Qafqasiyada, İranda, qismən də Türkiyədə məşhurdur. "Arşın mal alan" operettası İstanbul səhnələrində amaturlar tərəfindən göstərildiyi kibi, ermənicə, gürcücə və ruscaya dəxi tərcümə edilmiş və teatro mövsümlərində dəfələrlə təkrar olunmuşdur.

Teatro yazılarını mütəaqib qəzetə təsisinə başlanmış, **1875 sənəsində mərhum Məlikzadə Həsən bəy Zərdabi**[40] **tərəfindən "Əkinçi"**[41] **qəzetəsi** təsis olunmuş, bundan sonra **Ünsizadələr**[42] tərəfindən təsis olunan "Ziyayi – Qafqas"[43] ilə "Kəşkül"[44] qəzetələri çıxmışdır. Birincisi 1877 sənəsi rus

– türk müharibəsi zamanındakı nəşriyyatından dolayı hökumət tərəfindən qapadılmış, ikincilər də bir kaç nüsxə çıxdıqdan sonra kəndiliklərindən təvəqqüfə uğramışlardır (1880 və 1891).

1905 tarixinə qədər Azərbaycan ədəbiyyat və mətbuatı müntəzəmən təsis və tərəqqi edəməmişdir. Yalnız 1903 və 1904 sənələrində Tiflisdə intişar edən **"Şərqi – Rus"**[45] **qəzetəsi** bu uzun sükut dövrünü bitirmişdir. **Şahtaxtincki Məhəmməd ağa**[46] tərəfindən təsis olunan bu qəzetə bir sənə davam etdikdən sonra Bakıya nəql eyləmiş və burada qapanmışdır. Fəqət Rusiya inqilabi – sağirini təşkil edən 1905 sənəsi, Rusiya türkləri üçün milli inkişaf dövrünün ibtidasını təşkil eyləmişdir. Müəssisati – ictimaiyyə ilə hürriyyəti – mətbuat nöqteyi – nəzərindən bir parça müsaidat ilə nəticəpəzir olan bu inqilabdan bilistifadə bütün Rusiya türklərində olduğu kibi Azərbaycan türklərində də sürətli bir hərəkəti – milliyyə başladı. Bu hərəkət bir tərəfdən milli mətbuat təsisi, digər tərəfdən də milli məktəb və ümuri – diniyyənin millətin kəndisi tərəfindən müntəxəb əşxas və müəssisat vasitəsilə idarə edilməsi dəvasından ibarət idi.

Bakı bu hərəkəti–milliyyənin mərkəzi idi. 1914 sənəsi hərbi – ümumisinin ibtidasında Bakıda türkcə iki yovmi qəzetə **("İqbal"**[47] **və "Sədayi-həqq"**[48]**)** nəşr olunurdu. Müsəlmanların hüquqlarını müdafiə məqsədilə bir də rusca **"Kaspi"**[49] **qəzetəsi** çıxıyordu. Bundan başqa bir kaç ədəd də türk mətbəəsi mövcud bulunuyordu. Bu qəzetələr 1905 sənəsində möhtərəm **Ağaoğlu Əhmədə**[50] **bəylə Hüseynzadə Əli**[51] **bəy tərəfindən təsis olunan "Həyat"**[52] **və "İrşad"**[53] qəzetələrinin başladıqları mücadiləyi– milliyəyi dəvam etdiriyorlardı. Hərbi–ümumi əsnasında təsis edilən **"Açıq söz"**[8][54]

[8] Açıq söz"ün müəssis və mühərriri bu risalənin müəllifidir.

qəzetəsi dəxi bu dəvayı müdafiə ediyordu. "Açıq söz" ilk dəfə olaraq o vəqtə qədər "Qafqasiya müsəlmanı və yaxud tatarı" deyilən xəlqin türk olduğunu sərahət və israrla meydana qoymuş və bu xüsusda hərb sansoru ilə mübarizə etmək zərurətində qalmışdı. Mətbuati – yovmiyədən başqa bir kaç həftəlik ədəbi, siyasi və məzah qəzetələri dəxi nəşr olunurdu və bunlar miyanında **"Molla Nəsrəddin"**[55] məcmuəsi Azərbaycan məzahının xəlq etdiyi bir şah əsərdir. Ədəbi məcmuələrdən ən mümtazı möhtərəm Hüseynzadə Əli bəyin təhti müdriyyətində çıxan **"Füyuzat"**[56] məcmuəsi idi. "Füyuzat" məcmuəsi Azərbaycan üdəbasını Osmanlı ədəbiyyatını təqlidə sövq edən ən böyük amillərdən birisi olmuşdur.

Bakı mətbuati – milliyəyə mərkəz olduğu kibi, o zaman cəmiyyəti – xeyriyyə surətilə təşəkkül edə bilən milli müəssisələrə



***Bakı civarında kain "Bibi-Heybət" ziyarətgahı. Fəsli məxsusumuzda Azərbaycan ədəbiyatındakı mövqeyi məxsusu zikr olunan möhtərəm Hüseyinzadə Əli bəyin yağlı boya ilə tərsim etdikləri tablodan kopya edilmişdir***

dəxi mərkəz olmuş idi. Bakı müsəlman cəmiyyəti – xeyriyyəsinin[57] hərbi – ümumi əsnasında Türkiyə cəbhəsindən təhcir edilən əlviyəyi – sülsə müsəlmanlarına təşkil eylədiyi yardım bütün Rusiya müsəlmanlığını təhyic eylədi. Məzkur cəmiyyətin türk üsərai – hərbinə göstərdiyi müavinət dəxi ayrıca şayani – qeyd və tezkardır.

Bu cəmiyyətə məxsus olaraq Bakı tüccarlarından **Musa Nağıyev**[58] tərəfindən yağılan bina ki, 1918-də bolşeviklərlə ermənilər tərəfindən yaxılmışdır, bəlkə də aləmi – islamda böylə bir məqsədlə yapılmış binaların əzəmət etibarilə birincisidir. Bunun yanında duran digər bir bina dəxi Şərqkari tərzi – memarisilə nəzər – diqqəti cəlb ediyor. Bu, Azərbaycan türkləri arasında baqiati – salehatilə məşhur **Hacı Zeynalabdin**[59] əfəndi həzrətlərinin ilk dəfə olaraq təsis eylədiyi müsəlman darülmüəllimatıdır. Milli əbniyələrdən biri də "Səadət"[60] cəmiyyətinin məktəbi olmaq üzrə yapdırdığı möhtəşəm binadır.

Bu müəssisələrdən başqa Bakıda nəşri – məarif məqsədilə "Nicat"[61], "Nəşri – məarif"[62] və "Səfa"[63] cəmiyyətləri dəxi təsis etmişdir.

Azərbaycan həyati – milliyyəsində təsirati – mühümməsi bulunan ikinci mərkəz Gəncədir. Gəncədə təsis edilən "Mədrəseyi – ruhaniyyə"[64] vəqtilə milliyyətpərvərlik ruhunun təqviyə edilən ən mühüm mərkəzi idi. Buradan Azərbaycan bir çox müəllimlər, mühərrirlər və şairlər qazanmışdır. Məzkur məktəbin əhəmiyyətini dərk edən çarizm burasını çabuq qapamaqla "təhlükə"nin önünə keçmək istəmişdir. Nasıl ki, Bakıdakı nəşri – məarif darülmüəllimini ilə "Səadət"məktəblərini[65] dəxi eyni cəzaya uğratmışdı.

* * *

Təlxis etdiyimiz bu ədəbi intibah Azərbaycanın iqtisadi və ictimai inkişafı ilə məşrut idi. Azərbaycan xanlıqlar şəklində Rusiya idarəsinə keçdiyi zaman iqtisadca daha münkəşif deyildi. Hər xanlıq kəndi yağında qovrulur qapalı bir istehsali – məhəlli idi. Bir məhəll ilə digər məhəll arasındakı münasibat pək məhdud idi. Hər xanlıq qürun vüstai feodal bir həyat keçiriyordu. Şəhərlər kiçik qəsəbə halında, sənaye əl işindən, ticarət bəsit bir mübadilədən ibarət idi.

O zamankı ictimai həyat, o zamankı siyasi duyğular bittəb, bu şəraiti – maddiyyə ilə məşrut idi. Ədəbiyyat dəxi böylə xan məhfillərinə məxsus kiçik bir “saray ədəbiyyatı” halında idi. Bu ədəbiyyat məhəlli zövq və qərəzlər təsirində məhdud bir şey idi. Bir məhfili - ədəbi ilə digər məhfili - ədəbinin münasibatı adətən bir şəhər ilə digər şəhər arasında cərəyan ediyordu. Bu cərəyan çox da sıxı səmimi olammazdı. Hətta müxasim bulunduqları belə vaqe olurdu. Ədəbi məhfillər arasındakı xüsumət əsrimizin də bildiyi bir həqiqətdir. Fəqət bu müxasimət məhəll etibarilə deyil, zümrə, sinif və ya təbəqə etibarilədir.

**Qafqasiyaya enən Rusiya** Böyük Pyotrun islahatı ilə qüvvət bulmuş bir Rusiya idi. Əsri – üsulları tətbiq etməklə bu inkişafa mail bir dövlət idi. Əsrin hər böyük dövləti kibi bu da imperialism idealını təqib ediyordu. Bu istiqamətdəki meyl və inkişafı ilə o, Cənubə doğru yayılıyordu və yolu üstündə İslam dövlətlərini görüyordu. Qafqasiya onun üçün bilxassə nühüm idi. Qafqasiya yollarını yapmaq, mənabeyi – sərvətini işlətmək, bəhri – Xəzərdə seyri – səfayin vücudə gətirmək planları iqtizasından idi. Bu planların qüvvədən feilə gəlməsi, bilaxərə, Batum ilə Bakını, Rusiyanın mühüm mərkəzlərinə rəbt edən

dəmir yollarının inşaası ilə tətvic edildi. Nəticədə Qafqasiyanın mühiti – coğrafiyası dəyişdi. Daima rəqib və müxasim şəklində yaşayan zəif xanlıqlar yerində bir idarəyə tabe iqtisadi bir küll vücudə gəldi. Bundan gələn faidənin qism mühümünü əvvəla Rusiyaya, sonra yerli xristianlara inhisar etmək Rusiya politikasının icabından idi. Məmafih Qafqasiyanın Azərbaycan qismi dəxi istər – istəməz bundan müstəfid oldu. Azərbaycan şəhərləri böyüdü. Aralarında münasibət və mübadilə artdı. Xanlıqlar zamanındakı xüsusiyyətlər rəf oldu. Məmləkət iqtisad və ticarətcə inkişf etdi. Təkamül yoluna girdi. Bu təkamül fəal bir dövr vücuda gətirərək məsaiyi – mucib oldu. Təqsimi – məsai sayəsində də ictimai yeni zümrələr təşəkkül ediyordu.

**Rusiya nə Avropa kibi Avropa, nə də Şərq kibi Şərq idi.** Böyük Pyotr "Tənzimat"ından sonra rus idarəsi feodalizm baqiatilə burjua əsaslarını tühəf bir surətdə məzc etmişdi. Bunun üçün də o, digər Avropa məmləkətlərinə nisbətlə qayət bəti addımlarla tərəqqi ediyordu. Məmafih son rüb əsrdə Rusiya kapitalizmi iyicə irəlilədi. Nəticədə xatiri sayılır bir demokrası təşəkkül etdi. Rusiya kapitalizminin inkişafında Bakının rolu mühüm idi. Bakı əksər Rusiya sənayesinin və bütün dəmir yolunun (petrol sayəsində) mühərriki olduğu kibi, kəndisi də qayət mühüm ticarət və sənaye mərkəzi halına gəldi. Bu xüsusda o, petrolundan başqa coğrafi vəziyyətinə dəxi mədyundu. Burası Rusiya ilə İranı, İran ilə Türkistanı, Rusiya ilə Qafqasiyanı ticarətlə bağlayan yeganə bir liman idi. Bakının bu mövqeyi şimdiki cəmiyyətlərdə mühüm olan demokrasinin təşəkkülü ilə də artdı. Burada digər ünsürlərlə bərabər türk sünufi – ictimaiyyəsi dəxi vücudə gəlmiş, türk demokratiyası təsis etmişdir.

Əvət, xanlıqlar ilğa edilmiş, yerində sövq – tarix ilə vahid bir türklük vücudə gəlmişdir. Ayrılığın timsalı bulunan xanlıq-

ların ilğası ilə qəsəbələr birər şəhrə inqilab eyləmiş milli vəhdəti mucib olan demokrasi doğmuşdu. Bu demokrasinin təbəqatı içində fünuni - əsriyyə ilə mücəhhəz mütəxəssislər, münəvvərlər, ərbabi – sənaye, ticarət əhli, əmələ qismi yetişiyordu. Bu sünuf ibtidada rus idarəsinə, rus hərsinə pək də müxalif deyildi. Biləks hər şeydə Rusiyaya təqlid etmək bu sinif pişrovlarının sifəti – fariqəsini təşkil ediyordu. Bunun üçün onlara “rusməab” dinilirdi. Rus məabların müqabilində isə **“İranməablar”** duruyordu. İranməablar rus idarəsinin təsirilə mövqelərini yeni qüvvətlərə tərk etmək istəməyən əski əski təbəqati – ictimaiyyənin məfkurəçiləri idi. Birincilər yeni təşəkkül edən cəmiyyətin **hürrəndişləri (liberal),** ikincilər isə **mühafizəkar (konservator)ları** idi. Hürrəndişlərlə mühafizəkarların mübarizəsi sənələrcə davam etdi. “Uçitel” ilə “mirzə” müxasim bulunarkən mühafizəkarlar hürrəndişləri təkfir ediyorlardı. Biləxərə bu hal təbəddül etdi. Hürrəndişlər zümrəsi qəvanini – ictimaiyyənin sövqi ilə kəndisini hüquqən və iqtisadən təzyiq edən rusluğa qarşı livai – üsyan açmaq məcburiyyətində qaldı. Doğrudur ki, şəhərlər böyüyür, burada demokrasi təşəkkül ediyordu, fəqət bununla bərabər şəhərlər ruslaşdırılıyor, mühacirət siyasəti yerlilərə, yerli müstəhsillərə meydani – inkişaf vermiyordu. Buna qarşı türk münəvvəri, türk tüccarı, ələlümum türk müstəhsili mübarizə edəcəkdi. Bu ağır vəzifədə o, yalnız mübarizə edəməzdi: xəlq kütləsini də bu cidalə sövq etməlidi. Bunun üçün ona təsir etmək, ona ona xitab eyləmək lazımdı. İştə bu lüzum hiss edildiyi anda münəvvərandan bir qisminin xəlqə doğru gedişi başlanmışdır. Münəvvəranın bu təşəbbüsü tüccardan bir qisminin məzahirət və müavinətilə qüvvət bulmuşdur. Bu xüsusda mətbuati – mövqutə təsisinin pək mühüm rolu olmuşdur.

Mətbuatın təsisi ilə Qafqasiyada siyasi, ictimai və milli bir fikir təşəkkül ediyordu. Əfkari – ümumiyyə vücud buluyordu. Həyati – milliyyə üçün pək mühüm olan bir taqım məsələlər müzakirə olunuyordu. Qəzetələrin bu günkü milliyyətlər təşəkkülündə oynadıqları rol məlumdur. Bu rolunu onlar Rusiya türklüyü üçün dəxi ifa ediyorlardı. Onlar xəlqdə həm milli duyğuları oyandırıyor, həm də məqasidi – milliyyədən olan məsələləri tənvir ediyorlardı. Türkcə mətbuatın tərvic elədiyi məsələləri təhlil edərsək, aşağıdakı məvaddi təlxis edə biliriz:

1. **Üsuli – cədidə** məsələsi məktəblərdə türkcənin üsuli – sövti ilə tədrisi və mədrəsə proqramına fününi – cədidənin idxalı.
2. **Milli məktəblər** güşad və təsisi. Əvvəlcə mövcud məhəllə, köy və came məktəblərindəki farsi yerinə türkcə oxutmaq və əsri üsullarla yeni məktəblər güşad etmək.
3. **Hökumət məktəblərində** türkcənin tədrisini tələb etmək.
4. **İdareyi – ruhaniyyələrlə** övqafi – islamiyyə idarəsinin əhaliyi – islamiyyə tərəfindən müntəxəb üləma və məmurin tərəfindən idarəsi fikrini tərvic eyləmək[9].

9 Rusiya müsəlmanlarının həyati – milliyyəsində bu məsələ bilxassə mühüm bir mövqe ehraz eyləmişdir. Azərbaycan türklərində isə bu məsələ yalnız "idareyi – ruhaniyyə"nin intixab üsulilə təsisini tələb etməklə qalmayıb, eyni zamanda ittihadi – islam fikrinin tərvicinə dəxi vasitə olmayıb, eyni zamanda ittihadi – islam fikrinin tərvicinə dəxi vasitə olmuşdur. Azərbaycan türkləri rus hökuməti tərəfindən şiə və sünni namları ilə iki müstəqil müəssə şəklində təsis olunan idarələrin "İslam idareyi – ruhaniyyəsi" namilə tovfidini dəxi tələb ediyorlardı. Bu tələb 1905-ci ildə Mavərayi – Qafqas əhaliyyi – islamiyyəsi namina valiyi – ümumiyyə verilən istidadə yer bulunduğu kibi, şiə və sünni ixtilaflarının izaləsi çarələrinə həsr olunan islam konrelərinin mürərrəatında dəxi təsbit edilmişdir. Şayani – qeyddir ki, şiə və sünni ixtilafları hər yerdən əvvəl Azərbaycan türkləri arasında qalxmışdır ki, vəhdəti – milliyyəsini dərk edən bir cəmiyyət üçün bu qayət mətlub idi.

5. **Müsəlmanlar** üçün də sair millətlərdə olduğu kibi nəşri – maarif və ümumi – xeyriyyə ilə mütəvəqqül cəmiyyətlər təşkili.
6. **Bələdiyyə və Duma**[66] (Rusiya Məclisi – Məbusanı) intixabatında müsəlmanlar həqqində rəva görülən təqyidati – qanuniyyəyə qarşı mücadilə. Bakı, Gəncə və ələlümum Qafqasiya bələdiyyələrində müsəlman əzai – məclisin nisfindən fəzləsini təşkil edəmməzdi.
7. **Vətəndaşlıq** və əhliyyət həqqinin hər cəhətcə müsəlmanlara təşmili ilə hüquqi – siyasiyyə və mülkiyyədə digər vətəndaşlarla musavi tutulmaq.

1905 sənəsi inqilabından sonra çoxalan mətbuat bu kibi mətalibin tərvici ilə qüvvətli bir cərəyan yaratmışdı. Bu mətalib yalnız qəzetə sütunlarında qalmayıb, qismən həyata tətbiq edilmiş, qismən dəxi müxtəlif zamanlarda hökumətə verilən istidalara və ictimailər tərəfindən çıxarılan qərarlara material təşkil eyləmişdir. Bu məqsidin tərvici üçün əlləni və xəfi olmaq üzrə müxtəlif komitələr, cəmiyyətlər və firqələr təşəkkül eyləmişdir. Bəzən qüvvətli, bəzən zəif bir biniyəyə malik olan bu siyasi üzviyyətlərin başlıca tələbini çarizm üsul – idarəsinin dəyişməsi təşkil etmişdir. Bu cəmiyyətlərdən əksəri bir çox zaman çarizm əleyhində olan ixtilal firqələri ilə təmasda və bəzən də ittifaqda bulunmuşlardır.

**1905 inqilabı,** inqilabçıların arzusu vəchlə inkişaf edəmiyob irticanın qələbəsi ilə hərəkati – inqilabiyə tovqifə uğradı. Bunun üzərinə şiddətli bir irtica başladı. Bu münasibətlə icra olunan təqibat nəticəsində digər rus firəqi – siyasiyyəsi kibi müsəlmanların daha rüşeymə halında bulunan cəmiyyətləri dəxi pərakəndə bir halə gəldi. Rusiya cəmiyyətində şoven bir siyasət cərəyanı başladı. Bu cərəyan Balkan müharibəsi əsnasında şiddətli bir surət aldı. Rus şovinizmi doğrudan – doğruya

türk aləminə tovcih olunmuşdu. Rus üdəbasından məruf birisi Balkanlara gedən Səlibi - əhmər heyətini təşyi üçün yazdığı məqalədə “Bir islav, bir xristian varkən, türk yaralısına baxmayınız”- deyordu. Bu şovinizm eyni zamanda qeyri – rus olan millətlərdəki cərəyanı – milliyi təğdiyə ediyordu. Bilxassə türk milliyyətpərvərliyi qabarıyordu. Rus darülfünunda oxuyan **Azərbaycan tələbələrinin Kiyevdə toplanan** ictimai kəşf və əzası tovqif edilmişdi. “Hilali - əhmər”[67] faidəsinə yapılan propağna bu zamankı hissiyyatın tərvici ən münasib bir vasitə oluyordu. Bakı qadınlarından küpələrini verənlər olmuşdu. Gənc müəllimlər və tələbələr dərslərini ataraq türk ordusuna könüllü gediyorlardı. Bu zamanda əksəri 1905 sənəsindəki inqilab cəmiyyətlərində təcrübə görmüş gənclərdən mütəşəkkil xəfi bir cəmiyyəti – siyasiyyə vücudə gəliyordu. Bu cəmiyyət Rusiyada yaşayan türkləri hər cəhətcə ruslar ilə musəvi bir hüquqa malik görmək istəyir, eyni zamanda bütün türk və islam aləminin hürriyyətini dəxi əməli – ittixaz ediyordu. Cəmiyyətin məfkurəsi millətlər arasında tam bir musavati – hüquq təsəvvürü idi. **Bunun üçün də “Musavat”**[68] **namını almışdı.**

Məzkur cəmiyyətin o zaman nə kibi bir ruhla mütəhəssis olduğunu iraə etmək üçün vəqtilə “Səbilülrəşad”[69] qəzetəsinə(jurnalına-red) dərc olunan bəyannaməsindən bir qismini buraya nəql ediyoruz: “…Biliniz və agah olunuz ki, bizim yeganə çareyi – nicatımız Türkiyənin istiqlalı və onun tərəqqisidir. Əgər biz şimdi də əvvəlki hissizliyimizdən vaz keçməzsək, bu üzdən dünyanın gözü önündə həqq, insaniyyət və milliyyətimizi qaib edib əğyarə əcir, tabe və adətən əsirlikdə qalacağımıza şübhə edliməsin…”

“Cəmi aləm biliyor ki, bu müharibəyi xilafəti – islamiyyəyə malik olan Türkiyəyə açan Balkanın kiçik və ufaq hökumətləri deyildir. Zira, şir nə qədər zəif olsa da çaqqallar və tülkülər ona yaxın gəlməyə cürət edəmməzlər. Bu işləri işləyən insa-

niyyət və islamiyyət düşməni və "Jandarmi – aləm" ləqəbi ilə müləqqəb olan Şimal ayısı Rusiya hökuməti – müstəbidəsidir ki, hər gün nə qədər ləvazimi – səhiyyə, ətibba, ianələr və könüllü adı ilə bölük – bölük nizamilər (yəni əsgərlər) göndəriyor.

"Şu saətdə bolqar, serb və qaradağlıların nizami səflərində hədsiz – hesabsız rus zabitləri və topçuları mübarizə etməkdədir. Osmanlıların məğlubiyyəti həqqində çəkilən teleqraflar həp məculdur. Bu surətlə onlar bir tərəfdən Rusiyadan hərbə gedənlərə cürət verməк, digər tərəfdən də müsəlmanları qorxutmaq istiyorlar. Aləmi – islamın başına gələn bəlaların əksərinə bəlkə də həpsinə işbu… və… hökuməti – müstəbidə səbəb olmuşdur. Digər məmləkətlərdəki islam qardaşlarımız can və mal ilə müavinətdə bulunduqları halda biz Rusiya müsəlmanları nədən bir cəmad kibi donmuşuz!".

"Əlbəttə, müsəlman olan kimsələr,hissi – milliyyəti olan şəxslər, beyzeyi – islami din və millətini bu qədər düçari – səfalət və giriftari – zillət görüncə qeyrəti – milliyyə və həmiyyəti – diniyyəsi həyəcanə gəlib Qurani - əzimi əşşanın dini – Əhmədi və livan – Məhəmmədinin istiqamət  və istidaməti yolunda varid olan "İnnəllahə əstərа minə-l- mümininə ən füsəhüm və əmvalihim bi ənnə ləhümü-l- cənnətə yüqatilunə fi səbilillahi və yaqtulunə və yuqtəlunə vadən aleyhi haqqan fi Təvrati və-l-İncili və-l-Qurani və mən əvfə bi ahdihi minallahi fəstəbşiru bi beyikümülləzi bayatüm fihi və zalikə hüvəl fəvzül aziim."[10] ayəyi – vafi hidayəsi müfadınca can və mallarını dəriğ  etməzlər. Edənlər xaini – millət və düşməni – din və biqeyrətdirlər"[11].

---

[10] Qurani- Kərim, surə: 9, ayə-111(tövbə surəsi) "Allah şübhəsiz, Allah yolunda savaşıb öldürən və öldürülən mömünlərin canlarını və mallarını Tövrat, İncil və Quranda söz verilmiş bir haqq olaraq cənnətə qarşılıq satın almışdır. Verdiyi sözü allahdan daha çox tutan kim vardır? Öyləysə, yapdığınız alış- verişə sevinin;bu ən böyük başarıdır"(bax: "Quran-i Kərim və türkcə anlamı", Ankara,1980.- Red).

[11] "Səbilürrəşad".ədəd 38-220,səh:226,sənə: 1328.

## III

## HƏRBİ – ÜMUMİ VƏ İXTİLALİ KƏBİR

Hakimiyyəti – milliyyə dəvasının 1905 sənəsi Rusiya inqilabi – səğiri nəticəsində milli məktəb, milli mətbuat və milli cəmiyyətlər təsisinə aid cüzi müsaidələr kibi qazandığı məhsullar vardı.

Doğrudur ki, bu məhsullar kəmiyyət etibarilə çox məhdud, keyfiyyət etibarilə də pək yeni idi. Məmafih bu müsaidələrdən istifadə edən Qafqasiya türklüyü böyük müharibə ərəfəsində və ixtilali – kəbirin partladığı zamanda pək də hazırlıqsız deyildi. Gərçi vəzaif və məqasidi – milliyyənin əzəmət və müşkilatı ilə mütənasib bir təşkilata daha malik deyilsə də, artıq siyasi idrakdan məhrum, arzuli – millisi təzzüv etməmiş şəkilsiz bir kütlə halında dəxi deyildi. Həyatını ibraz edəcək vasitələrə malik, diri və yaşamaq istədiyini hiss etdirəcək ziruh bir vücud halında idi.

On sənəlik kiçicik bir fasilə, **Azərbaycan türklüyünü** mütəəddid mətbuata, müxtəlif müəssələrə, siyasi məhfillərə, xəfi cəmiyyətlərə, zamandan, məkandan anlar münəvvərlərə malik idrak və şüur sahibi bir cəmiyyət halına qoymuşdu.

Bu cəmiyyət, **1914 sənəsində** partlayan aləmşümul müharibənin alt – üst elədiyi məfhum və qiymətləri həssaslıqla təqib ediyor. Topların gurultusu ilə bərabər qopan "Millətlərin həqqi müqəddəsdir!" iddiasını dörd qulaqla dinləyordu. O, müharib bulunan bütün düvəli – müəzzəmə ricalı ağzından sıx – sıx eşidilən bu şüarın səmimiyyətinə deyilsə də, bu böyük həqiqətin

istər – istəməz müzəffər olacağına iman ediyordu. Hərbi ümumi əsnasında, daha Rusiya inqilabı zühur etmədən, müharibənin qatı sansoru hər yazılanı bilaaman silməkdə, bilxassə türk kəlməsi ilə türkçülük məsləkinə qarşı xüsmanə bir əlaqə göstərdiyi zamanda "Açıq söz" qəzetəsi yuxarıda imanə tərcüman olaraq yazıyordu: "Hər hankı qalib tərəf az – çox sürunclu bir dinclik vücudə gətirmək istərsə, əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvəti – millət məfkurəsini ehmal edəmməz. Bunun böylə olacağı ara – sıra gələcək sülhü həqqində söz söyləyən Avropa mütəfəkkirlər necə də təsdiq olunmaqdadır. Sülhiyyunə mənsub siyasilərcə milliyyət əsasına rəayət etməyəcək, millətlərin hüququnu gözlətmiyəcək bir sülh müahidənamsəi çox çəkməz yırtılır və sürunclu bir dinclik təmin edəmməz!"

"Hüquqi təbiyyəsi paymal olmuş bir millət baqi qalıncaya qədər Avropa müvazinəyi – düvəliyyəsi həqiqi və sürunclu bir sülh üzü görməkdən məhrum qalacağı kibi kəndi vətəndaşları arasında onu doğmalıq gözədən bir dövlət də həqiqi bir qüvvətə söykənməyəcək (istinad etməyəcək), mütərəqqi və qüvvətli bir təşkilatə malik olmuyacaqdır".

"Demək ki, müəyyən bir məfkurəyə və əksər əfradınca müşəxxəs bir qayəyi – amala malik olan millətlər, dövlətlər arasındakı münasibətdə əhəmiyyət qazandıqları kibi, dövlətlərin daxili siyasətləri üzərinə də böyük təsirlər icra edəcəklərdir. Bu surətdə ayrı – ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl kəndilərini bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək böyük bir məfkurəyə, qayeyi – xəyalə hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar. Çünki, müttəhid bir ruh və müştərək bir qayəyə malik olmuyan millətlərlə yeni əsaslar üzərinə qurulacaq həyat hesablaşmıyacaq və

böylə bir silahdan məhrum qalan cəmaətlər kimsəyə söz eşitdirmiyəcəklərdir!"

Böyük müharibənin Qafqasiya türklüyündə doğruduğu ümid böylə idi. Milliyyət prinsipinin qalib gələcəyinə bağlanmış bir ümid!

**Rusiya imperatorluğunun** 1917 sənəsində Karpat dağlarında, Lehistan vadilərində və Baltik sahillərindəki o görünməz məğlubiyyəti dünyanı sarmış atəşin hərb silsiləsinin mühüm həlqələrindən birisini qırmış oldu. Rusiyanı pəncəyi - əsarətində qəhr edən çarizm dəxi bu həlqə ilə bərabər durulmuşdu. Böyük müharibə, böyük bir inqilab doğurmuşdu.

**Müxtəlif millətlərdən yoğrulmuş 180 milyonluq əzim bir kütləni idarə edən, dünyanın ən böyük imperatorluğunda zühura gələn bu ixtilali – kəbir iki dürlü nəticə verəcək, iki mühüm məsələni həll edəcəkdi. Yoxsa kəndi ruhu və kəndi təbiəti ilə təzad təşkil edib kəndisi ilə bərabər Rusiyanı da qəhr edəcəkdi.**

**1917 inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə də muxtariyyət verəcəkdi.**

İnqilabın ilk günləri məclisi – müəssisan intizarı ilə keçiyordu. Məclisi – müəssisan bir an əvvəl toplanacaq, köylülərə torpaq, əmələlərə iş, millətlərə də muxtariyyət təmin edəcəkdi. İştə arzuyi – ümumi!

Məclisi – müəssisandan kim nə bəkləyor? İctimalar, qurultaylar, qərarlar, muhtıralar həp bunu təyin etməkdə…

Qafqasiya daxil olduğu halda bütün Rusiya türkləri dəxi bu xüsusi ehmal etməyorlardı. **Bakıda nisanın 15-də ilk dəfə olaraq "qurultay" namilə Qafqasiya müsəlman konqresi toplanıyor**. Qurultay hər şeydən əvvəl və hər məsələdən daha

qızğın bir surətdə azad Rusiyanın alacağı mətlub şəkili – idarəni müzakirə etdikdən sonra aşağıdakı qərarı çıxarıyordu:

**“A** – Qafqasiya müsəlman qurultayı milli –siyasi məqsədə aid məsələni müzakirə edərək, müsəlman qövmlərinin mənafeyini ən ziyadə təmin edən Rusiya şəkli – idarəsini məhəlli federasion əsası üzərinə qurulu cümhuriyyət müctəmeyi – inam olduğunu qəbulə qərar verir”.

**“B** – İslam dinində olan bütün qövmlərin ruhani və mədəni irtibatını nəzərə alaraq, Qafqasiya müsəlman qurultayı bütün Rusiya müsəlmanları üçün vəzi – qəvanin səlahiyyətinə malik ümumi bir idarə təşkilini lazım görür”.

Bu qərar günlərcə dəvam edən münaqişat nəticəsində bir növ etilaf mühəssiləsi olaraq müttəhidən qəbul edilmişdi. Münaqişə bir tərəfdən türkçülər, digər tərəfdən də islamçılarla sosialistlər arasında idi. Federasion əsasını müdafiə edənlər türkçülər idi ki, bunlar xüsusi olaraq Azərbaycan üçün dəxi məhəlli muxtariyyət tələb ediyorlardı. Müarizlər isə yalnız dəxi xəlq cümhuriyyəti ilə iktifa edib milliyyət məsələsinin həllini məhəlli deyil, mədəni muxtariyyət şəklində təsəvvür ediyorlardı. Nisani – mütəaqib mayis ayında Moskvada bütün Rusiya müsəlmanlarının ümumi qurultayı iniqad eyləmişdi. Rusiya türklüyünün bütün əqvamını təmsil edən min mürəxxəsli bu böyük qurultayda şiddətli mübahisə və münaqişələrdən sonra Rusiyanın milli və məhəlli muxtariyyətlər üzərinə qurulu müttəhid xəlq cümhuriyyətindən ibarət olması tələb olunmuşdu[12]. Bu tələb Rusiya müsəlmanlarının böyük inqilabdan bəklədikləri siyasi əməli təmamilə əyan eyləmişdi.

---

[12] Bu tələb müəllifin şəkli – idarə haqqındə irad etdiyi müqabil məruzə üzərinə vaqe münaqişə və müdafiələr nəticəsində təklif və konqrenin əksəriyyət qatiesincə qəbul və təsbit edilmişdir.

Nəhayət, Məclisi – müəssisan intixabatı əsasında Mavərayi – Qafqas müsəlmanları arasında qate bir əksəriyyət ehraz edən "Müsavat firqəsi və milli komitələr" listəsi[13] Rusiya federsionu ilə bərabər **Azərbaycan muxtariyyəti** dəxi bir şüar olaraq ortaya atmışdı.

Bakı əhalisinin böyük bir təvəccöhi altında iniqad edən TürkƏdəmi – Mərkəziyyət – "Müsavat" Firqəsinin[14] eyni aylarda iniqad edən ilk konqresi Rusiya türklüyünün Rusiya şəkli – idarəsi həqqində bəslədiyi əməli aydınlaşdıraraq, Azərbaycan, Türküstan, Qırğızıstan və Başqırdıstan kibi xalis türk məmləkətləri üçün məhəlli muxtariyyət Volqa nəhri boyu ilə Kırım tatarları və Rusiyada yaşayan digər türk qövmlərinə də məhəlli mümkün olmadığı təqdirdə milli muxtariyyət tələb ediyordu.

İştə "Açıq söz"ün 1915-ci ildə hərbi – ümumidən bəklədiyi hakimiyyəti – milliyyə şüarının qələbəsindən umduğu ümidi 1917-ci ildə Rusiya inqilabından bilistifadə iltifagahından çıxan "Müsavat" firqəsi yuxarıdakı vəchlə təyin ediyordu.

Bu surətlə Azərbaycan türkü cahan müharibəsi ilə Rusiya inqilabından kəndi hürriyyət və hakimiyyəti – milliyyəsinin təmini təyid edər nəticə bəkləyordu.

* * *

[13] Rusiyada mütənasib üsuli – intixab sistemi ilə tətbiq olunan intixablar müntəxibin listləri üzərinə icra olunuyordu.

[14] "Müsavat" Firqəsinin Balkan hərbi əsasında Bakıda təşəkkül etdiyi yuxarıda qeyd edildi. 1917-ci sənədə Rusiya inqilabı zühur etdikdə Gəncədə "Türk Ədəmi – Mərkəziyyət Firqəsi" təsis edildi. Bu iki təşkilat Qafqasiya qurultayındakı bəyanat və müdafiələri ilə xəlqçi, türkçü olduqlarını mütəqabilən kəşf etməklə ittihad edərək, salibüzzikr ünvanı aldılar.



***Bakıda Məclis-i Məbusan Dairəsi***

İnqilab, imperatorluğu içindən təzyiq edən iki mühüm qüvvənin daşmasından zühur etmişdi. Bir tərəfdən məhrum siniflər, digər tərəfdən də məhkum millətlər həqlərini istəyorlardı. Köylü torpaq, əmələ iş, velikorus olmayan millətlər dəxi muxtariyyət idarə tələbində idilər.

İnqilab bunların həpsinə hesab vermək məcburiyyətində idi. Fəqət bununla bərabər o, bir də bunların fövqündə digər bir məsələ ilə dəxi üz – üzə gəlmişdi. Ortada həll olunacaq bir hərb məsələsi vardı. Çar hökumətinə təvarüs edən hökuməti – müvəqqətə, bilxassə **Kerenski hökuməti**[70], inqilabi, bir dəfə başlanmış hərbi müvəffəqiyyətlə bitirmək üçün bir vəsilə olaraq qollandı. Xətərnak bir təcrübə yapıldı. İnqilab ordusu Almaniyaya qarşı təcavüzə keçdi.

Bu surətlə bütün ciddiyyət və həmasətini "Zəfəri – nihai"yə həsr edən inqilab hökuməti bittəb digər əsaslı məsələlərin

həllini bir zaman axirə təliq etdi. Əfkari – ümumiyyə inqilabın meydanə atdığı "İlhaqsız və təzminatsız sülh, millətlərə təyini – müqəddərat həqqi!" şüarı ilə bərabər torpaq və əmələ məsələlərinin bir an əvvəl qüvvədən feilə gətirilməsini tələb ediyordu. Halbuki hökumət hər şeyi Məclisi – Müəssanə təviq ediyordu.

Bu təviq bir tərəfdən bolşevizmi, digər tərəfdən də milli cərəyanları təğdiyə ediyordu. Bilxassə Kerenskinin Finlənd seymi , Ukrayna radasına qarşı aldığı tovri – təhdid, müsəlman milli alaylar təşkilinə aid müxalifət və Almaniya üzərinə icra etdiyi müvəffəqiyyətsiz təcavüzartıq bolşevizmin zühuruna meydan vermişdi.

Petroqrad mühüm günlər keçiriyordu. Vilayətlər qeyri – qabil təsəvvür bir böhran içində bulunuyordu. Bir tərəfdən əmələ, köylü və əsgər şuraları, digər tərəfdən də milli şuralar təsis ediyordu. Milyonlarca ordu cəbhəni tərk ilə kimsəyə sormadan qeyri – müntəzəm bir surətdə ricət ediyordu. Nəhayət, təşrini - əvvəl ayı gəldi. Böyük Rusiya Məclisi – Müəssisanı toplanmaqda ikən hökuməti – mərkəziyyə Kerenskidən bolşeviklərə keçdi. Məclisi – Müəssisan həman ilk cələsəsində Lenin hökuməti tərəfindən qovuldu.

Bolşeviklərin hökuməti cəbrən əldə etmələri üzərinə Rusiyanın hər tərəfində bir anarşi başladı. Ordu "Evə, evə" – deyərək, cəbhəni tərk etdi. Müsəlləh olaraq köyünə dönən köylü, əsil zadəganə məxsus kaşanələri yağmayə və çiftəlikləri talanə başladı. Bütün Rusiya müdhiş bir atəşi – ixtilal ilə ülviləndi. Velikorusdan qeyri olan vilayətlər anarşi içində bulunan mərkəzdən qorunmaq üçün kəndilərini bilzat idarə etmək səddinə gəldilər. **Ukrayna, Lehistan, Baltik cümhuriyyətləri və Finlandiya Rusiyadan ayrılmış oldu.** Kazanda, Ufada,

Orenburqda təşəkkül edən milli tatar və Başqırd alaylarına istinadən təşkilati – milliyyə vücudə gəldi.

Petroqradda bulunan bolşevik hökuməti isə heç durmadan dekretlər (qanunlar) çıxarıyordu. Bu dekretləri ilə o, böyük imperatorluğun başlamış olan inqirazını təsri ediyordu. Bu qanunlara görə, köylü mülkədar ərazisini, əmlakını cəbrən zəbt etməyə və istədiyi kibi qullanmaya səlahiyyət peyda ediyordu. Millətlər dəxi istərlərsə, Rusiyadan belə ayrıla bilirlərdi.

* * *

**Bu əsnada Qafqasiyanın vəziyyəti nə idi?**

Volqaboyundakı türklər xidməti - əsgəriyyədə bulunduqlarından rus ordusunun inhilalı zamanında milli alaylar təşkil eyləmiş, müsəlman şurayi - əsgəriyyəsini vücudə gətirmiş və bu sayədə inqilabın ilk günlərində mühüm bir qüvvət təşkil etdikləri halda Qafqasiya müsəlmanlarının halı pək müşkül idi. Qafqasiya cəbhəsindəki rus ordusu dəxi inhilal ediyordu. Kəmali – sürətlə geriyə dönən ordu yollarda təsadüf edən əhaliyi – islamiyyəyə olmaz təhqir və təcavüzatı icra ediyordu. Türkiyə hüduduna yaxın yerlərdə müfsidlər tərəfindən işaə olunan bədxəhanə xəbərlər üzərinə disiplindən çıxmış saldatlar (rus əsgərləri) yerli türklərini qətlamələrlə təhdid ediyordu. “Linc” edilən müsəlmanlar vəqaye ruzmərrə sırasına keçmişdir. Bu hal o dərəcədə şiddəti – peyda etmişdi ki, Petroqradda bulunan tatar şurayi - əsgəriyyəsi millətdaşlarının himayəsi üçün Qafqasiyaya bir heyət məxsusə ezam etmək məcburiyyətində qalmışdı.

Tiflisdə Mavərayi – Qafqas Komitəsi nam bir heyət icrai – hökm ediyordu ki, bu komitə Rusiya hökuməti – müvəqqətisinin naibiədd olunuyordu. Petroqradda çarın mövqeyi duma

əzasından təşəkkül edən hökuməti – müvəqqətiyə keçdiyi kibi, burada da valiyi – ümumi məqamı, yenə eyni duma əzasından mütəşəkkil bu komitəyə keçmişdi. Biləxərə mərkəzi hökumət Kerenskiyə keçdiyi kibi, Mavərayi – Qafqas İdarəsi də türk, gürcü və erməni siyasi təşkilatlarının iştirakı ilə təşəkkül edən Mavərayi – Qafqas komissarlığına intiqal etdi.

Bolşevik ixtilalı zühur etdikdə Rusiya Məclisi – Müəssisanına intixab olunan əza daha Qafqasiyada bulunurdu. Bunlar Tiflisdə əqd – ictimai edərək, "**Mavərayi – Qafqas Seymi"**[71] **namilə bir məclis vücudə gətirdilər.** Bu məclis türk, erməni və gürcü mürəxxəsləri ilə bir miqdar ruslardan ibarət idi. Mavərayi – Qafqas Seymi həm Rusiyadan baqi qalan Türkiyə - Qafqas cəbhəsinə aid xüsusatı bitirəcək, həm də Mavərayi – Qafqas məmləkətinin hökumət və idarəsini dəruhdə edəcəkdir.

O zaman Bakı əhvalı başqa bir məcrada davam ediyordu. Burası bir sənaye mərkəzi olduğundan əmələ sinfi çox bulunan bir şəhər idi.Əhalisinin üçdə birini əmələ təşkil ediyordu. Bu əmələ əksəriyyən xaricdən gələnlərdəndir. Rusiyadan gələnləri bilxassə bolşevik fikirləri ilə məşbu idilər. Bunlara İran cəbhəsindən dönən rus əsgərləri dəxi əlavə olunuyordu. Bakı limanındakı əsgəri və ticari bəhriyyə taifəsi dəxi ki, əksərisi rusdurlar – ayrıca bir ünsüri – ixtilal idi. Bu kibi ənasirə istinad edən bolşeviklər burada qüvvətli bir "Sovet" təşkil etmişlərdi.

**Mavərayi – Qafqsiyanın hər tərəfi Tiflisdə təşəkkül edən "Seym" hökumətini qəbul etmişkən, Bakı Soveti bunu qəbul etmiyordu. O, Petroqrad hökumətini tanıyordu.**

Eyni zamanda Bakıdakı yeni intixab olunmuş bir bələdiyyə vardı. Bələdiyyə məclisi "Sovet"in əleyhində "Seym"in lehində idi. Bu cəhətlə də şəhər iki qismə ayrılmışdı. Əmələ qismi

"Sovet"i, digər qismi də bələdiyyəni tanıyordu. Yekdigərindən mütəvəhhiş bulunan iki qüvvət istər – istəməz təsadüm edəcəkdi. Fəqət bu zamanın hülulunu nə bu, nə digər tərəf daha təsri etmək istəmiyorlardı. Bir növlə idareyi – məsləhət olunuyordu.

"Seym" ilə "Sovet"dən başqa Qafqasiyada milli şuralar vardı: erməni, gürcü və türk milli şuraları. Bu müəssisələrin sifəti – rəsmiləri siyasəti – ümumiyyədəki mövqe və nüfuzları pək mühüm idi. Mavərayi – Qafqasiya müsəlman şurasının mərkəzi komitəsi Bakıda idi.

Vəqaye siyasiyyənin inkişafı irəlidə milli şuraların birər hökumət şəklini ehraz edəcəklərini pək vazeh bir surətdə göstəriyordu. Yuxarıda söyləndiyi vəchlə rus ordusu inhilal ediyordu. İnhilal edən bu ordunu əvəz edə bilmək üçün Mavərayi – Qafqas Komissarlığının əmri ilə milli alaylar təşəkkül ediyordu. Gürcü və erməni alayları ilə bərabər müsəlman alayının təşəkkülü üçün də əmr verilmişdir. Fəqət əvvəlcə də ərz etdiyim vəchlə Mavərayi – Qafqas müsəlmanları xidməti - əsgəriyyədən müaf tutulduqlarından bu əmrin ifasının müşküli – məvane uğrayordu. Müsəlman alayının təşkili mübahisə və münaqişə halında ikən gürcü və erməni alaylarının təşəkkülü haman təmam olub bitmişdi.

Nə qədər ki, **bolşeviklər** mərkəzdə hali müxalifətdə idilər, vilayətdəki bolşeviklər muxtariyyəti – milliyyə əfkarını tərvic edən təşkilata məzahir görünüyordu. Əz cümlə Bakı bolşevikləri müsəlman hərəkati – milliyyəsinə başqa rus firqələrindən daha ziyadə təmayül ediyorlardı. Məsələn, "Müsavat" firqəsi burjua firqəsidir deyə mötədil rus sosialistləri tərəfindən "Sovet"ə qəbul edildiyi halda, bolşeviklərcə menşeviklərlə eserlərə tərcih olunuyordu[15].

[15] Menşeviklər social – demokrat məsləkinə salındırılır ki, bolşeviklərlə aralarındakı fərqi inqilabi ictimainin daha sırası gəlmədiyinə qane olmaları ilə izah edirlər.

* * *

Petroqradda hökuməti əldə edər – etməz **Lenin**[72] **bütün cahan müsəlmanlarına xitabən bir bəyannamə nəşr eyləmişdi.** Bu bəyannaməsində o, əsarət altında bulunan Şərqə peyğəmbəranə bir əda ilə hürriyyət və istiqlal vəd ediyordu.

Bu, bolşeviklərin daha mövqelərini təmin etmədikləri ilk günlərdə idi. Fəqət bolşevik hakimiyyəti təqviyə bulduqca "söz"lə "iş"in nə dərəcədə təvafüq etmədiyini bir dəfə daha təhqüq etdi: "Təyini müqəddərat haqqı hər kəsin deyil, ərbabi – səyindir" – deyə ortaya yeni təfsirlər çıxdı. "Azərbaycan muxtariyyəti demokrasinin deyil, xanların, bəylərin, ağalarındır" – deyə iddia dəyişdi. Lenin mərkəzdə mövqeyini möhkəmləndirdikcə, vilayətlərdəki "həvarisi" həman birər mərkəziyyətçi və böyük ruscayı şəkl və simasını almaya başladılar.

Türkistandakı qətliam, Taşkənd hadisi – xunini, Krım faciəsi, Kiyevdəki qanlı vüquat, Kazandakı dəhşət həp bu üzdən hasil oluyordu[16].

**Azərbaycan muxtariyyəti artıq siyasi bir proqram şəklində meydanə atılmışdı.** "Müsavat" firqəsi ilə Mavərayi – Qafqas milli komitəsi bu proqramı təqib ediyorlardı. Bolşevik firqəsinin mürəvvici - əfkarı bulunan "Bakinski Raboçi"[73] qəzetəsi ("Bakı əmələsi") bizimlə yapdığı bir münaqişədə:

---

Eserlər Rusiyaya məxsus bir nəzəriyyəyi – ictimaiyə məhsulu olaraq köylüyə istinadla sosializm inqilabı yapılacağını təəmmül edən bir firqədir ki, hal – hazırda bolşeviklərə müarizdir. Eser ismi isə Sosialist Revolyusenerdən müxəffəfdir.

[16] Bolşeviklər 1917-ci sənəsində Xokand, Daşkənd, Krım, Ukraina kibi vilayətlərdə muxtariyyət idarə dəvasilə kəndi kəndilərini idarəyə qalxan əhalini silah qüvvətilə təşkil eyləmişlərdir. Mərkəzi Kazanda bulunan islam surayi - əsgərisi ilə tatar şurayi – millisi, Başqırdıstan Cümhuriyyəti, Krım qurultayı hökuməti kəza bolşevik hökuməti tərəfindən qanlı bir surətdə inhilal etdirilmişdir.

"Azərbaycan muxtariyyəti türk burjuaziyasının muxtariyyətidir. Bu muxtariyyətə nə Rusiya burjuaziyası, nə də Rusiya demokratisi razı olur. Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazar bulurlar" – deyordu.

Qəribədir ki, "Müsavat" məfkurəsinə qarşı bu surətlə təhdidkar bir vəziyyət alan bolşevik hökumətinin Mavərayi – Qafqasiya mümərssili Şaumyanın cibində rus işğal ordusunun təxliyə edilən Türkiyə ərazisi üzərində erməni muxtariyyətinin elanına aid Leninin imzasilə mumzi bir dekret[74] bulunuyordu. Bu dekretlə Şaumyan[75] "əsrlərdən bəri məzlum erməni millətinin bəklədiyi amali – milliyyəni qüvvədən feilə çıxarmaq" üçün erməni müəssəsə və təşkilatına yardım etməklə müvəzzəf idi. Şaumyandakı bu vəsiqənin təsiri elə olmalıdır ki, bir ay əvvəl Bakı bələdiyyəsində rus Məclisi – müəssisanını dağıdan bolşeviklərə qarşı bombalar, metralyozlar saçan **"Daşnaksütyun"**[76] firqəsi Bakı "Sovet"i[77] ilə sıxı bir rabitəyə və əsgəri bir ittifaqa girmiş oldu. Şaumyanın təht idarəsində bulunan "Bakı əmələ və əsgər soveti" erməni alayları və "Daşnaksütyun" firqəsinin müavinətini təmin ilə müsəlman təşkilatına qarşı şədid bir xətti – hərəkət ittixaz eylədi. Gözləri önündə sərbəstcə gəzən erməni alayı nəfərlərini görən müsəlman xəlqi, müsəlman alayının təşkili üçün Tiflisdən göndərilən zabitanın "soviet" zabitəsincə tovqif edildiyinə şahid olunca, bittəb qələyanə gəliyordu. Bu surətlə gündən – günə çoxalan yandırım (məvaddi – ehraqiyyə) nəhayət, bir fəsad qığılcımı ilə tutuşdu və 1918 sənəsi martın 17-dən 21-nə qədər dəvam edən qanlı mart hadisələrinə səbəb oldu.

Bu hadisə ilə bolşeviklər bir çox vilayətlərdə yapdıqları qanlı əməliyyatı Bakıda da tətbiq ediyorlardı. Əmələ və füqəra hakimiyyəti naminə "Müsavat" firqəsi ilə "**Milli Müsəlman**

**Şurası**"na[78] elani – hərb edən "Bakı Soveti" erməni alayları ilə biliştirak 10 000-ə (on min) qərib müsəlman qətl etdi. Qətl edilənlər miyanında əksəri əmələ və füqəra sinfindən olmaq üzrə minlərcə qadın, cocuq və silah daşımalarına imkan bulunmayan ixtiyarlar vardı.

**Bakı türk milliyyətpərvərliyinin mərkəzi idi.** Rus partiyası bulunan bolşevik firqəsi bu mərkəzi dağıtmaq istəyordu. Bu xüsusda o, Rusiyanın türklərə qarşı ənənəvi bir müttəfiqi olan erməniləri buluyordu. Həqiqətən mart hadisəsi əsnasında ruquə gələn qətl, bir sinif mübarizəsinə qətiyyən bənzəmiyordu. Bu, hər hankı bitərəf bir müşahid nəzərində silahi – müdafiədən məhrum müsəlman xəlqinin amansız bir surətdə təcziyəsindən başqa bir şey deyildir. Toplar, metralyozlar, erməni əsgərinin yaylım atəşləri, aeroplanlar və limandakı bəhriyyə topları həp müsəlman məhləsinə tövcih edilmişdi. Müsəlman məhləsinin başına od yağdırılıyor, cəhənnəm püskürülüyordu.

Əcəba, müsəlmanlığın, türk məhləsinin qəbahəti nə idi?

Bu qəbahət rəsmən "Müsavat" firqəsi ilə "Milli Komitə"yə ətf olunuyordu. Halbuki, bu iki müəssisənin şu fəsad onu almaq üçün icra eylədiyi təşəbbüslər, ittixaz etdiyi tədbirlər vəsaiqi ilə müsbətdir. Fəqət bir millətə elani – xüsumət etmək bolşevikliyə yaxışmazdı. Bunun üçün də onlar "Müsavat"ı  bəhanə, "Komitə"ni müxatəb tutuyorlardı.

Fəqət nəticə?.. On minə qədər müsəlman əmələ və füqərası məqtul… **"Tazə pir"**[79] məscidi – camenin minarələri mərmi ilə dəlinmiş, milli təşkilata məxsus "İsmailiyyə"[80] xəlq yurdu ilə türk əfkari – ümumiyyəsinin mürəvvici - əfkarı bulunan "Açıq söz" idarəxanəsi və "Kaspi" mətbəəsi yaxılmışdı. Əhaliyi – islamiyyə sıxı bir tədhişəməruz qalmış, bir çox münəvvəran tovqif və həbs edilmişlərdi.

Bu fəci hadisədən sonra Bakı tamamilə Sovet idarəsinə keçmiş, Mavərayi – Qafqasiyadan ayrılmış, Tiflisə qarşı müxasim bir vəziyyət almışdı.

Bakının bu süqutu üzərinə Mavərayi – Qafqas müsəlmanlarını təmsil edən mərkəz – müsəlman komitəsi də dağılmışdı.

Bu hadisədən sonra bütün Mavərayi – Qafqas müsəlmanlarının təvəccühü Tiflisdə iniqad edən "Seym" məclisinə tövcih edildi.

**"Seym"** məclisində bulunan müsəlman əza məxsus bir fraksion təşkil etmişlərdi. Bu fraksion əvvəlcə sərfi – məsail təşriiyyə ilə müvəzzəf ikən, bədə müsəlmanlara aid bilcümlə məsələləri dəröhdə etmək zərurətində qaldı. "Seym"in müsəlman əzanın xidmət edəcəyi məhəllələrdən uzaqda bulunması mövcud müşkülatə bir qat daha əngəllər əlavə ediyordu. Bu sırada vüquat bir taqım faciələr ehdasilə vəziyyəti daha ziyadə vəximləşdiriyordu. Mavərayi – Qafqasın Cənubi – Qərbində vüqu bulan qanlı hadisələr nəzəri – diqqəti cəlb ediyordu. Əvvəlcə rus ordusu tərəfindən hərb zamanında işğal olunan türk ərazisi daxilində, sonra da Qars və Erivan[81] vilayətlərindəki müsəlmanların ermənilər tərəfindən qətliamə məruz qaldıqlarına aid yekdigərindən daha dəhşətli xəbərlər alınıyordu.

Bir tərəfdən Bakı qətliami, digər tərəfdən də **Erivan və Qars** ailələrinə məruz qalan Mavərayi – Qafqas müsəlmanlığının o günlərdə keçirdiyi faciələr həqqində bir az fikir hasil etdirmək üçün 15 nisan 1918 tarixli salifüzzikr "Müsəlman fraksionu" məzbətəsindən müstəxrəc sətirlər aşağıya qeyd ediyoruz: "Tiflisə gələn rum mühacirləri Qars vilayətindəki müsəlmanların halını böylə təsvir ediyorlar: Türk ordusu qarşısından ricət edən erməni əsgəri qitələri və müsəlləh erməni qaçqınları rəhgüzarlarındakı müsəlman köylərini yer üzündən silərək, hər

bir şeyi atəş və qılıncdan keçiriyor və təsəvvüri naqabil bir dəhşət və fəlakətə düçar ediyorlar. "Qalib" erməni ordusu hərbi qənimətlər, yəni süngü ucuna taxılmış südəmər cocuqlarla çəkdikləri yollar üzərində müsəlman qadınlarını çıplaq soyunduruyorlar… rumların rəvayətinə görə bu cəhənnəm əzabını görmüş, çıldırmış qadın və cocuqların ürək parçalayan iniltilərini, ixtiyarların ümidsiz nalələrini dinləmək üçün mafövqəlbəşər bir əzaba malik olmalıdır. Səksən iki köydən fəzlə bir sancaq bu təsviri naqabil fəlakətə düçar olmuşdur[17].

Zəngin Qars vilayətinin, kapitan Movsesyan ilə general Areşovun iqa etdikləri dəhşət və vəhşətlər üzündən vaqe olan xərabisi 1915 sənəsi hərbi – ümumi zamanında rus kazakları tərəfindən yapılan fəcayei unutdurmuşdu.

**Erivan vilayətindən gələn xəbərlər dəhşət etibarilə bundan əskik deyildir.** "Seym" tərəfindən Erivan hadisatını təhqiq və fəlakətzədələrə müavinət məqsədi ilə göndərilən heyəti – mürəxxəsə rəisi – vəkili İbrahim ağanın raportuna nəzərən Erivan vilayətində 211 müsəlman köyü xak ilə yeksan edilib, qaçqınların (mühacirlərin) ədədi yüz minə varıyordu.

Bu hadisələrin təsadüfi deyil, müstəqil Ermənistan qitəsində milli bir əksəriyyət qazanmaq üçün mürəttəb bir plan üzərinə icra olunduğu təxmin olunuyordu.

Şu surətlə inkişaf edən vaqayenin önünə keçmək və sail icradan məhrum və əsgəri bir qüvvətə istinad etməyən müsəlman "Seym" fraksionunun imkanı xaricində idi. Yapılan təşəbbüslər, bittəb, hadisatın miqyasilə qeyri – mütənasib, müvəqqət çarələrdən ibarət idi.

---

[17] Bakıda mətbu "İstiqlal" məcmuəsindən müqtəbəsdir.

## IV

## QARDAŞ TÜRKİYƏNİN İMDADI

Bolşeviklər Azərbaycan türklüyünün Rusiya ixtilali – kəbiri tərəfindən dəxi elan olunan "təyini – müqəddərat" həqqindən istifadəyə qalxdığını, Bakı sokaklarında axıtdıqları qanlarda boğmaq, "İsmailiyyə" binasında yaxılan hürriyyət məşəlini o möhtəşəm binanın ənqazi vərəmadi altında söndürmək istədilər.

Böylə müdhiş bir cinayəti – tarixiyə vüqu bulduğu zaman millət fikir və idealını təmsil edən müsəlman məbuslar Tiflisdə idilər. O zaman Tiflisdə iniqad edən "Seym" məclisi – müştərəki bir vəchi – məzkur, bir tərəfdən çarizmidən təvarüs edən Qafqasiya cəbhəsinə aid məsailin həlli, digər tərəfdən də Rusiyadan əbədiyyən ayrılaraq elani – istiqlal etmək məsələsini tədqiq və müzakirə etməklə məşğul idi.

Seymdəki müsəlman məbuslarının bütün hümmətləri gərək cəbhə məsailinin müsəlləhanə bir surətdə təsviyəsi, gərək Qafqasiya istiqlalının bir an əvvəl qüvvədən feilə çıxarılmasına mətuf idi**. Çünki Rusiyadan ayrı, müstəqil bir Qafqasiya təsis üçün bundan daha iyi bir fürsət gələmiyəcəyinə qane idilər.** Müstəqil bir Qafqasiya, yalnız Qafqasiya müsəlmanlarının deyil, daima rus təhdidi – təhtində bulunan digər islam məmləkətlərinin dəxi mənafei iqtizasından idi. Bakı faciəsi zatən müsəlmanların bu siyasi "cinayətkar" – təmayüllərinə müqabil, bolşeviklər tərəfindən tərtib edilən bir cəza idi.

Bittəb, Bakı Tiflisin müavinətini bəkləyordu. Yalnız Bakı deyil, bütün Azərbaycan azərbaycanlıların iştirakı ilə təşək-

kül edən "Seym" məclisi ilə Mavərayi – Qafqas hökumətinin bu müavinətinə intizar ediyordu. Fəqət, heyhat! Azərbaycanlı "Seym" əzasının yüksək səda ilə bağırıb – çağırması Tiflis hökumətinin həqiqi sahibləri olan gürcü menşeviklərinə lüzumunca təsir edəmədi. Gürcüstan daxilindəki bolşevizmi min şiddət və qəhrlərlə basdıran bu əfəndilər Bakıya qarşı quru elani – hərb belə etmək istəmədilər. **Gəncə Milli Müsəlman Komitəsinin** təşkil etdiyi istixlas ordusuna milyonlarla fişəng, onlarla metralyoz və bir kaç top vəd edilsə də, bu vədlər həqqilə tutulmadı. Tiflis mətbuatı isə Bakının Azərbaycan "başı pozuq" qüvvəti ilə istirdadına qarşı "vəqeyi – irticaiyyə" – deyə protesto etdi. Nəhayət, "türk təhlükəsi varkən bolşeviklərlə müxasim olamayız" – deyə aldıqları bu qərib vəziyyəti əcib izah etdilər.

Bu sırada "Seym"dəki erməni qisminin xətt – hərəkətini izahə ehtiyac varmıdır?..

Müsəlmanların intiqamından, Tiflisin müavinətindən qorxan üsyankar Bakı bolşevikləri əvvəlcə tədaföi bir vəziyyət almışkən bu dəfə cəsarət peyda edərək təərrüzə keçmişlər idi. **Başda Amazasp**[82]**, Avetisov**[83] kimi erməni fədailəri və Petrov kimi rus topçuları olduğu halda Gəncəyə doğru yürüyən bu mütəcavüz qüvvətdən əvvəl əmrdə Şamaxı mütəzərrər oldu. Əski Şirvanşahların bu qədim paytaxtı bir həmlədə atəşə verilib məşhur tarixi cameyə varıncaya qədər yaxıldı. Yalnız erməni məhləsi salamat buraxıldı. Biləxərə, müqabil təcavüz yapan Gəncə qəvayi – müdafiəsinin şəhərə girib – çıxması üzərinə səlamət qalmış olan bu məhlə də yandı. Yanmayan yalnız iki kəlisa qalıyordu.

Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Səlyan, Quba, Nəvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələri dəxi məruz

qaldı. Bu təcavüzlər əsnasında yaxılan xanimanların, qıyılan ərz və namusların, kəsilən qarı qocaların, yəğmaya gedən mal və məvaşinin təsviri qeyri – qabili – təsəvvür bir faciə təşkil edir.

Təhlükə artıq Gəncəyə gəlmişdi. Bir tərəfdən Gəncə təhti – təhdiddə ikən, digər tərəfdən də Qarabağ erməniləri Bakı bolşevikləri ilə birləşmək üzrə bir plan tərtib ediyorlardı: **Azərbaycanın atəş ilə qılıncdan keçirilməsi planı!**

**Məlum: A – Şaumyanın qəzetəsi "muxtariyyət deyil, xarabazar alacaqsınız!" – deyordu.**

Böylə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Gəncə öhdəsinə düşən bu ağır vəzifəni təkbaşına davam etdirəmməzdi. Müdafiə günləri uzandıqca rişteyi – ümur əldən çıxıyor, bolşevik əlinə keçməyən yerlərdə dəxi şiddətli bir itaətsizlik və anarşi zühur ediyordu.



***Məclisi Məbusanın ilk cələsəsi: Şurayı- Milli rəisi və heyəti vükəladan bəzi zəvat***



***Məclisi Məbusanın ilk cələsəsi: Məbusan heyəti ümumiyəsi***

Bu surətlə həyat təbiyyəsini təhdid edən bir təhlükəyə qarşı hakimiyyətini qəbul eyləmiş Tiflis hökumətindən laqeydlik görən Azərbaycan əfkari – ümumiyyəsində pək təbii olaraq bir iman doğuyordu. **Bu müşkül vəziyyətdən milləti qurtaracaq yeganə bir çarə vardı: Türkiyə!**

Ümidlər həp oraya mətuf idi. "O qardaş millət gələcək, bizi düşmən əlindən qurtaracaq!" Xəlqin bundan başqa bir ümidi qalmamışdı.

Halbuki, məsələ bu qədər də bəsit deyildi. Kəndisini Rusiyadan ayrı, feilən müstəqil bir halda idarə etməkdə olan Mavərayi – Qafqas Türkiyə ilə sülh əqd etmək istədiyi halda məqsədinə daha müvəffəq olamıyordu. Türkiyə, Mavərayi – Qafqas hökuməti naminə Trabzona gəlmiş, 1914 sənəsi hərbindən əvvəlki Qafqasiya hüdudunun ibqasını istəyən heyəti – mürəxxəsəyə

“Brest – Litovsk” müahidənaməsinin[84] təmamilə qəbulunu təklif ediyordu. Bu təklifə görə, Mavərayi – Qafqas hökuməti vəqtilə türklərdən təzminati – hərbiyyə müqabil olaraq alınan Qars, Ərdəhan və Batum əlviyəyi – səlasəsindən sərf – nəzər etməlidir. Bu vilayətləri bolşevik hökuməti Brest – Litovsk müahidəsi ilə tərk eyləmişdir. Vəziyyət bu səfhəyə dönülüncə Trabzon müzakiratı olduqca ciddiləşirdi. Ermənilərlə gürcülər “hərb etmədən Türkiyəyə təslim olmayız” – deyorlardı. Bir tərəfdən bolşevizm, digər tərəfdən də erməni və gürcü cəngculuğu arasında qalan müsəlmanlar pək müşkül bir mövqedə bulunuyorlardı. Məmafih əhvalın ciddiyyətini dərk edən Trabzon heyəti – mürəxxəsəsi erməni, gürcü və türk əzasının ittihad arasilə Türkiyə ultimatumunu qəbula qərar vermişkən “Seym” məclisi gürcü menşevikləri ilə erməni daşnaklarının əksəriyyətilə hərbə qərar verilmişdir.

Konfrans inqitaə uğramış, hərb başlamış, heyəti – mürəxxəsə Tiflisə ovdət etmişdi. Fəqət heyət Tiflisə gəlincəyə qədər hərb də adətən bitmiş, Batum süqut eyləmiş, Qars mühasirəyə alınmışdı.

**Artıq təhəmmül etmək mümkün deyildi.** Hərb durmalı, sülh əqd olunmalı, Mavərayi – Qafqas istiqlalı rəsmən elan edilməlidir. Yoxsa biz ayrılır, kəndi başımızın çarəsinə baxarız – deyə “Seym”dəki müsəlman əza son çarəyə təvəssül etmişlərdi.

Yanlış macəraya qapıldıqlarını və Mavərayi – Qafqas xəlqinin böylə bir hərbə qətiyyən mühəyya olmadığını dərk edən gürcülər dəxi bundan başqa bir çarə qalmadığına qane oldular. Cəngcu Qekeçiqori hökumətini[85] iskat edib yerinə sülhçü Çxengeli kabinəsini gətirdilər. Batumda yeni müzakirat başla-

dı. Çxengeli[86] Trabzondakı türk mütalibatının artmayacağına ümidvar ikən, həqiqət təsəvvür elədiyi kimi çıxmadı. Batum ilə Qarsda tökülən türk qanına İstanbul hökuməti xunbəha olaraq yeni bir taqım ərazi tələb ediyordu. Axsixə, Axalkələk, Aleksandropol[87], Sürməli və Naxçıvan qəzaları bu tələbi təşkil ediyordu.

Mavərayi – Qafqas heyəti – mürəxxəsəsi ilə türk heyəti mürəxxəsəsi Batumda məşğuli – müzakirə ikən, Nuri Paşa[88] ilə bərabər məiyyətində bulunan bir kaç zabiti – İran və Qarabağ təriqilə Gəncəyə varid olmuşlardı. O zaman müdhiş bir anarşiyaya məruz, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi tələqqi etmişdi. Xəlqin kəndisinə yapdığı istiqbal Gəncə tarixində görülməmişdir.

Batum müzakiratı bir çox müşkülatə məruz qalıyordu. Müzakirat uzanıyordu. Gürcülər artıq Mavərayi – Qafqas hökuməti cüzində qalmayı kəndi hesablarına zərərli görüyor, əl altından Almaniya ilə anlaşıyorlardı. Türkiyə ilə müttəfiqi Almaniya arasındakı ixtilaf gürcülərə böylə bir hərəkatın müfid olacağını təlqin ediyordu. Nəhayət, əmr vaqe oldu. Maisin 26-da Gürcüstan Mavərayi – Qafqasiyadan ayrı kəndi başına müstəqil bir cümhuriyyət təşkil etdiyini elan eylədi.

Gürcülərin Mavərayi – Qafqas federasionundan çıxmaları üzərinə hökuməti – müttəhidə parçalanmış idi. **Bunun üzərinə Seymdəki müsəlman əza dəxi, gürcülər kimi kəndilərini Azərbaycan Şurayi – Millisi**[89] **elan etdilər. İki gün sonra, Mayisin 28-də Şurayi – Milli Azərbaycanın İstiqlalını elan və bu keyfiyyəti 30 Mayis tarixli təmimi ilə bütün dövlətlərə**

**bildirdi[18]. Şurayi – Milli elani – istiqlal ilə bərabər Azərbaycan hökumətini dəxi təşkil eylədi. İlk hökumət, Tiflisdə Azərbaycan hərəkati – milliyyəsinin düşmənləri tərəfindən qətl edilən Fətəli xanın təhti – riyasətində təşəkkül etmişdi.**

**Mavərayi – Qafqasiya hökumətinin inhilalı ilə Batumdakı heyəti – mürəxxəsə dəxi bittəb inhilal eyləmiş, onun müqabilində Azərbaycan, Gürcüstan və Ermənistan heyətləri münfəridən sülh müzakirəsini idamə etdirmişlərdir. Batumda 4 həziranda dövlətəleyh hamına ədliyyə naziri və birinci mürəxxəs Xəlil bəy ilə Şərq orduları komandanı və ikinci mürəxxəs Vəhib Paşa**[90] **həzrətləri Azərbaycan namına Şurayi – Milli rəisi Rəsulzadə Məhəmməd Əmin və Xariciyyə Naziri Məhəmməd Həsən**[91] **bəylər tərəfindən bir müxadinət əhdnaməsi imza edildi. Bu müahidənin 4-cü maddəsinə binaən məmləkətin əmniyyət və asayişini iadə etmək üzrə Azərbaycan Cümhuriyyəti Türkiyədən müavinəti - əsgəriyyə istəmək həqqini caiz idi.**

Azərbaycanın nə kimi müşkülatə məruz qaldığı və bu təhlükəli müşkülatdan çıxa bilməsi üçün Türkiyənin müavinətinə möhtac olduğunu Azərbaycan müməssilləri Trabzon ilə Batumda Türklərlə vaqe olan təmasları əsnasında gərək şifahən və gərək təhrirən anlatmışlardı. Bu kərə Azərbaycan Şurayi – Millisi naminə biz və Xariciyyə Nəzarəti naminə də Məhəmməd Həsən bəy salifüzzikr müahidənin 4-cü maddəsinə istinadən Türkiyə hökumətinə müraciətlə qəvayi – imdadiyyə istədik.

Bütün Azərbaycan xəlqinin çarçeşmlə bəklədiyi ümidə tərcüman olan bu müraciətimizə Türkiyə heyəti – mürəxxəsəsi həmən müvafiqət cavabını verdi. Fəqət Gürcüstan təriqi ilə ge-

[18] “Azərbaycanın təşəkkülü” nam risaləyə müraciət olunmalı.

dəcək olan qəvayi – imdadiyyə, Almaniya hökumətinin göstərdiyi müşkilatdan dolayı istənildiyi bir sürətlə yetişəmiyordu. Şərait və vəqaye – fövqəladə içərisində elani – istiqlal edən Şurayi – Milli Gəncəyə nəql etdi.

Həziran ayının 16-da əqd eylədiyi tarixi cələsəsində Şurayi – Milli Fətəli xanın[92] ikinci kabinəsini təşkil və bütün ixtiyaratını məzkur hökumətə həvalə edərək, əhvali – fövqəladə həsbilə kəndisi tətili – müzakirat eylədi. Məclisin bu xüsusda ittixaz eylədiyi qərar bir vəchi – ati idi: "Azərbaycanın keçirməkdə olduğu müşkilati – daxiliyyə və xariciyyəyi nəzər etibarə alaraq Azərbaycan Şurayi – Millisi bütün hüquq və səlahiyyətini Fətəli xan Xoyski təhti – riyasətində təşəkkül edən kabinəyə həvalə və məzkur kabinəyi arayi – ümumiyyə üzərinə müstənd bilətəxir məclisi – müəssisan dəvət oluncaya qədər Azərbaycan həqqi – hakimiyyətini kəndi əlində bulundurararaq kimsəyə tərk etməməyə müvəzzəf edir".

**Azərbaycan Şurayi – Millisinin** şu surətlə tətili o zaman Gəncədə hüsulə gələn bir taqım siyasi mübarizələr nəticəsində hasil olmuşdu. Bu mübarizə məmləkət üsul – idarəsinə aid demokrasi cərəyanlarla aristocrat zehniyyətlər arasında vüquə gəliyordu. Hər tərəfdən düşmən bir qüvvətlə mühat olan məmləkətdə bu kimi mübarizələri bir zaman müvəqqət üçün bir tərəf etmək lüzumu vardı. Bu lüzum səlahiyyəti – vaseyi haiz bir hökumət təşəkkülü surətilə təmin edilə bilmişdi.

Azərbaycan tarixi – təşəkkülündə vəqaye – mühümmədən olan bu hadisə əsnasında Şurayi – Millinin nə kimi hissiyyat ilə mütəhəssis olduğunu göstərmək üçün rəisi olmaq sifətilə söylədiyimiz ixtitam nitqini qismən buraya dərc ediyoruz: "… Əvət, əfəndilər! Azərbaycanın müvəqqəti paytaxtı olan Gəncədə naqis

də olsa hakimiyyəti – milliyyəyi təmsil edən bir müəssisənin şu surətlə meydandan çəkilmək məcburiyyətində qalması heç şübhəsiz, demokrasinin bir ricəti və qəvayi – mürtəcenin bir müvəffəqiyyətidir. Bu ricət ağ və pak qüvvətlərə müqabil qara və papak qüvvətləri təqviyə edəcəkdir. Bu nöqteyi – nəzərdən görülüncə ilk baxışda bizim halımız Ukrainanın halına pək bənzəyor kimidir. Bu hallar bizdə Rusiya məqasidi – inqilabiyyəsinin iflasına dair bir əqidə hasil etdiriyor. Fəqət, Əfəndilər! Zavahirlə qalmıyalım, səthi düşünmiyəlim, pək də məyus olmuyalım. Rusiya inqilabi - əzimi, hər bə deyirlərsə - desinlər, qətiyyən iflas etmədi**. Rusiyada inqilab nə yapacaqdır?** Bu sualla "Böyük Rusiya" fikri ilə məsum olan rus inqilabçıları nöqteyi – nəzərindən deyil, inqilabın kəndi təbiətini təhlil edərək cavab verməlidir. Böylə baxılırsa, Rusiya inqilabı məzlum və məğdur siniflərlə məhkum millətləri azad etməlidir. Məğdur siniflər, təqdir edəlim ki, istədiklərindən fəzləsini aldılar. Millətlər isə birər – birər kəsbi – istiqlal ediyorlar. İnqilab dünyanın altıda birini tutan böyük Rusiya yaratmaqlamı müvəzzəf idi? Qətiyyən deyildi. İfrata varan sinif hürriyyətləri əlbəttə ki, təqyid olunacaq və mötədil bir şəklə girəcəkdir. Çünki hürriyyətin bu şəkli heç şübhəsiz ki, hürriyyət deyil, bir afətdir. Fəqət, bu yolda yapılacaq ricət, əminəm ki, hər halda inqilabdan əvvəl mövcud olan hüdudun övtəsində deyil, yerisində tovqif edəcəkdir. Demək, əhvali - əvvəlkinə nisbətlə hər halda iyi olacaqdır.

Əfəndilər! Bən sabiq Rusiya ərazisində güzəran etməkdə olan bu vəqaeyə böylə baxıyoram. Buna görə də hala ümidlərimə bərabər yaşayoram. Biliyoram əfəndilər ki, Azərbaycan Rusiya inqilabının vəz etmiş olduğu müsbət nəzəriyyələrlə elan etdiyi əqanimi – hürriyyətdən son dərəcədə istifadə edəcəkdir.

**İştə müstəqil bir Azərbaycan:** siyasətin kəsbi – hürriyyət və istiqlal edəcək Azərbaycanda ictimai hürriyyətlər və hüquqi – bəşərə aid düsturlar hər halda müstəbid Rusiya zamanından daha geniş, daha müsaid olacağına şübhə etməm. Hətta, əfəndilər, söyləmək istərəm ki, Azərbaycan Qafqasiyada ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan daha məsuddur. Çünki burada bizim daxili hürriyyətlərimizə icrai – nüfuz edən və edəcəyi mütəsəvvir bulunan qüvvət yabançı bir qüvvət deyil, öz qüvvətimizdir (alqışlar). Buradan istiqbal, böyük və şanlı bir millətin müxtəlif şöbə və budaqlarını tovhidə doğru gedəcəyi eyni məqsədimizdir (alqışlar). İctimai və hüquqi hürriyyətlərlə bilfərz qaib etsək belə siyasətən qazanacaq təlafiyi – mafat edəcəgiz. Halbuki, Ukraina və ya Gürcüstan öylə deyildir.

**Əvət, əfəndilər!** Pək də naümid olmayalım. Tarixin, amali – milliyyəmiz nöqteyi – nəzərindən, müsaid bir zamanında olduğumuzu, türk ittihadı üçün fürsət ələ keçdiyini unutmayalım. Bütün məsaimizi bu hürriyyəti – siyasiyyənin təsbitinə sərf edəlim. Bunun üçün də hər dürlü fədakarlığa amadə bulunalım!"

Yuxarıda müqtəbəs qərarnamə üzərinə Şurayi – Milli tərəfindən məmləkətin idarəsinə müvəkkil olan hökumət bir an əvvəl Bakını istirdad edəcəkdir.

Nuri Paşa məiyyətindəki ordunun müavinəti ilə az bir zaman içərisində Bakı vilayətindən maəda, bilcümlə Azərbaycanda əmniyyət tamam təmin edildi. Yalnız Bakı ilə həvalisi bolşeviklərin əlində idi. Bunlar ara – sıra xüruc yaparaq təcavüzdə belə bulunuyorlardı. 5-6 aylıq bir fürsətdən bilistifadə bolşeviklər olduqca mühüm bir müdafiə qüvvəti hazırlamışlardı.

Xaricdən, Azərbaycan və Türkiyə qəvayi – milliyyəsi tərəfindən təzyiq olunan bolşevik – daşnaksityun qüvvəti daxilən

sarsılıyor, aralarına nifaq giriyordu. Biləxərə məhsur bulunan Bakıda bolşevik diktaturasına qarşı bir ixtilal zühur və mövqei – iqtidar, erməni alayları ilə Bakı limanındakı bəhriyyələrə istinad edən ermənilərlə ruslardan mütəşəkkil bir “direktvara” intiqal ediyor. Bu direktvar ingilisləri Bakıya dəvət ediyor. O zaman İranda bulunan ingilis komandanlığı vaqe olan bu dəvət üzərinə Bakıya əsgər çıxarıyor. Vəziyyət bu şəkilə girincə Türkiyədən yeni qüvvətlər cəlbinə lüzum görülüyor. Almanlar isə - yuxarıda zikr edildiyi vəchlə - Gürcüstan təriqi ilə Bakıya gedən Türkiyə qəvayi – imdadiyyəsini təvəqqüfə uğratıyorlar. Bunun üzərinə Bakının istirdadını da iyulun 15-nə qədər gecikiyor.

Nəhayət, qanlı bir müqatilə və ünud bir müqabilədən sonra qardaş xilasına can atan qəhrəman Məhəmmədciyin türk vəhdəti – tarixində altun hərflərlə yazılacaq bir fədakarlığilə Azərbaycan qəvayi – milliyyəsi kəndi paytaxtına giriyor. Altı ay tamam xuni – cigər yeyən əhvali – islamiyyəsinin üzü gülüyor. Qurban bayramı kimi məsud bir gündə Bakı təkrar kəndi sahiblərinin əlinə keçiyor.



***Məclisi Məbusan hali ictimada ikən. Məbusların arxasında müzakiratı istima edən samelər***

O zaman biz İstanbulda idik. Vüstayi – Avropa dövlətlərinin iştirakı ilə toplanacaq konfransa iştirak üçün digər Qafqasiya Cümhuriyyətləri ilə bərabər Azərbaycan Cümhuriyyətini təmsil edən heyəti – müəxxəsə riyasətində bulunuyorduq. O dövrün Hərbiyyə Naziri və Baş Komandan vəkili bulunan Ənvər Paşa[93] həzrətləri telefon ediyorlardı: **"Əmin bəy, Bakı alındı!".**

Bu qısa xəbərin məndə tövlid etdiyi təsiri qabil deyil təsvir edəməm. O təsiri hala unudammıyoram.

**Bundan bir kaç gün əvvəl Almaniya hökumətinin bir qərarını protesto etmişdik. Almaniya dövləti bolşevik hökuməti ilə Brest – Litovsk müahidəsinə**[94] **zeyl olaraq yapdığı bir müahidə mucibincə Bakı vilayətinin ta Kür nəhrinə qədər ruslara tərkinə riza göstərmiş, müqabilində kəndisinə petrol imtiyazını təmin eyləmişdi. Ustadımız Əhməd bəyin təbiri – vəchlə bizi bir təngə qaza satmışdı. Bu münasibətlə bizə müraciət edən qəzetəçilərə: "Bakısız Azərbaycan – başsız bədəndir!" demişdik. Qafası məshur Kiyotin məngənəsində bulunan bir adamın xilası nasıl bir həyati – novin isə, Bakının istirdadı dəxi o nisbətdə ecazkar bir vəqiə idi. Həm həqiqətən də öylə idi. Sonra mənhus bir ixtilal nəticəsində məzarları münsi qalan Anadolu Məhəmmədcikləri Bakıdakı şəhadətləri ilə türklüyə yeni bir siyasi vücud əta ediyorlardı. Maddətəm münsi, fəqət, mənən bütün qəlblərdə mədfun bulunan bu qəhrəman şəhidlər yalnız Bakıdamıdırlar? Naxçıvandan, Qarabağdan, Şamaxıdan, Gəncədən ta Bakıya qədər bir yer varmı ki, orada böylə bir fədakar yatmasın?!..**

**Əvət, Azərbaycanın hər cəhətində şairin təsvir etdiyi "Sarmaşıqlı bir məzar" bulursunuz ki, qızlar, gəlinlər tərəfindən ziyarətgah halına qonulan bu məzar, qardaş imdadına qoşan TÜRK məzarıdır.**

# V

# MONDRUS MÜTARİKƏSİNİN QAFQASİYADAKI NƏTAYİCİ

Tarixin daha başqa cilvələri varmış. Türkiyə Mondrus mütarikəsini[95] əqd etmək məcburiyyətində qaldı. Biz də bəklədiyimiz konfransın iniqadını görmədən geri dönüyorduq. "Yürük vaporu" Şimaldan şiddətlə əsən müxalif bir rüzgarə qarşı boğazdan çıxıyor, bizi Batuma doğru götürüyordu. Təşrini - əvvəl sonlarına doğru Bakıda idik. Hənuz sevinən simalarda dərin bir əndişə görünüyordu. Türk ordusunun gedəcəyi, ingilis ordusunun gələcəyi xəbəri hər kəsi müztərib ediyordu.

Əcəba, nə olacaq? İngilislərlə bərabər rus ordusu, erməni məfrəzələri dəxi bərabər dönəcəklər, kim bilir əhalidən nə kimi intiqam alacaqlar?

**Nuri Paşa** Ənzəlidə bulunan müttəfiqin qəvayi - əsgəriyyəsi komandanı general Tomsondan[96] Mondrus mütarikənaməsi mucibincə bir həftəyə qədər Bakının, bir aya qədər bütün Qafqasiyanın təxliyəsini tələb ediyordu. Nuri Paşa kəndisinin Azərbaycan xidməti - əsgəriyyəsinə keçdiyini irəli sürərək, Bakıda qalmaq təşəbbüsündə bulundusa da, faidə vermədi. Tomsonun ultimatumu qəti idi. Başqa heç bir təvil və təsvirə imkan buraxmıyordu. O zaman məqami – sədarətdə bulunan Tofiq Paşanın bir teleqrafı gəlmişdi. Bu teleqrafda mütarikənin maddeyi – məxsusəsi ehkamınca Osmanlı əsgərlərinin Azərbaycanı təxliyə etmələri zərurəti xəbər veriliyordu. Ana vətəni müşkilata soxmaq istəməyən zabitan İstanbuldan gələn əmrə təbiyyət etmək qərarını tərcih ediyorlardı.

Bakının istirdadından sonra Şurayi – Milli təkrar toplanmışdı. 16 təşrini – sani məmləkətin bəzi əqsami ilə Şurayi – Millidə bulunmayan milli əqəliyyətlərə dəxi mümәssillərini göndərmək üçün Şurayi – Milli yeni bir qanun vəz ediyordu. Bu qanuna görə 120 məbusdan mütəşəkkil bir məclis toplanacaq, yeni təhəddüs edən əhvalə müvafiq müştərək bir hökumət təşkil edəcəkdi.

Unudulmayacaq ağır bir gün, təşrini – saninin 17-si. **İngilis bandərəsi ilə çar Rusiyasının bayrağını hamil olan filo Bakı limanına yanşıyordu**. Bir az əvvəl Bakıdan ricət edərək Ənzəlidə təhəşşüd edən bu qüvvətin Bakıda oturmaqda olan Azərbaycan hökumətinə qarşı alacağı vəziyyət nə olacaqdı? – bəlli deyil.

Türk ordusu çəkilmiş, Azərbaycan qitəatı dəxi yox. Çünki, gələn komandanlıq Azərbaycan qitəatı deyə əsgər tanımıyor. Azərbaycan əsgəri naminə müntəzəm bir qüvvət zatən yox kimi idi. Komandan Nuri Paşanın o zaman Şurayi – Milli rəisi sifətilə mənə yazdığı bir məktubdan anlaşıldığı vəchlə yekunu ancaq 1500 kişidən ibarət olan Azərbaycan əsgərinin toplu olaraq bir yerdə bulunmayıb məmləkətin müxtəlif nöqtələrində durduğu anlaşılıyordu. Azərbaycan hökumətini bu gün Bakıda təqviyə edən qüvvət yalnız 500 kişilik bir milis (polis) nəfərlərindən ibarət idi. Fərəza, qüvvət olsa belə, Almaniyanın, Türkiyənin təslim olunduğu bir qüvvətə qarşı Azərbaycanın hərb açması bittəb əqlə belə gəlməzdi. Binaən əleyh məsələ yalnız diplomatik vəsilələrlə həll ediləcəkdi.

Üç gün əvvəl surəti – məxsusədə göndərilən heyətə[19] ingilis komandanının son sözü bu olmuşdu: “Bizim bildiyimiz,

[19] Bu heyətə Yusifbəyli Nəsib, Ağa oğlu Əhməd və Hacınski Məhəmməd bəylərdən ibarət idi.

Azərbaycan xəlqinin arayi – ümumiyyəsindən doğma bir cümhuriyyət yoxdur. Yalnız türk komandanlığınınintriqası ilə təşəkkül etmiş bir hökumət var. Madam ki, siz bunun əksini iddia ediyorsunuz, o halda gəlir, məhəllində tədqiq, ona görə də qərar veririz".

Bu "qərar"a mütəvəkkilanə intizar edən Azərbaycan hökumətiingilis komandanlığına verdiyi notada müttəfiqlərin şu surətlə Azərbaycan torpağına vürudunun Azərbaycan istiqlal və təmamiyyəti – mülkiyəsini müxəll olmayacağı ümidini dərmiyan ediyordu.

**17 təşrini – sanidə iki Bakı vardı:** məhzun müsəlman Bakısı ilə məmnun xristian Bakısı. Şəhər üzərində rus Biçeraxov qitəatına mənsub aeroplanlardan bəyannamələr saçılıyor, bu bəyannamələrdə rus vətəndaşları Bakının təkrar ana vətənə iadəsi ilə təbrik olunuyorlardı.

"İxrac" bilahadisə icra edildi. Azərbaycan bayrağı ilə müzəyyən köprüyə çıxan Tomsonu Xariciyyə Naziri müavini salamladı. Müqabilində Tomson kəndisini hərbi – ümuminin xitamı və sülhün iadə etmək üzrə bulunduğu ilə təbrik etdi.

İki gün sonra komandanlığın əhaliyi – islamiyyəni məyus edəcək bir bəyannaməsi nəşr olunuyordu. Bu bəyannamədə Biçeraxov bəyannaməsində olduğu kimi "Qalib etilaf ordusunun məmləkətə dönmədən əvvəl zəfəri – müştərəkə bunca xidmətləri dəyən fədakar rus xəlqinə ədai – dinşüküran etmək vəzifələrindən olduğu və bu vəzifənin iflası üçün Rusiyadan qoparılmış Qafqasiyanın düşməndən təxliyyəsi üçün Ufada təşəkkül edən rus hökuməti ilə biletilaf buraya gəlindiyi anladılıyordu".

Böylə bir bəyannamənin təsirinə, bir də ingilis ordusu ilə bərabər gəlmiş Biçeraxov[97] qitəatı erməni məfrəzələrinin

şəhərdə ehdas etməkdə olduqları hadisələr və əhaliyi – islamiyyəyə qarşı  taqındıqları təhqiramiz hərəkətlər dəxi təsəvvür ediliyorsa, o zaman nə kibi saətlər yaşanmaqda olduğu kəndi – kəndinə anlaşılır. Türkcə yazılı lövhələrin qırıldığına, Azərbaycan bandirəsinin təhqiratə məruz qaldığına, boşuna tüfəng atılaraq müsəlmanların hər vasitə ilə təhqir və təcavüzə məruz qaldıqlarına aid vaqeələr həman o günə keçilməz bir fəsar törətmək üzrə idi.

**Bakı böylə əndişənak günlər keçirməkdə ikən daha bir kaç gün kəndisi ilə bərabər bulunan türk komandanlığını, Gəncə həzin bir təsirlə təşyi ediyordu.**

# VI

# MƏCLİSİ – MƏBUSAN VƏ İCRAATI

Böylə bir müşkül vəziyyət içərisində Azərbaycan Şurayi – Millisi hökumətin əsaslarını təqviyyə etməklə məşğul idi.

Qanuni - əvvəlin yeddisində Azərbaycan Məclisi – Məbusanı açılıyordu. Böyük bir cəmiyyətin hüzuru ilə açılan məclisdə söylənən nitq iftitahi xitamında Azərbaycan bayrağına xitabən söylənən "Bir kərə yüksələn bayraq bir daha enməz!" şüarı həyəcanlı və sürəkli alqışlarla qarşılanaraq yeni bir həyata giriliyordu.

Fəqət, nə vəxim və nə müzləm bir vəziyyət içərisində?!



***Azərbaycan rical və məbuslarından bir qrup: Cümhuriyətin Avropa dövlətlərincə təsdiqi münasibətiylə Xariciyyə nəzarətində yapılan mərasimdən çıxarkən***

Bir tərəfdən müttəfiq komandanlığın nüfuzilə qaimi – müsəlləh bir qüvvət ki, “Azərbaycan” deyə bir mövcudiyyət tanımıyor. Digər tərəfdən də xəlqin arzu və iradəsindən qüvvət alan bir hökumət ki, müntəzəm bir əsgəri qüvvətə istinad etmiyor. Müttəfiq komandanlıqla həmahəng bulunan rus təşkilatı ilə fərqi – siyasiyyəsi olmaz dərəcədə şimarmış, son dərəcədə cəsarət almışlardı. Azərbaycanlılara elan etdiyiniz istiqlaldan istinkaf ediniz də, sizin üçün şəfaət edəlim!” – deyorlar və müvəqqətən təşkil edəcəkləri hökuməti məhəlliyyədə azərbaycanlılara bilnisbə daha mühüm bir mövqe təmin edəcəkləri lütfünü də ayrıca əlavə ediyorlardı. **Erməni təşkilatının** xüsumət və inadı isə daha bariz idi. Bu qədər müşkilati – siyasiyyə məvvacihəsində Azərbaycan ricali üçün müvazinəyi – qaib etməyib də istiqlal əsası üzərində sabit qalmaq və bu babda mətanət göstərmək həqiqətən də müşkül idi. Bu müşkilat məvvacihəsində istiqamətlərini 360 dərəcə dəyişənlər vardı. Milliyyətpərvərliklərinə şübhə edilməyən bəzi zəvati möhtərəm belə hasil olan və xaməti anlamaq üçün “istiqlaldan istinkaf” təklifini tədqiq etmək zəfinə düşdülər. Bərəkət versin ki, hökumət başında duran Fətəli xan ilə Şurayi – Milli əksəriyyətini təşkil edən Müsavat firqəsi rüəsası ilə sol cinah qrupları böylə bir panikdən məhfuz qaldılar. “Ruslar, ermənilər məclisi – milli nizamiameyi - əsasiyyəsinə görə hökumətdə iştirak edə biliyorlar. Bundan fəzlə şəraiti qətiyyən qəbul edəməmiz” – dedilər, müvəffəq də oldular.

Məclisi – məbusan təşəkkülünü mütəaqib hökumət təşkili təkrar Fətəli xana tovcih edildi. Fətəli xan kabinəsi təşəkkül edərək bəyannaməsini oxudu və məclisə etimad qazandı. Bunu mütəaqib düvəli – müttəfiqə komandanlığı naminə general

Tomson 18 qanuni - əvvəl 1918 tarixilə nəşr eylədiyi bəyannaməsində “Fətəli xanın təhti – sədarətində koalision Azərbaycan hökuməti təşəkkül etdiyindən müttəfiqlər komandanlığının Azərbaycan daxilində yeganə məşru bir hökumət olmaq üzrə bu hökuməti tanıyacağını və ona müzahirəti tammədə bulunacağını” ümumə elan ediyordu. Komandanlığın ilk bəyannaməsini müxəll olan bu ikinci bəyannaməsi Bakı mühitində böyük bir inqilabi - əfkara mucib oldu. O vəqtə qədər komandanlığın mədihəxanı bulunan rus və erməni mətbuatı şimdi, bir gün əvvəl tətbiq etdikləri məqamə, şətm və küfrlər yağdırmağa başladılar. Azərbaycan məqasidini müdafiə edən müsəlman mətbuatı isə bittəb  komandanlığın bu hərəkətini təqdir və sitayişlərlə qeyd ediyordu.

**Rus təşkilatları** bu vəziyyətə yalnız qəzetə nəşriyyatı ilə müqabilə etməklə iktifa etmədilər. Müttəfiq komandanlığı əleyhinə bir taqım tərtibati – inqilabiyyəyə dəxi təvəssül etdilər. Bunun üzərinə on ayaq olanlardan bir kaç adam tovqif edildi və Ənzəliyə sürüldü. Bu vaqə üzərinə Bakıda bulunan rus və erməni əmələsi tətil işğal etdi. Elektrik mərkəzinin başlıca əmələsi xristian olduğundan bunların tətil işğalı ilə bütün həyat durmuş oluyordu. Bu hadisə müəssir oldu. Məhbuslar iadə edildi. Əlavə olaraq mətbuatın kontrolu dəxi rus təşkilatının tələbi üzərinə Azərbaycan hökumətinin səlahiyyəti xaricində tutldu.

Digər bir vəqə üzərinə təkrar eyni təşkilat tərəfindən ikinci bir tətil işğal təşəbbüsü vaqe oldu. Bu təşəbbüs qismən də Azərbaycan hökuməti əleyhinə tövcih edilmişdir. Məqsəd, hökumətin zəifini isbatla müşkilat təvəllid etməkdən ibarət idi. Fəqət, bu dəfə müsəlman əmələsi “Müsavat” firqəsi tərəfindən

lüzumi dərəcədə təşkil edilmişdi. Müsəlman əmələ bu dəfə xristian əmələ ilə təşriki – müsaidə bulunmadı. Vaqe olan tətili – işğal təklifini protesto etdi. Digər tərəfdən də hökumət tədabiri – qətiyyə ilə elektrik mərkəzini işlədə bildi. Düşünülən zərbə boşa getmişdi. Bu vəqədən sonra hökuməti – milliyyənin siyasi vəziyyəti rəsanət peyda ediyordu. Bu hadisənin nətayici – feiliyyəsindən birisi polis müdiriyyətindəki əcnəbi komissarlığının ilğası, digəri də mətbuat kontroluna aid həqqin təkrar hökumətə iadəsi idi.

**Hökumət bununla iktifa etmiyordu.** Komandanlığa verdiyi notada "Səlahiyyəti – hüquqiyyəsi komandanlıqca tanınmış bir Azərbaycan hökuməti var ikən düvəli – müttəfiqədən bulunmayan rus Biçeraxov ordusu ilə asayişi – ümumiyyəyi müxəll olmaqdan başqa bir faidəsi mütəsəvvir bulunmayan erməni məfrəzəsinin Bakıda bulunmalarına bir səbəb olmadığını bəyanla məzkur qitəati - əsgəriyyənin bir an əvvəl Azərbaycandan uzaqlaşmasını" tələb eylədi. Bu nota üzərinə Biçeraxov alayı aldığı 48 saətlik bir möhlət zərfində Bakını tərkə məcbur olduğu kimi, erməni məfrəzələrinin inhilalı dəxi təqərrür etdi.

**İngilis komandanlığının** ilk vürudunda gördüyü tədbirlərdən birisi də liman idarəsi ilə müəssisati – maliyyə kontrolunu kəndi əlində bulundurması idi. Azərbaycan hökumətinin təşəbbüsü ilə bu iki qeyd dəxi rəf edildi. Hökumətin təşəkkülünü mütəaqib o zaman Versalda[98] toplanacaq sülh konfransına iştirak üçün bir heyəti – mürəxxəsə təşkil edildi. O zaman müxtəlif qrupların təlifi – beyn və hətta nazlanmalarına belə cümhuriyyətin yeganə qüvvətini təşkil edən cəbhəyi – milliyyə vəhdəti naminə fövqəladə əhəmiyyət veriliyordu, bunun üçün də heyəti – mürəxxəsə əzası hökumət tərəfindən deyil, bütün cərəyanları

təmsil etmək üzrə feilən məclisi – məbusan tərəfindən intixab və rəsmən hökumət tərəfindən ezam edilmişdi[20]. Bu heyət Azərbaycan mövcudiyyətini məmalik - əcnəbiyyədə tanıtmaq, hüquqi – milliyyə və istiqlalını müdafiə etmək və sülh konfransında kəndisini təmsil eyləmək vəzifələri ilə səlahiyyətdar edilmiş idi.

Heyət, komandanlıq tərəfindən göstərilən təshilat üzərinə Azərbaycan istiqlalını beynəlmiləl bir sahədə müdafiə etmək məqsədilə Bakıdan yola çıxdı.

Möhtərəm qare görüyor ki, ordusuz bir hökumət qurulmuşdur. Həm həqiqətən də öylə idi. Vəqayeni nəql etdiyimiz bu dəmlərdə Bakıda Azərbaycan ordusu bulunmuyordu. Çünki komandanlıq Mondrus mütarikənaməsini yalnız Türkiyə ordusuna deyil, Azərbaycan qitəatına da təşmil ediyordu. Bunun üçün də Hərbiyyə Naziri Səməd bəy[99] Bakıda deyil, əksəriyyən Gəncədə bulunuyor, ilk Azərbaycan alayını təşkil etməklə məşğul bulunuyordu. Nəhayət, Gəncədə təşəkkül edən bu alayın Bakıya vüruduna dəxi müvəffəqiyyət hasil oldu. Hökuməti – milliyyə zamanında Bakının yaşadığı ən səmimi sevinc günlərindən birisi də bu idi.

**İngilislərin Bakıya vürud etdikləri gün**, nəşr etdikləri bəyannaməyə rus və erməni təşkilatının cəsarət füzulluqları zəmimə olduğunu görüncə ilk həmlədə bütün tuzları təslim

[20] **Heyəti – mürəxxisə** bir rəis, üç əza, üç də müşavirdən ibarət idi. Rəis – məclisi – məbusan rəisi Topçubaşov Əli Mərdan bəy, əza – məclisi – məbusan əzasından Ağa oğlu Əhməd bəy, Şeyxülislamzadə Əkbər ağa, Hacınski Məhəmməd Həsən bəy, müşavirlərdən – məbusandan Seyid Mehdizadə Mir Yəqub bəy ilə, Məhərrəmzadə Məhəmməd bəy və mühərririndən Hacıbəyli Ceyhun bəy idi. Bunlar miyanında yalnız birisi "Müsavat" firqəsinə mənsub olub, digərləri məbusanın digər cərəyanlarını təmsil ediyorlardı. Müsavatı təmsil edən Məhəmməd Həsən cümhuriyyətin süqutundan əvvəl məmləkət ovdət eləmiş və orada qalmışdır. Məhəmməd Həsən bədə firqəsinə ihanətlə bolşevik tərəfinə keçmiş, mürtəd olmuşdur.

etmək istəyənlərin on gün sonra nə bihudə qorxuya düşdükləri **1919 sənəsi 5 nisanda (Azərbaycan ordusunun Bakıya vürud etdiyi gün)** kəşf edildi. Fərəza bütün Şurayi – Milli o qorxu ilə mütəhəssis oldu, ehtimal ki, Azərbaycan Cümhuriyyəti heç təsis etmədən məhv olub gedəcəydi. Bittəb ingilislərin bu hərəkəti azərbaycanlıların qara gözlərinə aşiq olduqlarından irəli gəlmiyordu. Zatən eşqin bir siyasət amili olduğu dastanı zamanların ibtidailiyi ilə bərabər çoxdan əfsanəyə qarışıb getmişdir. Burada eşq deyil, siyasi və iqtisadi mənfəətlər vardır. Bakı petrolunun müstəqil Qafqasiyalı bir hökumət əldə bulunması və aləmümüm Qafqasiyanın Rusiyadan ayrılması ingilislərin işinə gəliyordu. Azərbaycan da bu keyfiyyətdən istifadə etməliydi. **Hökuməti – milliyyənin diploması müvəffəqiyyətləri bununla izah olunuyordu.**

* * *

Yenidən bir hökumət quracaq qədər əzim və məsuliyyətli bir iş qarşısında qalan Azərbaycan münəvvəranının iqtiham eylədiyi müşkilatı təmamilə təqdir edə bilmək üçün Azərbaycan qitəsinin digər Rusiyadan ayrılan qitələrə nisbətlə çarizm tərəfindən nə kimi məhrumiyyətlərə məruz qaldığı zikr edilməzsə, qarelər əhvali – kəmalilə təqdir edəmməzlər.

**Azərbaycan, məmaliki – islamiyyə ilə həmhüdud bir türk və müsəlman vilayəti id**i. Çarizm bu kibi vilayətlərini daima şübhə altında bulunuyordu. Hərbi – ümumidən əvvəl Qafqasiya valiyi – ümumisi vilayətin xristian əhalisindən əmin ikən, müsəlmanlar arasında hərəkati – iftiraqcuyananın zəmin bulunacağını təxmin ediyordu. Çar hökuməti hüdudda bulunan müsəlman vilayətlərini rəşədü – kəmalə irdirəcək təşəbbüsatdan bilxassə məhrum bulunduruyordu. Xidməti - əsgəriy-

yə alınmamaqla zahirdə kəndisinə bir sühulət göstəriliyordu. Fəqət, batində sədaqəti daima şübhə altında olan bu xəlqə silah verilmək istənilmiyordu. Bu vasitə ilə əsgərlik xassəsini unudacaq millət, hər bir ehtimalə qarşı qeyri – müntəzəm bir qüvvə təşkil etməklə, mütəsəvvir bulunan xətərin ehtimalı azalıyordu.

Qonşuları ermənilərlə gürcülər mükəlləfiyyəti - əsgəriyyədə bulunduqlarından müdafiəyi – nəfs üçün əsgərliyin əsri üsulları ilə aşna  bulunuyorlardı. Halbuki, müsəlmanlar təşkilati - əsgəriyyəcə xanlıqlar dövründəki üsuli – müdafiələrini belə unutmuşlardı. Xristian generallar, miralayla məbzul ikən, azərbaycanlı bulunan zabitləri barmaqla saymaq qabildir. Zabitə məmuriyyətində bir qəza qaimməqamı rütbəsini bulmaq azərbaycanlı bir müsəlman üçün nəvadirdənədd olunuyordu. Mühakimi ədl məmurlarına gəlincə mütərcimlikdən yuxarı bir müsəlman məmura təsadüf olunmazdı. Ordu təşkili xüsusunda Azərbaycan Rusiya ənqazi üzərində təşəkkül edən cümhuriyyətlərin həpsindən qeyri – müsaid bir vəziyyətdə idi. Rusiya türklərindən xidməti - əsgəriyyəyə alınanları yalnız Volqaboyundakı türklər idi. Vəziyyəti – coğrafiyyələri  etibarilə Rusiyadan ayrılmalarına ehtimal olunmadığından bu vəzifəyə alınmışlardır. Türküstan ilə Qafqasiya müsəlmanlarından isə əsgər alınmıyordu. Bu üzdən ordu təşkili azərbaycanlılar üçün pək müşkül bir iş oluyordu. Fərəza, Rusiyadan ayrılmış Ermənistan və yaxud Gürcüstan hökumətləri nəşr eylədikləri bir əmrnamə ilə filan sənəsində rus ordusunda xidmət eyləmiş nəfər və zabitanı silah altına dəvət edincə on gün sonra yeni hökumətin ilk əsgəri – kadrosunu təşkil edən, hərbüzərb görmüş, barıt qoxumuş bir qüvvət vücuda gəliyordu. **Azərbaycan isə bundan məhrum idi**. Məlum A ordusunu ordu edən zabitandır. Bu xü-

susda dəxi Azərbaycan məhrumiyyəti – tammə içində idi. Rusiya ordusunda xidmət eyləmiş zabitan pək məhdud idi. Təşkil olunan qitaət üçün deyil, azərbaycanlı sadə müsəlman alay komandanı bulmaqda sıxı müşkilat çəkiliyordu. Baltik sahili hökumətlərindən, yanılmıyoramsa Estoniya Cümhuriyyəti bolşeviklərə qarşı yapdığı istiqlal müharibələrindən birində verdiyi minə qədər tələfatdan yarısı zabitan idi. Bu zabitanın həpsi əskidən rus xidmətində bulunub, əsgəri ərkani – hərbdən nəşət etmiş estoniyalı zabitlər idi. Azərbaycan cümhuriyyəti isə 500 deyil, kəndi cinsindən 50 zabit belə bulmuyordu. Bunun üçün də Azərbaycan ordusunda beynəlmiləl bir zabitan heyəti vardı. Ordunun bütün siqləti kiçik zabitan öhdəsində idi ki, bunlar da ələləcələ, daha **Nuri Paşa zamanında təsis olunan Gəncə məktəbi – hərbiyyəsindən yetişmə fədakar Azərbaycan gəncləri idi. Bunlar şübhəsiz, vətən və millətpərvər idilər.**

Müşkilat yalnız ordu təşkilatı ilə qalmıyordu. Hökumətin digər xüsusatını idarə etmək üçün dəxi azərbaycanlılar kafi miqdarda mütəxəssis, məmurlar bulamıyorlardı. Çarizm kəndi hökumət makinəsinə müsəlman məmur almazdı. Bu xüsusda qonşularımız gürcülərin mövqeyi daha müsaid idi. Vəqtilə Qafqasiyanın əksər teleqraf, şimendofer və poçta kimi məmuriyyətlərində gürcülər çox istixdam olunuyordu. Zabitə, ümuri – mülkiyyə, maliyyə və ədliyyə kimi xüsusatda müsəlmanlar heç dərəcəsində idilər.

Ermənilərin kilsə məktəbləri, gürcülərin əsil zadəgan təşkilatına məxsus məkatibi – milliyyələri sənələrdən bəri erməni və gürcü məarifini təmin etməkdə ikən, müsəlmanlara böylə bir imtiyaz verilmiyordu. Milli məarif yalnız xüsusi məktəblərdə oxunan əski üsul, məscid "məktəbxanə"lərinə münhəsir idi.



***Zərdabi Məlikzadə Həsən bəy.***
***"Milli və ədəbi intibah fəslində Azərbaycan mətbuatındakı rolu məzkur bulunan bir zat, deyil yalnız Azərbaycanın, bütün Rusiya türk mətbuatı mövqutəsinin piridir. 1875 sənəsində təsis eylədiyi "Əkinçi" qəzetəsi ilə Həsən bəy mərhum, Azərbaycan türklüyündə harsi milliyi tənmiyə edən fədakar bir əkinçidir. Həsən bəy, əkdiyi elim və irfan toxumlarının 1905 sənəsində inkişaf edən milli mətbuatda çiçəkləndiyini görməklə bəxtiyar olmuşdur. Həsən bəy təhsili ali görmüş, təbiyyat müəllimi idi. Hikməti təbiiyə aid türkcə bir çox məqalə və risalələri vardır. 1905-ci sənədə vəfat edən Həsən bəyin keyfiyəti irtihali milli matəm şəklini ehraz eyləmişdir. (Qeyd: Həsən bəy 1907-də vəvat edib -red.)***

Bələdiyyələrdə dəxi müsəlman əhalinin hüququ məhdud idi. Əksəriyyəti müsəlmanlardan olan Bakı və Gəncə kimi şəhərlərdə bir mucib qanun bələdiyyə əzasının nisfi xristian olmaq zəruri idi.

Bütün bunlar yeni hökumət qurulduğu zaman, bittəb, mənfi təsirlərlə hiss olunuyordu. Buna 1918 sənəsindəki kommunizm təcrübəsilə bərbad halə gəlmiş qocaman Bakı petrol ocaqlarının təkrar hali – təbiisinə gətirilməsi kimi müşkilatı əlavə ediniz.

Çarizm zamanında vilayət mərkəzi – ümumiyyəsi Tiflis idi. Mavərayi – Qafqasa aid bütün müəssisati – mərkəziyyə, əsgəri depo və çehavuzlar həp burada idi. Mərkəzini Bakıda quran Azərbaycan hökuməti bu müəssisatı yenidən yapmaq məcburiyyətində idi. **Bakı yalnız dünyanın ənzarini cəlb edən petrol mənbələrinə malik deyildir, Kaspi dənizinin ən mühüm bir limanına da malikdir. Burası İran, Türküstan və Rusiya ilə Avropanı rəbt edən mühüm bir ticarət mərkəzidir**. İkinci bir İstanbuldur. Bakı limanında vəqayeyi – ixtilaliyyədən dolayı atili – dövran mühüm bir ticarət filosu var idi. Bu filonu yarın üçün mühafizə etmək və bunun üçün də taifəsini barındırmaq, idarə etmək lazım idi.

Ortada bu qədər təşkilati – idari müşkilatı varkən Rusiya inqilabının ictimai şüarları ilə qızğın və hadd bir radəyə gəlmiş ərazi məsələsi, əmələ məsələsi kimi hər zaman iştial edə biləcək və bir an əvvəl həllini istəyən əsaslı islahat məsələləri dəxi mövcud idi. Bu qədər idari, ictimai, siyasi, əsgəri və iqtisadi məsaili – daxiliyyə ilə bərabər bir tərəfdən ermənilərlə mənazi – fih olan hüdud məsələsi, digər tərəfdən də Denikin ordusu kimi bir rus təhlükəsinin təhdidi altında bulunan Azərbaycan, hökumət təşkilatına başlayordu. Bu halda Azərbaycan hökumə-

tinin xəlqin etimadı və firqələrin ittihadından başqa bir zəhir və müavini yox idi.

Bundan sonra cərəyan edən vəqayenin əsbabını sərahətən anlaya bilmək üçün məclisi – milliyyənin nə kimi firqələrdən təşəkkül edib də müxtəlif vəqaeyə qarşı nə kimi bir vəziyyət aldığını bir vəchi – ixtisar ərz etmək zərurətini hiss ediyoruz.

**Məclisi – məbusan**[100] 85 məbusandan ibarət idi[21]. Bundan 10 erməni, 5 rus, 5-i də müxtəlif millətlərdən olmaq üzrə 20-si qeyri – müslim olub mütəbaqi 65 əza kamilən islam və bir kaç zatdan maəda, təmamilə türk idi. Firqə etibarilə, məclis şu surətlə inşiab ediyordu: “Müsavat” firqəsi – 27, Müsavata iltihaq edən bitərəf qrup – 6, “İttihad” firqəsi – 11, Sosialist bloku – 10, Əhrar firqəsi – 7, Müstəqiləl - əfkar – 3.

**“Müsavat” firqəsi** məfkurə etibarilə milliyyətpərvərlikdən doğma, türkçülük məsləkinə qail bir firqədir. Daha müfəssəl ismi: Türk Ədəmi – Mərkəziyyət Müsavat firqəsidir. Azərbaycan Cümhuriyyətinin ələmdarıdır. Bu şüarı ilk dəfə ortaya atmaq və onu yalnız əcnəbilərə deyil, bir qism azərbaycanlılara qarşı dəxi müdafiə etmək etibarilə Müsavat birinci Azərbaycan istiqlal firqəsidir. İctimai nəzəriyyəsinə görə xalqçılıq məsləkinə sadiq, radikal – demokrat bir proqrama malikdir. Heyəti – vükəla rəisi Nəsib bəy bu firqənin müəssislərindən idi.

**Bitərəf qrup**[101] – ali təhsil görmüş bir kaç münəvvəran ilə burjua sinfinə mənsub zəvatdan ibarət olub, firqəyə girmədən qrup halında “Müsavat” firqəsi ilə siyasəti – ümumiyyə üzərinə müttəhid bulunuyorlardı. Heyəti – vükəla rəisi mərhum Fətəli xan bu qrupa mənsub idi.

---

[21] Rəsmən məbusan 120 əzadan təşəkkül etmək iqtiza ediyor idisə də, feilən 85 əzayə malik idi.

**“İttihad” firqəsi**[102] əvvəlcə “Rusiyada müsəlmanlıq” namilə təsis etmişdi. Rəsmi məfkurəsi İttihadi – islam idi. Firqənin riyasətində Türkiyəcədə məruf Qarabəyov Qara bəy[103] bulunuyordu.

**Sosialist bloku**[104] qismən socialist – demokrat (menşevik), qismən də xəlqçi socialist məbuslarından təşəkkül ediyordu. Birincilərin rəisi Ağaməli oğlu Səmədağa[105], liderləri Əbilov İbrahim bəy[22][106], ikincilərinki Arslan bəy Səfikürdski[107] idi.

**Əhrar firqə**sinin[108] məfkurəsi dəxi türk xalqçılığı olub, proqram etibarilə Müsavata yaxın idi. Rəisləri Arslan bəy Qardaşov[109] idi.

Şu sətirlər və burada göstərilən parlaman ərqamı üzərinə bir az düşünülürsə, əfkari – ümumiyyənin tovhidindən başqa bir qüvvətə istinad edəməyən Azərbaycan hökumətinin istər – istəməz mütəmərkəz bir şəkildə təşəkkül edə biləcəyi aşkar olur.

İlk təmərküz bir çox müşkilatdan sonra “İttihad” xaricdə qalmaq surətilə bütün qrupların iştirakı ilə hasil olundu. “İttihad”ın ilk təmərküz xaricində qalması bütün firqələrcə şayistə görülən Fətəli xanə müariz bulunmasından irəli gəliyordu.

İlk kabinə, firqələrin hökumət rəisinin şəxsinə və proqramına etimad etmək surətilə təsis eyləmiş, hökumətə alınan nazirlər də firqə mənsubiyyəti və ədəd nisbəti şərt edilməmişdi.

Bir kaç ay sonra firqələrin bu surətlə təmin eylədikləri etimadlarına rəxnə gəlincə Fətəli xan kabinəsi bilistefa yerinə Yusifbəyli Nəsib bəy kabinəsi təşəkkül etdi (14 nisan 1919).

**İlk Fətəli xan kabinəsi firqə prinsipləri xaricində** “İş adamlarından” təşəkkül etmiş ikən Nəsib bəy[110] kabinəsi

[22] Bunlar istiladan sonra irtidadla bolşevik olmuşlar.

“İttihad” firqəsi yenə xaricdə qalmaq şərtilə firqə mümessillərindən təşəkkül etdi. Bu kabinə dəxi təbəddülə uğrayaraq 24 qanuni - əvvəldə Nəsib bəy ikinci kabinəni təşkil eylədi. “İttihad” firqəsi ilə bərabər ilk Fətəli xan kabinəsinin ərkanı da daxil olmuşlardı. Bu, Azərbaycan Cümhuriyyəti – milliyyəsinin son kabinəsi.

Bütün bu kabinə təbəddülatında Məclisi – məbusanın həm ədəd, həm şəxsləri etibarilə daha qüvvətli bir mərkəz firqəsi olduğundan bütün siqlət “Müsavat” firqəsi öhdəsində idi. Fəqət, “Müsavat” mərkəzi yalnız kəndi ədədinə istinadla mütəcanis bir hökumət yapmaq iqtidarında deyildi. Mütəmərkəz bir kabinə təşkil edincə də idrak eylədiyi siyasəti istədiyi kimi tətbiq edəmiyordu. Üç dəfə təbəddül edən bu kabinələrdə ədəd etibarilə müsavatçılar sülüs təşkil etdikləri halda hökumətlərə Müsavat hökuməti və işlərinə Müsavat tətbiqatı dinilmək bir etiyad idi. Milliyyətpərvərlik və Azərbaycan naminə nə yapılıyorsa, onun xaricindəki ismi “Müsavat işi” idi. Böylə bir şöhrət səbəbsiz deyildi. Azərbaycan fikri “Müsavat” firqəsinin zadeyi - əfkarı idi. Onun üçün dəxi hər şey ona ətf olunuyordu. Məbusandakı nisbi əksəriyyəti dəxi buna bir səbəb təşkil ediyordu.

Mərkəz vəziyyətində bulunan “Müsavat” firqəsi Cümhuriyyətin ibtidai təşkilində təhlükənin mürtəce Rusiyadan gələcəyi qənaətilə hökumət təşkil edərkən sol cinahı təşkil edən Sosialist firqələrinə daha çox isinmiş və Denikin[111] təhlükəsi zühur edincə bu təmayülünün nə dərəcədə mucib olduğunu görmüşdür. Son zamanlarda Rusiya təhlükəsi Denikin kisvəsindən  bolşevik qiyafətinə girincə Sosialistlər təmərküzün ümidli istinadgahını təşkil etmək mahiyyətini qaib ediyordu. Bu halda mərkəzin istər – istəməz sağ tərəfə meyl etməsi zərurət hökmü-

nü alıyordu. Mərkəzin bu təmayülü isə nəticədə "İttihad"ın da kabinəyə iştirakını mucib olmuşdur. Yalnız bu xüsusdakı nəzəri ümid feiliyatə gəlincə başqa bir taqım əvamil təsiri ilə məmulun xaricində bir nəticəyə vardığından Cümhuriyyətin süqutunu mucib saiqlərdən birisini təşkil eyləmişdir.

**Firqələr arasında** mövcud təşəttütara ilə bərabər Məclisi – məbusan, orduya aid təxsisat, Şimal təhlükəsinə qarşı Gürcüstan Cümhuriyyəti ilə əqd olunan tədafeyi müahideyi əsgəriyyə, Denikin istilasına düçar olan Dağıstan Cümhuriyyətinin istixlas mücadiləsinə yardım, əcanibə qarşı müdafiəyi – istiqlal üçün yapılan diploması təşəbbüsat kimi məsələlərdə ümumi bir cəbhə vəhdəti göstərib, yalnız əmələ hərəkatı ilə bolşevik təcavüzünə qarşı lazım gələn vəhdəti kəndisində bulammamışdı.

Əcəba, neyçün?..

* * *

Yuxarıdakı sualın cavabını qare, aşağıdakı füsulun qiraətindən sonra kəndi kəndinə alır. Biz isə şimdilik məclisi – milli hökumətinin 17 ay zərfindəki fəaliyyət və müvəffəqiyyətlərini xülasə edəlim:

**Əvvələn:** piyadə, süvari, topçu, təyyarəçi, teleqrafçı kimi hər növ silah ənvaindən mütəşəkkil 17 min miqdarında[23] bir

[23] **Azərbaycan ordusu** iki piyadə firqəsi ilə bir süvari firqədən ibarət idi. Hər piyadə firqə metralyozları ilə bərabər 3 alaydan və 2 də topçu alayından ibarət idi. Süvari firqəsi isə metralyozları ilə bərabər 3 alaydan və 1 də süvari topçu alayından təşkil ediliyordu.

Birinci piyadə firqəsi: 1 – Cavanşir, 2 – Zaqatala, 3 – Gəncə alaylarından təşkil olunub. İkinci piyadə firqəsi: 4 – Quba, 5 – Bakı, 6 – Şamaxı alaylarından ibarət idi. Üçüncü firqənin ibtidasını təşkil etmək üzrə 7-ci Lənkəran alayı təşəkkül etmişdi. Hər alayın mövcudi 2 min süngüdən ibarət olub, bir firqənin mövcudi 6 min miqdarında idi. Süvari firqəsi – 1-ci Tatar, 2-ci Qarabağ və 3-cü Şəki alaylarından ibarət idi. Piyadə və süvari firqələrdən müstəqil olaraq iki Obus bölüyü dəxi mövcud idi. Bunlara 6 ədəd zirehli avtomobil ilə bir kaç danə də zirehli Qatar zəmimə olunuyordu. Azərbaycan ordusunda 600-ə qədər zabit vardı ki, bunlardan

ordu hazırlanmış, məktəbi – hərbiyyə təsis olunmuş, kiçik bir filo tərtib edilmişdi. **Saniyən:** Bütün Azərbaycan qitəsində əsgəri, mülki və zabitə təşkilatı vücudə gətirilmiş, məmləkətdə əmniyyət və asayiş təsis olunaraq rus asirlərinin ziri - əsarətin-



***Azərbaycanda Nuxada, Qafqasiya İslam Ordusu komandanı Nuri Paşaya yapılan istiqbal mənazirindən bir lövhə***

də bulunan Lənkəran qəzası ana vətənə iadə edilmiş, türklərin Qafqasiyada bulunduqları zaman belə təslim olmayan Qarabağ erməniləri ilə etilafi – hüsulə gələrək Azərbaycan hökuməti kəndilərinə tanıtdırılmış, Bakıdan pək uzaqda bulunan Naxçıvanın Ermənistan hökumətinə qarşı mücadiləsi mənən, maddən, siyasətən təqviyə olunaraq oraya vali göndərmək surətilə Azərbaycana mərbutiyyəti – idarə dəxi təhti – təminə alınmışdır. **Salisən:** mali və iqtisadi islahatə şüru edilmiş,1918 sənəsi mart qırğınından sonra hökumət edən bolşeviklər zamanında

yalnız 60-I ərkani – hərb kadrosundan yetişə idi. Mövcud zabitanın, mətndə izah edildiyi vəchlə, yalnız yüzdə əllisi azərbaycanlı idi.

seyri – təbiisindən çıxaraq bərbad bir hala girən petrol mədənlərinin idarəsi yoluna qoyulmuş, ilğa olunan dövlət bankası yenidən Azərbaycan bankası namilə təsis edilmiş, köy istehsalatını təqviyə üçün köylülərə məxsus ufaq kredi bankları güşad və şəhərlərdə dəxi əmanət sandıqları yenidən vücudə gətirilmişdi. Azərbaycanlılardan ufaq məmurlar yetişdirmək üçün xüsusi müəssisələr, türk gənclərinə məxsus olmaq üzrə teleqraf, makinə və şimindofer məktəbləri açılmış və əvvəlcə heç yox ikən dəmiryol xidmətinin yüzdə əllisini türklərdən yapa biləcək qədər müvəffəqiyyət göstərilmişdi.

Məarifə gəlincə, məktəbləri bir an əvvəl türkcələşdirmək üçün təsis olunan təlif və tərcümə əncüməni mərifətilə məkatibi – ibtidaiyyəyə məxsus dərs kitabları təlif və təb edilmiş, mövcud edadiyyələrdən bir qismi milliləşdirilmiş, məmləkətin müxtəlif yerlərində 7 darülmüəllimin və bir darülmüəllimat güşad edilmiş, Bakı darülfünunu təsis olunmuş, müxtəlif xüsusatda ali təhsil görmək üzrə hökumət hesabına yüzə qərib tələbə müxtəlif Avropa mərkəzlərinə göndərilmiş, Türkiyədən əlliyə qərib müəllim və müəllimə cəlb olunmuş, köylərdə ibtidai məarifin təmimi və məarifi – ümumiyyənin tövsii üçün müvəqqət pedaqoji kursları təsis etmiş, milliləşdirilmiş və daha milliləşdirilməmiş olan məkatibi – edadiyyədə rus tarixi dərsinin yerinə ümumi türk tarixi vəz edilərək türkcənin bütün məktəblərdə tədrisi məcburiyyəti – qanuniyyə təhtinə alınmışdı.

**Türkcə lisan rəsmi elan olunaraq**, ruscanın yalnız istihalə dövrünə məxsus olmaq üzrə müvəqqət bir zaman üçün qollanılmasına müsaidə edilmişdi.

Vilayətlərdə hakimiyyəti – milliyyə əsasını vəz etmək üzrə vilayət məclisləri təşkilinə aid layihəyi – qanuniyyə ehzar və

məclisə tovdi edilmiş idi. Bu qanuna görə vilayətlər məhəlli işlərini bilzat kəndiləri röyət etmək həqqini haiz olub məmurini – zabitəyi belə kəndiləri təyin ediyorlardı. Eyni zamanda mülkiyyət əsasını iqba etmək surətilə ərazi məsələsinin köylünü irza edəcək bir surətdə həllini mütəsəvvir bulunan layihəyi – qanuniyyə dəxi Məclisi – məbusan komisyonunun tədqiqinə vəz edilmişdi[24].

Anarşi sənələrində müdhiş xəsarə uğrayan münaqilat və vəsaiti – nəqliyyə yoluna qoyulub Gürcüstan ilə yapılan müqavilə üzərinə Bakı – Batum dəmir yolu müntəzəm surətdə işləyor. İxtilal əsnasında pozulan Bakı – Batum petrol borusu əskisi kimi axıyor. Azərbaycan iqtisadiyyatı üzərində böyük təsiri olacaq Culfa – Alyat dəmiryolu inşaatına davam etdirilərək, Kür nəhri üzərində yapılan cəsim – köprünün rəsmi iftitahı bəkləniyordu[25].

**O zaman Azərbaycanı tədqiq üçün gələn müxtəlif Avropa və Amerika heyətlərinin Avropa qəzetələri ilə nəşr etdikləri təsirat tədqiq olunacaq olursa, Azərbaycan türklərinin az zamanda pək çox əsəri – həyat və emar göstərdiklərinə şəhadət etdikləri görülür.**

Hüquqi – siyasiyyə və əhliyyəti – vətəniyyədən məhrum, ümumi – hökuməti idarəyə yaxın buraxılmayan məhkum bir Şərq millətinin ilk imkanda bütün müşkülatə rəğmən, bu dərə-

24 “Müsavat” firqəsi tərəfindən təqdim olunan bu proje xüsusi əllərdə olan böyük ərazini həcz etdikdən sonra torpaqsız köylü arasında biləvəz təqsim eyləmək əsasına müstənəd idi. Fəqət köylüyə veriləcək, yaxud mülkiyyəti – siğirəyə rəayətlə kəndisində buraxılacaq ərazi üzərində mülk sahibinin həqqi – mülkiyyəti tanınıyordu. Köylü malik olduğu ərazinin səthində istədiyi kimi təsərrüf edə biliyordu. Yalnız ərazi təhtində bulunan dəfain və mədəniyyət üzərində xüsusi mülkiyyət həqqi tanınmayıb həqqi – mülkiyyət təmamilə dövlətə veriliyor idi. Ərazi təhtindəki maddinin surəti – istifadəsinə aid xüsusat isə layihəyi – məzkurəcə ayrıca tədvin olunacaq qanuni – məxsusilə tovzih edəcəkdi.

25 Bu yolun inşaası ilə Bakı bilavasitə və ən qısa bir xətlə Təbrizə vasil oluyor.

cədə mədəni bir üsuli – idarə qurmaq qabiliyyətini göstərdiyi bu istedad sayəsində idi ki, Azərbaycan Cümhuriyyəti düvəli – müttəfiqənin və bütün dünyanın nəzər – diqqətini cəlb ilə beynəlmiləl bir həyatə giriyordu. 12 kanuni – sani 1920 tarixində iniqad edən düvəli – müttəfiqə şurayi – alisi Azərbaycan cümhuriyyətini bileil tanıtdı[26]. Rusiya imperatorluğunun ənqazi üzərində vücud bulan cümhuriyyətlər arasında Azərbaycan, Avropaca tanınmış yeganə bir islam mövcudiyyəti idi. Bu yeni türk hökuməti eyni zamanda bütün aləmi – islamda ilk dəfə təşəkkül etmiş bir cümhuriyyət idi. Türk aləmində və türk tarixində böyük bir vəqəyi – xeyir təşkil edən bu hadisəni yalnız bilzat əlaqədar olan Azərbaycan təsid etməyordu. "Sevr"[113] müahidəsinin zərbeyi – həlakı altında kəndi yarələrinin acısilə sızlayan İstanbul türklüyü dəxi bu vəqəni mənimsəyərək təsid ediyordu. Türk ocağının darülfünun salonunda bu münasibətlə yapdığı ihtifal, qardaşlıq naminə ən səmimi təzahürlərə vasitə oluyordu[27].

Bu vəqədən daha əvvəl 1919 sənəsi aqustosunda Azərbaycan Mondrus mütarikəsi mucibincə Qafqasiyaya gələn ingilis ordusu tərəfindən təxliyə edilmişdi. Bu vəqə münasibətilə hökumət rəisi Nəsib bəy məbusanə: "Bu gündən etibarən təmamilə müstəqil bir hökumət halını iktisab etməklə, əfəndilər, Sizi təbrik edirəm!" – deyə xitab ediyordu.

Şu surətlə təsis edən Azərbaycan Cümhuriyyəti artıq beynəlmiləl bir həyat və münasibətə başlamışdı. Bütün qonşuları ilə hüsni – münasibat təsisi arzusunun son dərəcəsini təşkil ediyordu.

---

[26] Bolşevik istilası vaqe olmuya idi, Gürcüstan Cümhuriyyəti ilə bərabər Spada[112] təşəkkül edən konfransda (22 kanuni – sani 1921) Azərbaycan Cümhuriyyəti dəxi bilhüquq tanınacaqdıki, bu hadisə istiladan 2 həftə sonra vaqe oluyordu.

[27] Şayani - əsəfdir ki, o zaman İstanbul müməssili bulunan zat fəzlə bir əsər ehtiyat göstərməklə bu təzahürata qarşı laqeyd görünmək zərurətinə qail olmuşdur.

**Xristian qonşularından Gürcü Cümhuriyyəti ilə olan münasibatı çox dostanə idi.** Bu iki cümhuriyyət arada mövcud ixtilaflı məsələlərin hökm vasitəsi ilə həllinə mütəqabilən müvafiqət eyləmiş, Rusiya təhlükəsini eyni dərəcədə hiss etdiklərindən Şimala qarşı tədafö bir müqaviləyi - əsgəriyyə belə əqd eyləmişlərdi. 7-8 maddədən ibarət bulunan bu müqavilə 1920-ci ilin ibtidalarında imza edilmiş və təsdiqi Azərbaycan Məclisi – məbusanı ilə Gürcüstan Məclisi – məbusanında mütəqabil təzahürati – dostanəyi bir vəsilə təşkil eləmişdir.

Bu müqaviləyə erməni hökumətinin dəxi vəz imza etməsi tərəfin əqidincə təklif olunmuşsa da, məzkur hökumət bu təklifi qəbul etməmişdir. Məmafih erməni siyasilərinin bütün əksliklərinə rəğmən Azərbaycan Məclisi – məbusanı Ermənistan ilə mövcud olan məsailin də sülhən təsviyəsini arzu eyləyordu. Bu məqsədlə o, 1919 tarixində Tiflisdə iniqad edən Mavərayi – Qafqas konfransına iştirak eylədiyi kimi, 1920 tarixində dəxi Bakıda Azərbaycan – Ermənistan konfransını dəvət eylədi. Bu konfransda Mavərayi – Qafqas Cümhuriyyətlərini xaricə qarşı müdafiə edə bilmək üçün Azərbaycan hökuməti Mavərayi – Qafqas konfederasionunu təklif eyləyordu.

Azərbaycan paytaxtında digər şərəfli bir konfrans dəxi ictima eyləmişdi. **Bu da Azərbaycan – İran konfransıdır.** Bu konfransda İran ilə Azərbaycan Cümhuriyyətinin bilcümlə məsaili – siyasiyyə, iqtisadiyyə və ticariyyəsi tənzim edilmiş idi. Bu konfransda imza olunan müahidə mucibincə İran hökuməti Cümhuriyyətin istiqlalını bilhüquq tanıyor, **Cümhuriyyət dəxi İrana Avropa ilə münasibəti – ticariyyədə bulunmaq üçün transit haqqını veriyordu.** Bu surətlə iki dindaş millət arasın-

da qayət səmimi münasibət təsis ediyirdu. Tehranda Azərbaycan səfiri bulunduğu kimi Bakıda da İran səfiri bulunuyordu. Bu müahidə Məclisi – məbusanın 1920 sənəsi mart cələsələrindən birində müntəzəm bir surətdə təsdiqə iqtiran etməklə iki dost millət arasındakı vədadü – vəfaqi bir qat daha təzyid eyləmişdir. Məclisin son dərəcə əhəmiyyətlə tələqqi eylədiyi məsələlərdən birisi də Şimali Qafqasiya Cümhuriyyəti idi. Bu Cümhuriyyət "Terski oblast"[114] ilə Dağıstan ərazisini ehtiva ediyordu. Dağıstan çarizm zamanında idarətən Cənubi Qafqasiyaya tabe ikən Rusiya ixtilalı zamanında məclisi – müəssisan intixab nizamnaməsi mucibincə - dağlılardan bir qisminin mütalibəsi üzərinə Şimali Qafqas ilə bir məntəqəyə ayrıldı. Bu andan etibarən irəlidə cərəyan edən həvadis Dağıstan müqəddəratını Mavərayi – Qafqasiyadan ayırdı. Qafqas vilayətləri ayrı – ayrı siyasi mövcudiyyətlərə inqisam edincə Dağıstan ilə Terski oblast Şimali Qafqas namilə bir Cümhuriyyət təsis etdi. Müxtəlif əqvamdan təşəkkül edən bu ərazi hökumət təşkilində bilxassə düçari – müşkülat oluyordu. Məzkur Cümhuriyyətin təsisi Azərbaycanın həyati mənafelərindən idi. Bilxassə Dərbənd kimi tarixi bir bəndəri (limanı) haiz olan Dağıstan rus əlindən qurtarmazsa, Azərbaycan kəndisini əmini – zənn edəmməzdi. Fəqət, kəndisi daha hali – təşəkküldə bulunan Azərbaycan Dağıstana yalnız maddi müavinətdə buluna biliyordu. Məclisi – məbusan Şimali Qafqas hökumətinə 50 000 000 (əlli milyon) ruble[28] iqraz etdi. Bu məbləği təxsis edərkən Məclisi –məbusan

[28] Azərbaycan qaiməsi ilə tədiyyə edilən bu istqrazın qiyməti - əsliyyəsi həqqində səhih bir fikir edilə bilmək üçün söyləməliyiz ki, o zaman bir ingilis funtu – 20 rubleyə müqabil idi. Bu surətlə istiqraz məzkur iki bucuq milyon funt edir. 1919 sənəsinə məxsus Azərbaycan büdcəsi məsarifi – aidiyyəsini 415 milyon ruble he-

firqələri buna bir qərəz kimi baxmayıb, iki qardaş millətin mənafei – müştərikələrinə sərf olunacaq zəruri bir təxsisat kimi baxıyorlardı.

**Azərbaycan bu məsələdə yalnız təxsisati – nəqdi ilə qalmamışdır**. Denikinə qarşı mübariz bulunan Dağıstana yardım üçün Nuri Paşa təşkilatına[29] hər növlə yardımda bulunmuşdur. Dağıstan hökumətinin Denikin intriqa və təcavüzü üzərinə inhilalı dağıstanlılar qədər Azərbaycanı dəxi mütəəssir eyləmişdir.




***Azərbaycan Ordusunun Bakıya vürudu mənzərələrindən: bir süvari alayı Məbusan Dairəsi önündən keçərkən***

Dağıstanın Denikin istilasına məruz qalması Məclisi – məbusanda, əfkari – ümumiyyədə qeyri – qabil təsəvvür, bir həyəcan

sab edildiyini nəzərə alıyorsaq, Dağıstan hökumətinə edilən iqrazın dövlət büdcəsinin 8/1-ni təşkil eylədiyini görürüz.

[29] O zaman millətçi olaraq Azərbaycanda bulunan Nuri Paşanın komandasında Dağıstanı, Denikin istilasına qarşı mübarizəsində təyid üçün Azərbaycan hökumətinin iqtila və müvafiqətilə bir təşkilati – məxsusə vücudə gətirilmişdi.

doğurmuş və qardaş dağlıların istixlası üçün zaman və məkanın müsaidə eylədiyi tədabiri – ittixazinə təvəssül edilmişdir.

Zamanın əzimi – böhranları içində çırpınan Acara, Qars və Araz boyundakı islamlar dəxi Azərbaycan Cümhuriyyətinə, onun maddi və mənəvi müavinətinə rəbte – ümid ediyorlardı. Cümhuriyyətə bəhri Xəzərin qarşı tərəfində bulunan türkistanlılardan dəxi mürəxxəslər gəlib istimdad və istianədə bulunuyorlardı. Olmadıq müşkilat içində bulunan Cümhuriyyət, əhvali – siyasiyyə və vəziyyəti – mövcudunun müsaidə etdiyi bir vəchlə bütün bu müraciətləri nəzəri – diqqət və etinayə alaraq mümkün olan müavinəti icra ediyordu. Türküstan ilə münasibəti – siyasiyyəyə girişmək üçün oraya konsulus sifətilə bir məmuri – məxsus dəxi göndərilmişdi.

Azərbaycan Cümhuriyyəti kəndi mövcudiyyəti – siyasiyyəsini təminə həsri – ovqat eylədiyi zaman qətiyyən türk və müsəlman əfkari – ümumiyyəsinin məzhər tovcihi olmaqla mənən qüvvətli olduğunu unutmayordu. Bu tovcihə digər bir müəssisə ola bilməsi üçün nə mümkünsə onu icra etmək istəyor və ediyordu.

**Müstəqil Azərbaycan hökumətinin üsuli – idarəsi xalq cümhuriyyəti əsasına mübtəni idi. Tam bir parlamentarizm və məsuliyyəti – vükəla üsuluna rəayət olunuyordu. Hürriyyəti – kəlam, mətbuat və ictimaat dəxi bülğənmabulğ təmin edilmişdi.** Bu xüsusda bəzi münəqqidlər bəlkə həddindən ziyadə bir liberalizm göstərdiyini dəxi qeyd edərlər.

Bir dövreyi – təşəkkül və təəzzüvdə bulunan bu novzad siyasisətin şübhəsiz şayani – tənqid nöqsanları az deyildi. Bunların ən böyüyü bu kimi dövrlərə məxsus məhkum bir idarənin,

qəvi bir hökumətin həqqilə təsis ediləmmədiyidir. Təşəttüti - əfkarın tovhidi üçün tətbiq olunan iqna üsulu ilə bərabər bir az daha icbar təriqinə gediləsidi. Ehtimal ki, nəticeyi – vüquat başqa dürlü olurdu.

Bunu da unutmayalım ki, Azərbaycan Cümhuriyyətinin fəlakəti, daxilindəki üsyanlardan ziyadə, xaricdən gələn təcavüzkar bir qüvvət üzərinə zühur eyləmişdir. Məqsədimiz müfəssəl bir təhlili – vəqaye olmadığından risaləmizin hövsələsinə sığar bir xülasə ilə iktifa ediyoruz.

## VII

## HADİSATİ – MÜHÜMMƏ ƏRƏFƏSİNDƏ

**Azərbaycan münasibəti – beynəlmiləliyə hənus girmiş və makinəsi yeni qurulmuş bir hökumət halında ikən qayət təhlükəli bir dövr keçiriyordu.**

Başı üzərində daimi bir təhdid surətində asılı duran Denikin qüvvəti vardı. Əski Rusiyayı təmsil edən bu qara qüvvət Azərbaycan Cümhuriyyətini dəfələrlə təhdid eyləmişdi. Vəqtilə Qızıl Moskvayı belə təhdid etməkdə olan bu qüvvət bir həmlədə Bakıya enməyor və yaxud Kaspi dənizindəki donanması ilə Azərbaycan paytaxtını bombardıman etməyor idisə, məhzən düvəli – müttəfiqə ilə mərbut olduğu üçün buna cəsarət edəmiyordu. Düvəli – müttəfiqə tərəfindən müavinəti – ciddiyyəyə məzhər olan bu qüvvət ilə Cənubi – Qafqasiya cümhuriyyətləri arasında hər növ müsadimatə neydan verməmək üçün Qara dənizdən Kaspi sahilinə qədər bir "Xətti – fasil" təyin edilmiş, Denikin ordusunun bu xətt cənubuna enməsi siyasətən təmin olunmuşdu.

Martın sonlarına doğru Denikin ordusu müdhiş bir süqut ilə inhilal ediyordu. O zaman Dağıstanı təhti – işğalında bulundurmaqla Azərbaycan üzərində əndişələr doğuran bu qüvvət (Şimali Qafqasiya ilə Dağıstanda) yerini Qızıl Orduya tərk ediyordu.

**Denikini təqib edən bolşevik ordusu** bütün millətlərin hüquq və hakimiyyəti – milliyyəsini sözdə elan və təsdiq ediyorsa da, Denikindən daha az müzürr bir qüvvət olduğunu

işdə isbat etməmişdi. Bolşeviklər bir tərəfdən qəvayi – müsəlləhələri ilə Qafqasiya cümhyriyyələri hüduduna yaxınlaşıyor, digər tərəfdən də Qafqasiya məmləkətləri daxilindəki firqə təşkilatlarına qüvvət və fəaliyyətləri ilə gərmi veriyorlardı. Çiçerin[115] Azərbaycan və Gürcüstan Cümhuriyyətlərinə telsiz teleqrafla göndərdiyi notasında bu hökumətləri, ricət edən Denikin ordusunu təmamilə məhv etmək üçün silah arkadaşlığına dəvət ediyordu. Bu nota, cümhuriyyətlərin istiqlalını tanımaq və müxadinət müahidəsi əqdini istəməkdən ziyadə əhaliyi hökumət əleyhinə təhrikdən ibarət bir propağan hökmündə bulunuyordu.

Azərbaycan Cümhuriyyəti (Gürcüstan kəza) kimsəyi kəndi ümuri – daxiliyyəsinə müdaxilə etdirəmədiyi kibi, Rusiya ümuri – daxiliyyəsinə mütəlliq Denikin ordusu təqibatına dəxi müdaxilə etmək arzusunda bulunmadığını qeyd ilə, aldığı notaya verdiyi cavabda, bolşevik Rusiyasilə sülh və müxadinət təsisinə kəmali – məmnuniyyətlə mühəyya olduğunu bildiriyor və Azərbaycanın həqq istiqlalını tanımaq səlahiyyəti – kamiləsini haiz Rusiya mürəxxəslərinin intixabını təklif ilə, Azərbaycan mürəxxəsləri ilə vaqe olacaq təlaqi məhəllənin dəxi təyinini istəyordu. **Fəqət, Qızıl Xariciyyə naziri** vəz olunan müəyyən məsailə sərih və qəti bir cavab verməkdən isə Azərbaycan ümuri – daxiliyyəsini tənqid edər "İntibahnamə" qeylü – qallı notaları ilə izahını təşviş etməyi daha münasib buluyordu.

Bu notalar təati edildiyi sırada Denikin ordusunun bolşeviklərdən qaçan bəqiyyəsi, Kaspi filosu ilə bərabər, Bakı limanına iltica ediyordu. Bir az əvvəl, 1828 sənəsində münəqid "Türkmənçay"[116] müahidəsinə istinadən, Azərbaycana müraciətlə Kaspi dənizində Rusiya bandirasından başqa bir bandiraya

təhəmmül edəmiyəcəyini söyləyən qüvvət şimdi protesto etdiyi bayrağın sayəyi - əmamına sığınıyordu. Bu surətlə Denikin Filo və ordusundan bir qismi hüquqi – beynəldüvəl məvadindcə silahını tərklə Azərbaycan hökumətinə iltica ediyordu.

Denikin ordusunun şu surətlə inhilalı və Qafqasiya Cümhuriyyətlərinə ilticası nəticəsində şübhəsiz ki, Azərbaycan ən müdhiş bir təhlükəyi adladıyordu. Fəqət, eyni zamanda da "Atəşdən çıxıb alova düşüyordu".

**Denikinin yerinə şimdi Lenin qüvvəti qaim olmuşdu.** Bu da bir rus qüvvəti idi. Həm də bu qüvvət ötəki kibi deyil, ondan daha qorxunc bir qüvvət idi. Çünki, ötəki qüvvətə bütün təbəqati – nas müariz və kəndisinə qarşı müdafiə ikən, kimsədə onun düşmən bir qüvvət olduğuna şübhə yox ikən, bu yeni öylə deyildi. Bunun iğfalkar şüarları vardı. Bu, millətlərin hakimiyyətindən, istiqlalından, Şərqin istixlasından bəhs ediyordu. Füqərayə cənnət vəd ediyordu. İmperialistlərə qarşı mübariz bulunan Türkiyəyə müavinət etmək üçün bir an əvvəl əlini mübariz Anadolu əlinə verəcəyini vəd ediyordu.

Bu sonku şüar bixassə müəssir idi. Çünki, Türkiyə dərdi ilə yanan Azərbaycan qəlbinin həssas nöqtəsinə basıyordu. Bu şüar bilxassə bolşevikləri yalnız sözləri ilə tanıyan və kəndiləri ilə hesabları bulunmayan bəzi türk (Türkiyə mənasına) rical və zabitanı üzərinə pək böyük bir təsir icra ediyordu.

**Həm həqiqətən əhval nə mərkəzdə idi?**

İstanbulda misaqi – milliyi elan etmiş Məclisi – məbusan düvəli – mütələfə komandanlığı tərəfindən dağıdılmış, məbusandan mühüm bir qismi Maltaya göndərilmişdi. Türklüyün şanlı qəhrəmanı Qazi Mustafa Kamal Paşa[117] bir kaç sadiq yarani ilə Ərzrum və Sivasın hicra guşələrində, Anadolunun fə-

dakar elində, bu günkü məhirül – üqul bir zəfərlə tamamlanan hərəkati – milliyyəyi ehzar ediyordu. Bu hərəkatı, zühurunun ibtidasında boğmaq məqsədilə hər növ silahi – müdafiədən təcrid edilmiş qəvayi – milliyyə üzərinə, minqeyri – həqq, düvəli – müttəfiqə tərəfindən kəndisinə tərk olunan İzmirə çıxan yunan ordusu, qeyri – qabil təsəvvüri – məzalimlə, Anadolunun bağrına doğru təcavüz ediyordu. **Bəridə dəxi ermənilər bütün Şərqi Anadoluyu təməllük etmək üzrə qəvayi – milliyyənin başı üzərindən Yunanıstana əl uzadıyordu.** Böylə bir halda "Suya düşən ilana sarılır" fəhvasınca, Türkiyənin xilas və nicatına mətuf hərəkati – milliyyə zamandaranı dünya imperialistlərinə qarşı livan – üsyan açmış bir vəziyyətdə bulunan Rusiya səmtinə baxıyor, oradan bir imdadi – ümid ediyorlardı. Rusiya ixtilalını idarə edənlər Türkiyənin bu tovcihindən və bu ehtiyacından pək qövrnazca istifadə edəcəklərdi. Bu istifadə nəticəsində ən azı, əldən getmiş bulunan Qafqasiya, başda Bakı petrolları olmaq üzrə təkrar Rusiya – iadə ediləcəkdir.

**Ortaya bir şüar atılıyordu: bolşevik Rusiya kapitalın düşmənidir.** Mübariz Türkiyə Avropa imperializmi ilə ölüm və dirim mübarizəsindədir. Ankara mübarizlərinə yardım etmək Moskvanın arzusudur. Bu yardımın təmini üçün Qafqasiyada bizə dost hökumətlər təsis eyləmək və bir an əvvəl Qızıl Orduyu Anadoluya sövq etməklə türklərə müavinət eyləmək lazımdır.

İzmir fəlakətzadələri faidəsinə məmləkətin hər tərəfində ianələr toplmaqla məşğul və qəzetələri ilə Türkiyənin matəmlərinə iştirak edən Azərbaycan xalqı üzərində böylə bir propağan nə kibi təsirlər icra edəcəyini və bu surətlə nə kibi vəqaye ehzar olunacağını təsəvvür ediniz. Bolşevik ağzından eşidilən bu sözlərə bir də, bu sözün başqa məqasidi – məxsusədən ibarət

olmadığına qane görünən, Azərbaycanda müsafir və xidmətdə bulunan Türkiyəli zinüfuz qardaşlarımızın tövr və hərəkətlərini əlavə edərsiniz, o vəqt bolşevik lehində yapılacaq hər hankı bir ixtilalın nə sühulətlə vüquə gələ biləcəyini təqdir edərsiniz.

Azərbaycan millətpərvərləri bolşeviklərin Rusiya daxilində qaldıqca qətiyyən müarizləri deyildilər. **İxtilalçı Rusiya**



***Azərbaycan Ordusu bir piyada qrupu***

**ilə mübariz Türkiyə arasında** hail olaraq Anadolu hərəkati – milliyyəsinə əngəl təşkil edən bir qüvvət dəxi deyildilər. Yalnız Azərbaycan Cümhuriyyətinin həqiqi istiqlalını tanımaq şərtilə onlar bolşeviklər tərəfindən elan olunan şüarların səmimiyyətinə inana bilirlərdi. Yoxsa "Bütün oyunun Xoca Nəsrəddinin yorğanı üstündə oynanacağına" şübhələri yox idi.

Bir tərəfdən Türklüyün şanlı ələmdarını bütün Şərq tarixini didərgin edəcək əzim süqutdan qurtara biləcək təşəbbüsə mane olmamaq, digər tərəfdən də Türklük aləminin bilinməyini təşkil edən növzad bir Cümhuriyyəti kəndi əlilə qırmamaq – iştə iki

böyük və məsuliyyətli vəzifə!.. Bu iki vəzifəyi təlif etdirə bilmək üçün mütəcanis deyil, mütəmərkəz bir vəziyyətdə bulunan hökumət bu kibi xüsuslarda səri bir qərar aləmiyob həftələrlə davam edən bir böhrani – vükəla dövrəsinə girmiş oldu.

* * *

Hökumət hali – təzəbzüb və böhranda ikən **Qarabağ** hadisəsi zühur ediyor. Bayram gecəsi – Novruz bayramı – Şişə (**Şuşa-red)** şəhərinin yaxınlığında vaqe "Xankəndi" deyilən əsgəri qəsəbə bayrama məxsus bir zövq içində zabitan məhfəli - əsgəridə gecəyi keçirməklə məşğul. Əsgərlər axşamdan bayram şənliklərinə məşğul olduqdan sonra istirahətə dalmış, uyuyur. Bu əsnada ətraf köylərdə məskun erməni ustası bu gecəyi məxsus ehzar etdikləri süngülərlə mücəhhəz olduqları halda, gecə ilən bir basqın icra ediyorlar. Ansızın yapılan bu gecə basqınını müdhiş bir plan üzərinə tərtib edilmişdi. Bərəkət versin ki, mütəbəssir bulunan əsgərlər yataqlarından qalxaraq amansız düşmənlə qeyriqəlaq – qeyri təlaqə gəliyor və həmin komanda heyəti hadisədən xəbərdar olaraq basqın dəf olunuyor.

Xankəndi üzərinə yapılan basqın ilə bərabər, eyni saətdə məşhur "Əsgəran keçidi" dəxi erməni usati tərəfindən işğal olunuyor. Əsgəranın tutulması ilə Qarabağın Bakı ilə olan xətti – müvasiləsi kəsiliyordu. Qarabağ valiyi – ümumisi hadisəni Bakıya bildiriyor, imdad istəyordu. Qışlanın ermənilər tərəfindən mühasirə edildiyini, imdad qüvvəti gəlməzsə, süqutun mühəqqəq olacağını qüvvətli cümlələrlə ifadə ediyordu. Qışla süqut edərsə, bütün Qarabağın ermənilərin əlinə keçməsi mühəqqəqədd olunuyordu.

Mövcud qəvayi - əsgəriyyənin əvvəla bir qismi mühüm-mü həman Əsgərana sövq olunuyor. Şiddətli bir müqavimət-dən sonra ikinci hücumda Əsgəran keçidi düşməndən təhtir və Xankəndi xilas oluyor. Ricət edən asilər daha yüksək dağlara çəkilərək müqavimətlərində israr ediyorlar. Asilər təqib olunu-yor. Keşiş kəndinə təhəssün edən ermənilər Azərbaycan əsgər-ləri tərəfindən əhatə ediliyor.

**Qarabağ cəbhəsində** hadisat bu surətlə inkişaf etməkdə ikən Ermənistan hüdudunda təhşidati - əsgəriyyə müşahidə olunuyor. Eyni zamanda Qazax qəzasında da yeni bir cəbhə açılıyor. Burada da erməni qüvvəti ilə Azərbaycan qüvvətləri arasında müsadimələr başlayor.

Böylə ansızın və caniyanə bir surətdə vaqe olan hücum əha-liyiyi – islamiyyəyi son dərəcədə əğzab ilə hər tərəfdə bir taqım hadisat zühuruna zəmin təşkil eyləyərək, Şamaxı, Şəki və Gəncə qəzalarında erməni – müsəlman hadisati – xununi inkişaf ediyor.

Böylə bir zamanda Dağıstanda kilitli qüvvətlərlə mütəhəşşid bolşeviklər zahirın pək müsəlləhanə bir sima göstərməklə hadi-satə intizar edib duruyorlar. Eyni zamanda da bolşevik mürəxxə-si – tüccarisi Salavyov Bakıda Azərbaycan hökuməti ilə petrol mübayiəsi məsələsinə aid xüsusatı müzakirə etməkdə idi.

Qarabağ hadisatı üzərinə iniqad edən Məclisi – məbusan cələsələrindən birisində **bolşevik məbus Qarayev**[30] "Qarabağ-da zühur edən bu hadisə mötəliflərin bizi boğmaq üçün sarıdığı zəncirlərdən bir həlqədir. Bu həlqəyi Azərbaycan kəndi qüv-vətiylə parçalayammaz. Buraxınız Şərq millətlərinin hüququnu müdafiə edən Qızıl Ordu gəlsin də, Qarabağ üsyanını yatırsın.

[30] **Qarayev**[118] – Sosialist blokunun listəsi ilə məbusana daxil olmuşdu. Sonra bolşevik olmuş, bədə rus istilasını mütəaqib bir kaç gün üçün kəndisinə Azərbay-can Hərbiyyə - bəhriyyə komissarı dinilmişdir.

Daha sonra Anadoluya imdada getsin" – deyordu. Qarayev bu sözləri söylərkən məbusanın müsafirlərə məxsus lojasında duran Türkiyəli qardaşlarımızdan məsul birisini görüyordum ki, ciddi surətdə təsdiq və təqdir əlamətləri göstəriyordu.

**Erməni üsyanından bir az əvvəl digər bir hadisə dəxi zühur eyləmişdi.** Azərbaycan Kommunist firqəsi namı ilə toplanan ixtilal komitələrinin, hökuməti devirmək qəsdilə bir üsyan yapmaq niyyətində olduqları hökumətcə kəşf olunmuş, təqibata başlanmış, bu təşkilatə mənsub zəvatın həman kafəsi öyrənilmiş və əvamili – mühümməsindən bir kaçı təhti – tovqifə alınmışdı. Erməni üsyanı ilə bu təşkilat arasında sıxı bir münasibət olduğu dəxi Moskvaya gedən erməni social – demokratlarından Pirumov ilə Zaxaryanın Moskvada müntəşiri – rusca "Həyati – miləl"[119] qəzetəsində mündərc məruzələri ilə müsbətdir.

## VIII

## BOLŞEVİK İSTİLASI

**Həftələrlə davam edən böhrani – vükəla nəticəsində bütün fərqi – siyasiyyənin müvafiqətilə yeni kabinənin təşəkkülü Hacınski Məhəmməd Həsən bəyə həvalə edilmişdi.** Məhəmməd Həsən bəy bolşeviklərdən Azərbaycanın istiqlal və təmamiyyəti – mülkiyyəsinə aid təminati – mühümmə almaq üzrə mübariz Türkiyə ilə ixtilalçı Rusiya arasında hər iki tərəfə dost bir hökumət təşkil edəcəydi. Bu məqsədlə daha yeni kabinənin təşəkkülünü bəkləmədən məxsusi bir heyəti – mürəxxəsə dəxi bolşeviklər nəzdinə ezam edilmişdi. Bu heyət Rusiyanın möhtac olduğu məvaddi – iqtisadiyyəyi təmin etmək surətilə bolşeviklərdən istiqlal və təmamiyyəti – mülkiyyə babında təminati – siyasiyyə almaq üzrə müahidə səlahiyyətdar idi.

**Vəziyyət böylə bir intizar halında ikən ansızın bolşevik əsgərinin hüdudu təcavüz etdiyi xəbər alınıyor. Nisanın 26-da gecəynən vaqe olan bu hadisə 27-də sabahilən məhafili – siyasiyyədə əyan olunca hər kəs heyrət içərisində qalıb şaşırıyor. Hüdudda bulunan əsgərlər, qəvayi – külliyyələri Qarabağ və Qazax cəbhələrində məşğul olduğundan, 60 min miqdarında təcavüz edən düşmənə qarşı iki saat qədər müqavimət göstərdikdən sonra ricət etmək məcburiyyətində qalıyorlar.**

O gün, axşama doğru şəhərin mühafizəsinə məxsus könüllü əhalidən təşkil olunan və zabitanı sırf türklərdən təşəkkül edən

"Yardım alayı"nın, yenə türk zabitan tərəfindən[31] idarə olunan zirehli avtomobillərin və filoda xidmət edən Osmanlı zabitlərindən bir qisminin bolşevik ləhində olduqları daha təşəkkül etməmiş bulunan yeni kabinə ilə, istefası qəbul edildiyi halda, ümur hökuməti daha düz və təslim etməmiş bulunan əski kabinə arasında asılı duran hökumət və onunla bərabər Məclisi – məbusan Azərbaycan Kommunust firqəsinin[120] ultimatum qarşısında bulundu. Bu ultimatum hökumətin Azərbaycan Kommunist firqəsi Mərkəzi Komitəsinə təslimini tələb etməklə bərabər Azərbaycan istiqlalının təhti - əmniyyətdə bulunacağını və hökumətin ruslara tərk edilməyəcəyini təmin ediyordu. Məclisi – məbusan tərəfindən bütün firqələrin mümәssillərini came olmaq surətilə intixab olunan komision ilə Kommunist firqəsi mürəxxəsləri arasında təğərrür edən şəraitə görə:

1. **Rus ordusu Bakıya girməyib, dəmir yolu ilə Anadolu imdadına gedəcək.**
2. **Azərbaycan istiqlalı və təmamiyyəti – mülkiyyəsi hər növ təərrüz və qüyuddan məsun qalacaq.**
3. **Azərbaycan ordusu olduğu kibi qalıb, inhilal etdirilməyəcək.**
4. **Azərbaycan firqəyi – siyasiyyəsi hürriyyət və sərbəstlərini mühafizə edəcəklər.**
5. **Sabiq rical, əzayi – hökumət və məbusandan kimsə cürmi – siyasi ilə ittiham edilməyəcək.**
6. **Kəmali – sərbəsti ilə toplanacaq Azərbaycan Şuraları hökumətinin şəkli – idarəsini təyin qılacaq idi[32].**

[31] Buradakı "türk"dən məqsəd Osmanlı türkü deməkdir.

[32] Məbusan komisyonu bu şəraiti "Müsavat" mümәssilinin rəyi əleyhində əksəriyyətlə qəbul eyləmişdir.

Eyni zamanda müsafirətən Bakıda bulunan Osmanlı türklərindən bir qism məsul zəvat ağzından işaə olunuyordu ki: "Gələn Qızıl Ordu komandanı Nicati bəy namında bir türkdür. Bu ordunun qitaəti miyanında türk üsərai – hərbindən mütəşəkkil alaylar var. Bir çox qitaət dəxi Volqaboyu türklərindən ibarətdir. Bu ordu həyat – məmat mübarizəsi içində bulunan Anadolunun müavinətinə qoşyor. Bu qüvvətə qarşı göstəriləcək müqavimət Türkiyənin xilasını əngəl edəcək bir vəqə ola bilər ki, böyük Türklük və İslamlıq nöqteyi – nəzərindən bir xəyanətdir".

Bütün bu şərtlərin etəsi günü yırtılacağı mühəqqəq idi. Söylənən sözlərin dəxi birər siyasi xüdədən başqa bir şey olmadığı aşkar idi. Məmafih bu vüzuh bir çoxları üçün məşkuk idi. O anda iğfal olunanlar pək çoxdu.

Məmafih bütün bu şərtlərə rəayət edilməyəcəyini (həqq və istiqlalımızı surətilə Anadolu imdadına gedəcək qüvvətə yollarımızın açıq bulunduğunu, fəqət, bizə sormadan sərhəddarlarımızı torpaqlara sərərək məmləkətimizə girən hər hankı bir qüvvəti dost deyil, düşmən kibi qarşılamaq lazım gəldiyini məclisin kəndi qərarı ilə deyil, yalnız düşmən süngüsü ilə həqqini axırı tərk edə biləcəyini bəyanla protesto edən olmuşsa da[33], əksəriyyət məbusan hadisati – məluma təsir və təhdidi altında salifüzzikr şərait daxilində hökuməti Azərbaycan Kommunist firqəsinə qapdırmaq məcburiyyətində qalmışdır (27 nisan 1920).

**Nisanın 28-dən etibarən üç rəngli Azərbaycan bayrağı Qırmızı Sovet və qismi - əzəmi də Osmanlı bayrağına əvəz edilmişdi.** Milis başında, yardım alanda şəhər komandanlığında və digər məsuliyyətli məqamlarda bulunan türk (Osmanlı)

[33] Bu nitqi – etiraz "Müsavat" firqəsi namına, lider sifətilə müəllif tərəfindən söylənmişdir.

nam və imzası ilə çıxan əmri – yovmilər, bəyannamə və elanlar gözə çarpıyordu. **Öylə bir təsir hasil oluyordu ki, ixtilalı yapan təcavüzkar rus ordusu deyil, Osmanlı türkləridir.** "Müsavat" hökuməti devrilmiş, yerinə Türkiyə hökuməti qurulmuşdur. Avtomobillərdə şəhərin müxtəlif səmtlərinə qoşan Osmanlı zabitanı həqiqətən bu zəhabı təqviyə edəcək bir mahiyyətdə idi. Daha ziyadəsi ixtilalın əqdində Türk komissarlığı namilə təşəkkül edən müəssisə namına nəşr olunan bəyannamələrlə türk kommunistləri tərəfindən nəşr olunan "Yeni dünya"[121] qəzetəsi bu "Əmri – xeyr"in kəndi təşəbbüsləri ilə vüqu bulunduğunu yazdıqdan sonra "İngilisçi Müsavatı devirməklə iki məqsəd təqib edildiyini" izah ediyorlardı:

1. **Azərbaycanın xilası.**
2. **Həyatı üçün mübariz bulunan Türkiyəyə ixtilalçı Rusiyanın müavinətini təmin.**

"Türk mürəxxəsliyi"nin bəyanına görə birinci məqsəd hasil olmuş, ikinci məqsədin hüsulu üçün də Xəlil Paşa Moskvaya ezam edilmişdi[34]. Filhəqiqə iki gün əvvəl Xəlil Paşa Bakıdan Moskvaya mütəvəccihən əzimət eyləmişdir.

* * *

[34] O zaman müəllif Bakıda məxfi bulunuyordu. Nami – müstəarla "Yeni Dünya" qəzetəsinə bir məktub yazdı. Bu məktubda "Azərbaycanda vaqeye ixtilalı siz türklərin mütəəddid bəyanatlarına etimadla bir "vəqeyi – xeyir" zənn edən əhalidə son nüsxənizdə mündərc bir fəqərə pək mühüm əndişəyi mucib üçün Moskvaya əzimət etdiyini yazıyorsunuz. Halbuki, azərbaycanlılar hadisəyi – məluməyi, Türkiyə namına təmin olunmuş bir faidəyi – mühümmə şərtilə şayani – qəbul görə bilmişlərdi. Şimdi yazdığınızdan anlaşılıyor ki, bu faidə hala təmin edilmiş deyildir. Fərzən, bu mənfəət Paşanın Moskvaya vürudundan sonra da təmin edilməzsə, o zaman siz türklər bizə nisbət qardaş xilaskarı ikən qardaş qatili mövqeyində qalmazmısınız?" – deyə istehza olunuyordu. Bu məktub dərc edilmədi. Yalnız bir kaç ay sonra Lahıc dağlarında əlimə keçən "Yeni Dünya" nüsxələrindən birində bu məktub sahibinin türk komissarlığına gəlib də bizzat cavab alması tövsiyyə olunuyordu.



***İlk Heyəti-Vükəla rəisi mərhum Fətəli xan***

***Fətəli xan Azərbaycan tarixi-təşəkkülündə mühüm rol oynamış simalardandır. Mumaileyh rus məktəbi-hüquqindən məzun məşhur bir avukat ikən ikinci Dumaya Qafqasiya müsəlmanları tərəfindən məbus intixab olunmuşdu. 1917 sənəsindən etibarən zühur edən ixtilal sənələrində əhaliyi-islamiyyənin hüququnu müdafiə ilə dəxi kəsbi-təmayüz eləmişdir. Mişarileyh ilk Azərbaycan kabinələrində rəyasət elədiyi kibi, son zamanda dəxi xariciyyə vəkalətində bulunmuşdur. Fətəli xan Antanta qüvai-işğaliyyəsinə qarşı Azərbaycan istiqlali-siyasisini qurtarmaq xüsusunda bilxassə ibrazi-mətanət etmişdir. Cümhuriyyətin bolşeviklər tərəfindən istilasını mütəaqib mumaileyh firarən Tiflisə iltica eləmiş, burada Azərbaycan davasını idamə etdirməkdə ikən xain bir qurşun qiymətdar həyatına fəci bir surətdə xatimə çəkmişdir. Fətəli xanın şu surətlə səhneyi-həyatdan çəkilməsi Azərbaycan istiqlalının həsrətilə dağdar olan könüllərdə silinməz bir təsir buraxmışdır. Xuda qəriq rəhmət eləyə.***

Azərbaycan zərb – məsəlidir: “Yalanın ömrü az olur”[35]. Bu “Əmri – xeyir” yalanın ömrü də bir həftə sürmədi. Rusiya Qızıl Ordusu yuxarıda məzkur şəraitin mürəkkəbi belə qurumadan, mayisin birində Bakıya girdi. Eyni zamanda şəraiti – məzkurə xaricində, dəmir yol ilə Anadolu hüduduna doğru getmiyərək, müxtəlif yollarla məmləkətin sövqülceyşi – nüqatını tutmağa başladı.

Bakının Qızıl Ordu tərəfindən işğalından iki gün sonra türk komandanlar rus yoldaşlara əvəz edildi. Fəqət, iş bununla da qalmadı. “Əmri – xeyir” i təsid edən nə qədər Osmanlı zabiti varsa, həpsini ya həbs və yaxud qapu dişarı etdilər[36].

Şəraitnamənin digər maddələri də eyni qəzayə uğradı. Ordunun zabitanını həbsə atdılar və kəndisini müxtəlif bəhanələrlə dağıtmağa başladılar. Əski rical və sabiq məbuslar birər – birər tovqif edildi. Bir qismi də məmləkəti tərk eyləmək məcburiyyətində qaldı. Gözdə nə qədər münəvvər varsa, həpsi sıxı tərəssüd və tovqif altına alındı. Şəhərin mötəbəranı və yüksək məmuriyyətində bulunan zəvat sokak süpürmək, çoplin və sairə təmizləmək kimi işlərdə cəbrən istixdam edildi.

Hökumətin ən məsul mövqelərini rus, erməni, gürcü və türk olmayan əmələ ilə xaricdən gələn yabançılara verdilər. Qızıl Ordunun təşkilat və məxsusəsinə tabe **“ÇK”lar**[122] təsis edildi. Müqabil ixtilal təşkilati şəxslərə qarşı mücadilə edən bu qanlı müəssisə müdhiş bir surətdə edamlara başladı. **Pankratov**[123] nam bir cəlladın ismi hər kəsi titrədiyor, edam edilənlərin sayagəlməz listələri hər tərəfə dəhşətlər ilqa ediyordu.

---

[35] Anadolu şivəsindəki “Yalançının mumu yatsıya qədər yanar” zərb – məsəlinə müqabil.

[36] Bu siyasət bilxassə Mustafa Sübhinin Bakıya vürudundan sonra kəsbi – şiddət eyləmişdi.

Artıq hər kəs aldandığını görüyordu. Bu xüsusda aldananlar yalnız Osmanlı müsafirlərimiz deyildi. Bolşeviklərdə bütün aləmi – islamın münəccisini görən və buna görə də bütün qüvvətini kəndilərinə təqdim edən "İttihad" firqəsinə bolşevik qəzetəsi "mucibi – ar bir müttəfiq" deyə[37] müqabilə etdi. Müsavatçılardan bir qismi dəxi sol müsavatçı namilə vəziyyətə, bir dərəcə olsun, icrai təsir etmək istədilərsə də, kəndilərinə "İlanın ağına da, qarasına da lənət" dedilər.

Bir ay əvvəl müsavatçı və sair millətpərvəranın təxmin eylədikləri təhlükə bütün üryanlığıilə zühur ediyordu. Rus bolşevikləri əski Rusiya hüdudlarını tutuyorlardı.

İxtilaldan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilayə məruz qaldığını acı bir surətdə dərk eyləmişdi. Türkiyəyə gediyor – deyə təhəmmül eylədiyi rus ordusunu məmləkətində fəsad iqa etməklə bir dəvam görüncə, sevgili ordusunun, kəndisinə hər yürüşü ilə dünyalar qədər ruh və izzəti – nəfs nəfx edən bu gənc əsgərlərin mürəttəb bir surətdə dağıldığını, münəvvəranının kəndisi ilə münasibətdən mən edildiyini, sərvət və səmanının yəğmaya getdiyini, ədəb və əxlaqi – milliyyəsinin fəna surətdə təhqirə məruz qaldığını duyunca, bittəb xalq təhəmmül edəmədi. Üsyan etdi.

**Bu üsyan ibtida Gəncədə başladı.** Çarizmin qəddar generalı knyaz Sisyanova parça – parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də kəndisini göstərdi. Millətin təhəmmül edəmmədiyi, təcavüzlərə qarşı üsyankar ruhilə köpürdü. Burada daha silahlarını təslim etməmiş bulunan Azərbaycan əsgərləri üsyanın kökünü təşkil etdilər. Üsyan bir həftəyə

[37] Bakıda müntəşir "Kommunist" qəzetəsinin 1920 sənəsi mayis kolleksionuna müraciət.

qədər davam etdi. Ruslar burada divizyonlarını qaib etdilər. Bakıdan qəvayi – imdadiyyə gəldi. Digər tərəfdən də Gəncə ermənilər qiyamiləri arxadan vurmağa başlayınca şəhər süqut etmək məcburiyyətində bulundu. Xətti – ricətləri daşğın nəhrilə kəsilən əhali müdhiş bir qətliamə məruz qaldı. Şəhər yaxıldı. Bazar qarət edildi. Hətk edilmədən irz və namus buraxılmadı.

**Gəncə üsyanı ilə bərabər Tərtər, Ağdam, Şuşa** qəsəbə və şəhərlərində bulunan Azərbaycan qitəati - əsgəriyyəsi dəxi ətrafdakı əhalinin üsyanına birər mərkəz və məbdə təşkil ediyordu. Tərtərdə Qızıl Ordunun bir alayı məhv edildi. Ağdam da kəza olduqca mühüm tələfat verdilər. Qarabağ, Şəki, Zaqatala, Lənkəran, Quba  və sair yerlər dəxi bir kaç kərə üsyan etdi. Lənkəran qəzasındakı üsyanlar aylarla davam eylədi. Zaqatala və Şəki üsyanları pək qanlı bir surətdə basdırıldı. Biz burada az – çox mühüm bir miqyasda zühur edən üsyanları qeyd ediyoruz. Yoxsa üsyan edilmədən bir yer qalmamışdır. Xainanə bir surətdə endirilən zərbəyi – ani ilə qəvayi – təşkiliyyədən məhrum və qeyri – müntəzəm bir surətdə zühur edən bu hadisələr miyanında öylələri var ki, həqiqətən də birər dastani – həmasətdir. Azərbaycan Cümhuriyyətinin tarixini yazacaq müvərrix bu üsyanları tədqiq və təfsilatı ilə əlbəttə, təhrir edəcəkdir. Bu üsyanların bihudə olduğunu və səlaməti – ümumiyyəyə zərər gətirdiyini iddia edənlər var. Fəqət, bu üsyanlar dəxi olmasa idi, Azərbaycan xalqı bilməm hankı vəqələrlə kəndi namusunu müdafiə etmiş olduğunu isbat edəcəkdi?!

Azərbaycanlı nasıl üsyan etmiyə idi ki, yunan qarşısına gediyor – deyə vətəninə bir dost və müttəfiq kibi girən bir orduyu məmləkətdə qardaşı – qardaşına saldıran istilakar və zalım bir qüvvət olaraq görüyordu?! Gənc Azərbaycan əsgəri nasıl

görə idi ki, zabitan və ümərasını heç bir səbəb olmadan həbslərə tıxayor, biqeyri – həqq qurşuna düzülüyorlardı?! Vicdani – nas nasıl təhəmmül edə idi ki, namuskaranə xidmət etməkdən başqa, günahı olmayan fədakar məmur və generallar qurşuna düzülüyor, millətinə mərbutiyyətlərindən başqa cinayətləri bulunmayan müəllimləri, mühərrirləri, münəvvər gəncləri, hətta müəlliməyi belə istisna etməyərək, caniyanə bir surətdə məhv ediyorlardı?!.. Xalqın səbri nasıl daşmıya idi ki, vəqtilə rus çarizmi tərəfindən türk üsərasına bir məqtəl təşkil edən Bakı limanındakı adları bu dəfə türk dostluğu namına hərəkət edən xain bir qüvvət Azərbaycan gəncliyinin məzarı halına qoyuyordu[38].

Azərbaycan xalqı nasıl tab və təhəmmül göstərə idi ki, adat və ənənatına müğayir bir üsuli – idarə təsisi ilə rus mujiki kəndisinə təsəllüt ediyor və tanımadığı, bilmədiyi ədaniyi başına hakimi – mütləq kəsdiriyorlardı?!.. Kəndi həyati – milliyyə və adati – diniyyəsi ilə yaşayan bir müsəlman nasıl rəva görə idi ki, ailəsinə, hərimi – ismətinə yabançılar giriyor, ismətli bir müsəlman ailəsinin bulunduğu otaq ilə qonşu - əksərən mədxəllərində müştərək – daxili Rusiyanın bilməm hankı guşəsindən gələn bir Qızıl Ordu zabiti iqamət etdiriliyor, sənələrdən bəri təsis edən etiyadadi – milliyyəyə kommunizm təşkilatı naminə təsəvvüri qabil olmayan zərbələr endiriliyordu?!..

İştə, dost deyə məmləkətə girən bir qüvvətin bir aydan daha az bir təcrübə ilə mənən və maddətən müdhiş bir qüvvəyə istila olunduğunu görüncə, bittəb uyğuda ikən üstünə kabus çökən bir adam kibi, Azərbaycan xalqı yerindən kəmali – vəhşətlə qalxmışdı.

---

[38] Bolşeviklər tərəfindən qurşunə düzülənlərdən bir listəsi bu risalənin sonuna zəmimə ediliyor.

**Artıq millət qiyam etmişdi.**

Namus və milliyyət müdafiəsi namına zühur edən bu qiyamı, üzünə ixtilal və hürriyyət maskası taxan rus qüvvəti Nerona rəhmət oxutduracaq bir şiddət və zülmlə basdırıyor, hər tərəfdə fəaliyyətə başlayan ÇK-lar gecə - gündüz qanlı işlərinə davam ediyorlardı.

Vürudunun ilk günlərində "İxtilal"ın qansız olduğuna" təəssüf edən bu xunxar qüvvət artıq cəlladlıq zövqünü tətmin üçün fürsət bulmuşdu. Yalnız üsyan zühur edən yerlərdə deyil, üsyan ilə əlaqədar olmayan yerlərdə dəxi qurşunə düzülənlərin hədd və hesabı yox idi. Gəncədə üsyan zühur edincə, Bakıda mövcud mövqufunun əksəri öldürüldü. Şəhərlərdə, böyük qəsəbələrdə mövcud mötəbəran "milliyyətpərvərlik kökünü birdəfəlik kəsmək üçün" həman sorğusuz və sualsız qurşunə düzüldü. Bu qurbanların qismi – mühümmü zabit, mühərrir, müəllim, doktor, tələbə, məmur və sair bu kibi münəvvərandan idi. Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi. ÇK məmurunun füzulluğu o dərəcəyə bulmuşdu ki, Azərbaycan komissarları rəisi bulunan Nəriman Nərimanovun kəndisini tovqif eyləmişlərdi.

Bu təqibat üzərinə Azərbaycan milliyyətpərvərliyi fikrindən ayrılammadıqları üçün bolşeviklikdən qaçan və təkrar fürsət bulub da istiqlallarının iadəsi üçün mübarizəyə hazırlanan övladi – vətən şimdi İrana, Türkiyəyə və bütün Avropa məmləkətlərinə iltica eyləmiş, müsaid bir zamanı bəkləyib duruyorlar.

Yuxarıda məzkur üsyanları və əksəriyyən də kəndiləri tərəfindən bilxassə uydurulan hərəkətləri bəhanə ilə bolşeviklərin Azərbaycan bilad və qəsəbəsinə verdikləri təxribat Yunanıstanın Anadoluya verdiyi xərabidən aşağı qalmadığı kibi və Gən-

cədə ehdas olunan faciədə İzmir faciəsinin pək donunda deyildir. Bu hadisələrdə aclıq və səfalət üzündən ölənlər müstəsna, yalnız təşkil və cəza dəstələri tərəfindən qətl olunanların miqdarı on min miqdarını mütləqən keçməkdədir.

* * *

**"İxtilal" hökuməti Azərbaycan Kommunist firqəsinə vermişdi. Bu hökumət qurunazca, kamilən müsəlman əzadan təşəkkül etmişdi. Hökumət rəisi Nərimanov əskidən Azərbaycanca bir az məruf bir sima idisə də, digər arkadaşları təmamilə törədi idilər. Həqiqətdə isə əsl siyasət çevirən qüvvət Kommunist Firqəsinin Azərbaycan heyəti – mərkəziyyəsi katibi, Qızıl Ordu komandanlığı və ÇK idi ki, bunlar təmamilə ruslarla sair əcnəbilərdən ibarət idi.**

İlk günlər xalqın iğfalı üçün yapılan manevrlər yalnız böyük və əsgəri məmuriyyətlərin Osmanlı türklərinə tovcihi ilə qalmadı. **Məlum A –** Qızıl Ordu erməni üsyanını dəxi birdəfəlik bitirəcək, yolunu təmizləyərək Anadolu imdadına gedəcəydi. Buna görə də Qarabağda daha müqavimət göstərməkdə olan erməni asiləri üzərinə hücum edildi. Eyni zamanda Gürcüstan dəxi təhdid edildi. Fəqət bu, zahirdə Azərbaycan siyasəti – milliyyəsini müdafiə etmək maskası, yalnız Ermənistanın bolşeviklər tərəfindən istila edilməsinə qədər dağıldı. Ermənistanda dəxi bolşevik hökuməti təsis edər – etməz rus siyasəti Nəriman bəyin səxavətkar ağzilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını mütəntən bir surətdə Ermənistana hədiyyə etdi.

Gürcüstan ilə açılan müharibə dəxi sülh ilə nəticəpəzir oldu. Gürcüstanı təhdid edən Azərbaycan bolşevik hökuməti



***Son heyəti - vükəla rəisi Nəsib bəy***

***Yusif bəyli Nəsib bəy, Qafqasiyada türk milliyətpərvərliyini tərvic edən dəyərli xadimlərdəndir. Vəktilə Krımda müntəşir "Tərcüman" qəzetəsi heyəti -təhririyyəsi ərkanından bulunan bu zat Gəncədə təşəkkül edən "Türk Ədəmi Mərkəziyət Firqəsi"nin müəssisi olmuş və tərtib eylədiyi proqramda Rusiyada yaşayan türk əqvamı üçün muxtariyəti idarə tələb eylədiyi kibi, Azərbaycan muxtariyəti fikrini dəxi bir maddei məxsusə ilə təsbit eləmişdir. Nəsib bəy Azərbaycanda təşəkkül edən bütün kabinələrə iştirak eyləmiş, son iki kabinə dəxi kəndi təxti rəyasətində təşəkkül etmişdir. Nəsib bəy qüvvətli bir qələmə malik olduğu kibi, hərarətli də bir natiq idi. Müşarünileyh, qüvvəti iman sahibi və demokrat bir adamdı. Vəqei istilayı mütəaqib məiyətində firqə arkadaşlarından bir müsavatçı olduğu halda, müşarünileyh Gürcüstana keçmək üzrə Bakıdan müfariqət eyləmişsə də, nə kəndisinin nə də yoldaşının nərədə olduqlarına dair səhih bir xəbər alınamamışdır. Nəsib bəyə qarşı olan əlaqə və məhəbbət, üç sənəyə qərib bir qeybubətindən sonra dəxi kəndisinin hala bərhəyat olduğu haqqında əfkari- ümumiyyədə bir ümid buraxıyorsa da, məattəəssüf həqiqətin bu ümid ilə müvafiqət edəcəyini təxmin eyləmək gücdür. Azərbaycan məfkurəçiliyinin ən hərarətli və ən səmimi ərkanından olan Nəsib bəy kasei şəhadəti nuş etmiş olsa belə bu məfkurəyi yaşadan gəncliyin muxəyyiləsində o, daima zindədir.***

***Allah, kəndi aman və rəhmətində bulundura!***

yapdığı bu sülhdə "Müsavat" hökuməti ilə Gürcüstan menşevik hökuməti arasında əvvəlcə mövcud bulunan etilafə görə qəti surətdə həlli hökmə həvalə olunacaq Borçalı ərazisini bilatərəddüd Gürcüstana tərk etdi və əskidən Azərbaycan ərazisindən olduğu Gürcüstanca təslim olunan Zaqatala ərazisi üçün hökmə müraciət eyləmək formulunu qəbul eylədi. Azərbaycanın siyasi mənfəətləri naminə hərb başlayan hökumət, nəticədə məmləkət qitələrini hədiyyə etməklə sülh yapıyor, dəlil olman üzrə əmələ üçün hüdud fərqi olmadığını irəli sürüyordu. Həm həqiqətən də Rusiya üçün bir qəzanın ermənidəmi, yoxsa türkdəmi qaldığının ən əhəmiyyəti ola biliyordu!.. Yetişir ki, bunlar həpsi Rusiyada olsun və ortadakı ixtilaflar həll edilsin. Bu həldə qalib edən müsəlman olursa, nə elam!

Bolşevik siyasətinin kornaz manevrlərindən birisi də ixtilalı mütəaqib Lenin tərəfindən Azərbaycanın istiqlalını mübin bir teleqrafın nəşri ilə Azərbaycan hökuməti və üsyan edən əmələ və köylüsü namına Qızıl Ordunun Azərbaycana dəvəti keyfiyyəti idi. Bu dəvət əksəriyyən Çiçerin tərəfindən məqami – müdafiədə zikr olunaraq, öylə təsir hasil etdiriliyor ki, Qızıl Ordu Azərbaycana azərbaycanlıların dəvətilə gəlmişdir. Halbuki, dəvət edən də kəndiləri, icabət edən də kəndiləridir.

Zahirdə böylə sözlərlə göz qapayan həriflər batində Azərbaycan ixtilalından mətlub bulunan əsl məqsədləri təsviyə etmək üçün Şaxtaxtinski Behbud[124] ilə Azərbaycan Cümhuriyyəti – milliyyəsi tarixi – süqutunun ən məsul faili bulunan Hacınski Məhəmməd Həsən Moskvaya getmişlərdi. Bunların Moskva səfərini xəlq, arzusu vəchlə təvil ediyordu: "Getmişlər Leninə söyləsinlər ki, bu idarə Azərbaycana yaramaz!" Halbuki, onlar daha çox zaman təfsilatı hər kəsdən,

hətta azərbaycanlı kommunistlərdən belə qapalı saxlanan bir taqım müahidələr əqdilə ovdət eyləmişlərdi. Yalnız Şaxtaxtinski imzasını havi bulunan bu müahidələrə görə Azərbaycan ümuri - əsgəriyyə, xariciyyə, iqtisadiyyə və iaşəsinin tənzimini təmamilə Rusiyaya veriyor, eyni zamanda dəmir yolları petrol müəssisatının idarəsini dəxi ona tərk ediyordu. Bu müahidələrə görə Azərbaycan iqtisadi məsələlərdə və hətta iaşəyə aid xüsuslarda Rusiyada nəşr olunan cümlə dekretləri eyni ilə Azərbaycana tətbiq etməli idi. Tedad etdiyimiz nəzarətlərin Azərbaycan komissarlar heyətində birər mürəxxəsi bulunacaq və bu mürəxxəslərin kəndi nəzarətlərinə aid məsaildə rəyləri bütün heyət əzasının rəyləri fövqündə olacaq idi. Halbuki, Azərbaycanın Moskva hökumətinə heç bir növlə iştirakı yox idi.

**Azərbaycanın həqiqi sərvəti olan petrol gəlincə, bütün petrol Rusiyanın yədi – inhisarına alınıyor, bundan yalnız bir qismi Azərbaycan daxilindəki sərfiyyat ilə Türkiyə və İran bazarına ixrac edilmək üzrə Azərbaycan hökumətinin kəndi idarəsinə buraxılıyordu. Bu miqdarın təyini dəxi Moskva Baş Məhruqat Komitəsinin rizasilə təyin olunacaqdı. Demək ki, Moskvanın iradəsi hasil olmadan müstəqil Azərbaycan köylüsü kolbasında yanacaq lampanın işığını istədiyi kibi qovlanammazdı. Həm həqiqətən Bakı həbsxanəsində bulunduğum zaman, qəzetələrdə Bakı ilə həmcivar qəzalardan birisində köylü üçün təsis olunan gecə məktəblərinin petrol olmadığından dolayı məəttəl qaldığını oxumaqla heyran qalmışdım. Fəqət, nə yaparsan ki, eyni zirpərdeyi – xəfada saxladıqları bu müahidələri Bakıda çıxan kommunist mətbuatı və o sırada iniqad edən Azər-**

**baycan sovetlər konqresində söz söyləyən həyasız xətiblər Azərbaycan istiqlalının təqviyyəsi şəklində təfsir etmişlərdi.**

Məsələ yalnız məmləkətin mənabei – iqtisadiyyəsini əldə etməklə qalmıyordu. Az – çox baqi qalan Azərbaycan əsgəri dəxi dağıdılıyordu. Bir qism qitəatı müqabil inqilabçı deyə dağıtmış, geridə qalan mövcudiyyəni də Azərbaycan ixtilalını mütəaqib bolşeviklər tərəfindən İran üzərinə yapılan təcavüz səfərinə göndərmişlərdi. Bu surətlə bolşeviklər həm Azərbaycan ordusunu itlaf ediyor, həm də Rəşt ilə Ənzəlidə yapdıqları vəqayei azərbaycanlı əlilə icra etmək surətilə bu iki dindaş millət arasında əbədi bir nifaq və uçurum açmaq istəyorlardı.

Rəsmi bolşevik təvilatına baxılırsa, bütün bunlar bittəb Şərq inqilabı naminə, Şərq millətlərini xunxar Avropa kapitalistlərinin əsarətindən qurtarmaq üçün yapılıyordu. Bu məqsədlə Türkiyə Kommunist Firqəsi[125], İran Kommunist Firqəsi[126] və sairə təşəkkül ediyor, xilaskar kommunizm fikrinin bu məmləkətlərdə tərvici üçün macəracu adamlardan mütəşəkkil müxtəlif təşkilat vücudə gətiriliyordu.

Yenə bu məqsədlə  Bakıda Şərq Millətləri Konqresi[127] təşkil olunuyordu. Fəqət, Şərq məsələlərini həll etmək üçün toplanan bu ictimadə məsələləri vəz və həll edənlər nədənsə həp Qərb sosialistlərindən ibarət idi. İçlərində bir danə olsun şərqli yox idi. Məsələn, Macarıstanda inqilabı qaib edən Bela Kun[128] gəlib də Bakıda Əfqanıstan, İran və Türkiyədə tətbiq olunacaq ərazi məsələsini həll ediyordu. Hər nə qədər bu konqreyə iştirak edən Türkiyəli mürəxxislərdən bir qismi naminə söz söyləyən mərhum Bahəddin Şakir bəy[129] “Şərqin xilası şərqlilərin kəndi əli ilə olmalıdır!” deyordusa da, bu xitab internasional gurultusu içində təsirsiz bir surətdə qaib olub ge-

diyordu. **Nəriman Astarxana doğru göndərilən petrol yüklü gəmiləri top əndaxtları ilə yola salarkən "Bu, tarixin qeyd edəmədiyi ilk vəqədir ki, petrol poslasız və hesabsız olaraq Rusiyaya gediyor" deyordu. Eyni zamanda Sovet hökuməti ilə burjua hökumətlərinin fərqini anladırkən: "O hökumətlərin gəlir və çıxar dəftəri var, fəqət bizim gəlir dəftərimiz varsa da, çıxar dəftərimiz yoxdur" deyordu. İştə bu əsl sərvətini biləəvəz israf və məsarifini dəftərsiz bir surətdə yapan hökumət, Azərbaycan kimi dünyada misli yox zəngin bir mənabe – sərvətə malik olan məmləkəti öylə bir halə gətirdi ki, kəndisindən pək çox fəqir olan Gürcüstanə belə etibarsız bir halə gəldi.** Bakı petrol ocaqlarında çalışan müstəhsilləri kəndi qaimələri ilə doyuran bir hökumət hasilatını kamilən Rusiyaya verir də, müqabilində Moskva kağız parəsi olsa belə, bir şey almazsa, bittəb bazarı qiymət və etibarı yox qaimələrlə doldurur ki, nəticəsi iflasdan başqa bir şey deyildir.

Qərib bir cilveyi – şüüun deyilmi ki, başına qonmuş hesab bilməz bir hökumət sayəsində Bakının petrolu əhalisinin fəqirini mucib olyor?!..

Bu qədər siyasi və iqtisadi xüsranlar nəticəsində heç olmazsa məmləkət ürəfanca olsun qazandımı?.. Əcəba, bu mümkün ola bilərdimi? Siyasəti iqtisaddan, iqtisadı ürfandan ayırmaq qabilmi? Bir məmləkətin iqtisadiyyatını bərbad, siyasiyyatını alt – üst edən qüvvətdən ürfan naminə emar gözləmək qabil olurmu?

İbtida üç ay zərəfində bütün Azərbaycanı türkcə oxur, yazar bir mərtəbəyə isal ediləcəyi elan olundu. Pəki, əmma kitab yox, müəllim yox… Ticarət mənəndən dolayı işsiz qalan bir az oxuma, yazma bilən bəzirganları həman kurslara aldılar. İki – üç

həftə zərəfində müəllim oldu – deyə öyrətdikdən sonra kağız üzərində məbzul bir surətdə açılmış bulunan məktəblərə təyin etdilər. Sözdə hər növdən bir çox ürfan müəssələri təsis olundu. Hətta başqa məslək sahibi olub da kommunizm tətbiqatından dolayı işsiz qalan bir çox həvəskarları istifadə surətilə köylü ilə əmələyə yalnız yazma və oxuma deyil, sənayeyi – nəfisədən də bir bəhrə vermək istədilər. Musiqi məktəbləri, rəsm məktəbləri, rəqs məktəbləri, bilməm nə məktəbləri açmaq, əmələyi hər cəhətlə kamil etmək istədilər. Xülasə istədilər, istədilər, həp istədilər.

Fəqət, aylar deyil, illər keçdi. **İdarələr hala rusca.** Konqrelər hala rusca. Az – çox intizamla davam edən məktəblər rusca. Üç həftədə müəllim olan bəzirganlar şimdi adam əqilli, əlbəttə, müəllim deyil, bir sovet bəzirganı. Musiqi müəllimi yenə kəndi yazıxanəsində ehtikarla məşğul. Əskidən mövcud məktəblər bir hali – pərişan idi. İki iqtisadi siyasət mucibincə Nərimanovun nəzəriyyəsinə rəğmən Sovet hökumətinin şimdi qayət böyük çıxar dəftəri vardır ki, bunun məarifə aid cədvəli, cədvəllərin ən kiçiyidir. Əcnəbi Darülfününlarına artıq tələb göndərilmiyor. Yalnız "Müsavat" zamanında göndərilən tələbələri geri çağırmaq, siyasətən müvafiq görülməmişdir[39]. Türkiyədən gələn müəllim və müəllimələrsə təmamilə geri dönmüşlərdir. Çünki, şəraiti – mövcudə içərisində çalışmayı mümkün görməmişlərdi.

Mətbuat və ədəbiyyatın halınımı soruyorsunuz? İştə sizə nümunə: "Füqəra Füyuzatı" namilə yalnız iki nüsxə çıxarıla bilən "ədəbi" məcmuənin komissarların fotoqraflarını havi

[39] Məəmaviyə, bunlardan hüquq və ictimaiyyətlə məşğul olan 12 tələbə geri çağırılmışdır.



***Məclis-i Məbusan Rəisi - sanisi mərhum Həsən bəy***
***Həsən bəy Rəisi - sani sifətiylə intixab olunmuşsa da, rəisi əvvəl Əli Mərdan bəyin bilvəzifə Avropada bulunduqlarından, vəzivei rəyasəti bilfeil təkəfful etmişlərdi. Həsən bəy Azərbaycanın qeyrətli münəvvərlərindən olub, cümhuriyət təşəkkülündən daha əvvəl xədəmati milliyəsi ilə təmayüz etmiş simalardandır. Bolşevik istilası zamanında Həsən bəy Tiflisdə bulunuyordu. Vəqieyi istilayı mütəaqib Həsən bəy məmləkətinin xilası üçün mücahidəsinə davam etməkdəykən xain bir qurşunun qurbanı oldu. Şəhidi məğfur Moskva Tib Fakultəsindən məzun idi. Mərhumun hifzüssihhəyə aid xəlqin anlaya biləcəyi bir tərzdə yazılmış türkcə əsərləri olduğu kibi, mübahisi siyasiyəyə aid risalələri də vardır. Həsən bəyin şəxsində Azərbaycan türklüyü səmimi və fədakar xadimlərindən birisini qeyb etmişdir. Ulu Tanrı ruhunu şad eliyə!***

nüsxəsində rəsmlər altına yazılan mənzum sətirlərdən birisi sizə feyzi – inqilabın nə kibi şahkar yaratdığını iraə edər:

*Bax şu Qarazadə Əli Heydərə,*
*Töhfeyi – Şirvanə, mələk – mənzərə.*
*Bəhri Xəzər, xütteyi – Azərbaycan,*
*Görməmiş ömründə belə hökmran!*

Həm həqiqətən də bir hökmranı Azərbaycan heç bir zaman görməmişdir. Bütün mənasilə qüruni – vüstai bir dövr yaşarkən belə Azərbaycan xanlarından hankısına hər hankı qəsidəxan bir şair mədhiyyə deyə, böylə bir "töhfə" gətirsəydi, onun nə yaman bir həcv olunduğunu fərq edərdi. Fəqət "mələk – mənzərə" hərbiyyə komissarı bunun fərqində deyildir.

İrfan və ədəbiyyatda ruhi – milliyi tənmiyyə edəcək cərəyanlardanmı maraq ediyorsunuz? Şu qədər biliniz, türkçülüyün möhtərəm şairi Məhəmməd Əmin bəy[130] əfəndinin asari – milliyyətpərvəranəsi kütübi – zəlalədən olmaq üzrə bütün kitabxanələrdən teyy edilmişdir.

Əgər sırf türk yazısı ilə çıxan mətbuatə türkcə mətbuat deyilirsə, şimdiki Azərbaycanda bu var. Yox, mətbuati – milliyyədən məqsəd yalnız yazının zahiri deyil, ruhu, mündəricatı dəxi mürad isə o halda **bolşevik Azərbaycanında mətbuati – milliyyə yoxdur.** Vəqtilə ağ padşahdan bəhs edər durur "Türküstan vilayətinin qəzyeti"[131] nam missioner Astraumov tərəfindən nəşr olunan türkcə bir qəzetə ilə Qızıl Lenin mənaqibindən və kommunist firqəsi nəzəriyyatından başqa bir şey bilməyən Azərbaycan communist türk mətbuatı arasında bir fərq görəmiyoram. Bu mətbuatın digər türk mətbuatı ilə müştərək bir şeyi varsa, o da yazısındakı ərəb hərfləridir. Fəqət, bolşeviklər bu

fərqi də ortadan qaldırıyorlar. Azərbaycan hökuməti – hazırəsi latın hürufatının tətbiqinə aid qərar almış və buna təşəbbüs eyləmişdir. Bu təşəbbüs tamamilə tətbiq olunarsa, o zaman Azərbaycan ilə digər türk mətbuatı arasında nə batinən bir münasibət qalacaq, nə də zahirən bir müşabihət!

* * *

Azərbaycanlılar, dəmindən bəri saydığı məhrumiyyətlərdən, kəbinə varılamıyacaq qədər böyük fəlakətlərdən daha acı bir xüsranə uğradılar. Məruz olduqları təcavüz və istila nəticəsində ilticayə məcbur qaldıqları Türkiyədə, bu qardaş məmləkətdə bolşeviklərin propaqandası, bu propaqandaya inanan və aldananaların təbliğat və intişaratı sayəsində öylə acı hallara müsadif oldular ki, imansız və xunxar bir düşməndən qaçdıqlarını kimsəyə anlatmadılar. Biləks burada, bir məlcə ararkən, daima kəndilərini təbərrüə etmək, məğduriyyətlərini soyuq bir mühitə qarşı isbat eyləmək zərurətində qaldılar.

**Siyasət iqtisazınca ixtilalçı Rusiya ilə anlaşmaq zərurətində qalan Türkiyə,** Azərbaycanda güzəran edən həvadisin künh və mahiyyətini daha əmin vasitələrdən öyrənincəyə qədər öylə təsəvvür ediyordu ki, Gəncədə vüquə gələn üsyan, ingilis siyasətinə alt olan zəvat tərəfdən təhiyyə edilmişdir. Bu fikir, məəttəəssüf, ən böyük məqamlara varıncaya qədər icrayi – təsir etmişdi.

Azərbaycan hökuməti – milliyyəsinin fəcaətli fəlakətdən daha acıqlısı bu idi ki, milliyyətpərvərlər Türkiyəyə qarşı vəfasızlıqla ittiham olunuyordular. Ehtimal ki, bəziləri hala bu qənaətlərində baqidirlər.

İştə ən çəkilməz faciə bu faciədir!

Vəfasızlığın ən böyük dəlili olmaq üzrə Azərbaycanın müşkül və möhtac günündə Anadoluya qarşı laqeyd qaldığı, laqeyd edyil, hətta düşmənlərinə təmayül etdiyi sərd olunuyor. Əgər bolşeviklər və ələlmum ruslardan qorxaraq işi daha əmin bir qazığa bağlamadan, azərbaycanlıların Antantaya qarşı elani – xüsumət etmədiyi bu "təmayül"ə dəlilədd edilirsə, zənn edərəm ki, bu qədər vəqaeyi – fəciəyi nəql etdikdən sonra, **artıq kimsə Azərbaycanı, bu xüsusda Türkiyəyə qarşı vəfasızlıqla ittiham edəməz!** Digər xüsusatda dəxi Azərbaycanın Türkiyə müqəddəratına laqeyd qalmadığını, zamanı gəlirsə vəsaiqi ilə isbat etmək mümkündür.

Azərbaycan fikir və əməlini doğuran cərəyani – milli türk ədəbiyyatının təhti – təsirində bulunan bir mətbuatın zadeyi – təlqinatı ikən, Məclisi – məbusanda, ingilislər daha Bakıda ikən, məbusanın ən məsul firqəsi naminə "Əvət, türkləri biz dəvət etdik, onlar bizi xilas üçün gəldilər. Bu xilaskarlara paytaxtımızın ta göbəyində abidələr tikmək vəzifəmizdəndir!" deməkdən çəkinməyən, İzmir faciəsi üzərinə məmləkətin hər tərəfində təzahürati – milliyyələr icra edən, hökumət firqəsi "Müsavat"ın vasiteyi – nəşri - əfkarı "İstiqlal" məcmuəsində[132] və hökumətin rəsmi qəzetəsi "Azərbaycan"da[133] mütarikəyi mütəaqib təhəddüs edən qaranlıq günlərdə Türkiyənin ölməz bir qüvvət olduğunu yazan və Osmanlı imperatorluğu çökdüsə, yerində türk hökuməti təsis etdi – ümidi ilə təsəlli bulan, ingilis həbsxanasından qaçan möhtərəm millətçiləri istəyənlərə "Müsafir bulundurmaya həqqi olmayan bir istiqlalı istəməyiz" – cavabilə müqabilə edən, Bakı istirdadında şəhid düşən türk əsgərlərinin məzarı üstündə ehtifalati

- əzimə ilə abideyi – şükran rəkz etdirən bir mühit, nasıl olur da vəfasızlıqla ittiham olunur?!..

Azərbaycan zimami–idarəsini əllərinə almaq zərurətində bulunan milliyyətpərvərlərin öhdələrinə düşən məsuliyyət həqiqətən də əlim idi. Qərib bir təcəlleyi – tale deyilmi ki, rus firqələri nəzərində, erməni mətbuatında, gürcü məhafilində türkçülüklə bəllənən və Türkiyəçiliklə ittiham olunan bu zəvat eyni zamanda dəxi Türkiyəyə qarşı bivəfalıqla ittiham olunurlar?!..

**Azərbaycanlılar üçün məmləkətlərinin düçari – fəlakət olmasından, iki qardaş millət arasında təhəddüd edən sui – təfəhhüm daha acıdır, daha fəcidir.** Fəqət, mədari – təsəlli olan bir şey varsa, o da bu sui – təfəhhüm təvəllüdü bir taqım əşxasın hərəkətindən doğduğu kibi, icra etdiyi təsirin də yalnız müəyyən əşxas üzərində hakim olması ilə məhdud qalacağı qənaətidir. Yoxsa, türklüyünü anlamış Azərbaycan ilə türklük üçün qan tökən, can verən Anadolu arasındakı qardaşlıq bağını nə tarixin şimdiki Türk – Rus müxadinəti kibi təsadüfi vəqə epizodları, nə də bir taqım əşxasın siyasi xətaları çözəməz!

# IX

# ŞİMDİKİ VƏZİYYƏT

“İxtilalı” mütəaqib Azərbaycan istiqlalını təmin edər kibi görünən Rusiya bolşevikləri 29 təşrini –sani 1920 tarixində Ermənistan Cümhuriyyətini, 25 şübat 1921 tarixində Gürcüstan Cümhuriyyətini istila etdikdən sonra Mavərayi – Qafqasiyadakı üç cümhuriyyətin tovhidi üçün bir taqım təşəbbüsatə qalxmışdılar.

14 təşrini – sani 1921 tarixində Mavərayi – Qafqas federasionu rəsmən təşəkkül etdi. Fəqət, iş bununla da qalmadı. 10 təşrini – sani 1922 tarixində Moskvada iniqad edən konqre Rusiya sovetlərinin ittifaqı, cəmahiri – müctəmeə təsis etdiklərinielan eylədi. Şu surətlə felən çoxdan qaib etdiyi istiqlalını Azərbaycan bu dəfə də rəsmən qaib ediyordu. Şimdiki şəkli ilə Azərbaycan Cümhuriyyəti cüzi məhəlli – muxtariyyətdən başqa bir şey deyildir.

**Qafqasiyanın şu surətlə yenidən Moskva mərkəzinə rəbt olunması nə Gürcüstanın, nə də Azərbaycanın arzuyi – ümumisi üzərinə vaqe oluyor.** Arzu və ya əfkari – ümumiyyə ilə bolşevik idarəsinin bir dəfə işi yoxdur. Hürriyyəti – mətbuat və sərbəsti – ictimaat olmayan bir yerdə və öylə bir yerdə ki, əhalinin qismi – mühümmü əhliyyət həqqindən məhrumdur, əfkari – ümumiyyədən bəhs etmək əlbəttə gülünc olur. Fəqət, bolşevik nöqteyi – nəzərindən mövcud olan əfkari – ümumiyyə (məhəllədəki kommunistlərin rəyi) belə bu ittifaqın əleyhindədir. Rusiya Federasionu Kommunist Firqəsi Mərkəzi Komitəsi-

nin qərarı və Leninin amiranə teleqrafları ilə təşəkkül etmişdir. Bu xüsusda Tiflis gürcüləri ilə Moskva rusları arasında təati edilən gizli teleqraflar bilxassə calibi – diqqətdir.

Gürcü Kommunist Firqəsi heyəti mərkəziyyəsi 15 iyul 1922 tarixli cələsəsində Moskvadan gələn bir təklifi tədqiq ediyordu. Bu təklif Rusiya Kommunist Firqəsi Heyəti – Mərkəziyyəsi Baş Katibi Stalinin[134] "tez"lərinə binaən tərtib edilmiş idi. Bu tezlərə görə, Mavərayi – Qafqas Cümhuriyyətləri hər növ şüüni – istiqlaldan imtina edərək, müttəhid bir federasion vücudə gətirməli, eyni zamanda bu federsasion dəxi Rusiya, Ukraina və sair muxtar Sovet cümhuriyyətləri ilə birlikdə Sovet cəmahiri – müttəfiqəsini təşkil etməlidir. Gürcü kommunistləri müzakirədən sonra bu təklifi şayani – qəbul gördüklərinə və Qafqasiya Cümhuriyyətlərinin şüüni – istiqlalından məhurm buraxılmaq sırasının daha hülul etmiş olmadığına aid bir qərar çıxartdılar. Bu qərar 19 rəyi – müvafiqə qarşı 6 rəyi müxalif qazandı. Gürcü komitəsi bu xüsusdakı rəyini Moskvaya bildirdi. 17 təşrini - əvvəl 1922 tarixində Moskvadan belə bir cavab alındı: "Yoldaş Oraxelaşviliyə![135] Gürcü Mərkəzi Komitəsinin birləşmək üçün daha sıra gəlmədiyinə və istiqlalın ibqası lüzumuna aid olan mülahizəsini heyəti – mərkəziyyə ictimai ümumisi ittifaqi – ara ilə rədd etdi. Gürcüstan mürəxxəsi bulunan Midivani[136], bu xüsusdakı vəhdəti – fikriyyəyi gördüyündən Gürcü Komitəsinin təklifindən imtina etmək məcburiyyətində qaldı. İctimai ümumi Stalin, Orconikidze[137], Myasnikov[138] və Molotov[139] yoldaşlardan təşəkkül edən komisyonun Mavərayi – Qafqas federasionunun ibqası və eyni zamanda Rusiya, Ukraina, Belorusiya ilə birlikdə "Sosialist cəmahiri – müttəfiqəsi" təşkili lüzumuna aid qərarını bilətəhrif



***Türk “Şühəda” Türbəsi***

***Bu rəsim, Bakının istirdadı əsnasında (15 Eylül 1918) şəhid düşən türk əsgərlərinin qardaş məzarı üstündə, ricali dövlət, məbusin və on binlərə baliğ bir cəmi qəfir müvacihəsində hökumət, məbusan və füruqi siyasiyə namına söylənən səmimi nitqlər və böyük bir ehtifal ilə vəzi bina mərasimi icra olunan türbənin xatırda qalan bir projesini təmsil edər. Azərbaycan həyati milliyəsində mühüm bir xidməti səbq edən “Baku Cəmiyəti Xeyriyəsi”nin təşəbbüsü ilə başlanan bu abideyi şükran 1920 sənəsi eylülünün 15-nə qədər itmam olunaraq, Bakı istixlasının dövri sənəvisi münasibətiylə mütəntən bir rəsmi iftitaxı təsəvvür olunmaqda ikən bolşevik istilası üzərinə itmam ediləməmişdir. Bolşevik istilası üzərinə natamam qalan abideyi şükran, yalnız projesini gördüyümüz bu Bakı türbəsi deyildir. Gəncə civarında Hacıkənd səyfiyəsində mədfun bulunan şühəda məzarı üstündə dəxi bir abidə yapılmaq üzrə ikən na-tamam qalmışdır. Rəsimdə gördüyümüz Bakı türbəsinin nəzdində “Şühəda Bulağı” namıyla bir çeşmənin dəxi inşası mütəssəvər idi.***

qəbul eylədi. Qərarın mətni yoldaş Orconikidzeyə göndəriliyor. **Rus Kommunist Firqəsi Heyəti – Mərkəziyyəsi işbu qərarın kəmali – məmnuniyyət və həyəcanla tələqqi ediləcəyinə şübhə etməz. Nömrə 7643 (xəfi) R. K. F. M. H. katibi Stalin".**

Fəqət, bu teleqrafi – mürsəlin son sətirdəki ümidinə rəğmən Tiflisdə məmnuniyyətbəxş bir həyəcan deyil, yəsavər bir hissi-infial oyandırıyordu. Bu hissi – infialı gürcü kommunistlərinin bir qismi xətti – müstəqim ilə həman Moskvaya bildiriyor: Rusiya imperializmindən lisani – şəkva ilə bəhs ediyorlardı. Bu şikayətin Moskvayı nə dərəcədə iğzab etdiyini aşağıdakı teleqraflardan anlayoruz: "Moskva. 3 təşrini - əvvəl Çinçadze və Maxaradze[140] yoldaşlara. Kopyasını mərkəzi ümumi əzası Orjenikidze və Mavərayi – Qafqas Komitəsi katibi Oraxelaşviliyə verməli. Sizin velikorus milliyyətpərvərliyinə qarşı çıxışınız, gürcü milliyyətpərvərliyini iltizam etdirəmməzdi. Siz bilməlidiniz ki, ictimai – ümuminin Mavərayi – Qafqasında Rusiya ittihadına duxulu haqqında qərarı eyni ilə tətbiq etməli idiniz. Bu qərarı əgər istərsə yalnız ictimai – ümumi kəndisi nəqz edə bilər. Göndərdiyiniz məxtərənin üslubu firqə adabını ələnən ixlal ediyor. Bu xüsusdakı təfrəfüruşanə intiha verilməsini tövsiyə ediriz. İmzalar: Kamenyev[141], Buxarin[142]. Təfrə füruşluqlarından və sərkeşlərindən bəhs olunan Çinçadze ilə Maxaradze Gürcüstanın saç ağartmış pək əski sosialistlərindəndirlər. Onların ələnən Moskva imperializminə qarşı çıxışları Leninin kəndisini belə iğzab ediyordu. İştə bu qəzəbi hekayə edən bir teleqraf ki, 21 təşrini - əvvəl tarixilə Moskvadan çəkilmişdir.

"Gürcü Mərkəzi Komitəsi əzasından Çinçadze və Kavtaradzeyə: Çinçadze və digərləri imzasilə göndərilib də mərkəz

ümumi katiblərindən birisi vasitəsilə deyil, nədənsə Buxarin tərəfindən mənə təslim olunan müzəkkirənin müğayiri - ədəb bulunan mündəricatına heyrət etdim. Mənim bilavasitə və Midivaninin iştirak etdiyimiz ümumi qərarından sonra hər ixtilafın bir tərəf edilmiş olduğuna qane idim. Orjenikidzeyə qarşı istemal olunan tüfühatı təmamilə təqbih eylərəm və kəndisi ilə aranızda vaqe olan hadisənin mühakiməsini müvafiq ədəb bir tərzdə mərkəzi – ümumi kitabətinə verməniz müsirrənaə təklif eylərəm. **Xətti – müstəqim ilə kəşidə etdiyiniz ərzi – hal dəxi məzkur kitabətə verilmişdir. Lenin, nömrə 7994".**

Bolşevikliyin məzalimini bilnisbə az görən Gürcüstanda hal böylə olursa, Azərbaycanın nə kibi hallar keçirdiyi təsəvvür oluna bilir.

Bu hala qarşı Türkiyə məətəəssüf seyrçi vəziyyətində qalıyor. Cəryani – vüquat üzərinə bir nüfuz və təsiri olamıyor. Bir gün əvvəl Türkiyəyi Tiflisdə təmsil edən Muxtar bəy bir gün sonra Moskvaya getmək zərurətində qalıyor.

Türkiyə bolşevik Rusiyası ilə - bizim bildiyimiz – iki müahidə ilə mərbutdur: biri Moskva müahidəsi ki, 1921 sənəsində imzalanmışdır. Digəri də Mavərayi – Qafqas Cümhuriyyətləri ilə əqd olunan Qars müahidəsi ki, 11 iyul 1922 tarixində imzalanmışır. Birinci müahidə ilə Türkiyə mürəxxəsləri Qafqasiya Cümhuriyyətlərinin mövcudiyyətini təsbit etdirməklə bərabər Azərbaycan kommunistləri tərəfindən Ermənistan şuralarına hədiyyə olunan Naxçıvan vilayəti mümtaz bir vilayət ünvanilə və salis bir hökumətə hədiyyə edilməmək şərtilə Azərbaycan təhti – himayəsinə verilmiş[40] və bir də tərəfin aktın Şərq mil-

[40] Ermənistan Cümhuriyyəti bolşeviklər tərəfindən istila edildikdə Azərbaycan bolşevik hökumətinin rəisi Nəriman Nərimanov Naxçıvan qəzasını Ermənistana hədiyyə etmişdi. Vəqtilə ingilislərlə amerikalılar da Naxçıvanı ermənilərə tabe

lətlərinin istiqlallarına ehtiram edəcəklərini mütəqabilən təyid eyləmişlərdi[41].

Azərbaycan şimdiki şəkli – idarəsi tədqiq olunursa, hökumətin zahiri ilə batini bundan ibarətdir.

Zahirdə məmləkət bir komissarlar heyəti ilə, bir də icra komitəsi tərəfindən idarə olunuyor. İcra komitəsi bütün Azərbaycan əmələ və köylüləri tərəfindən toplanan Şuralar (Sovetlər) konqresində intixab olunuyor. Bu komitə isə komissarlar heyətini intixab edər. Komitə bir heyəti – müraqibə ikən, heyət bir qüvveyi icraiyyədir. Fəqət, bolşevik üsul idarəsində təfriqi – qəva əsası mövcud olmadığından qəveyi – icraiyyə eyni zamanda səlahiyyəti – təşriyyəyi dəxi haizdir. Qəvanin (dekretlərin) əksəri zatən komissarlar heyəti tərəfindən nəşr olunur. Bütün Azərbaycan Şuralar konqresi yalnız sənədə bir dəfə toplanır. Sovet qəvanin əsasına görə Şuralar köylü ilə əmələ mürəxxəslərindən təşəkkül edirsə də, əmələnin həqq rəyi köylüyə nisbətlə faiqdir. Bir əmələ rəyinin qiyməti – təşriyyəsi bir köylü rəyinin qat –qat fövqündədir. Yüz əmələ bir mürəxxis verdikdə min köylü bir mürəxxis çıxara bilir. Şəhərlərdəki əmələ qisminin əksəriyyən ruslardan təşəkkül eylədiyi nəzəri – etinayə

görmək istəmiş, bu xüsusda təşəbbüs eyləmiş, fəqət, müvəffəq olmamışlardı. İki sənədən ziyadə əlində silah olaraq Ermənistana ilhaq əleyhinə cəladətlə hərb edən naxçıvanlılar bu dəfə də israr etdilər. Nərimanın bəxşişi quru sözdən ibarət olub qaldı. Ermənistan Cümhuriyyəti Naxçıvan "hədiyyə"sini təslim almaq üçün iyicə qan tökməli idi. Naxçıvanlılar isə hər tərəfə müraciət edərək, Ermənistana tabe olmaq istəmədiklərini bildiriyorlardı. Bu məsələ türk heyəti – mürəxxəssəsinin dəxi nəzər – diqqətini cəlb eyləmişdi. Buna görədir ki, müahidə salis bir hökumətə tərk edilməmək şərtilə Naxçıvan qəzasını mümtaz bir vilayət şəklində Azərbaycan himayəsinə vermişdir.

[41] Bu təminat ilə Mavərayi – Qafqas Cümhuriyyətlərinin təkrar Rusiyaya ilhaqı həqqindəki Rusiya təzyiqin nə dərəcədə qabili təlif olduğunu qarelər kəndiləri təqdir eyləsinlər.

alınıyorsa, bunun Azərbaycan həyati – siyasiyyəsində nə kibi kombinəzonlara (təhəvvülatə) müncərr olacağı anlaşılır.

**Hökumətin əmrləri üzərinə ən böyük təsir icra edən müəssisəyi – ictimaiyyə, Bakı əmələlərinin şurasıdır. Bu şura, əmələ, bəhriyyə tayfəsi, əsgər və köylü mürəxxəslərindən təşəkkül edər. Bakıda bulunan əmələnin, bəhriyyə tayfəsinin və rus işğal ordusu nəfərlərinin əksəriyyətindən təşəkkül edən bu müəssisə adətən bir rus müəssisəsidir. Bu müəssisənin başında Krılov namında bir rus dururdu. Deməkk, Azərbaycan əfkari – ümumiyyəsini təmsil edən zat bir rusdur.**

**Azərbaycan qəzayi - əsgəriyyəsi naminə cəmən 3000-4000 qədər bir qüvvət var ki, bu da məmləkətin müxtəlif mərkəzlərində pərakəndə bir halda bulunuyor. Rus qüvveyi – işğaliyyəsi isə bir kaç firqəyə malik mühüm bir yekun təşkil etməkdədir. Əsgəri idarə (Azərbaycan qəvası dəxi daxil olduğu halda) rus ərkani – hərbinə tabedir. Komanda heyəti də ruslardandır.**

**Azərbaycan iqtisadiyyatına hakim olan petrol ocaqları "Neftkom" deyilən bir müəssisə tərəfindən idarə olunuyor. Bu müəssisə hökumət içində hökumətdir. Təmamilə muxtar və doğrudan – doğruya Rusiyaya tabe bir müəssisədir. Başında rus məmurlarından Serebrovski**[143] **namında bir rus duruyor.**

**Kommunist idarələrinin şəkli yalnız zahiri pərdələrdən ibarətdir. Bu pərdələrin arxasında icrai – hökumət edən qüvvət daima və mütləqən firqə qüvvətidir. Azərbaycan icra komitəsi ilə komissarlar heyətini idarə edən qüvvət əsla dəxi bir qüvvətdir – Azərbaycan Kommunist Firqəsinin**

**Mərkəzi Heyətidir. Bu mərkəz əvamirini Moskva mərkəzi – ümumisindən alır. Mərkəzlərdə katibi – ümumilər var. Katibi – ümumilər adətən birər diktatorlardır. Azərbaycan diktatoru isə Kirov**[144] **namında bir rusdur**[42]**.**

Həqiqətdə qəvayi – iqtisadiyyə, əsgəriyyə, əfkari – ümumiyyə və heyəti – icraiyyəsi birər rus əlində bulunan bu dövlətin yalnız komissarlar heyəti - riyasətində bulunan Musabəyov ilə icra komitəsi riyasətində bulunan Səməd Ağası türkdürlər ki, ikisi də türkcə adlarını belə yazmaqdan aciz, təmamilə rus həpsinə məğlub və milliyyət nöqteyi – nəzərindən pək şübhəli adamlardır.

Xaricə qarşı Azərbaycan yalnız iki yerdə təmsil olunuyordu: Ankara ilə Moskvada. Moskvada Azərbaycanı bir çox zaman moskvalı Salavyov namında birisi təmsil ediyordu. Ankarada isə Əbilov bəy təmsil ediyordu. Fəqət, Türkiyə əfkari – ümumiyyəsini iğfaldan başqa bir vəzifəsi olmayan bu yeganə mümə ssili –siyasinin əcaib bir taleyi vardır. Əhibbadan birisinin pək haqlı olaraq söylədiyi kibi, o, dün, Azərbaycanı təmsil

[42] Biz, yalnız başlıca müəssisati – ictimaiyyə, siyasiyyə və iqtisadiyyənin ruslar əlində olduğunu göstərdik. Məmurini – dövlətin ələl - əksər, kimlərdən ibarət olduğu həqqində daha vase bir fikir vermək üçün əlimizdə bulunan türkcə "Kommunist" qəzetəsinin rəsmi qismində təsadüf elədiyimiz imzalardan bir qismini buraya nəql ediyoruz. Bir kaç nüsxədən iqtibas eylədiyimiz bu imzalar qareinə müəyyən bir fikir verər zənnindəyiz. Azərneft xalq məarif şöbə müdiri – Barçov, Azərneft rəis nüavini – Barinov, Elektrik stasion müdiri – Sizov, Oktyabr komisionu rəisi – Çaykin, Oktyabr tamaşalar komision rəisi – Edilson, Bakı şurası rəisi – Krılov, Bakı şurası katibi – Palaşkov, Seyri – səfain müdiri – ümumisi – Larionov, Təsərrüfati – ictimaiyyə müdiri – Paroşin, Ərzaq vergisi müvəkkili – Bukreev, Bakı qəzası hərbiyyə komissarı – Anefski, Hərbi rəhbər – Sıçkov, Səfərbərlik şöbə müdiri – Seyçikov, Suğurta şəbəsi rəisi – İtkin, Şəhər səhiyyə müdiri – Eyştat, Daxiliyyə komissar müavini – Siveridov, İnzibat dairəsi müdiri – Biryukov, Xüsusi Qafqas ordusu komandiri – Yeqoryev, Siyasi məarif müdiri müavini – Tartakov, Müsai şöbə müdiri – Şaxetov və i. a.

ediyordu, bu gün Mavərayi – Qafqas federsionunu təmsil ediyor. Yarın ehtimal Rusiynı təmsil edəcək. O biri gün də mühəqqəq heç bir şeyi təmsil etmiyəcəkdir![43]

**İxtilalın ilk günlərində, rus ordusunun kəndisinə yapdığı mütəntən bir istiqbal mərasimi ilə Moskvadan Bakıya vürud edən Nəriman, "Tazə pir" meydanında xalqa xitabən söylədiyi nitqində deyordu: "Məxsusi bir komision təşkil etdik. Bu komision əski hökumətin ovraqını tədqiq ediyor. Bir kaç gün sonra nəticəyi elan edəcək, o vəqt siz də görəcəksiniz ki, nə kibi xainlər sizi idarə ediyormuş!"**

**Kaç gün deyil, kaç sənə keçdi, o komision bu nəticəyi hələ elan etməmişdir. Həm edəməz də! Çünki, məmləkəti ingilislərə satdı, deyə ittiham olunan hökumətin bir həbbə olsun hüquqi – millətdən əcanibə tərk etdiyini bir Nəriman deyil, bütün bolşeviklər bir araya gəlsələr də isbat edəməzlər! Fəqət, Nərimanov və yoldaşları ruslara satmadıq bir şeyi buraxmadılar. Onlar hər şeyi verdilər. Maddi, mənəvi nə varsa həpsini təslim etdilər. Top əndaxtları ilə badi – həva göndərdikləri petrolun yüzdə on beş faizini Azərbaycana alıb verdirmək üçün aylarla yalvarırdılar. Hissələrinə düşən petrola sərbəst bir bazar təmini üçün dəxi nə dərəcə kiçildilər, nə qədər təzəllül göstərdilər. Nəhayət, bu surətlə hasil olan sərvəti də məmləkəti istila edən Qızıl Ordunun şərəfinə israf etdilər[44].**

[43] Bu sətirlər Əbilov bəyin vəfatından əvvəl yazılmışdır.

[44] İddiamızı rəsmi vəsiqəyə istinad etdirmək üçün Rusiya Mərkəzi İcra Komitəsinin 31 təşrini – sani 1921 tarixli və 73 nömrəli məzbutəsini buraya qeyd ediyoruz: "Müzakirə edildi: Azərbaycana neft məhsulatı verilmək məsələsi. Məsələyi vəz etmişdir: Rusiya Kommunist Firqəsi Heyəti – Mərkəziyyəsi. Qərar verildi ki: 1. Baş məhruqat komitəsinə Mavərayi – Qafqas dəmir yolları ilə Azərbaycan ehtiya-

Bakı petrolları ilə şimdiki Bakı deyil, Moskva spekulasion (ehtikar) yapıyor. Məmaliki - əcnəbiyyə ilə yapılan ticarət mütləqən Moskva təriqilə icra olunuyor. Qafqasiya məvaddi – ibtidaiyyəsi etibarilə Rusiyadan daha ziyadə mübadiləyə mühəyya ikən Batum təriqilə deyil, Moskva yolu ilə Avropaya rəbt edilmək istəniliyor. Bu kibi süni vasitələrlə Mavərayi – Qafqas münasibati – iqtisadiyyəsinin məcrayi – təbiisini – Azərbaycan – Gürcüstan nöqteyi – nəzərindən deyil, böyük Rusiya mənafe-

---

cat sənayesinə lazım olan petrolun üsuli – dairəsində verilməsi təklif olunsun. 2. Bundan başqa Baş məhruqat komitəsi Azərbaycan Komissarlar Heyəti ixtiyarına 3 milyon put xam neft, 2 milyon qaz yağı, 1,5 milyon put mazut, 0,5 milyon put qətran və 100 min put benzin buraxılmalıdır. 3. Petrol məhsulatının Azərbaycan hökumətinə ətası 1 təşrini – sani 1922 tarixinə qədər icra olunaraq hər halda bütün petrol istehsalatının yüzdə 15-dən fəzləsini təşkil etməməlidir. 4. Bu miqdar 1921 – 1922 proqramı mucibincə təxmin olunan istehsal miqdarına nisbətlə təyin olunmuşdur. İstehsal işbu təxmindən fəzlə olduğu təqdirdə Azərbaycanın hissəsi dəxi təzayüd edəcəkdir. 5. Azərbaycan hökuməti hissəsinə düşən neft məhsulatını Mavərayi – Qafqasdan başqa daxili Rusiya bazarında satmaq istərsə bu xüsusda mərkəzin müsaideyi – məxsusəsini istehsal etmək zərurətindədir. Əsli ilə mütabiqdir. Rusiya Mərkəzi İcra Heyəti Katibi: Yenukidze".

Bu qərar azərbaycanlıların pək şiddətli müraciət və istidaları nəticəsində vüqu bulmuşdu. Bu tarixə qədər Mavərayi – Qafqas dəmir yolları, tühəf deyilmi, məhruqat fiqdanından dolayı düçari – müşkilat oluyordu. Bolşevik qəzetələrinin yazdığına görə, Bakı vilayətindəki köylülər bir fund (sülüs hüqqə) qaz yağına 3 fund tərə yağı veriyorlardı. Kür nəhri sahilində bulunan 180-ə qədər su borusu makinələri petrol yoxluğu üzündən məəttəl qalıyor və bu cəhətlə ərazi ziraət ediləmiyordu. Bir çox sənə şədid mübarizədən sonra yuxarıdakı lütfə nail olan Azərbaycan hökuməti bir az sonra bu lütfün 5-ci maddəsində mündərc bulunan istidayi – məxsusi istehsal etmək üçün dəxi az abru tökməmişdir.

Qızıl ordunun ehtiyacatını təmin üçün bolşevik hökumətincə fəxri "şef" üsulu tətbiq edilməkdədir. Hər alayın kəndinə məxsus bir şefi vardır. Bu şeflər ələlümum Sovet müəssisatı ilə şuralarından ibarət oluyor. Şeflər alayın təltifi və təhvini – ehtiyacı üçün müxtəlif vasitələrlə ianədə bulunur, hədiyyələr təqdim edirlər. Azərbaycan müəssisati – məhəlliyyəsi dəxi kəndisini istila edən Rusiya Qızıl Ordusunun müxtəlif alaylarına "şef" bulunmaq şərəfini haizdirlər. Bittəb Azərbaycan komissarlığının bu şərəfi, onsuz da yəğma edilən Azərbaycan xəzinəsini soymaqla təmin olunuyor.



***Təzə Pir camiində eydi fətir: Bakıda İngilis işğal ordusu qitəatında bulunan hindistanlı islam sipahilərlə  Azərbaycan nəfərləri eydi fətir namazını edadan sonra siyasi bir vəzı dinlərkən***

yi nöqteyi – nəzərindən idarə ediyorlar. Cəbrlə, süngü ilə, Çeka ilə vücudə gətirilən Rusiya Federasionuna böylə süni yollarla iqtisadi bir zəmin hazırlayorlar.

Məsələ bunla da qalmayor. Azərbaycanda türk həpsi – milliyəsi əleyhinə görülən təşəbbüslər o qədər irəliləmiş olmalıdır ki, Nəriman kəndisi belə buna qarşı qəzetə sütunlarında məqalə yazmaq məcburiyyətində qaldı. O, Bakıda çıxan rusca "Bakinski raboçi" və türkcə "Kommunist"[145] qəzetələrində nəşr eylədiyi bir məqaləsində deyordu: "Azərbaycan əmələ və köylüsü bəzi mülahizat ilə siyasi həqqindən, təmamiyyəti – mülkiyyəsindən, iqtisadi faydasından keçə biliyor, fəqət, öz lisanından kimsəyə fədakarlıq yapmaz"[45].

Fəqət, siyasi həqqinə, kəndi torpağına və həyatın əsasını təşkil edən iqtisadiyyatına qarşı laübali qalan bir millət, lisan və həpsi – milliyyəsini müdafiə edə bilirmi?!.. Heç kimsə olmasa da, marksistlər bunun qeyri – mümkün olduğunu bilməlidirlər.

**Mavərayi – Qafqas Cümhuriyyətlərinin siyasi, hüquqi və iqtisadi müqəddəratı, şimdi, kəndi mərkəzlərindən ziyadə, Moskvaya mərbutdur.** 1922 sənəsinin nəhayətində, Moskvada ittixaz olunan qərarə görə Rusiya, Ukraina, Belorusiya və Mavərayi – Qafqas Cümhuriyyətlərindən mütəşəkkil bir sovetlər cəmahiri – müttəfiqəsi vücudə gəlmişdir. Burada bü-

[45] Təmamiyyəti – mülkiyyə təbiri ilə Nəriman Ermənistana hədiyyə etdiyi Naxçıvanı təlmih ediyorsa, yanılıyor. Çünki, rus bolşevikləri zahirdə nərimanların idarəsinə tərk etdikləri əraziyi belə əski çarizmdən daha qəddar və munid bir surtədə ruslaşdırmaqdadırlar. Aldığımız məlumata görə, Bakı ilə Salyan arasında yeni yapılan "İliç" limanının yeganə məqsədi Muğan səhrasını rus təhti – zadəganı ilə iskandan ibarətdir. Bu münbit səhralarda çarizm dəxi müntəzəm bir surətdə rus mühacirlərini iskan ediyordu. Söyləndiyinə nəzərən bolşeviklər buraya bir milyona qərib mühacir iskanı üçün qərar vermişlərdir.

tün Mavərayi – Qafqas namına bir mürəxxis vardır. Cəmahiri – müttəfiqə heyəti – idarəsi cümhuriyyətlərin müsavi surətdə ezam eylədikləri mürəxxəslərdən deyil, məmləkətlərin nüfusi – ümumiyyələri nisbətində göndərdikləri mürəxxəslərdən təşəkkül etmişdir. Şöylə ki, ismən müttəfiq heyəti dinilən müəssisə, Rusiya və rus mürəxxəslərinin qate bir əksəriyyət təşkil etmələrilə federasion bir məna və mahiyyətdən çıxarılmışdır. Hər müttəfiqin istədiyi zaman bu ittifaqdan çıxmasına müsaid bir maddə varsa da, böylə bir həqdən kim istifadə edə bilir?!..

# X

# QIZIL İMPERİALİZM

**Bolşeviklərin nə kibi bir Şərq siyasəti tətbiq eylədikləri, Azərbaycan misalında bütün vüzuh və sərahətilə meydana çıxmışdır**. Şərq millətlərinin xilas və nicatına aid şüarlar ilə bolşeviklər sözdə millətlərin hüququna, hürriyyətinə və istiqlalına hörmətkardırlar. İşdə isə digər imperialistlərdən heç də fərqli deyildilər. Bütün bu anlatdıqlarımızı oxuyan qare, şübhəsiz, kəndisini yeni system – bir imperialism qarşısında bulmuşdur: Qızıl imperialism!

Hərbi – ümumi nəticəsində zühur edən daxili ixtilal nəticəsində qara Rusiya imperializmi dünyayı vəlvələyə verən bir təraqqə ilə çökdü. Bu çökən əzəmət, 180 milyonluq müxtəlif cins və millətdən yapılma müasir bir Babil qalası idi. Bu qalanın əqsami – mürəkkəbəsini təşkil edən millətlər kəndi müqəddəratlarının təyini surətilə vücudi – millilərini xilasa çalışıyor və bu məqsədlə təəzzüv ediyorlardı. Əski Rusiyanın gərək qərbində və gərək cənubunda yeni hökumətlər təşəkkül ediyordu.

Rusiya ənqazi üzərində təşəkkül edən hökumətlərdən Baltik sahili ilə Qərb hüdudunda bulunanları – Qara imperialism ilə Qızıl imperialism arasında keçən istihalə dövründən kəmalilə istifadə edərək, yeni bolşevik qüvvəyi – hərbiyyəsi təşəkkül edincəyə qədər kəndilərini toparlıyacaq bir hala gəldilər. **Finlandiya, Litva, Latviya, Estoniya və Lehistan kibi dövlətlər əldə silah olaraq kəndi mövcudiyyətlərini isbat etdilər. Bolşevik təcavüzünə müqavimətlə həm Rusiyanın, həm də bü-**

**tün dövlətlərin təsdiqinə nail oldular. Qafqasiya dövlətləri isə böylə bir müvəffəqiyyətə məzhər olmadılar**. Bunlar, hər nə qədər bir hökumət təşkil edərək Avropa dövlətləri tərəfindən qismən bilfel və qismən də bilhüquq təsdiqə nail oldularsa da, mütəcavüz bolşevik qüvvətinə qarşı uzun müddət müqavimət göstərəmmirdilər.

Rusiyanın iki tərəfində təhəddüs edib də müxtəlif nəticələrlə xitanpəzir olan bu vəqayenin əsbabını tədqiq etmək, şübhəsiz, faidədən xali deyildir. Bu səbəblər miyanında qayət mühüm birisi vardır ki, onun zikrini burada bilxassə müfid buluyoruz.

Dövlətlərin təşəkkül və istihalə tarixlərinə müraciət edərsəniz, kəndi möcudiyyəti üçün cidalə başlayan bir millətin kəndisi ilə mənafeyi müştərək bulunan bir taqım qəvayi – siyasiyyədən istifadə eylədiyini görürsünüz. Yunanıstan istiqlalını ingilislərə, Balkandakı islav dövlətləri – Rusiyaya mədyundurlar. Baltik sahilindəki dövlətlər istiqlalları üçün yapdıqları mübarizədə düvəli – müttəfiqə filosu ilə mühümmati - əsgəriyyəsindən pək çox faidə görmüşlərdir. Finlandiya Cümhuriyyəti bolşevizm bəlasından, Almaniyanın müzahirəti - əsgəriyyəsi ilə qurtulmuşdur. Bolşevizm Qərb hüduduna doğru təcavüz edərkən yalnız Rusiyadan ayrılmış yeni dövlətləri deyil, onların arxasında duran müxalif Avropa qüvvətini də buluyordu. Bu hal bilxassə Lehistan misalında gözə çarpar. Lehistan müqaviməti, eyni zamanda da Fransa ərkani – hərbinin müqaviməti demək idi. Halbuki, Qafqasiya cəbhəsi böylə deyildi. Rusiyadan xilasa can atan Qafqasiya bu xilas ilə əlaqədar olan İran ilə Türkiyə dövlətlərinə istinad edəmiyordu. İran hədisatında qəvayi – müdafiədən məhrum və təşkilati - əsgəriyyəcə zəif

idi. Türkiyə isə kəndisini boğmaq istəyən Avropaya qarşı livayi – üsyan açdığından ixtilalçı Rusiyanın hər nə surətlə olursa – olsun, bir az əvvəl kəndi hüduduna yaxınlaşmasını istəyordu. Qafqasiyaya doğru enən bolşevik qüvvətində o, Avropaya müxalif bir qüvvət gördüyü üçün Şimaldan uzanan əli uzun boylu tədqiqə imkan bulamıyaraq, çabuq sıxıyordu. Qafqasiyanın başı üzərindən yapılan bu müsafihə şübhəsiz ki, Qafqasiya Cümhuriyyətlərinin müqəddəratı üzərində qəti bir təsir icra eyləmişdir.

Həyat və məmat mübarizəsinə atılan Türkiyənin böylə vəziyyət almaq zərurətində qalması şübhəsiz ki, "Əhvən şərin xeyrinə" düsturu üzərinə vaqe olmuşdur. Mühəqqəq ki, Qafqasiyanın təkrar Rusiya rəbtəyi - əsarətinə keçməsi, Türkiyə mənafen nöqteyi – nəzərindən böyük bir zərərdir. Fəqət, "Sevr" müahidəsi ilə qabiliyyəti – həyatiyyədən məhrum, zəlil bir dərəkəyə endirilən Türkiyə daha böyük bir zərər idi. Türkiyəyi bolşeviklərlə müsafihəyə icbar edən səbəb Lloyd Corc[146] və Klemanso[147] Avropasının nəşeyi – zəfərlə kor olan siyasəti idi. Bu siyasət var ikən Türkiyəyi Böyük millət məclisi zimamdarlarını bolşeviklərlə anlaşdıqları üçün kimsə müaxizə edəmməz. Bolşevik siyasətinin Türkiyə üçün siyasi bir sövqüceyş manevrəsi olduğunu qəbul etməmək, dünya məsələlərini pək dar bir gözlüklə görmək olurdu. Fəqət, bu böylə olmaqla bərabər bolşevik siyasətinin də imperializmin digər bir şəkli olduğunu unutmaq, siyasi məsələləri vəqayedən ziyadə xəyal və arzularımıza görə təqdir etmək olur.

**Avropa imperialistləri müstəmləkələrini qiyməti – fazilәyi "Ana yurd"a çəkmək surətilə istismar ediyorlar**. Halbuki, Qızıl imperializmə müstəmləkə halına qoyduğu "müttə-

fiq"lərindən sərvətin kafesini çalmaqla istifadə ediyor. Necə ki, Azərbaycan bu xüsusda ən bariz bir misaldır.

Avropa imperialistlərinə qarşı müdafieyi – nəfs edən Türkiyəyi təqviyyə etməklə Rusiya Türkiyədən daha ziyadə istifadə etdi. Türkiyəyə verdiyi müavinəti – maddiyyə və əsgəriyyənin nə kibi bir qiymətə vardığını bilməyoruz. Fəqət, bolşeviklərin Bakıya girdikləri zaman banklardan çalınan, "talan həftəsi"ndə yəğma[46] edilən mücövhərat ilə altun, gümüş təzyina və nüquddan Astarxana daşınan əmtəə və müxalifatdan başqa 300 milyon put (4 milyard 800 milyon kilo) petrol ilə 750 min put (12 milyon kilo) pambıq və pək çox ipək və sairə aşırmışlardır.

Bundan başqa petrol mənbələrinə vəzi – yəd etdikləri sonra Lenin hökuməti ən böyük düşməni olan ingilislərlə anlaşa bilmiş, Türkiyədən daha əvvəl Avropa dövlətlərilə bilfel müzakirata girişmiş və tüccari müqavilələr əqdinə müvəffəq olmuşdur. İngiltərə ilə yapdığı müqavileyi – ticariyyə, dolayısı ilə bolşeviklər Şərq siyasətini belə ilğa etmək təəhhüdünə giriyor və propağandalarını həman tədil ediyorlardı.

* * *

**Qızıl imperialistlərə "Siz də müstəmləkəçisiniz" dedikdə, idarələrində bulunan millətlərə hürriyyət və hakimiyyət haqqı əta etdiklərini rəddiyyə məqamında söyləyorlar.** Gələlim Qafqasiya Cümhuriyyətlərinə. Əcəba, yüz sənə əvvəl çar hökuməti Qafqasiyaya enirkən silah qüvvəti ilə məğlub etdiyi xanlıqlarla kəndi rizası ilə Rusiyaya iltihaq edən Gürcüstan həqqində nə kibi bir siyasət tətbiq ediyordu? O zaman xanlıqlar birdən – birə ilğa edilməmişdi. Gürcüstan şahlığı çox

[46] Bolşeviklər təsisi – hakimiyyət eylədikləri yeni məmləkətlərdə "Qrab nedelya" namilə məşhur bir talan həftəsi tərtib ediyorlardı.

zaman nam və ünvanilə baqi qalmışdı. Yalnız nə oluyordu? Rusiya əleyhdarı bir xan qaldırılıb yerinə rus tərəfdarı sadiq birisi nəsb olunuyordu. Təşkilati – məhəlliyyəyə əl dəyilməyor, yalnız şəhərlərdə rus əsgəri qarnizonu saxlanıyordu. Mühakim və divan belə əskisi kibi idarə olunuyordu. Xanlıqların təşkilati – idariyyəsi ilə bunlara məxsus şüünatın kamilən ilğası istila sənələrinin ibtidalarına aid bir məsələ deyil, tədricən vaqe olmuş bir keyfiyyətdir.

Çar zamanında Qafqasiyaya səlahiyyəti – vaseyə malik valiyi – ümumi təyin olunuyordu. Şimdiki Sovet hökuməti isə Kommunist Firqəsinin vilayət mərkəzi komitəsini göndəriyor ki, **Qafqasiya Cümhuriyyətləri təmamilə bu mərkəzə tabedirlər.** O zaman zadəgan sinfinə istinad edən Rusiya imperializmi Qafqasiyadakı xan, məlik (erməni zadəganı) və knyazlardan (gürcü zadəganı) kəndisinə münəqqad olanları qovlanıyor və o vasitə ilə təsisi – hakimiyyət ediyordu. Sərkeşlik edənlər isə ya məhv və yaxud Rusiyaya nəfy olunuyordu. Şimdi də öylə əmələ və köylü sinfinə istinad edən bolşevik diktaturası yerli əhalinin əyaq taqımlarına istinadla kəndi hakimiyyətini təsis və bu sinif içərisindən belə kəndinə tabe olmayanları məhv və ya nəfy ediyor. Nəticədə şimdiki cümhuriyyətlərin ilğası, o zamankı xanlıqların inhilalından daha çabuq bir surətdə icra ediliyor.

Çarlığın məfkurəsi zadəgan sinfi mühitində inkişaf edən "şovinizm" idi. Leninliyin idealı isə əmələ "kosmopolitizmi" nam bir məsləkdir. Birincisi, rusdan olmayan millətləri ruslaşdırmaq surətilə bütün Rusiyayı hərsən yekvücud bir halə qoymaq istəyirdi. İkincisi də həpsi – millisi daha qüvvətli olmayan zəif millətlərdə milliyyəti – fikriyyəni öldürmək surətilə bütün



***Azərbaycan Ordusu intibaatından: Telsiz teleqraf makinasi başında***

Rusiyayı qeyri – milli bir halə qoymaq (denasionalizm etmək) istəyor ki, nəticəyi – feliyyəsi etibarilə yenə o deməkdir.

İxtilallar hər nə qədər aləmşümul bir mahiyyətdə olsalar da, nəticədə kəndisini elan etmiş məmləkətin həyati – ictimaiyyə və təşkilati – siyasiyyəsini, tarixin iqtizası və iqtisad qanunlarının təhəmmül edəcəyi bir çərçivə daxilində təbdil etməkdən başqa bir məhsul verməz. Olsa – olsa hakimiyyət müəyyən bir sinif və təbəqə inhisarından daha müasir və daha mütərəqqi bir ünsürə keçir. Demək istəyoruz ki, ictimai inqilablar bir məmləkətin siyasəti – xariciyyəsindən ziyadə daxili siyasəti üzərinə icrai – təsir edir. Fransa inqilabının xaricə qarşı siyasəti burbunların ənənəvi siyasətindən başqa deyildi. Sovetlərin siyasəti də çarlar Rusiyasının siyasətindən başqa bir şey deyildir. Daima türk düşməni olan Rusiyanın Türkiyəyə "dost" çıxması isə

tarixdə misli yox bir hadisəyi – inqilabiyyə deyildir. Məhəmməd Əli Paşa[148] üsyanında Sultan Mahmuda[149] müavinət göstərən Rusiya çar Rusiyası deyilmidi? Bolşeviklər İngiltərəyi Hindistanın təsxiri ilə təhdid ediyorlar. Fəqət, bu təhdid dəli Petronun[150] məşhur vəsiyyətnaməsində dəxi məzkur deyilmidir?..

Əvət, Məhəmməd Əli Paşa vaqesi və bu günkü hadisələr tarixin birər cilveyi – istisnaiyyəsini təşkil edirlər. Bunlar bir epizoddur. Daim olan bir şey varsa, o da Cənuba doğru axan Rusiya axını ilə bu axına məruz qalan türklükdür.

**Rus hankı dinə girirsə - girsin, yenə rusdur. Qara da olsa, qızıl da olsa rus imperializmi – imperializmdir.** Rusiyada təbəddül edəcək şey, onun üsuli – idarəsidir. İstehsal və istehlakındakı üsullardır, yoxsa, Rusiya coğrafiyası dəyişmədi.

Qızıl imperialism böyük Rusiya ixtilalının doğurduğu bir sistemdir. Bu ixtilal əsrin mavəddəsi hökmündə olan sosializm şüarları ilə ehtikar yaparaq kommunizm bayrağı altında cərəyan etdi. Dünya müdhiş bir xəlq hərəkatının fövrani qarşısında bulundu. Bu dəhşətli hərəkəti – məşəriyyə, şübhəsiz ki, zamanımızın ən şayani – tədqiq bir hadisəsidir. Fəqət, bu hadisədə keçici nöqtələrlə baqi qalacaq həqiqətlər var. Tədqiq edərkən bunları təfriq etməmək qabil deyildir. Sosializm və kommunizm məfhumları kibi böyük məfkurələrin elani – tətbiqi, həm də Avropa dövlətləri arasında ən geridə qalmış bir məmləkətdə şübhəsiz ki, bu hərəkətin keçici mənzillərini təşkil edir. Nasıl ki, bu gün biz kommunizm firqəsinin elan eylədiyi kəndi prinsiplərindən birər – birər vaz keçdiyini görüyoruz. Dörd – beş sənəlik dəhşətli misallar və əmsalsız tədhişlər nəticəsində baqi qalan qazanc isə demokratik sosialistlərin təbirincə burjua – bir

üsul idarəsinin binasını təmin edən cəhətlərdir. Bu cəhətlər miyanında ən mühüm olanı Rusiya imperatorluğunun əsasını təşkil edən əsil zadəgan sinfinin imhasıdır.

**Rusiya son yarım əsrdəki** iqtisadi inkişafatı ilə artıq qüruni – vüstai bir istehsal məmləkəti olmaqdan uzaqlaşmışdı. Halbuki, təşkilati – siyasiyyəsi etibarilə bu məmləkət hala feodal bir zehniyyət ilə idarə olunuyordu. Burada hökumət təmamilə əsil zadəgan sinfi əlində, dövlətin ümuri – mülkiyyəsi ilə təşkilati - əsgəriyyəsi çar tərəfindən tətvic olunan bu mümtaz təbəqənin inhisarında idi. “Dvoryanstvo” deyilən zadəgan sinfi kəndisinə məxsus təşkilati ilə imtiyazati – hüquqiyyə və siyasiyyəyə malik mümtaz bir təbəqə idi. Bu təbəqə hüquqi – siyasiyyəcə bu qədər ziixtidar ikən, iqtisadən çürüməyə başlamış, çox zamandan bəri mövqeyini yeni təşəkkül edən burjua sinfinə tərk eyləmişdi.

Rusiya ixtilali – kəbiri bu hadisəyi tədqiq edənlərcə məmləkətin iqtisadiyyatı ilə siyasiyyatı arasındakı bu əzimi – təzadın təsadümündən başqa bir şey deyildir. İxtilal əsil zadəgan sinfini təmamilə imha etdi. Bunlar artıq mümtaz bir təbəqə həqqini haiz deyildirlər. Əsil zadəgan təbəqəsi yalnız siyasətən deyil, iqtisadən də məhv edilmişdir. Böyük malikanələrlə çiftliklər köylilər arasında təqsim olunmuş, birər “Qartal yuvası” təşkil edən kaşanələr xak ilə yeksan edilmişdir.

**Şimdiki Rusiya böyük şəhərlərə malik olmaqla bərabər geniş ərazisi və 130 milyona baliğ nüfusu[47] ilə dünyanın ən böyük çiftçi məmləkətidir.** Bu məmləkətdə əvvəlcə üç milyona qərib bir əmələ sinfi mövcud ikən şimdi – inqilab sənələrinin təxribkar təsiri ilə bu ədəd milyondan daha az bir rəqəm-

47 İxtilaldan sonrakı Rusiya federasiyonu qəsd olunuyor.

lə göstəriliyor. Əksəriyyət əziməsi köylüdən təşəkkül edən bu məmləkət əsil zadəganın malikanələrini yəğma və torpaqlarını qəsb etmək üçün bir an tarixi içində kommunist oluyormuşdu. Fəqət, şimdi birər kiçik mülk sahibindən ibarət olan bu köylü dəryası "ac və bacarıqsız" şəhərlər hakimiyyətindən ibarət olan kommunist əmələ hökumətini çəkməməyə başlayor. Kommunist təcrübələri nəticəsində əməllərinin bihudə olduğunu görən əmələ qismi dəxi "kəndi" hökumətinə qarşı deyil, hətta müariz bir ruh peyda ediyor. Ötədə yeni bir "ixtilal burjuaziyası" doğuyor ki, əskisinə nisbətlə, pək əxlaqsız və tamahkar olmaqla bərabər, kəndisi ilə ehtikar şərikliyi yapan kommunist məmurlarını fəna halda sui - əxlaqa sövq ediyor.

Bütün bu müxalif ünsürlər içərisində istinadgahi – ictimaiyyəsini qaib edən kommunizm diktaturası son günlərini yaşamaq üzrə bulunuyor. O, bütün hümmətini böyük sənaye və xarici ticarəti kəndi əlində saxlamaqla köylü dəryasından gələn dalğalara qarşı bir sədd çəkmək xülyasilə idameyi – həyat etmək istəyorsa da, buna qətiyyən müvafiq olmayor. Çünki, yüzdə 14-ü qədər tənəzzül edən Rusiya sənayesi içərisində ən çox ümidsiz bulunanı böyük sənaye ilə xarici ticarətdir.

Rusiya iqtisadiyyatı hər növ təsəvvürün fövqündə bərbad bir haldadır. Böylə bir halda ənasiri – təbiyyəyə müxalif bir ruh və idarəyə malik bulunan kommunizm "rejimi" süqut etmək məcburiyyətindədir. Bu süqut yalnız bu günkü hakim qüvvətin başqa bir qüvvətə təbəddülü ilə qalmıyacaq.

**Velikorus mərkəzi,** sanaye nöqteyi – nəzərindən bir mərkəz ikən, kommunizm manevrası ilə təkrar kəndisinə bağlaya bildiyi Qafqasiya və Türküstan kibi məmləkətlər məvadi – ibtidaiyyə həsbilə müstəhsildirlər. Müharibədən əvvəlki Rusiya

vilayətlərdən aldığı məhsulat müqabilində məmulat verməklə müvazinə yapıyor, bu surətlə mərkəz ilə vilayətlər arasındakı iqtisadi rabitə təmin olunuyordu. Halbuki, bu gün öylə deyildir. Hərbi – ümumi ilə ixtilali – kəbir nəticəsində Rusiya sərvəti – milliyyəsi 11 milyard altun rubledən 4 milyard rubleyə enmişdir. Bu süqut bilxassə sənayeyə aiddir. Sənaye etibarilə Rusiya məmulati – milliyyəsi 5 dəfə azalmış ikən məhsulati – ziraiyyəsi iki dəfə azalmışdır. Ziraət etibarilə velikorus mərkəzi əvvəldən müstəhsil olmaqdan ziyadə müstəhlək idi. Fəqət, bu xüsusdakı açığını o, məmulati – sənayesi ilə qapayordu. Fəqət, şimdi bu mərkəz hər bir cəhətcə müstəhlək bir vəziyyətə keçmişdir. Qafqasiya ilə Türküstan məvaddi – ibtidaiyyəsinə müqabil Rusiyanın verəcək bir şeyi yoxdur və daha çox zaman olmayacaqdır. Bakının petroluna müqabil Rusiya əskidən şəkər, manufaktura və sair əmtəə idxal ediyordu. Halbuki, bu gün miqdarı ərqəmi – fələkiyyə ilə sayılan "Sovet qaiməsini də verəmiyor. Böylə olunca təbiidir ki, müstəhsil vilayətlərlə müstəhlək mərkəz arasındakı münasibət mütəqabil mənafeyi – iqtisadiyyə üzərinə müstənəd təbii bir rabitə ilə deyil, Qızıl Ordunun süngüləri sayəsində süni bağlarla qaimdir.

**Moskvada Sovet cümhuriyyətlərinin federasionunu təşkil edən konqrenin iniqadı bizim bu iddiamızı qətiyyən cərh edəməz.** Çünki, bu konqre vilayətlərin arzusu ilə deyil, mərkəzin əmrilə iniqad eyləmişdir. Vilayətlərin arzuyi – həqiqisinə, az – çox tərcüman olanlar isə bu konqrenin iniqadı əsnasında və qismən hala məhbəslərdə çürüyor və məmləkətlərindən uzaqlaşdırılaraq Rusiyanın ən sovuq bucaqlarına nəfy olunuyorlar. Fəqət, kəndi hakimiyyətini qurtarmaq üçün bu günə qədər qullandığı vasitələrdən daha qüvvətli olacağı bəlli olmayan

bu vasitə ilə kommunizm firqəsi kəndisini qurtarır zənn edilməsin. Kommunizm süquta məhkumdur. Kommunizm süquta məhkum olduğu kibi, süni vasitələrlə mərkəziyyəti – idarə vücudə gətirmək istəyən Moskva sistemi də məhkumi – zəvaldır. Müdhiş bir terrorist olan bu firqə üçün müslihanə bir surətdə mötədil bir hökuməti - əsriyyə şəklinə girmək, ruhiyyat nöqteyi – nəzərindən qeyri – mümkündür. Üsyan və qanla sərkarə gələn bir qüvvət yoxsa da yarın o qüvvət, kommunizmin kəndi vücudə gətirdiyi təşkilat hüceyrəsindən olsa da doğyuracaqdır. Fəqət, kommunizm imperializminin devrilməsi ilə kəndinə cəbrən bağlanan milli təşkilati – siyasiyyə üçün dəxi yaxayı qurtarmaq fürsəti təkrar gəlmiş olacaqdır. Bu, bilxassə Qafqasiya üçün variddir. **Qafqasiya bundan yüz sənə əvvəlki vəziyyətində deyildir. Yüz sənə əvvəl inkişaf edən Rusiyaya qarşı münkəşif bir Avropa iqtisadiyyatı ilə mübariz bir Şərq milliyyətpərvərliyi yox idi. Bu gün o da, bu da mövcuddur.**

## XI

## İSTİQLAL MƏFKURƏSİ

Azərbaycan Məclisi – məbusanının ilk cələsəsini açan natiq, məclisi təzyin edən bayrağa xitabən "Bir kərə yüksələn bayraq bir daha enməz!" – demişdi.

**Bayraq əgər yalnız müxtəlif rəngli qumaşlardan ibarətsə, Azərbaycan istiqlal bayrağı enmiş, parlaman cadəsindəki Məclisi – məbusan binasının üstündə mavi, al və yaşıl rəngli və hilal sitarəli bir qumaş yoxdur. Yox, əgər maddətən ələladə bir qumaşdan başqa bir şey olmayan bayraqlar mənən bir millətin hürriyyət və istiqlalını tərmiz edən bir timsal isə, o halda, hal – hazırda Bakı binalarının üstündə çəkiclə oraq əlamətini göstərən qırmızı qumaş Rusiya əsarətini örtməkdən başqa bir şey deyildir.**

Əvət, bu kitabın qabında siyah çərçivə içərisində görükən Azərbaycan bayrağı – Azərbaycan hürriyyət və istiqlalının bu müqəddəs timsalı bu gün Bakının, Gəncənin və sair Azərbaycan biladının üstündən enmiş, fəqət, nərəyə?..

Eşqi – istiqlal ilə yanan və həsrəti – hürriyyətlə sızlayan Azəri gəncliyinin ürəyi yarılsa, bu bayrağın orada mənquş olduğu görülər. Əvət, heç bir zaman Azərbaycan xalqı bu qədər həzin bir həsrət duymamışdı. Hankı köylüyü, hankı əmələyi, hankı münəvvər və ya əsnafı dinləsəniz **"Azərbaycan"dan** yana – yaxıla bəhs edər. Azərbaycan dövri – istiqlalına bolşeviklər – Müsavat dövrü deyirlər. Fəqət, xalq bu dövrə **Azərbaycan** dövrü deyir. O, şimdiki rejimi, Azərbaycan – deyə

qəbul etmir. Xalqın düşüncəsində **Azərbaycan** məfhumu coğrafi bir mənadən ziyadə fikir və əməl şəklində təcəssüm edir. İstiqlal xaricində onun üçün bir **Azərbaycan** yoxdur.

Bolşeviklər tərəfindən sıxı bir sansor altında nəşr olunan mətbuatdan xalqın hissiyyatını tədqiq və təqib etmək qabil deyildir. Bilxassə ki, bu mətbuat aləmi – mədəniyyətinin bildiyi mətbuat kibi deyildir. Hakim firqənin kontrolu xaricində bir qəzetə çıxmadığından xəlqin duyğusunu bolşeviklikdə çıxan qəzetlərlə ölçmək olmaz. Məmafih, ara – sıra çıxan və bir – iki nüsxə nəşr edildiyindən sonra təkrar qapanan məcmuələrdə görülən bir taqım ədəbi parçaların ruhu təhlil olunursa, şairin nə kibi qeyri – məmnun, həsrətzədə və müntəzir bir mühitdən mülhəm olduğunu görürsünüz. Burada vəziyyətindən məmnun, inqilabilə müftəxir bir kommunizm ilhamına təsadüf edəməzsiniz. Çünki, **Azərbaycan kommunizmi** yoxdur. Buradakı kommunizm istilakar bir qüvvətdir. O, qətiyyən xaliq bir qüvvət olmaz. O, yalnız uçurar, yıxar, edam edər. Zehniyyəti, tərbiyəsi və inkişafi – ictimaiyyəsi etibarilə milli və demokrat bir inqilab üçün hazır bulunan bu mühitə milliyyəti – münkiri, demokrası bir qüvvətin təsəllütü, bittəb nikbin birr uh inkişaf verəməz!

**Kommunizm nə yaparsa – yapsın, Rusiya imperializmi hankı rəngə girisə - girsin, meydanda bir həqiqət var: Millətlər kəndilərini tanımışlar. Azərbaycan türk olduğunu idrak eyləmiş, sənələrdən bəri axan qanları mən bir göldən ziyadə, vəzi – həmldə axan qanlara bənzətmək istərəm. Zatən, dünya inqilabat və müharibələrində axan qanlar daima yeni məfkurələrin tövlidinə səbəb olmuş deyilmidir? Bütün alam və iztirabına təhəmmül etdiyimiz bu fəcaye içərisində böyük bir fikir doğmuşdur: Fikri – istiqlal!**

**Müstəqil Azərbaycan – bu gün maddətən Rusiya qüyudatı ilə dərzəncir olsa da, mənən mövcuddur. Azərbaycan istiqlalı bir fikir olaraq vaqedir. Bolşeviklər Qafqasiyada rəyi – ammə müraciət təklif edilsə, qətiyyən razı olmazlar. Çünki, bütün xalqın həman istiqlali – idarə lehinə rəy verəcəklərini bilirlər.**

**Azərbaycanın bu qədər fəlakətlər nəticəsində əldə etdiyi bir qazanc varsa, o da bu istiqlal fikrinin rüsuxidir.**

**Şimdi istiqlal və hakimiyyəti – milliyyə sevdasilə yaşayan bir Azərbaycan gəncliyi vardır ki, ÇK-nın amansız edamlarına rəğmən, gecə - gündüz çalışıyır, ilk fürsət və imkanı bəkləyib duruyor. Bu fürsət gəlincə o, meydanə çıxacaq və o zaman yanıq könlündə atəşin cizgilərlə mənən mənquş bulunan bayrağı maddətən yüksəldərək deyəcək ki: "Əvət, bir kərə yüksələn bayraq bir daha enməz!".**

* * *

Əvət, böyük faciələr, əzim sarsıntılar, məşəri hərəkətlər əsrində yaşayan Azəri gəncliyi üçün müstəqil yaşamaq misaqi – millidir. "Misaqi – milli"nin nə kibi möcüzələr yaratdığını o, Şərq milliyyətpərvərliyinin ələmdarı, böyük qardaşı Türkiyənin göstərdiyi xarüqədən öyrənmişdir.

Hərbi – ümumi ilə başlayan hadisati – aləm daha nəticəyə varmamışdır. Bu nəticə millətlərin həqqi – hakimiyyətlərini təmin etmək surətilə hasil olacaqdır. Bayrağındakı rənglərin mədlulu vəchlə[48] müasir bir türk və islam – mövcudiyyəti –

[48] Azərbaycan bayrağındakı mavi rəng – türklüyü, yaşıl rəng – müsəlmanlığı, al rəng də - təcəddüd və inqilab rəmzi olmaq həsbilə əsrliyi tərmiz edər ki, möhtərəm Ziya Göyalp bəyin "Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm" – düsturunu ifadə etmiş olur.

siyasiyyəsinə təkrar qovuşmaq ümidilə, bu mövud nəticəyə çarçeşmlə intizar edən **milliyyətpərvər Azərbaycan hal – hazırda bittəb pək fəci bir dövr keçiriyor.** Böyük hirmanlar və çəkilməz təzyiqlər içərisində güzəran edən bu dövrdə Türkiyənin istilakar Rusiya ilə mütəlif bulunmaq zərurətində qaldığı müddətcə Azərbaycan pək acı bir nəsibə təhəmmül edəcəyini hiss və təqdir eylər. Fəqət, işbu zərurət tərixiyəyi – mütəvəkkilanə qaltanırkən pək çox arzu edir ki, "misaqi – milli"si ilə yalnız kəndinin deyil, şərqilərin "hüquqi – bəşəriyyə"sini elan edən yeni Türkiyə müasir Rusiya imperializmini qızıl sözləri ilə deyil, qara işləri ilə təqdir eyləsin!

Son.

## AZƏRBAYCAN QURBANLARINDAN BİR LİSTƏ

Kitabımızın mətnində isimləri zikr olunan şühədayi – istiqlaldan maəda, **bolşeviklər tərəfindən qurşuna düzülən Azərbaycan qurbanlarının listəsini təmamilə elan edəcək olursaq, bu xüsusda müstəqil bir risalə nəşr etmək zərurətində bulunuruz.** Məmafih, bu edamların nə kibi bir məqsəd və hədəfə tovcih edildiyinə bir nümunə olmaq üzrə müdafieyi – istiqlal yolunda fədai – can edənlərin əsamiyyəsini qismən ehtiva edən bir listəyi buraya dərc ediyoruz.

**Ordu ümməra və zabitanından:**

1. Mirliva Yusifov İbrahim ağa.
2. Mirliva Qaytabaşı Həmid bəy.
3. Mirliva Səlimov Həbib bəy.
4. Mirliva Tlexas Murad Gəray.
5. Şahzadə Kazım Mirzə Qacar.
6. Şahzadə Sulkeviç Süleyman bəy.
7. Miralay Qalacov.
8. Miralay Süleymanov.
9. Miralay Xazən.
10. Miralay Cəlayev.
11. Miralay Koden (rus).
12. Miralay Makayev (gürcü).
13. Qədimli yüzbaşı Xudaverdiyev Xuduş.
14. Yüzbaşı Konstantinoviç (Leh).
15. Yüzbaşı Əhmədzadə Yəqub bəy.

16. Qaimməqam Əlizadə Nağı bəy.
17. Mülazimi – sani Talışxanlı İlyas bəy.
18. Mülazimi - əvvəl Fəttahov İbrahim bəy.
19. Mülazimi - əvvəl Axundzadə Cəfər bəy.
20. Mülazimi - əvvəl Ağalarov Fərhad bəy.
21. Mülazimi - əvvəl Mirizadə Hüseyn bəy.
22. Mülazimi - əvvəl Mehdizadə…
23. Şahzadə Sədrəddin Mirzə.

**Məclisi – məbusan əzasından:**

1. Rzayev Abuzər bəy (mühəndis).
2. Şeyxzamanlı Məhəmməd Bağır bəy.
3. Axundzadə Murtuza bəy.
4. Əxicanov Müseyib bəy (hüquqdan məzun).
5. Ziyadxanlı İsmayıl xan (sabiq Duma məbuslarından).

**Mühərririn, üləma və müəllimindən:**

1. **Köçərli Firidun bəy.** Mərhum Köçərli Azərbaycan ədəbiyyat tarixini tədqiqilə yeganə məşğul bulunan qiymətdar bir mühərrir, müəllim və alim idi.
2. **Professor Zimin.** Bakı Darülfünunu tarix və ədəbiyyat şöbəsi müdiri bulunan bu zat məşhur müstəşriqlərdən idi. Azərbaycan Darülfünunda Şərq tarixini və ərəb lisan və ədəbiyyatı kürsüsünü işğal ediyordu. Eyni zamanda dəxi Şərqi Tədqiq Cəmiyyətinin rəisi idi.
3. **Mürsəlzadə Piri bəy.** "Azərbaycan" qəzetəsi mühərrirlərindən.
4. **Qabulzadə İslam bəy.** Zaqatalada xidməti – milliyyətpərvəranəsi ilə mütəmayiz, dəyərli müəllimlərdən.

5. **Mirzə Abbas.** Pedaqoji sahəsində qiymətdar əməkləri ilə məruf müəllimlərdən.
6. **Musabəyov -** müəllimlərdən.
7. **Musabəyova Məsumə xanım -** müəllimələrdən.
8. **Qasımzadə Qasım bəy –** Ticarət məktəbi – alisi tələbələrindən.

**Məmurini – mülkiyyə və sair sünufi - əhalidən:**

1. Gəncə valisi, doktor – cərrah. **Xudadad bəy Rəfibəyov**
2. Bakı valisi. **Hadıyev.**
3. Bakı polis müdiri. **Mirzəzadə Rüstəm bəy**
4. Gəncə üsyanı mübarizlərindən. **Qaçaq Qənbər.**
5. Nuxa bələdiyyəsi rəisi. **Azaq bəy**
6. **Ağdaşlı Məhərrəm Əfəndi.**
7. **Camal Çavuş.** Bolşevik aləmində Camal Paşa namilə məruf bulunan bu zat ixtilalın əqəbində həbs edilmişdi. Həbsdən azad edildikdən sonra Lənkəran qəzasına qaçmış və orada əhalinin başına keçərək bolşeviklərə qarşı aylarla müqavimət eyləmişdir. Yusif Camal bəy mərhum ən əsil Şərqi Anadolu əhalisindən olub, bütün mövcudiyyəti ilə Azərbaycan istiqlal və hakimiyyətinə rəbti – qəlb və bəzl mövcud etmiş bir fədai idi. Xatirəyi – ehtiramı Azərilərin qəlbində mədfundur.
8. Volqaboyu türklərindən, Bakı türk əmələ birliyinin katibi. **Müzəffərov Hüseyn**
9. Volqaboyu türklərindən. **Zərif Əfəndi.**
10. Ağdaş əyanından. **Rüstəmbəyli Mustafa bəy**

# FEHRİST

Bir mütaliə ........................................................... 34
Müqəddəmə ........................................................... 36
I. Azərbaycan xəlqi ........................................................... 40
II. Ədəbi və milli intibah ........................................................... 43
III. Hərbi - ümumi və ixtilali - kəbir ........................................................... 60
IV. Qardaş Türkiyənin imdadı ........................................................... 75
V. Modros Mütarəkəsinin Qafqasiyadakı nətayici ..... 87
VI. Məclisi - Məbusan və icraatı ........................................................... 91
VII. Hadisati - mühümmə ərəfəsində ........................................................... 114
VIII. Bolşevik istilası ........................................................... 122
IX. Şimdiki vəziyyət ........................................................... 144
X. Qızıl imperializm ........................................................... 157
XI. İstiqlal məfkurəsi ........................................................... 168
Azərbaycan qurbanlarından bir listə ........................................................... 172




***Xəritə rəssamı Fuad.***
***Azərbaycan məsaheyi-səthiyyəsi Belçikanım üç misli, 92,16 bin mürəbbe kilometr (85,348.9 mürəbbe verst) miqyasında olub üç buçuq milyona qərib bir nüfusu ehtiva edir”***

**Milli Azərbaycan nəşriyyatı N2**

# ƏSRİMİZİN SİYAVUŞU

**Azərbaycan dastan fəciənə aid bir müqayisə**
**Mühərriri Rəsulzadə Məhəmməd Əmin**
***Sabiq Azərbaycan Şurayi millisi rəisi***

**Millət yoludur, həqq yoludur tutduğumuz yol**
**Ey həqq! Yaşa,ey sevgili millət,yaşa var ol!**
**T.F.**[1]

**İstanbul – "Amədi" mətbəəsi**
**1339-1342**

**Azərbaycan istiqlalı yolunda can verən şəhidlərin ruhuna ithaf**

**Əziz arkadaşlar!**

Namərd düşmənin təqibindən bir tərəfə çıxaraq məqsədə hizmət etmək üçün getdiyimiz yol üstündə yazılmış bu risaləyi, tovfiq olursa, kəndim təb etdirəcəyəm.Fəqət tale yar olmaz, mən bunu təb etdirəməzsəm, bu nüsxəyi onun üçün buraxdım ki, siz zəhmətimi hədər etməyib onun təb və nəşrinə bəzl hümmət edəsiniz. Təbində mümkün olduğu qədər nəfasət və sihhətə itina edilməlidir.

Böyük məqsəd yardımcınız, parlak məfkurə işığınız olsun!

**Əli Əhmədoğlu**

# MÜQƏDDƏMƏ

Milli Azərbaycan nəşriyyatının ikinci sayısını təşkil edən bu risaləmizin kəndinə məxsus bir macərası vardır. Bu macəra, kəndibaşına bir mövzu təşkil etməklə bərabər, əsrimizdə görülən həyəcan və təsirləri izah nöqteyi-nəzərindən dəxi şayan-diqqətdir.

"Əsrimizin Siyavuşu" müəyyən bir məqsədlə, vətənimizin, millətimizin, əfkar və etiqadımızın, düşmənlərinə qarşı məxsus bir hüsn-ədavət təvəllid etmək niyyətiylə əvvəlcə düşünülmüş bir əsər deyildir. Nəşriyyatımızın ilk sayısını təşkil edən "Azərbaycan Cümhuriyyəti"ni Türkiyə sahə mətbuatında gördüyümüz bir nöqsanı, qüdrətimiz daxilində, izalə etmək qəsdiylə, mürəttəbbir plan üzrə,təhrir eləmişdik. Halbuki "Əsrimizin Siyavuşu" boylə  müəyyən bir məqsəd və planla yazılmış deyildir.

Biz onun nasıl yazıldığını, nə kibi şərait içərisində vücudə gəldiyini müxtəsər də, olsa, anlatmazsaq, əsərin hanki saiqlə və nə hədəflə yazıldığını tərif edəməyəcəyimizi hiss ediyoruz. Bunun üçün, möhtərəm qarelərin müsaidəsi ilə sərgüzəşt həyatımızdan bir qismini nəql edəlim:

Bolşevik istilası müəssif bir əmr vaqe idi. Bir ay qədər Bakıda gizləndikdən sonra, bir arkadaşla bərabər, Bakıyı tərk eləmiş, Gürcüstana keçmək üzrə yola çıxmışdıq.Vüquat və təsadüflər bizi, bir çox dağlar və dərələri gəzdikdən sonra, Şamaxı qəzasında (Lahıç) namilə məruf bir qəsəbədə, saxlanmaq zərurətində bulundurmuşdu.

Lahıçda,bir vətəndaşın evində müsafir idik. Bu evdə ufacıq bir kitabxanə vardı. Bir kaç farsi, bir kaç türkü, bir kaç da rusca kitab və məcmuələrdən ibarət olan bu kitabxanənin, məncə, ən calib məraq cildi Firdovsinin"Şahnamə"si idi.

"Şahnamə"yi yeni başdan oxumayə başladım. Şərqin bu böyük romantiki uzman pək həssas bulunan ruhumi istila etdi. Keçirdiyimiz macəraləri şairanə bir surətdə yeni başdan yaşadan nə hekayələr, nə dastanlar, nə tiplər, nə fülüsfələr vardı. Bunların miyanında ən ziyadə marağımı calib və ruhumun ən həssas nöqtələrinə qədər nüfuz edən bir hekayəyi: Siyavuş dastanını oxudum. Əvvəlcə aşna olduğum bu dastanı ilk dəfə oxur kibi oldum. O qədər  sevdim, o qədər anladım ki, bir daha təkrar etdim. Yüksəkdən oxudum. Arkadaşıma dinlətdim.

Heç şübhə yoxdur ki, mülhəm idim: "Arkadaş, tarixin Siyavuşunu dinlədim, şimdi sana əsrimizin Siyavuşunu yazacağım" dedim. O, buna heyrət etmiş idi. Hər saət və hər anda bir basqın təhlükəsinə məruz bulunduğumuz boylə bir vəziyyətdə yazı yazılacağına inanmamışdı.

Fəqət mən başladım. Kaç yapırıq yazmışdım ki, bulunduğumuz evi bərai-ehtiyat dəyişmək lazım gəldi. Yeni nəql etdiyimiz mənzil mənə pək müvafiq gəlmişdi.  Ehtimal ki, təqibatdan saxlanmaq üçün, burası daha az müsaid idi; Fəqət Lahıç dağlarının ən möhtəşəmi bulunan (Nihal)ə nazir gözəl mənzərəsi, (Girdman) çayının gecə mehtabındakı munis axıntısı və yabancı nəzərdən məhfuz bulunan küçük bağçəsi ilə o, o anda, yaşadığım təəssüratı kağız üzərinə tökmək üçün ən müsaid şəraiti haiz idi.İnzəvamızın xələldar olmamasını təmin edən İxtiyar babanın cansiparanə ehtimamları sayəsində heç bir şeyi düşünməyor, bu yenə yazıyordım.

Altıncı gün yenə yerimizi dəyişmək lazım gəldi. İki günlüyə bizi başqa bir evə nəql etdilər. Burada sonuncu fəslin müsəvvədəsini bitiriyordum.

Artıq Lahıçda qalamaz olmuşduq. Evlərində müsafir olduğumuz vətəndaşlardan bir qismi tovfiq olunmuş, köy, ümumi təhryat təhdidi altında qalmışdı. Bir an əvvəl Lahıçı tərk etmək lazım gəli-

yordu. Əqim qalan iki təşəbbüsdən sonra qəsəbəyi tərk etdik.

Dağlığı inmiş,ovaya gəlmişdik. Keçdigimiz köylərdən birisində müsəvvədə halında bulunan "Siyavuş"u təbyiz etdim. Təbyiz olunan nüsxəyi müsafiri bulunduğumuz köylüyə tərk edərək müsəvvədəsini kəndimlə bərabər aldım. Köylü qardaşımıza, kəndisinə qiymətdar bir əmanət tərk elədiyimi və məndən bir puslə gəlməyincə işbu dəftərin kimsəyə verilməməsini tənbih etdim. Müsəvvədəsini kəndimlə bərabər bulunduruyordum. Qəzaya uğramayacağımızdan əmin olamazdım. Tələf və ya zəbt olacağı təxmin olunan nəzdimdəki nüsxədən başqa digər nüsxəsi bulunsun, deyə boylə bir tədbir lüzum görmüşdüm. Burası arkadaşlarıma xitabən əlavə etdiyim vəsiyyətnamədən dəxi müstəban olmaqdadır. Qorxduğum, bir əmr vaqe olmuş, bulunduğumuz yer təsadüfən kəşf edilmiş, evimiz basılaraq tovfiq olunmuşduq. Təslim olmadan əvvəl nəzdimdəki nüsxəyi biltəbi, tələf etmişdim.

Bir çox qəzavü qədər keçirdikdən sonra, Moskvaya nəfy edildim. İki sənə bir həyat mənfa keçirdim. Bu iki sənə müddətində "Siyavuş"ın ikinci nüsxəsinin əmanət etdiyim köylüdə səlamət qaldığına aid səhih bir məlumat alamadım. Nüsxə, daha arkadaşların əlinə keçməmişdi. Köylü, tənbih etdiyim pusləyi almadan, kitabı kimsəyə verəmiyəcəyini anlatmışdı.

İki sənəlik həyat mənfadən sonra, daha az macərali olmayan bir təşəbbüslə firarən (Finlandiyaya) keçdim. Nəhayət, buraya gəldim. Tam üç sənə sonra qayb etdiyimi buldum. "Əsrimizin Siyavuş"i bir çox müşkülat və macəralərə məruz qaldıqdan sonra, bolşevik hisarını yararaq, İstanbula qədər gəlmiş, müəllifinin kəndisinə aid təəssürünü zail etmişdir.

***

Arkadaşlardan bəziləri qayb etdiyim bu əsərdən dolayı duyduğum təsiri gördükdə, mövzu məlumunuzdur, yenidən yazarsınız, deyə təsliyət ediyorlardı. Ehtimal ki, bu mövzu yenidən

yazıla bilirdi. Fəqət o zamankı hal, hissiyyat və vəziyyət bir daha iadə ediləməz. Və 1920-ci sənədə Lahıçda qaçaq bir həyat yaşayan Əli Əhmədoğlunun[1] əsəri ilə 1923-cü yılda İstanbulda yaşayan Rəsulzadə Məhəmməd Əminin əsəri arasındakı fərq aşkar olsa gərək!

***

"Əsrimizin Siyavuş"u, türkliyin başlayan yeni tarixində vaqe həzin bir hadisənin yanıqlı bir mərsiyəsidir.Mühərrər, vəqeyə iştirak eləmiş bir fərd sifətiylə və ətdən, qandan və əsabdən xəlq olunmuş bir zihəyat olmaqla, hissiyyat və təsiratına qapıla bilir; fəqət salifüzzikr şərait içərisində, təsadüfi bir saiqlə, müəyyən bir qəsdə mətuf olmadan, o anda duyulan pək dərin təəssürati hekayə edən bu əsərin səmimiyyəti əlbəttə inkar olunamaz. Mütəsəvvir qüsurların işbu səbəblə, nəzər müsamihə ilə görülməsi rica olunur.

İşbu əsər, yazılırkən, bir çox istiarə və misalları etibarı ilə Azərbaycan mühit ədbiyyəsini nəzərə almışdır. Bu qədər macəralər sonunda kəndisinə İstanbulda təbvə nəşr olmaq nəsibi düşmüşdür. Bu nəsib kəndisinə cüzi bir şivə təshihi ilə bir taqım həvaşi əlavəsindən başqa bir təsir icra eləməmişdir.

***

"Siyavuş", meydana gəlməsi ilə Lahıçdakı kitabxanə sahibi, bizi bir baba kibi bəsləyən o sevimli ixtiyar və nəhayət ölüm təhlükəsinə qarşı isbat əmanət edən o mərd köylülərə mədyundur. Burada onlara mənən təşəkkür etməyi vəzifədən ədd edərəm. Bolşeviklərin qəhrinə məruz bulunmasınlar deyə ismilərini ifşa etməmək zərurətinə isə pək mütəəssüfəm. İnşallah, onun da sırası gəlir.

**Rəsulzadə Məhəmməd Əmin**

[1] Gizləndigim zaman daşıdığım nam müstəar

# ƏSRİMİZİN SİYAVUŞU

## Başlanğıc

Əvvəlcə tarixin Siyavuşuna bir göz gəzdirəlim:

İran romantizminin zəbərdəst şairi Firdovsi Tusinin dəyərli adını dünyalar durduqca paydar və şairinə **“Nəmirəm əz in pəs ke mən zindəəm”**[2] Mübahatını kamal cəsarət və iftixarla söylətən “Şahnamə”nin, bəncə, ən şahkar dəstani – Siyavuş hekayə - həzinidir.

“Şahnamə”nin ən ruhlu qismi, məlumdur ki, İran-Turan müharibələridir. Bu müharibələrin ən həyəcanlı və dəhşətliləri, şübhəsiz ki, Siyavuş qanı üçün icra olunanlarıdır.

Firdovsi, rəzm və bəzm aşiqi, qədd və bazu vallahi,əzm və hünər şairidir. Qüvvətlə hüsni hər yerdə tovəm görən bu şairin ən qutlu  və ən gözəl məxluqi Rüstəmdir. Firdovsinin zadə ilhamı bulunan bu Sistan[2] pəhləvanına xarüqədir ki, yaratmamış, nə möcüzədir ki, göstərməmişdir!! Fəqət Rüstəm pəhləvan boylə, ən böyük möcüzələrini “xun Siyavuş” intiqamını almaq üçün vuruşduğunu meydanlarda göstərmişdir.

[2] “Bundan ölməm,çünki mən diriyəm” (red)

# I.

## SİYAVUŞUN XÜLASƏ ƏHVALI

1. **– Siyavuşun surət təvəllüdi. 2. – Siyavuşun tərbiyə və məfkurəsi. 3. – Siyavuş Turanda: Əfrasiyabın röyası və Siyavuşu hüsn qəbulu. 4. "Siyavuş gərd" şəhri. 5. – Siyavuşun idbari: Kərsivəzin hiyləsi, Siyavuşun qətli, Siyavuşun son sözü.**

Xəlqcə məşhur olanı şöylədir ki:

**Kəyanilərdən**[3] (Keykavus)ın oğlu Siyavuş onu anası (Südabə)nin eşqi və babası (Keykavus)ın vəfasızlığından bizar olaraq Turana qaçdı. Turan xaqanı (Əfrasiyab) tərəfindən hüsn qəbul gördi. Xaqanın qızı (Firəngis) ilə evləndi. Nəhayət Əfrasiyabın qəzəbinə düçar olaraq qafası kəsildi. Nahaq dökülən bu qan üçün İran ilə Turan yek digərinə qarışdı və əsrlərcə qan axdı.

Fəqət İran (İlliada)sının bu həzin dastanını (mifeloji)lərdəki rümuzi sezərək oxuyanlarca görülür ki: Siyavuş, tarixi bir həqiqətdən ziyadə şər alud bir rəmz tarixidir.Bu bir simboldur.

Mifeloji, tarixin **Huşəngdən**[4] əvvəlki qədim əsrlərin əhvalını xəyalat ilə məxlud bir surətdə nəql edər. Bu kibi nəqllər "Əz məni qəbl əl-tarix" deyilən əski zamanın birər səlnamədirinidir.

Yek digəri ilə münasibat qədimədə bulunmuş, hələ İran ilə Turan kibi bir-biri ilə əsrlərcə çəkişmiş alimlərin əsatir və əfsanələri pək ziyadə qarışmış bulunur. Bu qarışıq əsatirin bəzən, türklərdə batır, ruslarda boqatır, farslardaki bəhadır ləfzinin müşabihəti kibi, bir qisim qəhrəmanları da şəbih və ya müştərək olur.

Siyavuş, hekayəsinin ifadəsindən görülüyor ki, həm batır, həm də bəhadır olub İran ilə Turan arasında şərikli bir qəhrəmandır.

Əvət, Siyavuş, məşhur olduğu kibi, bir iranlı, daha doğrusu, xalis bir iranlı deyildir. Onun nə surətlə doğulduğunu Firdovsi böylə nəql ediyor:

**İran bəhadırlarından** iki sərdar, (Tus) ilə (Kiv), Turan hüdudunda şikarə çıxmışlardı. Şikar əsnasında, orman içərisində, qaçqın bir qıza təsadüf etdilər. Qızın hüsn və ani hər iki pəhləvanın yürəyini bir anda oxladı. İkisi də, nəxcir seydində ikən, bu orman pərisinin xədənin müjganına hədəf oldular. Saçları ağarmış qoca pəhləvanlar "ceviz bulmuş çocuqlar"[3] kibi bu bulduq pəri üstündə söyləşdilər. Biri qızı daha əvvəl gördüyindən, digəri isə kəndisi daha əvvəl tutduğundan bəhslə həqq rüchan arayır, heç biri ötəkinə güzəşt etmək istəmiyordı. Nəhayət, iki dostu yek digərinə saldıran bu afəti (Keykavus) nəzdinə gətirib dəvanın halını ona tərk etdilər. O da tibqi çocuqlar üçün ceviz bölən ixtiyar kibi, dəvayi qızı mənimsəməklə fəsl etdi.

Firdovsinin anlatdığına görə pəhləvanlar bəlası olan bu fəttan qız, ən əsl turanlı olub nəsli Əfrasiyabın qardaşı Gərsivəz(ə) iriyormuş.

Bu surətlə Əfrasiyab sülaləsindən bir Turan gözəli İran şahı ilə qovuşdu. Və nəticədə:

[3] Lafuntən[5] vari hekayələr yazan rus şair hekayə nəvisi (Krılov)[6] bir ceviz bulan iki çocuğun dəvasını təsvir edər ki, çocuğun biri cevizi əvvəl gördügindən, digəri isə daha əvvəl qaldırdığından bəhslə az qala qavğa yapıyorlarmış. Nəhayət yoldan keçən bir ixtiyarı kəndilərinə hökm qərar vermişlər. İxtiyar cevizi qıraraq qabığını iki yerə bölmüş; biri sənin, digəri də ötəkinin, özəki isə bənim deyə dəvayi qəsl etmişdir.

*"Coda şod əz u kudəki çon pəri*
*Be çehrə besan-e bot-e Azəri"*[4]

Bu "Azəri büt"ə Siyavuş ismini verdilər.

* * *

Siyavuşun tərbiyəsini Rüstəm pəhləvana buraxmışlardı. Rüstəm onu kəndisi kibi bir yigit bəsləmişdi. O, zəmanənin mötadi bulunan üsul hərbə təmamilə aşna, silah qullanmasını pək əla bilir bir pəhləvan yetişmişdi. Böylə ikən o, hərbdən ziyadə sülhə mail idi.

**Firdovsi** hüsnü qüvvətdən ayırmaz. Siyavuş, qadınları çıldırtacaq bir hüsnə malik idi. Fəqət vücudi kibi onun ruhu da gözəldi;qüdsi bir iffətə malikdi.

Bu mərd xasiyyəti ilə o, yaşadığı namərd mühit içində, pək çox müşkülatə, möhlik macəralərə uğradı. Kəndisinə ilk macərayi açan analığı (Südabə) olmuşdu. Südabə, hüsnü ilə məşhur, müstəsna və həris bir qadındı. Gənc Siyavuşa, oğulluğu olduğuna rəğmən ərz eşq elədi, cavab rədd alınca kəndisini (Keykavus)a jurnal etdi, tırmalanmış bir yüzlə hüzurə çıxaraq, oğlun ərzimə təcavüz etmək təşəbbüsi ilə sər və surətimi tırmaladı, deyə böhtanda bulundu. Siyavuş, istcavab edilirkən (Südabə) tərəfindən fəna bir təklifə məruz qaldığını ərz elədi. Rəfiqə ilə oğul arasında qalan padşah, möbədlərin tovsiyəsi ilə günahkar ilə məsumu ayırmaq üçün kəndilərinin atəş müqəddəsdən keçmələrini əmr etdi.[5] Siyavuş atəşdən keçərək məsum olduğunu isbat elədi.

---

[4] O pəri kibi bir çocuq doğurdu ki, çöhrəsi Azəri bütünə bənzəyordu.

[5] Atəşin qüdsiyyətinə iman edən İran qədimdə, əfsanələrin rəvayətinə görə müttəhimləri atəş müqəddəsdən keçirmək adəti varmış. Müttəhim məsum isə atəş kəndisini yaxmaz imiş.

İkinci macəra, nəticə etibarilə, daha mühüm idi. Turan xaqanı İran zəmindən qism mühmini yəd təsəllütində bulunduruyordu. Keykavus Turana qarşı əlan hərb edərək komandanlığa oğlu Siyavuşu təyin elədi. Rüstəm Siyavuşa məiyyətinə verildi. Siyavuş hərbi müvəffəqiyyətlə idarə etdi. Turanilər İran ərazisini təxliyyə etdilər. Şimdi hərb tədaföi bir şəkildən çıxaraq təərrüzi bir hal alıyordu. İran ordusu Turan torpağına keçəcəkdi. Bu əsnada Əfrasiyabdan elçilər gəldi. Əfrasiyab sülh təklif ediyordu. Siyavuş sülh təklifini qəbul elədi; hərbi bitirmək üçün babasına xəbər göndərdi. Keykavus Siyavuşdan gələn bu təklifə qızdı; kəndini komandanlıqdan çıxardı; yerinə digər birisini təyin ilə hərbin davamına hökm elədi. Siyavuş isə sülh təklifini babasının inadına tərcih etdiyindən İranı tərk və mümtaz bir kaç süvarilərini alaraq Turana iltica etdi.

**Bu ilticası** ilə Siyavuş böyük məqsədinə irmək fürsətini bəkliyordu.Bu məqsədi isə kəndisində məxlut bulunan iki ərəqin (**irqin-red**) qanını artıq bihudə yerə axıtmamaq idi. Bunun üçün İran ilə Turanı barışdırmaq lazımdı. Boylə bir barışığı qəbul etmədiyi üçün o, babasına ağ olmuş və yenə boylə bir barışıq təklifində bulunduğu üçün Əfrasiyaba sığınmış idi. Siyavuş, Turana keçərkən, babasına yazdığı məktubda işbu məqsədini şöylə anlatıyor, diyor ki:

“Bən şu gəncligimlə bərabər əql və mühakiməmi idarə etdim. Kəndi nəfsimə malik oldum. Şahın dairə hərəmi mənim ilk dərdimi təşkil elədi. Atəşdən keçmək zərurətində bulunduruldum. Bu haldan biqərq hərbə atıldım, müzəffər oldum. Nəhayət sülh yapdım. Öylə bir sülh ki, iki aləm buna şad oldu; yalnız şahın yürəyi daş kəsildi, çelikə döndü”.

*"Nəyaməd zemən hiç kari pəsənd,*
*Koşadən həman və həman niz bənd.*
*Ço çeşməş ze didar-i mən gəşti sir,*
*Bər sir kəşte nəbaşəm dəlir".*[6]

Əfrasiyab Siyavuşu röyasında görmüşdü. Müəbbirlər kəndisinə demişlərdi ki: bu cavan ilə cəng eləsə və ya bu cavan onun əlində ölsə təxt və tacı devriləcək, Turan xərab olacaq, dünyada qan qovşağa çıxacaqdır. Bunun üçün də o, Siyavuşun könlünü hər vasitə ilə əldə etmək istəyirdi.

**Siyavuş** dəxi Əfrasiyabı seviyordı. Böyük məqsədinin hüsuli üçün Turan ilə daha möhkəm bağlarla bağlanmaq istiyordu. Bunun üçün də o, sərdar (Piran)ın[7] pədəranə tövsiyyəsi ilə Əfrasiyabın qızı (Firəngis) ilə izdivac elədi.

Əfrasiyab damadının həyat və rifahını təmin üçün kəndisinə Turanın ən gözəl bir qitəsini ayırdı. Siyavuş burada sülhpərvərliyi ilə mütənasib nümunəlik bir məmurə vücudə gətirdi. Bu məmurə iki böyük aləmin gözəlliklərini came şahkar mədəniyyəti tərmiz edən şəkildə idi. "Siyavuş gərd" namını daşıyan bu məmurəyi "Şahnamə" boylə tovsif ediyor:

*"Nə gərmaş gərm və nə sərmaş sərd,*
*Həme cay şadi və aram xord.*
*Nə bini dər an şəhr bimar kəs,*
*Yeki bustan əz beheşt əst və bəs.*
*Həme abha roşən və xoşqovar,*
*Həmişe bərobum-e u çon bəhar".*[8]

---

[6] Heç bir işimi bəyəndirəmədim. Açıldığımla bağlandığım bir oldu.Gözü məni görməkdən bezdi. Bezgin bir hüzurda isə cəsur olamam.

[7] Əfrasiyabın vəziri

[8] Nə soğuq, nə sıcaq hər bir tərəf fərəh, rahət. Orada xəstə görməz, cənnətdən bir bustan bulursunuz. Suları həp saf və dadlı, çölləri daima bahar.

Əfrasiyabın əmri ilə dünyadan bac almağa çıxmış Piran ovdətində padşahına vüqu bulan məruzatı əsnasında əz cümlə "Siyavuş gərd"dən bəhs ilə deyor ki:

*Siyavuş yeki caygəh saxt nəğz,*
*Pəsəndide-ye mərdom-e pak məğz.*
*Yeki şəhr didəm ke əndər zəmin,*
*Nə binəd çenan kəs be Turan zəmin.*[9]

***

Günün yarısı gündüz, yarısı gecədir. Ayın yarısı aydınlıq, yarısı qaranlıqdır. Sənənin yarısı sıcaq, yarısı soyuqdur.

Dünya ta ibtidai xilqətindən bəri iki mübariz qüvvətin, iki mütəqabil nöqtənin təsadümlərinə rəzmgah olmuş;tarix bəşər adətən, by mübarizələrin sərgüzəşti ilə, bu mübarizələrin sərnəviştindən ibarət qalmışdır.

Təbiətin hər şeyində bir sənayət olduğu kibi, güzəran tarix dəxi bu ikilikdən yaxasını qurtaramamışdır. Bu sənayət, bilxassə İranın gözəl dini Zərdüştlikdə[7] təzahür edər: hər Hürmüzdə qarşı bir Əhrimən[3] vardır; bunlar daima vuruşur, qələbə, gah bunun, gah onun olub mübarizə dünyalar durduqca davam edər.

**Firdovsinin** fəlsəfə vəqaye başdan ayağa, iştə bu Hürmüzd ilə Əhrimən ikiliyindən ibarətdir. Onun Rüstəm pəhləvan ağzına verdiyi hikməti "Şahnamə"nin hər səhifəsində, hər hanki pəhləvanın başı "ovc səadətdən həziz məzəllətə" gəlincə, həman təkrar edib duruyor, "çənin əst" deyə təqdir fələk tərqim bulunuyor:

[9] Siyavuş ərbab zövqün xoşuna gedəcək bir məmləkət yapmışdır ki, böylə bir şəhri kimsə bütün Turan zəmində bulamaz.

*"Çenin əst rəsm-e səray-e doroşt,*
*Gahi poşt zin və gahi zin be poşt."*[10]

Bu fəlsəfə yalnız qatı bir iranlı olan Firdovsinin Rüstəmi ilə "ağ div"ində deyil, Qərb ədəbiyyatı ustadlarından alman şair bənami (Höte)nin[8] "Faust"u ilə "Mefistofel"ində dəxi görünməkdədir.

Siyavuş, rəhmani fikirlərlə dolu dünyayı cənnət yapmak istəyən mələk xislət Faust ikən Gərsivəz kəndisinə müqabil şeytani bir qərəzlə Mefistofel rolunu oynayır. O "mühacir bir İran şahzadəsi"nin Turan sərdarlarına təfəvvüqini çəkəmiyor. Siyavuşdan Əfrasiyaba səkayə tedərək diyor ki:

*"Ferestade aməd ze Kavus şah,*
*Nəhani bənəzdik-e u çəndgah.*
*Ze Rum vəze Çin nizəş aməd peyam,*
*Həmi yad Kavus girəd becam."*[11]

Xain xaif deyirlər. Bunun əksinə söyləsən xaif xain olur. **Əfrasiyabın Siyavuşa olan hörməti qorxusundan idi.** "Qorxan gözə çöp düşər" zərb məsəli məşhurdur. Gərsivəz Şekspir[9] qəhrəmanlarından (Yaqo) kibi (Otello) xilqətli Əfrasiyaba bir taqım vəsvəsəli təlqinlər verməyə başladı. Gərsivəzbu təlqinatı ilə Əfrasiyabı müvazinədən çıxarmaya müvəffəq oldu. Halbuki bir az əvvəl ən müqərrib və ən mütəbbər sərdarı qoca Pirandan Siyavuş haqqında:

---

[10] "Bu əsgi və sərt dünyanın adəti boylədir ki, gah insanı eyerin (yəhərin) sırtında, gah da eyeri (yəhəri) insanın sırtında gəzdirər"məalında olan bu beyt Rüstəmin sözüdür. Ova çıxmış bulunan Rüstəm atı Rəxşi otlamağa bıraxmış, eyerini alaraq başı altına qoymuş, uyumuşdu. Oyanınca Rəxşin qaçırıldığını anlamış, eyerini sırtına alaraq atı aramağa getdiyi zaman Firdovsi kəndisini bu beytlə həsbihal etdiriyor.

[11] Xəfi olaraq qaç dəfə Kavusşahdan kəndisinə elçi gəlmişdir. Rum ilə Çindən dəxi genə adamlar gəlmiş, həm də daima Kavus namına badə nuş oluyor.

*"Be din zib və ain ke, damad-etost,*
*Be xubi bekam-e del-e şad-e tost"*[12] -

tərifini eşidən Əfrasiyabın yürəyi nə qədər şad,nə dərəcə asudə olmuşdı.

(Yaqo)nın məndil intriqasını biliyorsunuz. Əfrasiyab ilə Siyavuş dəxi Gərsivəzin boylə məlun bir hiyləsinə qurban oluyorlar.

Əfrasiyab nagəhani bir surətdə əsgər sövq edərək, "Siyavuş gərd" şəhrini ansızın basıyor. Siyavuş ilə yarai mühasirə olunuyorlar.

Siyavuş bəxtinin döndüyünü və başına gələcək fəlakəti zatən duymuş, kəhanət edərək Piranə demişdi ki:

*"Ço xorrəm şəvəd cay-e araste,*
*Pədid ayəd əz hər sui xaste.*
*Nəbayəd məra şad budən bəsi.*
*Nəşinəd bərin kax digər kəsi."*[13]

Boylə bir hiss qəbl əli qüvvəli münkəsir bulunan Siyavuş Əfrasiyabın cəngcu olaraq gəldiyini xəbər alınca, qaçmağa qərar verdi. Fəqət qaçamadı. Hər bir tərəf məhsur bulunuyordu. **Kəndisini boylə bir vəziyyətdə bulunca, təqdir qəzaya təslim oldu.** Yarın vəfası, son mərhələdə olsa da, qarşı gəlmək istədilər, fəqət:

*"Çe qoft an xerədmənd ba rəy və huş,*
*Ke ba əxtər-e bəd be mərdi məkuş."*[14]

---

[12] Kəndi məhasin və ədəbi ilə damadınız, həqqa ki, mamulənizə müvafiqdir.

[13] Bir yer abad və xərəm olunca, hər tərəfdən tələbkarları zühur edər. Mənə artıq məmnun olmaq gəlməz, bu təxtə başqa birisi hülus edər.

[14] O sahib rəy və huş dedi ki,bəd talelə mərdlik yapma.

Siyavuş Əfrasiyabla yüz-yüzə gəldi:

*"Çera cəngcu amədi ba sepah,*
*Çera gəşt xahi məra bi qonah"*[15]-

deyə,sordu, Əfrasiybı iqaz etmək istədi. Fəqət Gərsivəz məlun fürsət verməyərək, adəta, arxadan məndil göstərir kibi, Siyavuşa:

*"Gər idər çenin biqonah amədi,*
*Çera ba zereh nəzd-e şah amədi.*
*Pəzirə şodən zin neşan rah nist,*
*Kəman və zereh hədiye-ye şah nist!"*[16] –

deyə, iblisanə bir əda ilə xitab etdi.

Artıq hər şey bitmiş, Əfrasiyabın yürəyi mehr və məvəddətdən boşalmış, Gərsivəzin hiyləsi əqlini çalmış və müəbbədlərin kəndisinə:

*"Əgər ba Siyavuş konədşah cəng,*
*Ço dibə şəvəd ruy-e giti be rəng.*
*Vəgər u şəvəd koşte bər dəst-e şah,*
*Be Turan namənd səro təxt və qah.*
*Sərazir aşub gərdəd zəmin,*
*Zebehr-e Siyavuş becəng və bekin"*[17] –

dediklərini tamamilə unutmuşdu. Artıq hiddət və qəzəb gözlərini tutmuş, o, heç bir şey görmüyor, **Siyavuşun "Azəri büti"nə bənzər başını kəsmək üçün cəllada əmr veriyordu.**

---

[15] Nədən əsgərlə və cəngcu olaraq gəldin, bigünah ikən məni nədən öldürmək istədin?

[16] Əgər sən boylə məsum idin, nədən şahın nəzdinə mücəhhəz olaraq çıxdın? Hüzurə çıxmaq boylə olmaz, kaman ilə zireh şaha təqdim olunacaq bir hədiyyə deyildir.

[17] Şah Syavuşla cəng edərsə, dünya yüzü diba kibi simsiyah olar və əgər o, şahın əlində ölürsə, Turanın təxt və tacı bərbad olur; aləm qarışır Syavuşdan dolayı dünya cəng və kinlə doludur.

Bu qorxunc anda Əfrasiyabın qızı Firəngis gəldi. Siyavuşun bigünah olduğunu yana yaxıla söylədi, babasına rica etdi. Onun əfv edilməsini istədi. Fəqət, bu ricaları ilə o, heç bir şeyə müvəffəq olamadı; biləks, az qala kəndisini öldürüyorlardı. Yalnız bəzi nüdəmanın dəlaləti ilə ölüm təhlükəsini atlatıb edamı həbsə əvəz edildi.

**Cəlladlıq vəzifəsini (Gərv) nam bir sərdar görüyordu**. Bu adam vaxtı ilə müsabiqələrin birində, Siyavuş tərəfindən acı bir məğlubiyyət dadmışdı; şimdi əlinə keçən fürsətdən bilistifadə Siyavuşu öldürməkdən məxsus bir zövq duyuyurdu. (Gərv) in xənçər intiqamı Siyavuşun məsum boğazında acı bir kinlə işlərkən, İran-Turan barışığının o məzlum əzmison söz olaraq dedi ki:

*"Əz İran və Turan bər ayəd xoruş,*
*Cəhani zexun-e mən ayəd becuş!"*[18]

[18] İran və Turandan bir hərəkət başlar, dünya mənim qanımdan coşar.

# II.

# SİYAVUŞ TİPİNDƏKİ NÖQTƏLƏR

1- **Siyavuş bir simboldur. 2- Federasyon nəzəriyyəsi. 3 – Siyavuş sülhpərvər federalist. 4 – Firdovsidə qan hikməti.**

Firdovsi zehniyyətincə qanı iki aləmdən qarışıq bulunan qəhrəmanlar mütləqa bu iki aləmi düşünür, bir fikir və hiddət bəslərlər.

Bu hikməti biz Siyavuş hekayəsinin hər beytində mündərəc buluruz. **Siyavuş, yarısı turanlı, yarısı iranlı olduğundan bu iki aləmi məsud görmək, onları birləşdirmək istəyur.**

Söhrab da boylədir: o da bir turanlı xanımdan doğduğu üçün İran şahını öldürmək, Turan xaqanını qaldırmaq, atası Rüstəmi müttəhid bir təxtə oturtmaq, anası (Təhminə)yi dəxi banu cahan elan etmək xəyalı ilə dolaşıyor.

Makedoniyalı İsgəndər Kir[10] də boylədir. O, Rum qeysəri Filokusun Darab şahə varmış qızından təvəllüd etdiyi içindir ki,Rum ilə İrana sahib olub böyük bir imperatorluq vücudə gətirə bildi.

Başqa bu kibi misal və mühakimələri Firdovsidə bulmaq daima mümkündür.

Yalnız Siyavuşun digər "vəhdətci"lərdən fərqi budur ki, o, birliyi ədavət və icbarla deyil, barışıq və ittifaqla hasil etmək istiyor.

***

Gərdunə dövran hər zaman iki mühüm cərəyanın ahəngi ilə mövzum və ixtilafı ilə bozğundur. Bir qüvvət bütün cüzləri mərkəzə doğru cərr; digər qüvvət də cüzləri mərkəzdən dəf edər. Mərkəzlə dairə arasında müvazinə olmuşsa, "çərx fələk" aləmin məramınca dövran etmiş, yoxsa, dünya və aləm əfsad və ixtilaflar zühuri ilə mənzumə dövran bozulmışdır.

Dünyanın idarəsi nə gələn təhəkkümindən ibarət olan cəbr, nə də cüzin sərkəştliyindən başqa olmayan təfvizlədir.

"La cəbr və la təfvizə, bel əmron beynəl əmrin."[19]

Gərdunə dövran və ya çərxi fələk təbiri, istilahat fəlkiyədən olsa da, bu babədəki qəvanin təbiyyə, ictimaəyatda dəxi qabil qiyasdır.

Bir qüvvət insanları bir arada gələ, bir mərkəzə tabe tutaraq fərdi cəmiyyətə məhkum ilər ki,bir şəkildə - istibdad, mərkəziyyət, digər şəkildə - cəmiyyətcilik (kollektivizm) ismini alır. Digər qüvvət də hürriyət şəxsiyyəyə hər şeyin fövqündə görərək fərdi (cüzi) cəmiyyətin əsarətindən xilas ilə bir şəkildə - təfərrüd, ədəm mərkəziyyət, digər şəkildə də istiqlal və ya muxtariyyət (avtonomi) ünvannı haiz olur.

Çərx fələk, cəbr və təfvizlə dur edəmədigi kibi, ictimai bəşər də nə sırf cəmiyyətciliklə mərkəziyyət, nə də sırfinfirat və ədəm mərkəziyyətlə idarə olunur.

**Nə mərkəziyyət, nə də ədəm mərkəziyyət, nə cəmiyyətcilik, nə fərdicilik – bəlkə ikisi arasında bir şey: federasyon = ittifaq.**

Bu surətlə gül ilə cüzin, cəmiyyətlə fərdin, novələ şəxsin, hökumətlə millətin vəzifələri müşəxxəs olub, biri digərini nəqz deyil, biləks itmam edərlər.

---

[19] Nə zülm nə də səlahiyyət, ancaq bu iki yoldan birinə üstünlük vermək – red.

***

Boylə bir nəzəriyyə gözəlliyi ilə mücəhhəz olduqdan sonra Siyavuş əsərindəki İran-Turan güzariş əhvalını seyr edəlim.

Əfrasiyab – Turanı, Keykavus isə İranı mərkəz vəhdətdən qaçıran birər qüvvətdir. Söhrab ilə Keyxosrov[20] biləks, cüz üçün həqq tanımayan kəlidcilərdir.

Siyavuş isə, İranınkını İrana,Turanınkını Turana buraxmaq surəti ilə, orta yol tutmuş ittifaqının federalist bir vəhdətcidir.

**Bu səciyyəsi ilə Siyavuş, mifelojik və müxəyyəl bir tip olsa da, Turan-İran ittifaqının klassik bir rəmzidir.**

Siyavuşun tərz hərəkət siyasiyyəsi dəxi əsrimizin ədalət siyasiyyə idealı ilə təmamən mütabiqdir: Turan işğalındakı İran topraqlarını qurtarıb İrana verincəyə qədər o, düşmən və cəngcudur. Fəqət Əfrasiyab İranın həqqini təslim və sülh təklif edincə, görüyoruz ki, o, dost və sülhcüdür. Sülh təklifini o, can və dil ilə qəbul ediyordı. Çünki boylə bir barışıqla iki aləmi şad etmək onun idealı idi.

Bu ideal xatirinə idi ki, o, yurdunu da atdı, babasını da tərk etdi.

***

Firdovsi zehniyyətində qan hikmətinin hakim olduğunu söyləmiş idik. Bu hikmətə görə qəribə rəmzlər zühur ediyor:

*Xalis Turan qanından Əfrasiyab;*
*Xalis İran qanından Keykavus.*

İki qan qarışınca Siyavuş hasil olur.

---

[20] Söhrab, Rüstəm pəhləvanın Turan prensesindən doğmuş oğludur ki, pədəri tərəfindən qətl olunmuşdur. Keyxosrov Siyavuşun yenə bir Turan prensesindən doğmuş yetimidir ki, pədərinin intiqamını Əfrasiyabdan almışdır.

Yenə bu hikmətin səbəbiylə olmalıdır ki, vətən və padşahı üçün, zərurət gəlincə, gözünü yumaraq qan tökən pəhləvanlardan İranda (Rüstəm), Turanda (Piran) var ki, tərəfinin həqqinə mötərif ikən yenə qan töküyor, tacdar amirlərindən dönəmiyorlar. Halbuki Siyavuş oylə deyildir. O, iki tərəfin mühəssənatını kəndisində cəm etdiyi üçün yeni bir şəklin (yəni ittifaqın) məsəli, hərbin deyil, sülhün yüzü dönməz qəhrəmanıdır.

**Siyavuşun qətli ilə nöqtə itlaf yox olduğundan İran ilə Turan qarışdı.** İntiqam həqdir. Tarixin ən mühüm amillərindən biridir.Siyavuşun intiqamı da Əfrasiyabdan alındı.

Firdovsinin İran mənbələrindən aldığı əsatirə görə hər nə qədər “Turan, məsum bir şahzadənin qanı bahasına xərab oldu” diyə göstəriliyorsa da, zövq səlim, bu nəkbətin Turana deyil, Siyavuşluğu dərk edəməyən Əfrasiyablıqla Keykavusluğa aid olduğunu dərhal dərk edər.

# III.

# ƏFSANƏDƏN HƏQİQƏTƏ

**1 – Pəhləvanlıq dövründən xəlq dövrünə. 2 – Hazırki məfhuma görə milliyət. 3- Əsrin Siyavuşu nasıl olmalıdır? 4 –Coğrafiya ilə tarix nəzərində Azərbaycan. 5 – Azərbaycan xilqətindəki sənayət.**

Tarixin pəhləvanlıq dövrü deyilən qədim bir qəsəmi vardır. Hər bir millətin tarixi buradan başlar. Bu dövr tarixidə millətlərdən, millətin əsl kütləsini təşkil edən xalqdan, xalqın adət və əxlaqından bəhs olunmaz; bütün həyat ayrı-ayrı qəhrəmanların müxəyyəl şəxslərində, mifelojin (əsatiri) simalarında təcəssüm edər. Siyavuş dövrü ilə hekayəsi də pəhləvanlıq dövrünə aid boylə bir mənqəbədir.

Halbuki zaman ilərilədikcə, üsul məişət dəyişiyor, getdikcə cəmiyyətin amil və mühərrik bulunan fərdləri çoxalıyor; nəhayət, ortaya siniflər və təbəqələr gəlincə, tarixin təbiəti dəxi təbəddül ediyor.

**XX əsr miladi, demokratik fikirlər dövrüdür.** Mütəşəxxis və cəngavər xəvas (aristokrasi) yerini şimdi mütəfəkkir və mütəfənnin əvam (demokrasi) tutmağa başladı. Köhnə əsrdə xəlqin fövqündə təsəvvür olunan mütəfərrein qəhrəmanların təxtində şimdi xəlqin idrak ümumiyyəsini haiz mütəfəkkir xadimlər oturmağa başladı. Daha sadəsi – hakimiyyət imperatorlardan, sultanlardan, şahlardan xəlqə, bilgi kahinlər, sahirlər və müəbbirlərdən alimlər, mütəfənnilər və mühərrirlərə keçdi.

Hökumət xəlqdən deyil, Allah tərəfindən bir mövhibə olaraq verildiyi zaman hökmdarlar çoban (rayi), məhkumlar qoyun (rəiyyət) hökmündə idilər. Məsuliyyət yalnız çobana aid olduğundan iradə ilə hökm də onun idi. Buna görə də o, qanına görə, iftiraqcı (separatist) və ya ittifaqcı; cəngavər və ya sülhpərvər oluyordu. Hakimiyyət xəlqə keçincə, artıq rai-rəiyyətlik yoxdur. Hakimlər xalqa qarşı, xəlq də hakimlərindən dolayı məsuldurlar. Bunun üçündür ki, yalnız hakimlər, daha demokratik təbirlə, xadimlər deyil, bütün xəlq, xilqətinə, ruh və tərbiyəsinə görə iftiraqcı və ya ittifaqcı, cəngcu və ya sülhcü olur.

***

Əsrimizdəki sosioloji (elm ictimai bəşər) fənnin ən son nəzəriyyəsi qan qəziyyəsinin millətlər üzərindəki təsirinə Firdovsi əsərinin mütəfəkkirləri qədər əhəmiyyət verməz. Hazırki məfhuma görə qan, hər nə qədər "ateizm" mucib olursa da, millətlər üzərinə hakim mütləq olamaz.

Əvət; milliyyət, bu günki məfhumiylə, bir qan və ərəq(irq-red) təsirindən ziyadə müştərək hərs məhsuli müştərək bir ürfandan ibarətdir. Avstriya siyasətnəvisinlərindən (Springer), "Bir fərdin milləti kəndi nəfsini müəyyən bir hərs zümrəsinə mənsub bilməsi ilə təyin edər" diyor. Demək ki "Mən ürf nəfisə qəddürf  Rəbbe" yerində "Mən ürf nəfisə qədd ürf millətə" də demək caizdir.

Əski zaman qəhrəmanları üzərində qanın gördüyi işi, şimdiki millətlər üzərində hərslərlə ürfanlar görməkdədir: Dili, dini, əxlaqı, adəti tarix və ənənəsi bir olan xalq, milli bir hərs xəlq ediyor; dinləri, dilləri və yaxud müqəddərat tarixiləri, bəzən həqq, mövqe coğrafiləri bir olan millətlər müştərək bir

hərs və yaxud mədəniyyət yaradıyorlar. Bəzən iki ayrı soydan olan hərslərin iştirakı o qədər sıxı olur ki, hədd zatında, yeni bir hərs, yeni bir millət nümunəsi hadis olur.

**Türklük, ərəblik, farslıq birər hərs müştərək kuməsi, birər millətdir. İslamlıq bu millətlər arasında müştərək bir mədəniyyət vücudə gətirmişdir.** Nasıl ki, bir xristian mədəniyyəti var. Buna Avropa mədəniyyəti də diyorlar. Nasıl ki, islam mədəniyyətinə şərq mədəniyyəti dəxi itlaq olunur.

Əski Siyavuş,İran-Turan qanından mütəvvəllid yeni tipdə bir şəxs idi. Məntiq icab edər ki, əsrimizin Siyavuşu, İran-Turan hərslərinin iştirak və ixtilatına daha ziyadə məzhər bulunan bir cəmiyyət, bir xəlq olsun.

***

Midiyalıların[11] əski iranlılar olduğu məruf olsa da, bu mərufiyyəti inkar edənlər də yox deyildir. Midiyalıların kim olduğu hala şübhəlidir.

Bisitun kitabələrindəki bir çox zaman anlaşılamıyıb da, hanki lisanə mənsub olduğu kəşf ediləməyən üçüncü lövhənin Midiya lisanında yazılmış olduğu təxmin edilmişdi. Sonra, Assurya tək tərəqqisi vəxt mixinin qiraətindəki müvəffəqiyyətlər bunun Turani əl-cins bir lisan olduğunda şübhə buraxmadı. Assuryat bizə assur-babil mədəniyyətinin baniləri olan daha əski qövmlərdən bəhs elədi. Bunlar sumerlər idi. Sumerlərin Turani olduqlarını isbat edən vəsaiq, Midiya məbhəsində dəxi yeni təxminlərə səbəb oldu. Fransız müstəşrəqlərindən (Le Norman)[12] şərq qədim tarixinə aid nəşr elədigi əsərində Midiyaya "Turan Midiyası" deyir və digər əqranına təqdim edərək buradakı əqvamın türk olduqlarını belə iddia ediyor.

İran tarixinin Midiyada bulduğu aryanilər, yerlilər deyildir. Onlar, buraya Baxtərdən gəldilər. Buradakı yerliləri sıxışdırdılar. Bu yerlilər birdən-birə təslim olmuyorlardı, sənələrlə müqavimət etmişlər, mövcudiyyətlərini müdafiə eləmişlərdi.

İranilər yerləşdikdən sonra buraları təkrar turanilərin təərrüzinə məruz qalmışdır. İran-Turan müharibələrinin qism mühimi Şimali İran ilə Cənub və Şərq Qafqasiyadan ibarət bulunan ərazi üzərində cərəyan etmişdir. İskitlərin, xəzərlərin hücumuna məruz qalan buralar müddət mədid İranın mülki olmuşdır. Dərbənddəki tarixi həsarların banisni "Dərbəndnamə" Nuşirəvana isnad edər. Tomris[13] xanım burada bulunmuş, Keyxosrovun fəci xatiməsi "Kür" nəhrinin sahilində vüqu bulmuş imiş.

Xülasə, burası bəzən turanilərin, bəzən də İranilərin maddi və mənəvi nüfuzunda olub əhalisi yek digərinə qarışmışdır.

Şimdiki Azərbaycandan ibarət bulunan bura əhalisinin türkmü, yoxsa farsmı olduğu bir çox zaman mübahisəli olub, lisanlarına, xalq ədəbiyyatına, aşiq dastanları ilə çoban türkülərinə baxanlar, bunlara, türk; rəsmi yazılarına, adət və məişətlərindən bir qisminə baxanlar – fars demişlərdir. Kimisi bunları türkləşmiş fars, kimisi farslaşmış türk deyə tələqqi etmişdir.

***

Şahnaməyə İran-Turan müharibələrinin yalnız pəhləvanlıq əsrinə aid təzahüratı əks eləmişdir. Halbuki, bu mübarizə fəqət pəhləvanlıq dövrünə və yalnız rəzl və bəzmlərə münhəsir olmayıb, daha ziyadə uzanmış və daha ziyadə tənəvvö göstərmişdir. Bu mübarizənin, əsgəri müsabiqədən başqa, fəlsəfi, əxlaqi, dini və ədəbi səfhələri də keçmişdir.

**Azərbaycan, İran-Turan çəkişməsinin bilxassə bu cəhətlərinə məkəs olmuşdır:** buradan Nizami, Xaqani, Fələki[14] kibi fars sər amədan suxəni yetişdigi kibi, Füzuli, Nəsimi[15], Xətai kibi türk şairləri də çıxmışdır.

Azərbaycan tiyatrosunun mövcudi, türk Molyeri[16] Mirzə Fəthəli buradan yetişdigi kibi, "Səyahətnamə-İbrahim bəy" nam fars "Qövvadis"nin mühərriri də buradan nəşət[21] etmişdir.

Əbdürrəhim Talıbzadə[18] elmi əsərlərini farsca inşad etmişsə, Həsən bəy Məlikzadə xalis türkcə yazmışdır.

Azərbaycanın ziqiyuət alim və şairi bakılı Abbasqulu ağa[19] əsərlərini qismən farsca, qismən də türkcə yazmışdır.

Azərbaycanda şiəliyin hər növü bulunduğu kibi, sünni məzhəbindəki əqsamında əksəri mövcuddur.

Çayxanalarında, saz aşıqları tərəfindən "Aşıq Qərib", "Koroğlu" və "Əsli və Kərəm" dastanları, yanə-yaxıla söylənir; hamamların divarlarında ağ divin köksünü parçalamış Rüstəm pəhləvanın rəşadəti tərsim olunur.

**Sazlarında Kərəmi, tarlarında Şahnaz çalınıb, dağlarında bayatı, bağlarında təsnif oxunur. Bütün bunlar Siyavuş xilqətində bir cəmiyyət və xəlqin Azərbaycandan və azərilərdən ibarət ola biləcəyini göstərməzmi?!**

---

[21] "Qəvvadis" Avropaca məşhur lehistanlı "Senkeviç"in[17] əsəridir.

# IV.

# AZƏRBAYCAN TURANDA

**1 – Azərilərin kəndilərini tanımaları. 2 – Rus istilasının faydalı tərəfi. 3 – Azərilərin Türkiyəyə müraciəti: Türkiyənin röyası; Azəriləri hüsn qəbulu. 4 –Rusiya inqilabı: əsrimizin Siyavuşu gördi = Azərbaycan Cümhuriyyəti.**

Bir çox zaman azərilər kəndi türklüklərini və türk bətnindən yetişdiklərini bilməyərək xalis iranlı kibi hiss etdilər. İranlı kibi fikir edib, iranlı kibi yaşadılar. Bu o zaman idi ki, bütün Türk aləmi az-çox İran təsirində bulunuyordu; o zaman idi ki, Sultan Səlim[20] farsi şeirlər inşad ediyor, az qala bunu lisan rəsmi elan ediyordu.

Azərilər kəndiliklərini və pək mühüm bir cibillətlərini unutduqları zaman bir çox səciyyələrini qayb etdiisələr də, müqabilində bəzi xislətlər dəxi qazanmışlardı. Nəticədə türkligin məşhur mətanəti ilə  farslığın məruf zəkavəti kəndisində toplanmış bulunurdu.

Azərbaycan xəlqində yeni bir həyat yaşatmaq üçün tarixə lazım olan yeni bir türk qanı və canı mucib olduğu kibi bu zəmində göyərəcək tərəqqi nihalını daha ziyadə səmərədar etmək üçün aşi vəzifəsini görəcək qədim bir İran ürfanı vardır ki, saçı ağarmış əsrlərin əlində pək çox təcrübələr keçirmişdi.

Tale tarixi türklərdən də, farslardan yüz döndərdi. Türk hilalı parlayan üfüqlərə şimal buludları gəldi; **İran şiri gəzən dağlara Moskov qartalı qondu.**

Şimali Azərbaycan rus idarəsinə keçdi.

Rusların pək məşhur bir zərb-məsəli var: "Evsiz kötü ölməz". Rus istilasının iyiliyi bu oldu ki, azərbaycanlılar kəndilərini ictimai vahid bir vücud, xüsusi hərs toxumlarını daşıyan bir cəmiyyət, yəni farslardan ayrı bir millət olaraq hiss etməyə başladılar.

Rus süzgəcindən olsa da, kəndilərinə keçən Avropa ülum və fününun təsiri ilə Azərbaycan Şərqin ovham və xürafatından silkinərək yeni bir əsr həyat göstəriyor, əsrimizdəki fünun müsbətə və fəlsəfə həqiqənin nüfuzi ilə rüşd buluyordu.

Hər əndiş bir cərəyanın səbah inflaqında doğmuş olan bir tərəqqipərvər cəmiyyətin həyata təşnə bulunan gülər yüzü, dünyada yaşamaq üçün pək parlaq ümidlər hekayə edən geniş alnı, istiqbalə saf və aydın bir baxışla baxan şəhla gözləri əski Şərq ovham və xürafatının Südabəsini, İran isqolastikının fərsudə mühitini rahət buraxmıyor, ismətli bir cüft arayan bu tazə gözəli kəndi fərtut ehtirasına qurban etmək istəyordu. Fəqət gənc Azərbaycan, kəndi bəkarət ictimaiyyəsini bu düşgün aşiq irtica təslim etmədigindən, təlim və təkfir olundusa da, mütəhəddat kəbirədən bulunan ülum müsbətə və fünun əsriyə atəş müqəddəsinə girərək, kəndisinin məsum və bigünah olduğunu isbat etdi.

**İran-Turan müharibələrində nahəqq yerə axan qanların** ən sonuncu təzahürü sünnilik, şiəlik məsələsi yüzündən icra edilmiş Osmanlı – İran müharibələri idi. Bu müharibələrin məzmum nəticəsi olan məzhəb münafirəti ortadan qaldırmaq üçün ilk təşəbbüs yeni Azərbaycanda vüqu buldu. Bü xüsusda məclislər, məhfillər təsis olunaraq pək əməli nəticələr dəxi hasil oldu.

Bu hal Südabəliyin məftun ehtirası bulunan İran "üləmasu"nca pək napəsənd görüldü. Bunların hər növ tərəqqiyi məhv edən təsiri  İran mühiti, bir taqım əsr aşnalar müstəsna olmaq üzrə, Azərbaycanda zühur edən yeni əsri cərəyanlar təqdir etməkdən məhrum buraxıyordu. Orada Ərsək (Araz-red) bəri tərəfinə yeni tərəqqi cərəyanını təqdir edən münəvvərlər deyil, rozəxan, dərviş və rəmmal şəkilndə bir sürü lənət və nifrət qafilələri gəliyordu...

***

**Əsrimizin Siyavuşu üçün  İrandan eraz ilə Türkiyəyə müraciətdən başqa bir çarə qalmamışdı**.

Türkiyə Vyana surlarına qədər sürdüyü  cəngavərlikdən biqarıq, artıq taleyin döndüyünü görmüş, yorğun bir halda, İstanbul surlarına dayanmış, Əfrasiyab kibi, bir röya görmüşdü. Bu röyasını zamanın müəbbir olan mütəfənnin siyasilər, mütəbəhhir idarənin kəndisinə demişlərdi ki:

"Sənin istiqbalın artıq Qərbdə deyil, Şərqdədir. Kökündən uzaqlaşdığın üçün bağban dəhr, həddən artıq uzanan budaqlarını kəsiyor ki, sən ixtiyarlamıyıb, kəndi kökün üzərində, kəndi mühitdə göyərəsən.

Sənin istiqbalın nə Rum eli, nə Hicaz, nə də İraqda deyil, Türküstandadır. **Fəqət saqın, yolunun üzərində, əski Turanın göbəyində, Azərbaycan namında bir nocavan var. Yeni Turanın anaxtarı ondadır. Onunla məbadə ixtilaf çıxarasan; məbadə onun könlünü qırıb, kəndisinə bir asib yetirəsən ki, bütün əməklərin hədər, əməllərin xərab, təxtin də bərbad olur."**

Böylə bir röyanın nəşəsiylə o, ümidlə bim arasında qalmış bir adəm vəziyyətində idi: Azərbaycanın kəndisinə ilticasını, o, kəndi məfkurəsi üçün bir nemət, bir mövhibə kibi tələqqi etdi.

Yeni Azərbaycan, Türk ocağı ilə Türk yurdu tərəfindən layiqincə istiqbal olundu.

Şairlər zövqünü, izzət nəfsini oxşadılar; kəndisinə "Altun dastan" yazdılar; Turanın ismi əzəmi bulunan itkin qızıl əlmayı bulacıq Tomris xanımın Bakıdan yetişəcəyinə kahinlik etdilər.[22]

Mütəfəkkirlər ruhunu cilalandırdılar. İstanbulun, bir taqım əsrlər tarixlərlə müqəyyəd olduğu üçün, sühulətlə yapamıyacağı bir çox müəzzəl islahatın daha qüyudsuz bir mühit yetirəcək Azərbaycanda daha qolaylıqla tətbiq olunacağını söylədilər. Qara neft rəngində altun fisqilərinə malik bulunan bu yerin zəngin bir sərvət gücilə, pək çox ümran və tərəqqilərə erişəcəyini yazdılar.

Azərbaycan gəncliyi saf və səmimi bir niyyətlə Türk müəllimlərinin şagirdi kəsildi. Çox keçmədi ki, Namiq Kamal[21] – Məhəmməd Hadiyi, Əbdülhaq Hamid[22] – Hüseyn Cavidi, Məhəmməd Əmin də - Əhməd Cavadı oğulluğa qəbul etdilər.

**Azərbaycan məfkurəsi türk milliyətpərvərlərinin məfkurəsi ilə izdivac elədi.** Yeni Azərbaycan kəndisi "ismətsiz Südabə"nin ağuş ehtirasından "iffətli Firəngis"in hərim vüslətinə ataraq dadlı-dadlı yaşadı.

Turançılıq, türkçülük məslək ədəbiyyəsi Türkiyə ilə Azərbaycanı yek digərinə bağlayan ən davamlı bir bağ, bir həbl mətin idi.

Turançılıq məfkurəsi siyasətə tökülüncə millət beynəlmilliyət islamiyyə və federasyon formullarını çıxarmış, ictimaiyyətdə dəxi "Türkləşmək, islamlaşmaq və müasirləşmək" kibi sepayəli bir şüar ortaya atmışdı.

İstanbul yurdçuları bu şüarları nəzəri bir surətdə tərvic etməkdə ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə it-

[22] "Altun dastan", Ziya Göyalp[23].

tixaz edərək, təşkil elədikləri milli siyasi bir firqənin ümdəsi ittixaz etdilər.[23]

Məzkur məslək siyasinin təliminə görə, elm bəşəriyyət millətlərin ədədi nisbətində hökumətlərə təqsim olunaraq, bədə böyük Dünya Federasyonu vücudə gətirməlidir. Fəqət bunun hüsulundan əvvəl müştərək bir din və mədəniyyət sahibi olan millətlər arasında, o cümlədən müsəlmanlar miyanında, xüsusi bir irtibat peydası mümkündür. Yalnız bu irtibat bütün müsəlmanları mexanik bir surətdə birləşdirən "ittihadi islam"dan ibarət olamaz. İttihadi-islam, qeyri-mümkün bir mif, bir ənqadır. Biləks, bütün türklərin, bütün farsların, bütün ərəblərin, üzvi bir vücud ictimai kibi, birləşmələri həm mümkün, həm də mətlubdur. Müsəlman olan millətlər birər millət, birər hökumət milliyə halına gəldikdən sonra, ittihad deyil, ittifaq islam mümkünalı qüvvə ola bilir. Fəqət boylə siyasi bir ittifaq mövcud olmasa da, mədəni irtibat vardır və olmalıdır.

**Bütün türklər kəndi aralarında, böyük dünya federasyonuna bir qədəmə olmaq üzrə bir federasyon yapmalıdırlar.** Yeni Turan, hərs birliyi üzərinə təsis edib, ancaq müstəqil birər türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilir.

Azərbaycan dəxi  bu müstəqbəl Turan silsiləsinin mühüm bir həlqəsidir.

***

Rus istilası Turan üçün həqiqi bir "Ergenekon" olmuşdı. Türklər kəndilərini qurtaracaq "Börtəçinə"yi bəkləyorlardı.[24]

[23] "Müsavat"firqəsinin naşir əfkari bulunan "İstiqlal" qəzetəsinin şüarı "Türkləşmək, islamlaşmaq və müasirləşmək" idi.

[24] Əski türk əsatirindən "Qurtuluş" əfsanəsi məşhurdur. Bu əfsanəyə görə Çin ilə vaqe olan bir müharibədə düşmən təqibatından qaçan türklər bir lakeyin rəhbərliyi ilə uca dağlarla məhsur bir ovayə təhəssün eləmişlərdir. Məhsurlar burada iki yüz

Hərb ümumi nəticəsində Rusiyada zühur edən ixtila turanlıların "Börtəçinə"si olacaqdı. Turançıların mürşidi, möhtərəm Ziya Göyalp bəy, müharibənin daha ibtidasında ikən bu intizarə tərcüman olmuş, kəhanət etmişdi ki:

*"Rusiya dağılıb viran olacaq,*
*Türkiyə böyüyüb Turan olacaq!"*

İntizar, sanki doğru çıxdı. "Ergenekon" hisari yarıldı. Rusiya imperatorluğu parçalandı. Türk hökumətlərinin, əz cümlə Azərbaycan möcudiyyət siyasiyyəsinin, qüvvədən felə gəlmək sırası gəldi.

**Fəqət rusluq buna hala imkan vermiyor, qırıyor, töküyor, yaxıyor, yıxıyor, "Mart" diyə[25], xanimansız bir yanğın çıxarıyordı. Azərbaycanlılara bir ənqaz, bir "xərabəzar" hazırlayordu[26].**

Türkiyə himayəsinə aldığı Azərbaycanı ta vəxtində xilasə qoşdu. Bakıyı Azərbaycan qatillərindən təmizləyərək kəndisinə verdi.

Əsrimizin Siyavuşu zəmanəmizin Turan Salari tərəfindən kəndisinə təmin olunan bu gözəl və zəngin qitədə emar və abadlığa başladı. Əsrimiz "Siyavuş gərd"i nin təməlləri quruldu.

**Azərbaycan Cümhuriyyəti təşəkkül etdi.**

---

sənə qalmış, təvəllüd və tənasül ilə epey çoxalmışlardır. Kəndilərinə dar gələn bu yurddan bir tərəfə çıxmaq istəmişlərsə də, yol bulamamışlardır. Nəhayət, çobanın biri bir gün bir qurd görmüş, kəndisini təqib edərkən, qurdun bir dəlikdən dışarı çıxdığını anlamışdır. Çobanın gördüyü bu əcib fəqərəyi nəqli üzərinə qurdun girdiyi dəlik həzasına gələn əhali miyanından bir dəmirçi çıxmış, dağın filizdən olduğunu kəşf eləmiş, odun toplatmış, atəş vurmuş, dağı əridərək yol açmış; məhsur bulunan türklər bu yoldan çıxaraq dünya yüzünə yayılmışlardır. Bu əfsanəyi nəzm edən Göyalp bəy "Ergenekon" yurdun adı, "Börtəçinə" deyə yuxarıda yazdığımız isimlərin bu günkü türkcəyə tərcüməsini göstərmişdir.

[25] 1918 sənəsində bolşeviklər tərəfindən Bakıda müsəlman əhali üzərində icra olunan qətliam. Təfailati üçün müəllifin "Azərbaycan Cümhuriyyəti" nam risaləsinə müraciət oluna biliyor.

[26] Bakıda müntəşir bolşevik qəzetəsi bizimlə yapdığı bir münaqişə qələmiyyədə "Siz Azərbaycan muxtariyyəti deyil, nəticədə bir xərabəzar alırsınız", diyordu.

## V.

## AZƏRBAYCAN CÜMHURİYYƏTİ

**1 – Təbii gözəllikləri. 2 – Maddi və mənəvi sərvətləri. 3 – İslahat və inşaatı. 4 – Xariclə əlaqə və hüsn şöhrəti.**

**Firdovsi deyir ki: Əfrasiyab, Turanın gözəl bir qitəsini damadı Siyavuşa verdi.**

**Azərbaycan qitəsi həqiqətən də əsrimizdəki Turan zəminin gözəl bir qitəsidir.**

Əski Albaniya, Şirvan, Arran və Bərdə məmləkətlərindən təşəkkül edən bu yeni Azərbaycan, əsrimizin ən böyük qüvvətini təşkil edən sərvət mədəniyyəsindən əlavə təbii gözəllikdən dəxi hissəbərdardır. Şirvan tarixini yazan mərhum Abbasqulu ağa burasına "Gülüstani-İrəm" adını vermiş; Firdovsi isə Bərdə (Barda) haqqında:

***"Xoşa molk-e Bərde və əqsa-ye vey,***

***Keordibehişt əst henqam-e dey"***- deyir[27] . **"Bərdə və aksayi vey"** deyincə şimdiki Qarabağ yaylaqları ilə qışlaqlarını anlamalıdır ki, Gəncə vilayətindən qism mühmüni təşkil edən bu yerə "Zenda Vesta", "Aryatum İcu", aryanilərin cənnəti behişti namını itlaq ediyor.

Həqiqətən də, Lənkəran, Quba, Şamaxı, Şəki, Zaqatala, Gəncə, Qarabağ və Naxçıvanın ormanlarına, bağlarına, dağlarına, yaylaqlarına, ənhar və bulaqlarına, soyuq və sıcaq sularına, dağ keçisi və marallarına, nəhayət, Şirvan şairləri ilə Qara-

---

[27] Bərdə mülkünə və ətrafına eşq olsun ki, qışı da bir yazdır.

bağ sazəndə və nəvazəndələrinə baxılırsa, həman Firdovsinin "Siyavuş gərd" təbiəti haqqındakı zəngin şeiri nəzərimizdə təcəssüm etmiş kibi olur.

Bakı və Abşeron yarımadasının "Quzğun dəniz" sahilindəki mənaziri ilə limanında gəzən ağ çarşablı nazənin qayıqlarını dəxi buna əlavə edərsəniz, o zaman Firdovsinin də təsəvvür edəmədiyi bir gözəllik hasil olur.

**Firdovsi pək haqlıdır. Qüvvət olmayan yerdə hüsn, hüsn olmayan yerdə qüvvət olamaz.** Ərbab zövq, bu iki lazım qeyr müfariqi biri-birindən ayıramaz. Firdovsinin şairanə bir zövqlə ifadə etdiyini "sağlam bədəndə sağlam ruh" – deyən tərbiyə müəllimləri fəni bir surətdə iddia etmiyorlarmı?

**Firdovsi zamanında məmləkətlərin qüvvəti pəhləvanlıqlara münhəsir idi. Şimdi isə ən böyük qüvvət təbii sərvətdir.** Təbii sərvətlər içərisində yandırımla mədən əsrin ən böyük Rüstəmi, yenilməz və yılmaz "Herkul" edər. Yandırımlar arasında daş kömürlə petrol dünyanın ən qüvvətli mühərrikləridir. Cahan müsabiqəsi adəta dəmirlə yandırım müsabiqəsi idi. Kimin ki, dəmiri ilə kömür və ya petrolu çox idi, qələbə onun idi.

Petrolun kömürə nisbətlə nəcabəti əskidən bəri məlumdur. Daş kömür atəş vapurlarının ixtirasından sonra məruf cahan olmuşsa da, qara neft daha pək çox zaman əvvəl insanlara məlum olub dəmir ordular sövqünə xidmət eləmişdir. Firdovsi İskəndər Ruminin Hindistan filləri üzərinə dəmirdən yapılma süvarilərlə hücum etdiyini nəql ediyor: Hindistan padşahı (Fur) İskəndərə qarşı külliyyətli fil sov eləmişdi. Bu fillər Rum ordusunu qorxutmuşdu. İskəndər mühəndislərini və müttəfiqlərini toplatmış, düşündürmüş, nəhayət dəmirdən atlar tökdürərək içlərinə neft doldurmuş və fillərə qarşı şövq etdirmişdir. Dəmirdən mə-

mul atlardaki neft atəş alınca həman alovlanməyə başlamış və üzərlərinə yürüyən fillərin xortumlarını yaxaraq hezimətlərini mucib olmuşdur.[28]

Təbiidir ki, (Fur)un fillərini məğlub edən bu dəmir süvariləri (Ford) emal etmədiyi kibi kəndilərini hərəkətə gətirən neft də Amerikadan gələməzdi. Çünki o zaman nə Xristof Kolumb[24] anadan doğmuş, nə də Amerika kəşf olunmuşdu. Qafqasiyadamı, yoxsa Mazandarandamı zühur edən bir yırtıcı vəhşinin əzaləsi üçün dəxi neft alud məşəllərdən istifadə olduğunu, yenə Firdovsidə gördüyümüzdən iddia edə biliriz ki, bu gün çaplinlər uçuran, tanklər yürütən benzinin dəmir ordular sövq edən ulu babası, şübhəsiz ki, azərbaycanlıdır.

Azərbaycan neftinin çoxluğu və məvadd kimuyəsinin dünyada mövcud bütün neftlərə olan təfəvvüqi tarixinin qədimliyi ilə mütənasib bir mahiyyətdədir.

Bu oylə bir qüvvətdir ki, bütün dünyayi kəndi ilə əlaqədar edər. Rusiya bütün əzəmət və qüdrətini ona mərbut ədd edər. Qafqasiya onunla zihəyat olduğuna qanedir. Avropanın yandırım həsrətiylə yanan könlü bunun eşqiylə suzandır. **Azərbaycanın həyatı isə damarlarında cərəyan edən bu siyah qanla qaiddir.** Petrolu kəndisindən aldığınız gün o, bütün gözəlliklərini qaib edər və məfluc bir hala gəlir.

Dünyanın ikinci pəhləvanı dəmirdir. Dəmir hər nə qədər Azərbaycan dağlarının dərununda, miqdari namüəyyən bir hal-

[28] Be əsb və be nəft atəş əndər zədənd
Həme leşgər fur bər sər zədənd
Əz atəş bərəfruxt nəft-e siyah
Be conbid əz an kahin bəd sepah
Ço pilan bedidənd əz iyşan qoriz,
Be rəftənd be ləşgər əz cəy tiz.

da qapalı qalıyorsa da, onun ən böyük yavəri bulunan bakır Gəncə dağları ilə Qarabağ zirvələrində (Gədəbəy və Zəngəzur mədənləri) məbzuliyyətlə bulunuyor.

Hazırdakı dünya qüvvəti yalnız yandırımla mədənəmi münhəsirdir? Yandırımla mədənə bolluqla malik olan Almanyayı aclıqla məğlub etmək istəmiyorlarmı idi!? Demək ki, bu iki pəhləvandan sonra meydan ərzağındır. Azərbaycan kəndisində bulunan Muğan, Mil, Aran və sair ovalarındakı münbit ərazisi sayəsində kəndisindən fəzlə qalacaq dərəcədə bir buğda deposu vücudə gətirə bilir. Bu səhralər, asari Muğan çöllərində hala hüveyda bulunan, qədim arxlar kibi kanallar və yaxud daha əsri vasitələrlə başdan-başa suvarılarsa, o zaman Azərbaycan yalnız kəndinə deyil, qonşularına da ərzaq verir və yalnız insanları deyil, qocaman fabrikaları dəxi kətanı və ipəyi ilə doyurur.

Ərzaq qüvvəti heyvan qüvvəti ilə təyid olunmayınca heçdir. Azərbaycan bu xüsusda məsuddur. Azərbaycanda olan mal-davar Qafqasiyanın heç bir səmtində yoxdur. Balıq məhsulu isə Mavərayi – Qafqasiyada yalnız buraya münhəsirdir.

Buradakı atın, malın, qoyun və sairənin iqsamını saymaq isə mövzuəmiz xaricindədir.

**Sağlam ruh sağlam bədəndə olduğu kibi, mütərəqqi bir həyat dəxi zəngin bir qitədə ola bilir.** Azərbaycanlıların fitrətən mütərəqqi bulunmalarının bir səbəbi də bu rifah iqtisadiləri deyilmidir?..

Mütərəqqi olduqlarını göstərmək üçün bu kafi gəlməzmi ki: **ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, Rusiya türkləri arasında ilk qəzetə müəssisi azərbaycanlı, məzhəb ixtilafını ilk bərtərəf edən yenə azərbaycanlı, əlifba islahını ilk düşünən azərbaycanlı, nəhayət**

**aləmi islamda ilk dəfə cümhuriyyət təsis edən də azərbaycanlıdır.**

Siyavuş kəndi məmurəsinin təbii gözəlliyinə süni gözəlliklər əlavəsilə "Siyavuş gərd"ni imarətlər, qələlər, kaşanələrlə bəzəmişdi. Azərbaycan Cümhuriyyəti dəxi ölkəsinin təbii nöqsanlarını süni təşəbbüsləri ilə təkmil etməyə başlamış, az zamanda çox müvəffəqiyyətlərə nail olmuşdu.

Hər şeydən əvvəl Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşlarının müsavi bir hüquqilə yaşaması üzərinə qurulmuşdu. Burada hər bir insanın şəxsi möhtərəm, Azərbaycan vətəndaşı olduğu üçün hüquqi məhfuz idi. Erkək-qadın, müsəlman-xristian, türk, erməni, rus, cins və milliyyət fərqi gözləmədən, zəngin-fəqir, patron-amələ, mülkədar-əkinçi, müəllim-şagird, xəvas-əvam, sinif, məslək, təbəqə, rütbə, məqam, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkət idarəsinə iştirak ediyor, qanun vəz edən müəssisələrə intixab etmək həqqini haiz olduqları kibi, intixab edilmək həqqinə dəxi malik idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə həqli, nə də yoxsulluğuna görə həqsiz görünüyordu. Bunun kibi nə yoxsulluğu üçün təkrim, nə də varlığı üçün təhqir olunuyordu.

Burada məktəb, elm və fənn bitərəf tutulub, ondan müəyyən bir firqə və ya sinfə, o firqənin və ya o sinfin həqli-həqsiz tələblərinə qulağı sırğalı bir qul kibi, tabe olmaq istənilmiyor, biləks məktəblə üləmadən iyi ilə kötiyi bizzat və bilistiqlal fərq edəcək vasitələrə namuslu bir Azərbaycan vətəndaşı tərbiyə eləmələri istəniliyordu.

Məsud bir həyatın ancaq hürriyət ilə hasil olacağını, Azərbaycan hökumət Cümhuriyyəsi, kəndisinə dəstur idxaz eləmiş-

di. Burası hürriyət kəlam, hürriyyət mətbuat, hürriyyət vicdan və hürriyyət ittifaqə o dərəcədə müzhir idi, sanki

*"Hər ke xahəd, ku biya və hərçe xahəd qu, bequ*
*kebro naz və hacət və dərban dərin dərgah nist"*[29] -

tərifi bunun haqqında söylənmişdir.

Hər kəs nə istərsə söylər, oxur, yazar idi. **Hər millətin, hər firqənin kəndinə məxsus təşkilati və qəzetəsi var idi.** Bu qəzetələr əksəriya hökuməti tənqid və müaxizə ilə məşğul olduqları halda kəndilərinə qarşı böyük bir müsahilə və təhəmmül göstəriliyordi.

Millət məclisi məmləkətin bütün sinif və milliyyətlərini müməssil, dövlətin bilcümlə müqəddəratına hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf icra edilməz, heç bir hərb açılmaz, heç bir sülh bağlanmaz idi. **Hökumət Məclisin etimadını qazanınca qalır, qayb edincə düşürdü.** Ortada hökm olacaq mütəvəssit bir məqam yoxdu. Parlaman hakim mütləq idi. **Burada misli Avropada tətbiq olunmayan həqiqi bir Xalq Cümhuriyyəti təsis etmişdi.**

Azərbaycan Xalq Cümhuriyyətində vətəndaşlar arasında siyasi bir müsavat tammə bir qərar olmaqla bərabər ictimai ədalətsizliyin məzmin səmərələri dəxi məqul bir tərzdə tədil olunuyordu. Azərbaycan zehniyyətincə dünyanın ibtidasından bəri insanlar məişət və iqtisadca düçar olduqları ədalətsizligi birdən-birə izalə etmək, bir zərbə inqilabilə, mülkiyyəti və bundan dolayı insanlar arasında zühur edən müzərrət və səfaləti qaldırmaq mümkün deyildi. Bundan anarşi, daha ziyadə səfalət çıxar və daxili vətəndaş müharibələrindən başqa məqul bir

[29] Kim dilərsə, söylə gəlsin, kim nə istər söyləsin.
Yox bizim dərgahda dərban, hacib, kəbir və naz.

nəticə alınamazdı. Onlarca bu, bir kərə ədalət siyasiyə təmin olunduqdan sonra, kəndi kəndinə, təkamül və tədric yolu ilə həll olunacaq bir məsələ idi. Azərbaycanlılar düşünüyorlardı ki, mülkiyyəti təmamilə ortadan qaldırmaq, şimdiki şərait içərisində insanlardan şəxsi təşəbbüs qüvvətini səlb edər. Bu qüvvət olmadıqca rəqabət yuğalır, rəqabət və müsabiqə olmadıqca dünya nə məmur olur, nə də gözəl; həyat ictimaiyyə tərəfindən düşər, insanlar bəsit bir ibtidaiyəliyə ricət edərlər; nizam aləm bozulur. Fəqət bununla bərabər hər şeyin ifratından zərər gəldiyi kibi, mülkiyyətin də ifrat tərəflərini kəsir etmək islahat ictimaiyə əsasını təşkil etməlidir. Mülkiyyət ancaq təvəqqi ümumi aləmə əməl müəssir oluncaya qədər müdafiə olunub bu olmayınca, müzərrət ümumiyyəyi mucib bir zaid kibi, kəsilib atılmalıdır. Ərazi məsələsində, hər zarən kəndi əkib biçəcəyi bir miqdar toprağa malikiyyətini qəbul etməklə bərabər, Azərbaycan islahatciyələri, vase topraqları meyit halında bıraxan mülkədarların həqq mülkiyyətini rədd ediyorlardı. Məclis Məbusanda hazır bulunan layihə qanuniyyəyə görə ərazi xüsusi sahiblərindən alınıb dövlət malı olduqdan sonra ziraətkar vətəndaşların mülkiyyətinə təqsim olunuyor, dövlətin sərvət və gəlir mənbəini təşkil edən təht ilariz mədənlər isə tamamilə dövlət xəzinəsinə qalıyordu.

Sair əmlak və alət istehsaldan olan fabrika və digər bu kibi müəssisata gəlincə, bunların ufaq mülkiyyətlərə əqsami qeyr qabil tətbiq olduğundan, burada çalışan əmələnin tərfih halı xüsusi surətdə əhzar olunan məsai qanunlarının nəşri ilə təmin olunub, dəmir yol, işıq, su, telefon, teleqraf və sair bu kibi misali ümumiyyəyə xidmət edən müəssisələr ya milliləşir və yaxud bələdiyyələşdiriliyordu.

Azərbaycanlılar Rusiya istilası zamanında mükəlləfiyyət əsgəriyyəyə tabe bulunmadıqlarından əsgərlikdən tamamilə məhrum qalmışlardı. Azərbaycan əsgərini təşkil etməyi hər nə qədər Türk komandanlığı dəröhdə eləmiş idisə də Azərbaycanı ələcələ tərk eləmək məcburiyyətində qaldığından, buna müvəffəq olmamış: ordunun icadi azərbaycanlıların pək mədud bulunan kəndi zabitlərinin öhdəsinə buraxılmışdı. Başda ağsaqqal Səməd bəy[25] olduğu halda müxtəlif ordularda xidmət eləmiş Azərbaycan zabitləri səy etdilər; çox müşküllər və maneələr içində, bir yıllık əsnasında, yokdan iyirmi beş min qədər müxtəlif silaha malik piyada, süvari, topçu, qazmaçı, metralevizci və mühəndis qitəatından mürəkkəb bir ordu vücudə gətirdilər. İki sənəyə qərib davam edən məktəb hərbiyyədən yüzlərcə küçük zabitan yetişərək təşkil olunan ordunun küçük komandası təmin olundu. **Sonki Novruz bayramında Azərbaycanın paytaxtı Bakıda icra olunan rəsmi keçid, mükəmməl və müntəzəm bir ordunun vücudini, paytaxtin sevincdən bayılan sürəkli alqışları və övladını birər rəşid arslan qılığında görən anaların göz yaşları içində yar və əğyarə göstərdi.** Az zaman içində Azərbaycan ordusu kəndi müqəddəmə tarixinə Lənkəran və Əsgəran fəthləri kibi şanlı sətirlər yazdırtdı ki, birincisində o, intizam və itaətinin son dərəcə təkmilini, ikincisində isə rəşadət və fədakarlığının bimisil və binəzir olduğunu göstəriyordu.

Azərbaycan icrayi hökumətə başlarkən Xəzər dənizinə malik deyil idi. 6-7 ayın zərfində kəndi hakimiyyətini dəniz üzərinə dəxi təşmil etdiyindən sonra ticarət filosundan əlavə 6-7 gəmilik bir bəhriyyə dəxi hazırlamış, qarşıdakı atə ilə liman sahillərini uzaq vuran toplarla təslih edərək Bakıyı müstəhkəm bir liman halına ifrağ eləmişdi.

- Anarşi əsnasında Azərbaycan dəmir yolları qonşusu Gürcüstan yollarına nisbətlə təmamilə məhv olmuş kibi idi. İstasyonlar yaxılmış, köprülər uçulmuş, lokomotivlər qaçırılmış, vaqonlar parçalanmış, qənapelər soyulmuş idi. Az zamanda bunlar islah edilmiş, yolun işləkliyi müharibədən əvvəlki halına gəlmiş, müntəzəm bir dəmir yol hərəkəti təmin olunmuş idi.

Bundan əlavə tərq və məabir nəzarəti Cümhuriyyətin ticari, milli və siyasi həyatını təvəssö etdirmək üçün həyati bir əhəmiyyəti haiz bulunan Bakı-Culfa yolunu inşa ediyor, Kür nəhri üzərində qurduğu böyük köprünün rəsm güşadinə hazırlanıyordu.

Dəmir yol xidməsi ehzar etmək məqsədilə türklərə məxsus dəmir yol, teleqraf və sair teknik ustaları hazırlamaq üçün Yol idarəsi nəzdində xüsusi məktəblər təsis olunub, dəmir yol məmurları yüzdə əlli miqdarında milliləşmişdi.[30]

Dəmir yol idarəsi eyni zamanda fəna halda bozulmuş Bakü-Batum petrol borusunu dəxi qəribə bir sürət və məharətlə təmir eləmiş, əvvəlkindən daha fəal bir surətdə petrol silanına başlamışdı.

- Cümhuriyyətin təsisindən əvvəl yek digərinin ətini yeyən əhali arasında hər yerdə təşkil olunan zabitə sayəsində rus istilası zamanından daha artıq bir əminiyyət və intizam vücud bulub, hər tərəfdə bələdiyyə və məhəlliyə idarələri təsis olunuyordı.

Boş buraxılan ərazi ciddiyyətlə əkilməyə başlanmış; hər tərəfdə ziraət əvvəlki halını bulmuşdu.

Şəhərlər telefonlarla yek digərinə vəsl olunmuş; teleqraflar doğma bir lisanda müxabirata girişmişlərdi.

---

[30] Bolşevik istilasından sonra bu müəssisat təmamilə ilğa olundu. Son rəsmi məlumata görə hal-hazırda dəmir yol məmurlarından yalnız yüzdə otuzu türkdür.

- Maarif bazarına ayrı bir rövnəq verilmişdi. Məmləkəti nur irfanla işıqlandırmaq üçün ciddiyyətlə işə başlanmışdı. Tələbim ümumi və icbari əsas tutularaq bunu təmin üçün bir tərəfdən məktəblər açılıyor, digər tərəfdən dəxi yeni təsis olunmuş zükur və inas darülmüəlliminləri vasitəsilə müəllimlər hazırlanıyordu.

Mükatib ibtidaiənin çoxalmasına xidmət etmək üçün xüsusi surətdə İstanbuldan müəllimlərlə müəllimələr gətirilmişdi. Bundan əlavə, xüsusi olaraq hər bir qəza mərkəzində müəllimlər kursu təsis olunmuşdı. Nəşr maarif işində qadınlar tərbiyəsi dəxi erkəklərlə bərabər tutuluyordu. Mövcud rus (gimnaziya) sultaniyyələrindən biri təmamilə milliləşdirilmiş; bir çox ibtidai ünas məktəbləri açılmış, həpsi də qızlarla dolmuşdı.

Məktəb sənəndən xaric vətəndaşlar da unudulmamışlardı. Bunlar üçün gecə kursları açılmışdı. Bu xüsusda qadınlar dəxi unudulmayaraq kəndilərinə məxsus, gündüz kursları açılmış və cəmi dərsləri tərtib edilmişdi.

Azərbaycan gəncliyini ülum və fünun əsriyə ilə mücəhhəz etmək üçün Bakı Darülfününu təsis olunmuşdı. Bundan başqa yüzə qədər tələbə müxtəlif şüun fününi təhsil üçün, dövlət məsarifi ilə müxtəlif Avropa darülfünlərinə və digər ali mədrəsələrinə göndərilmiş, bir o qədər tələbənin dəxi İstanbula ezami təht qərara alınmışdı.

Bir tərəfdən boylə qüvvətli bir ürfan ordusunun ehzarı ilə məşğul olan Maarif nəzarəti, digər tərəfdən də təlim kitablarını təlif və tərcümə etdirərək kəndi hesabına basdırıyor, məktəblərə vəsait hazırlayordu.

- Azərbaycan türk tiyatrosu ilə musiqisinin mütərəqqi bir nümayəndəsidir. Cümhuriyyət zamanında tiyatro sənəti olduqca tərəqqi elədi. Hökumətin təht himayəsinə alınan türk səhnəsi ilə musiqisi kəndisinə təxsis olunan dövlət tiyatrosunda on illik bir tərəqqi əsəri göstərdi. Dekor, oyun, rəqs, təğənni və tərənnüm cəhətincə parlaq nümunələr, zəngin çiçəklər verdi. Az zamanda Azərbaycan sənəti Avropakari bəstəkar, faciə, komedi, opera, operet aktyor və aktrisaları ilə ümidbəxş rəssamlara malik olduğunu isbat elədi.

- İstihalə zamanları ədəbiyyatın durduğu bir dövrdür. Məmafiyə, Azərbaycan ədəbiyyatı gənc şairlərlə yeni şeirlər yetişdiriyor, üç rəngli istiqlal bayrağı zaman şeirinin ən ilhamkar bir hədəfini təşkil ediyordu.

- Azərbaycan qabiliyyət həyatiyəsini yalnız kəndi daxilində deyil, xaricə də hiss etdiriyordu. Dünyanın hər tərəfindən yeni Türk Cümhuriyyətinə heyətlər, səfirlər gəliyor, burada görülən həyat, hürriyyət, sənət və nəfasətə təqdirxan oluyorlardı. Az çəkmədi ki, Avropanın, Amerikanın zübdə elçiləri Azərbaycan paytaxtını ziyarət edərək kəndisini tanıdıqlarını və onunla hər növ mədəni və ticari əlaqəyə girmək istədiklərini bildirdilər.

Anarşi dövrünün xərabalığından yavaş-yavaş çıxaraq kəndisini doğrultmuş bulunan Azərbaycan, dünya millətləri tərəfindən tanınması üzərinə şən və həyata başlamışdı.

Bakının vəziyyəti, ziyafətləri, müsamirləri, tiyatroları yeni təsis edən sənaət və ticarət müəssisələri, ordusunun yaptığı rəsm keçid və manevrləri, şənlik topları, şadlıq fişəngləri və böyük, küçük bütün şəhrin ağzından eşidilən:

**“İləri, iləri, Azərbaycan əsgəri!” –**

nəğmə nikbinanəsi ilə həman “Siyavuş – gərd”ə bənzəyordu ki, Firdovsi onun haqqında:

*Xoş vəxorrəm və xub araste*
*Be hərcay konci por az xaste*[31] – diyor.

Azərbaycan boylə məsud bir həyata başlamasının şöhrəti afaqı tutdu. Bu xəbər bilxassə Azərbaycanın hamisi bulunan Türkiyədə məsərrəti mucib oldu.

Sülh konfransı Azərbaycan istiqlalını təsdiq etdiyi zaman Türkiyə kəndi möhnətini unutdu, İstanbul böyük təzahüratda bulundu, mitinqlər tərtib etdi. Bu mitinqlərdə Azərbaycan “yavru sancağı”nı Türkiyənin qoca sancağı ilə yan-yana asaraq təsid etdi, sevindi.

O üç rəngli köksü hilallı gənc bayrağa təmənnilər diləyərək dedi ki:

**“Tanrı sənə qara gün göstərməsin!”**[32]

---

[31] Xoş, şad, iyi və müntəzəm hər tərəfdə istədiyin qədər dolu xəzinələr.

[32] Xalidə xanım əfəndinin nitqindən.

## VI.

## CÜMHURİYYƏTİN İDBARİ

1- **Əsrimizin Gərsivəzləri. 2 – Siyavuşun hiss qəbləl vüqui. 3 – Siyavuşun dəhşətli röyası: Cümhuriyyətin qətli; Firəngisin nitqi.**

Firdovsi Siyavuşun lisani ilə deyir ki:

*"Çoxorrm şəvəd cay-e araste,*
*Pədid ayəd əz hər sui xaste."*[33]

Pərişan və düşgün bir haldan "arəstə" olub çıxan Azərbaycanın daxilindən və xaricindən pək çox "xastə"ləri zühur elədi.

Sağından və solundan birər həyula şəklində zühur edən "qara bastı"lar[34] bin dərlu hiylə, fitnə və qərəzlərlə Azərbaycanı didiyor, onu rahət etməyə buraxmıyorlardı. Birisi əlində "Denikin"in siyah örtüsü, digəri isə "Lenin"in qanlı pərdəsi ilə Azərbaycanın ağ gününü qara, mavi səmasını xunin etmək istəyorlardı.

Nəhayət bu iki qüvvət Azərbaycana qarşı ədavətlərində ittihad edərək dünya millətləri arasında tam müsavata malik bir hüquqla yaşamaq istəyən bu gözəl məmləkətin aydın həyatını bulandırdılar, mühitini qara-qırmızı buludlarla örtdülər.

Əsrimizin Siyavuşundan, xüsusi bir dilgirlik üçün tarğin və kəndisindən intiqam almaq istəyən (gərsivəz)ləri də az deyildi. Bu gərsivəzlər kəndilərinə Türk kommunist qrupunun süsünü vermişlərdi.

---

[33] Bir yer gözəl və yaşıllıq olsa, hər tərəfdən ona istək və arzu çoxalır.
[34] Qara basdı Azərbaycan xalq türkcəsində kabus mənasına qullanılır.

Gərsivəzlər qrupu artıq Siyavuşu devirmək qərarını vermiş, intriqasına başlamışdı. Bu intriqa hər şeydən əvvəl Azərbaycanı türklüyə xəyanətlə ittiham etməgə mətuf etdi.

Gərsivəzlər Türkiyədəki turançıları inandırdılar ki:

Azərbaycanın fikri ayrıdır. İngilis, Fransa və Amerika ilə əlaqəsi var. Yanına gizli elçilər gəliyor. Turan düşməni ermənilərlə barışıyor. İran ilə əqd ittifaq ediyor. Əcəm siyasəti qullanıyor. Şiəliyi ilərilədiyor. Bu məqsədlə o, İrana heyət göndərmiş, İrandan dəxi bir heyət qəbul eləmişdir.

Sözlərinə daha ziyadə təsir vermək üçün, beynəlmiləl üsul nəzakətdən bulunan mötad siyasi ziyafətləri su təvil edərək, Gərsivəzin:

"Həmi yad Kavus girəd becam"[35] -

dediyi kibi, bunlar da, azərbaycanlılar ingiliz imperialistlərinin sağlığına içiyorlar, diyə "sevər" zərbeyi həlaki ilə dağdar bulunan Türk xəlqini iğfal ediyorlardı.

Rusiya, həyat-məmat mücadiləsində olan Türkiyəyə mavinətə gediyormuş da, ingilizpərəst Azərbaycan hökuməti kəndisinə yol vermiyormuş, diyə yapdıqları propaqandalarla bolşevik sui-qəsdlərinin şərik cürmü oluyor, Qafqasiyanın Rusiya tərəfindən təkrar istilasını hazırlayorlardı.

Halbuki, Azərbaycan kəndi hamilərindən və xilaskarlarından bulunan Türklərin, kommunist olsalar da, kəndi əleyhində sui-qəsd bəsləməyəcəklərini ümid eləmiş, bəhriyyəsini, zirehli avtomobil və qatarlarını, şəhrin müstəhviz qüvvətlərini həp bunlara əmniyyət etmişdi.

* * *

---

[35] Daima Kavus namına badə nuş olur.

Firdovsidə böyük bir "fatalizm" var. Hər bir vaqeyi o, bir zərurət qətiyyə kibi göstərir. Onun hər bir qəhrəmanı başına gələcəyini ya röyasında görür, ya bir möbəddən eşidir və nə qədər çalışır, səy edərsə də kəndi təqdir və taleyindən bir dürlü xilas olamaz. Şahnamə şairi, bu softlə, ən sevdiyi qəhrəmanlarından ayrılıyorsa da daima "Çenin əst ayin-e çərx-e bolənd"(-dünyanın adəti boylədir) deyə təsəlliyab oluyor.

Fatalizm, yalnız Firdovsi kibi səmahətnəvis romantikalarında deyil, İranın qəzəlsəra lirikalarında da var. Səramədən qəzəlsəradən Hafiz Şirazinin

*"Dər kuy-e nik nami mara qozər nədadə*
*Gər to nemipəsəndi, təğyir de qəzara."*[36]-

beyti bunun bir şahid güvahi deyilmidir?

Firdovsi ilə Hafizdəki fatalizm müasir Avropa ədiblərindən, Belçika şair şəhiri (Meterlink)də[26] də var. Meterlink dəxi həyatı, insanların arzu və iradələri fövqündə bir qüvvətin idarə elədiyinə inanıyor; təqdirə böyük bir mövqe veriyor. Dünyada nə olursa, insanın başına nə gəliyorsa, "Gök quş" mühərririncə o, müqəddərdir. Hekayələrinin birində işbu fəlsəfəsini o, bax nasıl izah ediyor:

"Lihusə bir qadının başı üstünə şəhərin ən haziq bir təbibi gəliyor. Qadında bir şey yoxdur, salamət qurtarır, diyə əmniyyət veriyor. Halbuki evin ağsaqqal babası məyus. Onun gözünə kölgə kibi bir şey  gözüküyor. Bu kölgə qapıdan Əzrail kibi giriyor. Baba bütün bu təsəllilərə rəğmən müztəribdir. Nəhayət bu zadın səsi gəliyor. Çocuq rahətcə doğulduğu halda, anası həyatını qurtaramıyor. Ebə xanımın işarətindən hər kəs Lühusənin  keçindiyini öyrəniyor. Nozadlə bərabər bütün ev əhli ağlaşmaya başlıyor."

[36] Ivlik məhəlləsinə bizi buraxmadılar, bəyənmədin isə qəzayi təğyir  et.

Firdovsi siyağilə xəlq olunan Siyavuş, Meterlinkin "ixtiyar baba"sı kibi, qapıdan girən Əzrailini görmüş, "təbib" piranın təsəlli və əmniyyətlərinə rəğmən demişdi ki:

*"Şəvəm zarin gəşte bər biqonah,*
*Kəsi digər ayəd bər in tac və gah."*[37]

Azərbaycan dəxi daxildə istinad elədigi qüvvətlərin birər qarə yılan zəhəri ilə vücudini zəhərləməyə, dust bildiyi əhbasından bir qisminin düşmən olduğunu sezməyə, Qarabağ dağlarındakı erməni üsyanını yatırmaq üçün bütün qüvvəyi əsgəriyyəsini Rusiya hüdudundan oraya çəkmək məcburiyyətində qalmaya və bu surətlə şimaldan bəri ikən bolşevik qüvvətini qorxu ilə düşünməyə başlarkən – hökumət rəisinin istiqbaldan ümidi qırılmış, yaxın dostlarının nəzdində, Siyavuş kibi məyusanə bir surətdə demişdi ki:

"Sanki Cümhuriyyətin son günləridir. Sanki artıq mövqemizi digərlərinə tərk edəcəyiz."

Bu sözlərinə Cümhuriyyətin son rəisi vükəlasi bir şeyi dəxi əlavə etmişdi ki, onu biz Siyavuşun aşağıdakı sözləri ilə də nəql edə biliyoruz:

*"Por əz cəng gərdəd sərasər zəmin,*
*Zəmane şəvəd por ze şəmşir-e kin.*
*Bəsi qarət o bordən xaste,*
*Pərakəndən konc-e araste.*
*Bəsa keşvəra kan be paye sotur,*
*Bekubənd gərdəd be cayi abşur."*[38]

Siyavuş kəndi nəzəriyyə vəhədsi (güman-red) ilə fəlakəti sezdiyi halda xətərin felən icra edilmıkdə olduğunun və nəz-

---

[37] Bəni bigünah olaraq öldürürlər. Bu tac və təxtə başqa birisi sahib olur.
[38] Dünya hərb və zərb ilə, ədavət və kin ilə dolur. Bir çox qarətlər və talanlar vücudə gəlir, birikmiş sərvətlər dağılır, süvarilərin ayağı altında bir çox məmləkətlər çeynənir, yerlərində duzlaqlar hasil olur.

dinə gəlib-gedən Gərsivəzin sui-qəsdə malik bir şeytan olduğunu görməyirdi. Bir gecə uyqusunda rahət yatmış ikən Siyavuş gördiyi qorxunc röyadan sərasimə ayılmış, rəfiqəsi Firəngisə anlatmışdı ki:

*"Be yek dəst ataş, be yek dəst ab,*
*Be piş əndərun pil-e Əfrasiyab.*
*Be didi mera ruy kərdi dejəm,*
*Demidi bəran ataş-e tizdəm.*
*Ço Gərsivəz an ataş əfruhti,*
*Əz əfruhtiyi mer məra suxti."*[39]

**Azərbaycan hökumət Cümhuriyyəsi dəxi nisan ayının 27-də uyqusundan sərasimə bir surətdə qalxdı.** Bir tərəfdə Bakı limanında dəmirləyən bəhriyyənin üsyan bayrağı açdığını, digər tərəfdə Bena qazı (Binəqədi-red.) yanar dağı səmtindən Qızıl Ordunun ataş saçaraq gəldiyini və ricət etmək istərkən yolunun türkiyəli zabitan komandasında bulunan "Yardım alayı" tərəfindən tutulduğunu gördi.[40]

İşi boylə bulunca daxili bolşeviklər çıxdılar, "təslim ol!" dedilər.

***

**Məclisi Məbusan, sonuncu cələsəsini topladı.** Bolşeviklərin tələbləri müzakirə edildi. Məruzəçi sifətilə, intiqam pişəliyi və təslimçiliyiilə məşhur, əsrimizin (Gərv)i, əlində xəncər bidadə bənzər bir tumar, birinci və sonuncu dəfə olaraq kürsü xitabətə çıxdı:

- Həzərat, təslim olalım!... dedi.

[39] Bir tərəfdə ataş, bir tərəfdə su, ön tərəfdə isə Əfrasiyabın filini gördüm. Məni görüncə yüzünü əkşitdi, ataşi üfürdi. Bu ataşi Gərsivəz alovlandırmış, məni yaxmışdı.

[40] Bu xüsusda daha ziyadə və sərih məlumat almaq üçün "Azərbaycan Cümhuriyyəti" nam əsərimizin 8-ci fəslinə müraciət oluna.

Məclis üzərində ölüm uçuşuyordı. Hər kəs – artıq hər kəs diyəlim - kəndisini uçacaq bir qaya altında hiss ediyor və bu hisslə müztərib bulunuyordu.

Ağ saqqallı bir sosialist çıxdı. Bu fəci gündə dəxi adəti olan komedicilikdən geri qalmadı, operet qəhrəmanı Məşədi İbad kibi:

- “O olmasın, bu olsun!”- dedi.[41]

Ömrü uzunu Siyavuşa isinəmiyən bir qardaş dəxi:

- Bizim istədiyimiz iştə bu idi, diyə, firlatdı.

Birinci dəfə İranı, ikinci dəfə Turanı satmış olan qara yüzli birisi də çıxdı, üçüncü dəfə Azərbaycanı satdı.

Bir qisim isə hər zaman olduğu kibi, yenə bitərəf qaldı.

**Hər kəs əsrimizin Siyavuşunu ölüm xəncərinə təslim etmişdi ki, əhvalı pərişan bir surətdə Firəngis gəldi,** Azərbaycan Cümhuriyyətinin nütfə pakını daşıyan pəri istiqlal bir natiq şəklinə hülul edərək dedi ki:

“Yalandır, Gərsivəzlərə aldanmayınız; (Gərv)in əlindəki tumar, zəhər alud bir xəncər intiqamdır, ona inanmayınız! Rus ordusunuun hüdudumuzu keçdiyi bir sırada, müsəlman da olsalar, bolşeviklərin yaldizli yalanlarına inanmayınız!

Türkiyə Azərbaycanın məlcəidir. Kəndi məlcəni qurtarmağa gedən bir qüvvətin səmimiyyətinə inanırsa, Azərbaycan, oylə bir qüvvətə kəndisi yol verir.Fəqət bizim istiqlal və hakimiyyətimizi ayaqları altında çeynəyib sərhəddarlarımızı xak-ihəlakə sərən xain bir qüvvət Turan yardımcısı olamaz!

**Əfəndilər, eşitdiyiniz gurultular millətin deyil, düçmənlərin səsidir.** Hakimiyyətimizə doğru uzanan və bizdən təslim

---

[41] “O olmasın, bu olsun” Üzeyir bəyin bir operetinin ünvanıdır. Operet qəhrəmanı Məşədi İbadı evlənirkən aldatmışlar, qızın gözəlini göstərmiş, fəqət kəndisinə xidmətçi qızı göndərmişlərdir. Məşədi İbad protesto etmək istərkən təhdid edilmiş və nəhayət “O olmasın, bu olsun”diyə razı qalmışdır.

tələb edən əllər, millətin hüquq müqəddəsəsinə uzanmış qasib əllərdir. Ağ saqqallı generalımızın məyus bir surətdə, komandanlıq təpəsində deyil, məbusluq kürsisində oturması bizi məyus edərsə də, bilməlidir ki, millətdən alınan həqq başqasına təslim olunmaz!

Bu kürsidən çox kərə istiqlalımızı göz bəbəyi kibi saxlamaya, hürriyyətimiz yolunda canımızı sipər etməyə, ölmək var, dönmək yoxdur diyə son damla qanımıza qədər dayanməyə and içmiş adamlar deyilmiyiz?!

Həzərat, məsum qanı üçün pək çox qanlar axacaq, gözəl Siyavuşumuzu aldanmış əfrasiyabların qəzəbinə, xain gərsivəzlərin hiyləsinə, bədtinət (Gərv)lərin xəncərinə təslim etməyəlim!..

**Qoy bizi bu haqqımızdan keçməyə yalnız düşman süngüləri icbar etsin!".** Orada bulunan əhali bu nitqi ağlar gözlə alqışladısa da, Məbusanın əksəriyyəti təqdir tarixə təslim oldu, Siyavuşun qətlinə riza verdi.

*"Çenin əst raz-e sepehr-e bolənd,*
*Gəhi şaddarəd, gahi mostəmənd."*[42]

[42] Qoca dünyanın sirri boylədir:gah şad qılar, gah naümid.

# VII.

# QATİL KİMDİR?

1- **Rusiyanın xüdəsi. 2 – Yalanın ömrü az olur. 3 – Milliyyətpərvərləri təqib.**

Tarix təkrardan ibarətdir, deyərlər. Fəqət bu təkrar təsəvvür olunmasın ki, bütün cüzyat və təfsilatı ilə vaqe olur.

Heç bir vəqə zaman və məkan təsirindən xilas olamaz.

"Siyavuş gərd" Turan zəminin şərqində, Çin sərhəddində vaqe olub, xalis Turan əsgəri ilə əhatə olunmuş və Siyavuş Turan sərdarının əmri ilə qətl olunmuşdu.

Halbuki Bakı Qaf dağının ətəyində, Turanın bir kənarında deyil, ta göbəyində və Rusiyanın qomşuluğunda vaqe olub, Azərbaycan Cümhuriyyəti dəxi Turan sərdarı və əsgərləri tərəfindən deyil, turanlılardan aldanmış bir qisminin müavinəti ilə, Turan dostu kisvəsinə girən əski Turan düşməni tərəfindən qətl olundu.

Firdovsinin rəvayətinə görə Yəcuc və məcuclar qəribə bir ocubə (əcayib-red) olub, Qaf dağını keçir, bəridəki insanları həlak ediyorlardı. Bunların əcaib xilqəti oylə bir şəkildə idi ki, qulaqlarının biri kilim, digəri yorğan kibi görünüyordu. Gözləri dəniz suyu kibi mavi, yüzləri heyva kibi sarı idi. Müqəddəsat bilməyən bu qəribə məxluqdan hər kəs mütənnəfil ikən, qarınca kibi çox olan saylarından qorxaraq qarşılarına çıxılamıyordu.

**Rusiya yəcuc və məcucları üzərində dəxi zamanın böyük təsiri görülüyordu.** Avropanın amansız ədavətinə qarşı şeytanla da olsa əqd ittifaq zərurətində bulunan Türkiyə inqilabçılarının bu asi zehniyyətini bolşevik Rusiya həqqilə təqdir eləmişdi. Türklərin Azərbaycan üzərindəki mənəvi nüfuzundan

istifadə ilə  bolşeviklər Yaxın Şərqdə kəndilərini o qədər sevdirə bildilər ki, müsəlmanlar bunların qəlb mahiyyət edərək Azərbaycanı istila deyil, biləks İstanbulu belə qurtaracaqlarına inandılar.

Hər nə qədər "Müsavat" firqəsinə intisab edən milliyyətpərvərlər xəlqi  bu iğfaldan ayıltmaq istiyor "cəmaət, aldanmayın, bunlar həman Quranın buyurduğu "İnnə Yəcücə və məcucə müfsidunə filərz"[1]edərlər, eyni ecubələrdir ki, Qrim (Krım), Türküstan və Mart faciələrini icad etdilər; bunların əsl arzusu İstanbulun xilası degil, yalnız Bakü və fəqət Azərbaycandır" deyirlərsə də, "Müstəvər bozbaşı"[43]nı yemiş kibi, xəlq, "hay dəli, şəftəli!" diyə onları istehza ediyor və kəndilərini ingilizə satılmış kibi görüyordu.

Hətta iş oradaya gəlmişdi ki, sokakın baqqalları belə bolşevikin artıq gördükləri "ispekulyasion" düşməni olmadığına inanmışlar; kutahbin ittihadçılar dəxi  Qarayevin qızıl yalanlarına qapılmışlardı; **düşünüyorlardı ki, Rusiya gələcək, Ermənistanı ortadan qaldıracaq və ordularını Mustafa Kamal Paşanın müavinətinə göndərəcəkdir.**

***

**Yalanın ömrü az olur**. Xəlq hökumətində məruf olan bu həqiqət bir daha isbat olundu. Bolşeviklərlə bolşevik propaqandası yapanların iğfalına aldanan xəlq Qızıl Ordunun Ermənistana təcavüzünü bəklərəkən, Moskvanın Ermənistan istiqlalını

---

[43] "ŞahAbbas və Xurşud  Banu" operasında bir "müstəvər" tipi vardır. Bu tip aşcıdır. İnsanları çalar, öldürür, ətlərindən çorba yaparmış. "Bozbaş" bir növ Azərbaycan çorbasıdır. İsfahanlılar Şah Abbasa gəlmiş, hər gün qaib olan vətəndaşları yüzündən xəlqin qorxuda olduğunu ərz eləmişlərdir. Şah Abbas təğyir qiyafə ilə İsfahana getmiş,bu sirri ögrənmək istəmişdir. Əsnayi tədqiqində müstəvərin dükanına gəlmiş, baxmış, bu dükanın müştəriləri həddindən fəzlədir. Səbəbini öyrənmək istəmiş, xəlq bu aşcının pək ləzzətli çorba bişirdigini kəndisinə anladırkən, pərişan qayğılı birisi "Müstəvər"in çorbayı adam ətindən bişirdiyini söyləyincə hər kəs kəndisini "hay dəli, şəftəli!" diyə istehza eləmişdir. Halbuki Şah Abbas, tədqiqatını davam etdirincə, kəşf elədiyi həqiqət "dəli"nin doğru söylədiyini isbat eləmişdir.

tanıdığı xəbəri alındı. Ermənilərin müqabil tərzlərinə Qarayevin cəngcüyanə məqaləsi ilə Hüseynovun[27] bala pərvazanə notalarına baxmayaraq Qarabağdakı hərəkat durduruldu. Gürcüstana verilən 24 saatlıq notanın nəticəsi cəngavər xəlq komissarının gürcü nazirlərini Bakıya çağırmaq üçün elədiyi israrə rəğmən, Tiflisə gedib də gürcü menşeviklərinin tələblərinə imza atmaqla qurtardı. İrəvandan keçəcək Türkiyə yolu Şəki ilə Lənkərana döndü.

İstanbul imdadına getmək şüarı "Moskovayı qurtaralım, Lehistanı (Polşanı-red) qovalım!" fəryadinə təbdil edildi.

Ucuz əkmək və daha ziyadə rahət bəkləyən amələ ilə köylü birə-on qiymətlə əkmək bulamıyub, daha çox çalışdı və qatı bir istibdad altında qalınca, eyvah!...dedi.

**Bakının bütün sərvəti taraca getdi.** Dükanlar adəta quldur basar kibi yarıldı. Evlər sahiblərindən alınaraq miras kibi paylandı. Köylüyə topraq kağız üzərində veridisə də, ziraətin məhsulu zəxirə məmurları tərəfindən çalındı.

Sənələrdən bəri depo olunan neft bilabədəl Rusiyaya axıdıldı.

Düyü, dadlı, şəkər, çay, qumaş nə varsa vaqonlara, gəmilərə yüklənərək Moskovaya aparıldı.

Xəlqin həqiqi sərvəti, malı, mənali qəsb olunaraq, parə diyə bolşevik kağızları dünyayı bürüdi...

Əkmək istəyən ac xəlqə top və mitralyöz göstərdilər.

Bir-iki "müsəlman" komissarın pərdəsi altında ümur idarə təmamilə rus agentaları və məmurların əlinə keçdi. Məmləkəti guya ki, Azərbaycan Kommunist firqəsi idarə ediyor. Halbuki bu firqənin istinad elədiyi həqiqi qüvvət, əksəriyya əcnəbi və xristian əmələdən təşkil edilən Bakı Sovyetindən ibarət. İmzayi Nərimanlar, Əliheydərlər atıyorsa da, əhkami Mikoyanlar[28], Çorayevlər və Solovyovlar yazıyorlar.

Zahirdə qırmızı Azərbaycanın istiqlalı tanınmışsa da, nə hüdud məlum, nə şürut. Rusiyalı ilə azərbaycanlının hüquqi bir, Azərbaycan ordusu 11-ci rus komandanlığına tabe; bəhriyyəsi rus amiralı Roskolnikovun[29] əmrində.

**Adı müstəqil Azərbaycan – kəndisi Rusiyanın federativ bir hissəsi! Daha doğrusu, mümtaz bir vilayəti!**

***

Milliyyətpərvəranın, Azərbaycan türkçülərinin, vaxtiylə kimsəyə sözlə inandıramadığı həqiqətləri bolşeviklər işləri ilə isbat etdilər. Xəlq həyəcana gəldi. Aldanmış bir adam qeyzi ilə dil-dodağını çegnədi. Fəqət iş işdən keçmiş, ox yayından çıxmışdı. Məəmafiyə səbr kasası daşdı. Gəncə, Tərtər, Qarabağ və Zaqatala üsyanları zühur elədi. Qızıl bolşeviklər Nikolay generalı (Levandovski)nin[30] mərifətiylə üsyanı rəhmsiz bir surətdə basdırdılar. Çoluğa-çocuğa baxılmadı, qarıya-qocaya rəhm edilmədi, azərbaycanlı türk qanı sel kibi axdı. Kəndisini ermənidən qurtaracaq deyə bəklədiyi qüvvə bu sadədil xəlqi kəndi qanına qəltan elədi.

Bakı həyəcanını toplar, metraliyozlar, draqonvari əmrlər, yezidvari tədbirlərlə saxladılar.

Həbslər, nəfyilər, edamlar başladı.

Firəngis tutulub qapalı bir evə həbs edildiyi kibi milliyyətpərvəran dəxi həbsə alındı. Müsavat klubları səd, əmvali müsadirə tərəfdarları qanundan xaric elan olundu.

**Fəqət türkpərəstlik kisvəsinə girən bu qanlı qatil yalnız kəndinə qarşı mücadilə edən türkçüləri deyil, kəndisinə aldanan türkləri də qəhr etdi.** Salifəlzikr yardım alayı dağıdıldı; türkiyəli zabitləri qismən tovqif, qismən də hüdud xaricinə çaxarıldı.

## VIII.

## NAHƏQQ QAN YERDƏ QALMAZ

**1 – Məfkurənin qüvvəti: Gavə· Ergenekon. Yetim fikir. 2 – Fəlakətin dərsi. 3. – Xatəmə.**

**Hun ərbab həmiyət qərq edər zalimləri,**
**Məşəli-əfkar əhraranə sönməz hun ilə.**

***N. Kamal***

Nahəqq qan yerdə qalmaz – nasıl ki, Siyavuşun qanı qalmadı. Məzlum ahı avunmaz – nasıl ki, Kərbəla zülmü avunmayır. Zülm paydar olmaz – nasıl ki, Zöhhakın zülmü olmadı. İstiqlal nəşəsi fədailər yetirir – nasıl ki, milli Türkiyə yetirdi. Fikir öldürüləməz – nasıl ki, Neronun[31] arslanları xristianlığı parçalayamadı. Abidə iman yazmaz – nasıl ki, Nəmrudun[32] atəşi İbrahimi[33] yakamadı.

Lisan idrak susmaz – nasıl ki, inkivizasyon hüzuruna çıxarılan (Qaliley)[34] susmadı.

Həqq batmaz – nasıl ki, Firondan qaçan Musa[35] batmadı.

**Azərbaycan fikir istiqlal və cümhuriyyəti keçiçici bolşevik bolşevik istilasının yaxıcı, yıxıcı qüvvətləri ilə qəhr olacağmı zənn ediyorsınız?**

Bakının hərarətli toprağında mərkuz bulunan atəş müqəddəsi Quzğun dəniz dalğaları nasıl daimi olaraq söndürməkdən aciz isə, Azərbaycan vətəndaşlarının əqlinə girmiş fikir və qəlbinə yerləşmiş hiss istiqlalı öldürməyə dəxi bolşevik cəlladla-

rı o dərəcə acizdirlər. Bir şimal rüzgarının zərbiylə dalğalanan Xəzər, Bayıl burnundakı mavi atəşi söndürsə də, rüzgar keçib, dəniz rakid  bir hal alınca, sadə bir qıvılcım kafidir ki, bu atəş təkrar yansın, təkrar bayıl burnunu aydınlatsın.[44]

Azərbaycanda İran təsiri vardır: İran vaxtilə Zöhhak bəlasına düçar olmuşdı. Kəndi hakimiyyət və istiqlallarının qədrini bilməyən xəlqə cənab həqqin qəzəbi keçmişdi. Zöhhak namında bir hökmdar İrana müsəllət olmuşdı. Bu hökmdar yılanlara təəbbüd ediyor, gündə iki çocuq məğzini o məlun heyvanlara yedirdiyordı. Zöhhakın zülmündən bizar olan xəlqin fəryadı əflakə qədər çıxmışdı. Əhalinin ərzi, namusu, dini, milliyyəti həp təhqir olunuyordu. Şəhərlinin varı, köylünün mal-davarı əlindən alınıyordu. Cəmşid dinindən bulunan nə qədər iranlı varsa, xaric əzqanun əlan olunmuş, rast gələnin kəndisi həbs, malı zəbt olunuyor və övladı yılanlara yediriliyordı. Xəlq qorqusundan Zöhhakın dinini zahirən qəbul etmişdisə də, batinən ayin cəmi icra ediyordu.

Fəqət bütün bu zülmət və təhlükələr müqabilində iranlıların yeganə bir ümidi vardı. O ümidlə yaşayor, imanlarını atidə doğacaq o parlaq günəşin hərarəti ilə isitiyorlardı.

**Bu ümid, Firudin idi.** Cəmşidin yetimi Firudin dağlara çəkilmişdi. Zöhhakın sui-qəsdindən saklanıyordu. Firudin hər nə qədər dağlarda, xəlqdən uzaq və məchul bir məhəldə bulunuyordusa da, əhalinin qəlbi onun eşqi ilə çarpur, gözündə daima onun şəkli təbəssüm ediyordu. Onlar zahirdə Zöhhakın yılanlarına səcdə, yürəklərində isə Firudinin zühuru üçün dua ediyorlardı.

---

[44] Bakü limanındakı xəlicin ismi Bayıldır. Burada su içərisindən səth dəryayə çıxan qaz, dəniz rakid bulunduğı zaman atəş göstərilməsi üzərinə  alovlanıb mavi bir ziya ilə yanıyor.

Vəqti gəldi. Dəmirçi Gavənin pişkərini bir ağac başına taxması kafi idi ki, bütün xəlq onun əqəbindən gəlsin, Firudini dağlarda arayıb bulsun və gətirib kəndi təxtinə oturtsun.

Azərbaycanlılar türkdürlər: türklər dəxi Ergenekon tilsimində iki yüz sənə qaldılar. Nə qədər çalışdılarsa da, bir tərəfə çıxamadılar. Geniş dünyaya həsrət qaldılar. Fəqət yenə bir dəmirçinin hümməti kafi idi ki, türklər ahnin dağları əridib, təkrar geniş dünyaya çıxsınlar.

**Əsrimizin Siyavuşu ölmüşsə də, onun doğurduğu fikir istiqlalı ölməmişdir.** Bu fikrin xadimləri şimdiki halda dağlarda, vətənlərindən uzaq məmləkətlərdə, həbsxanaların qaranlıq və rütubətli guşələrində qaçaq, qaçqın, məqhur bir halda yaşayorlar. İstiqlal və hürriyyətimizin nazının əlaməti, o üç boyalı istiqlal bayrağı zahirdə yoxsa da, qorxudan bolşevik keçinən gözlərin önündə mücəssəm olub, yürəklər onun eşq didari ilə çarpmaqdadır.

**Əvət, Azərbaycan fikir istiqlalı, müstəqil Azərbaycan Cümhuriyyətinin işğal və istila təhtində bulunduğu üçün bu gün yetimdir.**

Fəqət dünyanın yetimlərin taleyə iradəsi hüzurunda dəfələrlə diz çökdügini görmədikmi?!

Üç yüz milyonluq bir kütlə əzimənin hala hakim mənəviyyəti bulunan islamiyyətin o mürşid əzmi birdir, yetim deyilmidir?!

Dünyanın ən böyük hökumətini vücudə gətirən Çingiz Turanın "Adsız" bir yetimi deyilmidi!!...

***

**Fəlakət qədər böyük müəllim yoxdur.** Hakimiyyət milliyyəyi qaib etmək qədər böyük bir fəlakət olamaz.

Yüz sənə əvvəl müxtəlif xanlıqlar şəklində hakimiyyətimizi qayib etdiyimiz zaman bu günkü Azərbaycan vəhdətinə malik deyildik.

Yüz sənəlik əsarət dərsi ilə iki sənəlik hürriyyət mübarizəsi bizi kəndimizə tanıtdı. Vəhdət və mövcudiyyətimizin əlaməti olaraq əlimizə türklüyümüzü, müsəlmanlığımızı və müasir bir xəlq olduğumuzu göstərən bir ləva-yi istiqlal verdi.

Məəltəssüf biz daha bərkiməyən etiqadımızla

- **“Bir kərə yüksələn bayraq bir daha enməz!”**

şüarına etdiyimiz afərinləri unutduq, canımız və malımız qorxusundan bu liva istiqlalı qırmızı bir parçaya təbdil etdirdik. İntriqan və zalım bir qüvvət tərəfindən susdurulduq. Dilim varmıyor... təslim olduq.

Fəqət bu “təslim”bizi qurtardımı?

Canımız, malımız, namusumuz xilas oldumu?

- Xayır, ilk zərbə hilalını oğurlayanlar yenə təslim nəzəriyyəsinin fədailəri oldular.

**Fəqət bütün bu fəlakətlərə rəğmən bir şey qazanıldı.** Bir təcrübə hasil oldu. Oylə bir təcrübə ki, intiqamçı gözləri daima bir “dəmirçi” arayor, oylə bir hal ki, hər şiş ağacın ucunda bir “pişkər” görmək istiyor.

Azərbaycanlılar Mehdi zühuruna qaildirlər. Bolşeviklərin bütün sərvət və samanı dağıdaraq hər kəsi bir loxma nanə möhtac etmək siyasətinin, bir əlində tüfəng, bir əlində əkmək tutan bu şeytani politikanın, xəlqi nə kibi vasitələrlə bolşevik yapdığını görüncə Azərbaycan xəlqi həman Dəccalı gəlmiş görüyor, bundan sonra biltəb Mehdinin zühurunu bəkliyor.

Azərbaycanın Mehdisi xəlqinin idealından, istiqlal millisindən ibarətdir.

Bolşevik Dəccalının müdhiş müzalimindən bizar olan xəlq, duyuram ki, yanıq bir yürəklə:

- Ah, bu Mehdi nə vaxt gələcək?! – diyə soruyor.

Can qulağımla dinliyorum, baladən lahuti bir səs cavab veriyor ki:

- **Azərbaycan bayrağı təkrar açıldığı gün!**

**Əvət, o gün, o böyük gün!**

Fəqət şimdilik, biz ümidimizi qırmayalım, o bayrağı qaldıracaq sərdən keçdi dəmirçiləri hazırlayalım!

Bunun üçün hər şeydən əvvəl:

"Təqiyyə"nin ruhumuza verdiyi qorxunu; "doruğ məsləhət amiz beh zerəst-e fetne əngizəs"[45] fəlsəfə əxlaqıyəsinin səciyyəmizə verdiyi mərailini; ölüm qorxusunun iradəmizə verdiyinə və şəklini kənar edəlim də, məyus olmayalım.

Qalileyə "Ah, nə yapayım ki, bu məlun yer dönüyor!" iddiasını, başı üzərində duran cəlladlardan qorxmayaraq, söylətən; Sokrata[36] imkanı varkən təbii ölümü mənəvi ölümə tərcihlə zəhər həlahil içirtən; Həzrəti Hüseynə[37] bütün yar və ənsarini qaib etdiyi halda təslim olmamaq cəsarətini bəxş edən; Həsən Səbbah[38] fədailərinə dağ başında atılmaq təhəvvürini əta edən və nəhayət Anadolu hərbinin o şanlı qəhrəmanı Fəthi bəyə komandanının əmrini bir kaç dəqiqə təxir etdiyi üçün müzəffər ikən, intihar etmək təcəllidini göstərdən bir hiss vəzifə ilə silahlanalım. Biləlim ki, çoxdan öldürülmüş zənn olunan millətlərin birər-birər dirildiyi bu məhşər kəbridə ölmək istəməyən millətləri diri-diri gömmək qətiyyən mümkün deyildir.

Bunun ən böyük misalı böyük qardaşımız Türkiyədir.

---

[45] "İş düzəldən yalan fitnə çıxaracaq doğrudan daha yaxçıdır"-red

* * *

Əvət, ey vətəndaşlar! Ələlxüsus ey nəsil ati, ey gənclik! Ey əsrimiz Siyavuşunun rəşid oğlu!

Sənin öhdəndə böyük bir vəzifə var.

Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki:

- Bir kərə yüksələn bayraq bir daha enməz!

Bunu deyərkən o bu günkü yetimanə mənzərəni hesabə qoymamış deyildi.

Bu, önüncə mütəsəvvir idi. O, sənin o zaman bu bayrağı gənc omuzlarına alıb, məsumanə bir tovrlə, sokaq-sokaq dolaşaraq, **"İləri, iləri, Azərbaycan əsgəri!"** -diyə, əsgərcə addım atmalarını görmüşdü də, bu sözü cəsarətlə söyləmişdi.

Əlbəttə ki, sən, onun bu ümidini qırmayacaq, bu gün Parlaman binası üzərindən Azərilərin yanıqlı yürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə taxacaq, Böyük Dəmirçinin xürucini görüncə onun tərəfinə keçəcək,

- Ya qazi və ya şəhid olacaqsın!

**Lahıc, təmmuz, 1920.**

## Fehrist / Mündəricat

İthaf ........................................................................178
Bir məktub ..................................................................178
Müqəddəmə ................................................................179
Başlanğıc.....................................................................183
Siyavuşun xülasə əhvalı...............................................184
Siyavuş tipindəki nöqtələr ...........................................194
Əfsanədən həqiqətə......................................................198
Azərbaycan Turanda ....................................................203
Azərbaycan Cümhuriyyəti ...........................................209
Cümhuriyyətin idbari ..................................................221
Qatil kimdir?...............................................................228
Nahəqq qan yerdə qalmaz............................................232

**Milli Azərbaycan nəşriyyatı: sayı 3**

# İSTİQLAL MƏFKURƏSİ VƏ GƏNCLİK

Əsbabi-həzimətlərimizə aid bir mütailə
(Azəri gənclər ictimaində verilmiş bir konfrans)

**Mühərriri**

**RƏSULZADƏ MƏHƏMMƏD ƏMİN**

**İstanbul – "Amədi" mətbəəsi**
**1925-1341**

**Arkadaşlar,**

Keçən sənəki ictimalarımızı yaz tətilini keçirdikdən sonra təkrar toplarkən bu ictimalarımıza mütəəzzüv bir şəkil vermənin daha münasib olacağı haqqında bəzi arkadaşların arzular bəslədiyini eşitdim. Buna "Azərbaycan Gənclər İttifaqı" adını verərsək daha münasib olur, deyə düşünənlər mövcud olduğunu da öyrəndim. Bən buna bir kəlmə daha əlavə etməyi bilxassə əlzəm görürəm. Sadə "Azərbaycan Gəncləri" deyil, "İstiqlalçı Azərbaycan Gəncləri İttifaqı" dersək məqsədimizi daha sərih ifadə etmiş oluruz, zənnindəyəm.

Fəqət "İstiqlalçı Azərbaycan Gəncləri İttifaqı"nın təşəkkül və təəzzüvünə aid təfsilata girişmədən və bu təklifin müzakirə və qəbulunu ictimada hazır bulunan arkadaşların kəndi qərarlarına tərki təbii bularaq bən, müsaidənizlə bu gün üçün üstümə aldığım müsahibəyi **"İstiqlal Məfkurəsi və Gənclik"** mövzuinin bir cəbhəsinə təxsis etmək istərəm. Bir cəbhəsinə diyoram, çünki təqdir edəcəyiniz vəchlə, bu mövzu çox böyük sahəyi tutar və gəncliyin məfkurə qarşısında mükəlləf olduğu çox mütənəvve vəzifələri əhatə edər.

## I

Ta başdan nəzər-diqqətinizi bir şeyə cəlb edəcəyəm. Azərbaycanımızda milliyyətçilik fikrinin həyatı nisbətən əski olsa da, sözün sərih mənasilə istiqlalçılıq fikri çox yenidir. Hətta deyə bilərəm ki, bu gün istiqlalçılıqlarında şəkk və şübhə olmayan arkadaşlarımızın, həm yalnız gənc arkadaşlarımızın deyil, bəzi yaşlı-başlı arkadaşlarımızın belə istiqlalçılıqları Azərbaycan istiqlalından daha gəncdir. Yəni onlar 1918-də elan olunan

Azərbaycan istiqlalını kəndilərincə müntəzir məsud bir vəqə, xəyallarında özlədikləri bir fikrin nəhayət, təhəqqüq etmiş bir məhsulu deyil, bəklənməyən bir vəqə kibi tələqqi eləmişlər, əmri-vaqe qəbul etmək zərurətində qalmışlardır. Etiraf etməliyiz ki, müstəqil Azərbaycan hökumətini idarə edən münəvvərlərimizdən bir çoxu bir gün gəlib də milli bir hökumət başında duracaqlarını düşünmüş deyillərdi. Milli hökumət və istiqlal məfkurəsindən sərf-nəzər, bizim nəsil üçün yaşadığımız yerlərə Azərbaycan denilməsi belə bir yenilik idi. Bu isim dəxi istiqlal məfkurəsi kibi əmri-vaqe olduqdan sonra hər kəscə qəbul edilmiş, yoxsa Türk Federalist "Müsavat" firqəsindən gərək sağda və gərək solda qalan firqələr buna qarşı, bu ismə qarşı az mücadilə etməmişlərdir.

Bizdə miliyyətpərvərlik hissiyyatı ibtida kəndi hürriyyət və istiqlalımızı və hətta bütün türklərin xilasını hədəf qılmaq surətilə deyil, müstəqil və yarımmüstəqil bir halda yaşayan digər islam və türk dövlətlərinə qarşı səmimi hissiyyat və əlaqə göstərməklə təzahür etmiş, siyasi təmayüllərimiz bir çox zaman bu hüdudu keçməmişdir.

Balkan hərbi əsnasında Rusiyadakı türklüyü bürüyən cocuş, Azərbaycan tələbəliyinin ozamankı fəaliyyəti, Kiyev konqresi, "Hilali-əhmər"ə yardım, "Müsavat" firqəsinin müsəlman dünyasını xilas etmək niyyətilə təşəkkülü, müəllimlərin, tələbələrin könüllü olaraq Türkiyə cəbhəsinə getmələri[1], bütün bunlar həp vaxtilə islav dünyasının rusçuluğunu, Hindistanın xəlifəçiliyini andırır bir növ milliyətpərvərlik idi. Bu milliyətpərvərlikdə şübhəsiz ki, kəndini düşünmək yox deyildi. Fəqət bu düşüncə

[1] Bu xüsusda təfsilat istəyənlər bənim "Azərbaycan Cümhuriyyəti" nam əsərimə müraciət edə bilirlər. İstanbul 1339

şüuri deyil, ünsüri idi. Ənfəsi deyil, afaqi idi. Türkiyə qüvvətli olursa, İran yaşarsa bizim də yaşayacağımız kəndi-kəndinə hiss olunuyordu. Yoxsa kəndimizə aid siyasi mətləblərimiz milli maarif və milli məktəbdən ötəyə keçmiyordu.

**Hətta "milliyyət" məfhumu belə bizdə, son zamanlara qədər, bütün sərahətilə təbəllür etmiş deyildi.** Ozamankı milliyyətpərvərliyin ən bənam mürşidləri, başda Ağaoğlu Əhməd bəy olduğu halda, islamçılıqla türkçülüyü çox da təfriq etmiyor, türkçülük namına deyil, müsəlmanlıq namına mücadilə ediyorlardı. Topçubaşovların, Rəşid Qazilərin və İsmayıl bəy Qasprinskilərin[1] iştirakı ilə Rusiya türklüyündə vücud bulan siyasi təşəkkülün adı "İttifaqi-müslimin" idi. Rus qəzetəçiliyi 1918 sənəsinə qədər rus türkçülüyündən deyil, daima rus müsəlmanlığından bəhs edərdi. Milli hərəkətimizin ismi "panislamizm" idi. Bu, yalnız rusların xətası deyil idi. Kəndimiz də islamiyyəti milliyət məfhumu yerində qullanıyorduq. Bizə verilən anket listələrinin "nasyonalite" cədvəlinə "musulmanin" deyə yazırdıq. "Açıq söz"də "müsəlman teatrosu, müsəlman artisti, müsəlman səhnəsi demək yanlışdır; ancaq türk teatro, aktyor və səhnəsi ola bilir" dediyimiz zaman, yalnız zamanın sansorundan deyil, kəndilərimizdən də etiraz etmişdik. "Millətі-islam varkən bu türk də nərdən çıxdı?!" deyənlər az deyildi. Heç unutmam, sonra Azərbaycan hökuməti-milliyəsində pək mühüm bir mövqe tutan bir zati-möhtərəm məruf zəka və dərayətinə rəğmən, "islamiyyət istilahını atıb, türk istilahını alırsaq Türkiyə ilə irtibatımızı nə ilə isbat ediriz?" deyə bütün ciddiyyəti ilə məsələyi münaqişə etmiş, nə mənasız davada bulunduğunun fərqinə varmamışdı.

Rusiya idarəsindəki müsəlmanlara “türk” dedirtmək şimdi artıq qazanılmış bir davadır. Yalnız “türk” kəlməsi deyil, “Azərbaycan” adı da qazanılmışdır. Fəqət bu ismin əleyhinə dəxi, işarət etdiyimiz kibi, az mücadilə edilməmişdir. Vətənimizin bu ismi daşımaq haqqında olduğunu inkar edənlər yalnız İran milliyətçiləri deyil idi. İranilərdən bir qismi Bakıda nəşr etdikləri bir qəzetəyə “Azərbaycan cüzi-layənfəki-İran”[2] ünvanını vermişlərdi. Onlar bununla Bakının, Gəncə və sairənin Azərbaycan adını daşımaq haqqında olmadığını söyləmək istəmişlərdi və yalnız bu qədərlə qalmamış, Tehran mətbuatı bu xüsusda yeni təşəkkül edən cümhuriyyətə və bu ismin “müqəssiri” bulunan “Müsavat” firqəsinə qarşı pək böyük bir səfər açmışlardı. Fəqət bunu da xəbər verəlim ki, onların bu səfəri Azərbaycan kommunistləri ilə ittihadçılarının səfərindən sonra başlamışdı. “İttihad” liderlərindən Qənizadə Soltan Məcid daha iyirmi sənə əvvəl yazdığı lüğət kitabına “İstilahi-Azərbaycan” adını vermişkən, “Azərbaycan muxtariyyət və ya istiqlalı”nın bu yerlərdə mövzui-bəhs olamıyacağını müdafiə ediyordu. Onunca, Azərbaycandan və türklükdən deyil, “Rusiyada müsəlmanlıqdan” bəhs etməlidi. Yalnız ittihadçılar və kommunistlər deyil, Azərbaycan sosialistlərincə də Azərbaycan istiqlalı və ya muxtariyyəti mövzui-bəhs deyildi. Mavərayi-Qafqas seyminin ilk ictimaində siyasi firqələr namına oxunan bəyannamələrdə nə ittihadçılar, nə də sosialistlər Azərbaycan təəzzüvündən bəhs etməmişlərdi. Yalnız “Müsavat” firqəsinin bəyannaməsində idi ki, “Seym” məclisinin müəssis bir ictima olduğu qeyd olunuyor və bu müəssisdə Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin daireyi-səlahiyyəti ilə müştərək federativ hökumətin hüquq və hüdudunun təyini lüzumu əhəmiyyətlə irəli sürmüşdü.

Muxtariyyət və istiqlalçılıqdakı bu qərarsızlıq yalnız bizdə deyil, ozamankı Qafqasiya millətlərinin həpisində vardı. Kəndilərini Qafqasiya demokrasisinin mürşidi mövzeində görən gürcülər dəxi istiqlalçı deyildilər. O zaman pək qüvvətli olan menşevik firqəsi kəndi federalistlərini sokak başlarında döyməyə qədər varıyor, sosialist federalistlərin "muxtariyyət və federsyon" şüarını böyük inqilab işi üçün "müzirr" buluyorlardı.

Tədqiq etdiyimiz mövzu nöqteyi-nəzərindən siyasi istiqlalçılıq şüarı kəndisində müəssis bir nəzəriyyə və yaşanılmış bir hadisə kibi təbəllür etmiş deyilsə də, Qafqasiyadakı türklüyün milli, mədəni, tarixi səbəblərlə və afaqi bir takım amillərin təsirilə Rusiya daxilində mərkəzdən qaçan qüvvətlərdən olduğu məlumdur. Bu səbəblə Azərbaycan mühiti ictimai və siyasi təşəkkül və inkişaf həsbilə qomşularından daha az irəriləmiş olmaqla bərabər, muxtariyyət və federasyon şüar və məfkurələrinə onlardan daha ziyada məclub oluyordu. Bunun üçün qərib deyildir ki, Qafqasiyada muxtariyyət şüarını konqre halında ilk dəfə elan edən azərbaycanlılar olmuşdur. Böylə ikən belə iyi xatirimdədir ki, ilk Qafqasiya müsəlman qurultayı toplandığı zaman, Rusiya şəkli-idarəsinə aid təqrirdə "federasyon" prinsipinin elan edilib-edilməməsi komisyonlarda və qurultay müdiranı arasında epey düşünülmüşdü. Rus demokrasisini ürkütməmək üçün bunun sükutla keçişdirilməsi belə təklif olunmuşdu və yenə çox iyi xatırlıyoram ki, bu təqriri Tiflis, Azərbaycanın "xanlar və bəylər nüfuzundakı mürtəce" təmayülatına çıxmışdı.

Seymdə Mavərayi-Qafqasiyanın Rusiyadan ayrılaraq istiqlalını elan etmək lazım gəlirkən Gürcüstan lideri Noy Jordaniya[3] məsələnin lüzumunu şöylə tədlil ediyor, "Xristian Qafqa-

siyanın meyli Rusiyaya, müsəlman Qafqasiyanın da meyli Türkiyəyədir. İki müxtəlif tərəfə mütəmayül olan qomşuları bir arada tuta bilmək üçün Rusiyadan da, Türkiyədən də qəti-rabitə edərək Mavərayi-Qafqasiyanın istiqlalına lüzum görüldü" diyordu.

Mavərayi-Qafqasiya istiqlalının elanına gürcülər istəməyərək təşəbbüs etdilər. Ozamankı türk komandanlığı bunu tələb edir və yardım üçün müraciət etdikləri bolşevik Rusiyası isə hər növ müavinətdən imtina ediyordu. Başqa çarə qalmamışdı. Nə yapalım, müstəqil oluyorduq.

Fəqət bizim üçün qəziyyə belə deyildi. Mavərayi-Qafqasiya istiqlalını, digər təbirlə Rusiyadan ayrılmasını biz, yəni "Seym"-dəki müsəlman fraksyonu – diqqət ediniz, Azərbaycan fraksyonu deyil, türk fraksyonu da deyil – çox təsri etdirmişdik. Tiflis mətbuatı və rusçu firqələrin natiqləri "Mavərayi-Qafqasiya "Müsavat" firqəsinin təsiri və Türkiyənin təhdidi ilə arzusundan deyil, qorxusundan elani-istiqlal ediyor" dedikdə "Müsavat" fraksyonu adından bən "Mavərayi-Qafqas istiqlalını biz qorxu deyil, vicdani bir saiqlə qəbul ediyoruz" diyordum. Bu sözümlə bən əmin idim ki, Azərbaycanın da, Türkiyənin də ümumqafqasiyanın da ən həqiqi mənfəətlərini təminə mədar bir şüarı müdafiə ediyordum. Fəqət eyni zamanda Azərbaycan əfkari-ümumiyyəsinin də bunu tamamilə müdrik olduğuna qane deyildim.

Gürcü ricalı ilə Azərbaycan xadimləri üçün Mavərayi-Qafqas istiqlalı zəruri bir taktik şəklində görülürkən, ermənilər üçün bu, qəbulu nakəzir bir "bəla" kibi idi. Kaçaznuninin[2][4] "Seym" kürsüsündəki müəzzəb çöhrəsi gözümün

[2] Daşnaksütyun firqəsinin lideri. Sonra Ermənistan hökumətinin rəisi. Hal-hazırda Sovet tərəfinə keçmişdir.

önündə, qısa bəyannaməsi eyni ilə zehnimdədir: "Daşnaksütyun firqəsi zamanın əhəmiyyəti və vəqənin tamami-məsuliyyətini dərk edərək Mavərayi-Qafqas istiqlalını qəbul edər".

Şu surətlə şövqsüz və həyəcansız bir surətdə elan olunub, sənələrdən bəri bəklənən məsud bir hadisə kibi deyil, zərurət məqamında qəbulundan qaçılmaz daha az bir ziyan kibi tələqqi olunan **Mavərayi-Qafqas** istiqlalı pək mütəbariz və mütəxalif ünsürlərin təbii təzyiqilə çox sürmədi. "Seym" parçalandı. Əvvəl Gürcüstan, sonra da Azərbaycan ilə Ermənistan elani-istiqlal etdilər. Ermənistan vəsiqəsi əlimizdə yoxdur. Fəqət Gürcüstan ilə Azərbaycanın istiqlal elanını mübin bəyannamələr tədqiq olunursa, əlim bir zərurət üzündən elani-istiqlal etmək ehtiyacı burada da görülür.

İştə Azərbaycan istiqlalını elan edən bəyannamənin müqəddiməsi:

"Böyük Rusiya inqilabının cərəyanında dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqasiyanın[3] rus orduları tərəfindən tərkini mucib bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndi qüvayi-məxsusələrinə tərk olunan Zaqafqasiya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayei-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqasiya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

"Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənub-Şərqi Zaqafqasiyadan ibarət bulunan Azərbaycana dəxi,

[3] Mavərayi-Qafqas deməkdir.

bulunduğu xarici və daxili müşkilatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arayi-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-Milliyyeyi-İslamiyyəsi bütün camaata elan edir ki:

"Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kibi, Cənub-Şərqi Zaqafqasiyadan ibarət Azərbaycan dəxi kamilülhüquq müstəqil bir dövlətdir və ilax..."

**Bu bəyənnamədən** aşkar görülüyor ki, Azərbaycan istiqlalı məəttəəssüf "kəndinə tərk olunan və anarşiyə qərq olan" milləti vərteyi-həlakdan qurtarmaq üçün təvəssül edilmiş bir növ "çarə"dir. "Dövlət" parçalanmış, əlim bir vəziyyət hasil olmuş, gürcülər də getmiş, biz də istər-istəməz kəndimizi idarəyə başlamışız, nə yapalım, müstəqil olmuşuz. Etiraf etməliyiz ki, bu, istiqlalı üçün mücadilə etmiş, hürriyyətinə təşnə bir millətin siyasiləri və ixtilalçıları deyil, çökən əzəmət və səltənətin dəhşəti və qeyri-müntəzir hadisələrin təsiri ilə yarınki məsuliyyəti düşünən və mütəsəvvür bəraət üçün şimdidən əsbabi-müxəffəfə təmin edən "durəndiş"lər tərəfindən yazılmışdır.

Gürcüstan bəyannaməsi də eyni qüsuru işləmişdir. Yaxud ki, doğrusu da budur. Azərbaycan İstiqlal bəyannaməsinin mühərrirləri bu zəflərində gürcüləri təqlid eləmişlərdir. Əvət, Gürcüstan bəyannaməsi də istiqlalını "əhvəni-şər" olaraq qəbul etmişdir. O da Rusiyanın çəkilməsi, Mavərayi-Qafqasiya istiqlalının sövqi-zərurətlə elan edildiyi, sonra bilxassə müsəlmanların "iftiraqçılığı" üzündən Gürcüstanın istər-istəməz "müstəqil olmaq çarəsizliyində" qaldığı fikrini təsbit eləmiş: o da müstəqbəl müddəiyi-ümuminin ittihamlarına qarşı şimdidən əsbabi-müxəffəfə hazırlamışdır.

## II

Rusiyadan ayrılan digər cümhuriyyətlərin bu xüsusdakı təcrübələri nasıldır? Bu sual qarşısında təbii olaraq, zehnə Baltik sahilindəki və ələlümum, Rusiya qərbindəki müvəffəq olmuş cümhuriyyətlər gəliyor.

Finlandiya və Lehistanı kənara buraxsaq belə (çünki bunlar Rusiyadakı digər millətlərə nisbət daima müstəsna bir vəziyyət daşımışlardır), Estoniya, Litva, Latviya kibi istiqlallarını tamamilə təmin etmiş Qərbdəki kiçik millətlərin mücadilə tarixinə aid vəsiqələri tədqiq edərsək, bunlarda bambaşqa bir "motiv" buluruz. Onlar istiqlallarını qeyri-müntəzir bir vəqə kibi qarşılamamış, hökumətlərini "əhvəni-şər" kibi tələqqi etməmişlərdir.

**Daha 1896** sənəsində Litva sosial-demokrat firqəsi elan etdiyi proqramında Litvaya aid qismində "Litvanın xalq cümhuriyyəti şəklində, Lehistan və sair qomşu məmləkətlərlə hürr federasyon əsası üzərinə müttəhid olmasını" tələb ediyordu. Firqə proqramının bu qismini izah edən nəşriyyatı isə yuxarıdakı maddəyi şu surətlə təfsir ediyordu:

"Lehistan ilə Belorusiya və Ukrayna məmləkətləri əmələsi siyasi mənfəətlərinin Litva əmələsi siyasi mənfəətləri ilə müştərək olduğunu nəzərə alaraq və salifüzzikr məmləkət əmələsinin təsanüdlə hərəkət etməsi bu əmələnin sinfi ehtiyaclarını daha iyi təmin edəcəyini düşünərək Litva sosial-demokrasisi atidəki məqsədləri güdür:

1 – Lehistan, Latviya, Belorusiya və Ukrayna sosialist firqələri ilə münasibat təsis eləmək və onlarla birlikdə həpimizi təzyiq edən zülmə qarşı mücadilə etmək;

2 – Hürr və federativ xalq cümhuriyyəti tələbinin əmələ firqəsi proqramına idxalı lüzumunu bu məmləkətlərin əmələlərinə anlatmaq".

İştə görülüyor ki, Litva sosialist firqəsi gürcü menşevikləri kibi deyil, hələ 96 sənələrində kəndi proqramına istiqlal məfhumunu idxal eləmiş və Rusiya cəmiyyətçiliyində əriyib qarışmadan müstəqil bir məmləkət idealını təqib eləmişdir.

**1902 sənəsində** isə müttəhid Litva demokrat firqəsinin proqramı elan edilmişdir. Bu proqramda biz aşağıdakı fəqərəyi buluyoruz:

"Litva rus əsarəti altında qaldığı müddətcə millətimiz kəndinə xas olan hüququndan istifadə edəməz. Məmləkətimizi moskovlaşdırmağa qərar verən bir hökumətə müraciət və istidalarda bulunmaq fayda etməz. Digər məmləkətlərə nisbət müstəqil və hürr bir Litva – iştə Litva demokrat firqəsinin uzaq bir məqsədi. Yaxın məqsədi isə dövlətin şimdiki hüdudu daxilində xalq idarəsinin təsisi ilə rus bürokrasi rejiminin devrilməsidir. Bunun üçün biz şimdiki hökumət və üsuli-idarə əleyhində bulunan firqələrlə bərabər çalışmalıyız. Şunu da söyləməliyiz ki, yalnız siyasi hürriyyət qazanmaqla Litva demokrat firqəsinin vəzifəsi bitmiş olmaz, "Litva litvalılarındır" dediyimiz zaman biz digər millətlərin təsir və nüfuzundan qurtulmuş müstəqil bir hökumət idarəsini qəsd ediyoruz ki, onun sayəsində millət kəndini idarə eləsin, tainki harsi və mədəni inkişafı əcnəbilərin müdaxiləsi ilə tovqifə uğramasın. Bu da Litvanın kəndi qövmi hüdudu daxilində tamami-muxtariyyəti ilə təmin oluna bilir. Müstəqbəl Litva muxtariyyətinin əsasını təfsil etmədən Litva demokrat firqəsi, cəmiyyətə kəndi prinsipləri daxilində təsir icra eləməklə, xalqı kəndisini hökumətə və yabançı millətlərə qarşı müdafiə etməyə və məqsədlərinin hüsulinə əngəl olacaq maneələrin bərtərəf edilməsinə təşviq edər".

1905 sənəsi ixtilalında Qafqazda muxtariyyət və separasyon (ayrılmaq hərəkəti) namına ciddi bir hərəkət vüqu bulmamışdı. Yalnız federalist gürcü mətbuatı gürcü muxtariyyətindən bəhs eləmiş, bir də 1907 sənəsində Vyanada iniqad edən 4-cü Daşnaksütyun konqresi proqramına Rusiyaya mərbut qalmaq qeydilə, Mavərayi-Qafqas Federativ Cümhuriyyəti haqqında bir maddə idxal eləmişdi. Halbuki bütün Rusiya ixtilal firqələrinə xas olan ümumi tələblərdən maəda Litva firqələri 1905 sənəsində Litvaya məxsus davalarını dəxi təbəllür etdirmişlərdi. Litva sosial-demokrat firqəsi əvvəlcə Rusiya daxilində qalmayı atlatılmaz bir fəlakət kibi tələqqi etməklə iktifa etmişdisə də, şimdi Rusiya ilə münasibata aid xüsuslarda daha sərih bir ifadə qullanıyordu. İştə Litva sosial-demokrat bəyannaməsindən bir bənd:

**“Rusiya ilə** münasibətə gəldikdə kəndilərini bizzat idarə etmək məqsədində bulunan Litva, Lehistan, Finlandiya, Ukrayna və sairə kibi millətlər Rusiya ilə təsavi hüquqa malik birər siyasi üzviyyət kibi birləşə bilirlər. Şöylə bir ittihad icbari deyil, müttəhidlərin kəndi arzu və hürriyyətləri ilə hasil olmalıdır. Müttəhid bir kütlə təşkil edəcək millətlərin mütəqabil münasibətlərini bu məqsədlə iniqad edəcək müştərək bir ictima təyin edər. Bu ittihadda Litva ayrı bir dövlət mövqeində bulunub, təşəkkül əsasları dəxi Vilnada toplanacaq Litva əhalisi məbuslarından mütəşəkkil “Seym” məclisi tərəfindən təyin olunacaqdır”.

Muxtariyyət və istiqlal fikrinin Rusiyanın qərbindəki millətlərdə daha 1905 sənəsində nə surətlə təbəllür etdiyini göstərmək üçün Litva millətinin həyatında pək böyük əhəmiyyəti haiz olan 1905 sənəsi dekabr ayında münəqid qurultayın qətnaməsini unutmaq olmaz. Bu qurultay 2000-dən fəzlə

mürəxxəsdən ibarət olub kiçik millətin bütün sinifləri və siyasi cərəyanlarını təmamilə təmsil eləmiş, saçları milliyət və muxtariyyət mücadiləsi yolunda ağaran doktor Bazanoviçin təşəbbüsü ilə Vilnada toplanmışdı. Bu tarixi qətnaməyi bir az uzunca olsa da qismən aşağıya nəql ediyoruz:

"1- Rusiya və Litvada vəziyyəti-hazirə: şimdiki çar hökumətinin ən zalım düşmən olduğunu; bu hökumətə qarşı Rusiya dövlətindəki bütün millətlərin qiyam etdiyini və yalnız əski üsuli-idarə ilə mücadilə etmək surətilə vəziyyətimizi islah edə biləcəyimizi nəzərə alaraq konqreyə iştirak edən biz litvalılar tənəvvürə, ittihada və Rusiyada qiyam halında bulunan bütün millətlərlə bərabər mücadiləyə qərar veriyoruz.

2- Litva muxtariyyəti: Litva xalqı ehtiyaclarının ancaq həqiqi muxtariyyət təmini surətilə rəf ediləcəyi ilə, Litvada yaşayan digər millətlərin də rifah və səadətini düşünərək, qurultay mərkəzi Vilnada olmaq üzrə Litva muxtariyyətini tələbə və Litvada yaşayan milli əqəliyyətlərə dəxi harsi və dini hürriyyət təminini istəməyə qərar verər.

3- **Muxtariyyət** istehsalının vəsaiti: muxtariyyət ala bilmək üçün hər şeydən əvvəl zülm sistemini tamamilə devirmək lazımdır. Bunun üçün Litvanın siyasi firqələri ilə ayrı-ayrı şəxslərin qüvvətlərini bir araya toplamalıdır. Kəndi aramızda birləşdikdən sonra bizə bütün Rusiya millətləri ilə birləşmək gərək. Şimdilik isə vergi verməmək, şərab inhisarlarını qapamaq, rus məktəblərinə çocuqlarımızı göndərməmək, gərək məhkəmələrə və gərək sair hökumət müəssisələrinə müraciət etməmək, kəndi qardaşlarımızı rus ordusuna buraxmamaq, şəhərlərdə və köylərdə çalışan bütün ərbabi-məsaiyə qrev yapdırmaq lazımdır.

4- Litvanın bütün qəza və nahiyələrində təhrirat tamamilə ana lisanında olmalıdır. Şimdiki məktəblər "denasionalizasyon" və "demoralizasyon" aləti olduğundan tamamilə milliləşməli, müəllimlər yerli əhali tərəfindən intixab olunmalıdır. Və sairə ...."

Şurasını da qeyd etməlidir ki, 1905 sənəsinə aid olan bu konqre yalnız nəzəriyyatla qalmamış, əməli nəticələrə də müvəffəq olmuşdur. Şöylə ki, zamanın valii-ümumisi bulunan Freze təşrini-əvvəlin 6-da yerli məktəblərə Litva lisanının idxalı ilə nahiyə idarələri səlahiyyətinin genişlənməsi haqqında bir əmrnamə nəşr eləmişdir.

**1896-dan** 1905 sənəsinə qədər müxtəlif zamanlarda və fürsətlərdə milliyət, muxtariyyət və istiqlal üçün şu surətlə mücadilə edən və pək bəsit bir tədqiqlə, təsadüfi övraq miyanında, bu qədər parlaq vəsiqələr iraə edən bir millət təbiidir ki, 1917 və 1918 illərində "dövlətin inqirazı ilə" ələ keçən fürsəti "könülsüz və çarəsiz" bir tövrlə, istəmiyərək deyil, pək böyük bir şövq və həyəcan ilə qarşılar, "göydə aradığını yerdə bulan" bir adam kibi məsrur olur.

Əlimizdə mövcud məxəzdə Litva cümhuriyyətinin istiqlalını elan edən vəsiqə yoxdur. Fəqət bu yoxsa da Litvanın qomşularından Estoniya istiqlal bəyannaməsini tədqiq etmək imkanındayız.

19 mayıs 1919 sənəsində Estoniya Məclisi-Müəssisanı tərəfindən bilaittifaq qəbul olunan bu vəsiqə baxınız necə başlıyor:

"Ən qədim zamanlardan bəri estonlar Baltik dənizinin sahillərində yaşar bir millətdir. Onlar burada hürr və müstəqil bir millət olaraq yaşarlardı. 700 sənə müqəddəm onlar almanlara məğlub oldular. Fəqət təkrar hürriyyət qazanacaqları ümidini qaib etmədilər. Hərbi-Ümumi əsnasında millətlərin kən-

di müqəddəratlarını təyinə səlahiyyətdar olmaları haqqının mütəntən surətdə elanı estonlara bu zamanda əskidən bəri daşıdıqları ümidlərini qüvvədən felə gətirmək imkanını bəxş etməkdədir. Altı aydan bəri millətimiz kəndi istiqlalının müdafiəsi üçün sovet Rusiyasına qarşı hərb ediyor və cəmiyyəti-əqvamda kəndisinə yer istiyor. O, kəndisini Rusiya ilə bağlayan bütün bağları qəti surətdə qət edər. Rusiya ilə birlikdə eston xalqının qəlbində məzalimə aid bir çox acılar qalmışdır. Rus çarları yalnız torpağımızdakı alman əyanının imtiyazlarını və əhali üzərindəki təğəllüblərini gözətdilər, bizim həyatımızı tənzimə qətiyyən əhəmiyyət vermədilər. Onlar bizi kəndimizi idarə etməkdən mən etdilər; onlar məmləkətimizə rus məmurları göndərdilər; idarəyi, məktəbi və məhkəməyi ruslaşdırdılar.

**Rus ixtilalı** da bu vəziyyəti islah etmədi. Eston xalqının idarə və məktəbcə xilasına rus məmurları əngəl oldular. Rus bəhriyyə, əsgər və əmələlərindən mütəşəkkil olan sovetlər qüvveyi-cəbriyyə ilə Estoniya millət məclisini dağıtdılar və eston ordusunun təşkilinə mane oldular. Brest-Litovsk müahidəsi ilə onlar Litvayı Almaniyaya verdilər. Müttəfiq dövlətlərin zərbəsi altında Almaniya buradan çəkilincə, rus-sovet orduları təkrar burasını işğal etdilər. Eston millətinin başına olmazın bəlayı açdılar. Şimdidən sonra Estoniya Rusiya ilə heç bir əlaqədə olmaq istəməz və kəndisini ona bağlayan rabitələrdən birisini olsun mühafizə etmək niyyətini əbədiyyən daşımaz!"

İştə milliyyətpərvər ixtilal qələmi ilə yazılan bir bəyannamə ki, qafqasiyalı bəyannamələrdən çox fərqlidir, deyilmi?!

Bu fərqin əzəmətini görmək istərsək, Baltik sahili ilə Qafqasiya arasındakı bugünkü vəziyyətləri müqayisə etməliyiz:

– Onlar hürr və müstəqil, biz isə əsiriz!

## III

Milli istiqlal məfkurəsi milli mənliyini dərk eləmiş, kültürcə münkəşif millətlərdə doğar. Milliyət məsələsi burjua münasibatı münkəşif, demokrasi hərəkəti müəssis cəmiyyətlərdə ibtida tarix və harsa müstənid milli romantizm şəkli ilə zühur edər.

Daha 1905 sənəsində milli istiqlalı istehdaf edən, siyasi amilləri olduqca mütəbəllir və sərih olan Baltik sahili millətlərinin harsi-milli sahəsində mücadilə və milli intibah tarixlərini tədqiq edərsək, 1905-dəki siyasi fikri inkişafları ilə 1918-dəki siyasi müvəffəqiyyətlərinin həqiqi səbəbini öyrənmiş oluruz.

**Finlandiya** da daxil olduğu halda Latviya, Litva və Estoniyada siyasi məqsədlərin müsbət bir fikir və milli ideal halında təbəllüründən daha çox əvvəl milli hars və irfan yolunda keçən uzun və ənud mücadilənin tarixi ilə bu mübarizə nəticəsində əldə edilən müfəffəqiyyətlərin milli qiymət və əhəmiyyətini tədqiq etmək bilxassə əhəmiyyətlidir. Fin milliyətpərvərliyi fin lisanının, fin harsının ehyası, fin xəlqiyyatının əsrlər içində gömülü qalan sərvətlərinin kəşfi və bu xəlqiyyatın əsri bir metodla təzhibi sayəsində təqviyə bulmuşdur. O, yalnız dünkü unudulmuş fincəyi ədəbi bir lisan halına qoymaqla qalmamış, isveçlikdən ricət edən bugünkü fin cəmiyyətindəki "finnofil" cərəyanını da doğurmuş, yeni Finlandiyayı vücudə gətirmişdir.

Rusiya əsarətindən qurtulub da "Cəmiyyəti-Əqvam"a daxil olan Finlandiya Avropa dövlətləri ailəsinə siyasətən daxil olduqdan daha əvvəl xalq arasında söylənən "rono"lardan mürəkkəb "Kalavala" mənzuməsilə Avropa mədəniyyəti ailəsinə girmiş, bir millət olduğunu daha çox əvvəl isbat etmişdir.

Finlandiya nüfus etibarilə üç milyondur. Şimdi müstəqil bir dövlət halında yaşayan və Ural-Altay cinsindən olan bu

millət əvvəlcə İsveç dövlətinin bir cüzi idi. Məzhəbcə isveçlər kəndisinin mürşidi idilər. Finlandiya protestandır. Protestan finlər İsveç məmləkətində hər növ hüquqa malikdilər. Hətta kral intixabına da iştirak edərlərdi. Bunun üçün də kəndilərindən yüksək bir harsa malik olan İsveç mühiti içində təməssül etmiş, fin əyan və ürəfası tamamilə isveçləşmiş idi. Rusiyaya keçdikdən sonra finlərdə yeni bir cərəyan başladı. Bu cərəyanın rəislərindən Arvidson “biz isveçlikdən çıxdıq, rus da olmaq istəməyiz, o halda fin olacağız” diyordu. Bu hərəkətin əməli nəticəsi Helsinqfors darülfününuna fin lisanının kursisini əlavə etməkdən ibarət qaldı. Finçilik daha bugünkü şəklini almamışdı. Fin ürəfası hala İsveç lisanında tərbiyə alıyordu. Finlərin ən böyük və vətənpərvər şairi Runeberq[5] əsərlərini isveçcə yazıyordu.

**1831-də** fin ədəbiyyat cəmiyyəti təşəkkül etdi. Bu, fin tarixində pək böyük bir dövr təşkil eləmişdir. Bu cəmiyyət ilk təşəkkül etdiyi sənədə “Kalevala”nın[6] ilk təbini nəşr eləmişdir. Bundan sonra ədəbiyyat cəmiyyətinin fəaliyyəti ilə xalq arasında dildən-dilə söylənib duran əski xalq dastanından “rono”ların toplanmasına əhəmiyyət verildi. Tainki bu toplanan dastanları yekdigərini rəbt edən Lennort[7] 1849-da “Böyük Kalevala”yı nəşr elədi. Finlərin başını ucaldan bu “poem” 50 ronodan və 22.790 beytdən ibarətdir.

“Kalevala” ilə fin ədəbi lisanının əsası vəz edildi. Fin darülfünunundakı “Kalevala”ya aid dərsləri ilə Qastern fin gəncliyində fin xəlqiyyatı ilə fin lisanına qarşı böyük bir eşq və həyəcan doğurmaya müvəffəq oldu. Bu harsi cərəyan daha sonra fin milliyyətpərvərliyini təhrik elədi. Fin milliyyətpərvərlərindən Senelman “finlər geridir, çünki ictimai hərəkətlərində milliyyət

əsası məfquddur" düsturunu vəz elədi. Onun mücahidəsi ilə fin lisanı ibtidai məktəblərə girdirildi.

Finçilik cərəyanı bir çox müxalif və müvafiq səfhələrdən keçdikdən sonra hal-hazırda tamamilə qalib gəlmişdir. İsveçcə rəsmi sifətini ibqa etmişsə də, mövqeyini tamamilə fincəyə tərk eləmək üzrədir.

İstiqlal bəyannaməsini nümuneyi-imtisal olaraq zikr etdiyimiz Estoniya dəxi fin cinsindən kiçik bir cümhuriyyətdir. Bütün dünyada 2 milyon nüfusu haiz olan bu millət təşkil elədiyi cümhuriyyətində 1.500.000 nüfusa ancaq malikdir.

Bunun da intibahı Finlandiyada və əksər millətlərdə olduğu kibi lisan və hars məsələsi ilə başlamışdır. 18-ci əsrin sonlarında alman üləmasından bəziləri milli eston nəğmələrini toplamışlardı. Daha sonra estoniyalıların kəndilərindən yetişən mütəxəssislər bu işlə məşğul oldular. Yalnız Yakov Kurt təkbaşına 45.000 nəğmə, 10.000 lejan, 40.000 bilməcə, 60.000 də müxtəlif xalq ədəbiyyatı nümunələri toplamışdır. Bu kibi dastan, hekayə və lejandan istifadə edən doktor Fireysvald "Kalavipoter"[8] eposun yaratdı. Bu finlərin "Kalevala"sı kibi mühüm bir əsərdir.

**Daha sonra** papas Yansenin fəaliyyəti ilə Estoniya harsı və Estoniya milli hərəkəti epey qüvvət bulmuşdur. Çocuq ikən çobanlıq edən, sonra kəndi səyi və ehtimamı ilə kəsbi-elm edərək papaslığa qədər çıxan bu cürətli adam 1845 sənəsində dini nəğmələr cildini nəşr eləmişdir. Bu, yalnız dini təlqinat ilə qalmamış, 1848-də "Estoniya hekayələri"ni də nəşr eləmişdir.

1857-də isə Estoniyada qəzetələr zühur eləmiş və bu, Estoniya millətinin həyatında pək mühüm bir hadisə olmuşdur.

Yansenin təşəbbüsüylə təğənni cəmiyyəti təşəkkül etmiş və bu cəmiyyətin himmətilə 1869-da milli nəğmə bayramı təsis edilmişdir. Bu bayramda surəti-məxsusədə təğənni edilən "milli marş" ümumi bir bayram şəklini almışdır. İlk dəfə olaraq Yuryev şəhərində təğənni edilən bu "marş" müdhiş bir bayram şəklini almışdır. Bu milli bayramda 40 təğənni heyəti, 762 müğənni, 3 orkestra və 48 musiqar iştrak eləmişdir. Bu təğənni bayramları sonralar çox təkərrür eləmiş və daima tərəqqi edərək mühəyyirülqövl bir nümayiş şəklini almışdır. 1894-də 500 heyət, 1911-də isə 12.000 müğənni və musiqar bu bayramda iştirak eləmişdir. 1911 sənəsində rəsmən mən olunmasına rəğmən, milli marş təğənni edilmiş, hazır bulunan hökumət adamları yalnız ayağa qalxmamaq və şapkalarını çıxarmamaqla iktifa edə bilmişlərdi.

Bundan başqa Yansen Estoniya teatrosunun inkişafına aid xidmətləri ilə də milli intibahı çox qüvvətləndirmişdir.

**Müharibənin ərəfəsində** Estoniyadakı milli qəzetələrdən bir qismi 200.000 ədəd satışa malik idi. Ali məktəblərdə 1.500 tələbə oxuyordu ki, hər min vətəndaşa bir tələbə gəliyor, deməkdir. Bunlardan yüzdə 16-sı qadın idi. Finlandiyada olduğu kibi burada da yazı bilməyən yoxdur. Hər kəs oxur, yazar.

Daha 1905 sənəsində mütəbəllir istiqlal fikri daşıdığını zikr etdiyimiz Litvanın nüfusu 1.500 mini təcavüz etməz. Bunların intibahı da milli nəğmələrin toplanması ilə başlanmışdır. Bu nəğmə qismən alman üləması, qismən də litvalıların kəndi mütəxəssisləri tərəfindən nəşr olunmuşdur. Nəhayət, 1880-də Yuşkeviçin minlərcə nəğməni ehtiva edən "Nəğmələr məcmuəsi" nəşr edilmişdir.

Litva tarixi, xəlqiyyatı və ətiqiyyatını öyrənməklə müəssis milli romantizm məsləki Litva intibahi-millisinin məbdəini təş-

kil eləmiş, “Ozera” (Şəfəq) məcmuəsi bu xüsusda tarixi bir rol oynamışdır.

Nüfusu 2.500.000-a baliğ olan Latviyanın Hərbi-Ümumidən əvvəl iraə etdiyi mədəni sima şayani-təəmmüldür. 1903 sənəsində Latviyada 2.200 müxtəlif cəmiyyət vardı ki, bundan 670-i münhəsirən maarif işləri ilə məşğul idi. Demək ki, hər 1000 latışın bir cəmiyyəti vardı. Oxumaz, yazmaz bir latış bulunmazdı.

**Daha 1848-də** latış lisan və tarixini tədqiq edən gənclər ittifaqı vardı. 1868-də “Aclara yardım cəmiyyəti” təşəkkül etmişdir. Bu, Riqada ilk dəfə olaraq latışca 5 konfrans vermişdir. O sənələrdə təşəkkül edən “Latış cəmiyyəti” latış milli hərəkətinin mərkəzi olmuşdur. 1871-də ilk latış konqresi toplanmışdır. Buraya 514 delege iştirak eləmişdir. 1873-də ilk latış müğənniləri kongresi əqd edilmişdir. Estoniyada olduğu kibi, bu musiqi bayramı Latviyada dəxi milli bir nümayiş şəklini alaraq, sənədən-sənəyə təkərrür etmişdir.

Latviyada ali məktəb tələbəsinin ədədi 2000-ə baliğdir (Danimarkada 1500-dür). Müharibədən əvvəl latış dilində 50 ədəd qəzetə çıxıyordu. Bunlardan bəzisi 100.000 ədəd nəşr edilirdi. 1902 sənəsində Rusiyada 827 cild latış kitabı təb edilmiş və bu kitablar 2.700.000 miqdarında satılmışdır ki, hər yüz latışa 138 kitab gəliyor, deməkdir.

Baltik sahilindəki kiçik millətlərin keçirdikləri milli intibah dərəcəsi tarixlərinə ətf olunan səri bir nəzərlə görünür. Nitəkim şu pək qısa məlumatdan belə onların siyasi rüşd və müvəffəqiyyətlərinin əsl hikməti aşkardır: bir millət millət olaraq təəzzüv etmədikcə, milli hars və irfanını bularaq bu irfana mərbut münəvvər bir gənclik yetişdirmədikcə, mədə-

ni mənliyini yüksəldən və qüruri-millisini qabardan əsərlər yaratmadıqca, siyasi amal və məqsədlərini vüzuh və sərahətlə dərk edəməz. Bu idrakdakı nöqsanın nəticəsi isə ədəmi-müvəffəqiyyət və xüsrandır.

## IV

Qafqasiya ilə Baltik sahili müqayisə edilərkən aşkar oluyor ki, tarixdə təsadüfi bir vəqə yoxdur. Tarixi vəqələr pək mətin qanunların, ictimai qanunlara tabe vəqaye və hadisələrin təsiri altındadır: Rusiya imperializminin 1917 və 1918 sənələrindəki çöküşündə Baltik sahilindəki millətlər daha əvvəl təbəllür etmiş siyasi məqsəd və milli ideallarının təhəqqüqü üçün fürsəti qənimət bilərək can-la-başla mücadiləyə sarıldılar. Əllərinə keçən fürsəti qaçırmaq istəməyib "kəndilərini tərk edən Rusiyaya" ağlamaq deyil, kəndi istiqlal və hürriyyətlərini əldə silah, ölərək və gülərək müdafiə etdilər. Kiçik Estoniya Moskva qüvvətləri ilə mücadiləsinin yalnız bir toqquşmasında 15.000-dən çox tələfat verdi ki, bunlar miyanında 500-ü yalnız yüksək rütbəli zabitan idi.

**Bir fikir** şübhəsiz ki, bir millətin maddətən irdiyi şu və ya bu tərəqqi dövrünün məhsuludur. Fəqət bir kərə doğan fikir, qüvvət halını alaraq mühitindəki maddi şəraiti dəxi təbdilə vasitə olur. Daha 1905 sənəsində biz Baltik sahilindəki millətlərdə muxtariyyət və istiqlal məfkurəsinin doğduğunu görüyoruz. Bu səbəblədir ki, onlar 1918 fürsəti ələ keçincə bu fikrin maddətən dəxi təhəqqüq etdiyini görməklə məsud oldular, istiqlallarını aldılar və əlllərində saxladılar. Halbuki biz əlimizə keçən istiqlalı mühafizə edə bilmədik.

Bu bir təcrübə idi. Bu böyük təcrübədəki ədəmi-müvəffəqiyyətimizin afaqi və ənfəsi bir çox əsbabı vardır. Bu səbəb-

ləri birər-birər təsnif və onların təsir əlaqəsini yekan-yekan təhlil eləmək başlı-başına bir mövzudur. Bu mövzuya başqa bir vaxt təxsis etmək lazım. Şimdi isə biz burada bu çox müxtəlif olan səbəblərdən yalnız məfkurəvi olanını təhlil etdik. Müqayisə üsulu ilə faydalı gördüyümüz bu təhlildən çıxardığımız təcrübəni sezmək müşkül deyildir. Fikrən daha qazanılmamış, milli şüurda sabit bir yer tutmamış məfkurə maddətən də qazanılmadı. İlk təcrübə ədəmi-müvəffəqiyyətlə bitdi.

**Fəqət arkadaşlar**, gəliniz deyəlim ki, "ədəmi-müvəffəqiyyət" təbiri burada pək də yerində deyildir. Müvəffəqiyyət vardır: istiqlal məfkurəsi maddətən deyilsə də, fikrən qazanılmışdır. Baltik sahillərinin 1905-də keçirdikləri təcrübəyi daha ziyadə vəsaitlə biz 1918-1919 sənələrində keçirmiş olduq. Qafqasiya cümhuriyyətlərinin bugünkü vəziyyəti Finlandiyanın müharibədən əvvəlki vəziyyətindən fəna deyildir. Quru göstərişdən və qeyri-milli mənadan ibarət bir şəkildə olsa belə, mövcud bulunan cümhuriyyət ünvanları həddi-zatində bir "qazanc"dır. Şimdiki halda Azərbaycan məhdud, çox ağır qeyd və qüyud altında, bolşevik sistemilə olsa belə bir hökumət həyatı yaşıyor. Azərbaycan fikri mövcuddur. 3-cü internasional bu fikri hər nə qədər çabuq yaşanır, keçici bir "ruh xəstəliyi" kibi tələqqi etdirmək istiyorsa da həyat kəndi iqtizasını yürütüyor. İxtilal təsiri ilə şu və ya bu surətdə olsun, siyasi və ictimai həyata dəvət olunan xalq kütlələri, bilxassə köylü kütləsi istər-istəməz hərəkətə gəliyor, təşəkkül ediyor, milli mənliyini duyuyor. Mənfəət və ruhuna müğayir olan bir sistemi təmsil edən və əksəri rusiyalı yabançılardan ibarət olan şəhərli "əmələ diktatorlarına" qarşı duyduğu hiss və icra elədiyi mücadilə sayəsində yekvücud və fəal bir siyasi qüvvət halına gəliyor. Bu bir qazancdır. Fəqət

bizim burada qeyd etdiyimiz "qazanc", əlbəttə bu deyildir. Məsələmizin beynəlmiləl bir mahiyyət aldığı, fikrimizin üç boyalı müqəddəs bir rəmzə malik olduğu kibi qazanclar da deyildir. Azərbaycan həyatına görür bir gözlə baxılır, oradan gələn gurultular sezən bir qulaqla dinlənirsə, bolşevizm ifratı və qızıl rus məzalimi içində sovet idarəsinin qanlı qalpağı altında millətin mənliyini arayan, xalqın qürur və izzəti-nəfsini oxşayan harsi və mədəni bir hərəkatın, siyasi və milli bir cərəyanın gündən-günə kökləşdiyini görməmək qabil deyildir. Üsulunu başqa mütərəqqi millətlərin elmi və ədəbi hərəkatlarından, ənənəsini Mirzə Fətəlilər, Həsən bəylər, 1905 ixtilalı ilə müvəqqəti istiqlal dövrünün milliyətpərvər mühərrir və ədiblərindən, hərarətini əsrin ən qüvvətli və ən həyati məfkurəsini təşkil edən xalqçılıqdan, həyəcanını ən incə tellərə toxunan milliyyət hiss və duyğusundan alan bu cərəyan fədakar bir nəsil və məfkurəçi bir gənclik tərəfindən təmsil olunuyor. Şimdi xalqdakı türklük ruhunu yüksəldən, ona məfkurə hərarətini verən, hürr vətən meyvəsini yetişdirəcək istiqlalçılıq fidanını kəndi məsum qanı ilə suvaran fədakar bir zümrə vücudə gəlmiş və gəliyor. Yeni bir nəsil doğmuş, böyüyür. İştə bu, canfəda, əməlpərvər və istiqlalçı gənc nəslin yetişdiyi və böyüdüyüdür ki, biz ona pək böyük məna veriyor, əsl qazanc olaraq onu əhəmiyyətli buluyoruq.

1918 və 1919 sənələrini dərk edən nəsil və həyati-siyasiyyəsini istiqlal günlərinin təcrübəsi ilə başlayan sizlərsiniz ki, "Estoniya"vari bəyannamələr tərtib edəcək, həqiqi inqilab səhifələrini yazacaqsınız. Bu kibi bəyannamələr, kəndimizi təbşir edəlim ki, şimdidən yazılmaya başlamışdır. İştə sizə Bakıda müntəşir intibahnamədən bir neçə sətir:

“28 mayısda Azərbaycan türk xalqı istiqlalını elan etməklə kəndi doğma, sevimli və şəfqətli anasının qoynunda azad bir türk mədəniyyəti qurmaq, azad bir türk sənəti, türk ədəbiyyatı, türk həyatı yaratmaq istiyordu. Buna mümaniət göstərən Rusiyanın nov üsul çar hökumətidir. Azəri türkləri gözəlcəsinə biliyorlar ki, rus bayrağını qırmızı rəngə boyayan türk xalqının günahsız qanıdır...

Azərbaycan türk xalqının məsumanə axan qanından fırlayan milli intibah rus ağalığının son qəbir daşı olacaqdır.

Ey türk xalqı! Səni azad edəcək, xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvətinlə hazırlan! Səni bu mübarizə xilas edəcəkdir! Azərbaycan istiqlalını bir dəfə qurdun, bir daha qurmaq bacarığına da maliksən! Düşmənini tanı, milli intibahını yüksəlt, haqq səninlədir!”.

1923 sənəsində Bakıda istiqlal komitəsi heyəti-mərkəziyyəsi tərəfindən nəşr olunan bu bəyannaməyi 1905-də Baltik sahillərində müntəşir bəyannamələrdən aldığımız iqtibaslara bənzədiyormusunuz!.. İştə ikinci fürsəti qaçırmayacaq ixtilalçı nəslin ümidverici səsi:

– Düşmənini tanı, milli intibahını yüksəlt!

**Gənc arkadaşlar, bu səsə bilatərəddüd “tanıdım, yüksəltdim!” deyə cavab verə biləcək bir hala gəlmək məqsədi və proqramı ilə çalışalım!**

**Milli Azərbaycan nəşriyyatı: sayı 4.**

# RUSİYADA SİYASİ VƏZİYYƏT

**Bir müqəddimə. İqtisadi böhran. İctimai və siyasi müvazinə. Kommunist firqəsində ixtilaf. Milli mücadilə və iftiraq hərəkəti. Beynəlmiləl vəziyyət, rus əmələsi nə diyor? Kommunist bürokrasisi ilə firqəsi. Bolşeviklər nasıl süqut edə bilir? Möhtəməl hadisat qarşısında milli vəzifələr.**

**Mühərriri: Rəsulzadə Məhəmməd Əmin**

**İstanbul - «Amədi» mətbəəsi**

**1926**

## BİR MÜQƏDDİMƏ

Son zamanlarda Rusiya vəziyyəti təkrar diqqətləri cəlb etməyə başladı. Avropa və Amerika qəzetələrini həftələrlə işğal edən fövqəladə hadisə və vaqiələrdən bəhs edən qismində bu şayiələr olduqca mübaliğəlidir. Fəqət Rusiyanın bugünkü hakimi bulunan kommunist firqəsi daxilində cərəyan edən mücadilə və zümrə çəkişmələrinə aid həvadis, üzərində durmaya layiq dərəcədə ciddi və şayani-diqqətdir. Şöylə ki, aşağıda rəsmi vəsiqələr üzərinə təhlil edəcəyimiz bu mühüm hadisənin Sovet diktatorluğu tarixində çox mühüm bir dönüm nöqtəsi təşkil etdiyində Rusiya əhvalına vaqif müdəqqiqlər əksəriyyətlə müttəhiddirlər.

Kommunist firqəsini başlıca olaraq iki mütəxasim fraksiyona bölən və əski firqə əməkdarlarını yekdigərinə qarşı qoyan, bir tərəfdən gizli müxalifət tərtibatını, digər tərəfdən də şiddətli disiplin tətbiqatını icab etdirən bu hadisə Rusiyanın məruz qaldığı iqtisadi, siyasi və beynəlmiləl müşkilat və böhranlarla məşrutdur.

Əlimizdə mövcud məlumat və vəsaiq üzərinə təsəvvür edə bildiyimiz bu ağır vəziyyət içərisində məfkurəvi müstənədatından uzaqlaşan və həyata dəvət etdiyi müxalif ruhlara qarşı mübarizədə zəbun və aciz qalan bolşevik hakimiyyətinin artıq sonunu təşkil edən bir dövr ibtidasında olduğuna hökm edirsək, yanılmayız.

# İQTİSADİ BÖHRAN

Kommunist firqəsini müqəddər xatiməsinə yaklaşdıran bu təşəttüt və inhitat dövrünü haqqıyla təqdir edə bilmək üçün siyasi hər dürlü hadisələrin zühur və inkişafında pək müəssir bir rol oynayan ünsürlərdən bəzilərini gözdən keçirmək əlzəmdir. İşbu ünsürlər miyanından birincisi şübhəsiz, Rusiyanın bulunduğu iqtisadi vəziyyətdir.

"Əsgəri kommunizm" təxribatına nisbətlə bir qolaylıq dövrünü təşkil edən "Yeni iqtisadi siyasət" ümdələrini tətbiq etməklə kommunist idarəsi, kəndinə müxalif olan ictimai zümrələri qismən həyata dəvət etməklə bərabər, əqlincə bu müxalif zümrələri kəndi hakimiyyətində tutacaq hakim mövqeləri bizzat əlində bulundurmuşdu ki, bu da başlıca böyük sənaye ilə əcnəbi ticarətin dövlət inhisarında bulundurulmasından ibarət idi.

**Beş sənədən** bəri yapılan icraat bolşevik hökumətinin "yeni iqtisadi siyasət"dən bəklədiyi nəticəyi verməmişdir. Diktatorluq şu qədər qorxduğu iqtisadi böhran ilə mali iflasın önünə keçəməmiş, həyatını bir az daha uzatmaya müvəffəq olmaqla bərabər, Sovet hökuməti müzmin xəstəliyinin möhlik arizəsini təşkil edən iqtisadi böhranla təkrar qarşı-qarşıya gəlmişdir.

Şimdiki Rusiyada məmləkət sənayesi üç qismə bölünmüşdür: dövlət sənayesi, kooperativ sənayesi və xüsusi əllərdə bulunan sənaye. Dövlətin bizzat kəndi tərəfindən idarə olunan böyük sənaye istehsalatı ilə digər iki növ sənaye istehsalatı arasındakı münasibəti göstərən ərqam tədqiq oluna-

caq olursa, Sovet hökumətinin "hakimi-zirvə" deyə tələqqi etdiyi böyük sənayenin kəndinə pək də əmin bir istinadgah olmadığı görülür.

Sabiq maliyyə komissarı Sokolnikovun bir raporundan anlaşıldığına görə məcmui 6,7 milyar rublə təşkil edən sənaye məmulatından 1,3 milyarı, təqribən yüzdə 14-ü əvfəq sənaye hissəsinə aiddir. Bundan dövlət idarəsində olan əvfəq sənaye müəssisələrinin hissəsinə 132,9 milyon (yəni yüzdə 8), kooperativ idarəsində olan müəssisələrin hissəsinə 240 milyon (yəni yüzdə 3), xüsusi əllərdə olan müəssisələrin hissəsinə də 2635,9 milyon (yəni yüzdə 87) rublə isabət ediyormuş.

**Görülüyor** ki, əksəriyyətlə əhalinin möhtac olduğu zəruri məvaddı ehzar edən əvfəq sənaye məmulatı sahəsində hökumət xüsusi mütəşəbbüslərlə rəqabətdən acizdir və bu acizlik getdikcə artıyor. Çünki böyük sənayeyə aid əskidən mövcud malzəmə ya istemal və yaxud təxrib edilmiş, bundan sonrakı inkişafı üçün yeni makina və malzəməyə olan ehtiyacın təmininə lazım olan sərmayə də bolşevik xəzinəsində yoxdur. Hər hankı bir sənayenin ehya və inkişafı üçün zəruri bulunan mütərakim sərvətdən bolşevik hökuməti məhrumdur. Məzkur Sokolnikovun ifadəsinə görə köylərdə mövcud mütərakim sərvət 250 milyon altun rublə miqdarında ikən bu təraküm Sovet hökumətinin istifadə edə biləcəyi bir şəkildə deyildir. Köylülər paralarını əmniyyət sandıqlarına və banklara yatırmıyorlar. 1913-cü ildə əmniyyət sandıqlarında 500 milyon rubləlik köylü yatırı (tövdiatı) vardı. Halbuki şimdi Sovetlər İttihadındakı əmniyyət sandıqlarına verilən tövdiat 50 milyon rublədən fəzlə deyildir. Və bu miqdar daxilində köylü tövdiatı qətiyyən yoxdur.

Bu şərait daxilində iqtisadi sisteminin məbnasını təşkil edən böyük sənayenin ehya və inkişafı üçün lazım gələn sərmayəyi Sovet hökuməti əcnəbi məmləkətlərdə əqd edəcəyi istiqrazla bulacağı kredi təriqilə təmin edə bilirdi. Halbuki ümdələrindən fədakarlıq etmək surətilə olsa da o, bu parayı bu günə qədər bulamamış, bundan sonra da bulacağına ümid yoxdur.

Böyük sənaye yalnız sərmayəsizlik üzündən deyil, idarəsizlik üzündən də dərin bir böhran keçirməkdədir. Məmulat hökumətə çox bahalıya mal oluyor. Daxili bazarın ehtiyacını ödəyəcək miqdardan çox az və bahalı olduğundan bu məmulat bittəbi köy istehsalatının fiyatı üzərində də əks-təsir yapıyor. Məmaliki-əcnəbiyyəyə sövq üçün toplanılan ərzaq fiyatı cahan piyasasında rəqabət edəmiyəcək bir şəkildə yüksəliyor. Məmulat ilə məhsulat fiyatları arasında məkusən mütənasib bir müvazinəsizlik hüsul buluyor. Nəticədə "Pravda"[1] qəzetəsinin aşağıda təsvir etdiyi bir mənzərə qarşısında qalıyoruz:

"…bir buçuk sənədən bəri zaman-zaman şiddət peyda edən əmtəə qıtlığı, məmulat ilə məhsulat qiymətlərinin bariz bir surətdə yekdigərindən uzaqlaşması; əvfəq satış fiyatları ilə topdansatış fiyatlarının biri-digəri ilə mütənasib olmaması, ücrətin təzayüd meyli göstərdiyi halda, səyin getdikcə müsmir olmayışı, vəsait və sərmayə yox ikən idxal etmək ehtiyacının gündən-günə artması – iştə nəzər-diqqəti əhəmiyyətlə cəlb edən məsələlər silsiləsi!.."

Məmulat ilə məhsulatın əmtəə təşkil edən qismi arasındakı ədəmi-tənasüb "Pravda"ya görə, pul tədabülü üçün dəxi böyük bir təhlükə təşkil etməkdədir. Köylü məhsulunun satışından hasil etdiyi para müqabilində möhtac olduğu məmulatı bulama-

yınca, bazar para ilə doluyor və çervon rublənin alım qüvvəti üzərində şiddətli bir təzyiq icra ediyor”[1].

**Kəndilərini** bu müşkül vəziyyətdən qurtarmaq üçün bolşevik iqtisadçıları bir tərəfdən təsərrüf politikasına keçiyor, “fəzlə” məsrəfləri azaldıyor, əmələ miqdarını təhdid ediyor, irtişa və sui-istemallar ilə ciddi surətdə, kəndi təbirləri ilə “vəhşicəsinə” mübarizəyə girişiyorlar, digər tərəfdən də xaricdən əmtəə vürudinin idxalını mən və təhdid ediyorlar. Buna o dərəcəyə qədər lüzum hiss ediyorlar ki, siyasətən mümaşat etmək zərurətində bulunduqları Şərq məmləkətlərinə qarşı belə qatı tədbirlər almaqdan və İran ilə Türkiyə bazarlarını “vəhşicə” izrar etməkdən də çəkinmiyorlar. Şöylə ki, bolşevik təmayülatı ilə məruf bir Tehran qəzetəsi “kəndisinə Şərq millətlərinin hamisi və xilaskarı deyə süs verən” Sovet hökumətini, bu siyasətindən dolayı “İngilis dövlətindən daha bədtər bir müstəmləkəçi” şəklində görüyor və yenə bu üzdən Türkiyə-Sovetlər İttihadı dostluğuna çox qiymət verən “Cümhuriyyət” qəzetəsi[3] “Türkiyə tüccarına qarşı göstərilən iqtisadi sovet zülmündən” şiddətli bir lisanla bəhs etmək zərurətində qalıyor (“Cümhuriyyət”, №816).

Axırən “Sovetlər İttihadı Şurayi-Alisi”nin rəisi Derjinski[4] “Məsləklər Birliyi Konqresi”ndə “Sənai inşaat ilə iqti-

[1] 202 nömrəli “Ekonomiçeskaya jizn”[2] qəzetəsində mündəric ərqama nəzərən (V.Kruman imzalı məqalədə) 1926 sənəsindəki hökumət tərəfindən təyin olunan ərzaq fiyatı ilə sənai əmtəənin bazardakı fiyatları müqayisə edilirsə, ukraynalı bir köylünün 1 pud çovdar müqabilində - 23, 1 pud buğda müqabilində - 31, bir pud arpa müqabilində də 16 qəpik aldığı aşkar olur. Bu rəqəmlərin müxtəlif vilayətlərə görə alacağı şəkli isə bərvəchi-ati təsbit edə bilərik:

Şimali Qafqasiyada çovdarın pudu 31 qəpik, Volqaboyunda buğdanın pudu – 40, çovdarın pudu – 24 qəpik, Sibiryada çovdar 25, buğda 38 qəpik. Ələlümum söyləmək lazımdır ki, köylülərin hal-hazırda məhsullarına müqabil aldıqları fiyatın alım qüvvəti müharibədən əvvəlki qüvvətin üçdə birini təşkil edir.

sadi müşkilat" mövzusunda bir nitq irad eləmişdi. Moskvada müntəşir "Raboçaya qazeta"nın[5] rəvayətinə görə Derjinski bu nitqində sənayenin düçar olduğu maliyyəsizlik fəlakətindən bəhs eləmiş, hökumətin "müvəqqətən" bəzi fabrikaları qapamaq və bir çox əmələyi vəzifədən ixrac etmək zərurətində qaldığını söyləmişdir. Eyni nitqin "Pravda" qəzetəsində mündəric təfsilatından anlaşıldığına görə, sovet sənayesi "inkişafının ən yüksək imkanına gəlmiş olduğu halda" məmləkətdəki ehtiyacı tətmin edəmiyor, əmtəə böhranının önünə keçəmiyor. Çünki köylünün son sənələrdə artan alım qüvvətinə müqabil, əksərilə əskimiş makinalarla işləmək məcburiyyətində qalan sənaye, bilxassə geniş əhali ehtiyacını rəf edən xəfif sənaye fabrikaları arzu olunan miqdarda məmulat yetişdirəmiyorlar. Makinalar yalnız maddətən deyil, mənən də əskibişdir. Yəni yalnız malzəmə etibarilə deyil, sistem etibarı ilə də yaramaz bir hala gəlmişdir. Bütün bunları bərtərəf etmək üçün xaricdən ləvazim və yeni makinalar gətirtmək əlzəm ikən, hökumət inşaat proqramını qısaltmaq məcburiyyətində qalmışdır. Bu tənqihat sənaye məsarifində 450 milyon rubləyi bulmuşdur. Bu məbləğin nisfindən fəzləsi xammal fəslinə aid olduğundan, bilxassə qumaş fabrikaları ilə kağız və sairə emal edən müəssisələrin qapanması lazım gəlmiş, yəni xalqın fəaliyyətinə ən çox möhtac olduğu xəfif sənaye qismi tətilə uğramışdır.

**Müşkilat** yalnız sənaye sahəsinə münhəsir qalmamışdır. Derjinskinin bəyanatına nəzərən "Vneştorq" müəsssisəsi də vəzifəsini görəməmişdir. Hökumət bu xüsusda radikal tədbirlər ittixazı zərurətində qalmışdır. Bir kərə "Vneştorq" əcnəbi məmləkətlərdən satın aldığı malzəmə ilə əmtəə və sairədə aldanmışdır. Alınan şeylər cins etibarilə fəna çıxmış, fiyat etiba-

rilə də bahalıya gəlmişdir. Daxildəki əmtəə qıtlığı da çervon rublənin alım qiymətini xaricə nisbətən əksiltdiyindən ixracat zərərli, idxalat karlı bir hala gəlmiş, binaənileyh zatən mali müşkilat içində bulunan məmləkəti daha çox müşkilat və iflasdan qorumaq üçün Derjinski müvəqqətən idxalatın təhdidi cəhətinə gedilməsi zərurətini izah və ayat eləmişdir[2].

**Derjinski** salifüzzikr nitqində digər bir hadisəyi də izah eləmişdir: "məsai səmərəsi ilə haqqı səy arasında fahiş bir fərq var"mış. Əmələ ücrəti artırıldığı halda, əmələ səyinin səmərəsi azalırmış. Bir sənə əsnasında ücrət yüzdə 30 nisbətində artmış ikən səyin müsmiriyyəti ancaq yüzdə 23 nisbətində artmışdır. Derjinski əmələnin "boşuna vaxt keçirməsinə qarşı mücadilə" etmək lüzumunu iləri sürüyor, halbuki bu səmərəsizlik əmələdən çox makinaların "həm maddətən, həm də mənən əskiməsindən" iləri gəliyor.

Bu böhranın dövlət büdcəsi üzərindəki təsiri haqqında bir fikir edinmək üçün Sovetlər səfiri Rakovskinin[6] Parisdə istədikləri istiqrazı təmin edə bilmək qayğısilə həqiqəti gizlətməmək ehtiyacından doğan bir saiqlə söylədiyi nitqindən bir-iki cümləyi iqtibas edəlim: Rakovskinin bu nitqinə nəzərən, məmləkət fəci bir hali-pərişanidədir. Məsələn, Sibiryadakı (yalnız Sibiryadamı?) məktəb çocuqlarının üçdə ikisi məktəbsizdir. Sihhəti-ümumiyyəyə sərf olunan təxsisatın miqdarı isə

[2] Sovetlər İttihadı Ticarət Komissarlığının verdiyi məlumata nəzərən Avropa hüdudunda on ay əsasında məcmui 1.046 milyon rublə miqdarında bir mübadilə yapılmışdır ki, bundan 493 milyonu ixracat, 571 milyonu da idxalatdan ibarətdir. On ay əsnasındakı açıq 78 milyon rubləyi bulmaqdadır.

Asiya hüdudlarındakı mübadileyi-ticariyyənin miqdarı isə 9 ay əsnasında 116,7 milyon rubləyi bulmuş ki, bundan 53,6 milyonunun ixracata, 63,1 milyonunun da idxalata aid olduğunun nəzərə alırsaq, açığın 9,5 milyon rublədən ibarət olduğu görülür.

gülüncdür. Köy dispanserləri adambaşına sənəvi səkkiz qəpik əcza parası veriyorlarmış. Bu nitqin ən canlı yerini atidəki möcüz kəlmələr təşkil ediyor: "Xalqdakı sərvətin dəyəri 56 milyar rublədən 36 milyara enmişdir. Bu cümlədən, kənd iqtisadiyyatı yüzdə 68 nisbətində qaib eləmişdir. Müxtəlif komissarlıqlara istədikləri təxsisatdan maliyyə komissarlığı 1.100.000.000 rubləyi rədd etmək məcburiyyətində qalmışdır".

## İCTİMAİ VƏ SİYASİ MÜVAZİNƏT

Məlum olduğu üzrə kommunist diktatorluğu əmələnin köylü üzərinə hakimiyyət əsası ilə qaimdir. "Əsgəri kommunizm" dövründə bu hakimiyyət tam mənası ilə tətbiq olunuyordu. Kommunizm siyasətən hakim və daxili müharibələrdə müzəffəriyyət qazanınca köylünün iqtisadi müqavimətinə məruz qaldı. Köylü əkdiyini bilabədəl hökumətə vermək nizamına qarşı üsyan edincə Lenin "Yeni iqtisadi siyasət" politikasına keçməyi zəruri gördü. Çünki "bir sinfi aldatmaq mümkün deyildi". "Leninizm"in yeni təlimatına görə "yeni siyasətin" təməlini "köylü ilə əmələnin ittifaqı" təşkil ediyordu. Bu ittifaqın iqtisadi mənası isə köylü məhsulatına qarşı şəhər məmulatı yetişdirməkdən ibarətdir. Halbuki yuxarıda izah edildiyi vəchlə Sovet sənayesi inkişaf edən köylü iqtisadiyyatından doğan bu ehtiyacı ödəməkdən aciz idi. Hökumət çox mühüm bir dilemma qarşısında qalmışdı. Məmləkəti düşdüyü böhrandan qurtarmaq üçün ya köylü məhsulatını əsas qəbul edərək, böyük sənaye ilə əcnəbi ticarət inhisarından vaz keçəcək, yaxud sosialist iqtisadiy-

yatının bu mühüm əsaslarını mühafizə ilə bərabər sənayeni inkişaf etdirmək üçün köylü üzərinə yüklənəcək və möhtac olduğu bol sərvəti onu soymaqla təmin edəcəkdir.

Hərbi kommunizmin ləğvindən sonra keçən beş sənə əsnasında böyük ziqzaqlarla gah iləri, gah geri gedən kommunist siyasəti iştə bu iki qütb arasında sallanıb durmuşdur.

**Kommunizmin** mücərrəd məfhumlarına sədaqətdən ayrılamıyan romantik zümrələr "yeni iqtisadi siyasət" fəndləri ilə çox məşğul olmanı məfkurəçiliklərinə sığışdırmayaraq mərkəzdəki mötədil qüvvətlər üzərinə təzyiq icra eləmiş, zaman-zaman yeni burjuaziya ilə köylü iqtisadiyyatı üzərində hərbi kommunizm dövrünü andıran cəbr, şiddət və müsadirə tətbiqini təmin eləmişlərdir.

Digər tərəfdən, köylü dəryası içində kommunizm nizamı qurmanı zatən xam bir xəyal kibi təsəvvür edən zümrə bütün səyini – "yeni siyasət"i dərinləşdirməyə sərf eləmiş, nəticədə "köylüyə doğru" düsturunu "zəngin olunuz!" – şüarı ilə təkmil eləmişdir (Buxarinin məşhur "Sürüclisani").

Bu iki qütb arasında müvazinət təmin etmək manevrası ilə kommunist diktatorluğunu sövq edən "realist" zümrə isə gah sola, gah sağa yaltaqlıq etmək surətilə işləri idarə etmiş, hər necə olsa da bolşevik hakimiyyətinin bir az daha davamını təminə etibarsız olacaq tədbirlər qəbulunu başdansovdu etməmişdir.

Sənələr keçdikcə Rusiya ictimai bünövrəsinin əhəmiyyətli qismini təşkil edən  köylü ünsürü təsirini daha ziyadə göstərmiş, hökuməti kəndi mətləbləri qarşısında şu və ya bu şəkil ilə boyun əyməyə məcbur eləmiş, getdikcə aşkar söylədiyi fəaliyyəti ilə iqtisadi və siyasi bir çoxköməklikləri hasilə gətirə

bilmişdir. Əksəriyyətlə iqtisadi, qismən də siyasi (seçkilərdə bəzi güzəştlər) olan bu yardımlar sayəsində fəaliyyəti gözə çarpacaq qədər artan köylü, üzərindəki "əmələ hakimiyyəti" çəkə bilməyəcək hala gəlmiş, müxalif bir vəziyyətə keçdiyini ya seçki əsnasında göstərdiyi müstəqillik və ya da müxtəlif cəmiyyətlərdə irəli sürdüyü tələblərlə isbat eləmişdir. Keçən il əsnasında baş verən seçkilərdə köylülər kəndi namizədlərini keçirdikləri kibi, kommunist firqəsi listlərini də çox kərə rədd eləmiş, əskidən bəri məruf olan köy sovetləri sədrlərini bir çox yerdə qaralamışlardır.

Siyasi mahiyyətə malik olan bu hadisənin ifadə etdiyi məna aşkardır:

"Əsgəri kommunizm" zamanında da zümrə ixtilaflarına tamamilə biganə qalmayan kommunist firqəsində daxili hərb bitdikdən və yeni iqtisadi siyasətə keçdikdən sonra bu ixtilaflar bilxassə şiddət peyda etmişdir. Mənəvi nüfuzu ilə firqə daxilindəki vəhdəti azimi surətdə təmin edən Lenindən sonra sənədən-sənəyə şiddət kəsb edən firqə içərisindəki zümrə mücadilələri bu dəfə çox qəti və ciddi bir radəyə gəlmişdir. Şöylə ki, firqə makinasını əlində bulunduran zümrə tərəfindən Trotskidən sonra bu dəfə də başda Zinovyev olduğu halda Kamenev, Laşeviç və Ossovski kibi liderlərin məsul firqə və sovet mövqelərindən atılması ələladə hadisələrdənədd olunamaz. Bu xüsusdakı vəqələri rəsmi bolşevik mənbələrinə nəzərən təsbit edəlim. "Pravda" (25 temmuz 1926) qəzetəsinin təsvir etdiyi mənzərə şudur:

"14-cü konqrenin qəti surətdə mən etməsinə rəğmən, bolşevik firqəsindəki müxalifət, firqə vəhdəti əleyhindəki icraatından fariğ olmamış, leninizmin bolşevik firqəsi daxilin-

də fraksiyonlar təşkili haqqındakı nəshlərini nəzəri-etibarə almayan müxaliflər fəaliyyətlərini yalnız mərkəzə inhisar etdirməklə qalmamış, vilayətlərə qədər təşmil etmişlərdir. Kəndi fikirdaşlarını mütəəzzüv və hərəkətlərini mütəşəkkil bir hala qoymaq üçün bir mərkəz vücuda gətirmiş, vilayətlərlə təsisi-münasibat etmək niyyəti ilə mürəxxəslər təyin etmiş, şifrə, parola və sairə ehzar eləmişlərdir. İş o radəyə gəlmiş ki, müxaliflər Moskva qərbində olan bir ormanda böyük bir ictima toplamış, xəfi surətdə toplanan bu ictimada komitəçiliyin bütün təfərrüat və ənənatını tətbiq eləmişlərdir. Təbliği-rəsminin dediyi vəchlə, "kommunist firqəsinin həyatında ilk dəfə olaraq" Üçüncü İnternasional əzasından birisi (Belenkin) bu ictimada rəyasət eləmiş və yenə "ilk dəfə olaraq" şurayi-əsgəri ərkanından və mərkəzi-ümumi namizədlərindən bir zat (Laşeviç) burada məruzatda bulunmuşdur. Bu ictimada firqə mərkəzi-ümumiyyəsinə qarşı qəti bir hərəkət fikri ilə mütəşəkkil bir surətdə müxalifətə keçmək qərarı alınmışdır".

**Bütün bu müxalifətlərin** bizzat Zinovyev tərəfindən idarə edildiyi isbat olunmuşdur. Yapılan müxalifət icraatının izləri hər tərəfdən Zinovyevə gəliyormuş. O, yalnız daxili müxalifəti deyil, Üçüncü İnternasionala daxil əcnəbi kommunist firqələrindəki sol ünsürləri də firqədə hakim və mərkəz mövqeyində bulunan stalinçilərə qarşı sövq etməkdən bir an qəflət etmiyormuş.

Şu surətdə qəti və ciddi bir müxalifətə keçən zinovyevçilər keçən sənə əleyhində olduqları Trotski[7] və qrupu ilə dəxi tövhidi-hərəkət etməklə ittiham olunuyorlar. Stalinin 14-cü konqredə söylədiyinə nəzərən, vaxtilə Trotskinin edamını tələb edən

Zinovyev bu dəfə kəndisi ilə barışmış, onunla bərabər mərkəz heyətinə qarşı vəziyyət almışdır.

Şunu da söyləməliyiz ki, kommunist firqəsindəki müxalifət eyni cinsdən deyildir. Bunlar bir tərəfdən Zinovyev tərəfindən idarə olunan sollar, digər tərəfdən də Sokolnikov[8] və Medvedyev kibi sağlar arasında müxtəlif fərqlərlə ayrılan mütəaddid zümrələrdən ibarətdir.

Bu müxaliflərə görə şimdiki idarə Rusiyayı sosializmə deyil, kapitalizmə götürüyor. Fəqət bu nöqtədən sonra sağdakı münəqqidlərlə soldakı müxaliflər ayrılıyorlar. Sağdan "yapdığınız çox iyi, yalnız hərəkətinizdə məntiqli olunuz da, Lenin kibi Rusiyanın bütün dünyada təkbaşına bir kommunist cənnəti yaradamıyacağını ələnən etiraf ediniz" diyorlar və bundan pək qəti və müəyyən nəticələr çıxarıyorlar. Şöylə ki, müxaliflərin bu yoldan gedən qismi, başda Medvedyev ilə Şlyapnikov olduğu halda Sovetlərin tətbiq etdiyi dövlət sənayesi yerinə əcnəbi sərmayələrə imtiyaz ətasını, Üçüncü İnternasionalın ilğasını, Sovetlər daxilində digər sosialist və əmələ partilərinə siyasi fəaliyyət üçün sərbəstlik verilməsini irəli sürüyorlar. Medvedyev Bakıdakı tərəfdarlarına yazdığı bir məktubda bu əsasları çox sərih bir surətdə izah eləmişdir (bu məktub "Pravda"da tənqid edilmişdir). Bu məktuba nəzərən Üçüncü İnternasional "rus altunu ilə mühərrik bir takım ufak burjua yayğaraçılarından mütəşəkkil bir təəzzüvdür ki, kəndisinə dünya əmələsinin ən radikal bir mümessili tövrini verərək əmələ hərəkətini pozmaqla məşğuldur". Medvedyevlərcə Avropadakı əmələ vəhdətlərini pozmaq və Rusiyayı cahan əmələ hərəkəti ilə pozuşdurmaq ixtilalın da, Rusiyanın da əleyhində bir işdir. Bunlarca Makdonald cərəyanı ilə belə vuruşmaq deyil, anlaşmaq lazımdır.

Sağdakı münəqqidlər bugünkü firqə idarəsini "demokrasi"yə doğru seyr və hərəkətdə bətaət və tərəddüdlə ittiham etdikləri bir zamanda, başlarında Zinovyev ilə Üçüncü İnternasional "yayğaraçıları" olan zümrə mərkəzi-ümumiyi, Rusiyayı həqiqi "leninizm" əsaslarından uzaqlaşdırdığı üçün müvaxizə ediyor; Zinovyev "yapdığınız cinayətdir, geriyə dönməli, Leninə ricət etməlisiniz" diyor. Zinovyevçilərcə, bütün cahan burjua əsası üzərində baqi qaldıqca, Rusiya bir sosialist məmləkəti olaraq istiqbalından əmin ola bilməz. Bunun üçün Sovetlər İttihadının himməti cahan ixtilalına sərf olunmalı, köylü ilə kiçik burjua siniflərinə verilən müsaidələrdə ifrata varılmamalıdır.

**Bu kiçicik təhlildən** görünür ki, Kommunist firqəsi bir tərəfdən həqiqi rus mənafeyini güdən sağlar, digər tərəfdən də beynəlmiləl ixtilal ideallarından əl götürməyən sollar arasındakı mücadilələrə səhnə olmuşdur. Medvedyev ilə Zinovyev qütbləri arasında müxtəlif şəkil və xüsusiyyətlər daşıyan qruplar çoxdur. Bunlar arasında hakim bir vəziyyəti tutan qrup Stalin zümrəsidir. Bu zümrə həddi-zatində zinovyevçilər kibi məmləkətdəki sağlaşma təmayülatından doğan təhlükəyi inkar etməməklə bərabər, zinovyevçilərin çarə olaraq göstərdikləri yola girməyi daha ziyadə təhlükəli buluyorlar. Onlarca, təkrar təhəkküm və münhəsirən əmələyə istinadla köylü və kiçik burjua mənfəətlərinin iğmaz və ehmalına gedilərsə, Leninin ən böyük vəsiyyətlərindən olan əmələ-köylü ittifaqı pozulur, sovet sisteminin bel kəmiyi qırılırmış. Bu siyasət, onlarca yalnız rus köylüsündəki fəaliyyəti daha ziyadə təşdid etməklə qalmaz, eyni zamanda milli cümhuriyyətlərdəki "cədidçilik", "Alaş orduçuluq", "petluraçılıq" və "müsavatçılıq" kibi qeyri-rus mil-

liyyətçiliyini də təqviyə edərmiş[3]. Şunun üçün sovetlər seçkilərində fəaliyyət və həyatiyyətləri inkar ediləmiyən yeni ictimai ünsürlərlə mücadilə etmək üçün cəbhədən hücum siyasəti çox müzürr imiş.

Sağdakı münəqqidlərin də, soldakı müxaliflərin də kəndi qənaətlərini qüvvədən felə gətirmək üçün təmin etmək istədikləri səlah, firqə içərisində zümrə və fraksiyon hürriyyətini təmin etməkdir. Mərkəz mövqeyindəki hakim zümrənin ən ziyadə qorxduğu da budur. Zatən bu, "leninçiliyin" ən böyük əsaslarından birini, bəlkə də birincisini təşkil edir. Leninçə, firqə içərisində fikir zümrələri təşkil etmək caiz deyildir. Fraksiyon təşəkkülü məmnudur. Bolşevik firqəsindəki bütün müxalifətlər zatən bu prinsip ilə mücadilə etmiş, təşkilat makinasını əlində bulunduran enerjik liderlər bu əsasa istinadla müxalifəti əzmiş, döymüşlərdir. Böylə olmaqla bərabər, həyat kommunist firqəsini daima yeni bir müxalifətlə qarşı-qarşıya qoymuş, məfkurə ilə həyat arasındakı təzad çoxaldıqca zümrələr arasındakı ixtilaf da nizamnamə çərçivəsinə sığmayacaq qədər bir şişkinlik göstərmiş, nəhayət bu şişkinlik bir gün Trotskini, o biri gün də Zinovyevi rəyasət məqamından atmaq kibi qatı tədbirlərə təvəssül etmək surətində patlaq vermişdir. 14-cü firqə (*konqresi*) qərarına rəğmən xəfi fəaliyyətdə davam edərək, Zinovyevin tərdi ilə nəticələnən bu müxalifət artıq məşhur bolşevik vəhdətinin boş bir lafdan ibarət olduğunu meydana qoymuşdur.

[3] Türküstan, Qırğızıstan, Ukrayna və Azərbaycan milliyyətçiliyinə verilən isimlərdir.

# MİLLİ MÜBARİZƏ VƏ İFTİRAQ HƏRƏKATI

Əmələ ilə köylü ittifaqından bəhs edən Sovet hökuməti düçar olduğu müşkilatda ən çox bu ittifaq yoxsulluğundan mütəzərrir olduğu kibi, bu hökumətin millətlər arasında təsanüd vücuda gətirdiyindən bahis propaqandaları da göz boyaçılığından başqa bir şey deyildir.

**Daxili Rusiyada** firqə içərisindəki zümrə çəkişmələri köyün şəhərə qarşı aldığı vəziyyəti əks etdirdiyi halda, Mərkəzi Rusiya ilə hüduddakı vilayət və "cümhuriyyətlər" arasındakı münasibətdə də bu hal, nisbətən sənai bir şəkildə olan "Velikorusiya" ilə əksəriyyətlə köylü və ziraə halında olan qeyri-rus cümhuriyyətlər arasında milli rəqabəti dəvət ediyor. Çarlıq zamanında da Velikorusiya sənaye etibarilə müstəhsil, xammal etibarilə müstəhlik idi. Şimdi dəxi vəziyyət eynidir. Şu qədər fərqlə ki, çar Rusiyası vilayətlərin istehlak etdiyi məmulatı tamamilə emal edə bildiyi halda, şimdiki Rusiya bu ehtiyacı ödəməkdən çox uzaqdır. Moskva kəndisi bu ehtiyacı bizzat ödəmək iqtidarında olmamaqla bərabər, əcnəbi ticarət inhisarını əlində bulundurduğundan, bu ehtiyacın vilayət – cümhuriyyətlər üçün xaricdən təmini məsələsi də mövzui-bəhs olamaz. Nəticədə bir Qafqasiya, bir Ukrayna, bir Türküstan petrolunu, kömürünü, pambığını və sairəsini tamamilə Moskvaya verdiyi halda, möhtac olduğu makina, əqmişə, əlbisə və sairəni əldə edəmiyor. İşbu hal nəticəsində köylər şəhərlərə qarşı müxalifətə keçdikləri kibi, heyəti-ümumiyyəsi ilə sənaye Moskva mərkəzinə nisbətlə köylü vəziyyətində bulunan milli cümhu-

riyyətlərdə, Kommunist firqələrində belə, mərkəzdən qaçan milli təmayüllər qüvvətləniyor.

Sovet Rusiya mərkəzi ilə bu mərkəzə tabeiyyət bədbəxtliyinə düşən bir məmləkət arasında cərəyan edən münasibatın tarixi başlı-başına bir mövzudur. Bu mövzu cahan müstəmləkə siyasətinin müxtəlif zaman və məkanlarda ibraz etdiyi istismar şəkil və üsulları ilə şayani-diqqət müqayisələr üçün çox dəyərli materiallar verir. Fəqət məqsədimiz Rusiyada hala cərəyan edən vəqaye təsbit olduğundan, ruzmərrə hadisat miyanından bu mövzuya təəllüq edən ən mühümü üzərində duralım. Qızıl qalpaq altında müşahidə olunan milli hərəkatın ən şayani-diqqət hadisəsi şübhəsiz, Ukrayna iftiraqçılığıdır. Bu babda cahan mətbuatına əks edən şayiələri heç də mübaliğəli görməməlidir.

Siyasətən Velikorus istilasından qurtulamıyan Ukraynayı harsən olsun Moskva təsirindən qurtarmaq üçün Ukrayna vətənpərəst və milliyyətçilərindən bir çoxu idarələrə girmiş, fəal bir surətdə çalışmaya başlamış və az zamanda Ukrayna idarələrini milliləşdirmək xüsusunda pək böyük nəticələr əldə etmişlərdir. 1923 sənəsində dövlət makinası başdan-ayağa qədər, pək cüzi bir istisna ilə rusca olaraq çevriliyordu. 1925 sənəsində dövlət işləri yüzdə 20 nisbətində ukraynalaşmış idi. Şimdi isə yüzdə 65 nisbətində milliləşmişdir. Köylərdə isə milliləşmə tamamilə icra edilmişdir.

İki sənə əvvəl ukraynalı firqə katiblərinin ədədi yüzdə 25 nisbətində idi. Şimdi isə 40 ilə 49 nisbətindədir. Mərkəzi-ümumi siyasi qələminin 9 əzasından 7-si ukraynalıdır. Ukrayna İcra heyəti əzası miyanından 11-i ukraynalıdır. Əzanın məcmui 18-dir. 22 xalq komissarlarından 12-si ukraynalıdır. 40 icra komitəsi rəislərindən 25-i ukraynalıdır. Mərkəzi müəssisələrdə

yüzdə 55 ilə 66 nisbəti təşkil edən ukraynalıların tali təşkilatlardakı miqdarı yüzdə 65 nisbətini bulmaqdadır.

Dövlət idarəsində bu şəkildə olan milliləşmə digər xüsusatda da çox mühüm müvəffəqiyyətlərə nail olmuşdur. İlk məktəblər yüzdə 80 nisbətində milliləşmişdir. Mütəbaqi 20 nisbəti isə ukraynalı olmayan əqəliyyətlər təşkil ediyorlar. Tali məktəblər yüzdə 60 nisbətində milliləşmişdir. Xarkov darülfünunundakı Ukrayna tələbəsinin nisbəti 23-dən 46-yı bulmuşdur. İki sənə əvvəl Ukrayna lisanında çıxmış qəzetələrin miqdarı ümummətbuata nisbətlə yüzdə 37 ikən, şimdi yüzdə 61-i təşkil ediyor. Bir buçuk sənə əvvəlisinə qədər Ukrayna lisanında dərslik kitablar yox kibi idi. Şimdi bunların miqdarı yüz mini keçmişdir. Ukraynada təb olunan kitabların yüzdə 80-i ukraynacadır. Ukraynada ruslar bəzi yerlərdə kəndi övladlarını oxutduracaq rus məktəbi bulmuyorlarmış.

**14 avqust** tarixli nüsxəsində "İzvestiya" qəzetəsi[9] Ukrayna iftiraqçılığından aşkar surətdə bəhs etməkdədir. Qəzetə Ukrayna Sovet Cümhuriyyətinin paytaxtını təşkil edən Xarkovun çox zamandan bəri Moskva ilə iyi münasibatda olmadığını etiraf ediyor. Ukraynalılar kəndi məmləkətlərində rusca danışanlarla bir dürlü barışamıyorlar və ukraynaca bilməyən məmurları işdən qovuyorlar. "İzvestiya"nın yazdığına görə, bu işdən qovulanların əksəri Moskvadan göndərilmiş məmurlardan ibarətdir. Qəzetənin yazdığına görə, yaxında Moskvadan Xarkova Ukrayna iftiraqçılığına intəha qoymaq səlahiyyətilə mücəhhəz bir komissar göndəriləcəkmiş.

15 avqust tarixi ilə "Havas"[10] agentəliyinin nəşr elədiyi məlumata görə, Kommunist firqəsi daxilindəki mücadilələrin zühuru ilə Ukrayna Kommunist firqəsindəki iftiraqçılıq daha

ziyadə şiddət kəsb ediyor. Əzasının əksəriyyəti həsbilə Moskvaya mərbut bulunan Ukrayna Kommunist firqəsi heyəti-mərkəziyyəsi gündən-günə qüvvətlənən iftiraq cərəyanlarıyla mücadilə etməkdən aciz bir hala gəlmişdir. İftiraqçılar Ukraynanın istiqlalını, Moskvaya bilfel mərbut bulunmamayı və bunlardan ən müfritləri isə Sovetlər İttihadından çıxmayı tələb ediyorlar.

Səlahiyyətdar bolşevik ricalı bu hərəkətin əcnəbi dövlətlər tərəfindən tərvic edildiyi qənaətini izhar ilə şiddətli tədbirlərə təvəssül lüzumunu irəli sürüyorlar.

Ukraynadakı vəziyyəti hekayə edən bu hal az-çox qeyri-rus cümhuriyyətlərin haman kaffəsində görülməkdədir. Türk elləri ilə Qafqasiya cümhuriyyətlərində dəxi bu hərəkətin bariz misallarını bulmaq olur.

1923 sənəsindəki Azərbaycan şərab spirtosunu Rusiya buğda spirtosu ilə rəqabətdən mən etmək məqsədi ilə Qafqasiya daxilində qeyri-müsaid bir şərait altına vəz edən Moskva qərarnaməsini tənqid edən "Azərbaycan ticarət və sənaət müdiriyyəti" Mavərayi-Qafqas komissarlar şurasına göndərdiyi şikayətnaməsində "bu kibi siyasətlərin əmsalı ancaq kapitalist dövlətlərin yenicə istila etdikləri müstəmləkələrində arana bilər. Fəqət bu siyasət kapitalist məmləkətlərə yakışsa da, müttəfiq sosialist cümhuriyyət federasyonu arasında ruyi-qəbul görməməlidir…" diyordu.

Türküstanlı kommunistlərdən Rıskulovun "Müstəmləkəçi yoldaşlara" qarşı mücadiləsi mərufdur. Onun 1920-də Bakıda iniqad edən Şərq Millətləri Qurultayındakı tənqidləri bolşevik rəislərini az qızdırmamışdır.

1924 sənəsindəki Sultan Əliyev hadisəsi şimallı türk kommunustləri arasındakı pək mühüm bir iftiraqçılıq hərəkətini

isbat ediyordu. O zaman Türküstan basmaçılarıyla, Azərbaycan millətçiləri ilə, hətta Türkiyə və İran zümrələri ilə təmasa girən və bütün bu millətlərdəki siyasi qüvvətlərlə xəfi münasibat təsis edən Sultan Əliyev yalnız əski əməklərinə hörmətən edam edilmədi. Ancaq kəndisinin firqədən ixracı ilə iktifa edildi.

Gürcüstandakı "Mötəzilə"nin Moskva ilə mücadilələri də mərufdur. Çakayanın Moskvaya göndərdiyi protesto raporu vaxtilə ifşa edilmişdi. Azərbaycanda dəxi "Budaqovçuluq"[11] namı ilə məruf bir cərəyan zühur eləmişdi ki, buna intisab edən partizanlar kommunist olduqları halda, firqənin milli proqrama aid ümdə və müqərrəratının səmimiyyətlə tətbiqini istiyor və bu xüsusda israr ediyorlardı.

**Mərkəziyyətçi kommunistlər** kəndi aralarından zühur edən bu kibi "mötəzilə"yə qarşı amansız davranıyor, "milliyyət xəstəliyi"nə tutulan bu "arkadaşları" dərhal ya Moskvaya cəlb ediyor və yaxud Sibiryanın hicran bir guşəsinə göndərərək, onlara eskimoslar arasında propağan vəzifəsi tövdi ediyorlar.

Fəqət bütün bu tədbirlərə rəğmən milliyyət davası hər cür maniə və müşkilatı iqtiham edərək kəndisinə sadiq mücahidlər buluyor və çox böyük əməklər sərf etmək surətilə olsa da, tərəqqi və inkişaf edir.

Ümumi məktəblərlə dövlət idarələrinin milliləşməsi xüsusunda mütəmadi surətdə vüqu bulan mücadiləyi təsbit etməklə bərabər, milli ədəbiyyat və milli tarix əsərlərini nəşr xüsusunda göstərilən təşəbbüslərin çox məşkur bir səy olduğunu da burada qeyd edə biləriz. Bu təşəbbüslərin nə kibi bir hədəflə icra edildiyinə bir misal olmaq üzrə Azərbaycan ədəbiyyat cəmiyyətinin böyük şairimiz Füzulinin 400 sənəliyini təsid məqsədilə

nəşr elədiyi risaləyə yazdığı müqəddiməyi buraya nəql ediyoruz. Risalənin müqəddiməsində denilir ki:

"Azərbaycan ədəbiyyat cəmiyyətinin ən başlı işlərindən biri də türk ədəbiyyatının qiymətli abidələrini bulub yaşatmaq, onları meydana gətirən dahiləri unutqanlıq pərdələri içindən çıxararaq xalqa və bilxassə türklərdə hars və mədəniyyət olmadığı iddiasını gizli-gizli məqsədlərlə ortaya ataraq kəndi riyakar tarixlərinə şərəf qeyd etmək istəyən Qərb sənət simsarlarına göstərərək, bu kirli böhtanı üzərimizdən atmağa çalışmaqdır. Azərbaycan ədəbiyyat cəmiyyəti qiymətli şairi Füzulinin 400-cü ili şərəfinə tarixi bir gecə hazırlarkən, tarixi bir vəzifə də yapmış və eyni zamanda o geniş türk xalqları kütləsinə də tarixdəki qiymətləri, dühaları bulub çıxarmaq, hörmət və təqdir etmək xüsuslarında da ilk irşad borcunu əda etmiş oluyor".

Milli müxalifət cərəyanının qeyri-rus kommunist zümrələri arasındakı məfkurəvi qüvvətini təqdir edə bilmək üçün yenə Ukrayna həyatına övdət edəlim:

Salifüzzikr təfsilatdan göründüyü vəchlə, Ukrayna milliyyətpərvərliyi kommunist internasionalizminin hər şeyi yeksan edən mənfi təsirinə rəğmən, nasionalizm nöqteyi-nəzərindən çox mühüm nəticələrə varmışdır.

Ukraynadakı bu hərəkətin nə kibi bir ruhla mütəhəssis olub, hankı amillərlə mütəhərrik olduğunu öyrənmək üçün Sovet mətbuatında görünən bəzi nəşriyyatı gözdən keçirmək lazım. Bu nəşriyyat bizə "ukraynalaşdırma" siyasətinin "Sovetlər İttihadı" namı-müstəarını daşıyan "Böyük Rusiya" ideyası nöqteyi-nəzərindən nə kibi təhlükələri mütəzəmmin olduğunu göstərir. Bu tədqiqat eyni zamanda bizə Avropa qəzetələrinə

əks edən Ukrayna iftiraqçılığı haqqındakı şayiələrin də əsl və fəslsiz olmadığını isbat edir.

**Ukrayna Mərkəzi** İcra heyətinin üçüncü dövreyi-ictimaiyyəsindəki Kommunist fraksiyonuna qarşı vüqu bulan bəyanatında firqə katibi Kaqanoviç[12] Ukraynada milli şovinizmin hökmran olduğunu gizlətmiyordu. Kaqanoviçin etirafına görə, Ukraynada həm Ukrayna, həm yəhudi, həm də velikorus şovenliyi varmış. Bu şovenlik bilxassə ukraynalılar tərəfindən hərarətli bir surətdə davam etdirilməkdədir. Kommunizm məfkurəçiləri "siniflər xaricində və fövqündə milli mədəniyyət yoxdur və ola bilməz" deyə hər kəsi tənvir etməkdə ikən, milli Ukrayna məfkurəçiləri bunun ziddini tərvic edərək "milli hürriyyət və milli kültürün bu hürriyyəti istehsal yolundakı əhəmiyyəti məsələsini pərdə ittixaz edərək" Kaqanoviçin firqə konqresində söylədiyi kibi "kommunist mühitindəki daha zəif təbəqələrin əfkarını zəhərliyorlar". Digər firqə rəislərindən Kotnyuşinin söyləməsinə görə, Ukrayna firqəsinin içində öylələri varmış ki, "sənayeyi-nəfisə ilə ədəbiyyata təəllüq edən xüsusatı iqtisadiyyat, siyasiyyat və istehsal işlərinə aid xüsusatdan ayırmaq tərəfdarı" imişlər. Bu kommunistlər milləti həddi-zatində bütöv bir təsisat kibi qəbul edərək, milliyyət məsələsinə də mütəəlliq bir qiymət veriyorlarmış.

Görülüyor ki, milli şüur tətbiq olunan şiddətli kommunizm məngənəsinin əzici qısqaclarından sıyrılaraq bolşevik firqəsini sarsıyor. Salifüzzikr Kotnyuşinin rəvayətinə görə, əmələ sindikaları konqrelərindən birində kommunistlərdən birinin çıxıb da rəhbər olaraq çalışdığı vahid əmələ sindikasının milli cümhuriyyət sindikalarına ayrılmasının faydalı olacağından bəhs eləmişdir.

Ukrayna kommunist firqəsinin sonkı konqresində Xivyelov namında bir kommunistin Ukrayna ədəbiyyatı haqqındakı milliyyətpərvəranə nitqi qiylü qalı mucib olmuşdur. Ukrayna ədəbiyyat  və harsının kəndinə məxsus bir qiyməti haiz olduğundan bəhs edən bu natiq ukraynalılar üçün mədəni xüsusatda Avropaya baxmaq lazım gəldiyini söyləmişdir. “Avropaya təvəccöh” məsələsi Ukraynada ən çox münaqişəyi mucib olan bir məsələdir. Bura münəvvərləri arasında “iki mədəniyyət” haqqındakı münaqişə qədər fikirləri işğal edən ictimai başqa bir mövzu yoxdur. Bu iki mədəniyyətdən birisi rus, digəri də Avropa mədəniyyətidir. Bu mövzu üzərində cərəyan edən münaqişə əsnasında ukraynalı kommunistlərdən birisi “rus kültürü ilə Ukrayna kültürünün mücadilə halında olduqlarından” bəhs eləmişdir.

Məlum olduğu üzrə bolşeviklərdə bütün günahları “burjuazi”yə təhmil etmək etiyadı vardır. Ukraynadakı bu haləti-ruhiyyədən bəhs edən Sovet mühərrirləri işbu klassik metoda sadiq qalaraq yazıyorlar ki: “hüdud boyundakı burjuazi vəziyyətə görə istiqamət alır. O, ətrafın Sovetlər İttihadından çıxmasını tərvic ediyor. Burjualar bu iftiraq hərəkəti ilə ətrafdakı əmələyi Sovetlər mərkəzindən ayırmaqla zəif düşürmək və sonra istədikləri kibi istismar edərək, kapitalist Qərb dövlətlərinin ağuşuna atmaq istərlər. Həqiqi məqsədləri isə hürriyyət və istiqlal deyildir”. İştə Moskvanın mədəni təsirindən uzaqlaşmaq şüarı altında saxlanan əsl məqsəd, milli istiqlal məqsədi!

Ukrayna Kommunist Firqəsinin ən mühüm rəhbərlərindən olan Çubar[13] Xarkov firqə ictimaində Ukrayna köylülərinin haləti-ruhiyyə və siyasi təmayüllərini təhlil edərkən bu köylülərin “Moskvadan uzaq, Moskvaya heç bir şey verməyəlim.

Sosializmin təsisi üçün nə lazımsa həpsi bizdə vardır. Kafi dərəcədə kömür, dəmir və ərzaq bizdə varkən, nədən Moskva ilə uğraşalım. Nədən ruslara tabe olalım!" – deyə düşündüklərini təhlil eləmişdir. Bu ruh yalnız köylüləri deyil, firqə üzvlərindən bəzilərini dəxi cəlb ediyormuş. Belə ki, Çubardan öyrəndiyimizə baxılırsa, "şovinizm köydə artdığı kibi, şəhərdə də artıyor. Şəhərli Ukrayna münəvvəri qanadlanır və kəndinə mühüm mövqe tutmaq istiyor… Nəticədə şoven Ukrayna münəvvərlərinin tərvic elədiyi məfkurə Ukrayna gəncliyinə də təsir ediyor".

İştə Sovet mətbuatından müstəxrəc həqiqətlər və etiraflar ki, bizə son zamanlarda aktual (əməli) bir şəklə girdiyindən bəhs olunan və Ukrayna iftiraqçılığının xalq kütləsi içində dərin köklər buraxmış ciddi bir hərəkət olduğunu davaya imkan veriyor.

**Milliyyətçilik** yalnız Ukraynada deyil, Azərbaycanda dəxi vəziyyət almaqda olduğundan Sovet mətbuatı az şikayət etmiyor. Azərbaycan şeirinin hala milliyyət ruhuna tərcüman olduğundan, ədəbi məcmuələrin "əvfəq burjua təmayülatı"na qapıldığından "Qızıl Azərbaycan" münəqqidləri daima şikayət edib duruyorlar.

Rəsmi Sovet komissarlarının ruscayı Azərbaycanda tərvic üçün uydurduqları əsarət fəlsəfəsinə rəğmən Avropa mədəniyəti ilə bilavasitə təmas edən Azərbaycan gəncləri (kommunist olanları belə), ruscanın Azərbaycan üçün bir mədəniyyət naqili olduğunu qəbul etmiyor; Ukraynada olduğu kibi, "bizə rus mədəniyyəti deyil, Avropa mədəniyyəti lazımdır!" diyorlar və bunun üçün Moskvaya deyil, Avropaya tələbə göndərməyin əlzəm olduğunu iləri sürüyorlar.

Mahmud Qarayev bundan bir kaç ay əvvəl söylədiyi nitqlərindən birində "Açıq müsadimədə məğlub olan müsavatçılığın məktəb sıralarında pusu qurub bolşevizmi oradan devirmək fikrində olduğunu" zikr və Sovet hökumətini milliyyət ruhunu tərvic edən müəllimlərlə mücadiləyə dəvət ediyordu. Bakıda toplanan türkoloji konqresin "pantürkistlər tərəfindən istifadə olunmamasını təmin etmək üçün epey əmək sərf edilməsinə rəğmən, məzkur konqredə "nə yapsalar da bizi böyük türk hars və mədəniyyəti yaratmaq əzmindən döndərəməzlər" mənasında söylənən hərarətli nitqlər iradını qadağan edə bilməmişlərdi.

Əvvəl köylü fəaliyyəti şəklində sinif müxalifətinə məruz qalan kommunist hakimiyyəti, eyni zamanda milli iftiraqçılıq müxalifətinə də məruzdur. Çar Rusiyasının məhvinə səbəb olan iki mühüm amil Qızıl rus imperializminin də əsaslı zəifliyini təşkil edir.

## BEYNƏLMİLƏL VƏZİYYƏT

Lenin yeni iqtisadi siyasəti elan edərkən bunun kommunizm üçün müvəqqəti bir tənəffüsdən ibarət olduğunu elan eləmişdi. Halbuki kommunist firqəsinin 14-cü konqresi bu "tənəffüs"ün kapitalist dövlətlərlə Sovetlər Birliyinin dinc yanaşı yaşamalarını ifadə edən uzunca bir dövr"lə əvəz olunmasını qüvvətləndirmişdir[4].

Kommunistlər "İqtisadi Brest-Litovsk" dedikləri bu "tənəffüs"ün elanı ilə bütün ümidlərini Avropada zühur edəcək inqilabi hərəkatların qüvvətlənməsinə bağlamışdılar. Halbuki indi

---

[4] "14-cü konqre nələri həll etdi?" s.9, Moskva.

14-cü konqresin qərarı nəticəsində kommunistlər “kapitalist dövlətlərdə qismən olsun sabitləşmə hasil olunduğuna və Avropa burjuaziyasının siyasi cəhətdən qüvvətləndiyinə” qane olmaq məcburiyyətindədirlər[5].

**Əvvəlcə** sosialist Rusiya ilə kapitalist Avropanın bir arada yaşamayacağı qənaətində olan bolşeviklər indi “uzunca bir dinc münasibət” dövrünə girdiyindən sonra bu münasibətin pozulması ehtimalına qarşı çox həssaslıq göstərir və bunu heç də arzu etmiyorlər. “Avropa dövlətləri ilə təsis etdiyimiz bu münasibət beynəlmiləl əmniyyətimizi təmin edirmi?” sualına 14-cü konqre qərarlarını şərh edən Yaroslavski “bu münasibət çoxaldıqca, onun günün birində pozulması ehtimalı bizi daha çox qorxuda buraxır” – deyə cavab vermişdi. Eyni müəllif beynəlmiləl vəziyyətdə hərb ehtimalı olub-olmadığını təhlil edərkən sonra belə bir təhlükənin mövcud olduğunu irəli sürərək “sovetlər”in bu ehtimala qarşı hazır olmaları lüzumundan ciddiyyətlə bəhs eləmişdir.

Bu iqtibaslardan da göründüyü kibi, bolşevik hökuməti beynəlmiləl siyasətdə müdafiə vəziyyəti almışdır. Onun qonşuları ilə bağladığı bitərəflik və hücum etməmə anlaşmaları, qüvvətindən irəli gələn müsbət bir hadisə olmaqdan daha çox mənfi bir zəiflik əlamətidir. Bütün qeyrət və səylərinə baxmayaraq Moskva diplomatları “Avropa sabitliyini” pozmaq üçün Almaniyanın Millətlər Cəmiyyətinə girməsinə mane ola bilmədilər. Və bu gün, bu mühüm hadisə qarşısında “Avropa sabitliyinin hələ davam etməkdə olduğunu” etiraf etmək məcburiyyətindədirlər.

Beynəlmiləl münasibatdakı sabitlikdən kəndi hesabına çox böyük təhlükələr görən Sovet hökuməti bir tərəfdən Estoniya

---

[5] Eyni əsər, s.10.

və Bolqarıstan kibi sui-qəsdləri qüvvətləndirir, digər tərəfdən də Avropa əmələ sindikaları ilə anlaşmaya və vahid cəbhə təsisinə səy edirdi. Birinci növdən olan təcavüz təşəbbüsləri puç olmağa məhkum qaldığı kibi, ikinci növdən müdafiə manevrələr dəxi suya düşmüş oldu. İngiltərədəki ümumi qrevi könlü istədiyi kibi məcraya sövq etmək imkanından məhrum qaldıqdan sonra kömür əmələsinin müqavimətini təhkim üçün ingilis əmələ sindikaları ilə rus əmələ sindikaları mümessillərindən mürəkkəb olaraq vücudə gətirilən ingilis-rus komitəsi də inhilal etdi. Bu komitə müzakiratında ingilisdən daha ziyadə ingilis görünən rus mümessillərinin siyasi bir qəsdlə mütəhərrik olduqları ingilis mürəxxəslərinə tamamilə əyan oldu. Bunun nəticəsində İngiltərə hökuməti tred-yunlar konqresinə iştirak etmək məqsədilə İngiltərəyə gəlmək istəyən Rusiya əmələ sindikaları mümessili Tomskiyə müsaidə vermədi. Və bu mən İngiltərə əmələsi tərəfindən ciddi bir etirazı belə dəvət etmədi.

Bu etibarsızlıq yalnız Avropadakı əmələ təşkilatları və sindikaları ilə olan münasibatda deyil, Moskvanın ən əmin tərəfdarları olan Avropadakı kommunist firqələrində də görülüyor. Avropadakı kommunist firqələri birər-birər Moskvadan uzaqlaşmaya, hər tərəfdə çürüməyə və parçalanmaya başlamışlardır. Üçüncü İnternasional hal-hazırda Rusiya Kommunist firqəsində müşahidə olunan böhranın eynini yaşamaqda, müfritlərlə mötədillər arasında şiddətli mücadilə və müsadimələrə səhnə olmaqdadır. Sovet hökuməti artıq bütün cahan əmələsinin böyük bir şövqi-inqilabla özlədiyi və müxəyyiləsində idealizə etdiyi mövud bir məmləkət şəklindən çıxmışdır.

Fransa, Almaniya, Belçika və sair kommunist firqələri bir kaç qismə ayrılmış, Moskvanın təxsisatı azaldıqca onların da

hərarəti kəsilmiş, atəşləri sönmüşdür. Hələ bolşeviklərin pək çox güvəndikləri Almaniya Kommunist firqəsindəki inhilal keyfiyyəti həddi-qayəsini bulmuş, firqə sözün bütün mənasilə infisax eləmişdir.

Şayani-diqqətdir ki, hənuz müstəqərr bir halını bulmayan Avropa dövlətlərindəki ictimai və iqtisadi təzəbzüb üzündən çıxan müşkilat kommunistliyə mail sol firqələri təqviyə etməkdən ziyadə, İngiltərə ilə Fransada olduğu kibi, daha sağ qüvvələrin iş başına gəlmələrini mucib olmuşdur. Şöylə ki, Rusiyadakı kommunist təcrübəsindən doğan nəticələr Avropa müvazinəsini pozmaya mütəvəcceh bolşevik əməklərini əqamətə məhkum buraxmış, bu qeyrətin demokrasiyi izrar etməkdən və faşizmin əkməyinə yağ sürməkdən başqa bir faydası görülməmişdir.

**Avropadakı** demokrasi hərəkətini kəndi füzuli müdaxiləsi ilə az mütəzərrir etməyən Moskva müdaxiləçiləri Şərqdəki hürriyyət və istiqlal hərəkətlərinə dəxi yerli-yersiz müdaxilələri ilə az zərər verməmişlərdir. Məsələn, İrandakı yeni vəziyyətin cümhuriyyət şəklində deyil, yeni şahlıq şəklində təqərrür etməsinə bolşevik siyasətinin ayqırı cümhuriyyətçiliyi ilə şübhəli şahçılığının az təsiri olmamışdır.

Eyni metodla Sovet hökuməti Çindəki milli hərəkəti dəxi epey işkal eləmişdir. Hər nə qədər Kanton hökumətinin[14] sonkı müvəffəqiyyətləri ilə iftixar etsə də, bolşevik hökuməti Çan Zulin hökumətindən gördüyü həqarətlərə təhəmmül etmək məcburiyyətində qalmışdır. Şərqi Çin dəmiryolundakı icraatından dolayı Çan Zulinə ikinci protesto notasını göndərən Qızıl Moskvanın kəndi hüququnu silahla müdafiə edəcəyi təxmin ediləməz. O, ancaq başqalarını ixtilal və ixtilaflara təhrik edir,

fəqət kəndisi bizzat hərbə atılacaq dərəcədə qüvvətli və ehtiyatsız deyildir. Bolşeviklər buradakı intriqaları ilə dəxi təcavüzi olmaqdan ziyadə tədaföi bir plana mərbutdurlar. Qərbdə əmniyyət və bitərəflik misaqları əqd edən Sovetlərin Şərqdə fəal bir takım planlar tətbiqi ilə məşğul olduğunu təxmin edənlər varsa, aldanırlar.

Avropada nə bahasına olursa-olsun bir ixtilal çıxarmaq işində ədəmi-müvəffəqiyyətə, Şərq hərəkətini bolşevikləşdirmək xüsusunda nədamətə uğrayan kommunist hökuməti Avropa dövlətləri arasında çox ağır və bəti bir hərəkətlə olsa da, hüsul bulan istiqrar və təvazini mən edəməməklə bərabər, çox möhtac olduğu əcnəbi sərmayəsini də cəlb edəməmişdir. Makdonald hökumətini Sovetlərə yeni istiqraz təmini üçün razı edən Sovet diplomatları Balduvin[15] hökumətinin müqavimətindən sonra bütün ümidlərini Fransaya bağlamışlardı. Fəqət Krasini[16] istixlaf edən Rakovskinin bütün məharət və təlaqətinə rəğmən, Rusiya-Fransa müzakiratının haman kordüyümdə ilişib qaldığı məlumdur. Heryö Fransası ilə işi bitirəməyən Sovetlərin Puankaredən[17] üz görəcəkləri əlbəttə mövzui-bəhs olamaz. Kəndisi möhtaci-himmət Fransanın etibarsız Rusiya bolşeviklərinə para iqraz edəcəyinə kimsənin ağlı irəməz!

Beynəlmiləl münasibatdakı bütün bu mənfi nəticələrə rəğmən, işbu fəslin başında işarət etdiyimiz vəchlə, “Sovetlər İttihadı” kapitalist dövlətlərlə təsis etdiyi münasibatın pozulacağı ehtimalından çox qorxuyor; Sovet mətbuatı daima belə bir təhlükədən bəhs edib duruyor.

## RUS ƏMƏLƏSİ NƏ DİYOR?

Məlum olduğu üzrə, kommunist hakimiyyəti əmələ naminə təəssüs etmiş bir müəssisədir. İbtidada bu hakimiyyət əmələyi az-çox təmsil ediyordu. Bolşevizm rus əmələsinin qeyri-təbii vəziyyətindən mütəvəllid bir qüvvə kibi tələqqi ediliyordu. Fəqət bu gün kommunist hökuməti artıq bir əmələ hökuməti olmaqdan çıxmış, siniflər fövqündə bir klik hakimiyyəti şəklinə girmişdir. Bu klik Avropa əmələsi üzərindəki romantik təsirini qaib etmədən əvvəl, bittəbi rus əmələsi üzərindəki təsirini qaib eləmişdir. **Rus əmələsi** naminə kommunist hökumətinə qarşı təşəkkül edən müxalifət artıq firqə daxilində "əmələ qrupları" təşkil etmək şəklindən çıxaraq ələni müxalifət şəklini almışdır. Şimdi bu müxalifət olduqca müəyyən siyasi bir təəzzüv halına gəlmək üzrədir. "Əmələ müxalifəti"nin hal-hazırda əcnəbi məmləkətlərdə bürosu və propaqandaya müvəzzəf müməssilləri vardır. Bunlardan – Qızıl Ordudakı xədəmatı ilə məruf, pək çox məsul firqə vəzifələrində bulunmuş Badyan namını daşıyan əmələdən yetişmə bir kommunistin bamüsaidə Berlinə gələrək burada firqədən istefa etməsi və ələni surətdə müxalifətə keçməsi günün şayani-diqqət hadisələrindəndir. Bolşevik mətbuatı Badyanın kommunist firqəsinə mənsub zinüfuz bir əmələ olduğunu inkar edəməmişdir. Əmələ müxalifəti namına məmaliki-əcnəbiyyə mətbuatında intişar edən proqramın maddələri də əhəmiyyətdən ari deyildir. Rusiya əmələləri arasındakı haləti-ruhiyyəni az-çox formula etdiyindən bu proqram maddələrini bərvəchi-ati nəql ediyoruz:

1- Kommunist internasional cəmiyyəti ilə Beynəlmiləl Kommunist əmələ sindikaları ittihadının yenidən təşkili ilə bu müəssisələrə hökumət kassasından təxsisat verilməsinin məni.
2- Kommunist firqəsi dövlət makinası üzərindəki təsirindən vaz keçməlidir və hakim bir sinif təşkil etmək əzmindən daşınmalıdır. Çünki o, məmləkətdə əqəll qəlildir.
3- Əcnəbi ticarət inhisarının ilğası. Çünki bu sistem rus xalqının iqtisadi vəziyyətini yüzdə 99 vəximləşdirmişdir.
4- Sabiq xanədan əfradı ilə jandarma korpusu və böyük məmurlar xaricində bütün əhalinin iştirakı ilə müsavi və xəfi intixab üsulu üzrə arayi-ümumiyə müraciət.
5- Edam cəzasının ilğası. 1924 sənəsindən etibarən edam cəzasını tətbiqə nəzəri olaraq səlahiyyətdar olmayan zabiteyi-siyasiyyə idarəsi, əmələ müxalifət qrupunun hesabına görə 2000-dən ziyadə adam edam eləmişdir.
6- Başqa məmləkətlərdə başqa dövlətlərə qarşı üsyan çıxarmaqda olan kommunist firqələrinə yardımı hökumət qəti surətdə rədd etməlidir.
7- Bütün mövquflara əfvi-ümumi verməli və cinai işlər yenidən rəviyyət edilməlidir. Çünki Stalin diktatorluğunda bulunan hərcümərci içində görülən cinai mühakimatın belə yüzdə 99-u qərəz və təşviq əsəri olaraq görülməkdədir.
8- Firqə kooperativ və sair sənaye işlər, idarədən məni-nəfs edilməlidir.
9- Mənfada bulunanlarımız övdət və ali dövlət müəssisələri intixab və təşkil olununcaya qədər hökumət köylü və əmələ sovetləri əlində olub, kommunist firqəsi işlərə müdaxilə etməməlidir.

10- Hürriyyəti-mətbuat, hürriyyəti-kəlam və hürriyyəti-ədyan
11- Əmələlər ilə köylülər arasında müstəid və zəki adamların zühur elədiyini nəzərə alaraq, milli bir demokrat rejimin hini-təsisində bu qüvvətlərdən dəxi istifadə etmək təriqinin təmini.
12- Ərazinin bilabədəl köylü əlində qalması təmin olunmalıdır.
13- Dövlət kapitalizminin məmləkət üçün müzirr olduğunu əmələ müxalifəti təsbit edər. Bu sayədə əmələnin qazancı ayda mütəvəssit olaraq 36 rubləyə enmişdir.
14- **Diktatorluğu** nəzərə alaraq, bu şərait daxilində bir çox əmələ və köylünin kəndi arzusu və iradəsi xaricində kommunist firqəsinə intisab etdiyi mülahizəsilə Üçüncü İnternasional hakimiyyətini ilğa etməklə bərabər, kommunistləri ümumi surətdə təqib və təcziyə etmək niyyətindən daşınmaq. Çünki bu xüsusda göstəriləcək şiddət xalq kütlələrini Üçüncü İnternasional ilə istər-istəməz rəbt edə bilir.

## BÜROKRASİ İLƏ FİRQƏ

Bütün əsaslı nöqtələrindən sarsılan və hər cür müxalifət cərəyanlarına məruz qalan bolşevik hakimiyyətinin bu gedişlə varacağı nəticəni anlamaq müşkül deyildir. Yapılan işin nə sosializm, nə də demokratizm olmadığına yalnız müxalifət rəisləri deyil, kommunust firqəsinin əksəriyyəti-qatesi də inanmışdır. Hətta müxaliflərini imansızlıqda ittiham edən bugünkü qalib

ştalinçilər belə səmim qəlblərində bu hərəkatın mövud sosializmə doğru bir gediş olmadığına qanedirlər.

Köylünü idealizə edən sağlarla, köylü mənafeyinə göz qapayan solların ikisini də xətada görən Stalin 14-cü konqredə söylədiyi bir nitqində “bu inhiraflardan hankısı doğrudur? sualı vəz olunamaz” demiş. “İnhiraf həddi-batində qəbihdir. Yalnız şu qədər var ki, sağa doğru çəkən inhirafla firqə mücadilə etmək etiyadına haqqı ilə malikdir. Bu xüsusda təcrübəsi çoxdur. Halbuki sola doğru çəkən inhirafa qarşı mücadiləyə firqə qətiyyən hazırlanmamış. Bunun üçündür ki, doğru yoldan inhiraf edən cərəyanlardan firqə bilxassə sola gedən inhirafla daha fəzlə və daha ciddiyyətlə mücadilə etməlidir. Hücum atəşinin qüvvətlisi bu səmtə təvcih olunmalıdır” – deyə əlavə etmişdir.

Bu diplomatik fəqərədən aşkar görülüyor ki, Stalin zümrəsi köylüyə istinadla kommunist hökumətini iş başında tutmaq istiyor. Başqa bir təbirlə ifadə edəcək olursaq deməliyiz ki, sollar tərəfindən müdafiə olunan kommunist idealizmi ortadan qalxmış, məfkurənin qüdsiyyəti təlvis olunmuş, şimdi yapılan iş ancaq kommunist firqəsi tərəfindən vücudə gətirilən bürokrasinin həyatını bir az daha uzatmaqdan başqa bir şey deyildir. Sözün qısası, kommunist bürokrasisi ilə kommunist firqəsi hali-mücadilədədir. Kommunist firqəsi kəndisini təzyiq edən bürokrasiyə qarşı firqə daxilində olsun demokrasi davasına qalxışıyor. Zümrələrə, fraksiyonlara hürriyyət istiyor. Bunlardan bir qismi bu tələbi hətta digər sosialist firqələrinə həqqi-mövcudiyyət vermək tələbinə qədər vardırıyorlar.

Stalin bürokrasisi isə müxalifətin bu davasını leninizm əleyhində tələqqi edərək, firqə vəhdətinin əsl olduğunu, zümrə və fraksiyon təşəkküllərinə qətiyyən cəvaz veriləmiyəcəyini iləri sürüyor. Birisi xəfi təşkilata, digəri də dəmir disiplinə və "Çeka" tədibinə müraciət ediyor. Baxalım, hankı tərəf qalib gələcək? Fəqət hankısı qalib gəlsə də, nəticə bolşevik diktatorluğunun zavalıdır. Çünki şu surətlə kommunist firqəsi hikmət vücudini zail etmiş oluyor.

Bolşevik zavalını təsri edəcək ən böyük amil, şübhəsiz, firqədəki ixtilafın Qızıl Ordu sıralarına da keçməsidir. Ordunun bu mücadilə və keşməkeşlərdən nə dərəcəyə qədər aralı olduğunu kəsdirmək bittəbi asan deyildir. Fəqət 14-cü konqre münaqişələri əsnasında hərbiyyə komissarı Voroşilovun[18] müxaliflərə xitabən "Atəşlə oynamayınız!" deyə nəşr etdiyi bəyannamə ilə hər münaqişə çıxdıqca, Qızıl Ordu komandanlığında icra olunan bəcayişlərə baxılacaq olursa, kommunist hökumətinin bu yeganə istinadgahını təşkil edən qüvvətin də rahat buraxılmadığı aşkar olur.

**Bundan maəda, keçirdiyi mali müşkilat üzündən müvəzzəf ordunun miqdarını azaltmaq məcburiyyətində qalan Sovet hökuməti "territorial" milis təşkilatına müraciət ediyor ki, bu da günün birində əleyhinə dönəcək köylünü hökumət müraqibəsinə çox da tabe olmayan əsgəri bir təşəkkül halına gətirməkdən ibarətdir.**

# HADİSAT QARŞISINDA VƏZİFƏMİZ

Daxili, xarici, maddi və mənəvi – bu qədər müşkilat və böhranlar içərisində olan bolşevik hakimiyyəti, ehtimal daha bir kaç zaman mövqei-iqtidarda qalır və ehtimal ki, kəndindən xaricdəki dünyanın da mübtəla olduğu bir çox təzad və müşkilat sayəsində ətalət qanununa təbən böhranlarla dolu həyatını bir az daha təmdid edər; fəqət bu hal heç bir zaman bu qeyri-təbii hökumətin paydar olacağı demək deyildir.

**Bizcə**, həyatının çox böhranlı bir dövrünə girən Sovet hökumətinin artıq süqut edib-etməyəcəyindən deyil, necə süqut edəcəyindən bəhs edilməlidir. Mötədillərin qələbəsi ilə kommunist firqəsi sağlaşaraq rəsmi demokrasiyi təsis və təkamül edə bilirmi? Yoxsa həyatla barışmaz bir təzad halında olan bu müəssisə, əleyhinə dönən müxalif ünsürlərin təzyiqi nəticəsində partlayaraq yeni bir ixtilal zühuru ilə devrilirmi?

Şu ikinci şəklin daha çox möhtəməl olması bəzi rus vətənpərvərlərini bilxassə düşündürüyor. Qorxuyorlar ki, "müttəhid sovet hökuməti" süqut edərkən kommunistlər xaricində müntəzəm üçüncü bir rus qüvvəti olmadığından, məmləkət uzun müddət bir anarşiyə tutulsun və yaxud məruf Milyukovun[19] qorxduğu vəchlə anarşidən daha bədtər bir fəlakətə uğrasın: "Rusiya mütəəzzüv, fəqət müxtəlif birər müstəqil hökumətlərə bölünmüş olsun!"

Müxtəlif rus partiyaları mütəsəvvir süqutun nəticəsini Rusiya naminə təxfif üçün bir takım kombinezonlar düşünməkdədirlər. Sosialistlərdən bir qismi sosialist olmayan demokratlarla

anlaşmayı tövsiyə ediyor. Böylə olursa, qalxacaq bolşevik diktatorluğu yerinə qonacaq monarxist bir diktatorluğa mane oluruz – deyə düşünüyorlar. Daha sol sosialistlər isə biləks, möhtəməl diktatorluğa qarşı mötədil bolşeviklərlə bilaiştirak Sovet hökuməti ilə anlaşmayı tövsiyə ediyorlar. Rusiya monarxistləri isə bu kibi koalisyon kombinezonlarından ari olaraq kəndilərini bolşeviklərin varisi-həqiqiləri kibi görüyorlar.

Daxili Rusiyaya məxsus olan bu mülahizələrin hökmü rus olmayıb da qızıl süngünün gücilə "Sovetlər İttihadı"na bağlı olan qeyri-rus məmləkətlərə aid deyildir. Bolşeviklərin süqutu anında qızıl qalpaq altından sıyrılan Ukrayna, Qafqasiya və Türküstan kibi məmləkətlərdə zühuru təbii olan hadisənin milli istiqlal hadisəsi olacağında şübhə yoxdur.

**1917-18 sənələrində** çarlığın süqutu üzərinə Rusiya imperatorluğu necə parçalandı isə, qızıl imperializmin süqutu əsnasında da "Sovetlər İttihadı" denilən müəssisənin əqsami-mürəkkəbəsi üzərinə parçalanacağında heç şübhə edilməsin. Əlzəmdir ki, bu əqsamı təşkil edən məmləkət övladı hülul edən ani-tarixiyi haqqı ilə istifadə etməmək qəflətində bulunmasınlar. Bunun üçün də güzəran edən vəqaye diqqətlə təqib edilməli, alınacaq məfkurəvi vəziyyəti şimdidən təyin ilə hadisata müntəzir olmalıdır.

Risaləmizin qismi-məxsusində milli cümhuriyyətlərdə, yerli kommunistlər arasında belə ciddi bir iftiraq hərəkəti məhsus olduğunu zikr elədik. Rusiyada zühur edəcək hər hankı bir iğtişaş və süqut əsnasında bütün bu qüvvələrin milli istiqlal nöqteyi-nəzərindən qabili-istifadə olacağı da unudulmasın.

Qızıl Rusiya kabusu altında inləyən bütün millətlər dörd-gözlə bəklədikləri bu istixlas gününə hazırlanmaq vəzifəsi ilə mükəlləfdirlər. Bu vəzifə coğrafi, iqtisadi və siyasi vəziyyətləri həsbilə, bilxassə Qafqasiya millətlərinə tərəttüb edər. Keçirdikləri çox acı təcrübə nəticəsində ittihad lüzumuna bütün mövcudiyyətləri ilə qənaət gətirən bu millətlər Rusiya istilasına qarşı qoymaq üçün nə lazımsa yapmalıdırlar. Bunlar miyanında Azərbaycan Cümhuriyyətinə və Azəri türklərinə tərəttüb edən vəzifə də çox böyükdür.

Bu vəzifə hər şeydən əvvəl vətənini hürr və müstəqil görmək istəyən bütün azəriləri istiqlal bayrağı altında toplamaq, bu müqəddəs bayrağın təkrar vətənin müəzzəz üfiqlərində ehtizazını təmin üçün fədakaranə surətdə çalışan mübarizləri hər surətlə təqviyə etmək, böyük və şanlı cidala bütün səmimiyyət və mənəviyyatımızla bağlanmaqdan ibarətdir.

İstiqlal mücadiləsinin müxtəlif səhifələri və çox mütənəvve vasitələri vardır. Bunlardan biri də cahan əfkari-ümumiyyəsini bu müqəddəs mücadilənin keçirdiyi səhifələrlə bulunduğu vəziyyətlər haqqında tənvir etməkdən ibarətdir. Bu nöqteyi-nəzərdən biz azərbaycanlılara tərəttüb edən ən məsuliyyətli vəzifələrdən biri, başda Türkiyə olduğu halda bütün türk və islam dünyasını Rusiyanın bulunduğu bugünkü vəziyyəti ilə aşina etməkdir.

Siyasi nə kibi bir zərurət içərisində olsa da, Türkiyə Cümhuriyyətinin türk dünyası ilə bağlı olan həyat və məmat məsələlərinə qarşı laqeyd qalmayacağını təqdir edənlərdəniz. Hələ Qafqasiyada Qızıl Sovet qüvvəti yerinə qaim olacaq digər bir rus qüvvətininmi, yoxsa müstəqil Qafqasiya cümhuriy-

yətlərininmi qaim olacağı təsəvvürü Türkiyə Cümhuriyyətini şiddətlə əlaqədar edər, deyə düşünüyoruz. Çünki bu, doğrudan-doğruya Türkiyə mənafeyinə təəllüq edər bir məsələdir. Bu məsələdə alınacaq vəziyyəti təyin və ittixaz ediləcək tədabirdə isabət göstərilməsini təmin etmək məqsədilə Türkiyə əfkari-ümumiyyəsi üçün Rusiya vəziyyətindəki inkişaf mərhələlərini günü-gününə təqib eləmək ehtiyacı vardır – qənaətindəyiz. Şu müvəqqər səhifələrlə təsəvvür etdiyimiz bu ehtiyacı qismən olsun, tətmin etdiysək çox məmnun oluruz.

**İstanbul, 15 eylül 1926**

# MİLLİYYƏT VƏ BOLŞEVİZM

**Məqalələr toplusu**

**Cənab Məhəmməd Əmin Rəsulzadə tərəfindən tǝlif edilmişdir**

1. **Rəsulzadə Məhəmməd Əmin, Milliyyət məsələsində bolşeviklərin nəzəriyyə və əməliyyatları**
2. **Rəsulzadə Məhəmməd Əmin, Bolşeviklərin Şərq siyasəti**
3. **Məmmədzadə Mirzə Bala, Azərbaycan Sovet istilası altında**
4. **Aşenba, Bolşeviklər Şimali Qafqazda**
5. **David Şiraşidze, Gürcüstan və Sovet Rusiyası**
6. **Əbdülqadir, Türküstan bolşeviklərin istilası altında**
7. **V.Mirski, Ukraina**

**İstanbul**
**“Orxaniyə” mətbəəsi**
**1929**

Müəllifi **Məhəmməd Əmin Rəsulzadə**

# MİLLİYYƏT MƏSƏLƏSİNDƏ BOLŞEVİK NƏZƏRİYYƏ VƏ ƏMƏLİYYATIARI

## I

## BOLŞEVİK FİRQƏSİ – MATERİALİST VƏ KOSMOPOLİT

**Bolşeviklər, məlum olduğu üzrə, özlərini inqilabçı sosializmin ən sədaqətli təmsilçisi hesab edirlər**. Mülkiyyət, milliyyət və vətən kimi tarixi rabitə və müəssisələrlə hesablaşmaq surətilə mövcud hökumət sistemini islah etmək taktikini seçən mötədil sosialistlər onların fikrincə marksizmdən çıxmış mürtədlərdir. Bunun üçün də Lenin digər socialist firqələrlə qarışdırılmasın deyə, öz firqəsinin adını da dəyişdirdi: Sosial – Demokrat Bolşevik Firqəsi – yerinə Kommunist Bolşevik Firqəsi dedi. Eyni zamanda Sosialist İnternasionalına müqabil təşkil etdiyi internasionala da Kommunist İnternasionalı adını verdi. Bu surətlə Leninin xüsusilə əvvəlki marksizmə geri dönməsi dəxi ahəngini alır. Rusiya Kommunist Firqəsi Marks və Engels tərəfindən qələmə alınan "Kommunist manifesti"nə qayıdırdı.

Sosialistlərin, ümumiyyətlə inqilabçı sosialistlərin isə xüsusən mərkəziyyətçi bir fikir sisteminə malik olduqları məlumdur. İnqilabçı fəhlə firqəsinin məfkurəsini daşıyan kommunistlər üçün bundan daha təbii bir system təsəvvür oluna bilməzdi. Kommunist inqilabı kapitalizmin inkişafı

nəticəsində hasilə gələcək inhisarçı sənaye daxilində vücud qazanacaqdır. Fəhlənin qəti hakimiyyətini təmin üçün təbii ki, cahanşümul iqtisad və sənaye inkişafına əngəl olan bütün maneələr ortadan qalxacaq, milliyyət, din və vətən kimi xüsusiyyətlər fövqündə beynəlmiləl bir fəhlə hakimiyyəti qurulacaqdır.

**Əvət, Leninin istər Rusiya Kommunist Firqəsində, istərsə də Üçüncü İnternasionalda, irəlidə görəcəyimiz kimi, təsis və tətbiq etdiyi şiddətli mərkəziyyətçiliklə, dəmir dissiplinin fəlsəfəsi "Kommunist manifesti"ndəki "proletariya hakimiyyəti" tezisinə (davasına) istinad edər.** Rusiyadakı bütün Sosialist firqələri də daxil olduğu halda, dünya inqilabçı firqələri arasında bolşevik firqəsi qədər mərkəziyyətçi və hakimiyyətçi digər bir firqə yoxdur. O, yalnız social və radikal firqələrinə deyil, monarxist və mühafizəkar rus firqələrinə nisbətlə də bu üstünlüyünü mühafizə edər.

Hər sentralist və kosmopolit firqə kimi, Bolşevik firqəsi də milliyyət məsələsində mənfi bir nöqteyi – nəzər bəslər. Bax belə, Rusiya inqilabı nəticəsində məşhur olan yanlış bir şöhrətə baxmayaraq, Leninin milliyyət məsələsində bəyan etdiyi əvvəlki fikirləri davamızı qüvvətləndirdiyi kimi, Bolşevik firqəsinin milliyyət məsələsindəki bu günkü tədqiqatı da bunu isbat eyləməkdədir.

Dünya müharibəsindən sonra, xüsusilə tanınan məşhur Vilson prinsiplərində xüsusi mövqe tutan "Millətlərin öz müqəddəratlarını həllə səlahiyyətdar olduqları" şüarı bolşeviklər üçün heç bir zaman öz mahiyyətində müsbət bir qiymətə malik olmamışdır. Onların nəzərində bu şüar təqib etdikləri məqsəd uğrunda istifadə etdikləri silahlardan birisidir. Digər təbirlə, bu

məsələ onlar üçün heç bir zaman bir məqsəd deyil, sadə bir vasitə və alət rolunu oynamışdır. 1913-cü ilin sonlarında Lenin "Milli mədəniyyət şüarının burjualara məxsus bir şüar və əksəriyyətlə mürtəce və klerikallar tərəfindən istifadə olunan bir yalan olduğunu" söyləmişdir. Lenin o illərdə və ondan əvvəlki dövrdə kiçik kültürlərin böyük kültürlər tərəfindən təmsil edilməsi keyfiyyətinə çox böyük qiymət verir və bunu "kapitalizmi sosializmə təhvil edən əməllərin ən mühümü olaraq qiymətləndirirdi və bu nöqteyi – nəzərdən Rusiyadakı qeyri –rusların kültürcə ruslaşmalarında çox böyük bir tərəqqi əsəri görürdü. "Milli mədəniyyət"ə müqabil Lenin "Ümumdünya fəhlə hərəkatı və beynəlmiləl demokratiya mədəniyyəti"ni qoyurdu. Bu nöqteyi – nəzərlə də o, Rusiyanın milli – məhəlli muxtariyyatlar əsası üzərində qurulu qoşma cümhuriyyətlər (federasyon) şəklində təsisinin şiddətlə əleyhinə idi[1]. Məlumdur ki, Lenin hər zaman dövlət təşkilatında sentralizm əsasını rəvac etmiş və bu nöqteyi – nəzərində bolşevik inqilabının ərəfəsinə qədər israr etmişdir.

## II

## MİLLİYYƏT MƏSƏLƏSİ BOLŞEVİKLƏR ÜÇÜN QAYƏ DEYİL, ALƏTDİR

Hər nə surətlə olursa – olsun, hərbdə yediyi zərbənin təsiri ilə pərişan olan Rusiyada hakimiyyəti əlinə almaq əzmi ilə hərəkətə gələn bolşevik firqəsi çox realist olan rəisi Leninin çevik bir hərəkəti ilə çoxdan bəri təlim etdiyi prinsipləri, kənd-

[1] "S. V." nömrə 21-22

li məsələsində olduğu kimi, milliyyət məsələsində də dəyişdi. Rusiya millətləri ilə Şərq və islam dünyasına xitab edən bəyannamələrində Sovet hökuməti Rusiya imperatorluğu daxilində yaşayan millətlərin Rusiyadan ayrılmaq surətilə də olsa öz müqəddəratını mahiyyət etbarilə təyinə səlahiyyətdar olduqlarını elan edirdi.

**Millətlərin tabe olduqları bir dövlətdən ayrılmağa belə haqlı olduqlarını elan edərkən bolşeviklər şübhəsiz ki, səmimi deyildilər**. Onlar bu haqqı millətin təbiətindən nəşət edən bir qiymət kimi dəyərləndirməyir. Zamanın ən təsirli bir şüarı olan bu fikri öz məqsədlərinə xidmət etdirmək üçün hiyləgər bir manevra ilə istifadə edirlərdi. 1917-ci ildə bolşevik konqresi Lenin tərəfindən təklif olunan bu formulu "mərama müvafiq olursa" qeydi ilə qəbul etmişdi. Yəni demək istəmişdi ki, "Bəli, bir millət dövlətdən belə ayrılmaya haqlıdır. Yalnız bir şərtlə ki, bu ayrılma mərama müvafiq olsun". Mərama müvafiq olan ayrılmanın təqlidi isə bolşevik firqəsinə aiddir. Sonralar "bu  təqdir"in miqyası da təyin olundu. "Təyini – müqəddərat" haqqı bir millətin ümumi heyətinə deyil, ancaq o millətin "proletariat" sinfinə məxsus olundu. Fərz edək ki, Demokratik Gürcüstan Cümhuriyyəti ilə müqavilə bağladıqdan və istiqlalını rəsmi surətdə təsdiq etdikdən sonra ordu sövq edərək bu məmləkəti istila çəkməsi altında əzməkdən çəkinilmədi. Eləcə də Azərbaycan Cümhuriyyəti də o surətlə işğal edilmişdir. Bu işğal və istilasını Sovet hökuməti süni surətdə uydurduğu Gürcüstan və Azərbaycan "fəhlə üsyanları" ilə pərdələyir. Gürcüstan və ya Azərbaycan fəhlələri guya "Sovet Rusiyası ilə ilhaq qərarını verdiklərindən" təbii ki, Moskva bolşevikləri elan etdik-

ləri "milliyyət" prinsipini pozmadan bu məmləkətlərə gəlmişlərdir. Çünki, millət müqəddəratını təyinə səlahiyyətdar olan zümrə onlarca ancaq fəhlədir. Mövzu predmeti "fəhlə üsyanı"nın uydurma olub, ələladə "bir hərbi hiylə"dən başqa bir şey olmadığının üstündən keçərək, bu məmləkətlərdə nə fəhlənin əhalinin ancaq yüzdə ikisini təşkil etdiyi, nə də yerli ünsürdən olmayıb, əksəriyyətlə Rusiyadan gəlmə yabançı bir ünsür olduğu da onlarca etinaya layiq deyildir. Çünki "fəhlə internasionaldır". Bu surətlə görünür ki, Lenin bir əli ilə bol kisədən millətlərə hüquq payladığı halda, digər əli ilə də payladığı bu "payı" lap quldurcasına çalır. Mərkəziyyətçi proqramından yapdığı fədakarlığı elastik taktiki ilə əvəz edir. 1917-ci ildə istiqlal elan edən Finlandiyanın sərhəd haqqındakı tələblərini qəbul edən Lenin bu sərhəddin qəbul edilə bilmədiyini söyləyənlərə qarşı "sərhəd haqqında alverin ancaq zavallı burjualara xas bir adət" olduğunu qeyd və "Finlandiyanın təkrar alınacağı ərəfəsində olduqlarını" söyləməklə arxadaşlarını təskin edirdi. Eyni zamanda Finlandiya paytaxtı Helsinkforsda oturan bolşevik səfiri beynəlmiləl nəzakət üsuluna riayət etmədən "Yalnız burjua hakimiyyətini ləğv edən millətdir ki, öz müqəddəratını hürriyyət və istiqlal ilə təyin edə bilər" – deyirdi. 1918-ci ilin əvvəllərində Finlandiyada kommunist inqilabı zühur eylədi. Bolşeviklər səbrsizliklə Qızıl Ordunu Finlandiyaya göndərdilər. Fin Cümhuriyyət rəisi Sioynixidvudun protestosu və Fin daxili işlərinə müdaxilə etməmək tələbinə cavab olaraq sovet komissarı Pakrovski[1] deyirdi ki: "Finlandiya socialist inqilabı başlamışdır. Rus hökuməti təqib etdiyi prinsiplər naminə bu inqilaba yardım etmək məcburiyyətindədir.

Qızıl Ordu bunun üçün Finlandiya torpağına keçmiş, bundan sonra da lazım olduqda keçəcəkdir".

**Səkkizinci kommunist qurultayında indiki Stalin pozisionunun məfkurəçisi olan Buxarin və onunla bərabər Tomski[2] "Millətlərin öz müqəddəratlarını həllə səlahiyyətdar olub, istərlərsə tabe olduqları dövlətdən ayrıla da bilərlər" mənasını daşıyan maddənin firqə proqramından çıxarılmasını tələb eyləmişdilər**. Çünki, demişlərdi bu taktikanı işlətməklə əlaqəli şüarın bundan sonra firqə proqramında olmasının faydası yoxdur. Bu maddə ilə artıq təşəkkül etmiş olan Sovet hökumətinin tamlığı hədələnir. Fəqət Lenin "Rusiya Sosialist Federalist Sovetlər Cümhuriyyəti" üçün müsbət qiymətini itirən bir maddənin xarici siyasi nöqteyi – nəzərindən hələ mühüm bir qiymətə malik olduğu mülahizəsilə maddənin əbədiləşdirilməsini müdafiə eyləmiş, Sovetlərdən ayrılmanın "fəhlə nöqteyi – nəzərindən mərama müvafiq olmadığını" etiraf etməklə bərabər, bu şüarın düşmən burjua dövlətlərini parçalatmaq məqsədi nöqteyi – nəzərindən müsbət bir rol oynayacağını isbat etmişdir. Milliyyət və şüar məsələsi bolşeviklər üçün ikinci dərəcəli bir məsələdir. Bunun "fəhlə məsələsi" dedikləri baş hakimiyyətin təmininə yarar tabe bir məsələ olduğu, bolşeviklərdə milliyyət məsələsinin nəzəriyyəçisi və mütəxəssisi kimi tanınan Stalin tərəfindən dəfələrlə izah olunmuşdur. O, 12-ci qurultaya oxunan bəyannamədə "Ayrılmaq haqqının Sovetlərə qarşı tətbiqi irtica, imperialistlərə qarşı tətbiqi isə inqilabdır" demişdir.

## III

## "SOVET FEDERALİZMİ" VƏ "AYRILMAQ HAQQI"

Daxili siyasətdə mənfi görülən "təyini – müqəddərat" prinsipi ilə bu prinsipdən çıxan "Ayrılmaq haqqı"nın xarici siyasətdə müsbət bir qiymətə malik olduğu fikri bolşevizm siyasətinin milliyyət məsələsində fəaliyyət proqramı qəbul etdiyi çox mühüm bir "tezis"dir. Bu tezisə görə Sovet Federalizmi müvəqqəti bir tədbirdir. Kommunist firqəsi proqramının 3-cü maddəsində "…federalizm tam vəhdətdə götürülürsə, keçid dövrünə məxsus müvəqqəti bir şəkildir; firqə sovet tipində təşəkkül edən bütün dövlətlərin federativ surətdə birləşmələrini tələb edir" – deyə qeyd olunmuşdur. Üçüncü İnternasionalın 2-ci qurultayında isə bu fikir daha aydın bir surətdə redaktə olunmuş "Federasion tam birliyə keçmək üçün zəruri bir keçid tədbiri olduğunu təqdir edərək, birliyin daha çox sıxlaşdırılması və daha ziyadə birləşdirilməsini təqib etməlidir" deyilmişdir. Milliyyət məsələsi ilə məşğul olan sovet məmurlarından Broydaya görə Sovetlər İttifaqına daxil milli cümhuriyyətlərin xüsusiyyətlərini hədələyən yeni tədbirlər "irəliyə doğru atılmış birər addımdır"[2]. Eyni mühərrir iqtibas etdiyi məqaləsinin digər bir yerində 8-ci firqə qurultayında "Milliiyyət məsələsi ilə oynadığımız yetər!" – deyən natiqlərlə münaqişə edərək deyir: "Bu bir oyuncaq deyil, əksinə burjuaziya dövrünün bizə buraxdığı ən müdhiş mirasın təsirini dəf etmək yolunda icra etdiyimiz çox

[2] "Həyati – miləl" (Жизнь национальностей), 1923, s. 4.

məsuliyyətli bir işdir". **Bundan başqa Broyda federalizmin digər nöqteyi – nəzərdən də sovetlərə lazım olduğunu isbat edir.** "Sovetlər İttifaqı elə bir şəklə malik olmalıdır ki, bu şəkil ona irəlidə təsis edəcək yeni bir çox Sovet dövlət təşəkküllərini də öz içərisinə almaq imkanını" versin – deyir. Və bu söz ilə o, federalizmin bolşeviklər üçün proqrama deyil, taktikə, əsasa deyil, budağa aid bir məsələ olduğunu bir daha isbat etdiyi kimi, bu federalizmin eyni zamanda imperialistcə bir hazırlıq olduğunu da faş etmiş olur. Təfsirə nə hacət? Broyda məqaləsinin sonunda əslində "Yalnız Rusiya Sovet Cümhuriyyətlərinin deyil, beynəlmiləl Sovet Cümhuriyyətlərinin ittifaqı əsasını hazırlamaq lazımdır" fikrini açıq surətdə söyləyir.

**Sovet federalizminin nə mahiyyətdə olduğunu gördük**. İndi də "ayrılmaq haqqı"nı tədqiq edək: 1923-cü ilin 6 iyun tarixində qəbul olunan "Sovetlər İttifaqı" təşkilat əsası qanununun 4-cü maddəsinə görə, "İttifaqı təşkil edən üzvlərdən hankısı istərsə, ittifaqı tərk etmək haqqına malikdir". Göründüyü kimi, "İttifaq"a girən üzvün "istiqlal haqqı" mühafizə edilmişdir. Yalnız bolşevik professor Makerovskinin dediyi kimi bu, ancaq "xəyali bir istiqlal"dan ibarət olub heç bir dəyərə malik deyildir. Kommunist hüquqçularından Dranitsin adlı digər birisi isə "Bu hüququn deklarativ (bəyani) mahiyyətdə olub, qanuni heç bir əhəmiyyətə malik olmadığını" açıqcasına söylər və "inqilabçı kommunizm nöqteyi – nəzərindən ittifaqdan çıxmanın milliyyətçilik və inqilab əleyhdarlığından doğulma bir hərəkət olduğunu" iddia edir. Bu mühakimədən çıxan məntiqi nəticə "Marksizm və inqilabçı sosializm" adı ilə Sovetlər ittifaqında görülən hər növ ayrılmaq hərəkatını təbii ki, şiddətlə təqib etmək və amansızca basdırmaqdır. Daha çox "Sovet

məmləkətlərini" daxilinə ala bilmək qayəsi ilə təşəkkül edən və bünövrəsinin təsisində bu istiqamətdəki inkişafına xüsusilə əhəmiyyət verilən bir "ittifaq"dan asanlıqla çıxa bilmək imkanını hankı məntiq qəbul edər!..

## IV

## "SOVETLƏR İTTİFAQI" TƏŞKİLATİ – ƏSASİYYƏSİ

Sovet federalizmini tənqid edən bir professor çox haqlı olaraq deyir ki, "Bütün bu sistemin çox qatı bir mərkəziyyətçi olan bir firqə fərdləri arasında yazılıb tərtiblənmiş bir plandan ibarət olduğunu unutmayaq". Bu mülahizələrin nə dərəcəyə qədər doğru olduğunu haqqı ilə təqdir edə bilmək üçün Sovetlər İttifaqı təşkilati - əsasiyyəsini tədqiq etmək lazımdır.

**Bu günkü Sovetlər İttifaqını təşkil edən cümhuriyyətlərin hamısı eyni hüquqi mahiyyətdə deyildirlər.** Bunlardan Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətlərindən mütəşəkkil Zaqafqaziya Sovet Sosialist Federativ Cümhuriyyəti ilə Ukrayna Sosialist Sovet Cümhuriyyəti və Belorusiya Sosialist Sovet Cümhuriyyəti ilə Rusiya Sosialist Sovet Federativ Cümhuriyyətləri birər müstəqil hökumətlər kimi beynəlmiləl müqavilə hökmü ilə birləşmişdilər. Eyni zamanda bu cümhuriyyətləri tərtib edən ikinci dərəcəli təşəkküllər vardır. Məsələn, Rusiya Sosialist Sovet Federativ Cümhuriyyəti 9 muxtar cümhuriyyətdən və 13 imtiyazlı vilayətdən ibarətdir. Bunun kimi Zaqafqaziya Federativ Cümhuriyyətinə daxil olan Gürcüstanda Acarıstan və Abxaz Muxtar Cümhuriyyətləri ilə, Azərbaycan-

da da Naxçıvan və Dağlıq Ermənistan Cümhuriyyətləri vardır (əvvəl Rusiya Federativ Cümhuriyyətinə daxil olan Türküstan Cümhuriyyəti 1924-cü ildə Xivə və Buxara Cümhuriyyətlərinin ləğvi üzərinə müstəqil Özbəkistan və Türkmənistan Cümhuriyyətləri ünvanı ilə ittifaqa qəbul olunmuşlardır. Bunlar daxilində də Muxtar Tacikistan ilə Muxtar Qaraqalpaq vilayəti təsis olunmuşdur).

Sovetlər İttifaqını idarə edən ən ali müəssisə " Sovet Sosialist  Cümhuriyyətləri İttifaqı Mərkəzi İcraiyyə Komitəsidir" ki, qısası rusca "TSİK"dir. "TSİK" hər il təşkil olunan Sovetlər İttifaqı qurultayları fasilələrində ildə üç dəfə yığıncaq edər. "Mərkəzi İcraiyyə Komitəsi" müstəqil yığıncaq edən iki böyük sovet müəssisəsinin (kamerasının) müştərək şəkildə yığıncaq etmələri nəticəsində təşəkkül edər. Bunlardan biri "İttifaq Şurası", digəri də "Millətlər Şurası"dır.

**İttifaq Şurası ildə bir dəfə Cümhuriyyətlər daxilindəki vilayətlərdən (cümhuriyyətlərdən deyil) ümumi əhaliyə nisbətlə seçilmiş olunan nümayəndələr tərəfindən toplanan Sovetlər qurultayında seçilmiş 371 üzvdən ibarətdir**. 1924-cü il statistikasına görə 131,5 milyon əhalidən 96 milyonunun Rusiya Federativ Cümhuriyyətinə, 26 milyonunun Ukrayna, 3,9 milyonunun Belorusiya, 5,7 milyonunun da Zaqafqaziyaya aid olduğunu nəzərə alırsaq, Rusiya Federasyonunun bu kombinasiyada nə kimi bir əksəriyyət təşkil etdiyi aşkar olur. Görülür ki, burada qətiyyən federasyon prinsipi və milli əsas nəzərə alınmamışdır. Bu əsasa "Millətlər Şurası" deyilən ikinci "kamera"da riayət olunmuşdur.

"Millətlər Şurası" yalnız ittifaq müqaviləsi bağlayan müstəqil cümhuriyyətlərin deyil, muxtar cümhuriyyətlərdən

ibarət vilayətlərin, yəni dövlətlərin deyil də, müllətlərin nümayəndələrindən təşəkkül eyləmişdir. Qanuna görə müstəqil və müqavilələli cümhuriyyətlər bu şuraya beş – beş üzvlər verdiyi kimi, muxtar cümhuriyyətlər də beş – beş üzvlər verir. Seçilmiş vilayətlərdən dəxi birər üzvlər göndərilir. Belə ki, Qafqasiya, Ukrayna və Belorusiya üçü birlikdə 35 üzv göndərdikləri halda, Rusiya federasyonu 9 muxtar cümhuriyyəti və 13 seçilmiş vilayəti ilə birlikdə şurada 63 nümayəndə qazanmış olur. İsveçrə və Amerika federasyonlarında böyük – kiçikliyinə baxmadan hər cümhuriyyətdən bir cüt deputat almaq surətilə təşəkkül edən Federal Şura yerinə qaim olmaq üzrə vücudə gətirilən bu müəssisədə dəxi Rusiya Cümhuriyyəti öz üstünlüyünü bu surətlə təmin etmiş deməkdir. Türküstan Cümhuriyyətlərinin də Sovetlər İttifaqına mahiyyətcə və bilavasitə qəbul edildiklərindən sonra Millətlər Şurası üzvlərinin miqdarı 114 deputata çatmaqdadır. Millətlər Şurasının təşəkkülü əsnasında Rakovski başda olmaq üzrə Qafqasiya və Ukrayna deputatlarından bir qismi bu sistem əleyhində bulunmuş, digər federal cümhuriyyətlərdə olduğu kimi, muxtar cümhuriyyətlərin bərabər surətdə həqqi – təmsilə malik olduqlarını müdafiə etmişlərsə də, bu təklif Stalinin israrı üzərinə rədd olunmuşdur. Stalin, Almaniya ittihadında Prussiyaya verildiyi kimi, Sovetlər İttifaqı daxilində Rusiya Federasyonuna nisbi bir üstünlük haqqı verilmək surətində olsa belə bu şəklə razı gəlməmişdir.

Yuxarıda söylədiyimiz vəchlə Mərkəzi İcraiyyə Komitəsi İttifaqlar Şurası ilə Millətlər Şurası üzvlərinin birlikdə bir yerə toplaşması ilə yaranır. Mərkəzi İcraiyyə Komitəsi öz simasında bütün səlahiyyətinin 21 üzvündən ibarət bir "Divani – rəyasət"ə tərk edər. Bu 21 üzvdən yeddisi İttifaqlar Şurasının

divani – rəyasət üzvü, digər yeddisi də Millətlər Şurası divani – rəyasət üzvlərindən ibarət olub, qalan yeddi üzv iki məclisin birgə yığıncaqlarında seçilir.

**6 iyun qanununa görə "İcraiyyə Komitəsi Divani – rəyasətinin" hokmü Xalq Komissarlar Şurası üzərinə dəxi nüfuzludur[3].** Divani – rəyasət Komissarlar Şurasının qərarlarını ləğv edə bilər. Eyni zamanda Divani – rəyasət İttifaqa daxil olan bütün hökumətlər və məhəlli icra komitələrinin qərarlarını da poza bilər. Divan ya müştərək və ya ittifaqa daxil olan üzvlərə aid bütün müəssisələr tərəfindən tənzim olunan qanun layihələrini təsdiq və yaxud inkar etmək səlahiyyətinə malikdir. Digər tərəfdən Mərkəzi İcraiyyə Komitəsinin bütün qərarları Sovetlər İttifaqı daxilində bilavasitə və təxirə salmadan tətbiq və icra olunmalıdır(halbuki əvvəlcə Mərkəzi İcraiyyə Komitəsi qərarlarının müstəqil və muxtar cümhuriyyətlərdə tətbiq və icrası üçün adı çəkilən cümhuriyyətlərdə icra qüvvətlərinin ayrıca qərarına lüzum verdi. Deməli ki, bu surətdə 6 iyun qanunu mərkəziyyətə doğru bir qədəm də atmışdır).

İndi də mərkəzi federal hökuməti ilə ittifaq üzvləri arasındakı vəzifə və səlahiyyətin paylaşdırılması vəziyyətinə baxaq. İttifaq komissarlıqları "müştərək", "birgə" və "muxtar" komissarlıqlardan ibarət olub üç cürədir. Xaric, hərbi, dəniz, yollar, poçt – teleqraf və xarici ticarət kimi müştərək komissarlıqlar mərkəzləşdirilmiş xüsusatı idarə edirlər. Bunların müttəhid məmləkətlərdə yalnız birər agentliyi olur. Ali İqtisad Şurası

[3] Xalq Komissarları Şurası – Heyəti – Vükəla mənasındadır. Rusiya Heyəti – Vükəlası eyni zamanda bütün Sovetlər İttifaqının Heyəti – Vükəlası hökmündədir. Bunlardan "müştərək" və "müttəhid" komissarlıqlar başında bulunanlar bütün cümhuriyyətlərə hakim olub ,"muxtar" komissarlıqları idarə edənləri isə sadə Rusiya Federsionunun işləri ilə məşğul olurlar.

iaşə, çalışma, maliyyə və fəhlə - kəndli müfəttişliyi kimi birgə komissarlıqların bütün cümhuriyyətlərdə birər şöbələri olub, bu şöbələr məhəlli cümhuriyyətlər tərəfindən seçilirsə də, icraatlarında Sovetlər İttifaqı komissarlıqlarına tabe olunurlar. Və yalnız daxiliyyə, ədliyyə[4], kənd iqtisadiyyatı, maarif, səhiyyə və ictimai təminat kimi altı komissarlığa aid vəzifələrin icrası, ittifaq müqaviləsi səbəbinə görə məhəlli hökumətlər öhdəsində qalmışdır.

Fəqət, 6 iyun müqaviləsinin birinci maddəsində deyilir: "Ümumi əsaslara aid xüsusiyyətlər gözdən keçiirilirsə, o zaman mərkəzi hökumət səlahiyyətlərinin yalnız siyasətə deyil, bir çox xüsusiyyətə dəxi şamil olduğu görünər. Məsələn, xarici və daxili istiqrazları yalnız o, icra və bu xüsusda cümhuriyyətlər ittifaqına icazə verir. Xarici ticarəti o idarə etdiyi kimi, daxili ticarətə aid əsasları da təsis edir. Məmləkət iqtisadiyyat və sənaye haqqındakı əsasları o tənzim edir. Hətta bəzi fərdi sənaye müəssisələri belə nəzarət altına alır (fərz edək ki, Bakı neft ocaqları, Gürcüstan marqansı, Ukrayna kömür mədənləri, Türküstan pambıq təsərrüfatı onun tərəfindən idarə olunur). Ümumi Sovet büdcəsini o tənzim etməkdən başqa, xüsusi Sovet büdcələrini də o müəyyənləşdirir və ya təsdiq edir. Ərazinin bölünməsinə və istifadə tərzinə, xalq maarifinə və səhiyyə işlərinə aid nizami əsasları o təyin edir. Mühacirətə aid qanunları və mühacirət fondunun təsisini, ədliyyə təsisatı ilə cinayət

[4] 1926-cı ildə qurulan Rusiya Sosialist Federativ Cümhuriyyətləri konqresində verilən qərara görə, Rusiya birliyinə daxil olan muxtar vilayət və muxtar cümhuriyyətlərin məhkəmələrində baxılan işlər Rusiya Ədliyyə Komissarlığının və yaxud Rusiya Prokurorluğunun istədiyi zaman Moskvaya cəlb olunaraq orada baxılacaqdır. Bu qərar muxtar cümhuriyyətlər nümayəndələrinin etirazına baxmayaraq qəbul edilmişdir.

məcəlləsi qanununun əsaslarını və çalışma haqıındakı qanun ilə sair xüsusiyyətləri də o təmin və ya tənzim edir.

Göründüyü kimi, ayrı – ayrı cümhuriyyətlərin səlahiyyət dairəsi üçün adətən heç bir şey buraxılmamışdır. Siyasi, ictimai, iqtisadi, mədəni və idarə etmə həyatında bir sahə yoxdur ki, orada muxtar cümhuriyyətlər üçün mərkəzdən müstəqil olaraq hərəkət etmək səlahiyyəti buraxılmış olsun.

**Zatən Sovet hüquqşünasları** burjua hüquqşünaslarını tənqid edirlər; onların federativ cümhuriyyətlərdə məhəlli hökumətlərə verilən səlahiyyət dairəsinin genişliyində "hürriyyət və istiqlal" görmələrinə gülürlər. Əksinə, bir cümhuriyyətin "vəzifəsi" nə qədər az olarsa, Sovet hüquqçularından Qureviçə görə "hürriyyəti" də o qədər çox olur, zəhməti azalır, özünü daha çox sərbəst hiss edərmiş. Ona görə "məhəlli hökumətin hüququ nə qədər az olarsa, mərkəzi hökumətdən görəcəyi yardım o nisbətdə çox olar".

Eyni müəllifə görə "Sovet muxtariyyəti müvəqqəti bir zaman üçün mərkəzdən qaçan qüvvətləri yıxmaq, ona müqabil mərkəzəçəkən qüvvət və təmayülləri təşviq etmək üçündür". Federativ hökumət onun üçün irəliyə atılmış bir addımdır ki, o, "milli məsələni ovutmağa vasitə olur". Bir məsələ ki, onun "demokratca mərkəzləşmiş bir dövlətdə qətiyyən yeri yoxdur". Həqiqətən də bu günkü Sovet federasyonunu təşkil edən cümhuriyyətlərin yalnız adı cümhuriyyətdir. Sovet hüquqçularından Makerovskinin dediyi kimi, bu cümhuriyyətlər birər "quberniyadan" (vilayətdən) başqa bir şey deyildir. Bu quberniya cümhuriyyətləri belə bir aralıq tamamilə heçə endirilən bir Sovet proqramı müzakirə edilmiş, şiddətli müxalifətə məruz qaldığı üçün təbliğatı qismən tənzimlənmiş, qismən də təxirə

salınmışdır. Buna “İqtisadi bölüşdürmə proqraması” deyirlərdi. Bu proqrama görə, bütün ittifaq milli cümhuriyyət hüdudları nəzərə alınmadan iqtisadi vilayətlərə bölünəcək və hər vilayət iqtisadi cəhətdən hər cürə siyasi və milli hüdudlar xaricində, sırf iqtisadi imkanlar və faydalar mülahizəsilə idarə və bu xüsusda bilavasitə mərkəzə bağlı olunacaqlardı. Fəqət bu gün təxirə salınan bu proqramın sabah “milliyyət məsələ və zehniyyətinin ovunması” üzərinə təkrar meydana gəlməyəcəyi naməlum. Zatən bu proqram bəzi vilayətlərdə (məsələn Uralda) qismən tətbiq belə olunmuşdur.

## V

## SOVET HÖKUMƏT TƏŞKİLATLARINDA İKİLİK

İqtisadi məzhəblər sırasında bolşevizmdən bəhs edərkən iqtisad üləmasından məşhur Şarl Jid, “Lenin anarxizm ilə kollektivizmi birləşdirmiş, bu iki bir- birinə zidd olan sistemdən “bolşevizm” məsləkini qəbul etmişdir” – deyir. Görülür ki, iqtisadi sistemlər sahəsində bir yerə sığmadan iki ziddi bir araya toplayan bolşevizm siyasətində dəxi sentralizm ilə federalism kimi bir – birini inkar və rədd edən iki düşmən əsası bir araya gətirmişdir.

Biri digərinə tabe olmadıqca iki ziddin bir araya gəlməsi təbiətcə qabil deyildir. Bunun üçün də bolşevizm nəzəriyyatı ilə tətbiqatı arasında daimi bir mücadilə və üstünlüyün şübhəsiz kommunizmdə əsil olan mərkəziyyət və hakimiyyət tərəfində qalacağını anlamaq müşkül deyildir.

**Lenin "Dövlət və inqilab" adlı klassik əsərində** xəyali kommunizmi anarxistlər kimi hökumətsiz və cəbri qüvvətdən azad, tamamilə sərbəst insanlar cəmiyyətindən ibarət bilərək hökumətin getdikcə ölməyə məhkum olduğunu təlim etdiyi halda, "Proletariya hakimiyyəti" adını verdiyi dünyanın ən şiddətli və ən müstəbid bir hökumət sistemini işə salmış və əməli şəkildə təsis eyləmişdir. Milliyyət məsələsində də öylə: hər milləti tamamilə sərbəst və öz müqəddəratına şəxsən hakim qəbul edərək, sözdə Sovet sisteminin ana əsasları daxilində federalizmə mühüm bir mövqe ayırdığı halda, işdə dünyada tayı olmayan bir sentralizm vücudə gətirmişdir.

"Sovet Rusiyasında millətlərin hüquqi məsələsi" adlı məqaləsində rus sosialistlərindən Timaşov Sovet federalizminin yapmacıqlarını təhlil edərkən ilk nəzərdə görünən anlaşılmaz xüsusiyyətləri izah edə bilmək üçün Sovet dövlətinin çox da məchul olmayan xüsusiyyətini qeyd edir. O, deyir: "Sovet hökuməti hakimiyyəti ikiləşmiş dövlətlər tipində bir təşkilatdır. Əski Romanın miladdan sonra iki əsr müddətincə davam edən halı da bu şəkildə idi. Senat bütün o rəsmiyyəti ilə prinsipin mütləqiyyətini pərdələyirdi. Merving xanədanına mənsub krallar zamanında Frank monarxiyası[3] dəxi hüquqi hakimiyyəti Mayordomlara[4] tərk eyləmişdi. Yaponiya iki əsrdən çox rəsmi şan – şöhrətin kamilən dini hökmdar Mikadoya[5] aid olduğu halda, hüquqi hakimiyyətin dünyəvi imperator Şiyoqonlara[6] aid olduğuna şahid olmuşdur". Bu təşbihlərə o, bir də müasirlərdən Mussolini[7] diktatorluğunu əlavə edir. İtaliya bir tərəfdən rəsmi surətdə konstitusiyalı idarəni mühafizə eyləmiş, digər tərəfdən də bütün hakimiyyəti kiçik bir dəstənin əlinə vermişdir. Bunlara biz də İslam tarixindən bir çox misallar əlavə edə bilərdik. Bunlardan yalnız birisini qeyd edək: Abbasilər[8] za-

manında hökumət rəsmən xəlifələrin ikən, felən bir zaman iranlı bərmənilərin, bir zaman da türk əmirlərin əlində qalmışdı. Müasir Rusiya dəxi bu qəbildən bir hökumətdir. Rəsmən "Sovet hökuməti" ünvanını daşıyan bir hökumət adı ilə idarə olunur ki, hüquqən "zəhmətkeşlər" tərəfindən seçilən əsaslara istinad edər. Halbuki, həqiqətdə tamamilə kommunist firqəsinə və bu firqənin başında duran məhdud diktatorlar zümrəsinə məhkum və tabedir.

Federalizm pərdəsi altında sentralizm çöhrəsini saxlayan Sovet sistemini haqqıyla anlaya bilmək üçün Timaşov tərəfindən təsbit olunan bu xüsusiyyətin zikri mühümdür. Sovet hökumət təşkilatlarında tərkib və təşkiledici bir prinsip halında olan federalizm əsasına müqabil, Kommunist firqəsi sistemində çox mühüm bir rola malik olan qatı sentralizm əsasına qarşı qoyulmaqdadır. Sovet hökuməti bu günkü halını buluncaya qədər müxtəlif şəkillərə girmiş, Sovetlər İttifaqını tənzim edən müqavilələr haldan – hala keçmişlərdir. Halbuki, Kommunist firqəsində hakim olan mərkəziyyətçilik heç bir zaman zəiflədilməmişdir. Bu gün artıq "İttifaqlar Kommunist Firqəsi" adını daşıyan bolşevik firqəsinin 1925 sənəsinə qədər Sovetlər İttifaqından Rusiya ismi rəsmən qaldırılmış ikən daşıdığı isim Rusiya Kommunist Firqəsi idi. Bu gün müxtəlif cümhuriyyətlər daxilində hər nə qədər Gürcüstan, Azərbaycan, Özbəkistan və sairə kimi adca "milli" kommunist firqələri təşəkkül eyləmişsə də, felən bu firqələrin vəziyyəti Rusiya Kommunist Firqəsinin birər vilayət komitəsi vəziyyətindən fərqli deyildir. Bunlar ən kiçik xüsusiyyətə varıncaya qədər təlimatlarını Moskvadan, Kommunist Firqəsi Mərkəzi Heyətindən alırlar. Bu "Kommunist Firqələri"nin baş katibləri mərkəzdən təyin olunur. Onların Üçüncü İnternasionalda müstəqil yerləri də yoxdur. Onlar bu-

rada Rusiya Kommunist Firqəsi şəxsiyyətində təmsil olunmuş hesab edilirlər. Üçüncü İnternasionalda bir alman, bir fransız, bir bolqar kommunist firqəsi varkən, bir Qafqaz, bir Türküstan və ya bir Ukrayna Kommunist Firqəsinə yer yoxdur. Buna lüzum da görülməyir. Çünki, hələ çarlar zamanından bəri bütün bu vilayətlər Rusiya Kommunist Firqəsi tərəfindən təmsil olunmuş və bu firqə heç bir zaman öz daxilində istiqlala deyil, azacıq bir mərkəziyyətsizliyə belə dözməmişdir.

**Rusiya şəraitində və kommunist firqəsi içərisində tətbiq olunan bu müdhiş mərkəziyyət Lenin və şagirdləri tərəfindən, eyni zamanda Üçüncü İnternasional firqələrinə də sirayət etmişdir.** Zatən Lenin tərəfindən tənzim olunub da Üçüncü İnternasionala mənsub kommunist firqələri üçün tətbiqi lazım görülən təlimat arasında Drakon (mürtəce) qanunlarını andıran tələblər vardır. Özlərini az – çox bilir, Avropa kommunistlərindən mühüm bir qismi vaxtilə Moskvanın bu amiranə ədasını çəkməmiş, İnternasionaldan çıxmışlardır. Bu çıxanlardan birisini təşkil edən fransız kommunistlərindən Frossar[9] 1923-cü ildə nəşr eylədiyi bir risaləsində Rusiya Kommunist Firqəsini bütün cahan kommunistləri üzərində təsis etmək istədiyi diktatorçu idarəni, bu Moskva hakimiyyətini çəkə bilmədiklərindən heysiyyət sahibi kommunistlərin Üçüncü İnternasionalı nə surətdə tərk etdiklərini bütün təfsilatı ilə izah eyləmişdir. Frossar deyir: "Moskva kommunistləri özləri ilə bərabər çalışmağı deyil, onlar kimi düşünməyi və dünyanı ancaq onların gözlərilə görməyi tələb edirlər. Tətbiq etdikləri bu müstəbidçi taktikayla onların nə kimi bir nəticə əldə etdiklərini tədqiq isə mövzumuz xaricindədir"

Frossara baxılırsa, bu nəticə çox elmidir.

## VI

## MİLLİYYƏT MƏSƏLƏSİ YALNIZ BİR GÖSTƏRİŞDİR

Məqaləmizin başında kommunistlərin məfkurə etibarı ilə qatı bir mərkəziyyətçi olduqlarını qeyd eyləmişdik. Firqə və İnternasionaldakı təcrübələri ilə təşkilat sahəsində dəxi, məfkurələrində olduğu qədər qatı və amansız bir mərkəziyyətçi olduqlarını görürük.

Rusiya Sosial – Demokrat Firqəsi daxilində bir partiya təşkil etdiyi belə, bolşevik firqəsi mərkəziyyətçilik ümdəsinə qarşı müqəddəs bir iman bəslər, ona qarşı adətən ibadət edərdi. İndi sözdə də olsa tətbiq etdiyi federalizmi o zaman adətən bir küfr hesab edər, bu məsləki izləyənləri əksinqilabçı deyə daşqalaq edərdi. Çünki, federalism onların fikrincə, istehsal vəsaitinin inkişafına mane hesab olunurdu. İnqilabı sürətləndirən ən böyük amil isə bu inkişaf idi. O halda bolşevikləri milli istiqlal şüarı ilə federalizmə, sözdə də olsa, güzəştə getməyə məcbur edən səbəb əcəba nədir?

**Bu sualın cavabı 1921-ci ildə keçirilən kommunist qurultayı tərəfindən qəbul olunan bəyannamədə bulunur.** Bu bəyannamədə deyilir: "Kənar vilayətlərdə kommunist firqəsinin tərəqqi və inkişafı xüsusi bir qrup müşkilata məruz qalır. Bir tərəfdən kənar vilayətlərdə çalışan velikorus arxadaşlar hakim bir millət mühitində yaşadıqları və milli hakimiyyət acısını dadmadıqları üçün əksəriyyətlə milli xüsusiyyətlərin sovet

işlərində əhəmiyyət və təsirini təqdir etmir və yaxud bu xüsusiyyətlə heç hesablaşmayırlar… Digər tərəfdən də yerli kommunistlər ki, milli hakimiyyət zülmlərini çəkmişlər və bunun təsirindən hələ qurtulmamışlardır, çox kərə olur ki, milli xüsusiyyətlərin əhəmiyyətini ezam edirlər və zəhmətkeşlərin sinfi mənafeyi və xüsusiyyətlərini nəzərə almırlar və yaxud bir millətə mənsub zəhmətkeş əhalinin mənafeyini o millətə məxsus müştərək deyə anılan mənafedə qarışdırırlar ki, bu da onları kommunizmdən uzaqlaşdıraraq burjua – demokrat şovinizminə doğru cəlb edir".

Göründüyü kimi, nə olsa da, bolşeviklər tərəfindən idealizə olunan mərkəziyyətçilik nə qədər mühüm və milli xüsusiyyətlərin bir həmlədə yer üzündən silinməsi nə qədər arzu olsa da, acı həqiqət yenə də həqiqət olaraq qalır. Səkkizinci kommunist qurultayında Lenin deyirdi: "Biz hər nə qədər bir Finlandiya milləti bilməyib, sadə zəhmətkeş fin xalq kütləsi tanımaqda israr etsək də, bu isrardan bir şey çıxmaz. Çünki, mövcud bir şeyi tanımamaq olmaz. Zira o mövcudluq nəhayət özünü tanıtdırar". Milli hərəkatlar isə yalnız Finlandiyada deyil, Rusiyanın hər tərəfində mövcuddur və bu mövcudiyyətlərini onlar hələ fevral inqilabından əvvəl hiss etdirmişlər və inqilab illərində yaxşı böyümüş və irəliləmişlərdi. Bu şərait daxilində milli hərəkatları inkar etmək çox ciddi bir düşmən qazanmaqdan ibarət olardı. Halbuki, "federalizm" adı altında işlənən yapmacıq bir sistemlə bu hərəkatı bolşevik məqsədinə doğru döndərmək qabildi. Milli hərəkatlara verilən zahiri əhəmiyyətlə onlardan bir qisminin dostluğu qazanılır, şəklən milli birər hökumət halına gəlmələrilə də bu millətlər eyni zamanda "Milli məhkumiyyət-

dən qurtulmayan" digər millətləri təhrik üçün gözəl bir səbəb olardı. Nədən bu sistemin tərəfi saxlanılmayacaqdı? Bolşevik mühərrir və partizanlarından Uşinski Kommunist Firqəsinin "Göstərişli şüarlar"dan çox həvəslə istifadə etdiyini söyləmişdir: "Biz milliyyət şüarını ortaya atdıq… Halbuki burjua dövründə bu məsələnin həll edilməyəcəyini çox əla bilirdik. Bizim proqramımızda ordunun milisə çevrilməsi tələbi də vardı. Halbuki mütərəqqi sosializm dövründə milisə ehtiyac yoxdur. Sosializm uğrunda mücadilə dövründə isə milis deyil, ordu lazımdır. Fəqət bu şüarın şöhrətəlayiq dəyəri olmasa da, ifşaedici bir mahiyyəti vardı. Milliyyət məsələsindəki şüarlarımızın əhəmiyyəti də bunda idi. Milli hakimiyyət burjuaziyanın son istinad etdiyi pənahgahdır. Bu silahı biz milliyətin tam xilasını elan etmək surətilə paralizə edə bilərik"[5]. Milliyyət siyasəti öz etirafları lüzumunca kommunistlər üçün sadə bir göstərişdən ibarətdir. Bu göstərişlə onlar – yenə öz etiraflarınca Sovet hökumətinin xaricindəki cazibiyyətini təmin edirlər[6]. Yoxsa mahiyyət həddində hər şey əskisi kimi qalır və kommunist arzusu çoxdan bəri bəslədikləri mərkəziyyətçilik qayələri ilə kosmopolitlərindən zərrə qədər fədakarlıq etməmişlərdir. Səkkizinci Kommunist qurultayında Tomski demişdi: "Bu salonda tək bir

[5] Səkkizinci qurultay qərarlarından.

[6] Bu cazibiyyət üçündür ki, onlar Lehistana (Polşaya-red) qarşı Belorus Sovet Cümhuriyyətinin hüdudunu genişləndirir. Bessarabiyaya təsir üçün Rumıniya hüdudunda Moldaviya Sovet Cümhuriyyətini təsis edir. Əfqan hüdudunda Özbəkistan, İran hüdudunda da Türkmənistan Cümhuriyyətləri təşkil olunur. Eləcə də Türküstan Çini hüdudundakı Qazaxıstan Cümhuriyyəti ilə Azərbaycandakı Kürdüstan Cümhuriyyətinin də təşkilində İran türkmənləri ilə Rusiya türkmənlərini birləşdirmək məqsədi güdüldüyünü Daşkənd bolşevik hərbi idarəsi tərəfindən nəşr olunan "Voennı mısl"[10] məcmuəsi heç də gizlətməmişdi.

kişi bulunmaz ki, millətlərin öz müqəddəratını həllə səlahiyyətdar olduqları şüarı ilə milliiyyət hərəkatının təbii və arzu edilən bir hərəkat olduğunu bəyan eyləsin. Buna biz yalnız şərin kiçiyinə baxar kimi baxırıq”. Sovet federalizminin mürşidi Stalin isə Onuncu firqə qurultayında “Milli müqəddəratın təyini” şüarı ilə biz çoxdan vidalaşdıq” demiş və həqiqətdə isə “təqib etdiyimiz məqsəd vahid cahan iqtisadiyyatı daxilində fəhlələrin birləşməsidir. Federasyon isə bu vəhdətə doğru gedən yolun ancaq bir mərhələsidir” – deyə əlavə eyləmişdir.

## VII

## DAXİLDƏ MƏRKƏZİYYƏT, XARİCDƏ İMPERİALİZM

Həqiqi məqsədi Rusiyaya şiddətli bir kommunist mərkəziyyətini təsis ikən, “millətlər istərlərsə Rusiyadan ayrıla da bilərlər” şüarı ilə meydana atılaraq saxta federasyon pərdəsi altında əski məqsədinə nail olan sentralist kommunizm Sovetlər hüdudu xaricində tətbiq etdiyi milliyyət siyasəti ilə də qızıl imperializm rolunu oynamaqdan başqa bir şey yapmayır.

**Sovet hökuməti özünəməxsus ikiüzlülüklə burada da qarşımıza çıxır**. Bir tərəfdən Sovet xariciyyəsi Avropa imperializminə qarşı mücadilə vəziyyətində bulunan Şərq millətləri ilə dostluq təsisinə çalışırkən, digər tərəfdən də Üçüncü İnternasional ajanları bu məmləkətlər daxilində kommunist firqələri təsis etmək üzərindən bir an üçün olsun qəflət etməyirlər. Çünki, bolşeviklərcə bu gün özləri ilə səylərə şərik olunan Şərqdə-

ki milli inqilab hərəkatları yalnız müvəqqəti bir zaman üçün özlərinə arxadaş ola bilərlər. Yoxsa onlar dəxi Avropadakı işləri kimi, birər xain burjua olub, bu günün dostu olsalar da, sabahın düşmənləridir. Buna görə də Rusiya daxilindəki millətlərə qarşı Sovet federalizmi şəklində ələ keçirilmiş olan kommunizm mərkəziyyətçiliyi, xaricdəki "müstəmləkə və yarımmüstəmləkə millətlərinə qarşı da kapitalizm ilə mücadilə pərdəsi altında gəlib çatmaq istəyən **qızıl imperializmdir!..**"[7]

[7] Bu xüsusda təfsilat üçün bundan sonra gələn məqaləyə müraciət oluna bilər.

Müəllifi **MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ**

# BOLŞEVİKLƏRİN ŞƏRQ SİYASƏTİ

## I

## GÖSTƏRİŞLİ ŞÜARLARDAN BİRİ

Bolşeviklərin "çox həvəslə istifadə etdikləri göstərişli şüarlar"dan birisi də iştə bu "Şərq siyasəti"dir. Bu siyasətə onlar əksəriyyən koloni siyasəti dəxi deyirlər. Kolonilərdə "Milli qurtuluş" və yaxud "Milli istiqlal" mücadiləsini kommunistlər necə qiymətləndirirlər?

Milli istiqlal uğrundakı mücadiləsində Rusiyadakı hadisələrdən çox böyük bir surətdə istifadə etmiş bir məmləkətdə belə bir sual verməyi mümkün hesab edənlərin olacağını təxmin edə bilərik. Fəqət bir sıra obyektiv hadisələr nəticəsində təsir edən məlum bir qənaətə rəğmən, kəmali – cəsarətlə tələb edirik ki, "Sovetlər İttifaqı" daxilində tətbiq olunan "milliyyət siyasəti"ndə olduğu kimi, bolşevizm "Şərq siyasəti"ndə dəxi hiylədən ari deyildir.

**Leninizm və onunla bərabər bü günkü Rusiya diktatoru Stalinin imzaları ilə vaxtilə bütün İslam dünyasına, ümumiyyətlə bütün Şərq millətlərinə xitabən nəşr olunan**

**bəyannamələri xatırlayırıq.** Bu bəyanatlardan nəşət edərək Türkiyə, Əfqanıstan, İran və sairə kimi Şərq millət və dövlətləri ilə bağlanan müqavilələri də unutmayırıq. Bu müqavilələrdə Qızıl rus hökuməti comərd davranmış, elan etdiyi yüksək prinsiplərə həqiqətdə sadiq qalmış kimi bir vəziyyət almışdır. Çar dövründən qalma, Rusiyanın bu məmləkətlər üzərindəki nüfuzu bütün hüquq və imtiyazlarda sərf – nəzər eyləmiş, hətta Rusiyanın bu məmləkətlərdən alacağı bütün borcları ləğv etməklə bərabər, buralarda mövcud bütün imtiyazlarla Rusiyaya aid maliyyə və hüquqi ləyaqətdən belə vaz keçilmişdir. Bu bir faktdır. Faktları inkarə qalxacaq qədər inadkar tənqidçilərdən deyilik. Fəqət lüzumunda işimizə gələn faktdan kifayət dərəcədə istifadə etmək məqsədi ilə onu bir dərəcəyə qədər idealizə etmək əməli siyasət nöqteyi – nəzərindən faydalı olsa da, bu metodik faktları olduğu kimi görmək xassəsini pozacaq qədər irəlilətmək dəxi zərərlidir.

Rus "Lafonten"i məşhur Krılovun[1] "İstifadə edə bilmədiyimizi hədiyyə edirik" – deyə bir misrası vardır. Bolşeviklərin Şərq məmləkətləri haqqındakı comərdlikləri də bu növdəndir. Əlləri çatmadıqlarını hədiyyə edirlər. İrəlidə deyilmiş məmləkətlərlə bağlanan dostluq müqavilələrində comərdcə tərk olunan "haqları" başqa cürə "müdafiə" zatən mümkün deyildir. Sovet Rusiyası bir zərb – misala görə "tökülmüş bəhməzi hədiyyə edirdi". Bundan başqa Şərqdəki bu "səxavət" Qərbdəki "qarət"lə də həmahəng idi. Rusiyanın milyardlara yetişib avropalılara tədiyyə etmək məcburiyyətində olduğu borclarını və yenə milyardlara dəyər əcnəbi imtiyazlarını ləğv ilə əcnəbi sərmayə və maliyyə məsələlərini zəbt edən bir hökumət bir neçə yüz milyonu belə olmayan Şərqdəki mənafeyindən, araya

atdığı davanın məntiqi qüvvətini təmin üçün əlbəttə sərf – nəzər etməli idi. Bu, maddətən qazanclı, tətbiqatca əməli, siyasətən şərəfli olduğu kimi, propaqanda nöqteyi – nəzərindən də parlaq bir manevrə idi.

Manevrə idi – deyirik, çünki manevrə olmayıb da Sovet hökumətinin Şərqdəki qonşuları ilə dostluğu həqiqi və hər cürə istismar iştihasından ari həqiqətpərvəranə bir əsasə istinad etmiş olsaydı, o zaman biz aradakı siyasi razılıq və uyğunluğa baxmayaraq, Şərq millətləri ilə Sovet arasında sənələrcə davam edən və hələ də bir cürə həll edilməyən iqtisadi ixtilaflarla ticarət mübarizələrinə şahid olmazdıq. Bu mücadilə Türkiyədə o qədər çox duyulmaz. Çünki burası o vaxtdan bəri beynəlmiləl mübadilə nöqteyi – nəzərindən ya idxalat və ya ixracatda olsun, Rusiyaya möhtac deyildir. Öylə ikən dəxi Şərq millətlərindən siyasətən ən çox anlaşmış olunduğu bu məmləkətdə belə, Moskva hökuməti iqtisadi və ticari münasibətini ancaq keçən sənə tənzim edə bildi. Halbuki İran belə deyildir. İran iqtisadiyyatı Rusiya bazarına bağlıdır. Hərdən o İran idxalat və ixracatının həmən yarısından artığı Rusiya hesabına icra olunurdu. Coğrafi mövqe etibarı ilə İran üzərindəki müstəsna vəziyyətdən istifadə ilə Sovet xarici ticarəti İranı adətən kölə halına gətirmiş, bu “dost məmləkəti” heç bir düşmənin edə bilməyəcəyi bir şəkildə istismar eyləmişdir. Xarici ticarətdə tətbiq etdiyi dövlət inhisar sistemi üzündən Şimali İranın yeganə müştərisi olan Qızıl Rusiya rəqibsiz alıcının təsviri qabil olan hər cürə ehtikar və müamilə kötülüyünü icradan zərrə qədər fərq olmamışdır. **İş o yerə gəlmişdir ki, vaxtilə bolşevik inqilabını idealizə edən tərəqqipərvər İran ticarət burjuaziyası başda olmaq üzrə Şimali İranın ən mühüm ticarət mərkəzləri Rusiyaya qarşı**

**aylarla davam edən boykotaj hərəkətini təşkil etmişlərdir.** İran ictimaiyyəti sadə, təyin etdikləri sabit qiymətlərlə İran qurtuluşunun ən ağır şərtlərlə istismar edən müxtəlif ad və ünvandakı Sovet şirkətləri və hər cürə iqtisad müəssisələri tərəfindən icra olunan təzyiqlərdən deyil, İranla Sovet Rusiyası arasında o yüksək dayaqları əhatə edərək, bağlı olunan siyasi müxadinət müqavilələrindəki maddələrində açıq surətdə (bir – birinə) zidd edildiyindən çox acı bir dillə şikayət etməkdədir. Yarımrəsmi "İran" qəzetəsindən[2] başlayaraq ən kiçik vilayət qəzetlərinə varıncaya qədər bütün İran mətbuatını sənələrcə tutan mübahisə haqqında müxtəsər də olsa bir fikir verə bilmək üçün Gilan nümayəndəsi Kəyastovanın bu barədə nəşr etdiyi dəlilli risaləsindən 26 fevral 1926-cı ildə bağlanmış Moskva dostluq müqavilənaməsinin ruslar tərəfindən pozulan maddələrini buraya nəql edirik: "Yuxarıda söylənmiş müqavilənamənin 3-cü maddəsinə baxmayaraq, Kəyastovan anladır – iranlılar Ətrək çayının suyundan istifadə edə bilmədikləri kimi, Firuzə kəndi (ki burada məşhur Firuzə daşı istehsal olunur) də İrana verilməmişdir. 10-cu maddəyə əsasən Pəhləvi (sabiq Ənzəli) limanı İrana təslim olunmalı idi (Bu liman çarlıq Rusiyası tərəfindən inşa olunmuşdur. İmtiyazı şah hökuməti tərəfindən alınmışdı). Halbuki bu günə qədər təslim edilməmişdir. 11-ci maddəyə görə İran sularında Rusiya hərb gəmiləri dura bilməz. Halbuki imperatorluq dövrünə aid hərb gəmiləri indi də yalnız adlarını dəyişməklə Pəhləvi limanında dolaşır və kiçik İran gəmilərinə nəzarət edirlər. İran dövləti tərəfindən satın alınan kiçik bir gəminin Rusiya vasitəsi ilə (Volqa çayı ilə) Xəzərə enməsinə belə Rusiya tərəfindən mane olunmuşdur. 14-cü maddənin əksinə, "Şilat" adı ilə tanınan Pəhləvi limanı ətrafındakı məşhur balıq

ovu təsisatını zəbt ilə ildə altı milyon lirəlik İran sərvəti Sovet Rusiyası tərəfindən qəsb edilmişdir. ("Şilat" balıq ovu imtiyazı vaxtı ilə Çar Rusiyasının əldə etdiyi imtiyazlardan olub bolşeviklər tərəfindən sözdə İrana qaytarılmış müəssisələrdəndir). 19-cu maddə bolşeviklər tərəfindən sıx surətdə şərh olunaraq rüsumatda yeni qiymətlərin deyil, 1903-cü ildə çar məmurları tərəfindən məhdudlaşdırılmış Rusiya lehinə olaraq tənzim olunan qiymətlərin tətbiqi üzərində israr olunur. 20-ci maddənin əksinə İran əmtəəsinə tranzit haqqı verilməyir".

Bunlardan başqa Rəşt nümayəndəsi İran ticarətinin Rusiya daxilində düçar olduğu təcavüz və zülmlərdən və İranda tətbiq olunan ticarət politikasından dəxi ayrıca bəhs edir ki, bu da başqa bir dastandır.

## II

## MİLLİ İSTİQLAL HƏRƏKATLARI VƏ BOLŞEVİZM

**Milli istiqlal hərəkatı, məlum olduğu üzrə siniflər fövqündə bir hərəkatdır. Bu hərəkat millətin müştərək mənafeyini əcnəbi bir istila və ya istismara qarşı müdafiə edir.** Halbuki, xalis bir kommunist nəzərində mənfəətləri müştərək bir millət kütləsi yoxdur. Bu günkü cəmiyyətlər onların nəzərində birər kapitalist cəmiyyətlərdən ibarətdir. Bu mülahizə ilə də cəmiyyətlər birər vəhdət təşkil etməkdən uzaqdırlar. Vahid bir cəmiyyət yoxdur. Yalnız biri digəri ilə düşmən və daima mücadilə halında olan siniflər vardır. Bu nöqteyi – nəzərdən baxılırsa bir kommunist, məhkum və müstəmləkə millətlərində

olsa belə, milli vəhdət və milli mənfəət uğrunda mübarizə edə bilməz. Bu mühakimə ilə də əvvəlki bolşeviklər, əvvəlki marksizmə sadiq qalaraq proletariya sinfinin kosmopolit olduğunu iddia eyləmiş, fəhlənin vətəni yoxdur – deyə müstəmləkəni istismar edən imperialism millətçiliyi ilə, müstəmləkə və yarımmüstəmləkə halında olan Şərq məmləkətlərinin xilas və istiqlalına çalışan milliyyətçilik arasında nəzəri olaraq fərq görmək istəməmişlərdir. Hər millətin öz müqəddəratını hələ səlahiyyətdar olması şüarının da bunlarca əksinqilabi bir geriləmə əsəri olduğu məlumdur.

Fəqət əməli bir inqilabçı olan Lenin kəndli məsələsində olduğu kimi, milli qurtuluş və istiqlal hərəkatlarına münasibət məsələsində də tədbirli davranmış, fəaliyyətə keçəcəyi sonku dövrlərdə məhkum millətlərdəki milli istiqlal cərəyanına ustaca yanaşaraq onlardan istifadə yolunu kəşf eyləmiş və bu xüsusda o günə qədər bolşevik nəzəriyyatçılarınca məchul bir hərəkat xətti cızmışdır. Bu hərəkat xəttinə görə "İngiltərə, Fransa, Almaniya və Amerika kimi məmləkətlərdə milli vəhdət, yəni siniflər arasındakı iştirak nöqtələri çoxdan öz dövrünü yaşamışdır. Burada obyektiv olaraq bütün milləti əlaqədar edən məsələlər yoxdur. Bunun üçün də bu kimi məmləkətlərdə milli vəhdəti partladaraq onun yerinə sinif vəhdətini qoymaq lazım. Halbuki inkişaf etməmiş məmləkətlərdə, yəni müstəmləkə və yarımmüstəmləkə halında olan məmləkətlərdə məsələ tamamilə başqadır. Bu məmləkətlərdə məzlum və kapitalistcə inkişaf etməyən millətlər vardır. Bu millətlərdə isə üfüqi olaraq milli məsələ hələ mövcuddur ki, bu da demokratiyanın təsiri və yabançı millət təhkimini atmaqdan ibarətdir".

**Leninə görə, sosializm inqilabı** yalnız  cahan fəhləsinin cahan kapitalizminə qarşı üsyanı şəklində deyil, eyni zamanda müxtəlif demokratik inqilablarla müstəmləkələrdəki milli istiqlal hərəkatlarının daxil olduğu beynəlmiləl bir kombinasiya içərisində cərəyan edəcəkdir. Bu kombinasiya dünya müharibəsindən sonra artıq çox mühüm bir amil olaraq tarix səhnəsinə çıxması təxmin və hiss olunan Şərqdəki milli istiqlal hərəkatını böyük surətdə istifadə etməyi idxal etmək, təbii ki, Üçüncü İnternasional müəssisini düşündürən ən böyük məsələlərdən biri olmuşdur. “Milli vəhdət”in Avropada belə özünü yaşamış bir radəyə gəlmədiyini, utopik socialist üsyanının “gecikdiyini” təsbit və təsdiq edən bolşeviklər üçün “Cahan imperializminə” qarşı inkişaf etməmiş Şərq millətlərindəki istiqlal cərəyanını körükləməyə ayrıca əhəmiyyət vermək lazım idi. Bu vasitə ilə onlar hərbdən əvvəlki vəziyyəti geri döndərmək üzrə olan Avropa kapitalizmi qarşısındakı geriləmələrini daha az zərərlə həyata keçirmək üçün əlverişli bir manevra etmiş olduqlarına qanedirlər.

**Bolşeviklərə məxsus** digər göstərişli şüarlar kimi bu qənaət də pərdə altında saxlanan ikinci bir üzə malik olmasaydı, milli istiqlal mücadiləsi ilə demokratiya həyatına keçmək əzmində olan Şərq üçün bolşeviklər qədər yaxşı bir dost olmazdı. Yalnız nə edərsiniz ki, kəndliyə torpaq verib də məhsulunu verməyən kommunizm, Şərqdə istiqlal hərəkatını qüvvətləndirməklə bərabər, bu hərəkatın təbii nəticəsi olan istiqlala dözə bilməz. O, düşmən olduğu Avropa imperializminin Şərqdən çıxarılmasını istehdaf etməklə bərabər bu azad Şərqin kommunizm internasionalından da asılı olmayan bir demokratiya təşkil etməsinə qətiyyən razılıq göstərə bilməz. Canındakı bu ikilikdəndir ki, o,

Şərqdəki milli hərəkatları təşviq və ilk sırada onlara yardım etdiyi halda, direktivini Moskvadan almaq surətilə hərəkət edən yerli kommunist firqəsinin təşkilini dəxi unutmaz. Fəaliyyət və mücadilə halında olan milli istiqlal və milli demokrat başçılarına dostluqdan bəhs edərkən o, bu başçıların istinad etdiyi xalq kütlələrinə əsl xilaskarlarının Kommunist Firqəsi olduğunu hiss etdirməyi bir an üçün olsun unutmaz. İndiki rəhbərlərin müvəqqəti bir zaman üçün dözülən adamlar olub, yoxsa həddi – zatında bunların da birər qəsbkar və sabahkı xalq düşmənləri olduğunu daima təkrar etdirir durur və ilk fürsətdə o və ya bu surətlə ayağı qapan millətçilər məmləkəti müharibələrə sövq etmək əleyhində kommunist sui – qəsdi təşkil ilə məmləkəti daxili müharibələrə sövq etməkdən dəxi geri durmaz. Bu ikiüzlü siyasətin müxtəlif təzahürləri Türkiyə istiqlal hərbi əsnasında az görülmüş deyildir. Hal – hazırda cümhuriyyət ədaləti qarşısında tutduqları əməllər üçün hesab vermək zərurətində olan türkiyəli kommunistlərin düşdükləri macəra dəxi bunu isbat etməkdədir. Fəqət bu macəranın ən qanlı misalını Uzaq Şərqin böyük məmləkəti Çin təşkil edir. Dünən Moskvanın ən sıx müttəfiqi hesab olunan Çin millətçiləri ilə Sovet hökuməti arasında bu gün qanlı bir ixtilaf çıxmışdır. Dünənə qədər Sun Yat Sen kimi böyük Çin mücahidi tərəfindən təsis olunan **Qo Min Dan firqəsinin**[3] sol cinahını təşkil edən kommunistlər indi bu firqədən ayrılmış, Kantonda millətçilərə qarşı üsyan bayrağı açaraq müvəqqəti bir zaman üçün Sovet hökuməti elan eyləmiş, Qızıl Moskvanın hərbi kommunizm dövründəki ixracatını haman orada tətbiq etməyə başlamışlardır. Fəqət, bu hərəkat Rusiyada olduğu kimi müvəffəqiyyətlə nəticələnməmiş, millətçilər müqabil bir həmlə ilə üsyançıları cəzalandırmış və idarəni

təkrar ələ almış, Sovet konsulu başda olmaq üzrə Rusiya kommunist müəllimləri də daxil olduğu halda Kanton macərasında iştirak edənləri şiddətlə cəzalandırmışlardır. Belə ki, Çin istiqlal hərəkatını qüvvətləndirmək yerinə, öz ikiüzlülüyü nəticəsində Sovet hökuməti hal – hazırda Çin milliyyətpərvərlərini qardaş qanı tökmək və öz sıraları arasında daxili hərb açmaq məcburiyyətində buraxmışdır. Yalnız Çində deyil, özlərinə fürsət verilərsə, onların hər tərəfində edəcəkləri iş bundan ibarətdir.

## III

## ÇİN TƏCRÜBƏSİNDƏN ALINAN DƏRSLƏR

**Bu günkü Stalin diktatorluğunun nəzəriyyəçisi Buxarin son günlərdə toplaşan XV Kommunist Konqresində III Kommunist İnternasionalına**[4] **aid müfəssəl raportunda, o cümlədən bu məsələ üzərində duraraq "Müstəmləkə məsələləri və Kommunist** İnternasionalı" münasibətini izah zəminində Leninin yuxarıda qeyd edilmiş tezisini zikr etdikdən sonra sözü Çindəki hadisələrə keçirərək deyir: "Hər nə qədər Lenin milli – istiqlal və milli vəhdət hərəkatlarını geri qalmış məmləkətlərdə vəzifə hesab edirsə də, bu vəzifə ancaq o hərəkatların fəhlə sinfi əleyhinə çevrildiyi zamana qədər caizdir. Əks təqdirdə "Milli vəhdət" möhkəmliyini lüzumlu edən səbəbi itirildiyindən, o hərəkatın lazımlılığı da aradan qalxmış olur[1].

"Milli hərəkat" istiqamətinin fəhlə sinfi əleyhinə çevrilmə dərəcəsi isə Buxarinə görə, Kommunist Firqəsinə qarşı

[1] "Pravda", 13 dekabr, N285.

göstərilən əlaqə və rəftar ilə təyin olunur. Müəyyən bir Şərq məmləkətində Kommunist Firqəsinin hürriyyəti məhdudlaşdırılır, kommunistlər təqib edilir və fəhlə sindikatlarının haqq və hüququ hədələnirsə, elə bir məmləkətdə artıq siniflər arasında müştərək milli məqsədlərdən bəhs oluna bilməz. Kommunist Firqəsini təqib edən bir hökumət isə, milli – istiqlal davasında olan bir Şərq hökuməti olsa belə, irticaçı bir hökumətdir və kapitalist Avropa hökumətlərindən heç bir fərqi yoxdur.

**Buxarincə Çin milliyyətpərvərləri artıq düşmən sırasına keçmiş qara irtica qüvvətindən başqa bir şey deyildirlər.** Yalnız Çin deyil, Hindistan hərəkatı dəxi artıq Buxarini cəlb edə bilmir. Dünya müharibəsi əsnasında inkişaf edən Hindistan sənayesi xatiri sayılan yerli burjua sinfi yaratmışdır. Bu burjua ibtidada milli – istiqlal ardınca gedərək milli vəhdət şüarını işə salmış və Hindistan üsyançılarına yaxşı yardım etmişdir. Çin hadisələrindən dərs alan İngiltərə imperializmi isə tədbirli davranmış, qüvvət peyda edən Hindistan fabrikaçılarına qarşı silahlı bir tövrlə yanaşaraq özləri ilə anlaşma üsulunu lazım bilmiş, İngiltərə əmtəəsinə Hindistan əmtəəsi ilə rəqabətlə üstünlük verən bəzi rüsumların ləğvi kimi tədbirlərlə yeni Hindistan burjuaziyasının könlünü almış, onu ifrat hərəkətlərə qapılmaqda mühafizə etmişdir. Belə ki, indi İngiltərə imperialistləri ilə ittifaqa girən Hindistan burjuaziyası artıq "Moskva agentləri" ilə mücadiləni düşünür, hal və xasiyyəti bəlli olan əski sahibi İngiltərəni hər halda "vəziyyəti məchul" yenisindən üstün tutur". Bu vəziyyət qarşısında Buxarin təbii ki, baş sındırır və bu nəticəyə gəlir: "Bizim üçün artıq Çində oldu-

ğu kimi Qomindan firqəsi kimi bir firqəyə daxil olaraq uzun bir zaman üçün Hindistan millətçiləri ilə bir təmərküzdə olmaq ehtimalı qətiyyən qalmamışdır. Çünki, deyir, burada ta başdan bizə düşəcək vəzifə Hindistan burjuaziyasını sadə tənqid deyil, onun hərəkətlərini ifşa etməkdən ibarət olacaqdır. Çünki bu burjuaziya – Buxarin söyləyir: "Leninin qoyduğu şərtlərə əməl etməyir. Əvvəla ingilis imperialistləri ilə davamlı mücadiləyə hazır deyil və ikincisi kommunistlərə qarşı fəal bir mücadilədə olaraq möhtac olduqları miqyasda özlərinə hürriyyət verməyir".

Çin təcrübəsindən sonra Hindistandan da qorxmağa başlayan Buxarin **"Misir, İran və bu qəbildən digər bir məmləkəti"** dəxi alırsaq, buradakı obyektiv şəraiti diqqətlə təqib etmək məcburiyyətindəyik" – deyir. Çünki "bunların hər birində özlərinə məxsus xüsusiyyətlər vardır ki, onların tədqiqi bizi özlərinə qarşı ümumi müstəmləkə siyasətinin zəruriliyindən qeyri bir sıra tədbirlər qəbuluna məcbur edir".

Çin hadisəsindən Buxarin təmsil etdiyi Rusiya Kommunist Firqəsi və III İnternasional naminə, müəyyən hissələr götürdüyü kimi, açdıqları şanlı mübarizədə kommunist inqilabı kimi xülyalar önündə deyil, milli vəhdət, milli istiqlal və milli demokratiya kimi həqiqətlər ardınca gedən Şərq milliyyətpərvərləri üçün də atılacaq çox mühüm bir hissə vardır ki, bu da dostluq maskası altında hərəkət edən Moskva agentlərini gözdən buraxmamaqdır.

## IV

## BUXARİNİN TƏRİFİ, MAHMUD BƏYİN TƏFSİRİ

**Buxarinin tərifinə görə, Türkiyə Cümhuriyyəti dəxi Çin dərəcəsində olmasa da, Hindistan qədər "Moskva agentləri" təqib edilən bir məmləkət halına girmişdir.** Çünki, burada Kommunist Firqəsinin hürriyyətsizliyi bir faktdır. Çünki, burada da kommunistlər təqib olunur. Buxarin hər nə qədər istifadə etdiyimiz nöqtədə Türkiyədən səhihliklə bəhs etmiş deyilsə də, III İnternasional agentlərindən Kitayqorodski bu bəhsi Moskvada nəşr olunan rəsmi kommunist qəzetələri vasitəsilə yayılan məqalələrində ətraflı izah eyləmişdir. Kitayqorodskinin 26 avqust tarixli 193 nömrəli "Pravda" qəzetində "Türkiyədə işçi hərəkatı vardır" sərlövhəsi ilə yazılan məqaləsi və yenə "Pravda" qəzetində "Türkiyədə işçi hərəkatı vardır" sərlövhəsi ilə yazılan məqaləsi və yenə "Pravda" qəzetində (30 avqust 1927, nömrə 196) Türkiyə seçkiləri və bu seçkilərdə iştirak hüququ və azadlığından məhrum qalan Türkiyə Kommunist Firqəsinə aid nəşr olunan baş məqalənin məğzi vaxtilə "Yeni Qafqasiya"[5] məcmuəsinə əks etdiyi kimi, gündəlik mətbuata da keçmişdi. Bu məqalələrdə bir tərəfdən Çin milliyyətpərvərləri kimi kamalçıların da (o cümlədən möhtərəm deputat Mahmud bəyin) "Türkiyədə işçi hərəkatı yoxdur" iddiası inkar, bu hərəkatın mövcud olub "Kamal hökuməti" tərəfindən təhdid və təqib olunduğu "isbat" olunur; digər tərəfdən də Türkiyə Kommunist Firqəsinin gizli surətdə işləmək zərurətində qaldığı təs-

bit olunurdu. Fəqət Kitayqorodskinin bu mövzuda daha ziyadə diqqəti cəlb edən bir məqaləsi hələ Türkiyə mətbuatına yol tapmamışdır. Moskvada Kommunist Firqəsi Mərkəzi Komitəsinin fikirlərini yayan gündəlik "Pravda" qəzetinin 15 gündə bir nəşr olunan "Bolşevik"[6] adında bir əlavəsi vardır. Bu məcmuə Sovet hökumət nümayəndələri ilə Kommunist Firqəsinin ali üzvlərinə məxsus olmaq üzrə çap olunan bir topludur. Bu toplunun 30 sentyabr 1927 tarixində nəşr olunan nüsxəsində yenə Kitayqorodskinin qələmilə "Kamal Türkiyəsi haqqında qeydlər" başlığı altında uzunca bir məqalə nəşr edilmişdir. Bu məqaləyə Kitayqorodski bir haşiyə yazmışdır. Haşiyədə deyilir: "Mətbuat səhifələrində bu günə qədər Kamal Türkiyəsi haqqında çap olan yazılar birtərəfli olmuşdur. Biz Ankara hökumətini bu vaxta qədər yalnız islahpərvəranə işıqlandırmışıq və təsvir etmişik. Halbuki, bu məqalə ilə mən Türkiyənin kölgəli tərəflərini işıqlandırmaq fikrindəyəm".

**Türkiyə Cümhuriyyətinin Kitayqorodskiyə görə "kölgəli" tərəfləri isə bundan ibarətdir:** "Bir kərə Türkiyə Milli Demokrat bir cümhuriyyət deyil, sadə burjua – liberal bir cümhuriyyətdən ibarətdir. Xalq Firqəsi yeni zənginlərin firqəsidir. Mustafa Kamal Paşa bu yeni zənginlərin lideri və qəhrəmanıdır. Kəndli bu rejimdən qeyri – məmnundur. Onu xatircəm edəcək islahat yapılmamışdlr və bu rejim durduqca yapılmaz da. Fəhlənin vəziyyəti isə təsviri qeyri – qabil bir şəkildədir. O, səfil və pərişandır. Əsgərlər sabiq idarələrdə olduğu kimi, insanın şəxsinə lazım olan hörmətdən məhrumdurlar. Təlim əsnasında döyülür və təhqir olunurlar".

Bu növdən bir çox çərən – pərənləri qeyd və təsbit etdikdən sonra bü günkü Türkiyənin simasını təsvirə qalxışan Ki-

tayqorodski tərbiyəsizliyin ciddən fövqünə çıxır. Kamal Türkiyəsinin siması, Kitayqorodskiyə görə, "Zəhmətkeş xalqın qanlarını soran varlı şəhər və kənd siniflərinin mənafeyini güdən həris, qəddar, mürtəce və çılpaq bir burjua hakimiyyətindən ibarətdir".

**Gündəlik İstanbul qəzetlərində** təsbit etdiyi vəchlə Türkiyədə Kommunist hərəkatını tənzim və təşkil etmək vəzifəsi ilə məmur olan bu adama görə, İngiltərə ilə Sovetlər arasında zühur edəcək hər cürə ehtimalların təhhəqüq edə biləcəyi bu dövrdə Kamal Türkiyəsinin Sovetlərə qarşı verdiyi "sədaqət imtahanından" müvəffəqiyyətlə çıxıb – çıxa bilməyəcəyini öyrənmək lazım imiş. Onun nəzərində "Türkiyə bu imtahanda müvəffəq olmamışdır". Çünki, İstanbul mətbuatı yoldaş Rozenquliçin Londonu tərk edərkən söylədiyi nitqini ələ salmışdır. Yoldaş Voykovun qətlini "Milliyyət" qəzeti[7] "Bir bəyazın bir qızılı öldürməsi kimi ümumi bir hadisə qəbilindən hesab eyləmiş" və bu qədərlə kifayətlənərək Polşa hökumətinin bu xüsusdakı tədbirlərini kafi görmüşdür. Şükri Qaya[7] bəyin Cenevrəyə gedərək Beynəlmiləl Çalışma Komitəsi ilə görüşməsi Sovet mühərririnə şübhəli görünmüşdür. Necə ki, Fransa ilə kuponlar məsələsinin nəhayət bir surəti – hələ yaxınlaşdırılması da onun fikrincə, sual və qayğı doğurur. Xülasə "Qızıl diplomatiya uzaqgörən olmalı, baş verəcək beynəlmiləl ixtilaflarda Türkiyənin Sovetlərə qarşı bitərəfliyini yalnız sözdə deyil, işdə də təmin etməyə baxmalıdır!"

Bu təminatı görürük ki, XV Kommunist qurultayında söz söyləyən Buxarin nəzəri və əsaslı bir surətdə vəz edərək bütün Şərq məmləkətlərindən istəyir. Belə bir təminatın III İnternasionalca ən böyük zamini, şübhəsiz Kommunist Firqəsinin hər

növ ehtimala qarşı bəhs olunan məmləkət daxilində qiyama hazır olmasıdır.

Hərbçi deputat möhtərəm Mahmud bəyin "Milliyyət" qəzetində nəşr olunan baş məqaləsində hər nə qədər III İnternasional hərəkatından Sovet hökumətinin məsul tutulmayacağı irəli sürülürsə də, Buxarinin İnternasional rəisi olmaqla bərabər, Sovetlər İttifaqını idarə edən Kommunist Firqəsi Mərkəzi Komitəsi üzvlərindən və "Siyasi qələm"in ən fəal nümayəndələrindən olduğu dəxi məchul deyildir. Hankı Şərq hərəkatının özü ilə artıq gedilə bilməyəcək irticaçı bir qüvvət olduğunu tərif edən formulunu da, diqqət edəyin ki, Buxarin III İnternasional qurultayına deyil, Sovetlər İttifaqı Kommunist Firqəsinə qəbul etdirmişdir. Demək ki, Sovet hökuməti ilə III İnternasionalı ayrı qeyri birər müəssisə kimi qiymətləndirmək doğru olmaz. Bunlar bir sikkənin iki üzünə bənzərlər.

## V

## KOMMUNİZM TƏHLÜKƏSİ MÖVCUDDUR

Yuxarıdan bəri qeyd etdiyimiz hadisələr bizə göstərir ki, III İnternasional və bu pərdə arxasında duran, daha əsil adı ilə Rusiya Kommunist Firqəsi, başqa təbirlə Sovet hökuməti Şərqdəki milli cərəyanlar haqqındakı hərəkət tərzini dəyişdirmişdir. Görürük ki, stalinçilər Çin məsələsində müxalifləri trotskiçilərin təklif etdikləri "Bilavasitə hərəkət" şüarını qüvvə ilə rədd etdikləri halda, işdə tətbiq edirlər. Çiçerinin Kantondakı sovet üsyanından Sovet hökumətinin xəbərdar olmadığı haqqındakı təminatı kimsəni xatircəm edə bilməz. Çin millətçilərinin

Kanton üsyançılarını rədd etdikləri xəbəri Moskvaya gəlmədən əvvəl "Pravda" qəzetinin ilk səhifəsində III İnternasional İcra Heyətinin bütün dünya fəhlələrinə xitab edən bir bəyannaməsi nəşr olunmuşdu. Bu bəyannamədə Böyük Çin inqilabının zühuru münasibətilə inqilabçı dünya proletariat təbrik olunaraq burjua dövlətlər arasında yalqız qalan "Sovetlər İttifaqı"na yeni bir qüvvət zühurilə gəldiyindən bəhs və Sovetlər İttifaqındakı xalq kütlələri başında olmaq üzrə bütün dünya fəhlə və kəndliləri çinli qəhrəmanlara yardıma dəvət olunurdu.

**Öz torpaqlarında kommunist propaqandasına məhəl verməyən və milli mücadilələrini hər növ vəsait və himayə xaricində öz qüvvətləri ilə istiqlalla idarə etmək əzmində olan Şərq millətlərindən hər biri zühur edəcək ilk fürsətdə belə bir bəynnaməyə mövzu təşkil edə bilməyəcəklərindən heç də əmin olmasınlar.** "Məmləkətimiz kiçik məmləkət və kəndli məmləkətidir. Sənayemiz inkişaf etməmişdir. Proletariatımız yoxdur. Sosializm üçün bizdə zəmin olmaz. Buna görə kommunizm propaqandasından qorxmayın" – deyənlər səmimi bir qənaət ifadəsinə rəvac verirlərsə - bizcə yanılırlar. Çünki, təbii inkişaf, sənayenin işə salınması, proletariatın zühuru, şəhərlərin böyüməsi, sərmayələrin mərkəzləşməsi, kəndlinin fəhlələşməsi nəticəsində öz – özünə gələn, istər – istəməz haqqını tələb edən sosializm başqa, Rusiya tipindəki kommunizm də başqadır. Kommunizm sənayecə inkişaf etmiş bir məmləkət məhsulu olsaydı, əvvələn Rusiyada deyil, Avropada və Amerikada zühur edərdi və Rusiyada zühur etməməsi lazım gələrdi. Çünki, Rusiya Avropa məmləkətləri arasında ən az sənayeçi olanıydı. Burası yüzdə 85 kəndli məmləkətidir. Sonra kommunizm üsyanına Avropa məmləkətlərindən ən ziyadə mə-

ruz qalanları ən az sənayesi olanlarıdır. Hərbdən məğlub çıxmış olduğuna və ən qüvvətli socialist partiyasına malik olduğuna baxmayaraq, Almaniya kimi sənayeli bir məmləkət belə özünü kommunizmə qapdırmadı. Əksinə, Almaniyanı kommunizmdən qurtaran ən lətif amillər arasında, marksizm tərbiyəsi görmələrinə baxmayaraq, Almaniya Sosial – Demokratları vardır. Kautski qədər bolşevizm düşməni bir nəzəriyyəçi yoxdur. Bolşevizm – elmi sosializmin təsvir etdiyi Avropavari bir istiqamət olmaqdan ziyadə rus xəyalpərvərliyi ilə anarxizmindən doğulan bir cərəyandır. Bu cərəyana qüvvət verən ictimai varlıqlar yalnız fəhlə hərəkatı deyil, hər cür ictimai məmnuniyyətsizliklərdir. Bolşevizm ibtidai və bəsit mühakimələrə çox cazibəli gələn mübaliğəli fikirləri və boş vədləri ilə ibtidai zühurunda bəzi başları dumanlada bilər. Milli vəhdət, milli istiqlal və milli demokratiya kimi həqiqətən də tarixi böyük məqsədlərlə meydana atılan Şərq məmləkətlərində keçirilən bu istihalə zamanında bütün ehtiyacları birdən dəf etmək, bütün sinif və zümrələri birdən məmnun buraxmaq imkanı yoxdur. Əksinə, yapılan işin zəruriliyi müvəqqəti bir zaman üçün məmnuniyyətsizliklər daha ziyadə çoxala bilər. Belə bir zamanda milli demokratiyaları təhdid edən cərəyan qara irticadan artıq qızıl irticadır. Hətta kommunizm özü ilə məfkurəvi hər cürə bağlılıqdan uzaq, irəlidə düşmən ola biləcək bəzi zümrələri belə əl altından istifadə edir. **Şərq məmləkətlərində, o cümlədən Türkiyədə müqavimət daima əcnəbi bir intriqaya alət olmuşlardır. İrtica qüvvəti belə bir intriqaya alət oldu. Fəqət cəzasını aldı**. O, bütün keçmişi ilə və zamanın tələbi ilə zatən etibardan düşmüşdü. Halbuki, kommunizm kələyi elə deyildir. Bu, bəzi gənc başları dumanlada bilər. Beynəlmiləl siyasət

zərurəti bu günə qədər tətbiq olunan siyasət dəxi perspektivli surətdə bu qəflətə az təsir yapmayır. Buna görə bir tərəfdən demokratiya islahatının vacibliyi tətbiq olunarkən, digər tərəfdən də bu islahatı müşkül edə biləcək III İnternasional intriqalarına meydan buraxılmaması üçün nə qədər diqqət edilirsə, yeridir.

Bu xüsusilə belə sırada mühümdür. Çünki, son günlərini yaşamaq səbəbi ilə məhdudlaşdırılmış olduğu beynəlmiləl mücadilədə bir az nəfəs ala bilmək ümidilə Şərq millətlərini ifrat dərəcəli hərəkətə sövq ehtiyacında olan kommunizm, milli istiqlal mücadiləsini öz arzu etdiyi şəklə qoya bilmək üçün hərəkət üzərində daha ziyadə müəssər olmaq istəyir. Çindəki hadisənin ifadə etdiyi məna bu olduğu kimi, Buxarin formulunun işarət etdiyi məna da budur. Kitayqorodski ilə Türkiyə Kommunist Firqəsi də bunu istəyir. Qızışdırılan bu arzular qarşısında özümüzü "Türkiyə inkişaf etmiş sənayeli bir məmləkət deyildir" əmniyyəsi ilə ovundurmayağın. Hər növ narazılıqlardan demaqoqca istifadə edən rusxasiyyət kommunizmə qarşı ehtiyatlı olmalıyıq!..

Milli Azərbaycan nəşriyyatından: sayı 8

# İXTİLALÇI SOSİALİZMİN İFLASI VƏ DEMOKRASİNİN GƏLƏCƏYİ

**Rəsulzadə Məhəmməd Əmin bəy tərəfindən iki konfrans**

**Fiyatı: 15 quruş**

**İstanbul. Orxaniyyə mətbəəsi. 1928**

# İXTİLALÇI SOSİALİZMİN İFLASI

**İnsan müəyyən bir ibtidadan gəlib müəyyən bir intəhaya doğrumu gediyor**? Yoxsa ibtida və intəhası bəlli olmayan bir yolun daima yüksəklərə çıxan bir yolçusumudur? Zərurət və əsarət içərisində yaşayan fərd kəndini təzyiq edən cəmiyyət üsuli-həyatını dəyişdirərək zərurət dünyasından çıxa biləcəkmi? Yoxsa, daha iyi bir tərzi-həyat iktisabına qadir olmaqla bərabər, insan kəndini saran maneələrə qarşı daima mücadilə etmək zərurətindəmidir?

Dinlər, dünyanın zərurət və ehtiyac evi olduğuna qane olduqlarından insanın heç bir növlə vaz keçməyəcəyi "hürriyyət" idealını tətmin etmək üçün işi iqbaya buraxıyor, möminlərini cənnətlərlə avutuyorlardı. Əxlaqiyun, təhəmmül və səbr nəzəriyyəsini tərbiyə edərək insanı cəbri-nəfs etmək, dünyadakı təzad və ehtiyaclar fövqünə çıxmaq surətilə ruhən azad, mənən məsud bir filosof şəklinə qoymaq istədilər; fəqət fitrətən xudkam olan insan nə öldükdən sonra təkrar dirilərək məsud bir həyat yaşamaq kibi "verəsiyə"lərə, nə də "məzlumiyyət" kibi "ücrət"lərə qane olur cinsindən idi. O, ümumiyyətlə yaşayışından məmnun deyildi. Zərurət dünyasındakı şəraiti dəyişdirmək və bir an əvvəl hürriyyət dünyasına çıxmaq ehtiyacını ruhunda taşıyordu.

# I

# "DÜNYA CƏNNƏTİ" MƏFKURƏSİ

**18-ci əsrin sonlarında və 19-cu əsrin ibtidalarında zühur edən, bir tərəfdən Russo**[1]**, Kant**[2] **və Hegel**[3]**, digər tərəfdən də Kont**[4]**, Spenser**[5] **və Marks**[6] **kibi filosoflar bəşəriyyətə yeni ümidlər nəfx etdilər.** Müxtəlif nəzəriyyələr, çox kərə mütəzad sistemlər müdafiə edən bu filosoflar müasirləri üzərində icra etdikləri dərin təsirlərlə fikirlərdə "dünya cənnəti"nə aid bir qənaət doğurdular. Professor Novqorodtsevin təsnifinə görə bunlar əvvələn qane idilər ki: mümtaz bir qismi şəklində olsa belə, insaniyyət kəndi mövcudiyyətinin məsud və mövud dövrəsinə yaklaşıyor və saniyən: insaniyyəti tarixin bu son səadətli mərhələsinə yetirəcək ecazkar sözlə, xilaskar sistem kəndilərinə məlumdur.

**Russo bəşəriyyətin** daha məsud günlərə irəcəyini sərahətlə söyləməmiş isə də, onun nəşriyyatı böylə bir etiqada səbəb olmuşdur. Russonun peyğəmbəranə dəvətləri bəşəriyyəti əsarət və yalan zəncirlərindən qurtaracaq yeni bir kitab təşkil ediyordu. Məlum olduğu üzrə Russo, insanın əvvəlcə daha hürr və təbii bir həyat yaşadığına qane idi. Əvvəlcə mövcud olan bu təbii halı yenidən qanuniləşdirmək mümkünmüdür? sualına o, "bən bu məsələyi həll edə bilir ümidindəyim!" deyə cavab veriyordu. Filosofun bu cəsur cavabı yeni siyasət kitabının mütədəyyinlərinə can və iman veriyordu. "Xalq hakimiyyəti" nəzəriyyəsi bu dinin sərih və parlaq bir ifadəsi idi.

**Kanta görə** "əbədi sülh boş bir fikir deyildir". Filosof bəşəriyyəti bu məqsədə götürən amillərin getdikcə məqsədə yaklaşdıqlarını iddia ediyor.

Bəşəriyyətin yanaşacağı nicat sahili Kanta görə daha çox uzaqda isə də, **Hegelə görə** bu, ən yaxın bir zamanda hüsul bulacaq bir nemətdir. Dövlət, Hegelcə insan qüvvətlərinin ən böyük təəzzüvüdür. Məqsədə irmək üçün əql ilə xüsusi mənfəətlər və ehtiraslar arasında şiddətli bir mücadilə vardır. Fəqət bu mücadilə – filosofca – nəhayətə irmiş, arada etilaf hasil olmuş, "dövlət, əqlin bir ifadə və şəniyyəti halına gəlmişdir". "Bizim aləm" ilə "günlərimiz" "tarixin son mərhələsidir". Hegelcə, bəşəriyyət həddi-büluğuna irmişdir. Allahlıqla insanlığın, afaqiliklə ənfəsiliyin etilafı bu büluğun fəlsəfi ifadəsidir. Bunun əməli mümərssili isə müasir hökumətdir. O hökumət ki, "fərdə şəxsi təkamülünü təmin etməklə bərabər cəmiyyətin vəhdətini də təmin ediyor". Fərd ilə cəmiyyət etilaf ediyorlar.

Başqa əsaslar və ifadələrlə olsa da, **Kont dəxi bəşəriyyətin** istiqbalını eyni qətiyyət və nikbinliklə təbşir eləmişdir. Müsbət fəlsəfənin müəssisi "bəşəriyyətin mümtaz qismi təbiətə ən ziyadə uyan ictimai intizam dövrünün hüluluna yanaşmaq üzrə bulunuyor" deyə müntəzirləri təsəlli etməkdədir. Bunun üçün filosof hər şeydən əvvəl, fikir və mühakimələrin fünuni-müsbətə əsası üzərinə tövhidini tələb ediyor; fikir və mühakimələrdəki anarşiyi bərtərəf etməyə lüzum görüyordu. **Konta görə** bəşəriyyət Russo, Kant və Hegeldə olduğu kibi hüququn mütəkamil şəkillərini tətbiq etməklə deyil, elm və fənnin sözgötürməz həqiqətlərinə tabe olmaqla nicat bulacaqdır.

Təkamül nəzəriyyəsinin mümərssili olan **Spenser belə əsrinin** hakim fikri bulunan ictimai nikbinliyə həqq vermişdir. Spensercə də "tərəqqi bəşərin bütün ehtiyaclarını təmin

edəcək bir dərəcəyi bulacaqdır. Filosofa görə xudkamlıqla digər kamlıq arasındakı mücadilə göründüyü kibi daimi deyildir. Cəmiyyətdəki tərəqqi sayəsində bir gün gəlir, bu mücadilə tamamı ilə zail olur. Ən uzaq bir zamanda olsa da bəşəriyyət ahəng və intizam dünyasına girə bilmək imkanı ilə məsuddur.

Təbii inkişafın eyni ahəng və intizamla nəticəpəzir olacağı fikri Marks nəzəriyyəsinin də əsasını təşkil edir. Təkamül nəzəriyyəsi **Spenser kibi** Marksı da günün birində zərurət dünyasının hürriyyət aləminə təbəddül edəcəyi etiqadına gətirmişdir. Ona görə bir gün gəlir ki, "qəsblər qəsbə uğrarlar". Bu qəsb kapitalizmdə mövcud təbii qanunların inkişafı ilə, kəndi-kəndinə hasil olur. İstehsal məhdud əllərdə birikir; bir sərmayədar bir çoxlarını əzir, meydandan çıxarır. Sərmayədarların azalmasilə səfalət çoxalır; istismar müdhiş bir şəkil alır; digər tərəfdən əmələnin canı acır, müqaviməti artar. Nəhayət, sərmayənin bir mərkəzdə birikməsi cəmiyyətin əksəriyyətlə əmələ halına keçməsi təzadı son dərəcəsinə gətirir. Siyasi məhfəzə iqtisadi təzyiqə davam gətirəməz. Kapitalizmin son dəmi gəlir, "qasiblər qəsbə uğrarlar". Bu inqilab vüqu bulduqdan sonra dünya dəyişir. İnsanlar "zərurət dünyasından hürriyyət səltənətinə" keçərlər. "Hürriyyət dünyasında" isə insanlar maddi zərurətlərini rəf üçün deyil, mənəvi arzu və zövqlərini tətmin üçün çalışırlar; cəmiyyət, istehsal alatına sahib olmaqla, əvvəlcə məhkum bulunduğu şərait və mühitə şimdi hakim olur. Fərd ilə cəmiyyət yekdigərinə qovuşur; mücadilə və təzad meydandan qalxar. Hürr, ahəngdar, mövzun və zərurətsiz bir dünya vücuda gəlir. Sosializm təhəqqüq edir, bir kəlmə ilə dünya cənnət olur.

## II

## SOSİALİZMDƏ MARKSİZM

Sosializm Marksdan başlamaz. İnsan mədəni bir cəmiyyət halında yaşadığı andan etibarən, sosializm fikri ilə aşina olmuşdur. Daha qədim Yunanıstan sosializm məfkurəsini bilirdi. Yunan **filosoflarından Əflatun (Platon)**[7] ideal dövləti xüsusi mülkiyyətdən azadə bir iştirak əsası üzərinə təsəvvür ediyordu. Ondan sonra cahan mütəfəkkirləri arasında sosializm fikri ilə məşğul olan nəzəriyyəçilər çox olmuşdur. Sosializm **tarixi Ouen**[8]**, Furye**[9]**, Sen-Simon**[10]**, Prudon**[11] və sairə kibi böyük idealistlərin çox hərarətli dəvətlərini, çox müxəyyəl təsəvvürlərini təsbit etmişdir. Bu mücahidlər bəşəriyyətin zərurətdən xilas olacağını, paranın ortadan qalxacağını, insanın istədiyi kibi çalışıb, istədiyini bulacağını təsəvvür ediyorlardı; işbu ədalət, üxüvvət və müsavat dünyasının biran əvvəl vücuda gəlməsi üçün idealistik propaqandalara təvəssül ediyor, sosializmin gələcəyinə romantik bir etiqadla inanıyorlardı.

Bununla bərabər sosializm **Marksın zühuruna qədər** cahanşümul bir mahiyyəti iktisab etməmiş, sosializm mötəqidlərinə xəyal ilə uğraşan "utopist"lər kibi baxılmışdı. Marksın bütün qiyməti bu xəyala elm sosu verməkdir. O, buna müvəffəq oldu. Marksdan əvvəlki sosializmə xəyali sosializm, onun təsis etdiyi sosializmə isə elmi sosializm denildi ki, digər təbiri də marksizmdir.

Marksizm yalnız dünya tərəqqisinin, kapitalizm inkişafının sosializmə müntəhi və dünya cənnətinin təhəqqüq edəcəyini

iddia etməklə iktifa etmədi. O, bu tarixi sirrin nə surətlə hüsula gələcəyi haqqində bir nəzəriyyə təsis etdi. Hegelin tarixi idealizmə tətbiq elədiyi təarüz dialektik qanununu tarixi maddəçiliyə tətbiq edərək o, dini, ictimai və siyasi müəssisələrin sabit bir şey olmayıb daima təhəvvül etdiyini və bu təhəvvüldə fikirdən ziyadə maddənin, hətta münhəsirən maddənin, amili-müəssir olduğunu iddia elədi.

Koyu materialist olan Marksa görə cəmiyyət yekparə bir vücud deyildir. O, müxtəlif siniflərdən ibarətdir. Bu siniflər istehsaldakı mövqelərinə görə təyin edib yekdigəri ilə rəqabət və hətta mücadilə etməkdədirlər. İctimai hər sistem müəyyən bir sinif hakimiyyəti üzərinə qaimdir. Kapitalizm sistemini təmsil edən sinif burjuadır. Sosializm sistemini təhəqqüq etdirəcək sinif də əmələdir. Marks "proletariat" ismi ilə başqa muzdurlardan təfriq etdiyi kapitalist sənayeindəki əmələyi idealizə edər.

**Marks və arkadaşı Engelscə**[12] millət kibi dövlət də daimi bir müəssisə deyildir. Bunlar kapitalizmlə məşrut birər məfhumdurlar. Onlarca, millət və dövlətlər arasındakı mücadilələr belə, bir millət və dövlət içindəki sinif mücadiləri kibi iqtisadi mənfəət ixtilaflarının birər ifadəsidir. Millətlər yox, yalnız siniflər vardır. Zərurət dünyasının malzəməsi olan dövlətin də, millətin də ortadan qalxması üçün bu müəssisələrlə əlaqəsi olmayan "proletarya" sinfinin zəfərinə lüzum vardır. Bu zəfər isə gələcək. "Əmələ diktaturası" elan olunacaqdır. Diktaturayı təsis edən əmələ isə tədricən dövlət müəssisəsini inhilal etdirəcək və hürriyyət dünyası vücuda gələcəkdir. Bunun üçün Marks Hegelin xilafına olaraq əsri dövləti idealizə etməz, biləks onu inkar edər. Marksca əsri dövlət kapitalistlərin diktaturasından

ibarətdir. Əsası zülm və qasiblik üzərinə qurulmuş bir binadır. Bu bina yıxılmalıdır. Bunun üçün o, siniflərin təsanüdünü rədd, mücadilələrini qəbul və təqdis edər. Əsri cəmiyyətin bünyəsində qoyulan sinif mücadiləsini yumşaltmaq istəyən ictimai islahatçılar marksizmə görə "qasiblərin qəsbə uğraması" gününü təxir edən və bununla yeni məsud həyatın doğmasını müşkülləşdirən zavallı utopistlər və idareyi-məsləhətçilərdir. Marks ilə arkadaşı Engels bilxassə nəşriyyata başladıqları ilk dövrdə sosialist inqilabının biran əvvəl hülul edəcəyini bəkliyor və bu ümid ilə əmələyi təşkilata dəvət ediyorlardı.

## III
## KOMMUNİST MANİFESTİ

**Marks Adam Smit**[13]**, Şarl Jid**[14]**, List**[15] **və sairə kibi yalnız yeni bir məktəb təsis etmiş böyük iqtisad alimi deyildir.** O, eyni zamanda sosializmin mühəqqəq surətdə gələcəyinə və proletaryanın bir zərbeyi-inqilabla əsarətdən hürriyyətə atılacağına iman etmiş bir dahi idi. Cahan fikriyyatı üzərindəki əhəmiyyəti də bundandır. Bu sayədədir ki, o, digər iqtisad alimləri kibi yalnız kəndi şagirdləri və kəndinə mümasil mütəxəssislər arasında qalmayıb, aləmşümul bir şöhrətə malik, dinləri inkar edən yeni əmələ dininin peyğəmbəri olmuşdur. Bu dinin kitabı biliyorsunuz ki, "Kapital"dır. "Kapital"ın üç böyük clddə söyləmək istədiyi Marksla Engels tərəfindən yazılan "Kommunist manifesti"ndə xülasə edilmişdir.

1848-də nəşr olunan və 1872-də təkrar nəşr edilirkən müəllifləri tərəfindən 25 sənə sonra olsa dəxi hökmündən bir sətrini olsun qeyb etmədiyi iddia edilən bu vəsiqə ixtilalçı marksiz-

min etiqad etdiyi əsasları qüvvətlə ifadə etməkdədir. Bu vəsiqəyə görə "həyati-bəşər bütün təfərrüatına varıncaya qədər dəyişməyə məhkumdur. Burada dini, əxlaqi, ictimai və siyasi bütün qanunları ilə şimdiki dünyaya elani-hərb edilmişdir. Tarixi irtibatların, ənənələrin hüdud və xüsusiyyətlərin kaffəsinə bir qələm çəkilmişdir. Bu yeni müəzzəm və hiddət qarşısında ailə, milliyyət, sinif fərqi ortadan qalxdığı kibi, vətən, dövlət və mülkiyyət məfhumları da zail olmalıdır. Proletarya bəşəriyyəti hər növ istismar, təzyiq və mücadilə külfətindən xilas etmək kibi müqəddəs bir vəzifə ilə müşərrəfdir".

**Manifestə görə** bir tərəfdən sərmayələrin birikməsi, digər tərəfdən cəmiyyətin proletarizə edilməsi sayəsində çox çəkməz mütərəqqi Avropa dövlətlərindən birində, təxsis Almaniyada əmələ hakimiyyəti əlinə alır; "proletarya diktaturası"nı təsis edər və bu surətlə o, digər cahan əmələlərinə rəhbərlik edərək kapitalizm dünyasını devirər.

İxtilalçı sosializmin cahan cənnəti həqqində bəslədiyi ümid "Manifest"də olduğu qədər qüvvət, məntiq vüzuh və cəsarətlə başqa bir yerdə ifadə edilməmişdir.

## IV
## LASSALİYANİZM

Russo və Hegel məktəbinin dövlətə, milli təsanüd və "ictimai müqavilə"yə bağladığı ümidin nikbinanə nəticələri bu ümidi idealizə edənlərcə təhəqqüq etmədi. Doğrudur, siyasi demokrasi irəlilədi, yeni müəssisələr tərəqqi etdi. Bu müəssisələr sayəsində Avropa orta əsrlərdəki məhdudluğundan çıxdı: bədiiyyat, fikriyyat, elm və fəlsəfə qüvvətli və fəyyaz bir fəvəran-

la fışqırdı. Əqliyyat ilə müsbət fənlər geniş bir meydan aldı. Texnikdə vücuda gələn kəşflər sayəsində məişət əqllərə heyrət verəcək bir şəkildə dəyişdi.

Əvət, siyasi demokrasiyə bağlanan ümid boşa getməmiş, bu sayədə həyat epeycə inkişaf eləmiş, cəmiyyətdə mövcud gizli istehsal qüvvətləri fəyyaz bir surətdə çiçəklənmiş, çox faydalı səmərələr vermişdi. Fəqət bütün bunlarla bərabər böyük filosofların həyəcanlarla təxəyyül etdikləri ictimai ədalət, digər təbirlə "cahan cənnəti" daha hüsula gəlməmişdi. Bu tatlı xəyal ilə yaşayanlar hala intizarda idilər. İştə Marks ilə Engels elan etdikləri "Manifest"lə bu intizardan gələn yəsi yeni bir ümidə təbdil ediyor; nicatın dövlətdən və demokrasidən deyil, "diktatura" ilə "sosializm"dən gələcəyi şövqünü əmələyə təlqin ediyorlardı.

**Məlum olduğu üzrə sosializm fikri** əmələyi istihdaf edər, bir nəzəriyyə olsa da həyatda əmələdən olmayan mütəvəssit siniflər ilə münəvvərlərdən bir qismini dəxi cəlb eləmişdir.

Hərbi-ümumi ərəfəsində əğləb Avropa dövlətlərində pək mühüm birər təşəkkül halında bulunan sosialist firqələri beynəlmiləl bir təəzzüvə malik idilər. Almaniya sosial-demokrat firqəsi bu "internasional"a daxil olan firqələrin ən mühümü idi. Üç milyona qərib əzaya malik idi. Buna yeddi milyona qərib əzaya malik əmələ sendikalarının da kəndisinə hüsni-təvəccöh bəslədiklərini əlavə edərsək, o zaman bu firqənin nə müdhiş bir təşəkkül olduğunu təxmin edə biliriz. Digər məmləkətlər Almaniya qədər olmasa da, az çox əmələ firqəsinə malik idilər; siyasi həyatlarında sosializm pək mühüm bir rol oynamaqda idi. Almaniya firqəsi yalnız əzasının çoxluğu ilə deyil, tarixinin qədimliyi və rəislərinin cahanşümul qiymət və etibarı ilə

də mümtaz bir qüvvət idi. Karl Marks ilə Engels ən əsl almaniyalı olduqları kibi**, Bebel**[16]**, Lassal[**17] **və Kautski**[18] **kibi** məşhur sosialistlər də buradan yetişmişdi.

Avropa sosializminin hərbi-ümumi zühuru üzərinə dərin bir böhran keçirdiyi məlumumuzdur. 19-cu əsrin ictimai ən qüvvətli idealını təşkil edən sosializmin müharibə əsnasında və sonra keçirdiyi inhilal və iflas günlərini iyicə anlaya bilmək üçün Almaniya firqəsinin tarixini tədqiq etmək surətilə sosializmin əlli-altmış sənə əsnasında keçirdiyi fikri-təhavül və inşiab tarixini, müxtəsər də olsa, gözdən keçirmək zərurətini hiss ediyoruz:

Almaniya sosial-demokrat firqəsində əskidən bəri "lassaliyanizm" namilə məruf bir cərəyan vardır; bu cərəyan marksizmlə daimi bir təsadüm halında idi. Marksın yuxarıda gördüyümüz vəchlə dövlət həqqindəki nəzəri mənfi idi. Halbuki **Ferdinand Lassal** bu xüsusda tamamilə Hegelə sadiq idi. Müsbət bir görüşü vardı. Dövləti inkar deyil, qəbul ediyordu. Lassala görə dövlət bir sinfin digər siniflər üzərindəki təğəllüb və hakimiyyətindən ibarət deyil, cəmiyyətin idarəsinə yarar, siniflər fövqündə bir makinadır. O, liberalizmin dövləti iqtisadi münasibata müdaxilədən mən edən nəzəriyyəsini cərh ediyor, böylə bir müdaxilə demokratik dövlətin vəzifəsindən olduğunu iddia ediyordu**. Lassala görə** əsaslı qanunlar cəmiyyət içindəki ictimai siniflərin bilfel haiz olduqları qüvvət və iqtidarın həqiqi təvazinini təsbit edən vəsiqələrdir. Bu düşünüşü ilə o, Russonun "ictimai müqavilə"sindən mülhəm olduğu kibi, əmələyə xitabən söylədiyi bir nitqində Hegelin dövlət həqqində bəslədiyi idealistik görüşlərə də tərcüman oluyor, **Bernşteynin**[19] bir ifadəsinə görə adəta **Fixtenin**[20] ağzı ilə söylüyordu; o diyordu:

“Tarix, əfəndilər, insanın təbiətlə mücadiləsindən ibarətdir. Təbiət denilən şey ehtiyac, fəqr, zərurət, cəhalət, zəf və sairədən ibarətdir. İnsan tarixə ilk girdiyi sıralarda təbiətə qarşı çox zəif idi. Bu zəfin getdikcə azalmasına mətuf olan hərəkət hürriyyətin inkişaf və tərəqqisi deməkdir ki, tarixin ifadəsi də odur. Bizlərdən hər hankımız kəndi başına hərəkət etmiş olsaydı, bu mücadilədə qətiyyən müvəffəq olmazdı; nitəkim şimdi də olmuyor və iləridə də olamaz. Hürriyyəti inkişaf etdirmək, növi-bəşəri hürriyyət yoluna sövq etmək işi dövlətə düşər bir vəzifədir. Dövlət fərdlərin mənəvi vəhdətdə birikmiş bir məcmuidir, öylə bir vəhdət ki, fərdin qüvvətini milyonlar dəfə artırır; fərdin kəndi başına çıxaracağı müəyyən qüvvəti milyonlar dəfə artdırır. Dövlətin vəzifəsi yalnız fərd ilə mülkiyyəti müdafiə etmək deyildir. Onun vəzifəsi biləks, fərdin təkbaşına hasil edəmiyəcəyi şeyi fərdlərin birləşdirilməsi ilə hüsula gətirməkdir. Dövlətin vəzifəsi insanın təbiətindəki müsbət xassələri tərəqqi etdirməkdir. Digər təbirlə, insanın şəni həyatdakı vəzifəsini təhəqqüq etdirməkdir. Dövlətin vəzifəsi növi-bəşəri hürriyyətə alışdırmaq, onu bu yolda tərbiyə etməkdir”.

**Dövlət fikrini tənqid deyil**, idealizə edən Lassal məhkəmə qarşısında kəndini müdafiə edərkən söylədiyi bir nitqində “dövlət hər hankı bir mədəniyyətin atəşi-müqəddəsidir ki, onu bən sizinlə bərabər (hakimlərə xitabən) o barbarlara qarşı müdafiə ediyoram” demişdir.

Marksca sərapa zülm və təəddidən ibarət olan dövlət Lassalca mədəniyyət xaliqi bir “atəşi-müqəddəs”dir. Birisi onu yıxmaq, atəşə vermək, bir an əvvəl devirmək istər; digəri isə biləks, onun atəşi ilə cəmiyyəti isidir, onun təkəmmülünə çalışır, nöqsanını islah etməklə növi-bəşərə daha ziyadə müfid

olmasını dilər. Birisi yıxıcı ixtilal, ötəki yapıcı islahat tərəfdarı.

İxtilalmı, islahatmı? – iştə sosializm və marksizm fikrini sənələrdən bəri işğal edən və onu dürlü-dürlü məktəblərə bölən iki mühüm sual!...

## V
## ERFURT PROQRAMI

İxtilalçı sosializm şövqü liberalizmin "ictimai ədalət" təsisindəki ədəmi-müvəffəqiyyəti nəticəsində gəlmişdi. İslahat fikri də ixtilalçı sosializmin vəd etdiyi ixtilal gününün gecikməsi sayəsində irəliləyordu. Marksın həqiqi şagirdləri böyük bir ümid və imanla ixtilal gününün biran əvvəl gəlib yetişəcəyini hər gün təkrar ediyor, əmələnin qulağını dolduruyordu. **Sosial-demokrat məbuslarından Kolmar** 1892-1893 sənələrində nəşr olunan sosialist "Neue zeit" qəzetəsindən topladığı bu qəbil cümlələri risalə halında nəşr eləmişdir: bu nümunələrdə sosializmin 19-cu əsrdə həlli, yaxın zamanda əmələ ixtilalının zühuru və kapitalizmin kommunizmə təbəddül edəcəyi kibi kəhanətləri saymaqla bitməz!

İctimai inqilabın biran əvvəl zühur edəcəyinə bağlanan iman sosializm firqəsinə lazım idi. Çünki bununla o, əmələnin və arxasından gələn kütlənin səbirsizliyinə bir növ cavab veriyordu. Fəqət bu təbiyyənin müvəffəqiyyəti çox da uzun sürəməzdi. Bir tərəfdən qızğın qafalar təhəvvürə gələrək anarşizm və ixtilalçı sendikalizmə təmayül ediyor, tarixi mərhələyi bəkləmədən qüvvətə müraciət etmək üsulunu mürəccəh buluyor; digər tərəfdən də ələlümum ixtilal ilə bir şey qazanılacağından ümid kəsiliyor, islahat təriqinə gediliyordu; sosializm

“intizar və səbirsizlik” böhranına tutuluyor, parçalanıyordu. Almaniya bir böyük sənaye məmləkəti idi. Almanların tarixən təşəkkül etmiş milli təbiətləri intizampərvərlik idi. Bu səbəblərlə Almaniya sosializmi daha elmi cəhətə süluk etdi, marksizmin son hədəflərini rədd etməməklə bərabər, bugünki dövlət və cəmiyyət daxilində dəxi əmələnin, qismən olsun həyatının təmininə və hürriyyətinin, mümtaz olduğu qədər, təsisinə əhəmiyyət verdi. 1891-də Erfurtda toplanan Parteitaq yeni bir proqram nəşr etdi. Bu proqram iki qismdən ibarət idi. Bir qismi uzaq məqsədi qəsd edərək eyni ilə bəhsi keçən kommunist manifestindən, digər qismi də yaxın məqsədi hədəf ittixaz edən bir minimumdan ibarət idi. “Minimum” denilən proqramda, sosial-demokrat firqəsi dövlətin də demokratizə edilməsini, ümumi intixabların icrasını, qanuni müəssisələrin iki sənədə bir toplanmasını tələb ediyor; hər növ siyasi təhdidlərin ilğasını iləri sürüyor; referendum həqqini istiyor; xalqı imperiya, dövlət, vilayət və şəhər işlərində kəndi-kəndini bizzat idarə etməyə dəvət ediyor; əsgər yerinə milis tələbində bulunuyor; hərb və sülhün milli rəyə müraciətlə həll edilməsini, beynəlmiləl ixtilafların hökm vasitəsi ilə təsviyəsini tələb eliyor; dinin fərdə məxsus bir iş olduğunu və sairəyi ideal bir hökumət əsası olaraq elan ediyordu.

**Bu tələblərin bütün radikalizminə rəğmən** proqram olaraq ortaya qonulmasını Marks ilə Engels vaxtilə protesto eləmiş, bunu Lassal idealizminin “opportunizmi” şəklində tələqqi etmişlərdir. Çünki dövləti islaha mətuf bulunan bu maddələrlə firqə təkrar tarixi rabitələrə ovdət eləmiş, dövləti tanımış bulunuyordu. Halbuki buna müqəddimə olaraq dərc olunan manifest, biləks dövləti, islahi qeyri-qabil bir müəssisə kibi

kökündən baltalıyor, sosialist ixtilaldan sonra təsis edəcək cəmiyyətdə dəxi dövlət müəssisəsinə yer vermiyor, onun tədricən inhilalına qail bulunuyordu. Şu surətlə Marksın iqtisadi maddəçilikdən çıxan kommunizm xəyalı ilə Hegelin idealizmindən gələn dövlət həqiqəti yan-yana gəliyor, ixtilalçılıqla islahatçılıq bir dəftərə yazılıyordu.

## VI
## REVİZİYONİZM VƏ SOSİAL-PATRİOTİZM

Erfurt proqramındakı bu ikilik sosializm təşəkküllərindəki fikri mücadilənin klassik bir mənşəni təşkil eləmişdir. İxtilalçılar firqə ilə əmələyi manifestə, islahatçılar da zeylinə doğru çəkmişlərdir.

Lassal ruhunu idealizə edən alman sosialistləri, mövud ixtilal günü uzaqlaşdıqca "Manifest"in firqə proqramında tarixə və keçmişə hörmətən sadə bir bəyannamə rolu oynadığına qane olmuş "Manifest" ilə bərabər "Kapital"ın belə ortaya qoyduğu qəti üqnumları tədqiq və təhqiqə lüzum görmüşlərdir. Bernşteyn tərəfindən təmsil olunan bu tədqiqçiliyə Almaniya sosializm tarixində "reviziyonizm" denilir. Reviziyonizm sinif mücadiləsinin əhəmiyyətini idrak etməklə bərabər, bunun Marksda olduğu kibi qəti və mütləq bir qiyməti haiz olmadığını iddia eləmiş, sinfi mənfəətlərini müdafiə etməklə bərabər əmələnin milli mənafe naminə dövlət daxilində digər siniflərlə təşriki-məsai edə biləcəyi ilə, sinif təsanüdünə dəxi mənfi bir nəzərlə baxmamaq lazım gəldiyini iləri sürmüş; eyni zamanda kapitalizm inkişafının Marksın iddia etdiyi vəchlə mütləqa sosializm inqilabına müncər olacağı qəziyyəsini dəxi şübhə altı-

na almışdır. Kapitalizmin inkişafı ilə əmələ səfalətinin artdığı, kooperativlər, sendikalar və ictimai islahat sayəsində Marksın dediyi qədər olmadığı kibi, kuy və ziraət istehsalı təsəvvür olunduğu qədər təmərküz etmiyor, üfuq sərmayədarların ədədi isə qətiyyən azalmıyor, orta siniflər "Kapital" və "Manifest"də söyləndiyi kibi heç də qaib olmuyorlar.

"Reformizm" Almaniyada irəlilədiyi kibi digər məmləkətlərdə də irəliləyor; sürətlə inkişaf edən Avropa kapitalizmi milli hüdudunu keçərək müstəmləkə siyasətinə atılınca oradan cəlb olunan fəzlə qiymətləri vətən burjuazisi qismən kəndi "proletaryası" ilə buluşduğundan bittəb hər məmləkətin sosialistlərində bir növ sosializm milliyyətçiliyi, digər bir təbirlə, "sosial-patriotizm" tərbiyə edilməyə başlıyor. Şöylə ki, 1904 sənəsində Almaniya ilə Fransa arasında məruf Aqadir məsələsindən dolayı çıxan hadisədə məruf alman sosialistlərindən Bebel Reyxstaqda irad elədiyi nitqlərindən birində "biz bu topraq üzərində yaşıyor və onu kəndimizə mehriban bir ana vətən halına qoymaq üçün mücadilə ediyoruz. Biz bu məqsədlə çalışıyoruz, buna doğru gediyoruz. Və bu vətəndən bir qitəyi olsun kimsəyə çeynətməz, onun yoluna canımızı fəda edəriz" demişdir. Digər bir nitqində "..... bən və arkadaşlarım yabancılara bir ovuc olsa da alman toprağı tərk edəməyiz. Çünki Almaniya parçalandığı gün millətin mənəvi və ictimai həyatı da parçalanmış deməkdir!"

Marksın hər növ xüsusiyyətləri məhv edən internasionalizminə müqabil burada insanın kəndi vətəninin istiqlalını müdafiə etmək lüzumundan bəhs olunuyor. Mücərrəd sosializm məfhumu insanın müəyyən idrakı tərəfindən cərh olunaraq təkrar tarixi əlaqələri ricət olunuyor. Burada bütün sinifləri kəndisinə bağlayan ümumi səlah fikri təhəqqüq ediyor.

Vətən nədir? Üzərində yaşadığımız topraqmı? Bu, yalnız yaşadığımız topraq deyil, Bebelin üsulətlə işarət etdiyi kibi bu, ana-babalarımızdan bizə keçən mənəvi qiymətlərin yekunudur. Bu, həm din, həm dil, həm ədəbiyyat, həm gözəl sənətlər, xülasə bir millətin həqiqi siyasi və mənəvi şəxsiyyətini təşkil edən bütün qiymətlərin məcmuidir!

Almaniya sosializminin şüuru yalnız vətən və millət məfhumlarında deyil, digər xüsuslarda dəxi mövcud bütün qiymətləri inkar edən ixtilalçı marksizmdən uzaqlaşıyordu. Marks din ilə mücadiləyi sosializmin ancaq elm və fənnə etibar etməsinin pək bariz bir rəmzi kibi tələqqi etdiyi halda, Erfurt proqramı dini hər kəsə məxsus xüsusi bir iş kibi elan eləmiş, **Libknext**[21] isə "sosializmi ateizmə müstənid digər dinlər əleyhində bir din kibi tələqqi edilməkdən" qurtarmaq lüzumundan bəhs və bu bəhsi ilə xalq kütləsi üzərində nüfuzları qüvvətli olan katolik firqələri ilə mücadilə etməyi təshil etmişdir. Almaniya sosial-demokrat firqəsinin nizamnaməsi mövcibincə bir sosialist istədiyi kəlisaya mənsub ola bilir.

Vətən və millət fikri hərbi-ümumi ərəfəsində yalnız Almaniya sosialistlərində deyil, digər məmləkət sosialistlərində dəxi büllurlanmış bir şəkil almaya başlamış, hər tərəfdən bir növ "vətən sosializmi" vücuda gəlmişdi. İngilis sosialistlərindən məşhur **Makdonald**[22] – ki keçənlərdə əmələ hökumətini də təşkil elədi – 1909 sənəsində nəşr elədiyi bir əsərində Engelsin dövləti tərif həqqindəki tezini cərh edərək diyor ki:

"Dövlət – bu, nə hökumətdir, nə də cəmiyyət; bu, müstəqil millətin mütəəzzüv siyasi şəxsiyyətidir; heyəti-ictimaiyyənin siyasi vasitələrlə ümumi idarəsini icra edən təşkilatıdır. Dövləti yalnız fərd tərəfindən vücuda gətirilmiş bir müəssisə kibi görmək

doğru deyildir. Onun vücuda gəlməsində keçmişin də rolu vardır... Bunun üçündür ki, dövləti üzvi bir vücud kibi görməlidir".

Eyni fikri ifadə edən "reviziyonist" Bernşteyn "funksiyonların inqisam və təşxisi üzərinə heyvanlarda bel kəmiyi nasıl təşəkkül etmişsə, cəmiyyətdəki iş bölümü təsis etməklə də hökumət makinası vücuda gəlmişdir. İş bölümünün irəlidə azalması deyil, daha ziyadə artması təbii olduğundan dövlətin də keçici deyil, əbədi olması iqtiza edər" diyor.

Dövlətin şu surətlə tələqqisi hərbi-ümumiyə təqəddüm edən sənələrdə aşağı-yuxarı bütün Avropa sosialistlərində qüvvətli tərəfdarlar bulmuş, beynəlmiləl mücadilə və rəqabətdə bir millətin əmələləri digər bir millətə qarşı kəndi burjuaları ilə müttəfiqən hərəkəti caiz görməyə başlamışlardı.

## VII
## HƏRB ƏSNASINDA SOSİALİZM

Hərbin zühuru ilə beynəlmiləl münasibat münqəte olunca sosialist internasionalı da parçalandı. Ümumi qitalı protesto etmək üzrə Fransada Jores, Almaniyada Libkinext kibi idealistlər çıxdı isə də, bunlar əqəliyyətdə qaldılar. Əksəriyyət hər tərəfdən vətən müdafiəsini sosializm internasionalizminə tərcih etdi. Belçika sosialisti Vanderveld kral Alberin, Almaniya sosialisti Şeydeman[23] da imperator Vilhelmin qapısından ayrılmadılar. "Döyçland Über Alles"[24] nəğməsi yalnız alman rasistlərinin (irqçilərinin) deyil, eyni zamanda sosialistlərinin də virdi-zəbanı idi. Hərbi-ümumi əsnasında Almaniya sosial-demokratlarının işləyib də müdəvvin bir hala qoyduqları sosialist vətənpərəstliyi tədqiqə dəyər bir hadisədir.

1909 sənəsində professor Harms nəşr etdiyi bir əsərdə sosial-demokratları keçirdikləri bu böhrandan yalnız "Lassala doğru!" şüarı qurtara bilir, demişdi. 1916-da isə bu sözü sosial-demokratlar arasında söyləyənlər oldu. O sənədə nəşr elədiyi bir əsərində alman sosial-demokrat mütəfəkkirlərindən Keniş, müharibədən sonra firqə Lassalın nəzəriyyələri ilə onun ənənələrinə və onu təqib edən Rişveytserin fikirlərinə müraciət etməlidir, yaxud onların iləri sürdükləri fikri hazırki vəziyyətlərə uydurmalıdır, diyordu.

Kenişcə "sosial-demokrat firqəsi sinif mücadiləsi fikrindən vaz keçməz, fəqət alman millətinin vəhdəti naminə daha ziyadə qətiyyətlə alman dövlət məfkurəsinin bayrağı altına girərək, Almaniya dövlətçiliyi ilə daha sıx surətdə birləşir".

Görülüyor ki, burada Marksın sinif mücadiləsi həqqində iləri sürdüyü tez ilə Lassalın dövləti idealizə etdiyi tez arasında bir ülfət təsis olunuyor. Çox qabildir ki, kəndi keçmişinə ehtiramən və Marksın xatirəsini etirazən firqə daha bir çox zaman əski şüarlarını sözdə də olsa təkrar edib duracaq; fəqət yalnız təkrar edəcək. İşdə isə ixtilal ümdələrindən ziyadə dövlətçilik və islahat əsaslarına sarılacaqdır. Bernşteynin məruf bir sözünə görə "əsl olan qayə deyil, hərəkətdir"; yəni dünyanın bir gün gəlib də hər dürlü tarixi rabitələr xaricində sosializm cənnəti şəklinə girəcəyi qaranlıq bir xəyaldır. Halbuki içində bulunduğumuz cəmiyyətin hərəkəti təmasla hiss olunur, gözlə görülür bir mahiyyətdədir. Realist bir siyasinin vəzifəsi məşhudatdan çıxaracağı hökmlərlə iş görmək, bugünki mümkünü yarınki xəyala fəda etməməkdir. Bugünki mümkünat alman sosialistlərini realizmdə 4 ağustos 1914 siyasətinə gətirdi. Bu tarix sosializm tarixində pək böyük bir dövrün dönüm nöqtəsini təşkil edir. Bu

gün kəndi aralarında cərəyan edən çox hərarətli münaqişədən sonra sosial-demokratlar hərb büdcəsinə rəy vermək qərarını vermişlərdi. Bu qərar sonra "4 ağustos siyasəti" namı ilə məruf olan dövrə bir məbdə təşkil etmiş oldu. Almaniyada hər kəs sosial-demokratların hərb büdcəsini rədd edəcəklərini bəklər ikən, möcüzə zühur eləmiş, sosial-demokratlar bütün dünyayı heyrətdə buraxmışlardı. Fövqəladə zamanlar, bilxassə müharibə günlərində cəmiyyətə daxil olan zümrə və siniflərdə digər kamlıq hisləri coşar, milli vicdan, milli şüur daha həssas, daha müdrik olur. Sosial-demokratlar da kəndilərini bu əsnada alman olaraq duymuşlardır. O "ağustos günlərində" – duyğularını nəql edən Keniş diyor ki, – "biz sanki çox uzun sürən bir uyqudan oyandıq. Gözlərimizi açdıq və dəfətən ən böyük ehtiyacdan və ən böyük təhlükədən doğan Almaniya vətənini tutduq! Və Almaniya vətəni də bizi tutdu..." Keniş yenə diyor ki: "Əvvəlcə əmələ vətən məfhumunda yalnız kəndi düşmənini görüyordu, halbuki şimdi o, kəndisini onun bir hissəsi olaraq hiss ediyor. Əvvəlcə o dövləti dışarıdan hücumla alınacaq və dağıdılacaq bir qala şəklində görüyordu; halbuki şimdi onun hiss və fikirləri dövləti daxilindən almaq və islah etməyə məşğuldur. Əmələ hərəkəti artıq dövlət ilə müəssisələrini kəndi əlinə keçirib onları kəndi ruh və arzusu vəchlə tənzim edə bilmək dövrünə giriyor. Bu, əmələlərin yaradıcı dövlətidir. Təməli atılmış bu dövlət əmələnin ürək qanı ilə müdafiə edəcəyi müstəqil dövlətdir".

Bu sətirlər hərb əsnasında, 1916 sənəsində yazılmışdır. Fəqət buradakı ruh və tərzi-ifadə, dövlətçilik və vətən naminə söylənən mədhiyyə alman sosializminin müharibəyə təqəddüm edən cərəyanı ilə hazırlanmışdır. Vildenberq Almaniya sosialistlərinin marksizmdən etizallarını göstərən iki anı təs-

bit ediyor: biri "reviziyonizm", digəri də hərb əsnasındakı tərzi-hərəkət! Reviziyonizmi daha Erfurt proqramı əsnasında görülən lassaliyalizmin bir növü kibi tələqqi edərsək, o zaman 4 ağustosa qədər iki şəkildə görülən etizalın yalnız bir qəzyənin tərəqqi və təkamülündən ibarət olduğu meydana çıxar ki, o da alman sosializmində milli dövlət məfkurəsinin tədrici təkamülündən ibarətdir.

Bu təkamül zəminində görülən "4 ağustos siyasəti" ümumi milli məqsədlərin rəsmən təsdiqindən ibarət olub vətənpərvərlik ələni bir nümayişdir: sinif idrakı aşkar və qəti surətdə meydandan çəkilərək mövqeyini milli hissiyyata tərk eləmişdir.

## VIII ALMANİYA İXTİLALI ƏSNASINDA SOSİALİZM

1918 sənəsinin məğlubiyyəti üzərinə Almaniyada ixtilal vüqu buldu. İxtilal hadisəsindən daha əvvəl düşünülən koalisyon hökumətinə dəvət olunan sosial-demokratlar ("əksəriyyət sosialistləri") bu dəvəti qəbul etməkdən qorxmadılar. Bebelin, sosialist firqəsi hökuməti yalnız sosializm inqilabını yapmaq məqsədi ilə ələ almalıdır, tövsiyəsini dinləmədilər. November inqilabından və Vilhelmin istefasından sonra hökuməti tamamilə ələ aldıqda belə, sosial-demokratlar sosializm ümdələrini deyil, demokratik cümhuriyyət hökumətinin əsaslarını təhkim etməklə məşğul oldular. Sərkarə gələn sosialist hökuməti demokrasi və hüquqi hökumət yolu ilə getmək əzmində olduğunu göstərdi, sinif hakimiyyəti və əmələ diktatorluğu sistemini rədd etdi. İxtilal zamanlarında nəşr edilən nüsxələrindən birində "Forverts" qə-

zetəsi "Biz hökuməti cəbrlə ələ alsaq da onu cəbr işləmək üçün deyil, ədalət və hüququn təsisi üçün sərf edəcəyiz. Biz qalib gəldik; fəqət bu qələbənin səmərəsini kəndimizə deyil, bütün xalqa təşmil edəcəyiz. Şüarımız "hakimiyyət sovetlərə "deyil", hakimiyyət bütün millətə aiddir!" olacaqdır" diyordu.

"Forverts" bu şüarın Erfurt proqramına tamamilə müvafiq olduğunu söyləməyi dəxi unutmuyordu. Həqiqətən də Almaniya sosial-demokratlarının inqilab əsnasında tətbiq etdikləri siyasət Erfurt proqramının Lassal təsiri ilə tənzim olunan "Minimum" maddələrinə müvafiq idi. Fəqət "Maksimum"unu təşkil edən manifestinə heç də müvafiq deyildi. Almaniya sosial-demokratlarının Erfurt proqramından yalnız minimum qismini aldıqları sonra cümhur rəisi olan əmələ Ebertin 1918 sənəsindəki qələbəyi mütəaqib əmələ və əsgər depoteləri şurasında söylədiyi tarixi nitqlə də təsbit edilmişdir. Ebert bu nitqində "Qalib proletarya sinif hakimiyyəti təsis etmiyor. O, ibtida siyasi, sonra da iqtisadi təhəkkümü ortadan qaldıraraq insan sifətini daşıyan bütün fərdlərin hürriyyət və müsavatını təmin ediyor. Demokrasinin ən böyük məfkurəsi budur" diyordu.

Demokrasi fikrini sinif hakimiyyətinə qarşı qoymaqla Almaniya sosialistləri dövlət daxilində, siniflər fövqündə milli bir vəhdət mövcud olduğunu etiraf etmiş oluyorlar. Keniş diyor ki: "Hərb əsnasında biz, bir zaman unutduqlarımızı təkrar öyrənmiş olduq: öyrəndik ki, millət arasında sinif ixtilaf və mücadilələrindən maəda bütün siniflərə xas ümumi və müştərək bir şey dəxi vardır". Keniş bu qədərlə qalmıyor, hərb əsnasında alman millətinin bütün nəvaqisinə rəğmən əsgərlikdə, iqtisadda və təşkilatda pək böyük bir məharət göstərməsi ilə də iftixar ediyor.

Bu, yalnız sözdə deyildi. Bir az sonra Almaniyada zühur

edən daxili iğtişaşlarda əksəriyyət sosialistlərinin kommunistlərə və sairlərinə qarşı göstərdikləri şiddət, demokrasiyi mühafizədə ibraz etdikləri cəsarət həqiqətən də təqdirəlayiqdir. Sosialist Noske ilə Ebertin Almaniya cümhuriyyətinə göstərdikləri xidmət Böyük **Fridrix ilə Bismarkın**[25] Almaniya imperatorluğuna yapdıqları xidmətdən az deyildir. Əksəriyyət sosialistlərinin Lassal kibi, demokrasi məfkurəsini var qüvvət və qənaətlərilə müdafiə edən nəzəriyyəçiləri də vardır. Qrednaur namını daşıyan bu adamın fikirləri ilə Kelzen namında digər, sosialist olmayan bir nəzəriyyəçinin fikirləri arasında heç bir fərq olmadığını rus müdəqqiqlərindən bir professor söylüyor; Qrednaur bəzən Marksdan bəhs edirsə də, əsərlərində bundan zərrəcə bir əsər yoxdur, diyor.

Almaniya sosial-demokratlarının ixtilal əsnasında parçalandığı ilə sonra təkrar birləşdiklərinin təfsilinə girişmiyəcəyim; bunlardan kommunistlərə gedənlərdən maədası təkrar birləşmişlərdir. 1920 sənəsindən bəri Almaniya sosial-demokratları arasında firqə proqramının dəyişməsi olduqca mövzuyi-bəhs idi.

1902-də Kasseldə toplanan firqə konqresi proqramın təbdili üçün təklif olunan komisyonu bilaetiraz qəbul elədi. Bu konqredə firqə proqramının dəyişməsi lüzumu həqqində Qota proqramı ilə Erfurt proqramlarının tənzimində iştirak etmiş olan əski sosial-demokratlardan Molkenburq və “reviziyonizm” lideri Bernşteyn ilə bərabər, yeni ruhu təmsil edən Laufketr ilə Ventiq də var idi. Laufketr böylə bir fikir bəyan ediyordu. O diyordu ki: “Əvvəlcə sosializm bir mədə məsələsidir, derlərdi; şimdi bu bir hars məsələsidir. Sosializmin vəzifəsi insanı mədəniyyətin yüksək zirvəsinə çıxarmaqdır. Bu vəzifə məişətin iqti-

sadi əsaslarını dəyişmədən ifa olunamaz. Bu iqtisadi dəyişiklik daha mühüm bir məqsədin hüsulu üçün də lazımdır. Bunların kökü isə hars və mədəniyyət sahəsindədir. Laufketrcə "din fərdə məxsus bir qiymət" deyildir. Hökumət vətəndaşların vicdani və fərdi qiyməti həqqində əhəmiyyəti haiz olan bu müəssisəyə qarşı laqeyd qalamaz. Firqənin də, dövlətin də bu məsələ ilə ciddən məşğul olmasını təklif edərkən konqre əfradından bir çoxu kəndisini "çox gözəl" nidalarıyla təsdiq eləmişlərdir. Laufketrdən sonra çıxan Ventiq isə din bəhsində söz söylərkən, "sosial-demokrat firqəsi guya ki, tarixi maddəçilik əsası üzərində bina tutmuşdur" deyə 19-cu əsrdə burjuazi əlindən düşən bayrağı qaldırmayı firqəsinə təklif eləmişdir; onun fikrincə, "burjua sinfi mənəviyyatı tərklə sadə materializmə getmiş, mədəniyyəti maddiləşdirmişdir".

Məlum olduğu üzrə Marks sosializmi tarixi maddəçilik əsası üzərinə müstənid mütləq kommunizm ilə iqtisadi materializmdən ibarət biliyordu. Halbuki həyat ilə qarşı-qarşıya gələn Almaniya sosial-demokratları müəllimin bu mütləq əsaslarından nə qədər uzaqlaşmışlardır!

Keçən sənə iniqad edən Heydelberq konqresində Almaniya firqəsi proqramı dəyişdi; konqre "Erfurt" proqramının "Minimum" qismində dinin sərbəstisinə, kəlisaların istiqlalına aid maddələri ilə bərabər digər xüsusatını tədil etdiyi kibi, "Manifest" qismini də epey yumuşatdı. Keçmişinə ehtiramən onu tamamilə qaldırmadısa da, "cəmiyyətin sosializm qayəsinə doğru getdiyini" qəti və hətmi surətdə ifadə edən təbirlərini "cəmiyyət inkişafının sirrini göstərir bir təmayül" şəklində tədil etdi. Yəni "sosializm inqilabı" firqəsindən ziyadə "sosial islahat" firqəsi olduğunu etiraf etmiş oldu.

“Sosializmə intizar böhranı”nın sənai məmləkətlərdə “reformizmi” doğurduğunu söyləmişdik. İştə sənai Almaniyada ixtilalçı sosializmin deyil, sosial islahat partisinin qələbə çaldığını da gördük. Bu həqiqət Almaniyada təzahür etdiyi kibi, İngiltərə, Amerika və hətta Fransa kibi məmləkətlərdə də aşağı-yuxarı eynidir. Demokrasi ənənəsi qüvvətli və sənai inkişafı qüdrətli olan məmləkətlər Marksın təsəvvür etdiyi sinif təhəkkümünü deyil, demokrasiyi təmiq ediyor, vətən və milliyyət fikrini inkar deyil, biləks ən böhranlı zamanlarda xilaskar bir fikir olmaq üzrə ona sarılıyorlar.

## IX
## RUSİYA TƏCRÜBƏSİ

Sənai Almaniyada ictimai islahat və milli demokrasi fikirləri təhəqqüq edərkən köylü Rusiyada diktatorluq ümdələri müzəffər oldu. Lenin marksizmi əslinə ircailə “ əmələ diktatorluğu”nu təsis etdi. Bu təşəbbüsün nə kibi “dünya cənnəti” vücuda gətirdiyini həpimiz iyi biliyoruz. Lenin məlum olduğu üzrə 2-ci internasional sosialistlərinin həpsinə mürtəd demiş, ixtilalçı marksizmdən uzaqlaşdıqlarını elan etmişdir. Bolşeviklərin “Manifest” ruhuna daha sadiq qaldıqları ilə daha ziyadə ortodoks marksçı olduqlarını qəbul edərsək, şu qəbildən marksizmin nəsibi dünyada cənnət deyil, ancaq cəhənnəm yarada biləcəyini qəbul etməliyiz.

“Cahan cənnəti” ehdasına Rusiyadan başlayan Leninin böyük hesabları cahan inqilabının imdada yetişəcəyinə bağlı idi. Bu xüsusda onun ən böyük ümidi Almaniya idi. Almaniya milli demokrasi nəzəriyyəsini tərvic edincə Moskva diktatoruna

ricət etməkdən başqa çarə qalmadı. Marks, Erfurt konqresini görmədən ölmüşdü. Lenin isə "yeni iqtisadi siyasəti" kəndi təsis edərək öldü. Bu siyasətin şimdiki halda kommunist firqəsini ikiyə ayırdığını biliyoruz. Bir tərəfdə həqiqi kommunistlər; digər tərəfdə də bir növ islahatçılar duruyor. Həqiqət təkrar xəyala qalib gəliyor.

* * *

Milyonlarca can, milyonlarca sərvətə mal olan rus təcrübəsi dəxi isbat ediyor ki, yer üzündə hər növ milli və tarixi əlaqə və rabitələrdən ari cahan cənnəti təsis etmək fikri xam bir xəyaldır. Bu xam xəyal üçün cahan tarixinin müsbət bir həqiqət olaraq meydana gətirdiyi milli demokrasiyi fəda etmək olmaz. Sosializmin təsisi ilə zərurət dünyasına intəha verilərək hər növ qeyddən azadə bir hürriyyət dünyasına atılmaq xülyası ilə şəxsi hürriyyətimizi bizə ən əmin və ən təbii surətdə təmin edəcək milli istiqlal və milli demokrasi şüarından uzaqlaşmayalım! Biləlim ki, tarixi-ibtida və intəhası bəlli olmayıb daima yüksəklərə doğru gedən layətənahi bir yoldur. Bu yolun irə biləcəyi müxəyyil aqibət şəxsin mümkün olduğu qədər daha hürr, daha sərbəst, daha mütəkamil bir vücud olmasıdır. İnsandakı fərdi məziyyət və nöqsanların əksəriyyətlə mühit və cəmiyyətdən alınan xislətlər olduğunu nəzərə alırsaq, insan cəmiyyətlərinin milliyyət və demokrasi əsaslarında hürr və müstəqil olmalarının cahan tarixindəki rolunu həqqilə anlar, milli dövlət məfkurəsinin ülviyyət və xəllaqiyyətini bütün vücudumuzla hiss və əqlimizlə dərk edəriz!

**4 şubat 1926. İstanbul**

# DEMOKRASİNİN GƏLƏCƏYİ
## I
## MƏSƏLƏNİN VƏZİ

Hərbi-ümumidən sonra cahan tarixinin seyrində müəssir ən böyük amillərdən birisi şübhəsiz, bütün qüvvət və əhəmiyyətilə tarix səhnəsinə gələn şərq milliyyətpərvərliyidir. Türkiyə Cümhuriyyəti başda olmaq üzrə şərqdəki milliyyətpərvərlik – digər təbirlə – milli istiqlal uğrunda cərəyan edən müəzzəm hərəkətin həqiqi mahiyyəti gözətdiyi qayə etibarilə demokratikdir. Hakimiyyəti-milliyyə, cümhuriyyət və istiqlal şüarları ilə mütəhərrik bulunan bu hərəkət, şübhə yoxdur ki, bir demokrasi hərəkətidir.

Əvət, şərq demokrasiləşiyor. Bu demokrasiləşmək cərəyanında məmləkətimiz Azərbaycanın rolunu ayrıca təyinə ehtiyac görmüyorum. Şu qədərini qeyd etməliyiz ki, yeddi-səkkiz sənədən bəri müstövli düşmənə qarşı qeyri-müsavi şərait daxilində davam etdirilən qanlı mücadilə iadeyi-istiqlala mütəvəcceh bir dava, eyni zamanda demokrasi uğrunda bir mücadilədir.

Demokrasi hər hanki bəşəri bir cəmiyyətin idarəsinə məxsus bir sistemin adıdır. Bu ismin bilxassə siyasi idarəyə ələm olduğu da məlumdur. Demokrasi sisteminin arayi-ümumiyyəyə müstənid bir xalq idarəsindən ibarət olduğu da həpinizcə məlumdur. Bu xalq idarəsinin nə kibi təmsili məclislər və müəssisələr tərəfindən idarə olunduğu və nə kibi hüquqi ümdələr və ictimai hürriyyətlər mənzuməsinə istinad elədiyini burada təfsil edəcək deyiliz. Demokrasi şüunatının nədən ibarət olduğu, az-çox həpimizcə məlumdur, deyə düşünüyorum.

Mövzumuz da “Demokrasi nədir?” deyil, “Demokrasinin gələcəyi”dir.

Fəqət demokrasinin gələcəyi ilə nədən məşğul oluyoruz? Bu mücərrəd məsələ ilə iştiğalın faidəsi nədir? deyə sorula bilir. Bizcə bu mövzu bizim üçün mücərrəd və nəzəri bir məsələ deyildir. Biləks bu, bizim üçün çox mühüm və aktual bir mövzudur. Nədən? deyə sora bilirsiniz. Çünki: demokrasi məfkurəsini biz, şərqlilər məlum olduğu üzrə qərbdən alıyoruz; daha səhih təbirlə, müasir mədəniyyət dünyasından əxz ediyoruz. Fəqət şərq demokrasi sistemini öylə bir zamanda tətbiqə başlıyor ki, bu sistem əsl vətəni olan Avropa ilə Amerikada “böyük cahan demokrasiləri” namı ilə məruf müasir məmləkətlərdə (İngiltərə, Amerika və Fransa) epey tənqidata məruz qalmışdır. Müasir mədəniyyətin üfulindən, Avropanın iflasından, demokrasinin inhilal və inqirazından bahis nə qədər əsərlər nəşr olunmuşdur. Kommunistlər soldan, faşistlər də sağdan demokrasiyi “möhlik” tənqidata hədəf inxaz edərək birər növ diktatorluq ehdas eləmiş; biri demokrasi sisteminin “yalan”, digəri də “zəf”dən ibarət olduğunu iddia etmişlərdir. Demokrasi, ələni və amansız düşmənlərini hər nə qədər Rusiya ilə İtaliya kibi demokrasi ənənəsi yox və yaxud çox zəif məmləkətlərdə bölmüşsə də, ənənəvi demokrasi məmləkətlərində dəxi o, müxtəlif cəbhələrdən tənqidə məruz qalmışdır. Radikal düşünür məruf demokratlardan bir çoxu demokrasinin düşmənləri tərəfindən dava olunan iflasını deyilsə belə, şiddətli bir böhran və xəstəlik keçirməkdə olduğunu etiraf etmişlərdir.

Hərbi-ümuminin cahan iqtisadiyyatı ilə beynəlmiləl münasibatı üzərində icra etdiyi təxribat qalib, məğlub və hətta bitərəf məmləkətlərin siyasi, iqtisadi və ictimai bünyələri üzə-

rində az təxribat yapmamışdır. Bu təxribat və sarsıntılar nəticəsində meydana həlli müşkül bir çox müzil məsələlər atılmışdır ki, bu məsələlərin həllində demokrasi üsulu ilə idarə olunan məmləkətlər az müşkülata uğramamış və az sarsıntı keçirməmişlərdir. Bu müşkülat və sarsıntılar hala həll edilməmişdir. Demokrasi tərəfdarı münəqqidlərin böhran, müxaliflərin isə iflas deyə tərif etdikləri bu halın mahiyyətini anlamaq, yeni demokrasiləşməyə başlayan bizim üçün əlbəttə zəruridir. Zəruridir, çünki biz bilməliyiz əcəba, demokrasiyi təsis etməklə modesi keçmiş bir sistemimi qəbul ediyoruz? Yaxud böhranda olan bir sistemi qəbul etməklə nə dərəcəyə qədər ehtiyat və bəsirətlə hərəkət ediyoruz? Riskimiz nədir? Bu böhran ixtiyarlıq nəticəsində gələn bir ölüm səkəratımıdır? Yoxsa bu yövmün qəziyyəsində görülən bir büluğ xəstəliyimidir?

Bütün bu suallara cavab vermək üçün demokrasinin gələcəyi olub olmadığını öyrənmək bizim üçün əlzəmdir. Bunun üçündür ki, "demokrasinin gələcəyi" mövzui biz şərqlilər üçün yalnız nəzəri deyil, əməli qiymətə dəxi malikdir.

## II
## DEMOKRASİNİN FƏLSƏFİ MAHİYYƏTİ

Demokrasinin gələcəyi olub olmadığını təqib edə bilmək üçün onun nə mahiyyətdə bir müəssisə olub, nə yolda inkişaf etdiyini təhqiq etməmiz lazımdır. Bu inkişafın seyrini (dinamikini) bilmədən bittəb onun nə kibi bir intəhaya namizəd olduğunu kəsdirmək də müşkül olur.

Məlum olduğu üzrə demokrasiyi təşkil edən üç mühüm əsas vardır. Bunlardan birincisi hürriyyət, ikincisi müsavat, üçüncü-

sü də hakimiyyəti-milliyyə əsaslarıdır. Demokrasi bu üç əsasın tərkibindən hasil olma bir mənzumədir. Bu əsasları birər-birər təhlil və onların demokrasidəki rollarını tədqiq edəlim:

Əvvəla, hürriyyət prinsipini alalım: bu, şübhəsiz demokrasiyi tərkib edən ünsürlərdən ən mühümüdür. Fəqət böylə olmaqla bərabər kəndi-kəndinə demokrasiyi təşkil edəməz, hətta hürriyyət prinsipi ilk dəfə olaraq bu gün həpimizin alışqın olduğumuz kibi, hürrəndiş zəvat tərəfindən deyil, ingilis kəlisalarından müstəqil məzhəblər tərəfindən irəliyə sürülmüşdür.

Müsavat fikri də ilk zühurunda bu gün bizim anladığımız mənada zühur etməmişdir. Müsavat fikrini ilk dəfə olaraq hökuməti-mütləqə tərəfdarları irəli çəkmişlərdir. Kralın hakimiyyətini təmin və krallığa mərkəziyyət verdirmək üçün hökuməti-mütləqə tərəfdarları müsavat prinsipini feodalitəyə qarşı müdafiə eləmişlərdir. Dövlət işlərinin yalnız feodallara xas bir iş olmayıb, qanun nəzərində bütün vətəndaşların müsavi bir həqqə malik olmasını tərvic eləmişlərdir. Sonra hüquqi-təbiyyə tərəfdarları bu fikri daha ziyadə dərinləşdirmiş, insanların bittəb müsavi olması fikrini yapmışlardır.

Hakimiyyəti-milliyyə fikri dəxi ilk dəfə olaraq, demokrasinin bu gün ən biaman düşməni olan cüzviyyət papasları tərəfindən müdafiə olunmuşdur. Bunlar dünyəvi hökumətlərə və hökmdarlara qarşı mücadilələrində xəlqülnasa istinad etmək məqsədi ilə bir zaman hakimiyyəti-milliyyə əsasını müdafiə etmişlərdir. Fəqət sonra bu fikir eyni zamanda yalnız kralların istibdadına qarşı deyil, papalıq şüun və məratibinə qarşı dəxi çevrilincə iş dəyişmiş, hakimiyyəti-milliyyəçilər təkfirə uğramışlardır.

Hürriyyəti mütləq surətdə alır və bunu yalnız mücərrəd hürriyyət prinsipi nöqteyi-nəzərindən məntiq icabı, sonuna qə-

dər götürürsək, iş demokrasi dairəsindən çıxaraq bir tərəfdən anarşiyə, digər tərəfdən də monarşiyə qədər gedər. Bir hökmdarın keyfi surətdə idarəsi dəxi monarxın mütləq bir hürriyyəti ilə məşrutdur. Nitəkim hər dürlü dövlət və icbar əleyhində bulunan anarşistlər də fərdin hürriyyətini mütləq surətdə müdafiə edirlər.

Müsavat prinsipinin mütləq və mücərrəd surətdə tətbiqi dəxi bizi məqsədə isal edəməz. Müsavatın mütləq surətdə tətbiqi hürriyyət məfhumu ilə bir təzad təşkil edər. Siyasi hüququda müsavat mümkün, iqtisadi fəaliyyət xüsusunda müsavat qabili-təsəvvür olsa da, şəxsiyyətlərdəki xüsusiyyətlərin mənən eyni dərəceyi-təsavidə görülməsi caiz deyildir. Bütün xüsusiyyətləri eyni təzyiq altında əzən "müsavat" həqiqi hürriyyət və fərdi zəkayı əzən bir afət olur.

Hakimiyyəti-milliyyə prinsipi dəxi surəti-mütləqədə tətbiq olunamaz. Surəti-mütləqədə tətbiq olunacaq hakimiyyəti-milliyyə hürriyyəti-şəxsiyyə prinsipi ilə koyu bir təzad təşkil edər. Bu, kollektiv naminə icra olunan bir cəbr və istibdaddan ibarət olur ki, bir fərd naminə icra olunan istibdaddan pək də fərqli olmaz. Rusiya misalında olduğu kibi.

Görüyoruz ki, bu üç əsasdan hər hankisi yalnızbaşına alınırsa demokrasiyi təşkil edəmiyor. Demokrasi bu, həddi-zatında müstəqil olan üç prinsip arasında tərkib yapıldığı zaman hasil olur. "Demokrasi məfkurəsi hakimiyyəti-milliyyə əsası üzərində hürriyyət və müsavat məfhumlarının tərkibindən ibarətdir". Bu formulu ilk dəfə verən zat Russodur. Russoya görə hürriyyətsiz müsavat olmadığı kibi, müsavatsız hürriyyət də yoxdur və bu iki məfhumun təlifi yalnız bütün camiənin və bu camiəyə daxil bulunan hər fərdin bizzat idarə edilməsi ilə hasil olur.

## III
## DEMOKRASİ MƏFHUMUNUN SEYR VƏ TƏKAMÜLÜ

Burada bir şeyi də qeyd etməliyiz. İctimai müəssisələrin kaffəsində olduğu kibi hürriyyət, müsavat və hakimiyyəti-milliyyə məfhumlarında da daimi bir istiqrar yoxdur. Bu məfhumlar zaman keçdikcə dəyişiyor, ifadələri başqalaşıyor. Bunlar dəyişdikcə bittəb bunların tərkib və təlifindən ibarət olan demokrasi məfkurəsi də dəyişiyor; dəyişməsi zəruri oluyor. Fərzən Russo və fransız məktəbində hüquqi müsavatın mahiyyəti bilxassə kəmiyyətdə idi. Hüquqi-təbiyyəçilər yalnız fərdi nəzərə alıyor, müsavatı fərdlərə təşmil ediyorlardı. Fransa hüquqi-bəşər bəyannaməsi insanın həqqindən bəhs edərkən yalnız onun şəxsini alıyor, bu şəxsiyyətin cəmiyyət daxilindəki vəziyyət və keyfiyyətinə əhəmiyyət vermiyordu. Vətəndaş bir fərd olmaq üzrə həqqi-intixab qazanıyor, hakimiyyəti-milliyyə ancaq fərdi rəylərin məcmui nəticəsində təqərrür ediyordu. Şimdiki demokrasi məfkurəsi isə hüquqi müsavat mahiyyətinə keyfiyyətə aid ünsürləri də fəzlə idxal etməyə başlıyor. Məsələ, təmsili-nisbi prinsipi bu qəbildəndir. Majoritar intixab sistemində böyük bir zümrə hakimiyyət həqqindən bilfeil məhrum qalıyor. Bu məhrumiyyətə meydan verməmək üçün intixabatda müasir demokrasi təmsili-nisbi əsasını vəz ediyor. Təmsili-nisbi əsasının tətbiqi ilə bir fərd sadə bir fərd olduğundan maəda bir də müəyyən bir fikir zümrəsini təşkil etmək həsbilə həqqi-əhliyyət qazanmış oluyor ki, bu hüquqi müsavat mahiyyətinə kəmiyyətdən maəda keyfiyyət ünsürünün də idxalı ilə

hasil oluyor. Bu qəziyyə təmsil məsləki prinsipi və federalizm əsaslarının tətbiqi ilə də təsbit olunuyor. İnsanlar sadə bir fərd sifətilə deyil, bir də bir məslək müntəsibi və yaxud müəyyən bir müsaheyi-səthiyyə əhalisi olmaq surətilə də həqqi-əhliyyət qazanmış oluyorlar. Axirən həqqi-əhliyyət qazanmaqda olan milli əqəliyyətlərə aid imtiyazlar da bu qəbildəndir. Bir insan yalnız müəyyən bir dövlətin vətəndaşı olmaq surətilə deyil, bir də bu dövlət daxilində mövcud müəyyən bir milliyyətə mənsub olmaq həsbilə də həqqi-əhliyyət qazanmış oluyor.

Hüquqi müsavat məfhumunda gördüyümüz bu dəyişməyi hürriyyət məfhumunda da müşahidə edə biləriz. Hüquqi-təbiyyə tərəfdaranınca fərd anadan hürr olaraq doğar. Fransa hüquqi-bəşər bəyannaməsində olduğu kibi bu tələqqi Amerika istiqlal bəyannaməsində də qeyd olunmuşdur. Hürriyyət fikri İngiltərədən alınmışsa da, Fransa ixtilalından sonra bilxassə rəvac bulmuş və 19-cu əsrin ilk yarısında adəta hakim bir vəziyyətdə bulunmuşdur. Hürriyyət məfhumu fərdi dövlətin, cəmiyyətin və hər dürlü qanunların təsir və təzyiqindən mümkün olduğu qədər azadə görmək istər. Siyasi, harsi və iqtisadi fəaliyyətində təbii qanunlara tabe olmayı fərd üçün kafi və bunu təbii görən hürriyyətçilər "liberalizm" məsləkini vücuda gətirmişlərdir. Liberallara görə dövlətin fərd üzərindəki nüfuzu əzmi surətdə təhdid olunmalıdır. Siyasi liberalizm bu məqsədlə fikrin, dinin, elmin, sözün, yazının, ictimai, ittifaq və təşəkküllərin sərbəstisini müdafiə edər. Nitəkim iqtisadi liberalizm də dövləti fərdlərin iqtisadi fəaliyyətlərinə müdaxilədən surəti-qətiyyədə mən edər. İqtisadi liberalizm məsləkinin mübəşşirləri bulunan fiziokratlarca iqtisadi fəaliyyətlər təbii qanunlara tabedir və bu xüsusda həyat nə qədər kəndi halına tərk edilir, iş təbiətə bu-

raxılırsa, cəmiyyət o qədər faidə görür. Fiziokratların müaqibi və iqtisad elminin müəssisiədd olunan İngiltərə üləmasından Adam Smit, fiziokratların "Burax yapsın, burax keçsin" şüarı ilə ifadə etdikləri iqtisadi liberalizm məktəbini təsis eləmişdir. Adam Smit və kəndisini təqib edən Mançester məktəbi-iqtisadisi fərdi dövlətə qarşı müdafiə eləmişdir. Hürriyyət fikrinin qayəsi siyasət, hars və din sahəsində fərdiyyət məbdəi olduğu kibi, iqtisadi sahədə də bu olmuşdur.

Sənai inkişaf dövrünə girən Avropanın 19-cu əsrin ilk yarısında və əqllərə heyrət verəcək bir tərzdə zühur edən tərəqqiyyatında hürriyyət fikri ilə fərdiyyət məbdəinin heç şübhəsiz, çox böyük təsiri olmuşdur. Fəqət hürriyyət fikrinin iqtisadiyyata tətbiqi ilə səri surətdə inkişaf edən Avropa sənayesi ufaq sənaye dövrünü atlayaraq böyük sənaye dövrünə keçincə hürriyyət fikrinin iqtisadi və sənai fəaliyyətinin hər sahəsində faidəli olub olmayacağı düşünülməyə başlanmış, gündən-günə şiddət kəsb edən sinif ixtilaflarının tənzimi üçün hökumətin iqtisadi fəaliyyət sahəsinə müdaxilə edərək ictimai müvazinəyi təminə məcbur olduğu qənaəti hasil olmuşdur. Daha ziyadə liberalizmin müqabili sosializm məsləki zühur eləmişdir. Sosialistlərə görə cahanda gördüyümüz bütün ahəngsizliklər, iqtisadi və ictimai ədəmi-müsavatın yeganə səbəbi iqtisadi liberalizm və fərdiyyətçilikdir. Liberallar "cəmiyyətə qarşı fərd" şüarını müdafiə edərkən bunlar münhəsirən cəmiyyəti iltizam və kollektivizmi tərvic ediyorlar. Hal-hazırda Rusiyadan başqa, kollektivizmi tətbiq təcrübəsini icra edən bir məmləkət yoxsa da, ictimai və iqtisadi münasibətləri tənzim üçün fərdi hürriyyəti təhdid edən hökumət tədbirlərinin Avropada və Amerika məmləkətlərinin əksərisində ittixaz olunduğunu irəlidə bütün

təfsilatı ilə görəcəyiz. Bu gün hürriyyəti-şəxsiyyə və mülkiyyət prinsiplərinə qiymət verməklə bərabər, bilxassə iqtisadi fəaliyyətdə fərdiyyətçiliklə cəmiyyətçiliyi təlif və tərkib edən təsanüdçülük nəzəriyyəsi epey qüvvətlənmişdir.

Görülüyor ki, müsavat fikri kibi, hürriyyət fikri də dəyişməz bir məfhum deyildir. Hər hanki ictimai bir müəssisə və qiymət kibi bu da getdikcə dəyişən və istihaləyə məruz qalan bir məfhumdur.

"Müsavat" və "hürriyyət" məfhumlarının zaman keçdikcə düçar olduqları təhəvvülü biz, bu iki məfhumun tərkibindən doğan demokrasi məfhumunda da görüyoruz. Siyasi Avropa həyatında iqtisadi liberalizm prinsipi hakim olduğu dövrlərdə demokrasinin istihdaf etdiyi qayə hər şeydən əvvəl fərdin hürriyyəti idi. Bu hürriyyət məfhumunun ictimai ifadəsi isə mülkiyyət müəssisəsinin bilaşərt və qeyd məsuniyyəti və qüdsiyyəti idi. Halbuki Avropa və Amerika sənayesinin əqllərə vələh verəcək surətdə irəliləyən tərəqqisi nəticəsində zühur edən ictimai nəzəriyyələr bu xüsusda təfəhhüsə qoyuldular. İctimai yeni məsləklər zühur elədi. Sosializm təşəkkül etdi. Sendikalizm doğdu. Mülkiyyət və onun qüdsiyyətini ta kökündən inkar edən və bu inkar naminə hərəkətə keçən kommunizm və bolşevizm məslәkləri meydan aldı. Bu kibi vəqələr qarşısında qalan demokratizm bittəb əski ümdə üzərində fəzlə inad və mülkiyyət müəssisəsinin bilaşərt və qeyd qüdsiyyət və məsuniyyətini müdafiə edəməzdi. Əqli-səlim bu müəssisənin faidəli olduğu kibi, zərərli tərəflərini də görmək istedadında idi. Bu görüş sayəsindədir ki, müasir cəmiyyətin ahəngini təmin edən əsas bulundu. (Solidarizm) Təsanüdçülük məsləki rəvac buldu. Təsanüdçülük liberalizm kibi mülkiyyət əsasına hörmət edər, yalnız ona

qüdsiyyət payəsini verməz. Cəmiyyətin mənafeyi iqtiza etdiyi zamanlarda mülkiyyət həqqinin təhdidini və dövlətcə şu həqqi kullanmaq tərzinin təyinini zəruri görür. O, fərdiyyətçiliklə cəmiyyətçiliyin arasını təlif edər. Bu gün demokrasi məsləkləri arasındakı hakim cərəyan da budur; təsanüdçülükdür. Demək ki, dünki liberalizm əsası üzərinə qaim olan demokrasi fikri bu gün solidarizm (təsanüdçülük) sisteminə doğru getməkdədir. Fransa ixtilalı əsnasında hakim olan demokrasi fikri fərdin hökumətə qarşı hürriyyətini təmin etmək hədəfinə mütəvəcceh idi; müasir demokrasi zehniyyəti isə yalnız fərdi deyil, zümrəvi mənfəətlərin də təminini düşünmək məcburiyyətindədir.

## IV
## DEMOKRASİNİN HÜQUQİ MÜNASİBƏTİ

**D**emokrasinin hüquqla münasibəti qayət də səmimidir. Bu iki məfhum arasında tam bir müvazinət vardır. Həqq və hüquqa müstənid bir idarə demokrasi tərəfdarlarının afaqi tədqiqat nəticəsində aldıqları elmi nəticələrə nəzərən, ancaq həqiqi demokrasi təsis edən bir məmləkətdə qabil təsəvvürdür. Demokrasi ilə hüquq arasındakı müvazinə bu iki məfhumun bünyələrində mövcud müştərək bir xüsusiyyətdən iləri gəliyor. Bu müştərək xislət isə eyni mövzuyu tədqiq edən Qurviçin pək həqli olaraq qeyd etdiyi vəchlə demokrasinin də, hüququn da fərdiyyətlə (individualizm) külliyyət (universalizm) təlif və tərkibindən hasil oluyor. Demokrasi yuxarıda söylədiyimiz vəchlə şəxsə aid hürriyyət ilə xalqa aid hakimiyyət əsaslarının tərkibindən doğma hüquqi müsavatdan ibarətdir. Hüquqi hürriyyət dediyimiz şey də cəmiyyətin şəxsiyyət üzərindəki təsir və təzyiqini təhdid və

bunların mütəqabil münasibətlərini təyin edən bir miqyasdır. Digərin hürriyyəti səlb etməmək şərtilə vətəndaşın hürriyyətini təmin edən demokrasi bu hüquqi hürriyyət naminədir ki, siyasi müxtəlif əqidə və sistemlərin, eyni hürriyyət və hüquqla, eyni cəmiyyət daxilində mütəvazi olaraq yaşamalarına təhəmmül edər. Müxtəlif fikir sistemlərinə qarşı göstərdiyi bu müsahiləyi, münəqqidləri, demokrasinin xeyir və şər məfhumuna qarşı laqeydisi şəklində görürlər. Halbuki demokrasi xeyir və şər məfhumlarına qətiyyən laqeyd deyildir. "Siyasi realizm" dedikləri müxtəlif fikir sistemlərinə təhəmmülü də bunu ifadə etməz. Biləks vətəni hürriyyətlərin təsisi və təmini ilə o, fərdi hər dürlü istibdad və mütləqiyyətə qarşı müdafiə etdiyi kibi, məfkurələri də cəbrən qəbul etdirmək zillətindən qurtarır. "Realizm"in hikmət vücudu cəmiyyətin daima tərəqqidə və dəyişmədə olan seyri ilə mütənasib bir idarə sistemini təmin etməsindədir. Bir millət ictimai müxtəlif siniflərlə zümrələrdən ibarətdir. Hökumət hər nə qədər şəklən bu gün bir milləti təmsil ilə məqami-iqtidara gəliyorsa da, həqiqətdə bu idarəyi çevirən fəal zümrə o cəmiyyət daxilindəki müəyyən bir zümrədir. Cəmiyyəti daimi surətdə müstəqərr bir müəssisə deyil, digər ictimai müəssisələr kibi tədrici surətdə olsa da, daima dəyişən bir üzviyyət şəklində tələqqi edərsək, idarə başında bulunan münəvvər, daha doğru təbiri ilə mütərəqqi müdirlər zümrəsinin mütəmadiyən dəyişməsini və zaman-zaman təcəddüd etməsini qəbul etməliyiz. "Siyasi realizm"ə təhəmmülü olmayan qeyri-demokratik cəmiyyətlərdə bu dəyişmə əməliyyəsi kolaylıqla hasil olmaz. Çünki burada dəyişmənin zamanını təyin üçün məhsus bir miqyas yoxdur. Bunun üçündür ki, demokrasi təsis etməyən məmləkətlərdə siyasi təhəvvüllər islahat yolu ilə

deyil, əksəriyyətlə ixtilal təriqi ilə gedir. Vəqtilə nəşr etdiyim məqalələrin birində demokrasinin ən doğru təriqini şöylə təsəvvür eləmişdim: “Demokrasi, bizcə müxtəlif təbəqati-ictimaiyyəyi haiz olub, daima haldan hala keçərək, təkamüldə bulunan cəmiyyətin vaxt və zamanının təsiri ilə, istehsal işlərini tənzimdəki rolları dəyişən mütərəqqi zümrələrin sərkarə gəlməsini kolaylıqla təmin edən idarə sistemidir”[1]. Böylə bir sistemin məfkurəvi məsnədi ancaq müxtəlif ictimai zümrələrin cəmiyyət idarəsi həqqindəki birər arzu və ideallarını ifadə edən müxtəlif siyasi fikir və proqramlara qarşı göstərilən təhəmmül və müsahilə ilə hasil olur ki, “siyasi relatizm” dedikləri də budur.

Fərdi hürriyyətin mütləq şəkli ilə ictimai hakimiyyətin mütləq növü arasını təlifdən ibarət olan təsanüdçülüklə fərdi hürriyyət və xüsusiyyətlərdən maəda zümrəvi həqq və xüsusiyyətləri də nəzərə aldığını söyləmişdik. “Siyasi relatizm”ə təhəmmül etməyən bir sistemdə isə təsanüdçülük bu xüsusiyyəti bütün qüvvətilə inkişaf etməkdən məhrumdur. İqtisadiyyat sahəsindən siyasiyyat sahəsinə keçərsək, hüquqi hürriyyətin də yalnız bu sayədə ahəngdar bir mənzumə təşkil edəcəyini həmən hiss edəriz. Şöylə ki hər hanki cəbhədən baxarsaq, demokrasi ilə hüquq arasında sıx və çox səmimi bir irtibat buluruz. Demokrasidən bəhs edən bir müəllif diyor ki: “İctimai təşəkküldə hüququn realizasyonunu təmin edən yeganə imkan sahəsi demokrasidir. Hüququn hakimiyyət və istiqlalı demokrasi yolunun rəhbər yıldızıdır. Digər hökumət sistemlərindən demokrasi bununla ayrılıyor ki, onun üçün hüquq xaricində bir hökumət təşkili qeyri-qabil təsəvvürdür. Hökumətin təşkili ilə hüququn müdafiəsi – demokrasi üçün – iki ayrı-ayrı şey deyil,

[1] “Yeni Qafqasiya” il 3, sayı 3, səhifə 1

yalnız bir şeydir". Demokrasi ilə hüquq – pək məruf bir təriqə görə – bir sikkənin iki üzüdür. Hüququn gələcəyi olduğu kibi, demokrasinin də gələcəyi əmindir. Hüququn gələcəyi zavala məhkum olmadığı kibi, demokrasinin istiqbalı da məchul deyildir. Demokrasi məhkum zaval isə, hüquq fikrinin də inqirazını bəkləməliyiz. Bu isə süfla ünsürlərin zəfəri və hüquqi mədəniyyətin inqirazı deməkdir.

İnsaniyyətin gələcəyinə və mədəniyyətin zəfərinə inananlar üçün demokrasinin də inkişafına inanmaq bir zərurətdir.

## V
## HÜQUQ TƏLƏQQİSİNDƏ İNKİŞAF

Hüququn ötədən bəri ümumiyyə və xüsusiyyə deyə ikiyə ayrıldığı məlumdur. Hüquqi-ümumiyyə – və yaxud ammə – bütün bir millət və cəmiyyətə aid xüsusiyyata təşmil olunur ki, onu bilfeil icra edən dövlət və onun təşri və icra qüvvətlərini təmsil edən də hökumət müəssisə və müməssilləridir. Hüquqi-xüsusiyyə isə əfradın təbii və müktəsəb həqq və səlahiyyətlərini təyin edər.

Mütləq monarşilərdə hüququn mənşəi başqadır. Orada hökmdar bütün səlahiyyətini xalqdan deyil, göydən və yaxud Allahdan alır. Hökmdarın şəxsi mən tərəf Allah xəlqülnası istədiyi kibi idarəyə tövkil edilmişdir. Burada hökmdarın icraatına hədd və hüdud qoyan qanun ya din və ya ənənədir. Burada məruf şəkli ilə hüquqi-ümumiyyə və ya xüsusiyyədən bəhs olunamaz. Məşruti monarşilərdə isə hüquqi-ümumiyyə ilə hüquqi-xüsusiyyə təfriq ediliyor. Hətta bu təfriq qəvanini-əsasiyyə ilə təsbit və təsri belə olunuyor. Fəqət bununla bərabər,

məşruti məmləkətlərdə hüquqi-ümumiyyənin tamamilə hakim olub, hökmdara mütəəllüq hüquqi-xüsusiyyəyə heç də tabe olmadığı iddia ediləməz. Burada şübhəsiz, hökmdar faidəsinə bir hüdud təsəvvür edilmişdir. Hökmdarlığın bilvərasə atadan oğula intiqalı başqa dürlü təfsir olunamaz. Məşruti monarşidə sadə hökmdarın deyil, eyni məntiqlə bir çox sünufi-mümtazə müməssilləri üçün də hüquqi-ümumiyyə fövqündə bəzi istisnalar gözətilmişdir. Cümhuriyyətdə isə bu hüdud əsasən qalxmışdır. Bir cümhuriyyət qəvanini-əsasiyyəsi nə qədər demokratik olursa, hüquqi-ümumiyyə daxilində hüquqi-xüsusiyyə tətimmələrini ifadə edən xüsusiyyat da o nisbətdə azalır.

Fəqət bugünki radikal-demokrasi sadə hüquqi-ümumiyyənin hər dürlü hüquqi-xüsusiyyə tətimmələrindən və təsirlərindən ari tamamı hakimiyyətini təmin etməklə iktifa etmiyor; hüquqi-ümumiyyə daxilində bir də hüquqi-ictimaiyyə və hüquqi-fərdiyyə növlərini təfriq ediyor. İşbu yeni tələqqiyə görə sadə siyasi bir müəssisədən ibarət olan dövlətdə deyil, hər hanki ictimai və ya iqtisadi bir müəssisədə dəxi bizzat cəmiyyətin kəndi təşəkkülündən mütəvəllid bir hüquq vardır ki, müəyyən bir fərd o cəmiyyətə intisabı ilə müəyyən bir həqq qazanmış oluyor. Fərzən siyasi və ya qeyri-siyasi bir cəmiyyətə intisab etməklə biz yeni bir həqq qazanmış oluyoruz ki, intisab etmədən o həqqə malik deyildik. Eyni zamanda bizim intisabımızla o cəmiyyət dəxi bizim üzərimizdə müəyyən bir həqq qazanmış oluyor. Digər növdən bir misal. Müəyyən bir fabrikayı alalım: bu fabrikanın kəndinə məxsus bir təşəkkülü, həyatı və tərəqqiyyatı vardır. Təbiətən bu fabrikaya məxsus bir həqq vardır ki, oraya intisab edənlər, əmələ olsun, patron olsun, amir olsun, məmur olsun – həpsi o həqqə tabe olmaq məcburiy-

yətindədirlər. Bu həqq o fabrikada hüsula gələn təcəmmö və təşarükdən doğuyor. Deməkki, fabrikaya intisab edənlər müəyyən ictimai bir həqqə riayət etmək məcburiyyətindədirlər. Eyni həqqin mövcudiyyətini biz kooperativlərdə, ticari şirkətlərdə, əsnaf təşkilatlarında və əmələ sendikalarında dəxi görüyoruz. Fəqət dövlət təşəkkülündə, həyati-siyasiyyədə hüquqi-ümumiyyənin hüquqi-xüsusiyyəyə təfəvvüqünü təmin edən demokrasi siyasi olmayan müəssisələrdə ictimai hüququn hüquqi-fərdiyyəyə təfəvvüqünü hənuz təmin edəməmişdir. Fərzən dövlət idarəsindən hökmdarın hüquqi-xüsusiyyəyə müstənid istibdad və mütləqiyyətini tamamilə atan və onun yerinə arayi-ümumiyyə ilə müşəxxəs və hüquqi-ümumiyyəyi müməssil xalq müəssisəsini vəz edən demokrasi, iqtisadi və ictimai həyat sahəsində hala hökmran olan fərdi hüquq müməssillərini ictimai hüquqa tamamilə tabe edəməmişdir. Dövlətdə irsi hökmdarlığın əhəmiyyəti tamamilə səlb edilmiş ikən, bir dövlət qədər əhəmiyyət kəsb edən böyük fabrikada bu prinsip hala hökmrandır. Hüquq tələqqisindəki bugünki məhsus inkişafın gözə aldığı istiqamət iştə budur. Fərdi hüququn hər cəhətcə ictimai hüquqa tabe olmasıdır.

Hüquq tələqqisinin bu inkişafı ilə demokrasinin gələcəyi arasında böyük bir irtibat vardır. Bu irtibat bizə demokrasinin nə yolda inkişaf edəcəyini göstərir. Və bunu da göstərir ki, demokrasi hər halda sadə siyasət sahəsinə inhisar etməklə qalmaz, həyatın bütün sahələrinə tətbiq olunur. Demokrasi bildiyimiz kibi yalnız birvəchli deyil, çoxvəchli bir müəssisə şəklinə girməyə başlamış və gələcəyi də bu istiqamətin inkişafına bağlıdır.

# VI
# DEMOKRASİ İNKİŞAFINI GÖSTƏRƏN YENİ HADİSƏLƏR

Demokrasinin gələcəyi bu müəssisənin siyasiyyat sahəsindən maəda iqtisadiyyat sahəsinə də təşmil olunacağı şəklində təsəvvür olunuyor. Bu təsəvvürün xəyal və fərziyələrdən ibarət olmayıb vəqayeə müstənid bir müşahidə nəticəsi olduğunu təqdir edə bilmək üçün müxtəlif məmləkətlərdəki vəqayei tədqiq etməliyiz.

**İngiltərədə:** İbtida İngiltərədən başlayalım. Məlumdur ki, İngiltərə iqtisadiyyatda təşəbbüs, hürriyyət və istiqlal tərəfdarı bir məmləkətdir. Məşhur "Mançester" məktəbinin "Burax yaşasın, burax keçsin" prinsipini doğuran məmləkət burasıdır. Məamafiə hadisat bu məmləkətdə dəxi hökuməti əmələ ilə fabrikatorların münasibatını tənzim etmək zərurətinə qoydu. Hərbi-ümumi əsnasında istehsal və istehlak xüsusatını hökumət kəndi əlinə almışdı. Fabrikaların müstəhsilliyini daha ziyadə artırmaq əndişəsilə hökumət, fabrikaları bizzat kontrol etmək ehtiyacını hiss etdi. Bu kontrola o, əmələ müməssillərini də dəvət etmək lüzumuna qane oldu. Kontrol komisyonuna əmələ müməssillərindən maəda fabrika sahibləri ilə hökumət müməssilləri də iştirak ediyorlardı. Bu müxtəlit kontrol komisyonunun tətbiqatda çox böyük faidələri görüldü. Hər fabrikada bir müxtəlit komisyon təşəkkül etdi.

Hərb əsnasında faidəsi görülən bu komisyonların hərbdən sonra da mühafizəsi düşünüldü. 1917-də əvam kamerası rəisi Utlin təhti-rəyasətində bir komisyon təşəkkül etdi; bu komisyon

"Utli komitələri" namı ilə müəssisələr təşkilini təklif ediyordu. Komisyon tərəfindən təqdim olunan qanun layihəsinin əsbabi-mucibəsində deniliyordu ki: "Dövlətin mənafeyindəndir ki, hərb əsnasında siniflər arasında hüsul bulan ülfəti hal-hazırda da davam etdirsin. Bunun üçün əmələ ilə patronlar arasındakı münasibatı təyid etməlidir".

Bu projeyə görə əmələ ilə patronlardan mürəkkəb fabrika komitəsi təsis ediyor. Eyni sahədə çalışan fabrikaların komisyonları "Mahal şurası" təşkil ediyorlar. Bunların fövqündə də "Milli şura" duruyor. Bütün bu "şura"lar "sənayenin tərəqqi və inkişafına aid bilcümlə məsələlərlə iştiğal edər və bu xüsusda şuraya iştirak edənlərin nöqteyi-nəzərlərini dinlər". Bu şuralar vasitəsilə əmələlər məsai şəraitini təyin və onların icrasını kontrol etmək imkanını buluyorlar. Komitələr əmələnin mənfəətləri nöqteyi-nəzərindən istehsal vəsaitinin və sənai tərəqqiyyatın tərzinə dəxi nəzarət eliyor; sənai ləvayehi-qanuniyyəyi müzakirə ediyorlar. Əmələ ilə patronlar arasında zühur edən ixtilafların sülhən həll və təsviyəsinə də baxıyorlar.

Utli komisyonları gəmiçilik sənayeində, bəhrilərdə, əkməkçilərdə, kuyumçularda müvəffəqiyyət göstərmişlərdir. Loyd Corcun 1919-da Məbusanda söyləməsinə görə iki milyondan ziyadə əmələ Utli komitələrinə daxil imiş.

İngiltərədə pək böyük nüfuza malik olan və "Treyd Yunion" namını daşıyan əmələ sendikaları ittihadı Utli komitələrini pək də tərvic etməz. O, komitələri kəndinə rəqib görür. Məəmafiə əskidən sırf əmələnin icraatını artdırtmaq və həyat şəraitini iyiləşdirmək qayəsi ilə hərəkət edən "Treyd Yunion" təşkilatı da, şimdi əsrin ruhunu tərvic etməyə başlamış, sənaye üzərindəki kontrola kəndisinin də iştirakını istəmişdir. Bu xü-

susdakı müvəffəqiyyət dəmiryol idarələri həqqindəki qərardır. Bu qərara görə – ki 1919-da tətbiq olunmuşdur – hökumət baş dəmiryol idarəsinə “tred yunionlar” müməssilinin iştirakını qəbul eləmişdir və bu iştirakı digər iştirak edənlərlə eyni həqq və səlahiyyətdə görmüşdür.

**Amerikada:** Fabrikanın idari cəhətinə iştirak etdirilməsi İngiltərədə hökumət təşəbbüsü ilə icra edildiyi halda Amerikada bu təşəbbüs bəzi fabrikatorların kəndi təşəbbüsləri ilə vüqu bulmuşdur. Bu səbəblə də Amerikadakı fabrika komitələrinin ənvai müxtəlifdir. İlk fabrika komitəsini tətbiq etmək şərəfi Amerika iş adamlarından məşhur Con Rokfellerə aiddir. 1914 sənəsində Rokfellerin Koloradoda vaqe mədənlərində böyük bir qrev elan edilmiş və bu qrev çox qanlı hadisələrə səbəb olmuşdu. Bu hadisələr nəticəsində Rokfeller kəndinə məxsus mədənlərlə çelik fabrikalarında “demokrasi rejimini” tətbiqə qərar vermişdir. Rokfeller tərəfindən tətbiq olunan bu “rejim”in əsasları Amerika sosioloqlarından **Makenzi Kinq**[26] tərəfindən tənzim olunmuşdur. Rokfellerin 1915-də kəndi fabrikalarında tətbiq elədiyi bu rejim axirən digər Amerika fabrikaları üçün də bir örnək olmuşdur. Bu rejimin əsasları bundan ibarətdir: fabrikanın müxtəlif atelye (kargah)larında arayi-ümumiyyəyə müraciət surətilə əmələ komitələri təsis olunur. Sonra bu komitələr, iqtiza edərsə əmələ “şura”ları şəklində birləşiyorlar. Əmələ komitələri ilə “şura”ları münhəsirən əmələyə aid olan məsələləri müstəqilən həll ediyorlar və patronlarla mütəqabilən həll oluna biləcək məsələləri bərabərcə mütaliə və ehzar ediyorlar. Eyni zamanda, patronlar və yaxud müməssilləri ilə birlikdə dəxi ictima edərlər. Şu surətlə təşəkkül edən müxtəlit komitələr müəssisənin daxili işlərinə aid bütün xüsusiyya-

ta baxmaq səlahiyyətini ehraz etmiş oluyorlar. Şöylə ki: məsai saatları, məsai ücrəti, işin tənzimi, disiplinin təmini və sairə işbu komitələrin səlahiyyəti daxilindədir. Müxtəlit komitələr müəssisənin tərəqqi və inkişafı üçün lazım olan tədbirlərin müzakirəsinə də cəlb olunuyorlar. Eyni zamanda bu komitələrin əmələnin müəssisədən gələn qazanca iştirakı əsaslarını da vəz ediyorlar. Müxtəlit komitələrin ən mühüm vəzifələrindən birisi də mütəsəvvür ixtilafların önünə keçməkdir. İşin texnik, ticari və mali cəhətləri isə müəssisə sahibinin səlahiyyəti daxilindədir. Müxtəlit komitə əzası miyanında ittifaqi-ara hasil olmadığı təqdirdə məsələnin həlli hökmə veriliyor ki, tərzi-təşkil yerinə görə dəyişir.

Amerikanın demokratik fabrikalarından birisi də Nyu-Yorkda vaqe "Domo" fabrikasıdır. Bu fabrikada tətbiq olunan sistemə mucidi mühəndisin ismi ilə "Leyqa" sistemi denilir. "Leyqa" sistemi mucibincə fabrikada əsri dövlətlərin təşkilati-əsasiyyə qanunları tətbiq olunuyor. Şöylə ki "Domo" fabrikasının kəndinə məxsus "Məclisi-Məbusanı" vardır. Bu məclis əmələlər tərəfindən intixab olunan "depute" (məbus)lardan təşəkkül edər. "Domo"nun "məclisi-əyanı" da vardır. Bu məclis də kontrmetrlərdən, kontrolerlərdən və atelyebaşılarından təşəkkül edər. Fabrikanın eyni zamanda "kabinə"si dəxi vardır ki, bu da şirkət heyəti-idarəsindən ibarətdir. Həftədə bir dəfə "məbusan" ilə "əyan" ayrı-ayrı ictima edərlər – iki məclisin müştərəkən ictima etdiyi zamanlar da olur – bu müəssisələr vəzifə və üfulə (funksiyon) həsbilə Rokfellerin müxtəlit komitələrinə müməssildirlər.

Digər bir fabrikanın ("Tirandror" fabrikası) qanununa görə "əyan" məclisi kəza əmələ tərəfindən intixab olunuyor. Yalnız bunlar mücərrəb və staj görmüşlər arasından seçili-

yorlar. Ümumi və ya ixtilaflı məsələlər müxtəlit komisyonlarda həll olunuyor ki, bunlar müdiranı təmsil edən "əyan" ilə əmələyi təmsil edən "məbusan"dan müsavi surətdə seçilən əzadan təşəkkül edər.

Məşhur avtomobilçi Ford müəssisələrində də demokrasi rejiminin tətbiq edildiyi mərufdur. Hətta "fordizasyon" deyə məruf bir sistem vardır ki, bir tərəfdən əmələyi dolğunca maaşla çalışdırmaq, digər tərəfdən də onu fabrikanın qazancına iştirak etdirmək əsasını da möhtəvi olan bu sistem Avropa sənaye əhli tərəfindən çox böyük əlaqə və əhəmiyyətlə tədqiq olunmaqdadır. Ford eyni zamanda əmələnin kəndi məmulatlarından bizzat istifadə etmək əsasını da tətbiq eləmişdir. Hər əmələ ailəsinin bir avtomobil edinməyə həqqi vardır.

İngilis müəlliflərindən mister Sesterin rəvayətinə görə 1919-da müxtəlit komitələrə malik Amerika fabrikalarında təhəddüs edən ixtilaflardan yüzdə 61-i ibtidai zühurunda həll olunmuş; bunlardan yüzdə 36-sı müdiran, yüzdə 27-si də əmələlər lehində həll olunmuşdur. Şel kompanisində zühur edən 250 ixtilafdan – ki 6 ay əsnasında vüqu bulmuşdur – 85-i əmələ lehinə həll olunmuşdur.

İngilis kömürçü əmələsi tredyunionları tərəfindən intixab olunan məxsus komisyon Rokfeller müəssisələri ilə təşkilatını tədqiq etdikdən sonra bu nəticəyə gəlmişdir ki: "müxtəlit fabrika komitələri ərfəq məmurlar tərəfindən vüqu bulan suyi-müamilələri azaltmış, əmələ ilə patronlar arasındakı təzadı yumşatmağa səbəb olmuşdur". "Amerika məsai federasyonu" da fabrika şuraları lehində bəyani-rəy eləmişdir. Bu federasyon 1919-da Vilsonun təşəbbüsü ilə əmələ sendikaları, patronlar (sahibkarlar) cəmiyyəti və "əhali" müməssillərindən təşəkkül eləmişdir.

Amerika komitələrinin zəif cəhəti qanun qüvvətilə təyid olunmadıqlarıdır. Bu təşəbbüs kəndi mövcudiyyətini yalnız “sənai islahat sənai ixtilaldan daha yekdir” qənaətini daşıyan mütəşəbbüslərə borcludur.

“Milli sənaye konfederasyonu” müdiri nəşr etdiyi bir bəyannaməsində diyor ki: “fabrika şuraları fəaliyyətinin nəticəsi çox parlaq və itminan bəhs olunmuşdur. Fabrika komitələri bizim ən gözəl yeniliklərimizdən biridir. Biz qaneyiz ki, hüsni-idarə edəcək olursaq, bu sayədə təhəddüs edən bütün ixtilafları xaricin müdaxiləsi olmadan, kəndi evimiz daxilində həll edə biləcəyiz”.

**Avstriya ilə Almaniyada:** Hərbi-ümumidən məğlub və pərişan çıxaraq ixtilala məruz qaldıqlarına və kommunizm təcrübələrinə birər səhifə təşkil etdiklərinə rəğmən, Avstriya ilə Almaniya sənai şirazələrini pozmadan Rusiya və qismən də İtaliyada görülən hərci-mərcdən kəndilərini qoruya bilmişlərdir. Bu müvəffəqiyyəti onlar uzaq bir görüş və sağlam bir sezişlə “iqtisadi demokrasi” rejiminə qarşı göstərdikləri etinaya mədyundurlar.

Müxtəlit fabrika komitələri Avropada ilk dəfə olaraq Avstriyada vücuda gəlmişdir. Bu komitələrin nəzəriyyatı da (**Otto Bauer**[27] və **Adler**[28] tərəfindən), əməliyyatı da ilk dəfə olaraq burada görülmüşdür. Müxtəlit komitələr burada 15 mayıs 1919 qanunu mucibincə təhəqqüq eləmişdir. Bu qanun daha sonra Almaniya üçün də bir örnək olmuşdur. Almaniyada 4 şubat 1920 tarixində tətbiq olunan qanun ilə Avstriya qanunları arasında adəta fərq yoxdur. Məəmafiə Almaniyada fabrika komitələrindən bahis ilk “dekret” ixtilalçı sosialist hökuməti tərəfindən daha 23 desembr 1918-də nəşr olunmuşdur. Bir ixtilal və

sosialist hökuməti tərəfindən nəşr edilməsinə rəğmən, bu dekret şayani-hürriyyət bir surətdə mötədildi. Komitələr fabrikaçıların mümməssilləri ilə birlikdə ücrət həqqində mövcud etilafların tətbiqinə nəzarət etmək, gərək əmələ və xədəmənin kəndi arasında və gərək onlarla işverənlər miyanında hüsni-münasibatın təmin və təsisinə baxmaq; müəssif vəqayə qarşı mühafizə tədbirləri almaqla mükəlləf idilər. Bu qanun ən mötədil düşünür əmələyi belə tətmin etməmişdi. 1919 Torenberqdə ictima edən əmələ sendikaları konqresi Rusiyada olduğu kibi, "əmələ diktatorluğu"nu rədd etməklə bərabər, demokrasi əsasının sənaye sahəsində də tətbiqini tələb eləmişdi. Konqre siyasi "sovetlər" sistemini rədd etməklə bərabər, sənayedə iqtisadi şuraların təsisini də tələb ediyordu. Bu "şura"lar vasitəsilə əmələ istehsal üzərində ümumi bir kontrol həqqi alacaqdı. Almaniya kommunistlərini təşkil edən "spartakovçular"a qarşı müqavimət etmək zərurəti ilə hökumət əmələnin bu tələbini qəbul elədi. 4 mart tarixi ilə "şura"ların sənaye üzərində kontrolu səlahiyyətini haiz bir əmələ müəssisəsi kibi tələqqi edildiyi hökumət tərəfindən elan olundu. Sonra bu əsaslar 1919 sənəsi 11 ağustosda elan olunan Almaniya Cümhuriyyəti qanuni-əsasisinə də daxil oldu. Qanuni-əsasinin 165-ci maddəsi Almaniya əmələ həyatında yeni bir dövr açmışdır. Bu maddədə deniliyor:

"Müsavi hüquqa malik olaraq əmələ, məmurin və patronlar, məsai ücrəti ilə şəraitin tənzimində olduğu kibi, müəssisənin iqtisadən də inkişafı əsbabını ehzara iştirak üçün cəlb olunuyorlar. İqtisadi və ictimai mənfəətlərini müdafiə və təmin etmək məqsədilə hər hanki bir müəssisədə əmələ şuralar təşkilinə həqq qazanıyor ki, bu şuralar da eyni cinsdən sənai müəssisələr daxilində vilayət əmələ şuraları federasyonunu təşkil edərlər.

Vilayət və federal əmələ şuraları patron mümәssilləri və sair əlaqədar siniflərlə birlikdə vilayət və federal iqtisad şuraları təsis və təşkilində iştirak edəcəklərdir ki, bu iqtisad şuraları ictimai mahiyyətdə üfulə (funksiyon)lara malik olub, sosializasyon qanunlarını tətbiq edəcəklərdir".

İqtisadi və ictimai mahiyyətdə olan ən mühüm qanun layihələri "federal iqtisad şurası"nın nəzəri-tədqiqinə veriliyor. Eyni zamanda bu müəssisə qanun layihələri hazırlamaq üçün təşəbbüs etmək həqqinə də malikdir. Bunun kibi o, müəyyən vəsaitlə kəndi nöqteyi-nəzərini Reyxstaqa qarşı müdafiə etdirmək imkanına da malikdir. Şu surətlə Almaniya qanuni-əsasisinə görə müvazi surətdə yaşayan iki dürlü müəssisə vardır: sadə "əmələ şuraları" ilə (məhəlli, vilayət və federal) "müxtəlit iqtisad şuraları" (federal və federal).

Fabrika sovetlərinə aid olaraq 4 şubat 1920-də nəşr olunan qanuna görə "şura"nın bilavasitə fabrikanın texnik xüsusatına qarışmaq həqqi yoxsa da, fabrika heyəti-idarəsinə bir-iki rəy sahibi mümәssil idxalı surətilə fabrika idarəsini kontrol etmək imkanı təmin olunmuşdur. Müəssisə sahibi sənədə üç dəfə işin ümumi vəziyyəti ilə müstəqil planlar həqqində "şura"ya hesab vermək məcburiyyətində olduğu kibi, sənəvi nəf və zərər bilançosunu da buraya təqdim etməlidir.

"Şura"nın əmələnin fabrikaya qəbul və ixracı babındakı müdaxilə etmək həqqi də çox mühümdür. Müəssisə sahibi əmələyi qəbul və ixrac həqqində riayətə məcbur olduğu əsasları əmələ şuraları ilə müttəfiqən qərarlaşdırmaq zərurətindədir. Şura ixrac olunan bir əmələyi etilafa nəqiz olaraq çıxarılmış ədd edərsə, o zaman bu ixtilaf "etilaf komisyonu"na həvalə olunuyor ki, bunun verəcəyi hökm iki tərəf üçün də höccətdir.

Sair xüsuslarda şuranın vəzifələri əksəriyyətlə tədafödür. Qanunun məxsus maddəsi şura əzasının məsuniyyəti-şəxsiyyəsini təmin etməkdədir.

Bu qanun bilxassə kommunistlərin tənqidinə məruz qalmışdır. Xristian-sosialistlər isə biləks bu qanunu müdafiə etmişlərdir. Onlarca bu qədərlə qalmamalı, əmələyi müəssisənin qazancı ilə mülkiyyətinə də iştirak etdirməlidir. Bu surətlə onlar siniflər arasındakı mücadiləyi təxfif etdirmək məqsədini güdüyor və sosializm ilə mücadiləyi təqviyə etmək istiyorlar.

5 temmuz 1920-də iniqad edən sendikalar konqresi fabrika şuraları həqqində aldığı müqərrəratda diyor ki: fabrika sovetlərinin işi 1- əmtəənin istehsal və istehlakına aid mexanizmayı kamilən öyrənmək; 2- müəssisənin idarəsini vahid bir plan üzrə təşkil etmək, 3- ictimai və ticari mahiyyətdə olan məsələləri həll eləmək və 4- fabrika şuraları əzasının iqtisadi biliklərini genişləndirməkdən ibarətdir.

Bu təqrirdə deniliyor ki, "iqtisadiyyatın kapitalist üsuli-tənzim və idarəsini öyrənmiş əmələnin miqdarı çoxaldıqca "əmələ hərəkəti" müqaviməti də o nisbətdə artacaqdır".

Burada Almaniya hərəkəti üçün fabrika şuralarının möhtəvi olduğu ən mühüm bir həyat nöqtəsi qeyd olunmuşdur. Şübhəsiz ki, bu şuralar ictimai birər məktəbdir. Bu məktəbdən məzun olmaq üçün çox zaman istər. Əmələ sendikaları 4 şubat qanununu həqqilə tətbiq edə bilmək üçün böyük təşkilat vücuda gətirmişlərdir. Bir çox şəhərlərdə hazırlıq kursları açılmışdır. Bu kurslarda fabrika şuralarında çalışacaq əza hazırlanmaqdadır. Bu əzaya olduqca vase iqtisadi və texnik məlumat veriliyor. Münster darülfünunu nəzdində bu məqsədlə xüsusi bir fakültə təsis olunmuşdur. Eyni zamanda bu məqsədlə pək çox ixtisas

və fənn məcmuə və qəzetələri dəxi nəşr olunuyor.

Avstriya qanunu da yuxarıdakı qeyddən anlaşılacağı vəchlə, Almaniya qanunundakı əsasları ehtiva etməkdədir.

**Digər Avropa məmləkətlərində:** Fabrika komitələri və yaxud "şura"ları yeni təşəkkül edən Avropa məmləkətlərindən sənaye həyatı münkəşif Çexo-Slavakiyada da vardır. Fəqət mahiyyət etibarı ilə çex qanunu Almaniya qanununa nəzərən daha az radikaldır.

**Norveç**də qanun bir müəssisədəki əmələdən dörddə biri istərsə fabrika komitəsinin təşəkkülünü təcviz ediyor və bu komitə ancaq şurəvi bir mahiyyəti haizdir.

**Lüksemburq** qanununa görə də fabrika şuralarının mahiyyəti şurəvidir.

**İtaliyada** hərbdən sonrakı təşəvvüş sənələrində Giolitti kabinəsinin bu məsələ ilə ciddi surətdə məşğul olduğu məlumdur. Giolitti fabrika şuraları ilə "ali iqtisad parlamanı" vücuda gətirmişdi. Bu müəssisələrin üfuləsi ilə tərzi-təşəkküllləri – aşağı, yuxarı – yuxarıdan bəri nəql etdiyimiz prinsipləri ehtiva ediyordu. Şimdiki vəziyyətdə belə, faşizm prizmindən keçmək surətilə olsa da əmələ sendikalarının İtaliyadakı rolu böyükdür.

Bu sahədə Avropa məmləkətlərindən – kəndi əhəmiyyəti ilə mütənasib olaraq – nisbətən geridə qalan **Fransa**dır. Fransa iş adamlarından Eduard Filen namında mütəxəssis bir zat (mühəndis və fabrikator) "Avropa məsələsi və onun həlli" nam əsərində hərbdən sonrakı Avropa sənaye böhranını təsvir etdikdən sonra bu böhranın həlli üçün yeganə çarə olmaq üzrə demokrasinin siyasət sahəsinə inhisar etməyib, iqtisad sahəsinə də tətbiqini tələb ediyor. Bitərəf bir iş adamı və mütəxəssis olmaq sifətilə fabrikalarda tətbiq olunacaq demokrasinin çox bö-

yük faidələr bəxş edəcəyini Filen təcrübə üzərinə müstənid bir qənaət qüvvətilə söylüyor. O, 1925-də nəşr elədiyi bu kitabında Amerika təcrübəsindən lisani-təqdirlə bəhs ediyor. Əmələni fabrikanın karına iştirak etdirmək və kəndiləri ilə insani müamilədə bulunmaq və əmələyə fəzlə maaş verməkdən ibarət olan "fordizasyon"un çox müsbət nəticələrə müncər olduğunu təqdirkaranə dəva ediyor və kəndi fabrikasında tətbiq elədiyi bəzi təcrübələrin də faidəli olduğunu zikr etdikdən sonra, əmələyi yalnız karə iştirak etdirmək deyil, fabrikanın idarəsinə alışdırmayı da iqtisadiyyatın müstəqbəl inkişafı üçün zəruri buluyor. Bu yola girməzsə Filenə görə, Avropa və bilxassə Fransa sənayei bu sahədə div addımları ilə irəliləyən Amerika ilə rəqabət edəməz və iqtisadi kökləri üzərindən kaymış bulunan siyasi demokrasi də təhlükəyə məruz qalır.

Saheyi-təfəkkür və iştiğalı etibarı ilə iqtisadiyyatla pək də məluf olmayan fransız mütəfəkkirlərindən ruhiyyatçı **Qustav Le Bon**[29] belə Amerikanın bu təfəvvüqünü əhəmiyyətlə qeyd eləmişdir.

## VII
## PARLAMENTARİZMİN BÖHRANI

**D**emokrasi məfhumunun seyr və təkamülünü bununla bərabər, hüquq tələqqisindəki inkişafı və sonra demokrasinin sadə siyasi sahəyə inhisarı ilə iqtisadi ixtilafların həll edilmədiyini, sənai həyatda belə demokrasi prinsiplərinin tətbiq edilməyə başlandığını qeyd edərkən "demokrasinin böhranı" həqqində söylənən bu qədər sözlər arasında bir həqiqət şəməsi aramaq əbəs olmaz. Şübhəsiz, əvarizi bariz surətdə məhsus olan bir

xəstəliyin hərbdən sonrakı dünyayı sardığını etiraf etməliyiz. Bu xəstəliyin əsasını dünyanın sarsılmış iqtisadiyyatında aramalıdır. Hərbi-ümumidən əvvəl sənaye son dərəceyi-inkişafa gəlmiş bulunan iləri məmləkətlərdə gündən-günə sıxlaşan sinif böhranlarını həll etməkdə müşkülat çəkən demokrasilər, hərbi-ümumiyi mütəaqib artıq bütün ünf və şiddətilə qabaran bu məsələlərin bu günə qədər tətbiq olunan üsuli-idarəyi təftiş və tədil etmədən həll və təsviyə etməyi başaramadıqlarına gün keçdikcə qənaət etməyə başladılar. Demokrasi məlum olduğu üzrə, sadə şəkildən ibarət deyildir. Bu, əgər istərsəniz, şəkildən ziyadə mənayı ifadə edər. Demokrasi hər şeydən əvvəl müəyyən bir fikir mənzuməsidir. Bu fikir mənzuməsinin təqib etdiyi qayə məmləkət idarəsində zaman-zaman dəyişmələri zəruri olan mütərəqqi və münəvvər zümrələrin yekdigərlərini istixlaf etmələrini təshilə yardım edər. Böyük sənayenin bütün qüvvətilə inkişaf etmədiyi, demokrasi müəssisələrinin hənuz inkişafa başladığı və siyasi liberalizm ilə iqtisadi liberalizm məktəblərinin əfkar üzərində tərəddüdsüz olaraq icrayi-təsir etdiyi zamanlarda, vətəndaşların təmayülati-siyasiyyələrini arayi-ümumiyyəyə istinadla şu və ya bu şəkildə təmsil edən parlamentarizm vəzifəsini kafi surətdə ifa ediyordu. Cəmiyyətdəki iqtisadi ehtiyacları və bu ehtiyacların istilzam etdiyi siyasi qayələri təlif üçün məslək və sinif təşəkkül və təəzzüvləri hənuz ibtidai halda bulunan Avropa məmləkətlərində ayrı-ayrı vətəndaşların, daha sonra siyasi firqə və zümrələrin siyasi həqlərini tövsi və parlaman intixablarına iştiraklarını təkmil etmək tamamilə kafi gəliyordu. Müasir dünya iqtisadiyyatdakı fərdiyyət və liberalizm dövrünü atlayaraq zümrə təşəkkülləri və məslək təəzzüvləri dövrünə girincə məsələ dəyişdi. İctimai

hüquq tələqqisi qüvvətləndikcə sadə fərdi hüquqi təmsil surətilə təşəkkül edən parlamentarizm, müasir demokrasi məzrufinin təbii bir zərfi olmaq xassəsini qaib etdi. İnkişaf tərəqqisi nisbətində artan iş bölümü nəticəsində mövcudiyyət peyda edən bin dürlü iqtisadi və ictimai zümrə təşəkkülləri siyasi həyatda sadə bir fərd surətilə təmsil edilməyi kafi görmədilər. Fərdi təmsil ilə bərabər, ictimai təmsil əsası da tətbiq olunmalı idi. Yoxsa, sadə fərdi təmsil ilə təşəkkül edən parlamanlar müasir cəmiyyətin çox müəzzil və kərfət ehtiyacatını anlamaqdan və tətmin etməkdən aciz qalacaqlardı. Hərbi-ümumidən sonra şahidi olduğumuz ictimai böhranların yeganə mənası budur. Sırf fərdi təmsil üzərinə müəssəs olan rəsmi demokrasinin zərfini təşkil edən "parlamentarizm" ilə həqiqi demokrasiyi təşkil edən ictimai zümrələr və bunlara məxsus iqtisadi mənfəətlər arasında dərin bir uyğunsuzluq vardır. Demokrasi məzrufi böyümüş, genişləmiş, məfhumi təkamül etmiş və bu təkamül kəndi ifadəsini hüquq məfhumunun yeni tələqqisində bulmuşdur; demək ki, demokrasi məzrufi həm maddətən, həm də mənən böyümüşdür; halbuki zərf o nisbətdə böyüyəməmiş, əski şəklində qalmışdır. Bundan dolayıdır ki, biz böyük bir "böhran"a şahid oluyoruz. Fəqət bu böhran demokrasinin deyil, parlamentarizmin, mənanın deyil, şəklindir.

"Parlamentarizm" böhranının nə yolda həll edilə biləcəyini yuxarıdan bəri təqib etdiyimiz fikir silsiləsi ilə, həyatdakı vaqeələr üzərində yapdığımız müxtəsər tədqiq bizə göstərə bilir mahiyyətdədir. Yuxarıda da söylədiyimiz vəchlə bu böhran demokrasinin siyasiyyat sahəsindən maəda həyatın digər səfəhatına və bilxassə iqtisadiyyat sahəsinə təşmili ilə həll olunacaqdır.

# VIII
# İQTİSAD PARLAMANLARINA DOĞRU

Altıncı fəsildə biz sənayedə tətbiqə başlanan demokrasiləşmə vəqələrini qeyd etdik. Avstriya sosialistlərindən Otto Bauer ilə Adler fabrikalarda tətbiq olunan "müxtəlit komitələr" ilə "əmələ şura"ları əməliyyatının nəzəriyyatını dəxi tədvin etmişlərdir. Bu nəzəriyyəyə görə siyasi demokrasinin təşəkkülü ilə iqtisadi və yaxud müxtəsər mənası ilə sənai demokrasinin təşəkkülü arasında pək böyük bir müşabihət vardır. Nasıl ki, ibtidada cəmiyyət daxilində təşəkkül edən ictimai zümrələr tərəfindən gündən-günə qüvvətlənən əfkari-ümumiyyənin təsiri ilə bütün iqtidar və hakimiyyəti kəndi əllərində bulunduran hökmdarlar bəzən kəndi zəkalarının durbinliyi, bəzən də üsyanlar və ixtilallar kibi məcbur hadisələrin təzyiqi altında təşkil etdikləri təşri məclislərlə kəndi həqq və səlahiyyətlərini təhdid etmiş, xalq müməssillərini müxtəlif şəkil və dərəcələrdə hökumət işlərinə iştirak etdirmişlərdir; öylə də böyük bir fabrikanın yeganə sahibi-ziiqtidarı olan patronlar, işin və zamanın müqtəzəyatına tabe olaraq kəndi iradə və idarələri yanında salifüzzikr misallarda gördüyümüz kibi fabrika "məbusanı" ilə "əyanını" təşkilə riza vermişlərdir. Bu günə qədər gördüyümüz misallarda fabrika sahibinin "mütləqiyyət idarəsi" yerində "məşruti bir iqtisad idarəsi"nin qurulduğunu görüyoruz ki, bu hərəkətin iləridə "iqtisadi fabrika cümhuriyyəti"nə qədər varacağını da təxmin edə biliriz.

"Müxtəlit komitə"lər və yaxud "əmələ şuraları" kibi müəssisələrə kəndi daxillərində yol verməmiş bulunan fab-

rikaların belə demokrasi əfkarının ruhani və əmələ sendikaları vasitəsilə kəndi mənafeyini mövcud qəvanin daxilində müdafiə etməyi öyrənmiş bulunan əmələnin təşəkkül halına gələrək, qrev kibi müəssir bir silaha müraciət edə bilməsi kibi əvamili-ictimaiyyədən mütəəssir olduqlarını artıq bilməyən yoxdur.

İqtisadi demokrasinin ən böyük mürəvvicləri şübhə yoxdur ki, profesyonel əmələ sendikalarıdır (Həmkarlar İttifaqı). Sendika qüvvəti iqtisadi bir qüvvət olaraq təkəvvün eləmişdir. Hətta məruf sendikalizm məsləki profesyonel əmələ təşkilatının siyasətlə iştiğalını belə müzürr buluyor. Fəqət nə olsa da bir kərə təşəkkül etmiş bulunan bu qüvvət istər-istəməz siyasi bir qüvvət halına inqilab edəcəkdir. Şimdi belə fərdlərin siyasi bir həqq təmsilləri nəzdində profesyonel əmələ sendikaları mümənssillərindən və ərbabi-iqtisaddan mütəşəkkil iqtisad parlamanlarının tətbiqi yolunda bəzi təşəbbüslər vardır. İctimai islahatı sırf diktatorluq qüvvəsilə tətbiq edən Mussolini İtaliyasında belə əmələ sendikaları azimi surətdə istifadə olunuyorlar. 1923 sənəsindən etibarən İtaliyada “Milli iqtisad şurası” təşəkkül eləmişdir. Bu “şura” kəndisini bir çox müfid müqərrərat ilə tanıtmışdır. Fəqət istiqbal İtaliyada “şura”dan ziyadə Mussolini tərəfindən təsəvvür olunan bir əsnaf müəssisəsinə aiddir ki, ona eyni zamanda qanun vəz etmək səlahiyyəti də verilmək istəniliyor. “Böyük faşist mərkəzi” tərəfindən təsdiq olunan Mussolini projesinə görə italyan “senato”su pək əsaslı bir təbəddülə uğrıyor. Senato əzasından yarısı hökmdar tərəfindən təyin olunuyorsa da, digər yarısı əsnaf və ixtisas korporasyonları, yəni profesyonel sendikalar (əsnaf cəmiyyətləri) tərəfindən intixab olunuyor.

Fövqdə məzkur iqtisad şurası isə mövqeyini işbu bünyəsini təcdid etmiş olacaq "senato"ya tərk edəcəkdir. İspaniyada təşəkkül edən "iqtisad şurası"nın da vəzifəsi məsləki təmsil əsası üzərində təsis edəcək iqtisad parlamanını ehzar etməkdir. Cümhuriyyət hökuməti tərəfindən təşkilinə təşəbbüs olunan "iqtisad məclisi" də böylə bir fikrin müqəddiməsini təşkil edər. Almaniya qanuni-əsasisində müqəyyəd və yuxarıda qeyd etdiyimiz 165-ci maddənin məqsədi dəxi iqtisadi parlaman qayəsindən mülhəm olmuşdur. Bu fikir Çexoslavak qanuni-əsasisində yer bulduğu kibi, Lehistan qanuni-əsasisində də yer bulmuşdur. Avropadakı radikal islahatı diqqətlə təqib və haman şu və ya bu surətdə tətbiqdə gecikməyən Yaponiya dəxi "iqtisadi şura" təsisində məsləki təmsil əsasını tətbiq etmişdir.

Hüquqi-əsasiyyəçilərdən Leon Duki sendikanın əsasən iqtisadi bir qüvvət olaraq təkəvvün etməsinə rəğmən hal-hazırda hökmranlıq qüvvəsi halına inqilab edəcəyi təkamül dövrünə girdiyini dava etməkdədir. Leon Dukiyə görə sendikanın hökumət idarəsinə mükəlləf təşriyi müəssisələrdə təmsil edilməsi ictimai bir zərurət halına gəlmişdir. Leon Duki bu zərurəti hüquqi bir mühakimə nəticəsində təqdir ediyor. Arayi-ümumiyyə vasitəsilə fransız hüquqçusuna görə yalnız fərdlərin təmsil etdiyi siyasi mənfəətlər təmsil olunuyor. Halbuki fərdi hüquqdan nəşət edən bu təmsil həqqi yanında, ictimai hüquqla mərbut, bir də mənfəətlərin məsləki təmsili vardır ki, əsri demokrasinin həqiqi müvazinəsini təsis üçün bu təmsil həqqini də istifadə etmək zəruridir.

Onun təsəvvürüncə, "bugünki gənclərin idrak edəcəkləri bir atidə firqələrin təmsil nisbisi yanında, bir də mənafein təmsili-məsləkisi, yəni sendika və sendika heyəti-müttəhidəsi

halında mütəşəkkil müxtəlif sünufi-ictimaiyyənin bir təmsili tənzim ediləcəkdir".

Fransız ictimaiyyunundan Hober yeni nəşr elədiyi bir kitabında fərdlər ilə mütəvəssit heyətlər namını verdiyi və məsləki ictimai və iqtisadi təəzzüvlərin əhəmiyyətlərindən bəhslə "bu iki məbdəin gərək dövlətin təməlində, gərək ictimai bünyənin əsaslarında etilafda olmaları lazımdır" diyor. Onun da təsbitinə görə "hal-hazırda siyasətə ancaq fərdi iradələr nüfuz edə biliyor. Bundan dolayı siyasi qüvvət aciz və zəifdir. Parlamentarizmin böhranı siyasi qüvvət, sadə fərdlərin deyil, bütün mütəvəssit heyətlərin də müməssili olmalıdır. Halbuki əmələ sendikaları ilə patron sendikaları məclisdə heç bir vəchlə təmsil edilməmişlərdir".

Hober məsələnin sadə iqtisadi mahiyyətdə olan "mütəvəssit heyətlər"in təmsili ilə də həll olunacağına qail deyildir. Ona görə "Almaniyanın vücuda gətirməyə çalışdığı ali iqtisad məclisi yanlış bir fikirdən, bütün ictimai bünyənin yalnız iqtisadi fəaliyyətdən təşəkkül etdiyi fikrindən doğmuşdur". Halbuki Hobercə iqtisad qiymətləri xaricində olan ictimai qiymətlər də mütəəddiddir. "Onların da siyasətdə təmsil edilmək həqləri olmalıdır"[2].

1919 sənəsində Fransa məsai konfederasyonu Fransa vəziyyəti-iqtisadiyyə və maliyyəsini islah səlahiyyətini haiz bir "iqtisad şurası"nın təsisini əlzəm görmüşdür. Bu şura ərbabi-məsai, sərmayə sahibləri, teknisyenler, iqtisadilər, müstəhliklər və hökumət müməssillərindən ibarət olacaqdır. 1924 sənəsinə aid ikinci proje dəxi eyni əsaslar üzərinə ibtida elə-

[2] Hoberə aid fəqərələr Məhəmməd İzzət bəyin "Həyat"da (nömrə 65) mündəric məqaləsindən əxz olunmuşdur.

mişdi. Məsai federasyonunun yalnız mərkəzi "şura" deyil, eyni zamanda vilayət şuraları təsisini təsəvvür etmiş olduğunu dəxi qeyd etməliyiz. Bu xüsusda hökumət ilə federasyon arasında ixtilaf çıxaraq nəhayət, 1925 sənəsində nəticələnən bir etilafa görə təşəkkül edən "milli iqtisad şurası" məsləki təmsil əsası üzərinə təsis etsə də, səlahiyyət etibarilə şurəvi bir mahiyyətdə qalmışdır.

"Milli iqtisad şurası" üzərinə cərəyan edən münaqişələr vəqti ilə Fransa Məclisi-Məbusanına əks etmiş və mayıs 1920 sənəsində bu mövzuya təmas edən müsyö Mark Saniya demişdir ki:

"Əmələnin böyük bir ədədinin tələb etdiyi şey mütəşəkkil əmələnin, yaxud daha doğrusu, əl işləri məslәkləri olsun, fikri məsləklər olsun, əl və ya fikir işçilərinin arasıra fikirləri istimzac olunan və verəcəkləri rəylərə riayət olunmaya bilən birər qüvvət deyil, fəqət tamamilə milli qüdrətə daxil birər qüvvət surətində tələqqi edilməsidir; ol surətlə ki, təmsili-siyasiyi təşkil edən bizlərin yanında məmləkətin iqtisadi mənafeyinin də təmsili bulunmalıdır. Bu təmsil digəri qədər səhih bir təmsildir. Məclislərin ikiliyi əlyövm mövcuddur. Siyasi əyan məclisimizin yerinə məsləki əyan məclisi tələb ediyorum. Zənn ediyorum ki, dünyanın bilcümlə millətləri üçün ixtilalların nöqteyi-hərəkəti olmuş olan hərbi-ümumidən sonra, 1875 qanuni-əsasimizdən heç bir şey təbdil etməməklə pək təmkinsiz hərəkət etmiş və qərib bir surətdə qısa görüşlü olduğumuzu isbat eləmiş oluruz. Binaənileyh ikili bir təmsil əsasını tələb edərim. Siyasi təmsil ilə bərabər, bilcümlə mənfəətləri sərmayə sahibinin olduğu kibi, əmələnin də mənfəətlərini ehtiva edən iqtisadi təmsil".

Bu nitqdə demokrasi inkişafının nə kibi müəssisələr vücuda gətirəcəyi və parlamentarizm böhranının hanki bir şəklə inqilab ilə həll ediləcəyi göstərilmişdir. Radikal-demokratizm məlum olduğu üzrə, əyan məclislərinin əleyhindədir. Məruf demokrasi məfkurəsinə görə ideal, birməclisli və arayi-ümumiyyə ilə təşəkkül edən parlamandır. Demokrasi geri siniflərin kontrollarından ibarət olan, hüquq hökmdarı ilə mümtaz siniflərin, ictimai yeni qüvvətlərin həmlələrinə qarşı bir növ müqabilə təşkil edən "əyan məclislərini" rədd etməkdə həqlidir. Fəqət sözün əsri mənasilə, mütəşəkkil müstəhsili-məslək ərbabının mümessillərindən ibarət "iqtisad parlamanı"na mümasil bir kontrol müəssisəsinə gəlincə, iş başqalaşır. Ötəki xalq kütlələrinin böyük bir əzm və həyəcanlı bir həmlə ilə siyasət həyatına atılmasına qarşı tədil rolunu işləyən bir mühafizə qüvvətidir, bəriki isə iqtisadi əsasları üzərindən kayan və yeni ehtiyacatı həqqilə tətmin edəməyən siyasi bir sistemin yeni həyat qüvvətlərini işkal edən mühafizəkarlığını tədil üçün düşünülmüş bir kontroldur. Ötəki əvam qamarasının hərarətini alıyor; bəriki parlamana daha ziyadə həyatiyyət vala sitiqiyyət verməк istiyor.

Parlamentarizmin keçirdiyi böhranı siyasi həqq təmsili fərdlərdən almaq və tamamilə məsləklərə inhisar etdirmək şəklilə həll etmək istəyənlər kibi məsləklərə həqq təmsil vermək həqqini surəti-qətiyyədə rədd edən nəzəriyyəçilər də əqəliyyətdədirlər. Birincilər münhəsirən ictimai hüququn hakimiyyətini, digər təbirlə kollektivizmi tərvic edənlər, ikincilər də əski liberal məktəbinin fərdiyyətçiliyinə sadiq qalmış olanlardır. Zamanın həqiqəti isə nə onlarda, nə də bunlardadır. Bu ikisi arasını təlif edən təsanüdçülərdədir. Təsanüdçülərə görə arayi-ümumiyyəyə müstənid siyasi təmsil əsası üzərinə mütəşəkkil mə-

busan məclisinin yanında sünufi-ictimaiyyəyə məxsus iqtisadi mənfəətləri təmsil edən məsləki təşəkküllərin mümməssillərindən ibarət ikinci bir məclis fikri də əsas etibarilə məqbuldur. Leon Dukinin dediyi kibi "əfradın təmsili-nisbisi yanında məsləki təmsilə də vase bir mövqe verilməlidir"[3].

## IX
## SİNİFLƏR ARASINDA TƏSANÜD

Amerikalı mühərrirlərdən Artur Tvininq Hadley "Demokrasi və məsaili-iqtisadiyyə" nam əsərində[4] siniflər arasındakı təşəvvüşün izaləsi, cəmiyyət daxilində həqiqi bir müvazinə və müsalimət təmini üçün pək doğru bir formul veriyor. Bu formula görə "sərmayədarlarda həqqi-mülkiyyətin adəta müqəddəs bir şey olduğu qənaəti, əmələlərdə də qiyməti ancaq səy ilə əməlin tövlid etdiyi zənni ortadan qalxmadıqca siniflər arasında həqiqi bir təsanüd fikrini təmim etmək imkan xaricindədir".

Təsanüdçülər (solidaristlər)in tərvic etdikləri üsul ilə amerikalı mühərririn bu formulu tamamilə mütabiqdir. Hər ictimai bir müəssisə kibi mülkiyyət müəssisəsi də zaman təsiri ilə istihaləyə məhkumdur. Nə qədər sosialist olmayıb, mülkiyyət prinsipini əsasən qəbul etmiş olsaq da, ərazi qıtlığından iztirab çəkməkdə olan yoxsul köylülərin mövcud olduğu bir məmləkətdə ziraət topraqlarını meyit halında buraxan qüruni-vüstai

[3] Hober "fərdlərin idarəsini təmsil edən və siyasi firqələr tərəfindən təşkil olunan məbusan məclislərinin yanında məşri heyətlərdən nəşət edən bütün qüvvət şəkillərinin fəal bir tərkibindən ibarət olan əyan məclislərinin vücudunu lazım görüyor".
[4] Hüseyn Cahid bəy tərəfindən tərcümə edilmişdir.

böyük çiftliklər (latifund) sahibinin mülkiyyətlərini əldəyilməz bir qüdsiyyətlə tanımayız. Nitəkim fabrika sahibi kəndi mülkünün sahibidir, deyə onun əmələyi istədiyi şəkildə istismarına da meydan verəməyiz. Hökumətin və ictimai müəssisələrin həyatın bu səhifəsini tənzimdə həqli olduğu fikrini təslim edəriz.

Bununla bərabər ictimai rus məktəblərində və bilxassə kommunizm məsləkində surəti-məxsusədə tərvic olunan digər müfrit nəzəriyyələrlə də mücadilə edəriz. Bütün qiymətləri yalnız səyə irca edib də əmələdən başqa kimsənin həqqi-həyatı haiz olmadığı fikrini rədd ilə sinif mücadiləsini süni surətdə alovlandırmaq istəməyiz. Avropa sosializmi belə, keçirdiyi bir çox təcrübədən sonra ixtilalçı sosializmin ictimai və tarixi əlaqələr fövqündə iləri sürdüyü bu mücərrəd xəyalın tamamilə iflas etdiyinə qane olmuşdur. Məmləkəti əcnəbi bir düşmənin qanlı istilası altında inləyən bir millət əfradı heç bir zaman milli vəhdəti içərisindən partladan böylə bir məfkurə arxasından koşamaz. Bizcə hər dürlü islahatı işkal edən əski qafalı mürtəcelər milli vəhdət, milli inkişaf və milli istiqlal üçün müzürr olduqları kibi, milli vəhdət və bu vəhdəti təşkil edən siniflər arasında təsanüd və müsahiləyi inkar ilə sinif mücadiləsini atəşləyən kommunistlər də eyni dərəcədə müzürrdürlər. Biz hər dürlü sinif diktatorluğunun əleyhindəyiz. Hədəfimiz millətin vəhdəti, istiqlalı və hürriyyətidir. Bizi bu hədəfə doğru götürən vasitə isə gələcəyi heç də şübhə götürməyən təsanüdçü demokrasi məfkurəsidir!

– Yaşasın demokrasi!

# TÜRK YILI

**1928**

**"Türk Ocaqları" Mərkəz Heyəti tərəfindən nəşr olunmuşdur.**

**Toplayan Akçura oğlu Yusif**

# QAFQASİYA TÜRKLƏRİ

## I
## TARİXƏ BİR BAXIŞ

**1) Qafqasiya xəritəsinə bir nəzər.**
**2) Türk ünsürünün Qafqasiyada yerləşməsi.**
**3) Qafqaz və Azərbaycan türklərinin qövmi ənasiri.**
**4) Azərbaycan və Türk Qafqasiyanın siyasi müqəddəratı.**
**5) Qafqasiyada türk və islam xanlıqları.**

### 1) QAFQASİYA XƏRİTƏSİNƏ BİR NƏZƏR

Mövzumuzu təşkil edən Qafqasiya türklərinin tarixi müqəddəratlarını seyr etməkdən əvvəl, bunların hal-hazırda tutduqları coğrafi sahəyi səthi də olsa, nəzərdən keçirməliyiz. Bu məqsədlə qısa, fəqət zənnimcə, məxsusi bir üsula müraciət üçün müsaidənizi istərim.

**Qarşımda etnoqrafik bir xəritə duruyor[1]. Bu yetmiş iki milləti ilə məşhur və əski mühərrirlərcə Babil qülləsinə bənzədilən Qafqasiyanın xəritəsidir[2]. Rəngarəng boyaları ilə adətən Şərq xalısını andıran bu lövhədə nəzərə çarpan hakim rəng sarı boyadır. Xəritənin bilxassə şərq və cənub qismini qaplayan bu rənglə ümumiyyətlə müsəlman millətlər işarət edilmişdir.**

Bugünkü Azərbaycan Cümhuriyyəti ilə Dağıstan Cümhuriyyətini təşkil edən, Xəzər dənizinə bitişik Şərqi Qafqasiya

---

[1] Söz konusu xəritə Akdes Nimət (Kurat) bəy tərəfindən yenidən cızılmış və "**Türk Yılı**"nda yer almışdı (red.).

[2] Bu xəritə "Rusiya Coğrafiya Cəmiyyəti" tərəfindən nəşr olunmuşdur.

həmən tamamilə sarıdır. Bu "sarılıq"ı xəritəcə haiz olduğu mənada deyil, qövmi mənada alırsaq belə, seyr edəcəyimiz mənzərə üzərində pək radikal bir təsir yapmaz. Şunu da əlavə etməliyik ki, **"sarı boya"** yalnız bu iki məmləkəti deyil, Ermənistan ilə Gürcüstandan bir qismini dəxi boyadığı kibi, Terek nəhrindən yuxarı, Şimali Qafqasiyanın da bir hissəsini tutar.

Boyaların müxəyyiləyə təlqin etdiyi hissi rəqəmlərin mühakiməyə xitab edən bəlağəti ilə qarşılaşdıralım: Xəzər dənizi ilə Qara dəniz arasında yüksək silsilələr şəklində uzanan Qafqas dağları bu qitəyi Şimali Qafqas və Mavərayi-Qafqas deyə iki qismə bölüyor. Şimali Qafqasiya, məsahəyi-səthiyyəcə 166 verst mürəbbedir. Burada 1923 istatistikinə görə, məcmui 5,5 milyon nüfus yaşamaqdadır ki, bundan təqribən 3.500.000 rus və Ukrayna kazaklarına çıxıldıqdan sonra mütəbaqi 2.000.000 qafqasiyalıdan təqribən 600.000-i türkdür. Mavərayi-Qafqasiyaya gəlincə 200 verst mürəbbe bir məsahə üzərində yaşayan 5,7 milyon əhalidən 2,3 milyonu türk, 1,9 milyonu gürcü, 1,3 milyonu erməni, geridə qalanı da türk olmayan müsəlman millətlərlə rus və sairədir. Şu 11,2 milyonluq Qafqasiya nüfusundan, Şimali Qafqasiyada Terek, Stavropol və Kuban vilayətlərində kütlə halında yaşayan rus və ukraynalıları (3.500.000) çıxdıqdan sonra, Qafqasiya yerlisi olaraq 7,7 milyon qalıyor ki, bundan 4,8 milyonluq (63%) müsəlmanlar, 2,9 milyonu (38%) də türklər təşkil edərlər[3].

[3] Buradakı rəqəmlər 1926 sənəsində Leninqradda nəşr olunan rəsmi istatistikdən alınmışdır. Sühulət olsun deyə rəqəmlər yuvarlaq olaraq göstərilmişdir. Türklərin bütün Qafqasiyadakı müsəlmanlara nisbəti 60%-dir. Sadə Mavərayi-Qafqasiyanı alacaq olursaq, milli zümrələrin adətcə nisbətləri təqribən belə olur: müsəlmanlar 47%; xristianlar 53%; türklər 41%; gürcülər 31%; ermənilər 21%; rus, alman, yəhudi, irani və sairə 7%.

Bugünkü siyasi təqsimata görə Qafqasiyadakı türk ünsürü əsl kütlə olaraq Azərbaycan Cümhuriyyətini, qismən də Dağıstan Cümhuriyyətini təşkil elədiyindən, bu məqalədə bilxassə bu iki təşəkkül üzərində duracağız.

Siyasi coğrafiya nöqteyi-nəzərindən Azərbaycan "Mavərayi-Qafqas", Dağıstan "Şimali Qafqas" hökumətlərindənədd olunuyorlarsa da türk irqinin ötədən bəri yayılış sahəsini təşkil edən Xəzər sahillərindəki Şərqi Qafqasiya qitəsi bu iki məmləkəti yekdigərinə sıxı surətdə bağlamaqdadır. Bu mərbutiyyət həm irqi, həm də iqtisadidir. Gilan sahillərindən tutaraq, türkcə Dəmir Qapı namıyla məruf Dərbənd keçidindən keçərək, Sulak nəhri hövzəsində vaqe Xassayurddan[4] ta Astraxana qədər dayanan bu ərazinin əsas səkənəsini təşkil edən qövmlər böyük türk irqinə mənsubdurlar. Bundan maəda Azərbaycan ilə Dağıstan iqtisadən də də yekdigərlərinə mərbutdurlar. Bilxassə bunu və bunun qədər mühüm olan idari mülahizələri nəzərə alaraq, çar zamanında belə, Dağıstan vilayəti Şimali Qafqasiyadan ayrılaraq mümtaz bir vilayət şəklində olsa da, idarətən Mavərayi-Qafqas "Visruvalığı"na rəbt edilmişdi.

## 2) TÜRK ÜNSÜRÜNÜN QAFQASİYADA YERLƏŞMƏSİ

Qafqasiya türklərindən və bunların tarixi müqəddəratlarından bəhs edərkən onu Azərbaycan türklərindən ayrı olaraq tələqqi və hələ tədqiq etmək, fərzən, bəhsi Aras nəhrinin ancaq şimalına həsr eləmək imkanı qətiyyən yoxdur. Orta zaman tarixlərində Şirvan və Arran namları ilə məruf olan Şərqi Qafqasiya ilə bugünkü Azərbaycan Cümhuriyyətini təşkil edən məmləkətlərlə şimalda Dağıstan, cənubda Azərbaycan (İran Azərbaycanı)

[4] Azərbaycanda bu gün "Xasavyurd" denilməkdədir (red.).




***Etnoqrafik Qafqasiya xəritəsi***




***Çevirməsi qarşı səhifədə (red.)***

Don, Terek, Stavropol kimi rus və ukraynalilar tərəfindən iskan olunan Şimali qafqaz vilayətləri xaricində Şimali və Cənubi Qafqaziyada ... nisbi miqdarini göstərən diaqramdır. Məzkur vilayətlər xaricində yaşayan Qafqaziya əhalisinin miqdarı ... hesabla (8000000) etibar edilmişdir.

Qafqasiyalı islam və türklər haqqında bəzi rəqəmlər (1)

| Cümhuriyyətlər və muxtariyyətlər | Saheyi səthiyə mürəbbə (kvadrat) verst | Nüfus-i ümumiyyə | Müsəlmanların tedadı (sayı) | Ümumiyə nisbəti | Türklərin tedadı | Müsəlmanlarar nisbəti |
|---|---|---|---|---|---|---|
| 1.Azərbaycan cümhuriyyəti | 76000 | 2100000 | 1600000 | 75% | 1250000 | 77% |
| 2. Dağıstan cümhuriyyəti | 46000 | 1200000 | 1100000 | 95% | 270000 | 24% |
| 3. Gürcüstan cümhuriyyəti | 58000 | 2270000 | 250000 | 12% | 170000 | 54% |
| 4. Ermənistan cümhuriyyəti | 24000 | 1200000 | 600000 | 50% | 475000 | 80% |
| 5. Qaraçay-Çərkəs mux. | 9000 | 179000 | 160000 | 90% | 145000 | 90% |
| 6. Qabartay-Balğar mux. | 10000 | 150000 | 100000 | 76% | 80000 | 80% |
| Bütün Qafqasiyada | 220000 | 11200000 | 4500000 | 41% | 265000 | 60% |

1) Bu rəqəmlər 1926 sənəsinə aid rəsmi Sovet məxəzinən (mənbəsindən) iqtibas edilmişdir. Cümhuriyyətlərlə muxtariyyətlərin ancümlə (o cümlədən) Sovet idarəsindəki feli (indiki) hüdudləri nəzər-i etibarə alınmışdır. (2) Bu rəqəm Sovet Azərbaycanına aiddir. Milli hüdud daxilində isə ən azı 2.500.000 nüfus (əhali) vardır. 3) Çeçen, Çərkəs, Osetin və İnquş kimi muxtariyyətlərdəki müsəlmanlar dəxi bu yekuna daxildirlər. 4) Noğay, Qaranoğay türkləri ilə sair vilayətlərdəki türklərdə bu yekuna daxildirlər.

Qeyd: rəqəmlər sühulət (asan olması üçün) üçün yuvarlaq olaraq göstərilmişdir.

məmləkətlərinin tarixi müqəddəratları müştərək olmuşdur. Şimali Qafqasiyanın türk qövmləri tərəfindən iskanı mövzui-bəhs olunca bu bəhsin eyni zamanda Azərbaycana da şamil olacağı təbiidir. Bunun üçün də biz işbu məqaləmizdə, "Şərqi Qafqasiya və Azərbaycan" tərkibini qullanmaq zərurətini hiss ediyoruz.

**Türklərin hal-hazırda oturduqları Qafqasiya torpaqlarının ən qədim zamanlardan bəri sakinləri kimlərdir**? Buranın qədim yerliləri türk irqinəmi, yoxsa başqa bir irqəmi mənsubdu? Bu suala qətiyyətlə cavab verə bilmək üçün məruf "Turan nəzəriyyəsi" tərəfindən ortaya qoyulan məsələlərin fənnən həllini bəkləməlidir. Şumerlərin, akadların, əski midiyalılarla hititlərin türk irqinə mənsubiyyətlərini iddia edənlərcə bu sualın cavabı müsbətdir. Nəzəriyyəyi şübhəli bulanlar isə bura yerlilərini akademik **Marr**[1] tərəfindən irəli sürülən yafəsilərə intisab etdirirlər. Bu məktəbə görə şərqi-qərib ilə bilxassə Qafqasiyada qədim zamanda yafəsi denən müstəqil bir irqə mənsub qövmlər yaşıyormuş. Bu məsələnin həlli üçün **Heredot**[2] ilə **Strabonun**[3] sak, iskit, kimmeri və massacta[5] namı ilə qeyd etdikləri qövmlərin mahiyyətləri də bilinmək lazım.

Fəqət biz, fənnən daha qaranlıq bulunan bu məsələyi dövri-qədim mütəxəssislərinə tərk edəlim də, elm və fənnin işığı ilə görüləcək şübhəsiz və müsbət vaqiələri seyr və müşahidə edəlim. Bu müşahidə bizə müxtəlif zamanlarda Qafqasiyaya doğru axan türk yayılışını bütün böyüklük və ehtişamı ilə göstərir və bunu yalnız kitablar və kitabələr deyil, türklərin bu gün yaşadıqları yerlərdə dağların başına çəkilən qeyri-türk qafqasiyalıların lisani-halları dəxi bizə anlatmaqdadır[6].

---

[5] Massaget, Masget adıyla da bilinirlər (red.).

[6] Şərqi Qafqasiya ilə Azərbaycanın hər tərəfində kürd, erməni və tat kibi qeyri-türk ünsürlər dağ başlarında yaşarlar.

Miladi V əsr ortalarında müxtəlif türk qövmlərinin şimal steplərindən Qafqasiyaya keçərək İran üzərinə saldırdıqları məlumdur[7]. Dərbənd ilə Daryal keçidlərində sasanilər tərəfindən vücuda gətirilmiş bulunan sədlər və bunlar ətrafında iskan olunan iranlı mühafizlər işbu axınları durdurmaq üçün təşəbbüs edilmiş çarələrdi. Cənubi Rusiya steplərində, "Don" ilə "Terek" nəhrləri hövzələrində yaşayan türk köçəbələri bəzən də yerli xalqın dəvəti üzərinə Cənubi Qafqasiyaya gəliyor, İran əleyhində zühur edən üsyanları təqviyə ediyorlardı[8]. Şu dövrdə gələn türk qövmlərinin bir qismi də Ağ Hun və yaxud Halandürüklər, digər qismini də **Attila**[4] komandasında gələn "Ağaçərilər" təşkil eləmişlərdir[9].

Daha qüvvətli türk axını VII əsrin ibtidalarında vüqu bulmuşdur. Bizans imperatoru **II Herakliusun**[5] müttəfiqləri sifətilə Qafqasiyaya girən Xəzər türkləri Tiflisi mühasirə və zəbt eləmişlərdi. **II Xosrovun**[6] düçar olduğu həzimət, Sasani imperatorluğundakı hərcü-mərc, **III Yezdəgerd**[7] əsrində İran sülaləsinin inqirazı və bütün amillər, şübhəsiz, bir çox zaman Xəzər türklərinin Mavərayi-Qafqasiyaya sühulətlə enmələrinə və burada birləşmələrinə imkan vermişdir.

---

[7] Attila ilə görüşmək üçün göndərilən Bizans heyətinə daxil bulunan Priskin rəvayətinə görə Hun türklərinin sərdarı Attila Bizans heyətinə vüqu bulan bəyanatında ordusunun dağlardan keçərək İran üzərinə hücum etdiyini söylərkən, bu dağlardan atəş fışqırmaqda olduğunu da qeyd eləmişdir. Məlum olduğu üzərə, Bakı həvalisində arasıra alovlar fışqıran "Binəqədi" (red.) yanardağından maəda, yerdən çıxan təbii qazlar vardır ki, bunlardan ən məşhuru "Suraxanı" atəşgədəsi ilə "Şubanı Ahgərməsi"dir (M.Ə.).

[8] Erməni müvərrixlərinin yazdığına görə V əsri-miladinin ortalarında II Yezdgərdə qarşı üsyan edən Mamikonyan Kür nəhri sahilində, Şəmkir həvalisində bir yerdə İran orduları üzərində ehraz etdiyi qələbəsini ancaq bu surətlə təmin eləmişdir (M.Ə.).

[9] Bu xüsusda **Zəki Vəlidi bəyin** məqaləsinə müraciət oluna: "Yeni Qafqasiya", sənə 4, nr. 10

Ərəb istilası şimaldan gələn türk axınını durdurmuşdur. Sasanilər kibi Dərbənd istehkamlarına fövqəladə əhəmiyyət verən ərəb fatehlərinin bu məsələdəki fəaliyyətləri bütün ənənatı ilə **"Dərbəndnamə"**də zikr edilmişdir.

Fəqət məmləkətdə fars ünsürünün çoxalmasına səbəbiyət verən və eyni zamanda Xəzər axınına sədd çəkən ərəblər, cənubdan gələn türk yayılışına pək də mane olamadılar. Bağdad xəlifələri Türküstanda cəlb etdikləri əcir əsgərlərə dayanmaq zərurətinə düşmüşlərdi. Bu könüllü türk cəngavərləri sayəsində idi ki, IX əsri-miladi ibtidalarında, Bağdad xilafəti üsyan halında bulunan Qafqasiya vilayətlərini hakimiyyəti altında tuta biliyordu[10]. **Əmir Buğanın**[8] Gəncə həvalisindəki Şəmkir şəhərini ehya edərək buraya islamiyəti qəbul etmiş Xəzər mühacirlərini yerləşdirdiyi məlumdur.

Şərqi Qafqasiya ilə Azərbaycanın gözəl ovaları ilə mükəmməl yaylaları türk köçəbələrinin daima sevdikləri ərazini təşkil eləmiş, şimaldan gələn ellər burasını mənimsədikləri kibi, cənubdan gələnlər də burada yerləşmiş və yurd salmışlardır. XI əsrdə Azərbaycan və Qafqasiyaya girən Səlcuq türkləri buralarda ciddi bir müqavimətə uğramıyorlardı. Səlcuqilərin buralarda sühulətlə yerləşə bilmələri ancaq kəndilərindən əvvəl gəlib də buralarda yerləşmiş bulunan türk ellərinin mövcudiyəti ilə izah edilə bilir. Səlcuq imperatorluğunun[9] əsasını təşkil edən türk köçəbələri əksəriyyətlə Türkmən-Oğuz əşirətlərindən ibarət

[10] Xürrəmiyyə məzhəbinin məşhur müəssisi **Babək**in üsyanını yatırmaqla məruf **Afşin**in bədəhü bütün nüfuz və hizmətlərinə rəğmən, xəlifə tərəfindən edam etdirildiyi marağı mucib hadisələrdəndir. Müvərrixlərdən bir qismi bu nəkbəti **Afşin**in bu tərəflərdə müstəqil bir türk hökuməti təsisinə qalxışdığı ilə izah edirlər. Böylə bir fikir ancaq buralarda kəndilərinə isnad ediləcək qüvvətli bir türk ünsürünün mövcudiyyətilə qabili-təsəvvür ola bilirdi. **Afşin** kibi **Əmir Buğa**nın da xəzərlərlə münasibətdar olduğu rəvayət edilməkdədir (M.Ə.).

idi. Bu aşirətlər kəndilərindən əvvəl gəlib də burada yerləşmiş bulunan digər türkmənlərlə birləşərək, qismən Şərqi Qafqasiya ilə Azərbaycanda qalmışlar və əksəriyyətlə buradan keçərək Anadoluda yerləşmişlərdir.

Bu ana qədər Azərbaycan ilə Qafqasiya məmləkətlərində yerləşən türk qövmləri arasında şimaldan gələn Qıpçaq elləri əksəriyyət təşkil ediyordu. Şöylə ki, Səlcuq imperatorluğunun parçalanması üzərinə 1146 sənəsində Azərbaycanda istiqlalını elan edən **Atabəy sülaləsi**[10] bir Qıpçaq sülaləsi idi. Digər namla **Pəhləvanilər sülaləsi** deyə məruf olan bu sülalənin hökmran olduğu 81 sənə əsnasında Azərbaycan ilə Şərqi Qafqasiyaya yenidən bir çox türk qəbilələri cəlb və iskan edilmişlərdir.

XIII əsr ibtidalarında **Pəhləvani** sülaləsinin hakimiyyətinə xatimə verən **Xarəzmşahilər**[11] zamanında da Azərbaycan ilə Qafqasiya məmləkətlərinə yeni türk qövmləri yerləşdirilmişdir. **Xarəzmilər** zamanında Aras nəhrindən çəkilən dörd böyük kanalla suvarılan Muğan səhrasında təsis olunan məmurələr münhəsirən türk zarelərlə iskan edilmiş bulunuyordu.

XIII və XIV əsr türk-moğol istilasının əsridir. **Cingiz**in kəndisi, komandanlarının əksərisi və nəşət etdiyi qövm moğol olmaqla bərabər, moğol ordularının qismi-küllisini həmən türk elləri təşkil ediyordu. Budəfəki türk axını həm şimaldan, həm də cənubdan gəliyordu. Bu iki axın bir dəfə "Terek", sonra da Kür nəhri hövzələrində **Hülakü**[12] ilə **Bərəkə xan** qüvvətlərinin müdhiş müsadimələri şəklində qarşılaşıyordu. Moğol istilasını mütəaqib Azərbaycanda təəssüs edən **Elxanilər**[13] hökuməti əsnasında, **Cəlairi**[14] sülaləsi zamanında və sonra türkmən sülalələrindən **Ağqoyunlularla Qaraqoyunlular** dövründə Azərbaycan ilə Qafqasiya məmləkətlərinə külliyyət-

li surətdə türk qövmləri gəlmiş, bu gələnlər miyanında türkmən-oğuz əşirətləri bilxassə əksəriyyət təşkil eləmişlərdir. Böyük **Timur** bu həvaliyə üç dəfə səfər eləmiş, bu səfərlər də Qafqasiya məmləkətləri ilə Azərbaycanda türk ünsürünün qüvvətlənməsini mucib olmuşdur. Moğol istilası müvərrixlər tərəfindən şərqdə etnoqrafik pək böyük bir inqilab dövrü kibi tələqqi edilməkdədir. Azərbaycan ilə Şərqi Qafqasiya bu dövrdə kamilən türkləşmiş və qəribi bu ki, bugünkü şiə İranın müəssisiədd olunan **Səfəvi** sülaləsi Azərbaycan türk şeyxləri miyanından çıxdığı kibi, bu sülalə zamanında Azərbaycan ilə Şərqi Qafqasiya daha ziyadə türkləşmişdir. **Səfəvi** şahları İran ilə Anadolunun müxtəlif nöqtələrinə atılmış türk əşirətlərini mərkəzi-hökumətləri bulunan Azərbaycan ilə Arran səmtlərinə cəlb ilə birləşdiriyorlardı ki, Ərdəbil həvalisi ilə Muğanda məskun **Şahsevən** qəbilələri bu surətlə vücuda gəlmişlərdir.

## 3) QAFQASİYA VƏ AZƏRBAYCAN TÜRKLƏRİNİN QÖVMİ ƏNASİRİ

Türklərin Şərqi Qafqasiya ilə Azərbaycana nə surətlə gəldiklərini və yerləşdiklərini gördük. Bu müşahidə bizdə moğol istilasından əvvəl şimaldan gələn türk qövmlərinin əksəriyyətlə qıpçaq türklərindən ibarət olduğunu göstərdiyi halda, səlcuqiləri mütəaqib vüqu bulan moğol axını əsnasında və daha sonra buralarının türkmən-oğuz əşirətləri tərəfindən iskan edildiyini əyan etməkdədir.

Türk istilasından mütəzərrir olan millətlərin dava etdikləri kibi, bu yerlərdə yerləşən əhali cəbrən türkləşdirilmiş olmaqdan ziyadə  türk köçəbələri tərəfindən sözün tam mənası ilə iskan edilmişdir. Müxtəlif qıpçaq, oğuz və hətta moğol qə-

bilələrinin buralara hanki sənədə gəldikləri ilə nərədə iskan edildikləri tarixi məxəzlərdə qeyd olunduğu kibi, bugünkü coğrafi isimlərlə lisani materiallarda dəxi bu köçəbələrin izlərini görmək müşkil deyildir. Axınların vüqu bulduğu zamana məxsus bir şiddətlə cərəyan edən tarixi hadisələr əsnasında əksəriyyətlə çoluqları və çocuqları ilə köçərək buralarda yerləşən hakim türk ünsürləri vəziyyətdən doğan həyat mücadiləsində məhkum qövmlərdən daha ziyadə müqavimət göstərmiş, növünü mühafizə etmiş, məhkum yerlilər isə qismən dağlara çəkilmiş, səfalət və qıtlıqdan ölmüş, qismən də, ehtimal şu və ya bu surətlə hakim qövmlər arasında əriyib təməssül eləmişlərdir. Hər halda gərək Şimali Qafqasiyada, gərək Dağıstanda və gərək Cənubi Qafqasiya ilə Azərbaycanda bu günə qədər mühafizə olunan qövmi isimlər bu ərazinin hanki dövrdə və nə surətlə türk əhali tərəfindən iskan edildiyini təhqiqən və ya təqribən göstərməkdədir.

Dağıstanda və Şimali Qafqasiyada yaşayan türklərin əksəriyyətlə qumuq, noqay, qaraçay kibi çığatay şöbəsinə mənsub olduqları təhəqqüq etdiyi halda, Cənubi Qafqasiya ilə Azərbaycan türklərinin Anadolu türkləri kibi əksəriyyətlə oğuz türkmənlərinə mənsub əşirətlərdən təşəkkül etdiyi görülməkdədir. Bununla bərabər Dağıstan ilə Şimali Qafqasiyada türkmənlərə rast gəlindiyi kibi, Mavərayi-Qafqasiya ilə Azərbaycanda da qıpçaq, peçeneq, noqay və bulqar qəbilələrinə mənsub türk əşirətlərinin izlərinə məbzuliyyətlə təsadüf olunur. Moğol izləri kəza mövcuddur.

Cənubi Qafqasiya ilə Azərbaycanın bilxassə səlcuqilər və moğollardan sonra oğuzlaşdığı müdəqqiqlərcə təsdiq olduğu kibi, oğuz harsının ən bənam əsərini təşkil edən **Dədə**

**Qorqud** mənaqəbələrinin də bilxassə bu tərəflərdə məruf olduğu şayani-diqqətdir. Dədə Qorqud kitabında məzkur hekayələrin mövzu etibarıyla Azərbaycan sahəsinə aid olduğu nəzəri-diqqəti bilxassə cəlb etməklə, bu mənqəbələrin son zamanlara qədər yerli "ozan"lar tərəfindən əllərində "qopuz", köy-köy dolaşaraq, hekayə edilmələri də təsbit olunmaqdadır[11]. Dədə Qorqud qəhrəmanlarından birisinin eşqinin dərəcəsini göstərmək üçün, sevdiyi qızı "bir öpüb üç dişlədiyi"ndən bəhs olunur. Bu "miqyas" müasir Azəri xalq ədəbiyyatında hələ qullanılmaqdadır[12]. 1638 sənəsində Qafqasiyaya səyahət edən **Olari (Olearius)nin**[15] anlatdığına görə, Qafqasiya ilə Azərbaycan şəhərlərinin bir çoxunda axirən unudulmuş bulunan milli türkmən hekayəti və ənənatı nəql olunuyormuş ki, bunu **Övliya Çələbi**[16] də qeyd etməkdədir. Bundan maəda Olariyə Dərbənd həvalisində mədfun "İmam" Qorqudun məzarını da göstərmişlər imiş. "Dədə Qorqud" mənqəbələrindən maəda Anadolu, Azərbaycan və Qafqasiya türklərinin eyni mənşədən gəldikləri və eyni qövmi ənasir və hars mühitində yaşadıqlarını göstərir misallara məbzuliyyətlə təsadüf olunur. **"Koroğlu", "Aşıq Qərib", "Əsli və Kərəm"** kibi eşq hekayələrindən maəda bir çox manilər, qoşmalar, ağıtlar, atalar sözü, bilməcələr kibi xalq ədəbiyyatı əsərlərinin bu mühitlərdə əksəriyyətlə eyni soydan olduğunu görməmək qabil deyildir.

---

[11] Köprülüzadə Mehmet Fuad

[12] Bir xalq şərqisindən:
İrəvanda mən işlərəm,
Xəncərimi gümüşlərəm.
Bir öpər, üç dişlərəm.

## 4) AZƏRBAYCAN VƏ TÜRK QAFQASİYANIN SİYASİ MÜQƏDDƏRATI

Azərbaycan və türk Qafqasiya dediyimiz ərazinin qismi-mühümi dövri-qədimdə "Midiya" namı ilə məruf dövlətin əsas qismini təşkil ediyorlardı. Bugünkü Azərbaycan Cümhuriyyətini təşkil edən mühüm qisminə **Albaniya** deyiliyordu. Ərəblərin **Arran** dedikləri bu məmləkət sasanilərdən əvvəlki dövrdə Roma ilə İran arasında qanlı ixtilafları mucib olmuşdur. Sasanilər dövründə isə Albaniya (indiki Azərbaycan Cümhuriyyəti) Azərbaycan (indiki İran Azərbaycanı) ilə bərabər İran imperatorluğunun Şimali Visruvalığını təşkil eləmişdir. Bartolda görə, bu ittihad, islam fütuhatı zamanında belə mühafizə olunan **"Azəri"** şivəsi ilə yafəsi olması mühtəməl bulunan Arran (Albaniya) lisanı arasındakı fərqi ortadan qaldırmamışdır. Lisan fərqi olduğu kibi, bu iki məmləkət arasında din fərqi də mövcud imiş. Azərbaycan zərdüşt dinində ikən, Albaniya xristian dininin təsirində imiş. 460 tarixində bərtərəf edilən Albaniya sülaləsinə mənsub xanlar xristian olduqları kibi, əsilləri Sasanilərə irən və VI əsrin sonlarından etibarən Albaniyayı idarə edən İran sülaləsi də VII əsrin ibtidasında xristian olmuşdur[13].

Sasani imperatorluğunun ərəblər tərəfindən inqiraza uğraması islam hakimiyyətinin bu yerlərdə təsisini dərhal təmin edəməmişdir. Bir çox zaman daha Albaniya xanları həm ərəblərə, həm bizanslılara, həm də xəzərlərə bac və xərac vermək məcburiyyətində qalmışlardır. Arran üzərindəki dava ancaq VIII əsrdə tamamilə ərəblərin lehinə həll edilmişdir. Bununla bərabər, xristianlıq bir din olaraq, IX əsrə qədər buralardakı əhəmiyyətini qeyb etməmiş, Şabran ilə Şəki tərəfində mühafizə edilmişdir.

---

[13] **Bartold**[17]**,** "Azərbaycan tarixinə aid müxtəsər məlumat"

Sasanilər kibi ərəblər də hakimiyyətlərini ta Dərbəndə qədər götürmüş və buradakı istehkamları təcdid və təhkim ilə türk təərrüz və axınlarına səd çəkmişlərdir. Ərəb valii-ümumiləri Arranın mərkəzini təşkil edən "Bərdə"də[14] oturuyor və buradan Ermənistanı dəxi idarə ediyorlardı[15]. Azərbaycan, Arran və Ermənistan işbu dövrdə ziraət və maddi mədəniyyət etibarıyla bir vəhdət təşkil ediyorlardı. Ərəblər tərəfindən bu vilayətlərin idarəsinə təyin olunan valilərin vərasət üsuluna tabe tutulması ilə məmləkətin siyasi vəhdəti də bir növ hüsulə gəlmiş oluyordu. IX və X əsrlərdə hökumət edən Səcidi (sacilər – red.) ərəb sülaləsi ilə X və XI əsrlərdə hökumət edən gilanlı Salari sülaləsi zamanında dəxi bu siyasi vəhdət baqi idi. Bu dövrlərdə Şərqi Qafqasiya məmləkətləri bilxassə məmur idi.

Qafqasiya şəhərlərindən Bərdə ilə Dərbəndin məmurəliyi və ticarətdəki əhəmiyyəti Azərbaycanın o zaman ən məmur və məruf şəhərini təşkil edən Ərdəbilə faiq idi.

X əsrin ortalarında Bərdə şəhəri rus axıncılarının təcavüzünə məruz qalmış və bu tarixdən etibarən bir daha tərəqqi və inkişaf edəməmişdir. Bu hadisədən sonra ərəblər zamanında təsis olunan Gəncə əhəmiyyət qazanmış və X və XI əsrdə Şəddadi sülaləsi[18] burada hökumət sürmüşdür.

Şəddadi sülaləsi **Məlikşah Səlcuqi** zamanında inqiraza uğramış və XI əsrin sonlarında **Məlikşahın oğlu Məhəmməd** burada icrayi-hökumət eləmişdir. Bundan sonra Gəncə Səlcuq əmirlərinin məqərri olmuşdur. XII əsrin ibtidasında Səlcuq əmirlərindən **Qara Sunqur** zamanında zühur edən zəlzələdə tələf olan əhalinin miqdarı haqqında tarixlərdə məzkur rəqəm

[14] Sasanilər burasına **"Partaf"** deyirlərdi.

[15] Albaniya xanlarının mərkəzi-idarəsi dəxi **"Qəbələ"**dən sonra burası idi.

Gəncənin, zamanına görə pək məmur və pək böyük bir şəhər olduğunu göstərməkdədir. Məxəzlərdən bəzisində 230, bəzisində də 300 min nüfusun tələf olduğu müqəyyəddir.

Əvvəlki fəsillərdə görüldüyü vəchilə, səlcuqilər zamanında məmləkət türkləşdirilməyə başlamışdı. Səlcuq imperatorluğunun inqirazını mütəaqib Azərbaycan ilə Şərqi Qafqasiyanın idarəsi Azərbaycan Atabəyləri və yaxud **Pəhləvanilər** namını daşıyan türk sülaləsinə keçdi. Gəncə əmiri **"İldəniz"** 1146 sənəsində elani-istiqlal edərək bugünkü Qafqasiya və İran Azərbaycanlarını kəndi idarəsi altında birləşdirmiş, oğlu **Məhəmməd Cahan Pəhləvan** yeni hökumətin hüdudunu genişlətdiyi kibi, əsasını da təhkim etdiyindən, sülaləyə **Pəhləvanilər** ünvanı verilmişdir. Bu sülalə 1226 sənəsinə qədər icrayi-hökumət eləmiş və kəndilərindən altı hökmdar gəlmişdir. Pəhləvanilər paytaxtı Təbriz idi.

Şirvan bu dövrlərdə Şamaxıda yaşayan **Şirvanşahlar** sülaləsinə tabe idi. Şirvanı kəndilərinə tabe etmək istəyən səlcuqilər Gürcüstanla müsadiməyə gəlmişlərdi. XII əsrin ortasında Şirvanşahlarla gürcülər əqdi-ittifaq edərək şimaldan gələn düşmənə qarşı qoymuşlardır. 1175 sənəsində Şirvan şahı **Axistan** Bakı limanında 70 gəmidən ibarət rus bəhriyəsini məğlub etmiş və gürcülərlə müttəfiqən **şirvanilər** Şabran ilə Dərbəndi düşməndən təmizləmişlərdir.

**Pəhləvani** sülaləsinin hakimiyyətinə **Cəlaləddin Xarəzmi** tərəfindən xatimə verilmiş, moğol istilasından qaçan **Cəlaləddin** 1231 sənəsində Gəncədə zühur edən bir ixtilalı basdırmışdır.

1235 sənəsində Gəncə, 1239 sənəsində də Dərbənd moğollar tərəfindən zəbt və təxrib olunmuş, bir daha əski əzəmət və məmurluqlarını iadə edəməmişlərdir. Gərçi **Çingiz xanın** torunu **Hülakü** tərəfindən Bağdadın işğalı (1258) üzərinə İranda

təsis olunan moğol dövləti daxilində, Gəncə, Arran vilayətinin mərkəzi olaraq qalmışdır.

Moğol xanları zamanında Azərbaycan ilə Şərqi Qafqasiya epey məmur olaraq qalmışdır. XIII əsrin sonlarıyla XIV əsrin ibtidasında moğol xanları islamiyəti qəbul eləmişlərdir. Təbriz şəhəri onların zamanında ən böyük bir məmurə halını almışdır. **Qazan xan** dövrünü təmsil edən memari abidələr Təbrizin ən bənam əsərlərini təşkil edir. Qazan xan ihtidasını mütəaqib aldığı ismə ətfən, Mahmudabad şəhərini də təsis eləmişdir. XIV əsrdə Bərdə, Bakı və Dərbənddə böyük əbniyələr vücuda gəliyordu. Şamaxı da **Şirvanşahlar**ın hökumət mərkəzi idi. Bakı dəxi Şirvan məmləkətinə daxil idi. Şirvanşahlardan **Şah Xəlilullah** və **Fərrux Yasar** zamanında bu şəhər pək böyük bir inkişafa məzhər olmuşdur (1417-1462). Bakıda mövcud **Xan sarayı** ilə **Şah məscidi** və sair bir çox əbniyə bu dövrün əsərləridir.

Moğollardan **Hülakülər** və **Çobanilər** sülaləsini istixlaf edən **Cəlairilər** və türkmən sülaləsindən **Qaraqoyunlular**la **Ağqoyunlular** zamanında dəxi Təbriz paytaxt olduğu kibi, Şərqi Qafqasiya məmləkətlərinin müqəddəratı da Azərbaycan ilə siyasi bir məhvər üzərində dönüyordu. **Cəlairilər** və yaxud **Elxanilər**dən beş; (XIV əsrdə) **Qaraqoyunlular**dan beş; (XIV və XV əsrdə) **Ağqoyunlular**dan da on beş (XV və XVI əsrdə) hökmdar gəlmiş və bütün bunların mərkəz idarəsi Təbriz və dairəi-nüfuzu Azərbaycan ilə Şərqi Qafqasiya məmləkətləri olmuşdur. Gərçi bəzən bu nüfuzun Şərqi Qafqasiya ilə Azərbaycan hüdudlarını keçdiyi də vaqedir[16].

---

[16] Qaraqoyunlularla Ağqoyunluların ikisi də Türkmən qəbiləsi olduğu halda, yekdigərləri ilə daima mücadilədə olub, Timur ilə Bəyazid mücadiləsində Qaraqoyunlular Bəyazidin, Ağqoyunlular isə Timurun tərəfini iltizam eləmişlərdir.

Azərbaycan ilə Qafqasiya böyük Türküstan fatehi **Əmir Timur**un da nəzəri-diqqətini cəlb eləmiş, 1396 sənəsində oğlu **Miranşah** üçün Dərbənd ilə Bakıdan Bağdada və Həmədandan Anadoluya qədər vəsi bir dövlət təsis eləmişdir 1401 sənəsində **Timur** indi **"Gavur arxı"** deyilən Barlas kanalını açdırmışdır[17]. 1403 sənəsində də Beyləqan şəhərini yenidən təmir etdirmişdir.

XVI əsrdə zühur edən **Səfəvi** sülaləsinin istinad etdiyi şeyxlər, Azərbaycan və Şərqi Qafqasiya türkləri arasında böyük nüfuz və təşkilata malik olan oğuz dədələrindən ibarət idi. Ərdəbil şeyxlərindən Cüneyd kəndi hakimiyyətini şimala doğru tövsi[18] etmək məqsədilə Şirvan şahıyla toqquşmuş (savaşmış - red.) və şahın yardımına gələn Ağqoyunlular tərəfindən qətl edilmişdir. Yalnız **Səfəvi** sülaləsini təsis edən **Şah İsmayıl** Şirvan ilə Dərbəndi zəbtə müvəffəq olmuşdur.

**Şah İsmayıl** şiəliyi şüar ittixaz edərək siyasi mücadiləyə dini bir rəng vermişdir. Osmanlı sülaləsi ilə mücadilədə səfəvilər bu dini şüar ilə Anadoludakı qızılbaşlığı təhrik və Cəlali üsyanlarını təşviq eləmişlərdir. XVI əsr şiə İran ilə sünni Türkiyə arasında cərəyan edən dəhşətli müharibələrlə təmayüz etmişdir. Məruf **Çaldıran** müharibəsi ilə başlayan bu mücadilə müxtəlif zamanlarda, müxtəlif cilvələrlə gah o tərəfin müvəffəqiyyətilə, gah bu tərəfin müvəffəqiyyətilə sənələrcə davam eləmişdir. Osmanlı sülaləsinin bu mücadilədəki ən böyük müvəffəqiyyətləri XVI əsrin ikinci yarısında vüqu bulmuşdur. **Şah Təhmasib**in vəfatı üzərinə, İranda zühur edən qarğaşalıqlardan bilaistifadə **Muradı-Salis** zamanında icra

[17] Bu kanal Muğan səhrasındadır. Suyunu Aras nəhrindən alır.

[18] Kəlimə mətində «tavassi" şəklində yazılmış, tərəfimizdən düzəldilmişdir (red.).

olunan səfərlər nəticəsində gərək şimalda və gərək Cənubi Azərbaycanda bir çox şəhərlər Osmanlı hökumətinin idarəsinə keçmişdir. 1578 sənəsində Şərqi Qafqasiya məmləkətlərindən Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran, Dərbənd, Mahmudabad və Salyan şəhərlərində Türkiyə hakimiyyəti bərqərar olmuşdur. Şirvan imarəti türklər tərəfindən 14 sancağa, Dərbənd isə 7 sancağa təqsim edilmişdir. Qafqasiya vilayətləri ilə Azərbaycan 1590 sənəsində iranlılar tərəfindən əhdən osmanlılara tərk edilmişdir. Bəhri-Xəzər sahillərinin Osmanlı idarəsinə keçməsi Türkiyənin, İrana möhtac olmadan bilavasitə Türküstan xanları ilə təmasını təmin ediyordu. Türküstanlılar Manqışlaq və Şirvan vasitəsilə İranı görmədən həccə gediyorlardı.

Fəqət osmanlıların Azərbaycan ilə Şərqi Qafqasiyadakı bu hakimiyyəti çox sürməmişdir. 1603 sənəsində **Şah Abbas**[19] Səltənəti-Osmaniyyə əleyhinə səfərlər açaraq İranın tərk etdikləri yerləri təkrar iadə eləmişdir. **Şah Abbas** tərəfindən Gəncə, Bakı və Dərbəndin istirdadı 1606 sənəsində vüqu bulmuşdur. **Şah Abbas** digər tərəflərdə olduğu kibi, buralarda dəxi kəndisindən əsərlər buraxmışdır. Gəncə yeni bir mövqeyə nəql edilmiş, Bakı surları son dəfə olaraq təmir olunmuş, Dərbənd hasarları suyun içərisinə qədər uzadılmışdır.

XVII əsrin ibtidalarında, ruslar Dağıstanda yerləşmək üçün təşəbbüs etmişlərdir. Fəqət bu, yerli qüvvətlərlə dəf olunacaq zəif bir təşəbbüs mahiyyətində olmuşdur. 1722 sənəsində, İran qarğaşalığından bilaistifadə **Böyük Petro** İran səfərinə təşəbbüs eləmişdir. 1723-də münəqid Petersburq müahidəsi mucibincə Xəzər dənizinin qərbi və cənubi sahilləri

Astarabada qədər Rusiyaya tərk olunmuşdur. Müahidə əhkamının icrası qüvvədən felə gəlmədən və Rusiya bilfel Gilanı işğal etmədən rus imperatoru kəndisini Türkiyənin müdaxiləsi qarşısında bulmuşdu. Rus təcavüzünə məruz qalan şirvanlılarla dağıstanlıların imdadına qoşan türk ordusu Gürcüstana girmiş, sonra da Muğan ilə Şirvanı zəbt etmişdir. İş bu şəklə girincə **Petro** Fransanın təvəssütüylə işi silahdan diplomasiyə çevirmiş, nəticədə, Dağıstan, Dərbənd və Bakı Rusiyada qalmaq şərtiylə, bir müsalihə əqd edilmişdir. Eyni zamanda İran üzərinə hücum edən Osmanlı ordusu Həmədanı zəbt edərək, Kaşan-İsfahan istiqamətində irəliləmiş, nəhayət, iki tərəf arasında münəqid müahidəyə görə Cənubi Azərbaycan iranlılarda, Şirvan ilə Gürcüstan da osmanlılarda qalmışdır.

**Nadir şahın**[20] zühuru üzərinə vəziyyət yenə dəyişmiş, səfəvilərin zəfi əsnasında əldən gedən məmləkətlər təkrar İran əlinə keçmiş (1736 müahədəsi). **Nadir şah** kəndi hakimiyyətini Dərbəndin şimalında vaqe **"Qızlar"**a qədər tövsi eləmişdir. **Nadir şah** Muğanda suvarma kanalları təsis eləmişdir. Digər tərəfdən Bərdə şəhərinin təxribi də ona ətf edilməkdədir. **Nadir** səfəvilərə rəğmən, şiəliyi deyil, ittihadi-islam şüarını ortaya atmış və bu məqsədlə Muğanda dəvət etdiyi qurultayda bir qərar çıxartdıraraq işbu məqsədlə bütün islam dünyasına xitab etmiş, Türkiyəyə də müraciətdə bulunmuşdu.

**XVIII əsrin sonları ilə XIX əsrin əvvəllərində rusların Qafqasiyaya təərrüzləri təcdid olunmuş, bu təərrüz 1828 sənəsində münəqid Türkmənçay müahidəsi ilə nəticələnmişdir ki bu, rus istilasının Qafqasiyada kökləşdiyi mənhus bir tarixdir.**

## 5) QAFQASİYADA TÜRK İSLAM XANLIQLARI

**Nadirin** Qafqasiya məmləkətlərində təsis etdiyi hakimiyyət tədhiş və tərxib üsuluna müstənid bir sistemdi. Hindistan və əfqan səfərlərində məşğul olduğu zaman Şərqi Qafqasiya vilayətləri üsyan çıxarmış və bununla **Nadir**in Qafqasiyayı yenidən fəth və zəbt etməsinə səbəb olmuşlardı. **Nadir şah**ın Dağıstan şamxalları ilə Azərbaycan xanlarından şəkili **Çələbi xan**a qarşı icra etdiyi qanlı və ənud mücadilə şayani-qeyddir.

1739 sənəsində **Nadir şah**ın qətli üzərinə İran təkrar daxili müharibələrə və səltənət davalarına məruz qaldı. Bu hadisə Azərbaycan ilə Şərqi Qafqasiyadakı yerli valilərə, əmirlərə və xan sülalələrinə hərəkətə keçmək üçün fürsət təşkil elədi. Xanlıqlar istiqlallarını elan etdilər. **Nadir**dən sonrakı fitrət dövrünü təsviyə etmək iqtidarını göstərməyə başlayan **Qacar** sülaləsi, İran hakimiyyətini Qafqasiyaya təşmil edəmədi. **Qacar** sülaləsinin yavuz hökmdarı **Ağa Məhəmməd şah**[21] Gürcüstanı tarac etdiyi kibi, kəndisinə təslim olmayan Qarabağı da hərblə zəbt və təxrib etdi[19].

XIX əsrin ibtidalarında Qafqasiyayı istilaya qalxan Rusiya çarlığı bilxassə bu xanlıqlarla uğraşıyor, müxtəlif zamanlarda, müxtəlif səfhələr ərz edən bu mücadilə sənələrcə davam ediyordu[20].

Daxili təşəvvüş və ixtilallarla uğraşmaq zərurətiylə kafi dərəcədə fəaliyyət göstərəməyən osmanlılarla iranlıların zəfindən dolayı Rusiya ilə mücadilədə kəndi kəndilərinə tərk olunan bu xanlıqlar, Böyük Petronun islahatı ilə Avropayi bir orduya malik qüvvətli bir dövlətə qarşı – İranın bir kaç müdaxiləsi müstəsna – yalnız başlarına mücadilə etmək məcburiyətində qalmışlardı. Xanlıqlar eyni zamanda Gürcüstan krallığının

---

[19] **Nadir** kibi **Ağa Məhəmməd şah** da kəndi nökərləri (hizmətçiləri - red.) tərəfindən qətl edilmişdir. Bu hadisə Qarabağda vüqu bulmuşdur.

[20] Şərqi Qafqasiya ilə Dağıstanı tamamilə ram edə bilmək üçün Rusiya imperatorluğu Dağıstanda 50, Şimali Azərbaycanda da 30 sənə uğraşmışdır.

Rusiyaya ilticası ilə də müşkil mövqeyə düşmüşlərdi. Tiflisi üssülhərəkə olaraq kullanan Rusiya Şərqi Qafqasiya ilə Dağıstan xanlıqlarının arxasına keçmiş bulunuyordu[21].

Eyni zamanda türk ünsürünün içərisində bulunan ermənilər də şimaldan gələn düşmənin həqiqi müttəfiqləri idi. Bütün bunlara feodal birər təşəkküldən ibarət olan xanlıqlar arasında kafi dərəcədə irtibat və vifaq deyil, bəzən hətta ədavət və şiqaq olduğunu da əlavə edərsək, Rusiya istilasına qarşı nə kibi namüsaid bir şərait təhtində müqabilə edildiyi anlaşılır.

Qafqasiya xanlıqları məlumumuz olduğu vəchilə gah Türkiyə, gah İranın nüfuzu altında və tabeiyyətində olub, gah müstəqil və gah da yarımmüstəqil bir həyat yaşamışlardı. **İran ilə Rusiya arasında bağlanmış 1813-də Gülüstan və 1828-də Türkmənçay müahidələri mucibincə Rusiya çarlığına tərk olunan ərazi Dağıstan, Quba, Bakı, Lənkəran, Şəki, Şirvan, Gəncə, İlisu, Qarabağ, Naxçıvan və Rəvan (İrəvan) xanlıqlarından ibarət idi.** Bu xanlıqlar "Qoyunlular" sülaləsinin inqirazından sonra səfəvilərlə osmanlılar arasındakı mücadilələrdə – **Şah Abbas** dövrü ilə **Nadir** dövrü müstəs-



***Bakıda Xan sarayının divanxanası***

[21] İran tabeiyyətində bulunan Gürcüstan kralı **İrakli** Rusiyaya daxili istiqlalını mühafizə etmək şərtilə iltihaq eləmişdi. Fəqət sonra Rusiya əhdini nəqz edincə, **İrakli**nin oğlu prins **Aleksandr** İrana iltica edərək, Rusiya əleyhinə mücadiləyə davam eləmişdir. **Aleksandr Mirzə**nin bir çox zaman Gəncə xanı **Cavad xan** tərəfindən himayə edilib Gəncədə müsafir olduğu mərufdur (M.Ə.).



***Xanlıq dövründə bir şəhərli Azərbaycan qiyafəti***

na – istiqlallarını təmin etmiş, Şəki xanı **Hacı Çələbi xanın**[22] "Gələsən görəsən" qalasında **Nadirə** qarşı göstərdiyi müqavimətin mislini Qarabağ xanlığı da yavuz **Ağa Məhəmməd şah Qacar**a qarşı ibraz eləmişdir. İşbu xanlıqlar miyanında əski **Şirvanşahlar** məmləkət və ənənatına təvarüs edən Şirvan xanlığı digər xanlıqlara nisbətlə daha uzun yaşamış, müxtəlif zamanlarda yetişən Şirvan sülalələri islam tarixində çox mühüm əsərlər buraxmışlardır[22].

Xanlıqların Rusiyaya qarşı vüqu bulan mücadilələrini bütün səfhə və təfsilatı ilə anlatmaq üçün məqaləmizin çərçivəsi müsaid deyildir. Bu qədər söyləməliyiz ki, bu xanlıqlardan bir qismi çar istilasına qarşı son dərəcəyə qədər müqabilə etmiş, yalnız bu qeyri-müsavi mücadilədə müntəzəm və mücəhhəz bir qüvvətə qarşı baş əymək məcburiyyətində qalmışlardır. Bu mücadilədən ən tipik olan Dağıstanda **Şeyx Şamil**[23]**,** Azərbaycanda da **Cavad xan**ın tarix səhifələrinə şan və şərəflə keçmiş bulunan qəhrəmanca qəzalarıdır.

İbtida **Qazi Molla** və **Həmzə bəy** tərəfindən başlayan, sonra da məşhur islam qəhrəmanı **Şeyx Şamil** tərəfindən şan və

[22] **Şah Xəlilullahdan** baqi qalan Xan sarayı mülhəqatından olan Divanxana binası orta zaman islam mədəniyyətinin ən mümtaz abidəsini təşkil etməkdədir. Divanxana mədxəlini tədqiq edən bir rus mühəndis bunu "təhəccür etmiş musiqi" deyə təqdir eləmişdir.

şərəflə idamə olunan Dağıstan mücadilatı coğrafi mövqeyin verdiyi faiqiyyətlə yarım əsri təcavüz eləmişlərdir. Dağlıq mühitin doğurduğu istiqlal və mücadilə ruhuna dini bir qüdsiyyət verərək **müridizm** namı ilə məruf  olan bu hərəkat Qafqasiya mücadilə tarixinin ən şanlı səhifəsini təşkil edər.

Fəqət Dağıstan kibi keçilməz və sarp dağlar başında deyil, müdafiəsini Gəncə kibi geniş və düz bir ovada yapmaq məcburiyyətində qalan qəhrəman **Cavad xanın Sisiyanovun**[24] faiq qüvvətlərinə qarşı vüqu bulan uzun və çətin müdafiəsi də az şərəfli deyildir. Kaç dəfə vaqe olan və müsaid şərtləri ehtiva edən təslimiyət təkliflərini nifrətlə rədd edən **"Ölmək var, fəqət dönmək yoxdur!"** deyə müqabilədə bulunan **Cavad xan** bəşəri imkanın son dərəcəsinə qədər, köpürmüş arslanlar kibi, qala topunun başında, əlində şəmşir, qala barusunu aşaraq hücum edən düşmənə qarşı, cəladətlə vuruşmuş və bir oğlu ilə bərabər, vəzifə başında, şəhid düşərək, sözünü tutmuş, ölmüş, fəqət təslim olmamışdır[23].



***Şeyx Şamil***

Biri Şimali, digəri Cənubi Qafqasiyanın istiqlal müdafiəsini tərmiz edən bu iki qəhrəman simanın mühəyyic xatirəsi hələ ruhlara təhziz etməkdə, hürriyyət və istiqlallarına çox mərbut olan dağıstanlılarla azərbaycanlılar üçün bu, həyəcanbəxş bir cidal rəmzini təşkil eləməkdədir.

---

[23] **Cavad xan**ın şəhadətini mütəaqib şəhərə girən rus ordusu əhaliyi qətliama məruz buraxmış və Şah Abbas cameini iltica edən çoluq, çocuqlar, qadınlarla ixtiyarlar və ailələrə dəxi rəhm edilməyərək burada 500 qədər adam qılıncdan keçirilmişdir (1804) (M.Ə.).

## II
## RUS İSTİLASINDA YÜZ SƏNƏ

**1) Şərqi Qafqasiyada çar siyasəti.**
**2) Qafqasiya türklərində ədəbi və milli intibah.**
**3) 1905 inqilabından sonra.**
**4) Qafqasiya türklərində siyasi məfkurələr.**
**5) Böyük İxtilal əsnasında Qafqasiya.**

### 1) ŞƏRQİ QAFQASİYADA ÇAR SİYASƏTİ

Çarlıq, Qafqasiya xanlıqlarını məğlub etdikdən sonra işin başlanğıcında, idareyi-məsləhət edərək xanlıqların daxili işlərinə qarışmadı. Kəndisinə müqavimət göstərmədən dəxalət edən xanları işlərin başında, kəndi hallarına buraxdığı kibi, müqavimət göstərənlərin yerlərinə kəndi nəsb etdiyi xanlara belə daxili işlərdə vəsi səlahiyyətləri verdi. Xanlıqlar daxilində mövcud idarə sistemi eyni ilə ibqa edildiyi kibi, kəza haqqı dəxi məhakimi-şəriyyə əlində qalmışdı. Şəhərlərdə bulunan rus qarnizonlarının iaşəsinə aid mükəlləfiyyətləri ilə rus dövlətinə verəcəkləri xəracdan başqa xanlar yeni heç bir şeylə müqəyyəd deyil, əhali ilə müamilələrində tamamilə sərbəst idilər. Xanların bu daxili istiqlalı Rusiya ilə əqd etdikləri müahidələrlə təsbit və təyin olunmuşdu. Fəqət bu hal uzun sürmədi. Türkiyə və İran dövlətləri ilə hesabını həll və tövsiyə etdikdən və yer-yer zühur edən üsyan və qiyamları tamamilə yatırdıqdan və bilxassə Dağıstan qiyam və üsyanının təsviyəsindən sonra çarizm, sabiq hakimiyyət və istiqlaldan zərrə qədər nam və nişan buraxmamaq politikasına keçdi. Hətta sadəcə qılınc gücüylə kəndinə

tabe etdirdiyi Şərqi və Şimali Qafqasiyadakı xanlıqları deyil, daxili istiqlalını təmin etmək şərtilə kəndinə iltica və iltihaq edən Gürcüstanı belə şiddət və və ünflə təzyiq və idarə etməyə başladı. Min bir intriqa və hiylələrlə əski xanədanlara mənsub prinslər, xanlar və xanzadələr, şu və ya bu səbəblə ittiham olunaraq mövqelərindən atılır və Rusiya içlərinə nəfy olunuyordu. Müstəqil və yarımmüstəqil xanlıqları məhv etmək surətilə, çarizm keçmişə aid hər türlü istiqlal xatirəsini silib atıyordu.

Bir tərəfdən bu əməliyyəyə müraciət edən çarlıq, digər tərəfdən də yeni yerləşdiyi məmləkətdə istinad edə biləcəyi ictimai bir zümrə hazırlıyordu. Xanlar dövründə qapı qulluğunda bulunub da bəy namını alan zatlar rus ordusunun istədiyi bir zümrəyi təşkil edə biləcəklərdi. Xanlıq dövründə ərazinin mülkiyyət haqqı bilfel xana aid idi. Məskun ərazi rəiyyətlərin idarəsində idi. Bu ərazinin idarəsinə təyin etdikləri bəylərə xanlar tərəfindən əhalidən müəyyən miqdarda gəlir almaq haqqı veriliyordu. Fəqət bu haqq heç bir zamanda daimi olaraq verilməz, bəyin haiz olduğu idarə haqqı, xanın iradeyi-məxsusası olmadıqca, övladına təvarüs etməzdi. Bəy idarə etdiyi əraziyi sata bilməzdi. Yalnız bu idarəsinə müqabil, ümumi ərazidən bir hissə alırdı ki, bu hissənin zəri də əhali tərəfindən angarya təriqi ilə icra olunuyordu. 1846 sənəsində nəşr olunan bir iradə ilə çar hökuməti Qafqasiya xanlıqlarının Rusiya tərəfindən işğalı əsnasında əcdadları tərəfindən idarə olunan ərazi üzərində bəylərin mülkiyyət haqqını tanıyor və bu ərazi üzərində ziraətlə məşğul olan köylülərə isə o zamana qədər daşıdıqları "rəiyyət", "rəncbər", "nökər" kibi müxtəlif ünvanları şamil olmaq üzərə "mülkədar təbəəsi" istilahını vəz ediyordu. "Təbəə" kullandığı ərazi müqabilində "bəy"ə müxtəlif növdən vergilər vermək

məcburiyyətində qaldığı kibi, "mülkədar" da sahib olduğu mülk üzərində zabitə və idarə haqq və səlahiyyətini alıyordu. Bütün bu iltifatlara qarşı isə bəylər "dövlət tərəfindən kəndilərinə tövdi olunan vəzifələrin ifası üçün tətil və təviqə məhəl buraxmadan canla və başla hazır olmalı" idilər.

Bu surətlə çarizm, **"aristokrasi"** zümrəsini kəndisinə rəbt etmiş oluyordu. Eyni şeyi rus hökuməti Gürcüstanda tətbiq ediyordu. Xanədana mənsub **Bakunişvili** və **Tavada** təbir olunan şahzadələrin əhəmiyyət və etibarını azaldıyor, buna müqabil **aznavur** deyilən bəylərə əhəmiyyət və etibar veriliyordu. Məmafih Şərqi Qafqasiyada vücuda gətirilən bəy zümrəsinə, Gürcüstandakı "aznavurlar"a verildiyi kibi, zümrə təşkilatı yapmaq haqqı verilmədiyini də qeyd etməliyiz. Rusiyada olduğu kibi Gürcüstanda da dvoryanstvo (əsilzadəgan) kəndinə məxsus təşkilata malik ikən, Azərbaycan bəyləri bu haqdan məhrum edilir. Yalnız fərd olaraq rus və gürcü "əsilzadə"sinin malik olduğu haqq və vəzifəyi haiz idilər. Rusiya hökuməti himayə etdiyi bəylərə yalnız iqtisadi deyil, işarət edildiyi üzrə idari bir taqım imtiyazlar da veriyordu ki, bu, xalq ilə bilavasitə təmasa gələn və dərəcəsi qaimməqamlıq rütbəsindən ötəyə keçməyən ufaq zabitə hizmətlərindən ibarət idi.

Təbiri-digərlə, çarizm xanların əlindən qəsb etdiyi hakimiyyəti, kəndinə minnətdar etdiyi bəylərlə bir az olsun bölüşüyordu. İşbu siyasət nəticəsində xan qapısında qulluq etmiş bəylərdən və bu bəylərə mənsub ailələrdən çar siyasətinə hizmət və kəndi xalqına ihanətləri ilə təmayüz edən tiplər zühur eləmişdir.

1847 sənəsində ikinci bir idarə ilə çar hökuməti təxti-idarələrində bulunan köylüyə ailəbaşına məhdud miqdarda bir ərazi verməsi üçün bəyləri icbar etmiş isə də, Rusiya ilə Gür-

cüstanda olduğu kibi köylünün, istərsə zər etdiyi əraziyi bəydən satın almaq haqqını tanımamışdır. Şərqi Qafqasiya köylüsünün 1912 sənəsinə qədər davam edən bu hüquqsuzluğu Azərbaycan iqtisadiyyat və ictimaiyyətinin inkişafında pək böyük bir əngəl təşkil eləmiş, türk köylüsünü istehsal sahəsindəki ən mühüm hərəkət amilindən məhrum buraxmışdır.

Zabitə və əsgəri təşkilat nöqteyi-nəzərindən qafqasiyalılara faiq olan rus idarəsi, işin ibtidasında, yeni istila etdiyi bu məmləkətlərə yüksək bir iqtisad və siyasət kültürü götürmüş deyildi. Ruslar Şərqi Qafqasiyada kəndilərinin vaqif olmadıqları yüksək ziraət sahəsi bulmuş, pamuq ziraəti ilə ipək emalından fəzləsi ilə istifadə etmiş, suvarma işindəki yerli "Mirab" təşkilatı son zamanlara qədər rus idareyi-miyah nizamnaməsinin əsasını təşkil eləmişdir. Rəvan xanlığındakı suvarma təşkilatı, rus müvərrixlərinin də təsdiqinə görə, zamanının nümuneyi-əmsal bir təşkilatı imiş. Gəncə Ruslar tərəfindən zəbt edildiyi zaman cam və şüşə emalatxanaları ilə dörd yüzə qərib ipək fabrikası və şəhərin civarında, Bayan, Siyah, Daşkəsən nam mövqelərdə də dəmir ocaqları çalışmaqda imiş. Dağıstanlılar Şirvana hücum etdikləri zaman burada zəbtü-tarac olunan rus tüccarına məxsus əmtəənin fiyatı dörd milyon rubləyə baliğ imiş ki, bu, o zaman üçün pək mühüm bir yekundur. Şirvanın qədim zamanlarda venediklilər, hətta ingilislərlə ipək ticarətində bulunduğunu nəzərə alırsaq, burasının minəl-qədim mühüm bir ticarət yeri olduğunu anlarız. Bakı petrolu bugünkü qədər olmasa da, zamanına görə Şərqi Qafqasiyanın sərvətlərindən ədd olunurdu. Hasilatının Dərbənd müstəhfizlərinə təxsis olunduğuna nəzərən Bakı neftinin daha ərəblər zamanında ikən iqtisadi bir əhəmiyyəti haiz olduğuna hökm edilə bilir.

Bundan yarım əsr əvvəlinə qədər Qafqasiya mədəniyyət və iqtisadiyyatında rus idarəsinin böyük bir təsiri olmamışdı. Bu təsir bəlkə də məkus idi. Xanlıqlar dövründə **Vaqif** kibi yüksək və saf türk şairinə malik olan Azəri ədəbiyyatı bir sükun dövrü keçirdiyi kibi memari əsərlərdə dəxi böyük bir inhitat vardı. Heç bir şey deyilsə də, Bakıdakı qədim məzarıstan ilə yeni məzarıstandakı sənduqə və baş daşları müqayisə edilincə bu inhitat mövcudiyətiylə görülür, oradakı əsərlər birər bədiəyi-sənət, buradakılarsa hər dürlü zövqdən məhrum. Yalnız şəhərdə deyil, ətrafındakı köylərdə də eyni müqayisəyi yapmaq qabildir.

XIX əsrin sonlarına doğru Qafqasiya həyatında pək mühüm bir hadisə vüqu bulur. O zamana qədər kəndi mühiti və kəndi aləmində **"natural"** iqtisad sistemi daxilində yaşayan məmləkət dərin bir böhranla sarsılır. Əsgəri bir məqsədlə inşa olunan dəmiryolu Cənubi Qafqasiyada iqtisadi pək böyük bir inqilabı mucib oluyordu. Xəzər dənizi ilə Qara dənizi yekdigərinə rəbt edən bu yol Qafqasiyayı cahan bazarına çıxarıyor. Eyni zamanda əskidən bəri pək məhdud bir miqdarda işləyən Bakı petrolunun vəsi surətdə ixrac və istehlakını mucib olan bu hadisə Qafqasiyanın, ümumən, Şərqi Qafqasiyanın da xüsusən kapitalizm və burjuva dövri-inkişafına girməsini təmin ediyor.

Yuxarıda çar hökumətinin Gürcüstan əsilzadələrinə zümrəvi təşkilat haqq və səlahiyyəti verdiyini söyləmişdik. Ortodoks gürcü əsilzadələrinin çar ordusunda ehraz etdikləri böyük rütbələrlə idarə işlərində aldıqları yüksək məmuriyyətlər məlumdur. Gürcülər də daxil olduğu halda "Rus silahının şan və şərəfini yüksəltmək üçün" qafqasiyalılara qarşı şiddət və hərəkətlə rəftar edən, başda qəhrəman Gəncə olmaq üzrə bütün məmləkəti atəş və qılıncdan keçirən və nəhayət, Bakı qapılarında

qətl edilən general Sisiyanov Moskvada tərbiyə almış gürcü knyazlarından idi. Sisiyanov kibi rus idarəsinə sədaqətlə hizmət edən nə qədər gürcü "aznavur"ları vardır. Əsgəri və mülki xüsuslarda gürcü məmurlarını istihdam edən çar idarəsi ticarət və iqtisadi həyat sahəsində də, tarixi müqəddəratları hesabilə, ticarət sinifləri münkəşif bulunan, Qafqasiyanın digər xristian milləti ermənilərə istinad və bu cəhətlə də kəndilərini bilxassə himayə ediyordu.

Türküstanda olduğu kibi, Qafqasiyada da islam və türk əhali şayani-etimad olmayan bir ünsür kibi tələqqi edilərək, idarə işlərindən uzaq, əsgərlikdən də müaf tutuluyordu. Halbuki gürcülərlə ermənilər biləks, hizmətə alınıyor, dövlətin ən yüksək məmuriyyətlərinə qədər yüksəliyorlardı. İdarə mərkəzinin Tiflisdə təsisi ilə bir çox maarif müəssisələrinin dəxi burada təmərküzü, gürcü ünsürü ilə erməni ünsürünü ayrıca təqviyə ediyordu.

Çar idarəsinin tətbiq etdiyi mühacirət siyasətindən bilxassə türk Qafqasiya mütəzərrir oluyordu. Dağıstanın Sulak həvalisindəki ziraətə salih ərazisini rus kazaklarına verdiyi kibi, çarizm **Terek** həvalisində təsis etdiyi Süncə xəttinə mümasil olaraq, Aras sahilində münbit Muğan ovası ilə Şamaxı qəzasının ən xalis-xiz topraqlarına rus köylülərini iskan ediyordu ki, bu siyasət hələ davam etməkdədir. Qafqasiyanın istilası əsnasında tək bir rus əhalisi olmayan Şərqi Qafqasiyanın hal-hazırda nüfusi-ümumiyyəsinin 10%-i rusdur. Hələ şəhərlərin, bilxassə Bakınun ruslaşdırılması fəci bir hadisədir. Bakı nüfusunun 30%-i rusdur. Rus idarəsi türk Qafqasiyanın yalnız rus ünsürünü deyil, erməni ünsürünü dəxi qismən təqviyə etmişdir. Məsəla, Bakı xanlığında erməni əhalisi üç-beş ailəyə münhəsir

ikən, hal-hazırda erməni əhalisi miqdarca şəhərin üçüncü ünsürünü təşkil etməkdədir.

Çar dövründə müsəlmanlar haqqındakı kayıtlar yalnız bununla təhdid edilmiyordu. Milli intibah və birliyi çətinləşdirəcək tədbirlər dəxi unudulmuyordu. Məzhəb ixtilafı xüsusi surətdə körükləniyor; **“idareyi-ruhaniyyə”** namı ilə vücuda gətirilən dini təşkilat şiələr üçün **“şeyxülislam”,** sünnilər üçün **“mufti”** ünvanlarını haiz rəislərinin idarəsi altında rəsmi hökumət müəssisələrinə rəbt olunuyor; “Əli” və “Ömər” məktəbləri namında hər məzhəb əhlinə məxsus məktəblər vücuda gətiriliyordu. Gürcü əsilzadələri ilə Azərbaycan bəyləri arasındakı gözətdiyi fərqi çarizm, islam üləması haqqında vücuda gətirdiyi bu təşkilatda da gözətmişdi. Gürcü patriarxı ilə erməni katalikosu kibi, müsəlmanların da  “şeyx” və “müfti”ləri vardı. Fəqət rütbə və ehtirama gəlincə ötəkilər müəyyən bir kilsəyi və camaatı təmsil edən möhtərəm birər müməssil ikən, bərikilər ələladə polis zabitindən daha az bir maaşla istihdam olunan birər “çinovnik (məmur)”dan ibarət idilər. Qərib deyildir ki, mənşə və təkamülünü sadə rus çarizminin iradəsindən deyil, bir dərəcəyə qədər, milli tarixindən alan gürcü əsilzadəgan təşkilatı ilə erməni kilsə təşkilatı bu iki qonşu millətin həyatında mühüm rollar oynadıqları halda, sırf rus intriqası ilə həyata gələn Qafqasiya bəyləri ilə “dəftər mollaları”nın[24] milli Azərbaycan həyatında, müəssisə olaraq müsbət rolları yoxdur. Əksəriyyətlə rus məktəbinə alınaraq tərbiyə olunan bəy çocuqlarını ruslaşmış kibi görən xalq, rəsmi hökumət hizmətinə girən mollaya da “dəftər mollası” demiş, kəndisinə qətiyyən isinməmiş bir çox “möminlər” bu kibi “molla”ların arxasında cəmaət namazı qılmayı belə caiz görməmişlərdir.

[24] Rus hizmətinə girən mollaya xalq “dəftər mollası” derdi.

**Xristianlıq məfkurəsi ilə təəssüs edən çar imperializmi tarixi vəzifəsini islam dünyası və bilxassə türk aləmi ilə mücadilədə görüyordu.** Bunun üçün də o, axirən təsis edilən bələdiyyə intixablarında, müstəmləkə əhalisi kibi gördüyü müsəlmanları, xristianlardan təfriq edərək, hüquqca təhdid ediyor; bir şəhərin əhalisi əksəriyyətlə müsəlman olsa belə, məclisi-ümumi əzasının nisfindən fəzləsini təşkil edəmiyəcəyini təhəqqüq etdirmək ədalətsizliyində bulunuyordu. Bu tədbir bilxassə rus çarizminin kılavuzluğunu yapan erməni burjuazisinin təfəvvüqünü himayə üçün yapılıyordu. Qafqasiyalı bir müsəlmanın Türküstanda mülk alması məmnu idi. Halbuki Rusiyanın ən hüquqsuz və zavallı bir məxluqunu təşkil edən yəhudi belə bu haqdan məhrum deyildi.

Bütün bu tədbirlərlə Rusiya hökumətinin istehdaf etdiyi bir məqsəd vardı ki, bu da kəndisinə inanmadığı türk ünsürünü məmləkətin ümumi inkişafı ilə mütənasib bir tərəqqi verdirməməkdən ibarət idi. Qafqasiya həyatında pək mühüm bir tərəqqi amili olan Bakı-Batum yolunu çəkdirərkən belə o, Şərqi Qafqasiyanın iqtisadi inkişaf və mədəni ehtiyacını qətiyyən nəzərə almamış, Azərbaycan şəhərlərindən yalnız Gəncəyə təmas edən bu yol, burada belə, istasyonundan pək böyük bir fasilədə buraxaraq keçmişdir. Fəqət türk və islam əhaliyə qarşı təvcih olunan bütün bu tərs tədbirlərə rəğmən, bir tərəfdən rus istilasından hasil olan nisbi asayiş, digər tərəfdən də Mavərayi-Qafqas dəmiryolunun təsisi ilə Bakı petrol ocaqlarının “kapitalizə” edilməsi, bütün Qafqasiyada olduğu kibi, Şərqi Qafqasiyadakı yarımfeodal türk cəmiyyətlərini də istər-istəməz tərəqqi və inkişaf yoluna sövq etdi. Şəhərlərdə erməni burjuaziyası ilə rəqabət edəcək mütəşəbbis türk tüccar

və burjuazisi yetişməyə başladı. Əski xanlıqları təşkil edən vilayətlər arasındakı mübadilə və irtibat çoxaldı. Kapitalizmin girməsiylə ziraət və maldarlıq həyatında hüsulə gələn böhran nəticəsində köydə tutunamayan türk əşrəfindən bir çoxu şəhərlərə, bilxassə Bakıya gəldilər. Eyni zamanda türk köylüsü də əmələliyə gəlmək zərurətində qaldı. İbtida bəylərin, sonra da burjuaların çocuqları təhsilə qoyuldular. Bu hərəkat yeni bir zümrənin doğuşunu təbşir ediyordu. Feodal türk xanlıqlarının yerini türk demokrasisi tutuyordu. Təərrüz qanunu burada da hökmünü icra və rus imperializmi inkişaf edə-edə kəndisini istihlaf edəcək demokrasi ünsürlərini təqviyə ediyordu. Yarım əsrdən ziyadə davam edən sükun və maddi rifah, şübhəsiz, bu ünsürün ən mühümü idi.

**Kapitalizmin təsiri ilə iflas edən gürcü əsilzadələrinin iqtisadi qüdrəti (topraq mülkiyyəti) möhtəkir erməni tüccarının əlinə keçdiyi halda, türk bəyinin yerini erməni deyil, yenə türk burjua tutuyordu. Tiflisdəki binalar əksəriyyətlə ermənilərin əlinə keçdiyi halda Bakı mülkləri əksəriyyətlə türklərdə idi. 1905 sənəsində erməni-müsəlman müsadiməsinin bu xüsusda böyük təsiri olmuşdur. Bu müsadimə şübhəsiz, ixtilalın Qafqasiyadakı inikasatını zəif düşürmək üçün çar hökuməti tərəfindən düşünülmüş və təhrik edilmiş çox şeytani bir tədbir idi. Fəqət bir dəfə vüqu bulduqdan sonra, bu müəssif hadisə türk ünsürünü bilxassə sarsıtdı. İqtisadca, harsca və elmcə qüvvətli olmanın zərurətini hərkəs anladı. Azərbaycan inkişaf tarixini tədqiq edənlər üçün, həddi-zatında çox mənfi olan bu hadisənin, Qafqasiya türklərinin tarixində oynadığı müsbət rolu görməmək qabil deyildir.**

1905 sənəsini mütəaqib sənələrdə Qafqasiyadakı türklər çox tərəqqi etmiş, olduqca inkişaf əsəri göstərmişlərdir. Belə ki, çarizmin inhilalını ehzar edən Hərbi-Ümumi ərəfəsində, Cənubi Qafqasiya yaxud Şimali Azərbaycan türklüyü, artıq 1905 və ondan əvvəlki zamanlarda olduğu kimi, başıpozuq və şəkilsiz bir kütlə halında deyildi.

## 2) QAFQASİYA TÜRKLƏRİNDƏ ƏDƏBİ VƏ MİLLİ İNTİBAH

Qafqasiya türklüyünün ədəbi həyatı demək, Azəri-Türk ədəbiyyatının seyr və hərəkatı deməkdir. **Mənşə etibarilə oğuz türkcəsindən ibarət olan Azəri ləhcəsi** ədəbi bir lisan halını aldığı əsnalarda daima Azərbaycan həvalisində təşəkkül edən siyasi mərkəzlərə mərbut bulunduğu üçün, oğuz türkcəsinin İstanbul mərkəzinə tabe bulunan qərb qismindən, əski istilahla söylərsək, Osmanlı türkcəsindən müstəqil bir cərəyan almışdır. Azəri ləhcəsinin təşəkkülünə səbəb olan ən mühüm amil – **Köprülüzadə Mehmed Fuad bəyin**[25] tədqiqinə görə – moğol istilasını mütəaqib şərqə gələn yeni oğuz kütlələrinin əski oğuz kütlələrinin lisani-sərvətinə bir çox şeylər əlavə etmələri ilə unudulmağa başlamış **"Oğuz harsı"**nı yenidən canlandırmaları olmuşdur. **Fuad bəy** əsasən Səlcuqi-Osmanlı ləhcəsinin əski və ibtidai şəkliylə Azəri ləhcəsi arasında həmən heç bir fərq yoxdur davasındadır. Ortadakı fərqi hüsulə gətirən şey isə "Azəri ləhcəsinin bilxassə **Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər** kibi türk xanədanlarının idarəsi altında, osmanlılardan ayrı – hətta məzhəb etibarı ilə onlara şiddətlə xilafgir digər bir idareyi-siyasiyənin nüvəsini təşkil etməsidir"[25]. Azəri ləh-

[25] "Azəri ədəbiyyatına aid tədqiqlər", Köprülüzadə Mehmed Fuad.

cəsini qardaş Osmanlı ləhcəsindən ayıran amil, eyni zamanda Azərbaycan ədəbiyyatını **"Çağatayca"**dan da müstəqil bir cərəyan almaya sövq etmişdir. Məmafih ədəbi Azəri ləhcəsinin əsaslandığı bu dövrdə yetişən **Nəsimi, Həbibi**[26] nəhayət, **Füzuli** kibi ustadlar, yalnız Azərbaycan mühitinə münhəsir olmayıb, ləhcələrindəki xüsusiyyətə rəğmən, təsir etibarı ilə bulunduqları məkanı aşa bildikləri kibi, kəndilərini təaqüb edən zamanları da aşmış və onlardan böyük **Füzuli** bu günə qədər təsirini ibqa edərək, Kaşqardan Ədirnəyə qədər, bütün türklərin dəxi şairi olduğu kibi, Avropa münəqqidləri tərəfindən dəxi Şərqin ən həssas və müstəsna şairləri zümrəsindən ədd olunmuşdur.

Azəri ədəbiyyatı yalnız bəhs etdiyimiz bu sülalələr dövründə deyil, bunlardan birinin müəssisi bulunan **Şah İsmayıl** tərəfindən bizzat tərvic edilmişdir. Nəşr etdiyi məzhəbin propaqanda vasitəsi olan mənzum ilahilər və **Xətai** təxəllüsü ilə şeirlər yazan şah kəndilərinə istinad etdiyi oğuz taifələrinə xitab edə bilmək üçün, şeirlərinin mühüm qismini türkcə yazmışdır. Şah İsmayılın ilahiləri kibi, şiə şairlərin Kərbəla faciəsinə aid mərsiyələrinin dəxi Azərbaycan və Qafqasiya türkləri arasında ədəbi türkcənin farisi ədəbiyyatına qarşı mücadiləsində oynadığı müəssir rolu təsbit etmək lazım. **Şah İsmayıl**dan əvvəl Ərdəbil şeyxi sofi ocağına mənsub türk dədələrinin dəxi mühitlərinə türkcə xitab və bu lisanda ilahilər inşad elədikləri şübhəsizdir.

Bunlardan keçdikdən sonra, rus istilasından əvvəl Qafqasiyadakı mövcud türk xanlarının sarayları birər ədəbiyyat məhfili təşkil ediyorlardı. Bu məhfillərə intisab edən şairlər arasında ədəbi qiyməti getdikcə daha ziyadə anlaşılan **Molla Pənah Vaqif** kibi ustadlar vardır. **Vaqif**in bundan bir çox əsr əvvəl,

heca vəzni ilə saf və təmiz bir türkcə ilə yazdığı bədii, pək böyük qiyməti haiz olan şeirləri şayani-qeyddir.

Fəqət bütün bunlarla bərabər, XIX əsr ibtidalarında, mütəfərriq xanlıqlar şəklində Rusiya əsarətinə düşən Qafqasiya türklüyünün milli bir mövcudiyət göstərdiyini iddia edəməyiz. Hənuz ümmət dövründə Azərbaycan, o zaman, milli hars təsirlərindən ziyadə dini və məzhəbi rabitələrə mərbut idi. Ədəbi zövqlərini qismən türkcə şeirlər, ilahilər və hətta ozanlar tərəfindən söylənən dastanlar və aşıqların saz tərənnümü ilə nəql etdikləri hekayələrlə tətmin edən bir mühit – bütün bunlara rəğmən – ruhən və hissən İran təsirinə məğlub idi. Rəsmi lisan farisi olduğu kibi, türkcə yazan şairlər eyni zamanda farsca da şeirlər yazar və bunu ədibliyin ayrılmaz bir şərtiədd edərlərdi. Xanlıqların sükutundan çox sonra belə Azərbaycanın ən dəyərli alim və şairi **Bakılı Abbasqulu ağa,** Şərqi Qafqasiya tarixinə aid yazdığı **Gülüstani-İrəm** nam mühüm əsərini farisicə yazmışdır. Türk dramaturqluğunun mucidi **Axundzadə Mirzə Fətəli** dəxi əsərlərinin bir qismini bu lisan üzrə yazmışdır. **Pəhləvanilər** zamanında Azərbaycan atabəyliyində yaşayan **Fələki Şirvani** farisi ədəbiyyatının ustadlarından ədd olunmaqdadır. **Nizaminin** mənşəyində ixtilaf olduğu üçün onu azərbaycanlı bir türk şairi olmasa da, Gəncədə yaşamış və bu mühit içərisində yetişmiş bir şair olaraq qəbul edə biliriz. Şamaxıdan, Bakıdan, Gəncədən, Dərbənd ilə Təbrizdən bir çox alimlər, şairlər, həkim və filosoflar çıxmışdır ki, əsərlərini farisicə yazmışlardır. Bu gün İran Azərbaycanında olduğu kibi, bundan 30-40 sənə əvvəl Qafqasiya Azərbaycanında (da) təhrirat, əksəriyyətlə farisi idi və kəndilərini iranlı bilənlər son zamanlara qədər az deyildi.

Qafqasiya türklüyünün, digər təbirlə, Şimali Azərbaycanlıların, milliyyətlərini idraklarıyla Rusiyanın şimalında vaqe Finlandiya qövmünün tarixi arasında çox yaxın bir müşabihət vardır. Finlər kəndilərini irşad edən isveçlilərə yalnız dinən deyil, harsən də məclub olmuşlardı. Fincəyi köylü dili olaraq tərk edən fin münəvvərləri, isveççəyi kəndilərinə mal edinmiş, tamamilə təbdili-milliyyət etmişlərdi. Rusiya imperatorluğu Finlandiyayı işğal altına aldıqdan sonra finlər isveçlərdən ayrılmaq üçün fincənin ədəbi bir lisan olaraq əhyası üçün çalışanları siyasətən iltizam eləmiş və bu surətlə istəməyərək, milli fin intibahını təsri etmişdi. Qafqasiyayı istila edincə dəxi Rusiya, Şərqi Qafqasiyadakı İran nüfuzuna qarşı qoymaq üçün, milli Azərbaycan türkcəsində yazı yazmayı təşviq eləmişdir. Müasir Azərbaycan ədəbiyyatının bəhəqq müəssisi ədd olunan **Mirzə Fətəli** məşhur komedilərini Qafqasiya valisi **Vorontsovun**[27] təşviqi ilə yazmış və ilk türk komedisi Tiflis sarayında oynadığı kibi, mərhumun əsərləri dəxi valinin mətbəəsində təb edilmişdir[26].

**"Ədu şəvəd səbəbi-xeyr, əgər Xuda hahəd"**[27]

Şərq elmləri ilə mükəmməl surətdə mücəhhəz, qərb mədəniyyətinin əsasları ilə də aşina bulunan **Mirzə Fətəli** ilə başlayan teatro ədəbiyyatı **Vəzirzadə Nəcəf bəy, Haqverdili Əbdürrəhim, Qənizadə Sultan Məcid, Nəriman Nərimanov** və **Məmmədquluzadə Cəlil** kibi mühərrirlər tərəfindən davam etdirilmişdir. Münəqqidlərcə **şərqin Molyeri** adlanan (adlandırılan) **Mirzə Fətəli** zamanının həyatını kəndisinə məxsus çox qüvvətli bir müşahidə ilə təhlil eləmiş, həyatdan aldığı tipləri və ifadəsin-

[26] Şayani-əsəfdir ki, bu mətbu əsərlər çoxdan asari-nadirədən olduğu halda **Mirzə Fətəli** külliyyatının bu günə qədər təbı təkrar edilməmişdir.

[27] Əgər Tanrı istərsə, düşmən belə xeyrə vəsilə olur (red.).

dəki sadəlik, zərafət və mizahla daimayaşar əsərlər yaratmışdır. Bu komedilər türk və islam dünyasında yazılmış ilk teatrolardır. Mirzənin komediləri farisicəyə, ruscaya, almancaya, ingiliscəyə, fransızcaya, hətta isveççəyə tərcümə edilmişdir. Türk teatronəvisliyinin ilk nümunəsini təşkil edən "Hacı Qara" indi belə Azərbaycan repertuarından düşməz, hər sənə Bakı səhnələrində sönməz bir maraqla tamaşa edilir. **Mirzə**nin istedadlı müaqibi olub keçənlərdə vəfat edən **Vəzirzadə Nəcəf bəy** də Azərbaycan teatrosunun ikinci rüknüdür. **Mirzə** teatro növindən yalnız komedi yazmışdı. **Nəcəf bəy** yenə xalq həyatından alınmış mövzular üzərinə faciə yazmayı da təcrübə elədi. Həm də müvəffəq oldu. Sonra Kazan türkcəsinə də tərcümə olunan "**Müsibəti-Fəxrəddin"**i ilə Avropa mədəniyyəti ilə yeni təmasa gələn türk münəvvərrinin qüruni-vustai həyat və şərait daxilində düçar olduğu müşkilat və faciəyi təsvir edər. Fəqət **Nəcəf bəy** eyni zamanda **"Pəhlivanani-zəmanə"** komedisi ilə münəvvər denilən zümrənin züppə qismini təşkil edən **pəhlivanlara** da istehza etməyi unutmamışdır. Azərbaycan faciəsinin daha mütəkamil nümunəsini isə hələ həyatda bulunan **Əbdürrəhim bəy** vermişdir. Saf və təmiz bir Azərbaycan nəsri ilə yazılan "**Dağılan tifaq"** çox qüvvətli, orijinal və əxlaqi bir əsərdir. Həyati pyeslərindən maəda **Əbdürrəhim bəy, "Ağa Məhəmməd şah Qacar"** kibi tarixi pyeslər, "**Pəri Cadu"** kibi əfsanəvi fantazilər də yazmışdır. **Əbdürrəhim bəy**lə müasir bulunub da şimdi həyatda olmayan **Nəriman** da həyati və tarixi pyeslər yazmışdır. "**Dilin Balası"**nda bir yalançının aqibətini göstərən **"moralist" Nəriman, "Nadir şah"** nam tarixi faciəsində **"münəvvər istibdad"** fikrini idealizə etmişdir. Bu əsrin mühərrirlərindən bulunan **Qənizadə Sultan Məcid** də güldürücü vodevillər yazmışdır.

1905 sənəsinə qədər müasir Azərbaycan ədəbiyyatının ən zəngin qismini təşkil edən teatro ədəbiyyatının bəlli başlı simaları bunlar idi. Bunlardan maəda **doktor Axundzadə Əbdülxaliq, Talıbzadə Axund Yusif** kibi mühərrirlər tərəfindən də əsərlər meydana gətirilmiş, Avropa və rus dramatörlərindən bir qismi dəxi türkcəyə tərcümə edilmişdir.

Bu dövrdəki ədəbi intibah yalnız teatro yazmaqla qalmamışdır. Yazılan əsərləri oynayan həvəskarlar da yetişmiş, bunlardan **Zeynalzadə Cahangir** mərhum ilə **Əlizadə Mirzə Ağa** kibi komiklər epey şöhrət bulmuşlardır. Teatrodan maəda türkcə bir kaç hekayə və mənsurələr də yazılmışdır. Bu xüsusda dəxi mürşidlik **Mirzə Fətəliyə** aiddir. **"Aldanmış yıldızlar"** namı ilə yazdığı hekayəsi, sonra **Nəriman, Sultan Məcid** və başqaları tərəfindən yazılan hekayə və romanların babası ədd oluna bilir.

Şərqi Qafqasiya tarixinə aid yazdığı **"Gülüstani-irəm"** nam əsərlərindən başqa fəlsəfə, coğrafiya və digər mövzulara aid mütəəddid əsərləri ilə məruf **Bakılı Abbasqulu ağa** ilə Avropa müstəşriqlərincə məruf olub türk şivələrinin müqayisəli sərfini vücuda gətirən Kazan Darülfünunu professorlarından **dərbəndli Mirzə Kazım bəyi**[28] bu dövrdə yetişən alimlərdən ədd edə biliriz.

O zamanın müəllif və mühərrirlərini tədad etdiyimiz bütün bu əsərlərdə məşğul edən tək mövzu vardı: "xabi-qəflətdən göz açmaq, elm oxumaq və tərəqqi etmək". Teatronun, hekayənin, şeirin ifadə etdiyi yeganə məna: əsri mədəniyətə intibaq fikrini tərvic idi. Bu fikir ədəbi əsərlərin ana məqsədini təşkil ediyordu. Məqsədə irmənin yolunu göstərməkdə, bütün başlayanlarda olduğu kibi, sərahətdən məhrum olunan bu ədəbiyyat mövcudu

tənqiddə olduqca salih və müttəhid idi. Qüruni-vüstanın geri qalmış müəssisələrini müasir Azərbaycan ədəbiyyatının ilk dövrünü təşkil edən bu nəsli ədəbi çox qüvvətlə tənqid eləmişdir. Bu tənqid, 1905-dən başlayan ikinci dövrü də yaxalayan "**Molla Nəsrəddin**" məcmuəsi ilə məcmuənin müdiri **Məmmədquluzadə Cəlil bəy** tərəfindən yazılan **"Ölülər"** nam pyes ilə "**Usta Zeynal**" və "**Posta qutusu**" kibi kiçik hekayələrdə ən yüksək dərəcəsini bulmuşdur.

**"Ölülər" pyesi – şeyxlərin, softaların, dini istismar edən qüruni-vüsta şarlatanlarının iç üzünü göstərir qüvvətli bir şah əsərdir. Bir misli daha vücuda gətirilməyən, hətta hal-hazırda Bakıda intişar etməkdə olan Molla Nəsrəddinin kəndisi tərəfindən də tənzir olunamayan 1905 "Molla Nəsrəddin"i qədər qüvvətlidir.**

1905 ixtilalından əvvəlki intibah dövrünün teatro və hekayədən maəda qəzetəçilik sahəsində də təcrübəsi vardır. Teatroçuluqda bütün türk islam aləmində birincilik şərəfinə nail olduqları kibi, Azərbaycan, bu təcrübədə də, Rusiya türkləri arasında birincilik şərəfini qazanmışdır. **Mirzə Fətəli** dövrünün müaqiblərindən **Zərdablı Məlikzadə Həsən bəy** 1875 sənəsində Bakıda **"Əkinçi"** namında bir qəzetə təsis eləmişdir. Bu qəzetənin həyatı çox sürməməklə bərabər, Azərbaycan intibah tarixində buraxdığı iz çox mühümdür. **Həsən bəy**in qəzetəsi bir az sonra çar idarəsi tərəfindən qapadılmışdır. **Ünsizadə** bəradərlər tərəfindən təsis olunub da bir kaç nüsxədən sonra qapanan **"Kəşkül"** və **"Ziyayi-Qafqas"** qəzetələri istisna edilirsə, 1903 sənəsində **Şaxtaxtılı Məhəmməd ağa** tərəfindən Tiflisdə nəşr olunan yövmi **"Şərqi-rus"** qəzetəsinə qədər Qafqasiya türklüyü mətbuatsız yaşamaq məcburiyyətində qalmışdır. Bu

məcburiyyət bittəbii çar idarəsinin türkcə qəzetə nəşrinə müsaidə etməməsindən irəli gəliyordu. Ermənicə, gürcücə qəzetələrə iyi-kötü müsaidə verildiyi halda, türkcə qəzetə təsisi qabil deyildi. Yalnız qəzetə deyil, müsəlmanların qomşuları ermənilərə mümasil təsis etmək istədikləri **"Cəmiyyəti-Xeyriyyə"** üçün belə kəndilərinə müsaidə edilməmişdir. Mərhum **Həsən bəy** bu xüsusdakı ədəmi-müvəffəqiyətini kəndi xatiratında zikr eləmişdir.

Azəri klassiklərindən Şirvan şairi **Seyid Əzim**in "**Əkinçi"** qəzetəsi ilə nəşr etdirdiyi yeni motivlərə haiz parçaları və divanındakı Nəbivari **"nəsihətləri"** ilə **Bakılı Abbasqulu ağa Qüdsi**nin bəzi mənzumələri müstəsna tutulursa, şeir sahəsindəki siyasi və milli intibahı, bilxassə 1905-dən sonrakı dövrdə aramalıdır.

### 3) 1905 RUS İNQİLABINDAN SONRA

Rusiya istilasına məruz türk elləri üçün pək mühüm bir dövr başlanğıcı təşkil edən 1905 ixtilalı Qafqasiya türklüyündəki milli qüvvətlərin inkişafı içində şayani-təqdir bir məbdə təşkil eləmişdir. Bu tarixdən etibarən nisbətən geniş bir nəfəs almaq imkanını bulan Qafqasiya türkləri şeir və ədəbiyyat, teatro və musiqi, mətbuat və maarif sahəsində olduğu kibi, ictimai və siyasi məfkurə və təşəkküllər etibarı ilə də böyük addımlar atmışlardır.

1905-də **Ağaoğlu Əhməd** və **Hüseynzadə Əli bəylər** tərəfindən təsis olunan **"Həyat"** və **"İrşad"** qəzetələri yeni intibah dövrünün pək mühəyyic bir zamanında zühur edən mürşidlər idi. Bu zamankı qəzetələr həm ruzmərrə siyasətə aid nəşriyyatda bulunuyor, həm də Azəri-Türk şeir və ədəbiyyatının, türkün

fikri və ictimai həyatının pək mühüm bir mürəvvici və məkəsi oluyorlardı. **Firdovsi-ilhamat** şairi **Əbdüssəlimzadə Məhəmməd Hadi** vətəni və hürriyyətpərvəranə şeirləri ilə meydana çıxıyor, elmə, irfana, tərəqqi və təaliyə aid məfkurə şeirləri ilə milli propaqandayı qüvvətləndiriyordu. **Hadi**nin arxasından gələn **İbrahim Tahir Musa, Əliabbas Müznib** kibi bir çox şairlər dəxi mətbuat səhifələrini **məktəb və tərəqqi şeirləri** ilə dolduruyordu. Eyni zamanda **Hüseynzadə Əli bəy** tərəfindən təsis olunub, **Əhməd Kamal bəy** kibi **yön (gənc - red.) türk** mühərrirlərin təhriri-müavinəti ilə çıxan ədəbi **"Füyuzat"** məcmuəsi, Qafqasiya mühitində yeni bir zövqi-ədəbi tərbiyə ediyor; Azəri türkcəsinin **"qərbləşməsinə"** saiq oluyordu. Tiflisdə intişar etməkdə olan **"Molla Nəsrəddin"** məcmuəsində **"Hop-hop"** nami-müstəariylə parlayan **Tahirzadə Sabir** də çox kəskin mizahi şeirləri ilə meydana gəliyor; yeni fikirlərlə məşbu türk şeirinin nüfuzu şəhərlərin mühitini aşaraq, köylünün kulübəsinə qədər girməyə başlıyordu. Bu gün Bakının ən mutəna mərkəzində heykəli rəkz olunan Sabirin Azərbaycan türkünün milli oyanıqlığında oynadığı rol həqiqətən də böyükdür. Bu, bəlkə də Azərbaycanın **Füzuli**dən sonra, əhalinin bütün siniflərinə nüfuz etmiş ən müvəffəqiyyətli şairidir.

İbtidada daha ziyadə islami motivlər və "İtthadi-islam" məfkurəçiliyi ətrafında dolaşan Bakı nəşriyyatı təkamül etdikcə, milli motivlərə keçiyor, türk birliyi fikri mətbuat və ədəbiyyatın ümdə mövzusunu təşkil ediyordu. Bu ruh, bilxassə Balkan hərbindən sonra Türkiyədə qüvvətlənməyə başlayan türkçülük cərəyanının qüvvətli inikasları ilə təzahür ediyordu. Gərçi **"Füyuzat"** məcmuəsi, **"Türk Yurdu"**nda olduğu qədər sərahət və təkrarla olmasa da, türkçülük mövzusunu daha əvvəl tərvic elə-

miş, hətta mərhum **Ziya bəy**in axirən **"Türk millətindənəm, İslam ümmətindənəm və Qərb mədəniyyətindənəm"** şüarı ilə ifadə etdiyi mənayı, **Hüseynzadə Əli bəy "Türk qanlı, islam imanlı və firəng qiyafəli (qiyafətli) olalım"** formulu ilə bəyan etmişdi. Azərbaycan mətbuat və ədəbiyyatının şüuri və metodik bir şəkildə milli türk məfkurəsini tərvici isə, hərbi-ümumi ərəfəsində və əsnasında bilxassə inkişaf eləmişdir. 1915-də təsis olunan **"Açıq söz"**[28] qəzetəsi o vaxta qədər Qafqasiya müsəlmanı və tatarı denilən xalqın türk olduğunu sərahət və israrla meydana qoymuş, bu xüsusda hərb sansürü ilə mücadilə etmək zərurətində belə qalmışdır. **"Açıq söz"**ün intişarına müsadif sənələrdə iki Azərbaycan şairi milliyyətpərvəranə əsərləri ilə parlıyorlardı ki, bunlardan biri **Cavad,** digəri də **Cavid**dir. **Cavad** daha ziyadə Türkiyədə **Emin bəy**lə təəssüs edən heca vəznini örnək ittixaz edərək çox həssas türkcə şeirlər yazıyor, kəndinə məxsus rəqiq bir üslubla xalq ədəbiyyatından mülhəm olaraq **"Qoşma"**lar nəşr ediyor; digəri isə milliyyətpərvəranə parçalar nəşr etməklə bərabər daha ziyadə, **Tofiq Fikrət** və bilxassə şairi-əzəm **Əbdülhaq Həmid bəy**ləri tənzir edərək filosofca şeirlər, mənzum pyeslər yazıyor. **"Açıq söz"** vasitəsilə nəşr etdiyi **"Şeyx Sənan"** bəhs etdiyimiz zamanın ədəbi bir hadisəsi ədd oluna bilir. Gərək **Cavad**ın, gərəksə **Cavid**in şeirlərində qullandıqları lisan İstanbulun təkamül etməkdə bulunan ədəbi və sadə lisanıdır. Bu iki şairlə bərabər, indi mərhum olan **Abbas Səhhət** ismini də zikr etməliyiz. Çocuqlara məxsus hekayələri ilə məşhur olan **Abdullah Şaiq**i də unutmamayalım. Şeir sahəsindəki bu parlaq müvəffəqiyyətin yanında epey irə-

[28] **"Açıq söz"** qəzetəsi bu sətirləri yazan **Rəsulzadə Məhmət Əmin** tərəfindən təsis və nəşr edilmişdir.

liləmiş bulunan əsl və mütərcəm hekayə və romanlarla **"Orucov nəşriyyatı"**[29] namıyla məruf əsərlər miyanında bəzi mühimlərinin bulunduğunu da qeyd edəlim[29]; 1905-dən 1915 sənəsinə qədər intişar edən bir çox qəzetə və məcmuələr arasında mərhum **Haşım bəy** nəşriyyatında **"Səda"**[30] qəzetəsinin beynələhali böyük bir rəğbət qazanmasını da qeyd edə biliriz. Burada **"Keyfim gələndə"** ünvanı altında nəşr edilən təfriqələr siyasi mizahın müvəffəq olmuş bir nümunəsidir. **"Molla Nəsrəddin"** məcmuəsini əvvəlcə zikr etdiyimizdən burada təkrar etmiyoruz. Yalnız bu qədər söyləməliyiz ki, məcmuənin məzhər olduğu müvəffəqiyət Azərbaycan mətbuatından heç birisinə nəsib olmamış, kəndisini tənzir ilə bir çox mizah qəzetələri təsis olunmuşsa da onun gördüyü rəğbəti qazanmamışlardır.

Bu dövrdə **"Ölülər"** pyesi kibi şahkar bir əsər qazanmaqla bərabər, Azərbaycan teatrosu surəti-məxsusədə təşəkkül etmiş aktyor qruplarına, aktyorluğu məslək ittixaz etmiş **Ərəbli** və **Şərifzadə** kibi müqtədir "trajediyən"lərlə, **Darablı, Anablı** və **Hacı Ağa** kibi mahir "komediyən"lərə də malik olmuşdur. Azərbaycan teatrosunun burada ehraz etdiyi ən böyük müvəffəqiyyət **Hacıbəyli Üzeyir bəy** tərəfindən təsis olunan türk opera və operetidir. Böyük **Füzulinin "Leyli və Məcnun"**unu bəstələməklə başlayan bu təcrübə **"Şeyx Sənan", "Əsli və Kərəm", "Şah Abbas" və "Xurşid Banu"** kibi operalar və **"Arşın mal alan" ilə "O olmasın, bu olsun"** kibi digər bir kaç operetlər meydana gətirmək surətilə, intizarın fövqündə böyük bir müvəffəqiyyət ibraz eləmiş, eyni zamanda türk musiqisi-

[29] Bu nəşriyatdan olmaq üzərə **Corci Zeydan**ın tarixi romanlarının və **Mədəniyəti-İslamiyə Tarixi**nin tərcüməsi ilə min bir hekayə masalları və elmi və ədəbi sair bir çox əsərlərin mövcud olduğunu qeyd edə biliriz. "Orucovlar" yövmi mütəəddid qəzetələr dəxi nəşr eləmişlərdir. Bunlardan mərufu **"İqbal"**dır.

nin də bir müvəffəqiyyətini təşkil edən bu hadisə Azərbaycan türklüyünün, sözün əsri mənası ilə, bir millət olaraq təşəkkülündə şayanı-təqdir bir rol oynamışdır. **Üzeyir bəy**in pərakəndə bir halda qalıb unudulmaq üzrə bulunan milli xalq şərqiləri ilə şərq və qərb muğamatlarının məzcindən vücuda gətirdiyi bu kompozisyonlar, intixab etdiyi çox müvəffəqiyyətli mövzularla birlikdə əhalinin zövqünü oxşamış, türk xalqını teatro seyrinə sözün tam mənasıyla alışdırmışdı. Bu əsərlərdən bəziləri, bilxassə çox orijinal və eyni zamanda ictimai və tərbiyəvi bir mahiyyəti haiz olan **"Arşın mal alan"** pyesi Qafqasiya lisanlarına tərcümə edildiyi kibi, İstanbul səhnəsinin çox təkrar olunan bir əsəri şəklinə də girmiş; farisicəyə tərcümə olunaraq Tehranda dəfələrlə oynandığı kibi, ruscaya, fransızca ilə ingiliscəyə dəxi tərcümə olunaraq, rus, Paris, London (Londra) və Amerika səhnələrində belə tamaşaya vəz edilmişdir. **"Arşın mal alan"** Balkan teatrolarında da oynanmışdır. Qonşu gürcü səhnəsi isə Ermənistan səhnələri ilə **"Arşın mal alan"**ı hər mövsümdə dəfələrlə təkrar edib dururlar. Erməni sənətkarları bu pyesi o dərəcəyə qədər mənimsəmişlərdir ki, çox yerdə onu bir erməni əsəri kibi təqdim edərlər[30]. **"Arşın mal alan"**a bu müvəffəqiyyəti təmin edən şey gürcülərlə ermənilərin çox zəngin türk xalq harsı ilə Azərbaycan musiqisinin təsiri altında bulunmalarıdır. Türkcə, Qafqasiya millətləri arasında adəta beynəlmiləl bir lisan mahiyyətindədir.

Əvvəlcə ictimai məqsədlərlə cəmiyyətlər təşəkkülünə müsaidə alamayan xalq bu dəfə başqa **"Müsəlman Cəmiyyəti-xeyriyəsi"** olmaq üzərə Bakıda **"Nəşri-maarif cəmiyyəti"**,

---

[30] İstanbulda tanış olduğum bir erməni doktoru bu əsərin ermənicədən türkcəyə mütərcəm olduğunu bana ciddi surətdə isbat ediyordu! (M.Ə.).

**"Nicat", "Səfa" və "Səadət"** kibi bir çox cəmiyyətlər vücuda gətirmiş, bir tərəfdən mətbuatın tərvicinə, nəfis sənətlərin himayəsinə əmək sərf etdiyi kibi, bilxassə milli maarifin nəşr və təmiminə əhəmiyyət vermişdir. **"Bakı Müsəlman Cəmiyyəti-Xeyriyəsi"**nin Ümumi Hərb əsnasında Türkiyə cəbhəsindən təhcir olunan **Əlviyəi-Sələsə** müsəlmanlarına təşkil elədiyi yardım bütün Rusiya müsəlmanlığını təhəyyüc eləmişdir. Məzkur cəmiyyətin türk hərb əsirlərinə göstərdiyi müavinət dəxi ayrıca şayani-qeyddir[31]. Bu cəmiyyətə məxsus olaraq, Bakı tacirlərindən mərhum **Musa Nağıyev** tərəfindən yapılan bina, bəlkə də aləmi-islamda bu məqsədlə yapılmış binaların, əzəmət və ehtişam etibarıyla birincisiydi. Azərbaycan və Qafqasiya türkləri arasında baqiyyati-salihatı ilə məruf **Hacı Zeynalabdin əfəndi**nin ilk dəfə olaraq təsis etdiyi **"Müsəlman Darülmüəllimatı"**nın Şərq üsulundakı memarisi ilə gözəçarpan binası da milli abidələrdən birisini təşkil edər. **"Səadət cəmiyyəti"**nin məktəb binası olaraq yapdırdığı möhtəşəm bina ilə yenə **Hacı Zeynalabdin**in təsis etdiyi teatro da Bakı şəhərini süsləyən binalardandır.

Maarif müəssisələrindən maəda Bakı şəhəri eyni zamanda Qafqasiya türklüyünün iqtisadi iqtidarına dəxi mərkəz olmuşdu. Burada **Hacı Zeynalabdin, Musa, Murtuza bəylər** kibi əhalidən yetişmə vəsi zatilərilə milyonerliyə qədər yüksələn zənginlər beş-on kişidən ibarət deyildi. Bunların əlində **Hacı**nın təsis etdiyi Qafqasiyada yeganə bez fabrikası olduğu kibi, petrol ocaqları, un fabrikaları, Xəzər dənizində seyri-səfain, balıqçılıq, çimentoçuluq, pamuqçuluq kibi iqtisadi çox mühüm

[31] Baku türk mühərrirləri tərəfindən eyni məqsədin təmini üçün nəşr edilmiş bulunan **"Qardaş köməyi"** məcmuəsi ilə bir günlük qəzetəsinə müraciət oluna (M.Ə.).

işlər vardı. Bakıdakı evlərin külli qismi Azəri mülkədarların idi. Böyük neft istehsalı ilə məşğul **Nağızadə Musa, Əsədullah Şəmsi, Hacınski, Səlimzadə Mühsin** kibi bir çox firmalar mövcud olduğu kibi, küçük neft istehsalı kamilən türklərin əlində idi. Banka müəssisələrində vəsi krediyə sahib olan türk burjuazisinin son zamanlarda sırf türk sərmayəsi ilə təşəkkül etmiş bankaları da vardı. Bakıdan sonra Gəncə dəxi maddi və mənəvi inkişaf yoluna girmişdi. Üzüm istehsalı böyük nisbətdə inkişaf ediyor, pamuqçuluq genişliyor, tüccar sinfi getdikcə əhliyət qazanıyordu. Eyni zamanda Gəncədə **"Mədrəseyi-ruhaniyyə"** ismi ilə təsis olunan darülmuəllimin, Türkiyədən cəlb edilən müəllimlər sayəsində türk harsı ilə mücəhhəz gənclər yetişdiriyordu. Şair **Cavad** kibi bu məktəbdən bir çox mühərrir, şair və müəllimlər yetişmişdir ki, iləridə milli cərəyanın birər xadimi olmuşlardır.

Demək oluyor ki, türk cəmiyyəti iqtisadi istehsal qüvvətlərini toplayaraq həyat və rəqabət meydanına çıxıyor və bu rəqabət həmləsi artdıqca kəndisinə dar gələn çarlıq  üsuluna qarşı ədəmi-məmnuniyyəti də çoxalıyor, getdikcə liberallaşıyor və ixtilalpərvər oluyordu.

## 4) QAFQASİYA TÜRKLƏRİNDƏ SİYASİ MƏFKURƏLƏR

Milli intibahların klassik tiplərində görüldüyü kibi, Qafqasiya türklərində də ibtida dini bir intibah cərəyanı məxsus idi. Xurafat və övhama qarşı mücadilə mətbuatın, ədəbiyyatın mövzusunu təşkil etdiyi kibi, dinin elmə müxalif deyil, onunla mütabiq olduğunu vəz edən və vəzləri ilə müsəlman cəmaətini hərəkətsiz bir müstəhasə halinə qoyan əqidəvi xürafələrə qarşı

müvəffəqiyyətlə mücadilə edən edən din alimləri çıxmışdır[32].

XIX əsrin sonlarında İranda zühur edib də şiə dünyasında qüvvətli bir fikir hərəkatı yaradan Babiliyin də bu xüsusda təsirsiz qalmadığını qəbul etməliyiz. Bir zaman vardı ki, Şərqi Qafqasiya ilə İranda hər hanki liberal bir düşünüş həmən **“babilik”** kibi tələqqi olunuyordu. Dini tələqqilərdəki liberalizm hərəkatı, məlum olduğu vəchilə, Şərq dünyasının bilxassə XIX əsrin son rübündə əfkarı ciddiyyətlə məşğul etmişdir. İslam şərqinin Avropa imperializmindən yediyi möhlik darbələrin təsiri altında, siyasi bir saiqlə amil olan bu dini və fikri hərəkatın siyasi bir məfkurəyə təhəvvül edəcəyi təbii idi. **“İttihadi-islam”** düşünən müsəlmanların siyasi qayəsi oluyor, birləşmədikcə bütün müsəlmanların inqiraz edəcəkləri fikri də zehinlərdə yer tutuyordu. Bu dövrü təmsil edən mətbuat və ədəbiyyatı tədqiq edəcək olursaq, islami məfkurə və istilahlarla təmayüz etdiklərini görürüz. **Panislamizm** 1905 ixtilalına qədər, hətta ondan daha çox sənələr sonraya qədər yalnız Qafqasiyanın deyil, bütün Rusiya türklərinin düşünüş sistemini təşkil ediyordu. 1905-də Rusiya türklərinin siyasi mətləblərini təsbit və hüquqlarını müdafiə etmək məqsədilə təşəkkül edən cəmiyyətə **“Rusiya Müsəlmanları İttifaqı”**[33] denmiş, həp müsəlman hüququndan, müsəlman məktəbindən və müsəlman mətbuatından, hətta müsəlman teatrosu ilə musiqisindən bəhs olunmuşdur. Bu dövrün siyasi ən mühüm tələbini də “idareyi-ruhaniyyə”lərin

---

[32] Bunların 1905 intibahından əvvəlki müaqiblərindən sonuncusu məruf mərhum Bakılı **Mirzə Əbu Turab Axund** idi. **Hacı Mirzə Məhməd Kərim ağa** ilə mərhum **Hacı Molla Ruhullah Axundu** da bu sıraya qeyd edə biliriz (M.Ə.).

[33] “Rusiya Müsəlmanları İttifaqı” panislamist qayələr daşıyan bir firqəyi-siyasiyyə deyildi. O zamanlar Rusiyada sakin türk qövmlərinə müştərək bir isim verməimkansızlığından “müsəlmanlar” təbiri kullanmışdı (A.Y.) (Akçuraoğlu Yusif).

muxtariyyəti və din rəislərinin müsəlmanlar tərəfindən intixabı təşkil eləmişdir.

Balkan hərbi Qafqasiya türklüyündə dərin bir əksüləməl doğuruyordu. Rusların liberalları da daxil olduğu halda, Balkan islavlarını iltizamı, Rusiya Qafqasiya türklərində dərin bir hissi-milli oyandırıyor, **Hilali-Əhmər** faidəsinə ianə toplamaq, milli bir nümayiş halını alıyor. Türk gəncləri könüllü olaraq Türkiyəyə firar ediyorlardı. Hərb əsnasında və hərbi təqibən Türkiyədə olduğu kibi, Rusiya ilə Qafqasiyadakı türk mətbuat və ədəbiyyatının nəşriyyatında dəxi yeni bir hərəkat və bu hərəkatla mütənasib yeni istilahlar zühur ediyordu. Milliyyətin "din" məfhumu ilə tərifini, "dil" ilə məşrut irq və hars hadisələri ilə izah keyfiyyəti təbdil ediyordu. **Akçuraoğlu Yusif bəy**in idarə etdiyi **"Türk Yurdu"** Rusiya türkləri arasında olduğu kibi, Qafqasiyada da pək böyük rəğbətə məzhər oluyor; başda **Ziya Gökalp** olduğu halda, **Yurdçu** mütəfəkkirlərin milliyyət və türkçülük haqqındakı təlimatları az zaman içində, Qafqasiyada pək atəşli müaqiblər buluyor; **"müsəlman"** sifəti yalnız dini müəssisələrə həsr olunaraq, digər xüsuslarda **"türk"** kəlməsi təbii olan əhliyət haqqını qazanmış oluyor. Siyasi düşünüş klerikal sistemdən xilas olaraq milli hars sisteminə doğru səri bir inqilab yapıyor. Milliyyət və türklük davasını müdafiə məqsədi ilə təsis olunan qəzetələrdən **("Açıq söz")** maəda milliyyət prisipi və türk birliyi qayəsi üzərinə müəssis siyasi bir firqə təşəkkül ediyor: **Türk Federalist Müsavat Xalq Firqəsi.**

**"Açıq söz"** ilə **Müsavat firqəsi** tərəfindən siyasi bir məfkurə şəklində şüurlandırılan türkçülük və təşkilatı 1917 ixtilalına təqəddüm və təəhhür edən sənələrin məhsuludur. 1905 sənəsindəki **Rusiya Müsəlmanları İttifaqı** zamanın-



***Rəsulzadə Məhəmməd Əmin bəy***

da isə, Rusiyada olduğu kibi[34] Qafqasiyada da dini sistem xaricində düşünən radikal türk gəncliyi sosializm cərəyanlarının təsirinə qapılmış bulunuyordu. **"Rusiya Müsəlmanları İttifaqı"** liderləri (Qafqasiyadan **Topçubaşı Əli Mərdan bəy)** və Qafqasiyadakı peyrovları məfkurə etibarilə rus liberalizminin mümləssili məruf **Məlikov**un təmsil etdiyi **Kadet firqəsi**nə qismən intisab və qismən də simpati bəslərkən, radikal gənclik çarizmə qarşı ən müfrit bir vəziyyət almış bulunan sosialist partilərinə və bilxassə sosial-demokrat firqəsinin sol cinahına intisab ediyor və simpati bəsliyordu. **"Rusiya Müsəlmanları İttifaqı Cəmiyyəti"**nin Dumadakı fraksiyonu siyasətən **"Kadet"** fraksiyonunun peyki halındaykən türkcə cıxan radikal qəzetələr (Bakıda **"Təkamül"**) Dumanın ən solda duran inqilabçı cinahını iltizam edərək "ittifaqçı"ları şiddətlə tənqid edərlərdi.

1910 sənəsinə qədər rus liberalizmi ilə rus sosializmi arasında intixab münaqişəsi ilə keçən siyasi həyat, bu tarixdən etibarən, Qafqasiya türklüyündə yeni bir səfhəyə giriyor, üçüncü müstəqil bir fikri-siyasi cərəyanı ilə yeni təşkilat təşəbbüsləri

[34] Bu mütaliənin istinad etdiyi vaqiələr, kafi tədqiq edilməmiş zənnindəyəm (A.Y.) **(Akçuraoğlu Yusif).**

başlıyor ki, bu da milli demokratizm və milli inqilab məfkurəçiliyindən ibarətdir. Azərbaycan Cümhuriyyəti fəslində kəndisindən daha ziyadə təfsilatla bəhs edəcəyimiz **Müsavat firqəsi**ndə mütəbəllir bir şəklə girən bu məfkurə, ilk dəfə olaraq Qafqasiya türklüyünün siyasi müqəddəratını Rusiya əlaqələri xaricində müstəqil olaraq düşünmüşdür. Bu şərəf isə türkçülüyə aiddir.

## 5) BÖYÜK İXTİLAL ƏSNASINDA QAFQASİYA

1917 sənəsində Rusiyada zühur edən bu ixtilal, məhkum siniflərə hürriyyət, məhkum millətlərə də muxtariyyət vədində bulundu. **Rusiya Müəssisan Məclisinə** icra olunan intibahlar əsnasında bütün siyasi firqələrlə millətlər kəndi davalarını iləri sürüyor, mücadilələr gündən-günə qabarıyor, genişliyordu. Rusiyanın hər tərəfində olduğu kibi Qafqasiya türklərində də ciddi bir hərəkat görülüyordu. Nisanın 15-də ilk dəfə olaraq, Bakıda toplanan **Qafqasiya qurultayı** hər şeydən əvvəl, yeni Rusiyanın alacağı mətlub idarə şəklini təsbit ediyordu. Qurultay (Konqre) bir çox münaqişədən sonra, Rusiya şəkli-idarəsinin **məhəlli federasyon əsası üzərində qurulu cümhuriyyəti-müctəmiai-ənam** olmasını **Rusiyadakı müsəlmanların** həyati mənfəətləri nöqteyi-nəzərindən müfid buluyordu[35]. Bu qərar günlərcə davam edən hərarətli münaqişələr nəticəsində qəbul edilmişdi. Münaqişə bir tərəfdən türkçülər, digər tərəfdən də islamçılarla sosialistlər arasında cərəyan ediyordu. Federasyon əsasını – Rusiyadan ayrılmanın ilk qədəməsi olmaq üzrə – türk-

[35] Bu təqrirdə məhzən dağıstanlı və bilxassə Şimali Qafqasiyalı qeyri-türk müsəlmanların xatiri üçün "Türk" sözü yerinə "Müsəlman" kəlməsi kullanılmışdır (M.Ə.).

çülər müdafiə ediyor, türk elləri üçün məhəlli muxtariyyət tələb ediliyordu. Müarizlər isə milliyyət məsələsinin həllini məhəlli muxtariyyət əsasından deyil, mədəni muxtariyyət prinsipindən bəkliyor, siyasətən Rusiyanın vəhdətini iltizam ediyorlardı.

Nisanı mütəaqib mayıs ayında Moskvada iniqad edən **Bütün Rusiya Müsəlmanları Konqresi**ndə eyni münaqişə təkrar edilərək, Qafqasiya türkçülərinin təklifi burada daha ziyadə sərahət və qətiyyətlə təsbit və qəti bir əksəriyyət tərəfindən qəbul edildi[36]. Nəhayət, Məclisi-Müəssisan intixabları əsnasında, Mavərayi-Qafqas müsəlmanları arasında kafi bir əksəriyyət ehraz edən **"Müsavat" firqəsi** ilə, ixtilal əsnasında təşəkkül edən, bir növ Qafqasiya **"Müdafiəyi-hüquq"u** hökmündə bulunan milli komitələr tərəfindən tənzim olunan listədə[37] Rusiyanın federativ muxtariyyətlərə bölünməsini tələb etməklə bərabər **"Azərbaycan Muxtariyyəti"**ni dəxi, siyasi bir şüar olaraq ortaya atmışdı. Eyni aylarda Bakıda iniqad edən **Müsavat Konqresi** firqə proqramının şəkli-idarəyə aid maddəsini formulə edərkən, türk elləri üçün ümumən, Azərbaycan üçün xüsusən daxili istiqlal (muxtariyyət) tələb ediyordu[38].

Bu surətlə qafqasiyalı türk mühərrir və şairlərindən bir qisminin müxtəlif zamanlarda, mübhəm olsa da ifadə etdikləri **"istiqlal"** qayəsi Hərbi-Ümumi əsnasında mütəfəkkir qismin qafasında təəzzüv edərək, inqilab günlərində siyasi bir şüar

---

36 Moskova Konqresində məhəlli muxtariyət prinsipi **Rəsulzadə Məhəmməd Əmin** ilə **Zəki Vəlidi bəylər,** mədəni muxtariyət əsası da **Əhməd Salihov və arkadaşları** tərəfindən müdafiə edilmişdir.

37 Mütənasib intixab üsulu ilə icra olunan intixabatda hər parti müəyyən namizədlər listəsi elanına məcbur idi. İntixab şəxslər deyil, listələr arasında icra olunuyordu.

38 Firqənin 1919 sənəsində inikad edən ikinci konqresində Azərbaycanın istiqlalı ümdə olaraq təsbit olunmuşdur (M.Ə.).

şəklinə giriyor; daha münasib bir gündə **"tam istiqlal"** şüarına təbəddül etmək istedadında bulunan siyasi bir proqram halını alıyordu.

Məhkum siniflərlə məhkum millətləri tətmin etmədikcə, inqilab tarixi vəzifəsini görməyəcəkdi. Fəqət inqilabın başına keçən müvəqqəti hökumət **(Kerenski)** ilə hadisatın əsl ruhunu qavrayamayaraq, köylü ilə qeyri-rus millətlərin şübhəsini qüvvətləndirən **"zəfəri-nihai"** şüarına saplanınca, rus ixtilalını sövq edən amilləri daha iyi qavrayan **Lenin** firqəsi ilə rəqabət edəmədi. Hakimiyyət bolşeviklərin əlinə keçdi. **Lenin "topraq köylünün, muxtariyyət də millətlərin!"** dedi və bununla müvəffəqiyyətini təmin elədi.

Bolşevik ixtilalı Rusiyadakı müxtəlif ünsürləri hərəkətə keçirmiş, Rusiya bilfel dağılmış və parçalanmış idi. Ruslarla məskun olmayan qeyri-rus vilayətlərdə məhəlli təəzzüvlər və təşəkküllər zühur ediyordu. Bu sırada Petroqradda toplanacaq Rusiya müəssisanı da qovulmuş idi. Qafqasiyadan Məclisi-Müəssisana intixab olunan məbuslar Tiflisdə bir **Seym** Məclisi təşkil etdilər. **Seym** Mavərayi-Qafqasiyada[39] anarşi içərisində bulunan Rusiyadan bilfel müstəqil olaraq bir hökumət təsis etdi. Şəkli-ibtidaisi ilə **Seym Daşnaksütyun firqəsi**nə mənsub erməni, **Menşevik firqəsi**nə mənsub gürcü, başda **Müsavat firqəsi** olduğu halda, **İttihad firqəsi** ilə sosialistlərdən mütəşəkkil **"müsəlman"** fraksiyonundan və bir də **Rus Sosialist Revolyusioner firqəsi**nə mənsub bir kaç məbusdan ibarət idi[40].

---

[39] Mətndə "Qafqasiyanın" şəklindədir, tərəfimizdən düzəldildi (red.).

[40] Bu sonrakılar Qafqasiyada mövcud rus əsgərlərinin rəyləri ilə intixab olunmuşlardı.

Şu sıralarda Qafqasiya qeyri-qabili təsəvvür bir anarşiyə məruzdu. Məmləkətlərinə dönmək üzrə bulunan rus soldatları əhali üzərində bir çox faciəyi iqa ediyor, bilxassə silahsız və mükəlləfiyyəti-əsgəriyyədən məhrum olduqları üçün nisbətən qeyri-mütəşəkkil bulunan islam əhali bunların təərrüzünə düçar oluyordu. Tiflisdə **Seym** hökuməti varkən, Bakıda **"Sovet"** hakimiyyəti paydar idi. Burası rus və erməni əmələsinin çoxluq bulunduğu və bundan maəda İran cəbhəsindən dönən rus və erməni alaylarının birikdiyi bir yer olduğundan bolşeviklərin nüfuzunda idi.

Bu iki qüvvət xaricində, Qafqasiyada erməni, gürcü və türklərə məxsus **"Milli Şuralar"** vardı ki, Tiflis **"Seym"**ində üç fraksiyon şəklində təzahür edən siyasi təqsimat iştə bu milli şuraları əks etdiriyordu.

Erməni və gürcü şuraları rus ordusundan tərxis olunan əsgər vətəndaşlarını qolaylıqla milli alaylar şəklinə qoya bildikləri halda, qafqasiyalı türklər bu imkandan məhrum idilər; çünki çarlıq, kəndilərini əsgərliklə mükəlləf tutmamışdı. **"Müsəlman Şurası"**nın əsgəri qüvvətinin nüvəsi Hərbi-Ümumi əsnasında qafqasiyalı müsəlmanlardan könüllü və əcir olaraq toplanan və **"vəhşi"** namı verilən **"divizyon"a** mənsub süvari **"Tatar Alayı"** təşkil ediyordu.

Çox keçmədən milli şuralarla bolşevik hökuməti arasında ixtilaflar zühur etməyə başladı. Ukraynada, Türküstanda, Krımda vüqu bulan qanlı müsadimələr Qafqasiyaya da əks etdi. Zikr etdiyimiz amillərin təsiri ilə vaqiə Qafqasiya türklüyünün mərkəzi və Azərbaycanın paytaxtı Bakıda patladı. 1918 sənəsində martın 17-dən 21-nə qədər (29 - 31 mart – red.) davam edən qanlı hadisələrin nəticəsində türklərdən

çoluq-çocuq, qadın və ixtiyar da daxil olduğu halda 10.000-i mütəcavüz əhali tələf oldu[41]. Bakı üzərində hakimiyyət tamamilə bolşeviklər tərəfindən sövq və idarə olunan **"Əmələ, Soldat və Bəhriyyə Soveti"**nin əlinə keçdi. Bakınun süqutu üzərinə Tiflisdə iniqad edən **"Seym"** məclisindəki **"Müsəlman fraksiyonu"** yalnız təşri məsələlərlə deyil, Mavərayi-Qafqas türklərinə aid bütün məsələləri dəröhdə etmək, icrayi-fəaliyyətlərlə də məşğul olmaq zərurətində qaldı. Vaqiələrin sövq və zərurəti ilə təmsil etdiyi məmləkət və əhalidən uzaq bir mərkəzdə bulunan **"fraksiyon"** hər tərəfin imdadına yetişəmiyordu.

Şu vəziyyət içərisində, Qafqasiya **Seym** hökuməti ilə Osmanlı Şərq Ordusu komandanı **Vəhib Paşa** arasında siyasi müqatibə təati ediyor, sonra Trabzonda Türkiyə və Qafqasiya konferansı əqdi-ictima eliyordu. Türkiyə **"Brest-Litovsk"**da bolşevik Rusiya ilə başladığı müahidə mucibincə **"Əlviyəi-Sələsə"** təbir olunan Batum, Qars və Ərdəhan vilayətlərinin təxliyəsini istiyor və sonra beynəlmiləl müzakiratda hüquqi şəxsiyyət ehraz edə bilməsi üçün Mavərayi-Qafqas hökumətinin beynəlmiləl mərasimə tövfiqən elani-istiqlal etməsini tələb ediyordu. Təxliyəsi istənilən vilayətlər doğrudan-doğruya Gürcüstan ilə erməniləri əlaqədar etdikdən və bu xüsusda kəndiləri ilə etilaf edilmədiyindən Qafqasiyanın Rusiya ilə qəti surətdə münasibətinin kəsilməsi demək olan "elani-istiqlal" təşəbbüsündə istecal göstəriləmiyordu. Halbuki kəndilərinin də müştərək bulun-

[41] Bu xüsusda təfsilat almaq üçün Bakuda bolşeviklər tərəfindən nəşr olunan **Rəşid bəy İsmayılov**un **Azərbaycan Tarixi** ilə Moskvada rusca olaraq intişar edən **"Novıy Vostok"** məcmuəsinin üçüncü nömrəsində mündəric **"Müasir Azərbaycan"** məqaləsinə müraciət oluna (M.Ə.).

duqları bir müəssisənin müdafiə etdiyi şəkli, məhmayi-imkan mühafizə etməklə bərabər, **"Müsəlman fraksiyonu"** bu məsələdə Türkiyə nöqteyi-nəzərinin qəbulundan başqa bir çarə qalmadığını qomşulara anlatmaq üçün bütün qüvvətini sərf ediyordu. Trabzon konferansının əqim qalması səbəbilə türk ordusunun Batum ilə Qarsı **Brest-Litovsk** müahidəsinə müstənidən işğal etməsi üzərinə bir tərəfdən Gürcüstan, digər tərəfdən də Ermənistan ilə müharibəyə başlanmış, **"Müsəlman fraksiyonu"** isə bu mücadilədə bitərəf qalacağını elan etmiş və üç-dörd günlük müqavimətdən sonra, Batum ilə Qars qalalarının süqutunu mütəaqib, **Qekeçkori**nin hərb kabinəsini **Çxenkeli**nin sülh kabinəsi təbdil edərək, müsəlman fraksiyonun enerjik bir demarşı üzərinə Mavərayi-Qafqasiyanın istiqlalı elan olunmuşdur. Müxtəlif firqələrə mənsub rus qəzetələrinin o zamankı hiddətli mütaliələrinə görə "Qafqasiya tarixinə yazılan bu ihanət səhifəsi xain müsavatçılarla "Müsəlman fraksiyonu" tərəfindən yazılmışdır."

Mavərayi-Qafqasiyanın elani-istiqlalı üzərinə Türkiyə-Qafqasiya məsələlərini həll etmək üçün Batumda ikinci bir konfrans dəvət edilmiş və burada Türkiyə mətalibini kəndisi üçün ağır bulan Gürcüstan, Almaniyanın himayəsini təmin etmək surətilə ittihaddan çıxmış, 1918 sənəsi 26 mayısda istiqlalını elan eləmişdir. Mavərayi-Qafqas ittihadının bu surətlə inhilalından sonra, **"Müsəlman fraksiyonu" Azərbaycan Şurayi-Millisi ünvanını ehraz və 28 mayısda Şərqi Mavərayi-Qafqasiyanın "Azərbaycan Cümhuriyyəti" namı ilə istiqlalını elan eləmişdir.**

# III

# AZƏRBAYCAN CÜMHURIYYƏTİ

**1) Azərbaycan isminin mənşəyi.**
**2) Məsahəyi-səthiyyəsi, topoqrafik vəziyyəti və nüfusu.**
**3) Təbii sərvət və iqtisadi iqtidarı.**
**4) Cümhuriyyətin elani-istiqlalı və Türkiyənin yardımı.**
**5) Şurayı-Millinin Gəncədə tətili.**
**6) Bakının istirdadı.**
**7) Mondros mütariqəsi və Azərbaycan.**
**8) Məclisi-Məbusan təşəkkülü.**
**9) Məbusanın siyasi ilk müvəffəqiyyətləri.**
**10) Azərbaycan hökumətinin icraatı.**
**11) Mühüm hadisələr ərəfəsində.**
**12) 27 nisan, Cümhuriyyətin süqutu.**
**13) "27 nisan"a qarşı əksüləməllər.**
**14) Sovet Azərbaycan Cümhuriyyətinin hüquqi vəziyyəti.**
**15) Sovet Azərbaycanının siyasi vəziyyəti.**
**16) Müasir Azərbaycanda məktəb və maarif.**
**17) Müasir Azərbaycanda mətbuat, ədəbiyyat və sənayei-nəfisə.**

**Cənubi və Şərqi Qafqasiya türklüyündən doğan "Azərbaycan Cümhuriyyəti"ni** anlatmaya ayrılan bu fəslin xüsusiyyətini nəzərdə tutaraq, yuxarıdan bəri verdiyimiz tarixi məlumatın silsiləi-ifadəsini qət ilə, müqəddimətən "Cümhuriyyət" haqqında iqtisadi və ehsai bir taqım zəruri məlumat verməsini

daha münasib biliyoruz. Bu surətlə biz, iləridə sərd edəcəyimiz siyasi və tarixi hadisələrin amillərini anlamaq üçün daha müstəhzar oluruz, zənnindəyiz.

## 1) AZƏRBAYCAN İSMİNİN MƏNŞƏYİ

Ərəb müvərrixlərinin "Arran" və "Şirvan" adlandırdıqları Şərqi Qafqasiyada təşəkkül edən bu cümhuriyyətin "Azərbaycan" ismini almaya haqlı olub olmadığı mucibi-bəhs olmuşdu. Azərbaycan coğrafi və eyni zamanda siyasi bir istilah olaraq, **Böyük İsgəndər tərəfindən təsis olunan "Yunan-Bohtər" imperatorluğuna qarşı elani-istiqlal edən Sətrap "Atropat" tərəfindən təsis olunan məmləkətə, "Atropotenye" denmişdi. Ermənilər buna "Atropatağan" demişlər ki, "Aderbadeğan" kəlməsinin müərribi olan "Azərbaycan" da buradan nəşət eləmişdir[42].**

Hər nə qədər coğrafi Azərbaycan məfhumuna mərufi-vəchlə, Təbriz ilə havalisini təşkil edən İran vilayəti daxil isə də, "Atropotenye" səltənətinin bugünkü İran Azərbaycan hüdudu daxilinə inhisar etdiyi məlum deyildir[43]. Fəqət **"Azərbaycan"** ismini "atəş-abadğan" və yaxud "atəş-məkan" mənasında anlayanlar bu ismi məmləkətdə məbzul yanardağlar, qazlar və atəşgədələrlə əlaqədar buluyorlar. **Professor Marr** "Azər"in bir qövm deyil, bir "totem" ismi olduğu və bu "totem"in "atəş" olmaq ehtimalı varid olduğu haqqında mühərrirə vüqu bulan bəyanı dəxi bu mülahizəyi təqviyə edər bir mahiyyətdədir.

---

[42] **Barthold. "İrana tarixi və coğrafi bir nəzər".**

[43] **Həmdullah Qəzvini**[31] Azərbaycan məsahəsindən bəhs edərkən Bakıyı da bu qitəyə idxal edər.

Bu məqalədə sərd etdiyimiz tarixi məlumatdan da görüldüyü vəchilə, Şərqi Mavərayi-Qafqas ərazisinin Azərbaycan ünvani-ümumisi altında gələn təşəkküllərə daxil olduğunu isbat edən vəqayedən sərfi-nəzər, Azərbaycan türklərinin yaşadıqları bir məmləkət olduğu üçün, burasına Azərbaycan deməkdə heç bir məhzur görülməmişdir. Bu ismin yeni Türk Cümhuriyyətinə verilməsində ən mühüm amil şübhəsiz, bu qövmü ünsür olmuşdur.

## 2) MƏSAHƏYİ-SƏTHİYYƏSİ, TOPOQRAFİK VƏZİYYƏTİ VƏ NÜFUSU

Azərbaycan Cümhuriyyəti Mavərayi-Qafqasiyanın şərqi qismini ehtiva edər. Əski Bakı vilayəti kamilən, Gəncə vilayəti kəza, Rəvan (Yerevan - red.) vilayətindən Zəngəzur ilə Şərur qəzaları və sabiq **İlisu səltənəti**ni təşkil edən “zikrtala” və yaxud “Zaqatala” ölkəsi kamilən, Tiflis vilayətindən dəxi cüzi bir qismi (Qarayazı və Borçalı nahiyələri) milli Azərbaycan Cümhuriyyətinin məsahəyi-səthiyyəsini təşkil edər. Heyəti-məcmuəsi ilə 92.160 kilometr murəbbe (85.348 verst murabbe) təşkil edən bu ərazi genişlik etibarı ilə Portəkiz ilə əski Serbiyaya müsəvi olub, İsveçrə Cümhuriyyətinin iki mislidir.

**Şimalda Dağıstan dağları, cənubda Aras nəhri ilə Qaradağın ətəkləri və Lənkəran dağları, qərbdə Gürcüstan ilə “Göyçə” gölünün sahilləri, şərqdə Bəhri-Xəzərlə mühat bu sahə şimalda Şirvan, cənubda da Qaradağ yaylaları ilə bu iki yayla arasında vaqe geniş ovalıqlardan ibarət bir məmləkətdir.**

“Abu-hava” etibarı ilə Azərbaycan Muğan səhrası deyə yad olunan Kür sahillərində sıcaq məmləkətlərə xas bir iqlimə ma-

lik olduğu kibi, başları daima qar təbəqələri ilə qapalı yüksək dağlara və bu dağ mailələrində qışın şimal məmləkətlərindəki qədər soyuq məntəqələrə malikdir. Heyəti-ümumiyyəsi ilə Azərbaycan iqlimi Anadolunun Qaradəniz qıyılarındakı məmləkətlərlə qiyas edilə bilir. Dağlıq yerlərdə tərəssübati-havaiyyə məbzul olduğu halda, ovalıqlar quraq olur və pək münbit bir torpağa malik olan bu yerlər süni surətdə suvarılmaq istər. Buralar pirinç, pamuq kibi yüksək ziraətə son dərəcə müsaitdir.

Azərbaycan ərazisi, idarə bolşeviklərin əlinə keçdikdən sonra, cızdığımız xəritəyə nisbətlə azalmışdır. Tiflis vilayətindəki Qarayazı ilə Borçalı Gürcüstana tərk edilmiş, Gorus qəzası ilə Şərur Ermənistana keçmiş, Naxçıvan qəzasına Azərbaycan himayəsi altında, muxtariyyət verilmişdir[44]. Bu tədilatdan sonra bolşeviklər tərəfindən təxmin olunan ehsaiyyətə görə Azərbaycanın nüfusu iki buçuk milyona qərib olaraq göstərilməkdədir. Bizim təxminimizcə, əvvəlcə göstərdiyimiz milli hüdud etibarı ilə, Azərbaycan nüfusu hər halda üç milyona qəribdir: bu üç milyon nüfusunun 70%-i türk və müsəlman; 20%-i erməni; mütəbaqisi də rus, yəhudi, alman və sairədir. Əhalinin 77%-i köylü, 23%-i də şəhərlidir.

Milliyyət etibarilə əhalinin əsl kütləsini türklər təşkil edərlər. Türk kütləsi həm ziraət, həm də heyvan bəsləməklə yaşar. Məmafih əsnaf qismiylə ticarət və sənayeylə iştiğal edənləri də xatiri sayılır bir dərəcədədir. Məmləkətin hakim ünsürü olduqlarından əksəriyyətlə ötədən bəri münbit ovalıqlarda oturur, yazı sürüləri ilə bərabər yaylalara çıxar, qışı da qışlaqlara enərlər. Türklərdən sonra Azərbaycanda milli ünsür olaraq ermə-

[44] Bu xüsusda "Sovet Azərbaycan Cumhuriyətinin hüquqi vəziyəti" nam fəslə müraciət oluna.

nilər gəlir. Ermənilər əksəriyyətlə Qarabağ dağlarında (Zəngəzurda) kürdlərlə qarışıq bir halda və qismən də Gəncə, Şamaxı və Şəki qəzalarında yaşarlar. Sonki hadisələr nəticəsində Vüsta-Azərbaycanda yaşayan ermənilərin miqdarı həddi-əsğərisinə enmişdir[45]. Ermənilərdən sonra 10% nisbətinə girən milli qruplardan ilk sırayı ruslarla ukraynalılar tutarlar. Bunlar qismən şəhərlərdə, qismən də Muğan ovasında və Şamaxı qəzasında yaşarlar. Vaxtilə çar tərəfindən buralara iskan edilmişlərdir. Bu iskan siyasəti hələ davam etməkdədir. Bunlardan maəda, yerli əqəliyyətlərdən ləzgilər, yəhudilər və tatlar gəliyor ki, əksəriyyətlə dağlarda yaşar və lisan etibarı ilə türkləşmək üzrədirlər.

Nüfusun sıxlığı etibarı ilə Azərbaycan, Mavərayi-Qafqasiya cümhuriyyətləri arasında təali dərəcədədir. Bəhər kilometrə mürəbbeinə 30 adam isabət etməkdədir, bəzi nöqtələri çıxdıqdan sonra da (məsəla, Bakı şəhəri ilə həvalisində kilometrə başına 436 nüfus vardır) vəsəti hesab üzrə nüfusunun sıxlığı – yerinə görə – 20 ilə 43 arasında sallanmaqdadır.

Cinsiyyət etibarilə Azərbaycan qadını erkəyindən az olan məmləkətlərdəndir. Hər 1000 erkəyə müqabil Azərbaycanda 855 qadın vardır.

### 3) TƏBİİ SƏRVƏT VƏ İQTİSADİ İQTİDARI

Azərbaycan, dünyanın təbii sərvət nöqteyi-nəzərindən hər ehtiyacını bizzat istehsal edən zəngin məmləkətlərdəndir. Paytaxtı Bakı olan bu Cümhuriyyətin digər ismi də “Petrol məmləkəti”dir. Bakı ilə neft adəta iki mütəradif kəlmə hökmünə girmişlərdir. Əski ərəb müvərrixləri tərəfindən Bakıya “Əra-

[45] Ermənilər Gəncə, Bakı, Şamaxı və Şuşa şəhərlərində də mühüm miqdarda yaşarlar. Hal-hazırda Şuşa ilə Şamaxıda mövcudiyyətləri azalmışdır (M.Ə.).

ziün-nefatə" denilməkdədir; yəni bu gün artıq "Səyyal Altın" namını daşıyan və beynəlmiləl cahan siyasətində ən mühüm müəssir və amil rolunu oynayan neft ərəblər zamanında dəxi məlum idi. Bakı petrollarının hasilatı Dərbənd mühafizlərinə vəqf edildiyi məxəzlərdə müqəyyəddir. Bir çox zaman məhdud miqdarda və ibtidai şəkillərdə istehsal olunan petrol Rusiya dəmiryol şəbəkəsinin artması və ələlümum petrol isə yanan dizel motorunun  təəmmüm etməsi, nəhayət, vapurların daş kömürdən axar yandırıma keçməsi üzərinə Bakıda petrol ocaqları kapitalizə edildi və sürətlə inkişaf etməyə başladı. Belə ki, Hərbi-Ümumidən əvvəl bütün cahandakı petrol məhsullarının 20%-ni Bakı təmin ediyordu. Sənəvi hasilat 600 milyon pudu bulmuş, Amerikadan sonra ikinciliyi qazanmışdı. Bakı petrolçuluğunun bu inkişafını rus sərmayəsinə ətf edərsək yanılırız: burada ən sonda gələn sərmayə əsl rus sərmayəsi idi. Hərbi-Ümumi bidayətinə qədər Bakı ocaqlarına sərf edilən sərmayənin 90%-i əcnəbilərə aid bulunmuşdu. Bunlardan ən böyüyü "Nobel", "Roçeld" (Rotşeld - red.) və "Oleum" şirkətləri olmuşdur. Mütəbaqi 10%-ə gəlincə bu da yerli sərmayənin əlində idi. Neft sənayesində iştirak edən əsl rus şirkətləri həmən-həmən yox kibi idi. Hərb əsnasında və hərbi mütəaqib bilxassə Azərbaycan "sovetizə" edildikdən sonra, bu istehsal epey azalmışdır. Bu gün belə əski miqdarını bulamamışdır. İstehsal miqdarı azaldığı kibi, təhsili də fiyatlanmışdır.

Fəqət Azərbaycanın təbii sərvət nöqteyi-nəzərindən əhəmiyyəti yalnız petrol ilə məhdud deyildir. O, hər cəhətcə zəngindir. Petroldan maəda burada bakır, dəmir, alüminium, duz və sairə kibi mədənlər ixrac edilməkdədir. Hətta cüzi miqdarda altın ilə gümüş dəxi bulunur. Pək məbzul bakır mövcuduna ma-

lik bulunan Azərbaycanda məhdud miqdarda işlədilən Gədəbəy, Zəngəzur və Qatar mədənlərində mövcud ocaqların 1913 sənəsinə aid hasilatı 3.835.000 puda baliğ idi. Felən pək məhdud miqdarda ixrac olunan dəmir mədəninin mütəxəssislərcə təsbit edilmiş miqdarı tamamilə endüstrializə ediləcək olursa, Azərbaycanın ehtiyacını kamilən ödəyəcək qədər mühüm bir yekun tutmaqdadır. Bakır və dəmir kibi mədənlər Azərbaycanda əski zamanlarda da mövcud idi. **Cavad xan**ın zamanında Gəncə civarındakı dəmir ocaqlarının işlədiyini qismi-məxsusumuzda qeyd etdik.

Mədənlərdən maəda, Azərbaycan ziraət etibarı ilə də zəngindir. Buğda, arpa, çovdar kibi ərzağın miqdari-sənəvisi, hesabi-vüstası ilə 56.700.000 pudu ehraz etməkdədir. Bundan maəda, ta əski zamandan bəri ziqiymət ziraət növü ilə aşina olan Azərbaycanın 1913 sənəsindəki pamuq hasilatı 4.725.000 puda baliğ idi.

Ziraətdən sonra Azərbaycan istehsalının ən mühüm fəslini baxçavanlıq təşkil edər. Sənədə 1.470.480 pud üzüm ilə 3.000.000 pud meyvə hasilatı, bu nisbətdə də spirt, şərab, konyak və sairə kibi küul məmulatı vardır. Tut ağacı bəsləməklə ipəkçilik sənəti Azərbaycanın ta əski zamanlardan bəri məşğul olduğu pək mühüm xüsusatındandır. Fabrika məmulatı rəvac bulduqlan sonra Azərbaycan toxumaçılığının bazarı kasad olmuşsa da, ipək məhsulu yenə əhəmiyyətində qalmışdır. Müharibədən əvvəl Azərbaycanda sənəvi 495 pud ibrişim hasil oluyordu. Azərbaycan ipək toxumunu əksəriyyətlə Bursadan alıyordu.

Hərbi-Ümumi ərəfəsində Azərbaycanda mövcud əhli heyvanların ədədi dörd buçuk milyonu keçiyordu. Qarabağ atının

cinsi məruf idi. Fəqət hadisat nəticəsində ələlümum əhli heyvanların miqdarı azalmış, cinsi pozulmuşdur. Bilxassə Qarabağ atının cinsi tamamilə mütəfərriz olmaq üzrədir. Gec də olsa Azərbaycanın bu sərvətini mühafizə etmək üçün bəzi tədbirlər görülüyormuş.

Çox mütənəvve yabanı heyvanları ilə quşlarından maəda, Xəzərə tökülən Kür nəhri ilə Aras nəhri mənsəblərini ehtiva edən Azərbaycan balıq ovu nöqteyi-nəzərindən də müstəsna bir mövqedədir. Bakı havyarı məruf olduğu kibi, 1914 sənəsində Azərbaycan sularında ovlanan balığın miqdarı 45.000.000 puda baliğ olmuşdu ki, bundan hasil olan məbləğ 17.135.000 rubləyi buluyordu.

Bu qısa rəqəmlər Azərbaycanın təbii sərvət və məhsulları haqqında mücməl bir fikir verə bilir, bu xüsusdakı bütün materialı bittəbii təfsil edəməyiz.

Mövqeyi-coğrafisi hesabilə Böyük Qafqasiya məbəri üzərində vaqe olub donmaz Bakı limanına malik olması sayəsində ta əskidən bəri, Azərbaycan Avropa ilə Asiyayı, İran ilə Rusiyayı yekdigərinə rəbt edən pək mühüm bir nöqtəyə malikdir. Burası dünyanın ən mühüm tranzit məmləkətlərindən birisini təşkil edər. O adəta ikinci İstanbuldur. Qafqasiya iqtisadiyyatı Mavərayi-Qafqas dəmiryolunun teyy etdiyi mühüm bir məhvər üzərində dönər ki, onun bir qütbünü Batum, digər qütbünü də Bakı təşkil edər.

Azərbaycan ticarəti neft (petrol), pamuq, yun, ipək, bakır, yaban kökü və əl sənayei-məmulatı kibi ixracatdan və manifatura, baqqaliyyə, tuhafiyə və texnik aləti kibi idxalatdan ibarət olub yuvarlaq hesabla sənəvi 317.100.000 rubləyi buluyor; bundan maəda sənəvi 100.000.000 tranzit ticarəti vardı (tranzit

ticarəti indi təhdid, adətən mən edilmişdir). Çar zamanına aid bir hesaba görə Azərbaycan qitəsində əxz olunan varidat 164. 010. 000 rubləyi buluyordu.

Azərbaycan sənaye nöqteyi-nəzərindən də inkişafa başlamış bir məmləkətdir. Petrol ocaqları və neftin təsfiyəsinə məxsus fabrikalarla, sənaye müəssisələrindən maəda Bakıda bir çox tütün fabrikaları, bez fabrikası, çimento fabrikası, un fabrikaları, konservə fabrikaları mövcud olduğu kibi, Şəkidə, Gəncədə, Şamaxıda da ipək fabrikaları mövcud idi. Kürdəmir kibi qəsəbələrdə pamuq təmizləyən fabrikalar vardı. Hal-hazırda bu müəssisələrdən bir qismi iflas etməklə bərabər, bir qismi ehya olunmuş, bilxassə Gəncədə yağ, sabun, çuxa fabrikaları kibi yeni müəssisələr vücuda gətirilmişdir. Bu fabrikaların makinələri Rusiyada atil qalan əski fabrikalardan nəql edilmişdir. Bunun üçün də istehsal qüvvətləri kafi dərəcədə deyilmiş.

Bu qədər təbii sərvət və istehsal imkanı varkən Azərbaycanın mövcud imkanları ilə mütənasib bir istehsal fəaliyyəti ibraz etdiyini dava etmək olmaz. Buna Azərbaycan əhalisinin böyük əksəriyyətini təşkil edən türk köylüsünün ziraət üsulunda nisbətən əski metodla qaldığını səbəb göstərmək mümkündür. Yaşadığımız elektrik və istim əsrində Azərbaycan köylüsü hələ əsri alati-ziraiyyə qullanmaq imkanını bulamamışdır. Bu onun fitri istedadsızlığından və yaxud şüursuzluğundan deyil, bu alatı edinmək üçün lazım gələn mali istidaatının yoxluğundan iləri gəliyordu. Çar idarəsi türk köylüsünün iqtisadi inkişafını təmin etmiş deyildi. Daxili Rusiyadakı köy krediləri burada təsis edilmiş deyildi. Yarımköçəbə halındakı həyat tərzi də bu xüsusda müəssir idi. Süni surətdə ehdas olunan "Bəy mülkiyyəti" də buna mane idi. Milli hökumət zamanında bu manelərin bərtərəf

edilməsi üçün tədbirlər ittixazına başlanmış, ufaq kredi müəssisələri təsis olunmuş, köylülərə tövzi üçün, ziraət alatı gətirtmək məqsədi ilə İtaliyaya heyət göndərilmiş, topraqsız əhaliyi təmin üçün qanun layihəsi hazırlanmış idi.

* * *

Şimdi təkrar tarixi qismi davam etdirə biliriz. Bu qism bizə Azərbaycanın şimdiki vəziyyətini anlamaq üçün çox zəruridir. **Azərbaycan Cümhuriyyəti tarixinin bəsmələsi İstiqlal Bəyannaməsi ilə başlar ki, buna müasir Azəri nəsli “Misaqi-Milli” der.** Biz də məqaləmizin bu qisminə onunla başlayalım:

### 4) CÜMHURİYYƏTİN ELANİ-İSTİQLALI VƏ TÜRKİYƏNİN YARDIMI

**28 Mayıs 1918-də nəşr olunan Azərbaycan İstiqlal Bəyannaməsi** ədəbi intibahla başlayan, 1905-də bilxassə canlanan, Hərbi-Ümumi əsnasında sabit bir fikir halına inqilab edən böyük qayəyi, Azərbaycan türklüyünün hürriyyət və istiqlalını ümuma elan ediyordu. Milliyyətçi zümrəcə “Misaqi-Milli” kibi tələqqi olunan bu Bəyannamə Azərbaycan Cümhuriyyəti təşəkkülündəki yüksək ümdələri ehtiva etməkdə, hürriyyət, müsavat və milliyyət kibi ülvi qayələri istehdaf eləməkdədir[46]. Bu vəsiqəyə görə **Azərbaycan demokratik bir cümhuriyyətdir.** Hakimiyyət bilatəhdid millətə aiddir. Vətəndaşlar qanun nəzərində müsəvidirlər.

Azərbaycan Cümhuriyyəti əsri əsaslara müstənid laiq bir hökumətdir. Bütün dinlərə və milli xüsusiyyətlərə hörmət edər.

[46] Bəyannamə **“Yeni Qafqasiya”** məcmuəsinin ikinci sənə 17-ci nüsxəsində nəşr edilmişdir.

Mavərayi-Qafqas ittihadının inxilalı üzərinə Batumda Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətləri Dövləti-Osmaniyyə heyəti-murəxxəsəsi ilə ayrı-ayrı müahidələr əqd etdilər. Osmanlı dövləti namına "Ədliyyə naziri və Məntəşə[47] məbusu **Xəlil bəy** ilə Üçüncü Kolordu komandanı **Vəhib Paşa,** Azərbaycan Cümhuriyyəti namına da Şurayi-Milli rəisi **Rəsulzadə Məhəmməd Əmin** və Xariciyə naziri **Məhəmməd Həsən bəylər tərəfindən əqd və imza olunan bu müahidə mucibincə Dövləti-Osmaniyyə Azərbaycan Cümhuriyyətinin istiqlalını təsdiq və istianət edildiyi təqdirdə (dördüncü maddə) Azərbaycana əsgəri müavinətdə bulunmayı təəhhüd ediyordu.**

Bu müahidənin imzasını mütəaqib Şurayi-Milli namına **Məhəmməd Əmin,** hökumət namına da **Məhəmməd Həsən bəylər** səlifüzzikr müahidənin 4-cü maddəsinə istinadən Osmanlı heyəti-mürəxxəsəsi vasitəsilə Babi-Aliyə müraciət edərək bolşevik istilasına qarşı Dövləti-Osmaniyyənin Azərbaycana əsgəri müavinətdə bulunmasını istəmişlərdir. Bu müraciətə bilatəxir müvafiqət edilmiş isə də Gürcüstan təriqi ilə gedəcək olan imdad qüvvəsi, Almaniya hökumətinin müdaxiləsi üzərinə təviqə uğramışdır. Bu şərait daxilində Şurayi-Milli heyəti-ümumiyyəsi ilə Gəncəyə nəql eləmişdir.

Batum təriqi ilə göndərilməsi muqərrər bulunan imdad qüvvəsinin vürudu təxirə uğramışsa da, İran təriqi ilə yetişən **Qafqasiya İslam Ordusu komandanı Nuri Paşa** ilə məiyyətindəki zabitləri təyid üçün Qarsdan Dilican və Qazax yolu ilə göndərilən ilk qitaət pək böyük fədakarlıqlarla kəndilərini Gəncəyə yetirmiş və bir qismi həmən məhəlli qitaət ilə birlikdə Bakı cəbhəsinə göndərilmişdir.

[47] Muğla (red.).

## 5) ŞURAYİ-MİLLİNİN GƏNCƏDƏ TƏTİLİ

16 Haziran 1918-də əqd etdiyi tarixi cəlsəsində Şurayi-Milli **Fətəli xan**ın rəyasəti altında birinci Azərbaycan kabinəsini təşkil və tətili-müzakirat eləmişdir. Şurayi-Millinin bu xüsusda ittixaz elədiyi qərar bərvəchi-ati idi:

**"Azərbaycan keçirməkdə olduğu müşkilati-daxiliyə və xariciyyəyi nəzəri-etibara alaraq, Azərbaycan Şurayi-Millisi, bütün hüquq və səlahiyyətini Fətəli xanın təxti-rəyasətində təşəkkül edən kabinəyə həvalə və məzkur kabinəyi arayi-ümumiyyə üzərinə müstənid Məclisi-Müəssisan bilatəxir dəvət oluncaya qədər, Azərbaycan haqqı-hakimiyyətini kəndi əlində bulunduraraq, kimsəyə tərk etməməyə müvəzzəf edər".**

Şurayi-Millinin bu surətlə tətili o zaman Gəncədə hüsulə gələn bir takım siyasi mübarizələr nəticəsində vaqe olmuşdu. Məmləkət üsuli-idarəsinə aid demokratik cərəyanlarla aristokratik zehniyyətlər arasında məxsusi bir mücadilə havası əsiyordu. Hər tərəfdən düşmən qüvvətlərlə mühat bir məmləkətdə bu kibi daxili mübarəzələri müvəqqət bir zaman üçün bərtərəf etmək lüzumu vardı. Bu lüzum vəsi səlahiyyəti haiz bir hökumət təşəkkülü surətilə təmin edilə bilirdi.

Azərbaycan təşəkkülü tarixində pək mühüm bir vaqiə olduğu kibi, ələlümum türk tarixi-siyasiyyəsində xarakteristik bir nöqtəyi təşkil edən bu hadisəyi burada ətrafıyla təhlil və izah etmək mümkün deyilsə də, **Şurayi-Milli**nin bu anda nə kibi hissiyyat ilə mütəhəyyic olduğunu göstərmək üçün rəisin ictimai qapamadan əvvəl söylədiyi ixtitam nitqindən bir cümləyi nəql edəlim:

**"Naqis da olsa, hakimiyyəti-milliyyəyi təmsil edən bir müəssisənin şu surətlə meydandan çəkilməsini demokra-**

**sinin bir ricəti və qüvvəyi-mürtəcenin bir müvəffəqiyyəti kibi görən və Şurayı-Milli əzalarının ümumi təəssürlərinə bütün mövcudiyyətilə iştirak edən rəis məyus olmuyor. Tarixin amali-milliyyəmiz nöqteyi-nəzərindən müsaid bir zamanında olduğumuzu, türk ittihadı üçün fürsət ələ keçdiyini unutmayalım!..” diyordu.**

### 6) BAKININ İSTİRDADI

Bu surətlə təşəkkül edən **Fətəli xan hökumətinin** ən birinci vəzifəsi bir an əvvəl Bakının düşməndən istirdadı idi. **Nuri Paşa** məiyyətindəki ordunun müavinəti ilə, az bir zaman içərisində, Bakı vilayətindən maəda, bütün Azərbaycanda əmniyyət təmin olundu. Fəqət Bakıdakı bolşevik-erməni qüvvətləri beş-altı aylıq bir fürsətdən bilaistifadə olduqca mühüm bir müdafiə qüvvəti hazırlamışlardır. Şöylə ki, bəzən müdafiə vəziyyətindən çıxaraq, təərrüzə belə keçiyorlardı. Yuxarıda işarət etdiyimiz vəchilə, almanların Gürcüstan təriqi ilə göndərilən türk qüvvətlərinə mümaniəti Bakının istirdadını bir az daha çətinləşdiriyordu. Almanların bu xüsusdakı mümaniətləri yalnız sövqülceyş sahəsinə inhisar etmiyor, diplomatik cəhətə dəxi şamil oluyordu. **Brest-Litovsk** müahidəsinin zeyli olmaq üzrə, ruslarla əqd və imza etdikləri müqavilədə Bakı petrolları üzərinə anlaşaraq, burasının Rusiyadan ayrılması məqsədinə “üçüncü bir dövlətin” yardım etməsinə mümaniət etməyi dəxi təəhhüd eləmişdi.

Fəqət bütün bu müşkilat və mümaniətlərə rəğmən, Azərbaycan və Türkiyə qüvvətləri tərəfindən sıxışdırılan bolşevik-daşnaksaqan qüvvətləri getdikcə sarsılıyor, aralarına nifaq giriyordu. Nəhayət, ağustosda Bakı Soveti daxilində bolşe-

viklərə qarşı bir ixtilal zühur edərək mövqeyi-iqtidar, erməni alayları ilə Bakı limanındakı bəhriyyəlilərə istinad edən rus və ermənilərdən mütəşəkkil bir "Direktuar"a intiqal ediyor. Bu yeni hökumət isə o zaman İranda bulunan ingilis qüvvətlərini Bakıya dəvət ediyor. Bu dəvət üzərinə ingilis komandanlığı Bakıya əsgər çıxarıyor. Müharibə, müaqidi rus bolşeviklərinə qarşı deyil, düşməni-ümumi ingilislərə qarşı bir şəkil alınca, artıq Almaniyanın mümaniətinə məhəl qalmadığından, Gürcüstan təriqi ilə yeni qüvvətlər sövqünə imkan hasil oluyor və qanlı bir müqatilə və ənud bir müqabilədən sonra qardaş xilasına can atan qəhrəman Mehmetçiyin türk vəhdəti tarixində altın hərflərlə yazılacaq ülvi fədakarlığıyla milli Azərbaycan qüvvəti kəndi paytaxtına giriyor[48], altı aylıq qanlı və ələmli bir əsarət həyatı keçirən türk və müsəlman əhalisinin üzü gülüyor və Qurban bayramı kibi məsud bir gündə, eylülün on beşində Bakı təkrar kəndi sahiblərinin əlinə keçiyor[49].

## 7) MONDROS MÜTARİQƏSİ VƏ AZƏRBAYCAN

Mondros mütariqəsi mucibində, Türkiyə bir həftə əsnasında Bakıyı, bir ay zərfində də bütün Qafqasiyayı təxliyə edəcək idi.

İşbu müahidəyə istinadən Ənzəlidə müqim ingilis komandanlığından Türkiyə qüvvətləri komandanı **Nuri Paşa**ya şəhərin təxliyəsini tələb edən bir ultimatum verilmişdir. **Nuri Paşa**nın bu tələbə Azərbaycan hizmətinə girdiyini söyləməklə müqabilə etmək təşəbbüsü fayda verməmişdi. **Tomson**un ultimatumu kafi idi. Sədri-əzəm **Tevfiq Paşa**dan çəkilən digər

[48] Bakıya girən alayın komandanı **Mürsəl Paşa** idi.

[49] Bir sənə sonra Bakının istirdadında şəhid düşən Mehmetçiklərin qardaş məzarı üstündə "Abidəi-Şükran" türbəsinin əsası vəz edilmişdir.

teleqraf da Azərbaycanın təxliyəsi zərurətini anlatıyordu. **"Ana vətən"i** müşkilata soxmaq istəməyən zabitlər İstanbuldan gələn əmrə tabeiyyət qərarını tərcih etmişlərdi.

Türk ordusu çəkilmiş, Bakı kəndi-kəndinə qalmışdı. Şəhərdə Azərbaycan qitəatı da yoxdu. Böylə bir qüvvət zatən təşəkkül dəxi etməmişdi. Türk komandanlığı tərəfindən Türkiyə qitəatı kadroları içərisinə alınan Azərbaycan əsgərlərinin mövcudu, əzəmi 1500 kişidən ibarət idi. Bu mövcud da məmləkətin müxtəlif nöqtələrində mütəfərriq olaraq bulunuyordu. Azərbaycan hökumətini Bakıda təqviyə edən qüvvət, yalnız 500 kişilik polis nəfərindən ibarət idi.

İngilis komandanlığının Azərbaycan hökuməti tərəfindən kəndisinə göndərilən heyətə[50] söylədiyi son söz: **"Bizim bildiyimiz, xalqın arzusu ilə deyil, yalnız türk komandanlığının intriqası ilə təşəkkül etmiş bir hökumət vardır. Fəqət madam ki, siz bunun əksini dava ediyorsunuz, o halda gəlir, olanı məhəllində tədqiq, ona görə də tədbir ittixaz edəriz" -** demişdi. Bu "tədbir"ə mütəvəkkilanə intizar edən Azərbaycan hökuməti ingilis komandanlığına verdiyi notada müttəfiqlərin bu surətlə Azərbaycan toprağına vürudunun Azərbaycan istiqlal və mülki-tamamiyyətini mühill olamayacağı ümidini dərmiyan ediyordu.

17 təşrini-sanidə ingilis bandırası ilə çar Rusiyasının bayrağını hamil bulunan filo, Bakı limanına yanaşıyor, şəhər üzərində uçuşan təyyarələr **Biçeraxov** komandasındakı rus qitəatı tərəfindən şəhər əhlinə xitabən bəyannamələr saçıyordu. Bu bəyannamələrdə "rus vətəndaşları Bakının təkrar ana vətənə iadəsi" ilə təbrik olunuyordu.

---

[50] **Bu heyət Yusifbəyli Nəsib, Ağaoğlu Əhməd və Rəfibəyli Musa bəylərdən mütəşəkkil idi.**



*Bakıda hökumət qonağı (mehmanxanası -red.)*

Azərbaycan bayrağı ilə süslənmiş köprüyə çıxan ingilis komandanı **Tomson**u Azərbaycan xariciyə nazir müavini **Adil xan**[32] salamladı. Müqabilində **Tomson,** kəndisini Hərbi-Ümuminin xitamı və sülhün iadə edilmək üzrə olması ilə təbrik etdi. İki gün sonra nəşr etdiyi bəyannamədə **Tomson** "Qalib etilaf ordusunun məmləkətə dönmədən müştərək zəfərə bunca faydaları toxunan fədakar rus xalqına şükran borcunu əda etmək vəzifələrindən olduğunu və bu vəzifənin ifası üçün Rusiyadan qoparılmış Qafqasiyanın düşməndən təxliyəsi üçün Ufada təşəkkül etmiş bulunan rus hökuməti ilə bilaetilaf buraya gəldiyini" anlatıyordu. İngilis işğal ordusunun müttəfiqləri sifətilə rus qitəatı ilə erməni qitələrinin də şəhərə girdikləri müsəlman əhaliyi təhqir və hər an da böyük bir fəsad zühuru ilə təhdid ediyordu.

Bakı böylə qara və əndişəli günlər yaşamaqda ikən daha bir kaç gün kəndisi ilə bərabər bulunan qardaş türk qitəatını, Gəncə həzin bir təəssürlə təşyi ediyordu.

## 8) MƏCLİSİ-MƏBUSAN TƏŞƏKKÜLÜ

16 təşrini-sanidə Azərbaycan Şurayı-Millisi tərəfindən Məclisi-Məbusan təşkilinə aid bir qanun qəbul olundu. Bu qa-

nun mucibincə milli əqəliyyətlər, əzcümlə ermənilərlə ruslar da məclisə müməssil göndərə bilirlərdi. Rus və erməni təşkilatları bu xüsusda kəndilərinə vüqu bulan təklifi küstahlıqla rədd edərək ingilis komandanlığını Azərbaycan hökumətini tanımamaya sövq etmək üçün hər türlü intriqaya təvəssül etdilər. Bu intriqaların təsirilə müvazinəyi mühafizə edəməyən zəvat, rus müəssisələri tərəfindən təşriki-məsai şərti olaraq ortaya qoyduqları mühilli-istiqlal şərtləri qəbulə mühəyya olacaq qədər zəf əsəri göstərdilər. İstiqlal şüarından istinkaf ilə müstəqil rus hakimiyyətini əsasən qəbulə hazır oldular. Bərəkət versin ki Şurayı-Milli əksəriyyətini təşkil edən **Müsavat firqəsi**nin rəisləri ilə sol cinah qrupları böylə bir panikdən məhfuz qaldılar. **7 qanuni-əvvəldə Azərbaycan Məclisi-Məbusanı açıldı və hər tərəfdən mühat bulunduğu təhlükə və qorxuya rəğmən Azərbaycan istiqlal şüarını alqışlar içərisində təyid və elan etdi.**

Təşkilati-əsasiyyə qanununa görə Məclis 120 əzadan ibarət olacaqdı. Fəqət ixtilal və istihalə dövrünə aid bəzi səbəblərə görə əzanın mövcudu 93-ü keçməmişdi. Bu mövcudun 10-u erməni, 5-i rus, 5-i də müxtəlif millət məbuslarını çıxdıqdan sonra, mütəbaqi 73 məbusun kaffəsi müsəlman və bir kaç zattan maəda həpsi türk idi. Müsəlman və türk əzadan 56-sı (75%) doktor, hüquqşünas, mühəndis, mühərrir, müəllim kibi münəvvər məsləklərə mənsub zəvatdan ibarət olub, mütəbaqi qismi (25%) əmələ, köylü, mülkədar və tüccar qisminə mənsub idi. Münəvvərlərin mənsub olduqları ictimai zümrəyi nəzərə alırsaq[51] məbusandan 76%-nin mütəvəssit sinif – digər təbirlə – ufaq burjuazi mənsublarından təşəkkül etdiyinə hökm etməliyiz. Siyasi təqsimat etibarı ilə, məbusan atidəki fraksiyonlardan

[51] Mətndə "ayırsaq" şəklindədir (red.).

ibarət idi: **Müsavat firqəsi: 32, İttihad firqəsi: 11, Sosialist bloku: 11, bitərəf qrup: 7, Əhrar fraksiyonu: 10, rus fraksiyonu: 5, müxtəlif millətlər: 5, müstəqilüləfkar: 4 məbus.** Bu fraksiyonlar bərvəchi-ati xarakterizə (təsciyə) edilə bilir.

**a) Müsavat firqəsi:** məfkurə etibarilə milliyyətçidir. Türk birliyinə qaildir. Müfəssəl ünvanı **Türk Federalist Müsavat Xalq Firqəsi**dir. 1919 sənəsində Bakıda iniqad edən ikinci konqresində qəbul etdiyi proqramın müqəddiməsində **"Bugünkü hali ilə mütəfərriq bulunan geniş Türk dünyasının bir gün gəlib də, müttəhid və müttəfiq bir Türk aləmi təşkil edəcəyinə inanıyoruz və bu imanla getdiyimiz əməl yolunun sərmənzili məqsudunu böylə bir etiqadın qüvvədən felə gəlməsində görüyoruz"** denmişdir. Azərbaycan istiqlalının şüarını ilk dəfə meydana atan bu faktdır. Azərbaycan istiqlalı bir əmri-vaqe oluncaya qədər o, bu şüarı yalnız rus firqələrinə qarşı deyil, islamçılarla türk sosialistlərinə qarşı da müdafiə eləmişdir. İctimai nəzəriyə etibarı ilə xalqçı və radikaldır. Demokrat və cümhuriyyətçidir. Mülkiyyət prinsipini əsasən qəbul və tərvic etməklə bərabər, ərazi məsələsində böyük mülkiyyət prinsipini təhdid etdiyi kibi toprağın altındakı mədənlər üzərinə dəxi xüsusi mülkiyyəti qəbul etməz. Tərəkədən vergi almayı tövsiyə edər. Maarif proqramında İstanbul şivəsinin orta məktəblərdə tədrisi ilə ali məktəblərdəki dərslərin müştərək ədəbi şivə tələqqi etdiyi İstanbul türkcəsi üzərinə oxudulmasını tələb edər. **Müsavat fraksiyonu** əksəriyyətlə orta sinifə mənsub münəvvərlərdən təşəkkül ediyordu. Milli münəvvərlərdən böyük bir qismi bu firqəyə daxil olduğu kibi, əmələ ilə köylülər arasında da tərəfləri qüvvətli idi[52]. Bu firqəyə qarşı vəziyyət alan zümrələrin başında bilxassə feodalitə baqiyyatı böyük

[52] 1918-də Rusiya Məclisi-Müəssisan intixablarında Mavərayi-Qafqasiya türkləri rəylərinin 70%-ni **Müsavat firqəsi**nə vermişlərdi. 1917 sənəsində Bakıda əmələ sovetlərinin intixabında **Müsavat firqəsi** aranın 70%-dən fəzləsini toplamışdı.

mülkədarlarla mürtəce mollalar duruyordu. Şurayı-Milli rəisi **Məhəmməd Əmin,** hökumət rəisi **Nəsib** və Məbusan rəisi-sanisi **Həsən bəylər "Müsavat firqəsi"**nə mənsub idi[53].

**b) İttihad firqəsi:** buna əvvəlcə "Rusiyada müsəlmanlıq" deniyordu. Ünvanından da görünüyor ki, bu firqə kəndi mövcudiyyətini Rusiya əlaqələri daxilində təsəvvür ediyordu. Fikircə "İttihadi-islam" sisteminə tabe idi. Proqramı az zamanda çox dəfə dəyişmişdir. Rəyasətində prinsipsizliyi ilə məruf doktor **Qarabəyov** bulunuyordu. Ərazi məsələsinin şəri-şərif əhkamınca həllini irəli sürmüş, fəqət bu əhkamın nədən ibarət olduğunu proqramında təsvir etməmişdir. Fraksiyondakı əzasından bir çoxu böyük çiftlik sahibi ailələrə mənsub idi. Nüfuzu feodalitə baqıyyatı məxsus olan bəzi qəzalarda idi.

**c) Sosialist bloku:** bu, sosial-demokratlarla xalqçı sosialistlərdən və yeganə bolşevik məbus **Qarayev**dən ibarət idi. Sosial-demokratların liderləri **Ağamalıoğlu** ilə **İbrahim Əbilov bəy**di[54]. Xalqçı sosialistlərin rəisi isə **Səfikürdlü Aslan bəy**di. Azərbaycan **"bolşevizə"** edildikdən sonra sosial-demokratların kaffəsi (**Pepinov**[33] və **Şeyxülislamzadə Əkbər**[34] **ağa**dan maəda) bolşeviklərə iltihaq eləmişlərdir. Sosial-demokratlar bolşeviklərlə anlaşdıqları halda, xalqçı sosialistlər anlaşmamış, rəisləri Rusiyaya nəfy edilmişdir.

**ç) Bitərəf qrup:** bunlar Rusiya məktəblərində ali təhsil görmüş münəvvərlərdən və böyük burjua mümessillərindən mütəşəkkil bir qrup idi. Siyasi xətti-hərəkətləri **Müsavat fraksiyonu** ilə bərabər yürüməyi müqtəzi idi. Hökumət rəisi **Fətəli xan** bunlar miyanında idi.

[53] Fraksiyon lideri və heyəti-mərkəziyə rəisi **Rəsulzadə Məhmməd Əmin bəy** idi.

[54] Birincisi şimdiki Azərbaycan sovetləri rəisi, ikincisi də vaxtilə Ankarada səfir bulunan zatdır.

**d) Əhrar firqəsi:** proqram etibarı ilə **Müsavat firqəsi**nə yaxın bulunan bu qrup təmsil etdikləri qəzaların haiz olduğu xüsusiyyətdən mütəvəllid mövzei bir mənfəət təqib ediyordu.

Erməni, rus fraksiyonları ilə müxtəlif milli əqəliyyətlərə mənsub məbusların vəziyyətlərini tərifə hacət yoxdur, zənn edəriz. **Müstəqilüləfkar türk** məbuslar isə heç bir firqəyə intisab edəməyən zəvatdan ibarət idi. **Topçubaşı Əli Mərdan bəyi** də bu qismə ayırıyoruz. Gərçi – mumaileyh heyəti-mürəxxəsə rəyasəti vəzifəsi ilə daima xaricdə bulunaraq, məbusan həyatına bizzat iştirak edəməmiş, onun qiyabında rəyasət **Həsən bəy,** axirən də **Məhəmməd Yusif bəy** tərəfindən idarə olunmuşdur.

## 9) MƏBUSANIN SİYASİ İLK MÜVƏFFƏQİYYƏTLƏRİ

Məclisi Məbusanın açılmasını mütəaqib **Fətəli xan**ın rəyasəti altında qeyri-türk ünsür mümәssillərinin də iştirakı ilə yeni kabinə təşəkkül etdi. Düvəli-müttəfiqə komandanı general **Tomson 18 qanuni-əvvəl 1918 tarixi ilə nəşr eylədiyi bəyannamədə "Fətəlinin rəyasəti altında təşəkkül edən koalisyon" hökumətini "Azərbaycanın yeganə məşru hökuməti" olmaq üzərə tanıyacağını və ona müzahirəti-tammədə bulunacağını elan ediyordu. Komandanlığın ilk bəyannaməsini nəqz edən bu vəsiqə, bittəbii o vaxta qədər komandanlığın mədihəxanı olan rus, erməni məhfilləri ilə mətbuatının hiddətini cəlb etdi. Onlar bu vəziyyətə yalnız mətbuat vasitəsilə deyil, felən də müxalifət təşkil etdilər. Komandanlığa qarşı inqilabi bir takım tərtibatda bulundular. Bu tərtibatda ön ayaq olanlardan bir kaç adam tovqif olunaraq Ənzəliyə**

**göndərildi. Bu hadisə üzərinə Bakıda mövcud rus, erməni əmələsi qrev elan etdi. Elektrik mərkəzinin əmələsi xristian olduğundan qrevin şümulu təmin olunmuş, bütün həyat durdurulmuş və bu hadisə təsirini icra eləmiş, məhbuslar iadə edilmiş idi; əlavə olaraq, mətbuatı kontrol etmək haqqı da rus təşkilatının tələbi üzərinə Azərbaycan hökumətinin səlahiyyəti xaricində tutulmuşdur.**

Digər bir hadisə üzərinə yenə eyni təşkilat tərəfindən ikinci bir qrev təşəbbüsünə təsəddi edilmiş və bununla Azərbaycan hökumətinin idarə etdiyi cəmiyyət qüvvətləri üzərində nafiz olamayacağı göstərilmək istənmişdi. Fəqət bu dəfə **Müsavat firqəsi** tərəfindən kafi dərəcədə təəzzüv etdirilmiş bulunan müsəlman əmələ provaksiyona müqabilə edərək, qrevdə iştirak etməmiş və elektrik mərkəzinin idarəsi də təmin edildiyindən təşəbbüs ədəmi-müvəffəqiyətə uğramışdır. Bu hadisə üzərinə milli hökumətin siyasətən mövqeyi möhkəmləşmiş və bunun əməli nəticəsi olaraq polis müdiriyyətindəki əcnəbi kontrolu bərtərəf edildiyi kibi, mətbuatı kontrol haqqı da təkrar hökumətə iadə edilmişdir. Daha sonra Azərbaycan hökumətinin ingilis komandanlığının tövdi etdiyi bir notu üzərinə 48 saat əsnasında ingilis əsgəri ilə bərabər, Bakıya gələn rus-erməni qitəatının Azərbaycandan tərdinə (çıxarılmasına) müvəffəqiyət hasil olmuşdur. Liman idarəsi ilə mali müəssisələr idarəsi dəxi ingilis kontrolundən çıxaraq Azərbaycan hökumətinə verilmişdir.

General **Tomson** Bakıya girdiyi zaman Mondros mütarikəsi mucibincə şəhərin türk əsgərlərindən təxliyəsini tələb eləmiş, Azərbaycan qitəatına da Türkiyə qitəatı kibi tələqqi etdiyindən onların da şəhərdə bulunmasına riza göstərməmişdi. Bunun üzərinə Cümhuriyyətin hərbiyyə naziri **Meh-**

**mandarlı Səməd bəy** əsgəri təşkilat işlərinə Gəncədə davam ediyordu. Nisan 1919 sənəsində Azərbaycan alayı paytaxta girmiş və bütün azərbaycanlılar üçün bir bayram olmuşdur. Bu hadisəyi mütəaqib Azərbaycan hərbiyyə nəzarəti də Bakıya nəql eləmişdir.

**10) AZƏRBAYCAN HÖKUMƏTİNİN İCRAATI**

Cümhuriyyət davam etdiyi 17 ay əsnasında əvvəlcə **Fətəli xan** və sonra **Nəsib bəy** tərəfindən təşkil olunan üç kabinə tərəfindən atidəki icraat vüqu bulmuşdur. Əvvələn: piyadə, süvari, topçu, təyyarəçi, teleqrafçı kibi hər növ silah ənvaindan mütəşəkkil on yeddi bin süngüyü havi bir ordu hazırlanmış; məktəbi-hərbiyyə təsis olunmuş; kiçik bir filo tərtib edilmişdi. **Saniyən:** bütün Azərbaycan sahəsində əsgəri, mülki və zabita təşkilatı vücuda gətirilmiş; məmləkətdə əmniyyət və asayiş təsis olunaraq, rus asilərinin əsarəti altında bulunan Lənkəran qəzası ana vətənə iadə olunmuş; Qarabağ ermənilərinə Azərbaycanın hakimiyyəti tanıtdırılmış; Bakıdan uzaqda bulunan Naxçıvanın Ermənistan hökumətinə qarşı mücadiləsi mənən və maddətən və siyasətən təqviyə olunaraq oraya vali göndərilmək surətilə Azərbaycana mərbutiyəti idarətən də təmin edilmişdir. **Salisən:** milli və iqtisadi islahata şüru olunmuş, ixtilallar əsnasında düçari-xarabi olan petrol ocaqlarının idarəsi yoluna qoyulmuş; mülğa dövlət bankası yenidən Azərbaycan Bankası namıyla təsis edilmiş; köy istehsalatını təqviyə üçün köylülərə məxsus ufaq kredi bankları açılmış, şəhərlərdə dəxi əmanət sandıqları yenidən vücuda gətirilmişdir. **Rabiən:** azərbaycanlılardan ufaq məmurlar yetişdirmək üçün xüsusi müəssisələr, türk gənclərinə məxsus olmaq üzrə, teleqraf, makina və şimendifer məktəbləri açılmış və əvvəlcə

heç yox ikən dəmiryol xadiməsinin yüzdə əllisini türkləşdirəcək qədər müvəffəqiyət göstərilmişdir.

Maarifə gəlincə: məktəbləri bir an əvvəl türkləşdirmək üçün təsis olunan təlif və tərcümə əncüməni mərifətilə ibtidai və edadi məktəblərə məxsus dərs kitabları təlif və təb edilmişdir; mövcud edadilərdən bir qismi milliləşdirilmiş; məmləkətin müxtəlif yerlərində mütəəddid erkək və qadın müəllim məktəbləri açılmış; Bakıda darülfünun təsis olunmuş, darülfünun nəzdində Şərq fakultəsi təsis edilmiş; müxtəlif ixtisaslarda yetişmək üçün hökumət hesabına Avropaya yüzdən ziyadə tələbə göndərilmiş; Türkiyədən əlliyə qərib müəllim və müəllimə cəlb olunmuş; köylərdə ibtidai maarifin təmimi və ümumi maarifin tövsii üçün müvəqqəti pedaqoji kursları təəssüs etmiş, milliləşdirilmiş və daha milliləşdirilməmiş bulunan edadi məktəblərdə rus tarixi dərsinin yerinə ümumi türk tarixi vəz olunaraq, türkcənin bütün məktəblərdə tədrisi qanunən məcburiyyət altına alınmışdır. Türkcə lisani-rəsmi elan olunaraq, ruscanın yalnız istihalə dövrünə məxsus olmaq üzərə müvəqqəti bir zaman üçün qullanmasına müsaidə edilmişdir. Məclisi-Məbusan müzakərələri yazıları və qələmi isə kamilən türkcə idarə edilmişdir.

Vilayətlərdə xalq hakimiyyəti əsasını vəz etmək üzərə vilayət məclisləri təşkilinə aid qanun layihəsi ehzar və məclisə tövdi olunmuşdur. Eyni zamanda mülkiyyət əsasını ibqa etmək surətilə ərazi məsələsinin köylüyü razı edəcək bir surətdə həllini müqtəzi bulunan qanun layihəsi dəxi Məclisi-Məbusan komisyonunun tədqiqinə vəz edilmişdir. Bu layihədə mülkiyyət prinsipi mühafizə edilməklə bərabər, böyük mülklərin dövlət tərəfindən zəbt olunaraq topraqsız köylülər arasında təqsimi əsasına riayət edilmişdir.

Anarşi sənələrində pozulan münaqələ vəsaiti yoluna qoyulur. Gürcüstan ilə yapılan etilaf üzərinə, Bakı-Batum dəmiryolu ilə Bakı-Batum petrol borusu əskisi kibi tənzim edilmiş; Azərbaycan iqtisadiyyatı üzərində böyük təsiri mühəqqəq bulunan Culfa-Ələt dəmiryolu inşaatına davam edilərək, Kür nəhri üzərində cəsim bir köprü yapılmışdır.

12 qanuni-sani 1920 tarixində düvəli-müttəfiqə divani-alisi Azərbaycan Cümhuriyyətini tanımışdır. Bu hadisəyi Azərbaycan ilə bərabər, işğal altında bulunan İstanbul dəxi təsid ediyordu. **"Türk Ocağı"**nın, darülfünun salonunda bu münasibətlə tərtib etdiyi mitinq, qardaşlıq namına, ən səmimi təzahürlərə vasitə oluyordu. Eyni zamanda məzkur hadisəyi təsid edən Azərbaycan Parlamanı Türkiyəyə qarşı minnətdarlığını qeyd ilə hürriyyət və istiqlal yolunda canlarını fəda edən Anadolu qəhrəmanlarına mədyun olduğunu unutmuyordu. Bu vəqədən daha əvvəl 1919 sənəsi ağustosunda, Azərbaycan ingilislər tərəfindən təxliyə edilmişdi. Bu vəqə münasibətiylə hökumət rəisi **Nəsib bəy** məbusanı "Bu gündən etibarən tamamən müstəqil" olmaqla təbrik eləmişdi.

Beynəlmiləl münasibətdə Azərbaycan xristian qomşularından Gürcüstan Cümhuriyyəti ilə etilaf etmiş, münaqişəli məsələlərin hakim vasitəsilə həlli üçün iki tərəf də mütabiq qalmış, Rusiya təhlükəsinə qarşı tədafüi-müahidə əqd eləmişlərdir. İşbu müahidəyə imzasını qoymaq üçün Ermənistana təklif vüqu bulmuşsa da, o bu müahidəyi imza etməkdən saxlanmışdır[55].

İran hökuməti ilə əqd olunan müahidəyə görə Tehran hökuməti yeni cümhuriyyətin istiqlalını bilhüquq tanımış, cüm-

[55] Burada "saxlanmışdır" sözü, "qaçınmış, imtina etmişdir" anlamına qullanılmış olmalıdır (red.).

huriyyət də kəndisinə transit haqqı vermişdir. Tehran ilə Bakıda mütəqabilən səfarətlər təsis olunmuşdur. Şimali Qafqasiya Cümhuriyyətinin təşəkkülü üçün Azərbaycan Cümhuriyyəti mali müavinətdə bulunmuş, kəndisinə 50.000.000 rublə iqraz edildiyi kibi **Denikinə** qarşı Dağıstanı müdafiə üçün də xüsusi təşkilat vücuda gətirilərək bu təşkilata təxsisat verilmişdir. Türküstan ilə münasibət təsisi üçün Aşqabad şəhərinə konsolos təyin olunmuşdur. Qars həvalisi türklərinin mövcudiyyətlərini mühafizəyə mətuf müdafiələri təqviyə olunmuş; İstanbula səfir göndərildiyi kibi, mücahid Anadolu Türkiyəsi ilə də münasibət girişilmək üçün surəti-xüsusiyyədə təşəbbüslər edilmiş, fəqət münasibat təbii məcra və şəklini bulmadan Azərbaycan Cümhuriyyəti süquta uğramışdır[56].

**Milli Azərbaycan hökumətinin üsuli-idarəsi xalq cümhuriyyəti idi.** Parlamentarizm və məsuliyəti-vükəla üsulu məri idi. Kabinə rəisini Məclisi-Məbusan rəisi dəvət ediyor, o da kabinəsini təşkil edərək, proqramını tənzim ilə məbusandan etimad alıyordu. Bu etimad səlb olununca kabinə də süqut ediyordu. Söz, yazı, ictima və təşkilat hürriyyətləri və məskənlərin məsuniyyəti, dini və əqidəvi məzhəblərin hürriyyəti müəmmən idi.

## 11) MÜHÜM HADİSƏLƏR ƏRƏFƏSİNDƏ

Azərbaycan Cümhuriyyətinin təsisi Şərqdə təhəddüs edən qayət böhranlı bir dövrə təsadüf ediyordu. Şimalda, başı üzərində daima bir təhklükə şəklində asılı duran general **Denikin** komandasındakı Bəyaz rus qüvvəti duruyordu. Əski çar Rusiyasını təmsil edən bu qara qüvvət Azərbaycan Cümhuriyyətini

---

[56] Türkiyə əfkarı ümumiyəsi üzərində iyi təsir buraxmayan və İstanbul səfiri bulunan zat axirən mənsub olduğu firqəyə də ihanət etmişdir (R.Ə.).

dəfələrlə təhdid etmişdi. Bu təhdidin önünə diplomasi tədbirləri ilə keçilmişdi. Düvəli-müttəfiqə tərəfindən bu qüvvət ilə Cənubi Qafqasiya Cümhuriyyətləri arasında Qara dənizdən Xəzər dənizinə qədər bir **"xətti-fəsil"** mübəyyən edilmiş, **Denikin** ordusunun bu xətti təcavüz etməməsi siyasətən təmin olunmuşdu.

1920 sənəsi martın sonlarında **Denikin** ordusunun inhilalı başlamışdı. O zaman Dağıstanı işğal altında bulundurmaqla, Azərbaycan üzərində əndişələr doğuran bu qüvvət zail olduqdan sonra, şimalda  Qızıl ordu qüvvəti hakim oldu.

Bir tərəfdən türklüyün şanlı ələmdarını, yəni Türkiyəyi, bütün Şərq tarixini alt-üst edəcək əzim süqutdan qurtaracaq təşəbbüsə mane olmamaq, digər tərəfdən də türk aləminin bel kəmiyini təşkil edən yeni doğmuş cümhuriyyəti kəndi əliylə qırmamaq kibi iki məsuliyətli vəzifəyi təlif etdirə bilmək üçün mütəcanis və müttəhid deyil, mütəxalif və koalisyonlu bir vəziyyətdə bulunan hökumət bu kibi xüsuslarda zəruri bulunan səri qərarlar ittixaz edəməyib, həftələrcə davam edən möhlik bir böhran dövrəsinə girmişdi.

Hökumət hali-böhranda ikən Qarabağda Xankəndi üzərinə ermənilərin icra etdikləri bir basqınla erməni üsyanı zühur etmiş, eyni zamanda asilər **"Əsgəran keçidi"**ni də işğal etmişlərdi. Bunun üzərinə əsgəri qüvvətlərin mövcudu həmən Əsgərana sövq olunmuş, şiddətli bir müqavimətdən sonra, keçid düşməndən təmizlənmiş, Xankəndi də istirdad olunmuşdur. Asilər dağlara çəkilərək müqavimətlərində israr eləmişlərdir. Qarabağ cəbhəsində hadisələr bu surətlə inkişaf etməkdə ikən Ermənistan hüdudunda təhşidati-əsgəriyyə müşahidə olunaraq, Qazax qəzasında yeni bir cəbhə açılmışdır. Burada da Ermənistan ilə Azərbaycan qüvvətləri arasında müsadimələr başlamışdır. Eyni zamanda bolşevik

təşkilatının Bakıda üsyan hazırlamaq üzrə bulunduqları zabita tərəfindən kəşf olunaraq, ələbaşları həbs olunmuşdur. Bu zamanda bolşeviklər Dağıstanda külliyətli qüvvətlərlə mütəhəşşid bulunuyorlardı. Eyni zamanda **Solovyov** namında birisini Azərbaycan hökuməti ilə petrol mübayəəsi məsələsinə aid xüsusatda görüşmək üçün Bakıya göndərmişlərdi.

Həftələrlə davam edən böhranın nəticəsində bilcümlə siyasi firqələrin müvəffəqiyyətilə yeni kabinənin təşəkkülü **Hacınski Məhəmməd Həsən bəy**ə həvalə edilmişdi. **Məhəmməd Həsən bəy,** bolşeviklərdən Azərbaycanın istiqlal və mülki tamamiyyətinə aid kafi təminat almaq üzrə, mücahid Türkiyə ilə ixtilalçı Rusiya arasında hər iki tərəfə dost bir hökumət təşkil edəcəkdi. Bu məqsədlə yeni kabinənin təşəkkülünü bəkləmədən bolşeviklər nəzdinə bir heyəti-mürəxxəsə dəxi ezam edilmişdi. Bu heyət Rusiyanın möhtac olduğu iqtisadi məvaddı təmin etmək surətilə istiqlal və tamamiyəti-milliyyə babında kəndilərindən siyasi təminat almaq üzrə müahidə əqdinə səlahiyyətdar idi.

## 12) 27 NİSAN, CÜMHURİYYƏTİN SÜQUTU

Azərbaycan tərəfindən göndərilən heyət hüdudu keçmiş, Bakı da intizarda ikən, bolşevik ordusunun hüdudu keçdiyi xəbər alınıyor. 26 nisanda gecəleyin vaqe olan bu hadisə 27 nisanda, sabahleyin siyasi məhfillərdə əyan olunca hər tərəfi heyrət qaplıyor, hüdudda bulunan əsgərlər qüvvəyi-külliyələri Qarabağ və Qazax cəbhələrində daha övdət etmədikləri üçün, 60 bin miqdarında hüdudu təcavüz edən qüvvətə qarşı iki, üç saatlıq bir müqavimətdən və şəhidlər verdikdən sonra ricət etmək məcburiyətində qalıyorlar.

O gün, daha təşəkkül etməmiş bulunan yeni kabinə ilə istefası qəbul edildiyi halda hökumət işlərini daha devir və təslim etməmiş bulunan əski kabinə arasında asılı duran hökumət və onunla bərabər Məclisi-Məbusan, **Azərbaycan Kommunist firqəsi**nin ultimatumu qarşısında bulundu. Bu ultimatum hökumətin **Azərbaycan Kommunist firqəsi** mərkəz komitəsinə təslimini tələb etməklə bərabər, Azərbaycan istiqlalının əmniyyət altında bulunacağını və hökumətin ruslara tərk edilməyəcəyini də təmin ediyordu. Məclisi-Məbusan tərəfindən bütün firqələrin mümәssillərini cəmi olmaq surətilə intixab olunan komisyon ilə kommunist firqəsi mürəxxəsləri arasında təqərrür edən şəraitə görə:

1) **Rus ordusu Bakıya girmədən, dəmiryolu ilə doğru Anadolu imdadına gedəcək.**
2) **Azərbaycan istiqlalı və mülki tamamiyyəti hər növ təərrüz və qeydlərdən məsun qalacaq.**
3) **Azərbaycan ordusu, olduğu kibi baqi qalıb, inhilal etdirilməyəcək.**
4) **Siyasi Azərbaycan firqələri hürriyyət və sərbəstilərini mühafizə edəcəklər.**
5) **Sabiq ricali-hökumət əzası və məbuslardan kimsə siyasi cürmlə ittiham edilməyəcək.**
6) **Tam bir hürriyyət və sərbəsti ilə toplanacaq Azərbaycan sovetləri, hökumət şəkli-idarəsini təyin qılacaq idi.**

Nisanın 28-dən etibarən üç rəngli Azərbaycan bayrağı qismən qızıl sovet, qismən də Osmanlı bayrağına təbdil edildi. Milis başında, yardım alayında və digər məsuliyətli məqamlarda türkiyəli zabitlər bulunuyor, nəşr olunan bəyannamə və

əmrnamələr onların imzası ilə çıxıyordu. Türkiyə kommunistləri tərəfindən nəşr olunan **“Yeni Dünya”** qəzetəsi də inqilabı mənimsəmişdi.

Bu hal Qızıl ordunun Bakıya vürudu anına qədər davam eləmişdir. Mayısın birində Qızıl rus ordusu Bakıya girmiş və sövqülceyş nöqtələrini tutmaqla məmləkət işğal altına alınmışdır. Ordunun yerləşdiyindən bir-iki gün sonra əsgəri, zabıtə və mühafizə məmuriyyətlərində bulunan türk zabitlərinin kaffəsi rus zabitləri tərəfindən təbdil olunmuşdur. Şəraitnamənin digər maddələri də tətbiq olunmamışdır.

## 13) “27 NİSAN”A QARŞI ƏKSÜLƏMƏLLƏR

Bu surətlə vüqu bulan inqilabın vüquundan bir ay keçmədən Azərbaycanın müxtəlif cəhətlərində qiyam hərəkətləri bəlirdi. Bu qiyamların ən mühümü Gəncədə zühura gəldi. Üsyanın əsl kadrosunu daha silahlarını təslim etməmiş bulunan Azərbaycan qitəatı təşkil ediyordu. Gəncə üsyanı ilə bərabər Tərtər, Ağdam, Şuşa şəhər və qəsəbələrində bulunan Azərbaycan əsgəri qitəatı dəxi ətrafındakı əhalinin üsyanına birər mərkəz və məbdə təşkil eləmişlərdir. Tərtərdə və Ağdamda rus qitəatı mühüm tələfat vermişlərdir. Lənkəran qəzasındakı üsyanlar isə aylarla davam eləmiş; Zaqatala, Şəki, Quba üsyanları da qanlı bir surətlə bastırılmışdır. Biz burada az-çox bir miqyasda vüqu bulan üsyanları qeyd ediyoruz. Sovet mənbələrinin ifadəsinə görə Azərbaycanda 54-dən ziyadə üsyan hadisəsi bastırılmışdır.

## 14) SOVET AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN HÜQUQİ VƏZİYYƏTİ

Qızıl ordu Azərbaycan hüdudunu keçdikdən və **"inqilabı"** təmin etdikdən sonra **Azərbaycan İxtilal Komitəsi,** nisanın 28-də Moskvaya müraciətlə elan etdiyi **Sosialist Sovet Azərbaycan Cümhuriyyəti** namına imdad istəmiş və cavabında "imdadın göndəriləcəyini və Azərbaycan istiqlalının tanınmasını" müşir **Lenin** imzası ilə bir teleqraf alınmışdır. Məmafih bu surətlə tanılan "istiqlal" eyni zamanda (1920) eylülün 30-da Rusiya ilə Azərbaycan arasında digər müqavilə ilə təqyid olunmuşdur. Rusiya namına **Çiçerin**, Azərbaycan namına **Behbud Şaxtaxtinski** tərəfindən imzalanan bu müqaviləyə görə Azərbaycan ilə Rusiyanın əsgəri təşkilat və komandanlıqları milli iqtisad və əcnəbi ticarətləri, iaşə təşkilatları, dəmiryolu münaqilatı, dəniz və nəhr yollarının idarəsi, posta-teleqraf nəzarətləri ilə maliyə işləri tövhid edilmişdir. Bu müqavilənin təfsilatına görə müttəhid nəzarətlərə və xüsusata aid Rusiyada mövcud qanun və nizamlar mexanikcəsinə Azərbaycana da tətbiq olunuyor. Azərbaycan komissarlıqları idarə heyətində Rusiya namına bir komissar iştirak ediyor ki, bu komissarlıqlara hər hanki bir qərarı durduracaq "veto" haqqı verilmişdir[57]. 21 mayıs 1921-də Ermənistan, Gürcüstan və Azərbaycan Sovet Cümhuriyyətləri arasında əcnəbi ticarətin tövhidi haqqında bir müqavilə əqd olunmuşdur. 16 mart 1921-də Türkiyə Böyük Millət Məclisi hökuməti ilə Sovet Rusiya arasında, Moskvada münəqid müahidə mucibincə, **Azərbaycan İxtilal Komitəsi** tərəfindən Ermənistana tərki-elan olunduğu halda, Naxçıvan vilayətinin

[57] Bu müqavilə Moskvada xariciyyə komissarlığı tərəfindən nəşr olunan "Bülleten"in 1920 sənəsinə aid 9-10-cu numarasında mündəricdir.

Azərbaycan Cümhuriyyətinin himayəsi altında muxtariyyəti təyin olunmuşdur. 13 təşrini-əvvəl 1921-də Qarsda Türkiyə Böyük Millət Məclisi hökuməti ilə Rusiya və Qafqasiya Sovet Cümhuriyyətləri arasında əqd və imza olunan müahidə mucibincə mümtaz Naxçıvan vilayətinin Moskva müahidəsincə müəyyən vəziyyəti təkrar təsbit olunmuşdur. 1922 sənəsi mart ayında Azərbaycan, Gürcüstan və Ermənistan Cümhuriyyətləri **Mavərayi-Qafqas Sovet Sosialist Cümhuriyyətləri Federasyonu**nu təsis eləmişlərdir. Bu federasyon dəxi 6 temmuz 1923-də təşəkkül edən **Sosialist Sovet Cümhuriyyətləri İttihadı**na girmişdir. 6 temmuz Sovetlər İttihadı təşkilati-əsasiyyə qanununa görə (fəsil 2, maddə 4) müttəhid cümhuriyyətlərdən hər hankisi istədiyi zaman, ittihaddan çıxmaq haqqını haiz isə də, kommunist hüquqi-əsasiyyə mütəxəssislərindən **Derayençin** bu haqqın **"təşri deyil, yalnız, deklarativ bir əhəmiyyəti haiz olduğunu"** bəyan etməkdədir[58]. 6 temmuz qanuni-əsasiyyəsinə görə müdafiə və əsgərlik, iqtisad və ticarət, dəmir və nəhr yolları ilə seyri-səfain, posta və teleqraf işləri Moskvanın idarəsinə keçdiyi kibi, siyasi zabitə idarəsi də bilavasitə Moskvaya mərbut qalıyor. Bütün bunlara bir də 15 mart 1925-də Azərbaycan Sovet Konqresi tərəfindən təsdiq olunan "Bakı Soveti" nizamnaməsi ilə müqərrər vəziyyəti əlavə etməliyiz. Bu nizamnaməyə görə "Baksovet (Bakı Soveti)" Bakı şəhəri ilə qəzası daxilində hökuməti-aliyyəyi haizdir. Və Azərbaycan

[58] "Sovetlər İttihadı"nın ali idarəsi "Cümhuriyyətlər Şurası" ilə "Millətlər Şurası"ndan ibarət iki müəssisəyə tabedir. "Cümhuriyyətlər Şurası" 1371 əzadan ibarət olub, nüfuslarının ədədi nisbətində vilayətlər tərəfindən göndərilən mümessillərdən təşəkkül edər. Bu surətlə 1371 əzadan əksəriyəti ruslar təşkil edərlər. "Millətlər Şurası"nda da müxtəlif cumhuriyətləri təmsil edən 35 müməssilə qarşı Rusya Cümhuriyətinin 63 müməssili vardır.

hökumətinin əsası Sovet qanunları ilə naqis bulduğu hər hanki bir qanunu tətbiq etdirməmək haqq və səlahiyyətinə malikdir. Eyni zamanda kəndi dairəsində istədiyi qanunu vəz və tətbiq etmək imkanına da malikdir[59]. Baksovet büdcəsi nə Bakı, nə də Tiflisdə deyil, Moskvada təsdiq olunuyor. Bundan maəda "Azərneft" namı altında mümtaz bir idarə halına qonan Bakı petrol müəssisələrinin idarəsi də, bilavasitə Moskvada müqim "Baş Məhruqat İdarəsi"nə rəbt edilmişdir. Qarabağ vilayətində "Cibali Qarabağ vilayəti-mümtazəsi" namı ilə ayrılan "Erməni muxtariyyəti" ilə, yenə Qarabağda vücuda gətirilən "Kürdistan muxtariyyəti"nin Azərbaycan bünyəsində siyasi yeni təəzzüvlər ehdas etdiyini də qeyd etməliyiz.

## 15) SOVET AZƏRBAYCANININ SİYASİ VƏZİYYƏTİ

Şimdiki Sovet Azərbaycanında hökuməti-aliyyə Azərbaycan Sovetlər Konqresinə aiddir. Bu konqre sənədə bir dəfə toplanır. Konqre, əmələ, köylü və əsgər dələgələrindən təşəkkül edər. 200 əmələ bir dələgə göndərdiyi halda, köylülər 1000 adama bir dələgə göndərirlər. Şəhərlərdə, bilxassə Bakıda rus əmələsi çox olduğundan, Azərbaycan sovetlərində rus dələgələri rus nüfusunun ədədi ilə qeyri-mütənasib bir yekun təşkil edər. Sovetlər Konqresi kəndi qiyabında hökuməti-aliyyəyi təmsil etmək üzrə, mərkəzi icra heyətini intixab edər. İcra heyəti, isminə rəğmən, sovet sistemində qüvvei-təşriyyəyi də haiz təmsil bir müəssəsədir. Əsl icra və idarə isə "Komissarlar Heyəti"nin əlindədir ki, bu heyəti də "Mərkəz İcra Heyəti" in-

---

[59] 1925-də Bakıda tab olunan "Baksovet" Nizamnaməsinin müfəssəl təhlili **"Yeni Qafqasiya"**nın 2-ci sənə 20-ci sayısında mündəricdir.

tixab edər. Feli idarə **Azərbaycan Kommunist firqəsi**nin əlindədir. Bu firqə bütün **Rusiya Bolşevik firqəsi**nin bir şöbəsidir. Bu şöbənin səlahiyyəti bir vilayət şöbəsinin haqq və səlahiyyətindən fəzlə deyildir. Müştərək Mərkəzi-Ümumi direktivləri üzərinə hərəkət edər. Katibi-ümumisi Moskvadan təyin olunur. III İnternasyonala bizzat deyil, **Rusiya Kommunist firqəsi**nin şəxsində, bilavasitə girmiş olur. 1923 istatistikinə görə **Azərbaycan Kommunist firqəsi**nin Bakı təşkilatında 2732 əcnəbi ünsürə müqabil 974 türk varmış ki, bu yüzdə 30 deməkdir. Halbuki sadə ruslar yüzdə 60 nisbətini təşkil ediyorlar. Eyni istatistikə görə firqə katiblərinin miqdarını tədqiq edərsək, görürüz ki, bunlardan ancaq yüzdə 20-si türkdür. Rus nisbəti isə burada da yüzdə 70-i bulmaqdadır. 1923 sənəsinə aid olan bu nisbət 1927 sənəsində dəxi fəzlə təbəddülata uğramamışdır. Türk əzanın nisbəti yüzdə 30-u yenə keçməmişdir[60].

Türkcə rəsmi lisan olaraq elan olunmuş, idarələrin türkcə bilir məmurlar tərəfindən idarəsinə əsasən qərar verilmişsə də, bu sahədə bir çox maneələr zühur eləmişdir. Türk kommunistlərindən də bir qisminin (Xanbudaqov və arkadaşları) protestolarına rəğmən milliləşdirmə, türkləşdirmə işində Azərbaycan iki məntəqəyə bölünmüşdür. Azərbaycan və Bakı məntəqəsi. Birincinin bir an əvvəl türkləşdirilməsinə qərar verildiyi halda, ikincisinin tədrici surətlə türkləşdirilməsi, əsas olaraq qəbul edilmişdir. Azərbaycan qəzalarında maarif komissarlığı ilə daxiliyə komissarlığına aid müəssisələr, iyi-kötü türkləşdirildiyi halda, digər sahələrdə bu siyasət pək o qədər də müvəffəqiyyət əsəri göstərmiyor. Bakı isə əsasən bu planın xaricindədir.

---

60 **"Kommunist"** qəzetəsinin 1926 qanuni-əvvəl nüsxəsində mündəric Katibi-ümumi **Mirzoyan**ın nitqindən.



*Bakıda neft emalatxanası*

Azərbaycan sovetizə edildikdən sonra, Rusiya ilə Ermənistandan buraya bir çox mühacirlər gəlmiş, bu hal bilxassə Bakının nüfusu etibarı ilə "Amerikanizə" edilməsinə səbəb olmuşdur. Eyni zamanda Muğanı iskan siyasətinə davam olunaraq, Bəhri-Xəzərin Muğan sahilində "İliç" namıyla bir şəhərin binası qurulmuşdur. "İliç" şəhəri, Aras sahili ilə Muğan çölünü iskan və təməddün icraatına bir mərkəz rolunu oynayacaqdır. Muğan işləri ilə məşğul olmaq üzrə "Muğan və Mil ovalarını imar" mənasında "Muğmilstroy" namına bir müəssisə dəxi vücuda gətirilmişdir. Kommunist tətbiqatı nəticəsində Azərbaycanın ictimaiyyətindəki təbəddüllərlə yeni zümrələrin təhlil və tədqiqi çox enteresan bir mövzudur. Fəqət məqaləmizin çərçivəsi bu xüsusda fəzlə təfsilat verməyə müsaid deyildir. Bu qədərini söyləməliyiz ki yaşadığı inqilablar nəticəsində Azərbaycan köylüsü şu və ya bu surətlə siyasi həyata atılmış və kəndisinə mövcud ufaq burjua mülkiyyətçilik sövqi-təbiisi, yeni iqtisadi siyasətin tətbiqindən sonra, bilxassə inkişaf imkanı bulmuş; bu inkişaf isə onu, məhsulatının müqabilini verməyən dövlət kapitalizmi və kommunist doktrinləri ilə təzada sövq eləmişdir. Qeyri-milli ənasirin mövcudiyyəti də bu təzaddan doğan müxalifəti milli cərəyanın zahiri və müavini yapmışdır.

## 16) MÜASİR AZƏRBAYCANDA MƏKTƏB VƏ MAARİF

İlk məktəbin ümumən, orta məktəbin də qismən milliləşdirilməsinə milli Azərbaycan hökuməti zamanında şüru edilmişdi. Nisan ixtilalından sonra maarif işləri 21 sənəsinə qədər böyük böhran keçirərək bu tarixdən etibarən, Azərbaycan maarifi müəyyən bir sistem altına girməyə başlamışdır. Sovet sisteminə görə ümumi maarif birinci dərəcəli və ikinci dərəcəli məktəb ünvanıyla iki qismə ayrılıyor; bundan sonra da, ali məktəblərlə ixtisas məktəbləri gəliyor. Ali məktəblərlə ümumən, ixtisas məktəblərində qismən tədris lisanı ruscadır; ümumi məktəblərdə isə dərslər türkcə verilməkdədir. Türk olmayan millətlər kəndilərinə məxsus məktəblərdə kəndi lisanları üzərinə tədris olunuyorlar. Türkcə ikinci dərəcədəki məktəblərdə rusca, bir dərs olaraq oxudulduğu kibi, digər millətlərə məxsus məktəblərdə də türkcə, bir dərs olaraq oxuduluyor. Son zamanlarda ümumi məktəblərdən çıxan türk cocuqlarının rusca lisanında zəif olduqlarını nəzərə alaraq, Azərbaycan sovet hökuməti rusca tədrisinin təqviyəsini hətta bir dərəcəli məktəblərdə belə rusca lisanının oxudulmasını düşünməkdədir. Kommunistlərin qənaətincə[61] **"Oktyabr lisanı"**nı bilmək, Sovetlər İttihadına daxil hər vətəndaşın məfkurəvi borcudur; bu vasitə ilə Avropa mədəniyyətinə də qolaylıqla intibaq oluna bilir. Ali məktəblərin ikinci dərəcəli məktəblərdən nəşət edən türk tələbəsi tərəfindən türkləşdirilməsi ciddiyyətlə tələb olunmaqdadır. Çünki hər nə olsa da, elmləri türkcə keçmiş bulunan tələbə darülfünunda rusca təqrirləri dinləməkdə müşkilat çəkiyor. Mamafih şimdiyə qədər yalnız keçən sənə tövhid olunan Ali Pedagoji Kursu ilə

[61] Mətndə "qənaətcə" şəklindədir. Düzəldilməsi uyğun görüldü (red.).

Şərq fakultəsi qismən türkləşdirilmişdir. Gərçi mövzui-bəhs Pedagoji kursu Şərq fakultəsindən daha əvvəl milliləşmiş və türkləşmiş bulunuyordu.

1923 və qismən də 1924 sənəsinə aid bir istatistikə görə, Azərbaycan Cümhuriyyətində Naxçıvan vilayətiylə birlikdə, 990 ədəd birinci dərəcəli məktəb mövcud olub, bunlarda 90.587 tələbə və 2977 müəllim varmış; ikinci dərəcəli məktəbin miqdarı 37 olub, bunlarda 4836 tələbə və 307 müəllim varmış; ümumi məktəblərdən maəda yenə o sənələrdə 10 müəllim məktəbi mövcud olub, bunlarda 1222 tələbə ilə 143 müəllim varmış[62].

Milliyyət etibarı ilə tələbənin miqdarı bərvəchi-ati imiş[63]:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Türk | 59.937 | bundan | 51.448 | erkək | 8489 | qız |
| Rus | 20.183 | bundan | 11.681 | erkək | 8302 | qız |
| Erməni | 13.483 | bundan | 7.679 | erkək | 5804 | qız |

Müəllimlərin milliyyət etibarı ilə müqayisələri bərvəchi -atidir:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Türk məcmuu | 2415 | bundan | erkək | 1814 | qadın | 601 |
| Rus məcmuu | 448 | bundan | erkək | 178 | Qadın | 270 |
| Erməni məcmuu | 395 | bundan | erkək | 206 | Qadın | 189 |

Məktəblərin ümumi nöqsanlarını tədad edərkən, Sovet Azərbaycan hökuməti tərəfindən nəşr olunan rəsmi raporda atidəki maddələr təsbit olunmuşdur:

1) Məktəb binalarının pozuqluğu.

[62] Məktəb sinnində olmayan kiçik yavrulara məxsus ana məktəbləri də vardır.
[63] Biz fəzlə təfsilata girişmədən yalnız üç millətə aid olan rəqəmləri göstəriyoruz.

2) Bir çox məktəblərdə tədris ləvazimi yoxdur.

3) Türk müəllimləri kafi dərəcədə ixtisas əhlləri deyildir.

4) Dərs kitabları və tədris ləvazimi kafi dərəcədə deyildir[64].

1924 sənəsi üçün yenidən 65 birinci, 7 ədəd ikinci dərəcəli məktəb güşadına qərar verilmişsə də, 1925 və bilxassə 1926 sənəsi hər sahədə təsərrüf və ixtisar sənələri olmuşdur.

Ümumi məktəblərdən maəda Azərbaycanda müxtəlif ixtisas məktəbləri təsis olunmuşdur. Bunların isimlərini tədad etməklə iktifa edəlim: 1) Bəhriyə məktəbi (əskidən mövcud idi); 2) Su Yolları Nəqliyyat Texnikumu; 4) Azərbaycan Orman Məktəbi; 5) Bakı Sənaye və Ticarət Texnikumu; 6) Yoldaş Nəriman namına Texnikum (bu, Bakı Sənaye Məktəbinin Türk şöbəsindən ibarətdir); 7) Gəncə Texnikumu (əski Gəncə Sənaye Məktəbi); 8) Zaqatala Texnikumu (əski Zaqatala Sənaye Məktəbi); 9) Şəki Texnikumu; 10) Quba Texnikumu; 11) Lənkəran Texnikumu (Sabiq Lənkəran Sənaye Məktəbi). Bu texnikumlardan maəda Azərbaycanın bəzi qəzalarında nümunə sənaye atelyeləri güşad olunmuşdur.

Bunlardan maəda Bakıda Dövlət Müzesi vardır. Bu müze milli hökumət zamanında parlaman nəzdində təsis olunan "İstiqlal Müzesi"nin istihaləsindən ibarətdir. Dövlət Müzesinin üç şöbəsi vardır: 1) Tarix və etnoqrafiya şöbəsi; 2) Bioloji və mioloji şöbəsi; 3) Geoloji və botanik şöbəsi. Üç şöbədə 1923 sənəsində məcmuu 5000 numara əşya varmış.

**Azərbaycan Darülfünunu** 1919 sənəsində milli hökumət zamanında təsis edilmişdir. Darülfünunun dörd fakultəsi vardır: Tibbiyə; Ümumi-ictimaiyə; Şərq fakultəsi ilə Təbiyyat və

[64] Bu məlumat Azərbaycan Sovet hökuməti Maarif Xalq Komissarlığı tərəfindən nəşr olunan rəsmi rapordan alınmışdır.

Riyaziyat fakultəsi. Bunlardan maəda bir də Əmələ fakultəsi vardır. Darülfünundan sonra ali təhsil müəssəsi olmaq üzərə **"Politexnik İnstitüsü"** vardır. İnstitü atidəki şöbələrdən ibarətdir: 1) Texnoloji fakultəsi; 2) Ziraət və Fəlahət fakultəsi; 3) Mühəndislik fakultəsi; 4) İqtisad fakultəsi.

Sənayei-nəfisə və musiqi təhsili sahəsində atidəki elm müəssisələri mövcuddur: Azərbaycan Dövlət Konservatuarı (bu müəssisə hali-ibtidaidədir). Bundan maəda Türk Musiqi məktəbi, Musiqi texnikumu, Ümumi Musiqi məktəbi, Dövlət Türk Teatro məktəbi, Ali Sənayei-nəfisə məktəbi.

Ali təhsil müəssəsələrinin təhsil lisanı Azərbaycan ismini daşımasına rəğmən, əksəriyyətlə ruscadır. Müdərrislər də əksəriyyətlə rusdur. Tələbənin də əksərisi rusdur. Məsəla, 1923 sənəsinə aid istatistikə görə darülfünundakı 220 müdərris, müəllim və müəllim müavinindən yalnız 26-sı türk imiş. Politexnik İnstitüsünün 106 müdərris və müəllimindən yalnız ikisi türk imiş. Dövlət Darülfününun yenə o sənəyə aid hesaba görə, 1722 tələbəsindən 373-ü türk imiş. Bunlar da əksəriyyətlə Tibb ilə Şərq fakultəsində imişlər. 1509 Ali Texnik İnstitüsü tələbəsindən isə yalnız 118-i türk imiş. Maarif komissarı **Quliyev**in 1926 sənəsinə aid verdiyi məlumata görə, ali məktəblərdə təhsil edən 1941 tələbədən yüzdə 23-ü ali, Sənaye məktəbində oxuyanların isə yüzdə ancaq 17-si türk imiş. Müdərrislərə gəlincə ali məktəblərdəki 35 türk müdərris və müəlliminin miqdarı 70-ə iblağ olunmuş; Sənaye məktəbində isə bu ədəd 13-dən 35-ə çıxarılmışdır.

Məktəbi-maarifdəki məfkurəvi hədəfin kommunizm doktrinlərinə tovfiqinə cəhd edilməkdədir. Bu məqsədlə tarix dərsinə bilxassə əhəmiyyət veriliyor. Sosializm tarixi ilə mədəniyyət tarixi oxuduluyor.

Hər halda müxtəsərən verdiyimiz rəqəmlərdən maarifin qismən ilərləmiş olduğu görülməklə bərabər, bu maarifin milli olması və türkləşdirilməsi üçün daha çox təmənnilərdə bulunmaq lazım olduğu da aşikardır. Sonra gərək ümumi və gərək ali təhsilə aid verilən rəqəmlərdə türklərin nisbətən çox ehmal edildikləri də görülməkdədir. Bu qəziyənin bərtəfsil, təhlil və tənvirinə isə yerimiz müsaid deyildir. Rus kültürü ilə rəqabət etmək zərurətində bulunan türk kültürünün bu maarif əsas və təşkilatı daxilində nə dərəcəyə qədər müvəffəq ola biləcəyi bir məsələdir. Keçən sənədən etibarən, ilk məktəblərdə tədrisat latın əsası üzərinə tərtib edilmiş **"yeni əlifba"** ilə icra olunmaqdadır.

Bu fəsli təkmil etmək üçün Azərbaycanda elmi və ədəbi tədqiqat məqsədi ilə təşəkkül edən cəmiyyətlərdən **Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti** ilə **Ədəbiyyat Cəmiyyəti**ni də təsbit edəlim. Bu cəmiyyətlər elmi və ədəbi tədqiqlərdə bulunaraq konfranslar tərtib edərlər və təsis etdikləri məcmuələrdə tədqiqat və tətəbböatlarını nəşr edərlər. **Tədqiq və tətəbbö cəmiyyəti**ndə əksəriyyətlə rus professor, **ədəbiyyat cəmiyyəti**ndə də əksəriyyətlə türk qüvvətləri çalışmaqdadırlar. Bu iki cəmiyyətin əsası milli hökumət zamanında vəz edilmişdi. Bunlardan maəda bir kaç kitabxanə və qiraətxanə dəxi təsis edilmişdir.

## 17) MÜASİR AZƏRBAYCANDA MƏTBUAT, ƏDƏBİYYAT VƏ SƏNAYEİ-NƏFİSƏ

Məktəb və maarif sahəsində olduğu kibi, mətbuat və nəşriyyat sahəsində dəxi Azərbaycanın iki cəbhəsi vardır. Türk cəbhəsi ilə rus cəbhəsi. Rusca nəşr olunan qəzetə, məcmuə, elmi və fənni nəşriyyatın türkcəyə nisbətlə daha qüvvətli olduğunu qeyd etməklə bərabər, türkcə nəşriyyat mətbuat və ədəbiyyat

sahəsində də nisbətən bir tərəqqi və inkişaf görüldüyünü təsbit edə biliriz.

Türkcə nəşriyyat və mətbuatı iki qismə bölə biliriz. Bunlardan bir qismi və ən məbzul olanı kommunist propaqandasına təxsis olunan nəşriyyat və mətbuatdır ki, bu nəşriyyatın ədədən ən mühüm qismini təşkil etməklə bərabər, milli ədd olunamaz. Əksəriyyətlə ruscadan mütərcəm əsərlərdən ibarət olan bu nəşriyyat orijinalitəyi haiz deyildir. Məmafih ruh və mündəricat etibarı ilə dediyimiz mütərcəm şəkildə çıxan kommunist mövqutələri dəxi ifadə və texnik etibarı ilə Azərbaycan ənənəsi ilə müəssis ədəbi türkcədən pək uzaqlaşmamışdır. Yövmi və siyasi qəzetələrdən, hökumət və firqə naşiri əfkarı olaraq intişar **"Kommunist"** qəzetəsi ilə digər mövqutələr miyanında ciddiyyət və əhəmiyyəti ilə təmayüz edənləri **"İqtisad Xəbərləri və Maarif Ədəbiyyatı"**[65] məcmuələridir. Bunlardan maəda bir də **"Şərq Qadını"** məcmuəsi vardır. Fəqət bu sonuncu məcmuə daha ziyadə propaqanda qəzetəsidir[66].

Propaqanda mahiyyətini haiz olmayan qeyri-mövqut nəşriyyatdan Azərbaycan ədəbiyyatı tarixinə aid olaraq intişar edən materiallar serisini zikr edə biliriz. Bunlardan biri **Firidun Köçərli**[35] mərhum tərəfindən təlif olunan "**Azərbaycan Ədəbiyyatı Tarixi Materialları"**, digəri də **Salman Mümtaz**[36] tərəfindən nəşr olunan seridir[67]. **Məhəmməd Həsən**

[65] Bu dərginin adı yanlış xatırlanmışdır, **"Maarif və Mədəniyyət"** adlı bir dərgi vardır (red.).

[66] Zikr etdiyimiz bu qəzetələrdən maəda digər məcmuələr də nəşr olunuyor. Yalnız bunlar bizcə şayanı-əhəmiyət deyildir. Yövmi **"Kommunist"** qəzetəsi ilə **"Əkinçi"** qəzetəsindən maəda latın hərfləri ilə mətbu **"Yeni yol"** qəzetəsi də intişar etməkdədir. **"Kommunist"** qəzetəsinin tirajı 7000-dir.

[67] Mumaileyhin axirən nəşr etdirdiyi **"El şairləri"** cildləri də şayani-qeyddir.

**Baharlının**[37] **Azərbaycan etnoqrafiyasına, iqtisadiyyat və ihsaiyyatına** aid intişar edən mühüm əsərini də bu miyanda qeyd edə biliriz. Müxtəlif məktəblərdə təlim və tədris məqsədilə təlif və nəşr olunan kitabların da bir qismi bu sıraya idxal oluna bilir. **Füzuli** ilə **Əmir Əlişir Nəvai** haqqında nəşr olunan yubiley məcmuələri də bu qismdəndir. Tarix və harsi tədqiqlər sahəsində çalışan Azəri qüvvətlər hənuz çox məhduddur. Məmafih Krım və Kazan kibi türk ellərindən nəşət edən gənc türk alimləri hal-hazırda Bakıda çalışdıqları kibi Türkiyədən cəlb olunan bir kaç müəllimin də bu xüsusda fəaliyyətləri görülməkdədir. Eyni zamanda rus müstəşriqlərindən bir qismi dəxi həm Şərq fakultəsində tədris, həm də Azərbaycanı tədqiqlə məşğuldurlar. Bunlar tərəfindən bir kaç əsər dəxi nəşr olunmuşdur.

Mətbuat və nəşriyyatdan sonra ədəbiyyatı mütaliəyə gəlincə, Azərbaycanın sovet doktrinlərindən çox da mütəəssir olmadığı görülüyor. Sovet münəqqidlərinin də şikayətini mucib olan bu hal, bugünkü ədəbiyyatın dünkü ədiblər əlində bulunduğu ilə izah olunuyor. Sovet inqilabını tamamilə mənimsəmiş ədib və şairlər varsa da, daha "hali-tüfuliyyətdə"dirlər.

Azərbaycan teatrosu ilə musiqisi epey tərəqqi eləmişdir. Maarif və məktəblərə aid verdiyimiz məlumat sırasında teatro məktəbi ilə musiqi məktəbinin təsisi qeyd olunmuşdur. Yuxarıda təsbit etdiyimiz əsərlərdən maəda bir çox pyes tərcümə olunaraq Azərbaycan səhnəsi beynəlmiləl məruf əsərlərlə zənginləşmişdir. Repertuarında məlum əsərlərdən maəda şimdi **Şekspr**in**, Şiller**in**, Rasin**in**, İbsen** və sairələrinin əsərlərinə də təsadüf olunuyor; ruscadan bir çox pyeslər tərcümə edilmişdir. **Hacı Zeynalabdin əfəndi** tərəfindən təsis olunub da sonra qəzaən yanmış bulunan teatro təmir edilmiş, dövlət teatro-

su namıyla türk səhnəsinə təxsis olunmuşdur[68]. Sovet dövrünə məxsus yeniliklərdən **“Satir aqit”** namıyla məruf siyasi propaqanda teatrosunu zikr edə biliriz ki, bunun da türkcə şöbəsi mövcud olduğu kibi, məxsus binası və aktyor qrupu vardır.

Məruf Azərbaycan opera və opereti sahəsində şayani-diqqət yeni əsər vücuda gətirilməmişsə də Azərbaycan teatrosunun bu qismi dekor və aktyor heyəti noqteyi-nəzərindən epey ilərləmiş, aktrislik cəhətində bilxassə tərəqqi hüsulə gəlmişdir, Azərbaycan operasının ustadı **Üzeyir bəy**in üstünə yeni bir qüvvət daha gəlməmişdir[69].

## IV

## DAĞISTAN CÜMHURİYYƏTİ

**1) Məsahəyi-səthiyyə və nüfusu.**
**2) İqtisadi və ictimai xüsusiyyəti.**
**3) İnqilab sənələrində Dağıstan.**
**4) Şimdiki vəziyyəti.**
**5) Dağıstanda türk qövmləri.**
**6) Türk hars və lisanının əhəmiyyəti.**

Dağıstan türk cümhuriyyəti deyilsə də, pək mühüm türk ünsürünə malik müsəlman bir cümhuriyyətdir. Bu cümhuriyyətdə türkcənin haiz olduğu əhəmiyyətlə türk harsının gündən-günə artan təsiri və türkcənin məmləkətdə lisani-rəsmi

68 Ayrıca rus səhnəsinə təxsis olunan ikinci “Dövlət Teatrosu” da vardır.
69 Azərbaycan teatrosuna aid təfsilat almaq istəyənlər **“Revue de Monde - Musulman”**ın 43-cü cildinə müraciət edə bilərlər.

olaraq təhəqqüq etmək üzrə bulunması Dağıstanı bir türk cümhuriyyəti kibi tələqqi etdirə bilir.

## 1) MƏSAHƏYİ-SƏTHİYYƏ VƏ NÜFUSU

Dağıstan Cümhuriyyəti şimaldan mümtaz Kalmık vilayəti ilə Terek vilayəti, qərbdən mümtaz Çeçen vilayəti ilə Gürcüstan Cümhuriyyəti; cənubdan Azərbaycan Cümhuriyyəti; şərqdən də Xəzər dənizi ilə mühatdır. Bu hüdud daxilində Dağıstan Cümhuriyyəti 46.000 verst mürəbbe miqdarında bir səthə malikdir ki, vəsət etibarı ilə Belçika (29 bin kilometrə murəbbe) ilə Felemenk (33 bin kilometrə mürəbbe) dövlətlərinə müsəvidir. Bu məsahə daxilində, başlıca olaraq, 15 müxtəlif qövm yaşamaqda və məmləkətin ümumi nüfusu 1.160.000-i bulmaqdadır ki, bundan 97.000-i şəhərlidir. Dağıstan şəhərləri Teymurxanşura, Xassayurd, Mahaçqala[70] və Dərbənddən ibarətdir. Köy əhalisi əksəriyyətlə xristiandır. Şəhərlərdəki nüfusun yüzdə onunu türklər təşkil edər. Ruslarla ukraynalılar bütün Dağıstanda 119.000 miqdarındadırlar.

## 2) İQTİSADİ VƏ İCTİMAİ XÜSUSİYYƏTİ

Dağıstan – ismindən də bəlli olduğu kibi dağlıq bir məmləkətdir. Bu məmləkət dəniz sahillərindən başlayaraq, sarp dağlar yamacında yalçın qayalar və qaranlıq dərələrlə örtülüdür. Məmləkətin etnoqrafisi, iqtisadiyyatı tamamilə bu topoqrafik vəziyyətin təhti-təsirindədir. Əski zamanlardan bəri müxtəlif qövmlərin keçid məhəllini təşkil edən bu yerlərdə, yekdigərindən yüksək dağlar və keçilməz dərələrlə ayrılan qitələrdə, kəndi

---

[70] Bu qalanın çar zamanındakı ismi "Petrovsk" idi. Bolşeviklər tərəfindən təkrar "Mahaçqala" deyə adlanmışdır.

xüsusiyyət və lisanlarını mühafizə edən qövmlər, əski millətlərin baqiyyəsini təşkil edərlər. Bunlar qəbləttarix bir dövrdə kəndilərini təqib edən cəngavər köçəbələrindən  qaçaraq dağlara iltica eləmişlərdir. Lisanlarındakı fərqi bu günə qədər mühafizə edən müxtəlif dağ qövmləri müştərək müqəddərat və müştərək həyat mücadiləsi sayəsində müştərək bir əxlaq və ruha malik olmuşlardır ki, dağlıları birləşdirən ən mühüm amil də budur.

Xəzər sahilləri ilə Sulak nəhri həvalisində vaqe ərazidən maəda Dağıstan ziraətə qeyri-müsaid bir məmləkətdir. Yerli ziraət məhsulu, Dağıstan əhalisini sənədə üç-dörd ay ancaq keçindirir. Bunun üçün də Dağıstan əksəriyyətlə heyvan bəsləməklə yaşar. Dağıstanda bəslənən heyvanın da cinsi topoqrafik vəziyyəti ilə məşrutdur. Burada bəslənən heyvan əksəriyyətlə qoyun və keçidir. Vasiteyi-nəqliyyə olmaq üzrə əksəriyyətlə eşşək qullanılır. Dağıstan əhalisindən bir qismi-mühümi də əl sənayei ilə keçinir. Ləzgi şalı namı ilə məruf bir növü yerli çuxa toxuduqları kibi, Dağıstan xalçaları də mərufdur. Əlavə olaraq kunduraçılıq, bıçaqçılıq kibi sənətlər də burada çox şayedir. **“Qubaçı”** xəncərinin növü çox məşhurdur.

Dağıstan Rusiya istilasına keçdikdən sonra bilxassə fəqrü-səfalətə düçar olmuşdur. İxtilaldan bilaistifadə şimdi Dağıstan Cümhuriyyətinə iltihaq edən Xassayurd ilə Qızlar Mahalı vaxtilə Dağıstandan ayrılmış, burasına rus kazakları yerləşdirilmişdi. Nəticədə əkməyini qazanmaq üçün sənədə 200.000-dən ziyadə dağıstanlı məmləkət xaricinə hicrət edərək, bunlardan bir qismi Bakıda petrol ocaqlarında əmələliklə çalışıyor, digər qismi də Rusiya imperatorluğunun müxtəlif səmtlərinə yayılıyordu. Dağıstanlı əmələ, quyumcu, qalayçı və kunduraçılarına Rusiya ilə Qafqasiyanın hər tərəfində şimdi də təsadüf olunur.

Dağıstan ictimai təşkilatı pədərşahi bir şəkildədir. Ailədə böyük baba, baba və ya ağabəyinin hökmü caridir. Ailə əfradı rəisin iradəsini icra ilə mükəlləfdir. Ailədə böylə olduğu kibi, qəbilə dəxi işbu əsasa müstəniddir. Rəis bütün qəbilə əfradına hakimdir. Bu hakimiyyət, adət və ənənə qüvvətilə müəyyəddir. Kəndi aralarında düşmənlik edən ailə əfradının, üçüncü bir şəxsə qarşı ailə və tayfa namusunu müdafiədə canını fəda etdiyi əksəriyyətlə vaqedir. Rəis əfradı ailəyə qarşı müamiləsində çox sərt və şədiddir. Kəndilərindən vəzifələrinin ifasını qətiyyətlə tələb edər. Bu sərt tərbiyənin təsiri ilə dağlılarda hədid bir təb və dəmir bir iradə tərbiyə olunmuşdur. Şeyx Şamilin xilafi-adət bir müsahələsindən dolayı kəndi annəsini ələnən təcziyə etdirdiyi mərufdur. Şamil dövründən sonra bu şiddəti-tab olduqca yumşalmışsa da, ailə ilə qəbilə ənənələrinin hələ Dağıstan həyatında hökmfərma olduğunu nəzərdə bulundurmalıdır. Kommunist istilasına qarşı digər məmləkətlərdən ziyadə müqavimət göstərən Dağıstan xalqının müsəlləh mücadiləsində məmləkətin bu xüsusiyyəti çox böyük rol oynamışdır.

## 3) İNQİLAB SƏNƏLƏRİNDƏ DAĞISTAN

Dağstanın Şimali Qafqasiya ilə birlikdə **Şimali Qafqasiya Cümhuriyyəti** ünvanı altında istiqlalı elan olunmuş və Dağıstan hökuməti Bakının istirdadından sonra, ibtida Türkiyə ordusunun himayəsi, sonra da Azərbaycan Cümhuriyyətinin bilxassə maddi yardımı ilə təəssüs etmişsə də, hadisat və hökumətin paydar olub, bütün məmləkət üzərində təsisi-hakimiyyət etməsinə imkan və fürsət verməmişdir. Məmafih məhəlli şərait ilə məşrut olaraq, Dağıstan əhalisi gərək bəyaz və gərək qızıl qus qüvvətlərinə qarşı epey müqavimət göstərmiş, istiqlalları uğrunda mücadələ

etmiş, "vətəndaş mücadiləsi" namını daşıyan bu müharəbələr ta son zamanlara qədər davam eləmişdir. Bütün bu mücadilələrin keçirdiyi çox mütənəvvi səfhələrini bu yapraqlarda bərtəfsil yazmaq imkanında deyiliz. Yalnız beş-altı sənəyi dolduran bu qanlı hadisələrin bəzi mühüm anlarını burada qeyd edəlim.

Dağıstan çar zamanında mümtaz bir vilayət şəklində, idarətən Mavərayi-Qafqas Visruvalığına tabe idi. 1917 ixtilalından sonra, Rusiya Məclisi-Müəssisan intixabları münasibətilə Dağıstan, Şimali Qafqasiya intixab dairəsinə ilhaq edildi. Bu surətlə Dağıstan həyati-səviyyəsi digər intixab dairəsini təşkil edən Mavərayi-Qafqas mərkəzi Tiflisdən ayrılaraq, Şimali Qafqasiya mərkəzini təşkil edən "Viladi-Qafqas"a rəbt olundu. 1917 sənəsində ilk dəfə olaraq Dağıstan da daxil olduğu halda, **Şimali Qafqasiya Müttəhid Dağlılar Komitəsi** təşəkkül eləmiş, məşhur mütənəffizlərdən **Nəcməddin əfəndi**[38] Şimali Qafqasiya və Dağıstan müftisi elan olunmuşdur. 1918-də iniqad edən ikinci konqredə Şimali Qafqasiya Cümhuriyyətinin istiqlalı elan olunmuş və bu vaqiə 11 mayıs tarixi ilə dövlətlərə təbliğ olunmuşdur.

1917 sənəsində **Nəcməddin əfəndi Rusiya İnqilab Komitəsi**nin əmri ilə təşəkkül edən vilayət şurasında iştirak eləmiş, bədəhü hökuməti-muvəqqətənin zəfini görərək, tamamilə istiqlal davasına düşmüş və Dağıstan mütənəffizlərindən **"Uzun Hacı"**ya tabe 8000 fədai "Teymurxanşura" qalasını mühasirəyə almış, **Nəcməddin molla**yı "İmam" elan eləmişlərdir. Bilaxirə **Uzun Hacı** Teymurxanşurayı tərk eləmişdir.

1918-də **Nəcməddin əfəndi** "Dağıstan Şurası"nı qovaraq "Milli Komitə" hakimiyyətini təsis eləmiş, eyni zamanda kəndisini də bütün Dağıstanın imamı elan etmişdir.

Bu sırada dəniz təriqi ilə gələrək “Şamil Qala”yı işğal edən Bakı bolşevikləri burada sovet idarəsini təsis eləmişlər və burada Teymurxanşurayı təhdidə başlamışlardır. Bu hücum üzərinə **Nəcməddin əfəndi** şəhəri tərk edərək dağlara çəkilmiş və burada düşməni izacda davam eləmişdir. Bolşeviklər bu mücadilədə **Aquşalı Əli Hacı**dan istifadə edərək onun nüfuzu hakim olan Darqin məhəllində bilxassə kəsbi-nüfuz eləmişlərsə də, 1918 sənəsində **Biçeraxov** komandasındakı bəyaz rus qüvvəti “Şamil Qala”dakı sovet hökumətini iskat eləmişdir. “Şamil Qala”nın süqutu üzərinə Teymurxanşura bolşevikləri – nə olsa da – sosialist tələqqi etdikləri **Biçeraxov**u, **Nəcməddin əfəndi**yə tərcih ilə kəndisilə anlaşmaq istəmişlərsə də **Biçeraxov, Nəcməddin əfəndi**yi tərcih etmiş və kəndisi ilə müşavirə edərək, **Tarkovski**yi Dağıstan hakimi təyin etmişdir. Bir tərəfdən **Biçeraxov,** digər tərəfdən də **Nəcməddin əfəndi**nin yardımı ilə **Tarkovski,** eylül ayında Teymurxanşurayı zəbt eləmişdir.

Bədəhü Dağıstana gələn türk ordusu **Biçeraxov**u sıxışdırıyor, şiddətli müharibədən sonra **“Şamil Qala”**yı və müharibəsiz olaraq Teymurxanşurayı işğal ediyor. Türkiyə komandanlığının müzahirəti ilə **Kabartay (Qutsev)**ın təhti-rəyasətində “Şimali Qafqas Hökuməti” Dağıstan da daxil oluyor. **Nəcməddin əfəndi** şeyxülislam sifətilə **Qutsev** hökumətinə daxil olduğu kibi, **Nuh bəy Tarkovski** də hərbiyə naziri oluyor; fəqət Mondros mütarikəsi mucibincə türk ordusu Dağıstanı, çox keçmədən təxliyə edincə, türkləri istixlaf edən ingilislərlə bərabər **Biçeraxov** da övdət ediyor. İngilis komandanlığı Bakıda olduğu kibi, bir az tərəddüddən sonra, Qutsev hökumətini tanıyor və miralay **Raulson**u nəzdinə mümənssil olaraq təyin ediyor. Bu sırada **Denikin** ordusu Şimali Qafqasiyada müvəffəq oluyor.

"Realist" ingilislər müzəffər **Denikin** ordusunun Dağıstana enməsinə mümaniət etmiyorlar.

Eyni zamanda **Denikin,** Çeçenistan üzərinə hücum ediyor. Bunun üzərinə **Qutsev** hökuməti süqut ediyor. General **Xəlilov** yeni bir hökumət təsis edərək **Denikin** ilə anlaşıyor və bu hökumətin müvəffəqiyətlə **Preobrajenski** komandasındakı bəyaz rus qüvvəti "Şamil Qala"yı işğal ediyor. Salifüzzikr **Uzun Hacı** tərəfindən "Türkiyə himayəsində Çeçenistan imarəti-şəriyəsi" təsis edilmiş bulunuyordu. Bu "imarət" bəyaz rusların hücumuna bolşevik qitəatı ilə birlikdə qarşı qoyuluyordu. Dağıstan hökuməti Çeçenistanı himayə ilə Qroznıya ordu göndərdisə də, bir tərəfdən **Preobrajenski,** digər tərəfdən də bəyaz ruslarla əlaqədar olan General **Xəlilov**un təsir və təşəbbüsləri ilə, Dağıstan hökuməti, elani-bitərəfi elan edərək, Qroznıya göndərilən qitəatı geri çağırıyor. **Uzun Hacı, Nəcməddin əfəndi**dən də yardım alamıyor. 1 həziran 1919-da denikinçilər, Çeçenistan fədailərini dağlara sıxışdıraraq Dağıstana keçiyor, General **Xəlilov**u Dağıstanın hakimi, **Nəcməddin əfəndi**yi də müfti elan ediyorlardı. Milliyyətçilər Dağıstanı tərklə Azərbaycan ilə Gürcüstana iltica ediyorlar.

Bəyaz ruslar məmləkətin sövqülceyş mühüm olan bütün nöqtələrini işğal ilə məmləkəti işğal ediyorlar. Bu hadisə **Nəcməddin əfəndi**yi xalq nəzərində düşürüyordu. Həziran sonlarında **Aquşalı Əli Hacı** təşviqi ilə Dağıstan əhalisindən bir qismi rus istilasına qarşı üsyan ediyor. Qunib qalasında 400 kazak qətl olunuyor. Digər bir qalada 160 kazakı köprü başından nəhrə atıyorlar. Qasımkənddə bir gecə əsnasında 200 rus soldatı qılıncdan keçiriliyor. Eyni şey Daşlagarla Məcalisdə də vüqu buluyor. Fəqət Denikin qüvayi-əsliyəsi qüvvətli olduğun-

dan, üsyan şiddətlə bastırılıyor. Əhali çox ağır təzminat itasına məhkum oluyor. Hər tərəfdə sükun təəssüs ediyor.

Fəqət bu sükun uzun sürmüyor. 1919 sənəsi eylülündə Dağıstan dağları təkrar üsyan bayrağını çəkiyorlar. Bəyaz rus ordusu dağlardan qovularaq, şəhərlərdə təhəssün ediyor. Bu dəfəki üsyanı həm bolşevik təşkilatı, həm də milli Azərbaycan hökuməti təqviyə ediyordu. Azərbaycan hökuməti tərəfindən Dağıstana göndərilən yardım qüvvətlərinin komandanı **Nuri Paşa** idi.

1920 sənəsinin baharında, Qızıl ordunun Şimali Qafqasiyadakı müzəffəriyyətindən sonra, Dağıstan tamamilə bolşevik əlinə keçincə, **Nuri Paşa** Dağıstanı tərk etmək məcburiyətində qalıyor. Bunu mütəaqib 11-ci bolşevik ordusu Dağıstanı kamilən təhti-işğalına alıyor.

Xilaskar deyə qarşılanan Qızıl orduya qarşı da çox keçmədən Dağıstan əhalisində müxalifət və nifrət hissi oyanmaya başlamışdır. Bundan bilaistifadə dağlara çəkilmiş bulunan **Nəcməddin əfəndi** ilə **Əlixanov** bolşeviklərə qarşı qiyam eləmişlərdir. Bu qiyamdan bəhs edən bolşevik **Samurski "Dağıstan"** nam risaləsində bolşevik idarəsinin yolsuzluqlarını etirafla diyor ki: **"Rus bolşeviklərinin Dağıstanda tətbiq etdikləri tədabir çar dövrünün əsgəri istila dövrünü andırır bir şəkildə idi".** Məşhur Dağıstan mücahidi **Şeyx Şamil**in torunu **Səid Şamil**[39] də bu üsyanda iştirak eləmişdi. Qiyamçılar Xunzaq ilə Qunibdə təhəssün edən Qızıl ordu qitəatını aylarla məhsur bulundurmuşlardır. Bu qiyamın təsviyəsi üçün doquz ay sürən bir mücadilə lazım olmuş və bu hadisə ancaq 1921 sənəsinin baharında təsviyə edilə bilmişdir.

Bundan sonra böyük üsyanlar olmamışsa da, Dağıstan daima partizanların şurada və ya burada səbəbiyyət verdikləri hadisələrə səhnə olmuşdur.

**4) ŞİMDİKİ VƏZİYYƏT**

Onsuz da fəqir ikən, keçirdiyi qanlı macəralardan sonra Dağıstan səfil bir halə gəlmişdir. Xassayurd şəhəri kamilən xarab olduğu kibi, Dərbəndin dörddə üç qismi təxrib edilmiş, "Şamil Qala" ilə Teymurxanşura dəxi epey mütəzərrir olmuşlardır. Əlavə olaraq 69 böyük qəsəbə tamamilə məhv olmuşdur. Yollar bozulmuş, köprülər yıxılmışdır.

Daxili müharəbələr nəticəsində məmləkəti aclıq istila eləmiş, daha sonra 1922-də vəbayi-bəqəri epey təxribat yapmış, 1923-də əkinləri farə bitirmiş; nəhayət, 1924-dəki müdhiş quraqlıq fəlakəti ikmal eləmişdir.

Dağıstan Cümhuriyyətində əkin ərazisinin miqdarı epey azalmışdır. 1916 sənəsində 196.000 dönüm ərazi əkilmiş ikən, 1923 sənəsində ancaq 92.000 dönüm ərazi əkilmişdir. 1915 sənəsində meyvə bağlarının sahəsi 6.000 dönüm ikən 1925-də bu miqdar 3.000 dönümdən fəzlə deyildir. 10.586 dönüm əraziyi işğal edən üzüm bağlarından 1925 sənəsində ancaq 6.837 dönüm baqi qalmışdır. 1918 sənəsində 686.163 baş qaramala malik ikən 1923-də yalnız 295.918 baş qalmışdır.

Davara gəlincə 2.924.137 rəqəmi 1.885.706-ya enmişdir. 1911 sənəsində məcmu 3.600.409 baş heyvan varkən, 1923-də ancaq 1.481.924 baş heyvan qalmışdır. Deməк ki, əkin miqdarı 60%, üzüm bağları 36%, meyvə bağları 50%, davar miqdarı 75%, qaramal isə 57% nisbətində qalmışdır.

1925 sənəsində bolşeviklər tərəfindən nəşr olunan bir istatistikə görə, 1915 sənəsində Dağıstanda 1.800.000 tənəkə şərab ixrac edilmiş ikən, 1923 sənəsində ancaq 143.000 tənəkə ixrac olunmuş, 1915-də yalnız Dərbənd həvalisindən 200.000 pud üzüm ilə 1.000.000 puddan fəzlə meyvə və yemiş çıxarılmış

ikən, 1923-də bütün Dağıstandan 22.000 pud üzüm ilə 12.000 pud meyvə və yemiş çıxarılmışdır.

Hal-hazırda da Dağıstanda 25.000-ə qərib işsiz adam vardır ki, əməyini sərf edəcək bir yer bulamıyor.

Əskidən "Şamil Qala"da Azərbaycan milyonerlərindən **Hacı Zeynalabdin əfəndi**nin təsis etdiyi bez fabrikası vardı. Bu fabrikada 1500-ə yaxın əmələ çalışdırılıyordu. Şimdiki halda bu fabrikada 700-ə qərib əmələ çalışmaqdadır. Saydi-mahi müəssisələri də yoluna qoyulmuş, əskidən mövcud müəssisələr ehya olunmuş, balıq konservə fabrikaları təsis edilmişdir.

Dağıstanın şimdiki siyasi vəziyyəti təşrini-sani 1920 sənəsində mərkəzi sovet hökuməti tərəfindən elan olunan muxtariyyətlə təsbit olunuyor. Bu vəsiqəyə görə **Muxtar Dağıstan Sosialist Sovet Cümhuriyyəti** təşəkkül eləmişdir. Bu "cümhuriyyət" Rusiya Sosialist Sovet Federativ Cümhuriyyətinə daxildir. Komissarlar Heyəti və Sovetlər Konqresi tərəfindən idarə olunuyor.

### 5) DAĞISTANDA TÜRK QÖVMLƏRİ

On beşə baliğ Dağıstan qövmləri arasında sayca birinci mövqeyi **avarlar** ki şivə etibarilə bir çox şöbəyə bölünürlər, ikinci mövqeyi **qazıqumuqlar,** üçüncü mövqeyi də **qumuqlar** tutuyorlar. **Qumuq** Dağıstandakı türk qövmlərinin ən mühümüdür. Qumuqların nüfusu 163.000-i bulur. Bunlar Dağıstana 12-ci əsri-miladidə gəlmişlərdir və qazıqumuqları dağlara sıxışdıraraq münbit sahillərə yiyələnmişlərdir. Dağıstanın digər iki türk qövmini təşkil edən **noqaylarla türkmənlər** kibi, qumuqlar da əksəriyyətlə Sulak nəhrindən Gürgən çayına qədər Dağıstan ovasına yayılmışlardır. Qumuqlardan sonra türk qövmi olaraq noqaylar gəlir ki, Sulak nəhrinin iki tərəfində, Qara noqay stepində və Hacı Qulaqda yaşarlar. Ədədləri 56.000-

i bulur. Bunlardan sonra, əksəriyyətlə şəhərlərdə və Dərbənd həvalisində yaşayan türklər gəlir ki, bunlar Azərbaycandan, bilxassə Şamaxı ilə Qubadan vaxtilə hicrət edən türklərdir. 35.000-i bulur. Bu ədədlərə 3.000 nüfusu həvi türkmən qəbilələri ilə şəhər əhalisinin 10%-ni təşkil edən 10 və ya 12 bin miqdarını bulan türkləri də əlavə edərsək, məcmuu 270.000-ə qərib olur ki, bu, bütün nüfusun 27%-i və müsəlman əhalinin həmən-həmən üçdə biri deməkdir.

## 6) TÜRK HARS VƏ LİSANININ ƏHƏMİYYƏTİ

Türk qövmlərinin Dağıstandakı əhəmiyyəti yalnız ədədlərindəki nisbi əksəriyyətlə tamam olmuyor. Türklər qismən şəhərlərdə, qismən də dəniz qıyısı ilə nəhr sahillərində vaqe münbit ərazidə yaşadıqlarından, səviyyə və mədəniyyət etibarı ilə əhalinin nisbətən mütərəqqi qismini təşkil edərlər. Əlavə olaraq, türkcə, bilxassə qumuqcanın Dağıstanda şümullu bir rolu vardır. Qumuqca digər Dağıstan türkcələrinə və Şimali Qafqasiyada mövcud Qaraçay türkcəsi ilə Bulqar türkcəsinə nisbətlə yazılı ədəbiyyat nöqteyi-nəzərindən faiqdir. Əlavə olaraq, Qumuqca bütün Dağıstanda beynəlmiləl bir lisan mahiyyətinə haizdir. Yekdigərinin lisanından anlamayan Dağıstan qövmləri kəndi aralarında ya qumuqca və yaxud Azərbaycanca anlaşır. Təxrir lisanı üləma arasında ərəbcə, son zamanlardan bəri qismən də türkcədir. Dağıstan üləmasından **Əlqədərli Həsən əfəndi "Asari-Dağıstan"** nam tarixini Azərbaycan türkcəsi ilə yazmışdır. Qumuqca, Azərbaycan türkcəsinin şiddətli təsiri altındadır. Dağıstanın ümumən və qumuqcanın xüsusən şiddətli cənub təsiri altında olduğunun hər türlü şübhədən varəstə olduğunu Azərbaycan Darülfünunu professorlarından **Krımlı Çobanzadə** təyid edər.

Hal-hazırda Dağıstan Cümhuriyyəti pək mühüm bir məsələyi həll etməklə məşğuldur. Dağıstan Cümhuriyyəti rəsmi lisan olaraq, hanki lisanı qəbul etməlidir? Bu xüsusda bir tərəfdən ərəbcəyi müdafiə edən mollalar və şeyxlər, digər tərəfdən də ruscayı iltizam edən bəzi münəvvərlər və Moskvada təhsil edən tələbələr müqabil yerli qövmiyyətçilərlə türkçülər kəndi nöqteyi-nəzərlərini müdafiə ediyorlar. Qövmiyyətçilər lisani-rəsmi olaraq ərəbcə, rusca kibi türkcəyi də rədd edərək, şivələrdən beş mühümini tərvic ediyorlar. Bütün bu cərəyanlar arasında türkcəyi iltizam edənlər bilxassə qüvvətlidirlər. Bunlar ruscayı iltizam edənlər kibi, ərəbcənin qeyri-həyati, yerli lisanların da pək məhdud və istiqbalsız olduğunu qəbul etməklə bərabər, ruscanın əleyhindədirlər. Çünki rusca vaxtiylə istila və istibdadı təmsil edən bir alət olmuş, çarizm onu xalq nəzərində düşürmüşdür. Rusca vasitəsilə üləmanın ərəbcəsi qarşısına çıxılamaz; bu bir kültür əsəri tələqqi edilə bilir. Halbuki türkcəyə qarşı bu dava iləri sürüləməz. Ərəbcə ilə qaim olan əski zehniyyətə qarşı xalqın dini hissiyyatını rəncidə etmədən – binaəniləyh fəzlə müşkilata uğramadan – yalnız türkcənin lisani-rəsmi olaraq tətbiqi ilə mücadilə qabil ola  biləcəyini isbat ediyorlar.

Bakıda intişar edən qəzetələrin təsiri, Bakı mədənlərinə çalışmaq üçün gələn dağıstanlı əmələnin burada türkcə öyrənməsi və ələlümum Dağıstan ilə Azərbaycan arasında gündən-günə artan iqtisadi və mədəni irtibatın sövqü ilə Hərbi-Ümumidən əvvəl türkcə təbii bir surətdə Dağıstana nüfuz ediyor və xalq tərəfindən açılan yeni üsul məktəblərdə türkcə oxutduruluyor; Bakıdan Dağıstan köylərinə türk müəllimlər cəlb olunuyordu.

Hal-hazırda Teymurxanşurada **“Dağıstan firqəsi”** namına türkcə bir qəzetə nəşr olunuyor ki, bu qəzetə türkcənin Dağıs-

tanda surəti-qətiyyədə rəsmi bir lisan olaraq tətbiqi fikrini tərvic ediyor. Mövcud məlumata görə hər nə qədər qumuqcanın rusca ilə bərabər rəsmi lisan olaraq qəbulu, nəzəri olaraq, təkərrür etmişsə də, mövzui-bəhs propaqanda ümumi ədəbi türkcə **"Azərbaycanda işlənən türkcə"**nin rəsmiliyi lehində icra olunmaqdadır. Bu nöqteyi-nəzəri müdafiə edənlər ruscayı yalnız ikinci dərəcəli məktəblərdə bir dərs olaraq oxutmaq tərəfdarıdırlar. İlk məktəblərdə tədrisat ümumiyyətlə türkcə olub, idarələr dəxi tədricən türkləşdirilməlidir.

* * *

Bu iki cümhuriyyətdən maəda, gərək Şimali Qafqasiya və gərək Cənubi Qafqasiya cümhuriyyət və muxtariyyətlərində dəxi türklər yaşamaqdadırlar. Qafqasiya türklüyü haqqındakı bu sətirləri işbu türklərə aid yazacağımız bir kaç sətirlə təkmil edəlim.

Bunlardan bir qismini Gürcüstan türkləri təşkil ediyorlar. Bunlardan bir qismi sabiq **Axalsix Paşalığı**nı təşkil edən **"Axalsix"** qəzası ilə **Axalkələk**də, digər qismi də Tiflisin yaxınlığında **Qarayazı Stepi** ilə **"Borçalı"** qəzasında yaşarlar. Nəfsi Tiflisdə dəxi **"Müsəlman məhəlləsi"** azərbaycanlı türklərdən ibarətdir. Gürcüstan türklərinin məcmuu 200.000-ə qəribdir. Bundan maəda Gürcüstanda **acarlı müsəlman gürcülər** var ki, türk kültürünün şiddətlə təsiri altındadırlar. Bunlardan qismi-mühümi gürcücə ilə bərabər türkcə də qonuşurlar. **Axalsix türkləri**nin müasir Azərbaycan mətbuatında, ədəbiyyatında, maarifində və siyasi həyatında rol oynamış adamları çıxdığı kibi, ixtilal və inqilab sənələrində acar müsəlmanlarının nüməssilləri dəxi Bakı və Gəncə konqrelərində iştirak eləmiş, hətta Rusiya Məclisi-Müəssisan intixablarında acarlılar səslərini (oylarını) Azərbaycan firqələrinə vermişlərdir. Batum vilayətini təşkil edən Acarıstan, Moskva və Qars müahidələri

mucibincə, Gürcüstanın himayəsi altında muxtar bir cümhuriyyət təşkil eləmişdir.

Sabiq Rəvan vilayətinin bir qismi ilə Gümrü qəzasından təşəkkül edən Ermənistan Cümhuriyyəti daxilində epey türklər qalmışdır. İxtilal sənələrində erməni politikaçılarının tətbiq etdikləri imha siyasətinə qarşı milli mövcudiyətlərini əldə silah olaraq müdafiə edən türklər Naxçıvan qəzasının Ermənistana ilhaqını mən edə bildikləri kibi, Ermənistanın əlində qalan ərazidə də türk mövcudu qalmışdır. Bunların miqdarı 450.000-i bulmaqdadır ki, Ermənistan Cümhuriyyətinin 39%-ni təşkil edərlər.

Dağıstan hüdudunun şimalında vaqe Şimali Qafqasiyaya gəldikdə Kuma nəhri ilə Terek nəhri arasında və Sulak nəhrinin mənsəblərində köçəbəliklə yaşayan Noqay, Stavropol vilayətində Kalaus və Kama nəhrləri qıyılarında köçəbəlik edən türkmənlər, Kuban nəhrinin yuxarılarında və bu nəhrin qollarını təşkil edən ufaq nəhrlərin hövzəsində yaşayan Qaraçay, Qabartay türkcəsi deyə məruf olan şivə üzərinə qonuşan və "Çirek" nəhrinin yuxarılarında yaşayan Balkar, Bıznıq və Hulam; "Çekem" keçidində yaşayan Çekem və Baksan nəhri dərəsində yaşayan Ursulu türklərini qeyd edə biliriz. Bu Türklərin nüfusu heyəti-ümumiyyəsi ilə təqribən 350 bindir.

Qumuqlardan sonra Şimali Qafqasiyanın ən mühüm türk qövmlərini **noqaylarla qaraçaylılar** təşkil edərlər. Bu iki türk elində pək zəngin xalq ədəbiyyatı vardır.

Gürcüstan, Ermənistan türkləri milli hars məsələlərində Azərbaycanın təhti-təsirində olduqları kibi, Dağıstan bəhsində gördüyümüz kibi, Şimali Qafqasiyada türk harsının pək mühüm bir rol oynadığını təsbit edə biliriz.

**Sabiq Azərbaycan Şurayi-Millisi rəisi**
**Rəsulzadə Məhəmməd Əmin**

## İZAHLAR:

## "AZƏRBAYCAN CÜMHURİYYƏTİ KEYFİYYƏTİ - TƏŞƏKKÜLÜ VƏ ŞİMDİKİ VƏZİYYƏTİ"

**(*YARANMASI VƏ İNDİKİ VƏZİYYƏTİ*)**

***Bu əsər ilk dəfə Milli Azərbaycan nəşriyyatı seriyasından birinci kitab olaraq 1923-cü ildə İstanbulda "Ovqafi - İslamiyyə" mətbəəsində (hicri tarixlə 1339 - 1341-də) çap edilib. Elə həmin il İzmirdə keçirilən İqtisad Konfransında Atatürk Mükafatına layiq görülüb.***

**1.Hicaz -** Səudiyyə Ərəbistanında əyalət. İnzibati və iqtisadi mərkəzi Ciddə şəhəridir.

**2.Çingiz xan (1162-1227) -** Görkəmli Monqol hökmdarı və sərkərdəsi. Monqol qəbilələrini bir bayraq altında birləşdirərək insanlıq tarixində ən böyük dövlət olmuş Böyük Monqol imperiyasını (1206-1368) qurub.

**3.Əmir Teymur (1336-1405) -** Görkəmli sərkərdə. Mərkəzi, Qərbi və Şərqi Asiyanın, habelə Qafqazın, Rusun və Volqaətrafı bölgələrin tarixində böyük rol oynamış şəxsiyyət, Teymurilər dövlətinin banisi.

**4.Böyük Səlcuq imperiyası (1038 – 1157; 1194) –** Oğuz türklərinin Qınıq boyundan olan tayfaların XI əsrdə yaratdığı Orta Asiya, İran, Yaxın Şərq,Qafqaz və Anadolu ərazilərini əhatə edən nəhəng Türk dövləti.

**5.Şəmsəddin Eldəgiz (Eldəniz) (1136-1175) –** mənşəcə qıpçaqlardan olan hökmdar.Azərbaycan atabəylər

dövlətinin yaradıcısı,siyasi xadim, və sərkərdə.Övladları:Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan.Həyat yoldaşı: Mömünə Xatun.

**6.Qaraqoyunlular dövləti (1375-1469) -** Şirvan istisna olmaqla bütün Azərbaycan, indiki Ermənistan ərazisi, Gürcüstanın bir hissəsiQərbi İran və İraqı əhatə edən dövlət.

**7. Ağqoyunlular dövləti (1468-1503(1508) -** Azərbaycan, Şərqi Anadolu, Gürcüstan, Ərəb İraqı, Mazandaran və Xorasanın bəzi əraziləri daxil olmaqla İranın bütün qalan vilayətlərini əhatə edən orta əsr dövləti.

**8.Cavad xan Ziyad oğlu Qacar (Gəncəli Cavad xan) (1748-1804) -** Qacarlar nəslindən olan böyük Azərbaycan sərkərdəsi, dövlət xadimi, Gəncə xanlığının sonuncu hökmdarı. 1786-cı ildən Gəncəni idarə edən Cavad xan 1804-cü ilin yanvar ayının 3-dən 4-nə keçən gecə general Pavel Sisianovun başçılığı ilə uzun müddət şəhəri mühasirədə saxlayan rus işğalçı qüvvələri ilə qeyri - bərabər döyüşdə oğulları ilə birlikdə qəhrəmancasına həlak olub.

**9.Nizami Gəncəvi (1141 - 1209)** - Tanınmış Azərbaycan şairidir. "Xəmsə"nin müəllifidir. Fars dilində yazıb. Azərbaycanın Gəncə şəhərində yaşayıb, əsərlərini də orada yazıb.

**10.Xaqani Şirvani (1126 - 1189)** - Məşhur Azərbaycan şairi. Lirik əsərlərin, "Mədain xərabələri" poemasının müəllifidir.

**11.Məhsəti Gəncəvi(1089 - ?)** – XII əsrdə Gəncədə yaşamış Azərbaycan türklərindən olan şairə.Azərbaycan və müsəlman intibahının parlaq nümayəndəsi.

**12. Qanuni Sultan Süleyman (1494-1566)** - Osmanlı İmperatorluğunun onuncu padşahı. Qərbdə Möhtəşəm Süleyman, Şərqdə isə Qanuni Sultan Süleyman olaraq qəbul edilib.

**13. Sədi Şirazi (1184-1282) -** Şərq ədəbiyyatının ən görkəmli şairlərindən biri. İranın qədim mədəniyyət mərkəzlərindən biri olan Şirazda anadan olub. "Gülüstan" və "Bustan" adlı məşhur əsərlərin müəllifidir.

**14.Əbülqasım Firdovsi (935 – 1020, yaxud 1026) -** İran şairi. "Şahnamə" poemasının müəllifi. Eyni zamanda İranın, Tacikistan və Əfqanıstanın milli şairi sayılır.

**15. Hafiz Şirazi (1326-1390) -** On dördüncü yüzildə yaşamış İranlı şair. Şirazda doğulub.

**16.Məhəmməd Füzuli (1496 - 1556**) - Məşhur Azərbaycan şairi. "Leyli və Məcnun" poemasının müəllifi. Azərbaycan, fars və ərəb dillərində yazırdı, qəzəl ustadı kimi də tanınmışdır.

**17.Şah İsmayıl Xətai (1467-1524) -** Səfəvilər dövlətinin banisi və ilk şahı. Klassik Azərbaycan şairi. Bədii əsərlərini "Xətai" təxəllüsü ilə yazıb. Azərbaycan türkcəsi tarixdə ilk dəfə dövlət dili kimi Şah İsmayıl zamanında istifadə olunub. Hakimiyyəti dönəmində Azərbaycan, İran, Şərqi Anadolu, İraqi - Əcəmi vahid dövlətdə birləşdirib.

**18.Qövsi Təbrizi (1568 - 1640) -** Azərbaycan şairi, lirik əsərlər müəllifi.

**19.Seyid Əbülqasim Nəbati (1812 - 1874)** - Həm klassik üslubda, həm də aşıq şeiri üslubunda şeirlər yazıb.

**20.Molla Pənah Vaqif (1717 - 1797) -** Azərbaycan şairi. Qarabağ xanı İbrahim xanın vəziri olub. Milli ədəbiyyatın forma yeniliyində və dilinin inkişafında rolu olub.

**21.Seyid Əzim Şirvani (1835 - 1888)** - Klassik Azərbaycan şeirinin ən böyük təmsilçilərindəndir. Azərbaycan və fars dillərində şeirlər, uşaqlar üçün mənzumələr yazmışdır.

**22.Mirzə Əli Xan Ləli (1835 - 1907) - T**ürkcə və farsca şeirləri ilə tanınmışdır. İstanbulda Tibb fakultəsini bitirib, Təbrizdə İran şahzadəsinin sarayında çalışıb.

**23. Əbülhəsən Raci (1835 - 1875) -** Klassik təhsil görüb, Türkcə və farsca şeirlər yazıb. Dini şeirləri xalq arasında rəğbət qazanıb.

**24.Məhəmməd Hadi (1879 - 1920) -** Azərbaycan şairi, jurnalist və ictimai xadim.

**25.Mirzə Ələkbər Sabir (1862 - 1911) -** Azərbaycan şeirinin ən böyük təmsilçilərindəndir. "Hophopnamə" adı ilə toplanan şeirləri böyük maraq doğurub. Realizm, azadlıq və demokratiya onun şeirlərinin təməl daşıdır.

**26.Hüseyn Cavid (1882-1941)** – Azərbaycanın tanınmış şair və dramaturqu. "İblis", "Şeyx Sənan" kimi məşhur əsərlərin müəllifidir.Böyük şair M.Ə.Rəsulzadənin Baş redaktoru olduğu "Açıq söz" qəzeti ilə əlaqə saxlayır və yazılarını çap etdirib.

**27.Əhməd Cavad (1893-1937) –** Azərbaycanın tanınmış istiqlal şairi, Azərbaycanın Dövlət Himninin müəllifi. M.Ə.Rəsulzadənin onunla yaxından tanışlığı olub, bir sıra xeyriyyə cəmiyyətlərində çalışıblar. .

**28. Abbas Səhhət (1874 - 1918) -** Romantik şairlərdəndir. Tehranda tibb təhsili alıb. 1905-ci ildən sonra müəllimlik etmiş, dərs kitabları hazırlamış, uşaqlar üçün tərcümələr etmişdir. Müxtəlif mövzularda şeirlərin müəllifidir.

**29.Əliabbas Müznib (1883 - 1938) -** Şair, yazıçı və jurnalistdir. Azərbaycan ədəbiyyatında cəhalətə və təəssübə qarşı sərt tənqidi yazıları ilə seçilib.

**30. Mixail Yuryeviç Lermontov (1814-1841) -** Rus şair və yazıçısıdır. "Hacı Əbrək", "Borodino", "Zəmanəmizin qəhrəmanı", "Şeytan", "Ölüm mələyi" kimi şeir və əsərlərin müəllifidir.

**31. Aleksandr Sergeyeviç Puşkin (1799-1837) -** Görkəmli Rus şairi və yazarıdır. 1837-ci ildə dueldə Dantes tərəfindən öldürülüb. "Ruslan və Lyudmila", "Qafqaz əsiri", "Boris Qodunov", "Dubrovski", "Kapitan qızı", "Yevgeni Onegin", "Belkinin hekayələri" kimi məşhur əsərlərin müəllifidir.

**32.Lev Nikolayeviç Tolstoy (1828-1910) -** Böyük rus yazıçısı, dünya ədəbiyyatının görkəmli nümayəndəsi. Yazdığı "Hərb və sülh", "Anna Karenina" əsərləri ilə dünya ədəbiyyatında roman janrının yüksək zirvəsində durur.

**33.Mirzə Fətəli Axundov (1812 - 1878) -** Azərbaycan dramaturgiyasının banisi, şair, yazıçı, tənqidçi və filosof.

**34.Nəcəf bəy Vəzirov (1854 -1926)** – yazıçı və dramaturq. Azərbaycanda maarifçilik hərəkatının genişlənməsində yaxından iştirak edib."Müsibəti-Fəxrəddin","pəhləvani-zəmanə" kimi klassik əsərlərin müəllifi.

**35.Əbdürrəhim bəy Haqverdiyev (1870 - 1933) -** Azərbaycanın tanınmış yazıçı və dramaturqu. "Dağılan Tifaq", "Ağa Məhəmməd Şah Qacar", "Marallarım" və s. məşhur əsərlərin müəllifi.

**36. Sultan Məcid Qənizadə (1866-1937) –** Azərbaycan yazıçısı, pedaqoq, tərcüməçi, 1918-1920-ci illərdə Azərbaycan Parlamentinin üzvü. Bakıda ilk "Müsəlman - Texniki" məktəbin yaradıcılarından biri.

**37.Nəriman Nərimanov (1870-1925)** – tanınmış ictimai-siyasi xadim, yazıçı-dramaturq."Nadir şah" və digər əsərlərin müəllifi. RSDFP-nin (Rusiya Sosial-Demokrat Fəhlə Partiyası) Bakı Komitəsinin nəzdində yaradılan "Hümmət" təşkilatının (bu təşkilatın yaradıcılarından biri də M.Ə.Rəsulzadə idi) fəallarından olub. M.Ə. Rəsulzadənin redaktorluğu ilə

çıxan "Hümmət" qəzeti nəşrini dayandırdıqdan sonra 1917-ci ildə iyulun 3-də Bakıda N. Nərimanov tərəfindən yenidən çap edilib. Azərbaycan SSR Xalq Komissarları Sovetinin ilk sədri olub (1920 - 1922).

**38.Cəlil Məmmədquluzadə (1866 - 1932) -** Böyük yazıçı və jurnalist. "Molla Nəsrəddin" jurnalının yaradıcısı və Baş redaktoru. "Ölülər", "Dəli yığıncağı" və s. məşhur əsərlərin müəllifi.

**39.Üzeyir Hacıbəyli (1885-1948) –** Azərbaycanın tanınmış musiqi xadimi və jurnalisti, görkəmli ziyalısı. Bütün Müsəlma Şərqində ilk opera olan "Leyli və Məcnun"un (1908-ci il 12 yanvar) müəllifi. M.Ə.Rəsulzadə onunla "İrşad" qəzetində əməkdaşlıq edib. Ü. Hacıbəylinin nəşrə hazırladığı "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti" kitabının (1907-ci ildə) redaktoru M.Ə.Rəsulzadə olub.

**40.Həsən bəy Zərdabi (1837 - 1907) -** Milli Azərbaycan mətbuatının banisi, "Əkinçi" qəzetinin yaradıcısı, ilk xeyriyyə təşkilatının əsasını qoyan görkəmli şəxsiyyət.

**41."Əkinçi" qəzet i-** Azərbaycan milli mətbuatının ilk nümunəsi.1875-ci ilin 22 iyulunda ilk sayı nəşr edilib.Əsası həsən bəy Zərdabi tərəfindən qoyulub.Azərbaycan dilində nəşr edilən bu qəzetin son sayı 1877-ci iln 29 sentyabrında nəşr olunub.

**42. Ünsizadə qardaşları –** 1)Səid Əbdürrəhman oğlu Ünsizadə(Hami) - 1845 ci ildə Şamaxıda doğulub.1890-cı ildə Türkiyəyə köçüb."Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetlərinin naşiri və redaktoru olub.2)Cəlaləddin Ünsizadə - 1854 cü ildə Şamaxıda doğulub."Kəşkül" jurnal və qəzetinin redaktoru olub.1892-ci

ildə Türkiyəyə gedib.3) Kamal Ünsizadə- 1857-ci ildə Şamaxıda doğulub.”Məzhər” qəzetinin naşiri və redaktoru olub.

**43.“Ziyayi - Qafqasiya” (1880 – 1884**) - Hacı Səid Ünsizadə və Cəlal Ünsizadə qardaşları tərəfindən Tiflisdə yayınlanan qəzet.

**44. “Kəşkül” (1883 - 1891)** - Cəlal Ünsizadə tərəfindən Tiflisdə yayınlanıb.11sayı jurnal olaraq çap edildikdən sonra qalan sayları qəzet olaraq nəşr olunub.Qəzetdə fars və rus dilində də məqalələr çap olunurdu.

**45.“Şərqi - Rus” qəzeti -** 1903-cü ilin martın 30-da Tiflisdə nəşr edilməyə başlayıb. Baş redaktoru Məhəmməd Ağa Şahtaxtinski olub. Qəzet fəaliyyətini 1905-ci ilin 15 yanvarına qədər davam etdirib.

**46.Məhəmməd ağa Şahtaxtinski(1846 -1931)** – publicist, professor.Rusiya II Dövlət Dumasının deputatı.”Şərqi-Rus” qəzetinin redaktoru.Almaniyada Leypsiqdə, Fransada Sorbon Universitetinin Ali Təcrübəli Təhsil məktəbində oxuyub.

**47.“İqbal”** – 1912-1915-ci illərdə Bakıda S. Eynullayev, C.İbrahimov, 1913-1914-cü illərdə isə Seyid Hüseyn Sadiq tərəfindən yayımlanıb. 1914-cü ildə 760-cı sayından 1915-ci ilə qədər M.Ə. Rəsulzadənin baş redaktorluğu ilə çıxıb. Ümumilikdə 923 sayı nəşr edilib.

**48.“Sədayi-Həqq”** qəzeti – 1912-1915-ci illərdə S.Tahirov tərəfindən nəşr edilib, Başyazarı N.Vəzirov olub.

**49.“Kaspi”qəzeti( 1881-1919)** – Bakıda rus dilində çap edilib.1897-ci ildə H.Z.Tağıyev qəzeti alıb və Əli Mərdan bəy Topçubaşov da həmin ildən Baş redaktor olaraq fəaliyyət göstərib.

**50.Əhməd bəy Ağaoğlu (1869-1939)** – Azərbaycanın görkəmli ziyalısı. “Difai” təşkilatının yaradıcısı.Peterburq və

Sarbonna Universitetlərində təhsil alıb.M.Ə.Rəsulzadə onun 1905-ci ilin dekabrından nəşr etdiyi "İrşad" qəzetində çoxlu sayda məqalələr çap etdirib. Sonradan nəşr edilən "Tərəqqi" qəzetində də onların birgə əməkdaşlqları olub. 1918-ci ildə Nuru Paşanın müşaviri kimi Azərbaycana gəlib.Türkiyədə yaşayıb və yüksək vəzifələrdə çalışıb.

**51.Əli bəy Hüseynzadə (1864-1941)** - Türk dünyasının böyük mütəfəkkiri.Peterburq və İstambul universitetlərində təhsil alıb."Həyat"qəzetinin və "Fyuzat" jurnalının redaktoru. Turançılıq məfkurəsinin yaradıcısı."İttihad və Tərəqqi" təşkilatının fəallarından biri.

**52. "Həyat" qəzeti** – 1905-ci ilin iyun ayının 7-də Bakıda Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağayevin(Ağaoğlunun) redaktorluğu ilə nəşr edilib.1905- ci ilin dekabrından isə Ə.Hüseynzadənin redaktorluğu ilə çıxıb.

**53."İrşad" qəzet** – 1905 ci ilin dekabrın 17-dən Əhməd bəy Ağayevin(ağaoğlunun0 redaktorluğu ilə nəşr edilib."İrşad" sözünün mənasə işıqlı yol göstərən deməkdir.M.Ə.Rəsulzadə,Ü.Hacıbəyli kimi şəxslər qəzetlə əməkdaşlıq etmişlər.

**54."Açıq söz"** qəzeti - İctimai-siyasi, ədəbi, gündəlik nəşr olaraq çap edilib. 1915-ci ilin oktyabrın 2-dən 1918-ci ilin sentyabrınadək çap edilib. Qəzetin redaktoru M.Ə.Rəsulzadə olub. Qəzet ilk dəfə olaraq türk ədəbi ləhcəsi ilə nəşr edilib. "Açıq söz" qəzetinin bütövlükdə 724 sayı buraxılıb. 1918-ci ilin mart hadisələrindən sonra qəzetin nəşri dayandı. Yalnız həmin ilin ortalarından Abdulla Şaiqin redaktorluğu ilə (M.Ə.Rəsulzadə o zaman Bakıda deyildi) yenidən nəşrini davam etdirdi. 1918-ci ilin sentyabrında (Bakının azad edilməsi dövründə) qəzetin 24 sayı çıxdı. "Açıq söz" qəzetində M.Ə.Rəsulzadənin

imzalı məqalələrinin sayı 259-dan çoxdur. 200-ə qədər də imzasız məqaləsinin olduğu bildirilir.

**55.“Molla Nəsrəddin” -** 1906-cı ilin aprelin 7-də Cəlil Məmmədquluzadənin Baş redaktorluğu ilə Tiflisdə nəşr edilib. Fəaliyyəti üç dövrə bölünür: Tiflis, Təbriz, Bakı. 1922-ci ildən Bakıda nəşrini davam etdirib.

**56.“Füyuzat” jurnalı -** 1906-cı ilin sentyabrından 1907-ci ilə qədər nəşr edilib. Baş redaktoru Əli bəy Hüseynzadə olub. Ümumilikdə jurnalın 38 sayı çap edilib.

**57.“Bakı Müsəlman Cəmiyyəti - Xeyriyyəsi” -** 1905-ci ildə dövlət qeydiyyatına alınıb. Əsasən Bakı varlılarının və ziyalılarının cəmiyyəti idi. Burada H. Z. Tağıyev, H. Zərdabi, Ə. Hüseynzadə, Ə. M. Topçubaşov, İ. Hacınski, Ş. Əsədullayev, A. Quliyev və digərləri fəaliyyət göstərirdi.Cəmiyyətin fəaliyyətinə xeyriyyə ilə yanaşı, mədəni və təhsil müəssisələri də daxil idi. Cəmiyyət tərəfindən Birinci Dünya müharibəsi (1914-1918) illərində qaçqın və yoxsullara, eləcə də Nargin adasında saxlanılan əsir türk əsgərlərinə də köməklik göstərmişdi.

**58. Musa Nağıyev (1842-1919) -** Bakı Quberniyasının Biləcəri kəndində anadan olub. Məşhur milyonçu kimi tanınıb. İndiki “İstiqlaliyyət” küçəsində tikdirdiyi binanı da İsveçrədə vəfat edən oğlu İsmayılın şərəfinə “İsmailiyyə” adlandırılıb. Bundan əlavə 1913-cü ildə xəstəxana (indi də qalır), “Qış klubu” (indiki “Zabitlər evi”), “Astoriya” və “Yeni Avropa” mehmanxanalarını da inşa etdirib.

**59.Hacı Zeynalabdin Tağıyev (1838-1924) –** tanınmış Azərbaycan milyonçusu və xeyriyyəçisi, ictimai xadim, maarif və mədəniyyət himayəçisi.. 1915-ci ilin dekabrında M.Ə.Rəsulzadənin redaktoru olduğu “Açıq söz” qəzetində H.Tağıye-

vin səxavətindən, xeyirxahlığından bəhs edən "Hacının Hədiyyəsi" məqaləsi də çap olunub.

**60."Səadət" cəmiyyəti -** 1907-ci ildə yaradılmış cəmiyyətdir. Məktəblərin açılmasına, milli fikirlərin inkişafına yardım etmişdir.

**61."Nicat" cəmiyyəti-** Mədəni – maarif cəmiyyəti olaraq 1906-cı ilin mart ayının 8-də təşkil edilib.Nizamnamə əsasında avqustun 22-də fəaliyyətə başlayıb.Cəmiyyətin əsas məqsədi müsəlman əhali arasında maarifçilik işinin yayılmasıana dili və ədəbiyyatın inkişafı idi. Sədri:Məmmədəli bəy səlimbəyov(1906-1907), Həsən bəy Ağayev(9 mart -12 noyabr 1907), Məhəmməd Əmin rəsulzadə(12 noyabr 1907, 17 dekabr 1913).

**62. "Nəşri - Maarif" cəmiyyəti -** Məktəbin, təhsilin inkişafında, teatr tamaşalarının oynanılmasında ciddi rol oynayıb. Fəaliyyət göstərdiyi 1906 - 1917-ci illərdə Bakıda çoxlu sayda məktəblər açıb.

**63. "Səfa" cəmiyyəti -** 1910 - 1911-ci illərdə Bakıda fəaliyyət göstərib. Məktəbin, təhsilin, teatrın inkişafında mühüm rol oynayıb.

**64."Mədrəseyi- ruhaniyyə"-** 1881-ci ildə Gəncədə açılıb.Müdiri Axund Hüseyn Pişnamazzadə olub. Burada Abdulla Sur,İdris Axundzadə,Hüseyn Cavid və 1909 cu ildə Türkiyədən qayıdan Nəsib bəy Yusifbəyli də dərs deyib.Bura milliyyətpərvərlik ideyalarını yayan bir məktəb olub.

**65."Səadət" məktəbi -** 1907-ci ildə "Səadət" Cəmiyyətinin Bakıda açıdığı eyni adlı məktəb. Lalayevin ikimətəbəli kiçik bir binasında yerləşirdi. 14 otağı vardı. Əli bəy Hüseynzadə məktəbin direktoru olmuşdu. "Səadət" Cəmiyyəti Bakı tacirləri və ruhanilərinin cəmiyyəti idi. 1907-ci ildə təşkil olunmuşdu.

**66.Duma -** Rusiya Dövlət Duması olaraq 1906 - 1917-ci illərdə fəaliyyət göstərib. I Dumada 448 nəfərin sırasında aşağıdakı azərbaycanlılar vardı: Əli Mərdan bəy Topçubaşov, M. Əliyev, E. Muradxanova, İ. Ziyadxanov, Ə. Haqverdiyev. **I Duma** 1906-cı ilin 9 iyununda çar tərəfindən dağıdıldı. **II Duma** 1907-ci ilin 20 fevralında toplandı. Dumada təmsil edilən azərbaycanlılar: İ. Tağıyev, Z. Zeynalov, M. Mahmudov, X. Xasməmmədov, F. Xoyski. **III Duma** 1907-ci ilin 01 noyabrından 1912-ci ilin 9 iyununa qədər fəaliyyət göstərib. Azərbaycandan X. Xasməmmədov təmsil edilirdi. **IV Duma**da isə azərbaycanlı M. Y. Cəfərov fəaliyyət göstərirdi.

**67. Hilali-əhmər –** Qırmızı Xaç Cəmiyyəti.

**68.Müsavat Partiyası(ilk adı -"Müsəlman Demokratik Partiyası – Müsavat") -** Azərbaycanın 1911 - 1920-ci illərdə aparıcı siyasi partiyası. Əsası 1911-ci ildə M. Ə. Rəsulzadə və onun yaxın dostları olan Abbasqulu Kazımzadə, Tağı Nağıoğlu və Məhəmməd Əli Rəsulzadə tərəfindən qoyulub.1917-ci ildə Nəsib bəy Yusifbəylinin Gəncədə yaratdığı "Türk Ədəmi Mərkəziyyət Partiyası" ilə birləşib.1918-ci ilin 28 Mayında Azərbaycan istiqlalının qazanılmasında və ilk demokratik dövlət quruculuğu prosesində Müsavatın böyük rolu olub.

**69."Səbilürrəşad" dərgisi -** 1912-ci ildən İstanbulda yayınlanıb. "Doğru yol" mənasını verən bu dərgidə M. Ə. Rəsulazdənin də yazıları verilib (Bax: N. Yaqublu "Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası". Bakı, 2013).

**70.Aleksandr Kerenski (1881-1970)** – Çar Rusiyasında IV Dövlət Dumasının deputatı, 1917 ci ilin Fevral Burjua İnqilabından sonra Ədliyyə Naziri (mart-may), Hərbi və Dəniz Naziri (may-avqust),həmin ilin iyulundan isə Müvəqqəti Hökumətin Nazir-sədri, Ümumrusiya Müəssislər Məclisinin sədri.

**71. Mavərayi – Qafqaz Seymi (Zaqafqaziya Seymi) -** 1918-ci ilin 10 (23) fevralında Zaqafqaziyanın qanunverici orqanı kimi Tiflisdə yaradılıb. Seymin sədri menşevik N. S. Çxeidze olub. Seymdə ən çox sayda Müsəlman fraksiyası təmsil edirdi (50-ə qədər üzv). 1918-ci ilin mayın 26-da Müstəqil Cənubi Qafqaz Respublikalarının yaranması ilə əlaqədar Seym fəaliyyətini dayandırdı.

**72.Vladimir İliç Lenin (1870 - 1924) -** Rusiyanın və Sovet dövlətinin görkəmli xadimi, Bolşeviklər Partiyasının yaradıcısı. Böyük Oktyabr Sosialist İnqilabının təşkilatçılarından və rəhbərlərindən biri. Xalq Komissarları Sovetinin ilk sədri.

**73.Bakinski Raboçi"("Bakı fəhləsi") qəzeti -** 1906-cı ilin mayından rus dilində çap edilir. Birinci Rus inqilabından sonra bu qəzet bolşeviklərin ideyalarını yayırdı. Müxtəlif dövrlərdə N. Nərimanov, S. Kirov, Q. Orcenikidze kimi bolşeviklər bu qəzetlə əməkdaşlıq ediblər. Hazırda bu qəzet Bakıda fəaliyyətini davam etdirir.

**74."Dekret-13" -** Burada 1917-ci ilin dekabrın 18-də Xalq Komissarları Sovetinin sədri V. İ. Leninin və Milli İşlər Komissarı Stalinin imzaladıqları 4 bəndlik dekret nəzərdə tutulur. Bu dekretlə S. Şaumyana səlahiyyət verilirdi ki, Türkiyə Ermənistanın müvəqqəti idarəsi üçün Erməni Komitəsi və Erməni XKS-i yaratsın, ermənilərlə qonşu olan müsəlman və digər əhali ilə münaqişələrin həllində iştirak etsin.

**75.Stepan Georgiyeviç Şaumyan(1878-1918)** – XX əsrin əvvəllərində Qafqazda fəaliyyət göstərmiş erməni əsilli inqilabçı və siyasi xadim.16 dekabr 1917-ci ildə Lenin tərəfindən Qafqaz üzrə Fövqəladə komissar təyin edilib.Berlindəki Humboldt Universitetini bitirib.1900-cü ildən RSDFP-nin üzvü olu-

b.1917-ci ilin noyabrından “Bakı soveti”nin,1918-ci iln aprelin 25-dən isə Bakı Xalq Komissarları Sovetinin sədri olub.31 Mart 1918-ci ildə Bakı qırğınlarında azərbaycanlıların kütləvi şəkildə öldürülməsinin əsas səbəbkarlarından biri.

**76. “Daşnaksütun”(“İttifaq”) Partiyası -** qədim erməni - siyasi partiyası. 1890-cı ildə Tiflisdə yaranıb. 1918 - 1920-ci illərdə Ermənistanda hakimiyyətdə olub. Milliyyətçidir, Türkiyədə və Azərbaycanda yerli əhaliyə qarşı qətliamlar törədib.

**77.Bakı Soveti** – 1917-ci ildə Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra erməni bolşeviklər Bakıda hakimiyyəti ələ keçirib Şaumyanın başçılığı altında Bakı Soveti formalaşdırdılar:1917 ci iln noyabrın 2-də Bakı Fəhlə və Əşgər Deputatları Soveti İcraiyyə Komitəsi yaradıdı.

**78.Bakı Müsəlman İctimai Təşkilatları komitəsi(Müsəlman Şurası)** – Rusiyada Fevral inqilabından(1917) sonra baş verən proseslərdə müsəlmanların fəallığını təmin etmək, Azərbaycab milli qüvvələrini birləşdirmək məqsədi ilə təsis olunmuş qurum.1917-ci ilin martın 29-da yaradılıb.Komitənin sədri M. Hacınski,müavini M.Ə.Rəsulzadə idi.Komitə 1917-ci ilin aprelindən Bakı Müsəlman İctimai Təşkilatları Şurasına çevrildi.

**79.“Təzə Pir” məscidi -** 1905 - 1914-cü illərdə Bakıda inşa edilib.

**80.”İsmailliyə” binası -** binanı Bakı milyonçusu Musa Nağıyev gənc yaşında dünyasını dəyişən oğlu İsmayılın adına tikdirib. Bakıdakı xeyriyyə təşkilatlarının çoxu burada fəaliyyət göstərib. Hazırda bu binada Milli Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşir.

**81.İrəvan -** qədim Azərbaycan şəhəri Rəvandır. Hazırda Ermənistanın paytaxtıdır. Erməni dilində Yerevan, Türkiyə türkcəsində Erivan olaraq bilinir.

**82.Hamazasp Srvandztyan (1873-1821) -** Türkiyənin Van bölgəsində doğulub. Erməni quldur dəstələrinin başçılarından biri. 1918-ci ilin Mart hadisələrində günahsız dinc insanların qətlə yetirilməsində xüsusi fəallıq göstərib.

**83.Avetisov** - erməni polkovniki.1918-ci ildə erməni və ruslardan ibarət hərbi dəstənin başçısı.1918-ci ilin martında Göytəpə (Pişib) ilə Astaranı birləşdirən Poçt yolu ətrafındakı kəndləri qarət və talan edib.

**84.Brest - Litovsk müqaviləsi -** 1918-ci il mart ayının 3-də Sovet Rusiyası ilə Dördlər İttifaqı (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) arasında bağlanan sülh müqaviləsi. Bu sənədə əsasən Rusiya Polşa, Litva, Latviya, Estoniya və Belorusiyanın bir hissəsini itirdi. Qars, Batum, Ərdəhan Türkiyəyə verildi. Sovet qoşunları Ukrayna və Finlandiyadan çıxarıldı. Ordu və donanmanın bir hissəsi buraxılmalı idi. 1918-ci ilin avqustun 27-də maliyyə razılaşmasına əsasən Sovet Rusiyası 6 milyard marka təzminat verməli idi. 1918-ci ilin noyabrında Almaniyada II Vilhelm devrildi və Sovet hökuməti noyabrın 13-də Brest-Litovsk müqaviləsini (müahidəsini) ləğv etdi.

**85.Qekeçqori hökuməti –** Zaqafqaziya Komissarlığı (15 noyabr 1917 – 10 fevral 1918) nəzərdə tutulur. Komissarlığa Yevgeni Petroviç P. Qekeçqori (1881 – 1954) rəhbərlik etmişdir( Gürcüstanın siyasi və dövlət xadimi. Gürcüstanın ilk Xarici İşlər Naziri (1918 - 1920). 1921 - 1954-cü illərdə mühacirətdəki Gürcüstan hökumətinin sədri olub). Onun qərarı ilə Türkiyə cəbhəsində döyüşlər dayandırılmış, 1917-ci il dekabrın 5-də Ərzincanda sülh müqaviləsi bağlanmışdır. Menşevik, eser, daşnak və müsavatçılardan ibarət olan bu hökuməti Antanta dövlətləri fəal müdafiə edirdi. Zaqafqaziya Komissarlığı Qafqazın

Sovet Rusiyasından asılı olmayan müstəqil idarə formasını yaratmaq siyasəti yeridirdi. Zaqafqaziya Seymi (23 fevral – 26 may 1918) bu ideyanı həyata keçirdi.

**86.Akaki İvanoviç Çxengeli (1874 – 1959) –** gürcü menşevik liderlərindən biri, V Dövlət Dumasının deputatı olmuşdur. 1917-ci il martın 16-dan noyabrın 15-dək Qafqazda Xüsusi İdarəetmə Komitəsinin üzvlərindən biri idi. 1918-ci ildə Müvəqqəti Zaqafqaziya hökumətinin sədri, sonra isə Gürcüstan Cümhuriyyətinin Xarici İşlər Naziri vəzifələrində işləmişdir. 1921-ci ildən Ağ mühacirdir.

**87. Aleksandropol –** Ermənistanın ərazisində şəhər. 1837-ci ilə qədər Gümrü, 1924-cü ildən sonra isə Leninakan adlanır.

**88.Nuri Paşa Killigil (1889-1949) –** tanınmış Türkiyə hərbiçisi, Qafqaz İslam Ordusunun komandiri. . 1918-ci ilin sentyabrın 15-də Bakının daşnak və bolşeviklərdən azad edilməsində önəmli rol oynayıb.M.Ə.Rəsulzadə onunla Gəncədə tanış olub və onun Milli Şuranın buraxılması təklifini də qəbul edib. Bəzi azərbaycanlı siyasətçilərdə Nuru Paşaya qarşı inamsızlığın aradan götürülməsinə M.Ə.Rəsulzadə ciddi təsir göstərib.

**89.Azərbaycan Milli Şurası** — 1918-ci il mayın 27-də Zaqafqaziya seyminin müsəlman fraksiyasının bütün üzvləri Azərbaycanın istiqlaliyyətini elan etmək və müstəqil dövlət yaratmaq məqsədilə Tiflisdə toplaşaraq Azərbaycanın idarəsini öz üzərinə götürmək qərarına gəldilər və Azərbaycan Milli Şurasının yarandığını elan etdilər.M.Ə.Rəsulzadə Milli Şuranın sədri (bu zaman o, Batumda türklərlə danışıqlar aparırdı), doktor H.Ağayev isə onun müavini seçildilər. 1918-ci il dekabrın 7-də AXC-nin qanunverici orqanı olan Parlamentin işə başlaması ilə Milli Şuranın fəaliyyətinə xitam verildi.

**90.Mehmet Vəhib Paşa (1873-1940)** - Türkiyə hərbi xadimi, Şərq cəbhəsinin komandiri.

**91.Məhəmməd Həsən Hacınski** (1875-1931) – Sankt-Peterburq Texnoloji İnstitutunu bitirib. 1904-cü ildən siyasi fəaliyyətə başlayıb. M. Ə. Rəsulzadə ilə birgə Batumda Azərbaycan dövləti ilə Osmanlı Türkiyəsi arasındakı ilk rəsmi sənədi imzalayıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk Xarici İşlər Naziri olub.

**92.Fətəli Xan Xoyski (1875-1920)- –** Azərbaycanın ilk Baş Naziri, sonradan Xarici və Daxili İşlər naziri.Moskva Universitetini bitirib. M. Ə. Rəsulzadənin Azərbaycan Parlamentində başçılıq etdiyi ən böyük fraksiya olan "Müsavat" Fətəli xanın iki dəfə Baş Nazir seçilməsini məqbul sayıb.

**93.Ənvər Paşa (1881 – 1922) –** 1914 - 1918-ci illərdə Osmanlı imperiyasının Hərbi Naziri olub. Bütün Qafqaz və Türküstandakı Türk xalqlarının müdafiəçisi kimi çıxış edirdi. "Qafqaz İslam Ordusu"nun Bakını azad etməyə göndərilməsinin təşəbbüsçüsüdür. M.Ə.Rəsulzadə 1918-ci ildə İstanbulda konfransda olarkən onunla görüşmüşdü. Bakının azad edilməsi xəbərini də M.Ə.Rəsulzadəyə ilk dəfə Ənvər Paşa çatdırıb.

**94. Brest - Litovsk müqaviləsinə əlavə məxfi saziş -** Almaniya ilə Sovet Rusiyası arasında bağlanmış gizli müqaviləyə(1918,27 avqust)əsasən Bakı şəhəri Rusiyaya verilməli idi. 1918-ci ilin sentyabrında İstanbulda olan Məhəmməd Əmin Rəsulzadə Bakı haqqında gizli sövdələşmədən xəbər tutan kimi Almaniya və Rusiya hökumətlərinə etiraz notası göndərmişdi.

**95.Mondros(Mudros) müqaviləsi** – I Dünya Müharıbəsi sonunda Osmanlı imperatorluğu ilə Antanta dövlətləri arasında Lemnon adasının Mudros limanında ingilislərin zirehli "Aqa-

memnon" gəmisində 1918-ci ilin 30 oktyabrında imzalanıb(25 maddəlik bir müqavilədir). Müqavilənin şərtlərinə görə Osmanlı dövləti Birinci Dünya müharibəsi zamanı ələ keçirdiyi ərazilərdən geri çəkilmişdir.

**96.Vilyam Mokdomeri Tomson (1877-1963) -** İngilis hərbçisi, General - leytenant. İlk hərbi xidmətinə 1897-ci ildən başlayıb. 1898-ci ildə Sudanda olub. 1915-1918-ci illərdə - Birinci Dünya müharibəsi illərində Fransada, Mesopotomiyada, İranda olub. 1918-ci ilin noyabrında öz hərbi hissələri ilə Ənzəlidən Bakıya gəlib.

**97.Lazar Biçeraxov (1882 -1952) –** osetin əsillidir.1918-ci ilin 31 iyulunda Bakıda Bakı kommunası devrilməsində iştirak edib.sonradan Fransada,İngiltərə və almaniyada mühacirətdə yaşayıb.

**98.Versal Sülh Konfransı -** 1919-cu ilin iyununda Fransanın Versal şəhərində keçirilib. Konfransın sənədlərində ərazilər qalib dövlətlərin xeyrinə bölüşdürülüb..1920-ci ilin yanvarın 12-də da Azərbaycan 23-ə yaxın dövlət tərəfindən de-fakto tanınıb.

**99.Səməd bəy Mehmandarov (1855 - 1931) -** Rus və Azərbaycan hərbçisi. Artilleriya generalı. 1918 - 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Naziri.

**100.Məclisi-Məbusan** –Azərbaycan Parlamenti.1918-ci ilin dekabrın 7-dən 1920 ci ilin aprelin 27-nə qədər fəaliyyət gostərib.Bu müddət ərzində 270 -ə qədər qanun layihəsini müzakirəyə çıxarıb və 230-nu qəbul edib.Ə.Topçubaşov Parlamentin sədri olsa da,iclasları onun müavini Həsən bəy Ağayev aparıb(Ə.topçubaşov Versal Sülh konfransında Azərbaycan nümayəhdə heyətinin rəhbəri idi).Parlamentdə ən böyük fraksiya M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat"idi(38 nəfər).

**101**.**Bitərəf qrup** – Azərbaycan Parlamentində 4 nəfərlə təmsil edilirdi:Bəhram bəy axundov,Behbud xan Cavanşir,Əbdüləli bəy Əmircanov,Əhməd bəy Ağayev.

**102.”İttihad” Partiyası** - 1918-ci ilin yanvarında Bakıda fəaliyyət göstərən «Rusiyada müsəlmanlıq» partiyası ilə Gəncədəki «İttihadi-İslam» cəmiyyətinin birləşməsi nəticəsində yaradılıb. Həkim Qara bəy Qarabəyov təşkilatın sədri idi. Azərbaycan Parlamentində «Musavat»-dan sonra ən böyük fraksiya idi.. Partiyanın rus və azərbaycan dillərində «İttihad» adlı qəzeti çap olunurdu.

**103.Qara bəy Qarabəyov (1874-1953) -** həkim, ictimai xadim. AXC Parlamentinin üzvü. Tartu Universitetinin Tibb fakultəsini bitirib. “Yeni Həyat” qəzetinin (1918) redaktoru olub. “İttihad” Partiyasının sədri idi.

**104.”Sosialist” bloku –** Azərbaycan Parlamentində 13 nəfərlə təmsil edilirdi. Socialist – demokrat (menşevik), qismən də xallqçi socialistlərdən ibarət olan bu qrupa Səmədağa Ağamalı oğlu və İbrahim Əbilov, xallqçi socialistlərdən ibarət olan qrupa isə Aslan bəy Səfikürdski başçılıq edirdi.

**105.Səmədağa Ağamalıoğlu (1867-1930) -** Sovet dövlət xadimi, publisist, AXC Parlamentinin üzvü. Vladiqafqaz Progimnaziyasını bitirib. 1918-ci ilin fevralında Tiflisə gedib, yerli menşevik “Hümmət” təşkilatının görkəmli xadimlərindən, həmin təşkilatın orqanı “Gələcək” və “Pobujdeniye” qəzetlərinin redaktoru olub. Sovet Azərbaycanı dövründə ilk Xalq Torpaq Komissarı, 1922-1929-cu illərdə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri.

**106.İbrahim Əbilov (1881-1923) -** Azərbaycan Sovet Respublikasının Türkiyədəki diplomatic nümayəndəsi olub.

Tiflisdə menşevik "Hümmət" təşkilatının tanınmış xadimi kimi fəaliyyət göstərib. AXC dövründə Parlament üzvü olub və socialist fraksiyasına başçılıq edib.

**107.Aslan bəy Səfikürdski(1881-1937)-**1881-ci ildə Gəncə qəzasının Səfikürd kəndində anadan olub.Rusiyanın Xarkov və Peterburq universitetlərinin hüquq fakultələrində təhsil alıb. Azərbaycan Milli Şurasının və Zaqafqaziya Seyminin üzvü olub.1919-cu ildə Ədliyyə və Əmək Naziri vəzifələrində çalışıb.

**108. "Əhrar" (Azadlıqsevər) Partiyası -** 1918-ci ilin payızında Bakıda yaranıb. Sədri Aslan bəy Qardaşov, üzvləri R. Qaplanov, M. Əfəndizadə, Qərib Kərimoğlu və b. Partiya Azərbaycan Parlamentində təmsil edilirdi.

**109.Aslan bəy Qardaşov(1866 -1920)** – ictimai-siyasi xadim."Əhrar" partiyasının liderlərindən biri.Zaqafqaziya Seyminin,Milli Şuranın,Azərbaycan Parlamentinin üzvü.

**110.Nəsib bəy Yusifbəyli (1881-1920)** – Odessa Universitetini bitirib. Gəncədə yaratdığı "Türk Ədəmi-Mərkəziyyət" Partiyasının M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" Partiyası ilə birləşdirilməsinin təşəbbüsçülərindən olub. N. Yusifbəyli 1918-ci ilin əvvəllərində Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Cümhuriyyətinin Maarif Naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra Fətəli xan Xoyski kabunələrində Maarif naziri, eyni zamanda Maliyyə və Dini Etiqad naziri vəzifələrində çalışıb. 1919-cu ilin martından 1920-ci il aprelin 1-də qədər Nazirlər Şurasının sədri işləmişdir.

**111.Anton İvanoviç Denikin (1872 - 1947) -** Rus hərbçisi, Çarizmin burjua nümayəndlərindən ibarət Ağqvardiyaçılar ordusunun rəhbəri, general - leytenent.

**112. SPA Konfransı -** 1920-ci ilin iyulun 5-16-da Belçikanın SPA şəhərində keçirilib. Bu konfransda Antanta dövlətlərinin (Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Portuqaliya, Belçika) Ali Şurasının növbəti iclası da demək olar. M. Ə. Rəsulzadə SPA Konfransında Azərbaycan Cümhuriyyətinin rəsmən geniş dairələr tərəfindən tanınacağına ümid bəsləyirdi.

**113.Sevr Müqaviləsi - Antanta və Osmanlı Türkiyəsi arasında bağlanan Sülh müqaviləsi.** 1920-ci il yanvarın 10-da imzalanıb. Bu müqavilə Osmanlı imperiyası ilə Avropa dövlətlərinin ərəb və Avropa regionuna təsir imkanlarını müəyyənləşdirir, Türkiyəni parçalayır, onun üzərində yarımmüstəmləkə rejimi yaradırdı.

**114.Terski - oblast -** Şimaliq Qafqazın dağlı xalqlarını (çeçen,inquş, kabardin, balkar) özündə birləşdirərək, 1917-ci ilin dekabrın 1(14)-də yaradılıb. Mərkəzi Vladiqafqaz - indiki Orcenekidze (Nalçik) şəhəri idi.

**115.Georgi Vasilyeviç Çiçerin (1872-1936) -** Sovet dövlət xadimi, diplomat. 1918-ci ilin mayın 30-dan Rusiya Xarici İşlər Komissarı, 1923 - 1930-cu illərdə isə SSRİ Xarici İşlər Komissarı vəzifəsində çalışıb.

**116.Türkmənçay müqaviləsi** — İkinci Rusiya-İran müharibəsi nəticəsində 1828-ci il 10 fevralda Rusiya ilə İran arasında Türkmənçay kəndində bağlanmış müqavilə.Bu müqaviləyə, əsasən, Azərbaycanın Araz çayından şimaldakı bütün əraziləri Rusiyanın , cənubdakı əraziləri isə İranın əlinə keçdi.

**117.Qazi Mustafa Kamal Paşa Atatürk (1881-1938) -** Türkiyənin dövlət, hərbi və siyasi xadimidir. O, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti (1923-1938) idi. Atatürk İtaliya

- Türkiyə (1911-1912) və İkinci Balkan müharibəsində iştirak edib. 1916-cı ildə general rütbəsi və Paşa adına layiq görülüb. 1919-cu ildə Anadoluda başlayan **"Kamalçılar hərəkatı"** adlanan anti -imperialist, milli - azadlıq mübarizəsinə rəhbərlik edib.

**118.Əliheydər Qarayev (1896-1938) -** əvvəl menşevik, sonradan isə bolşevik olub. Azərbaycan SSR-in dövlət xadimi, Bakı Müvəqqəti İnqilab Komitəsinin sədri. Xalq Əmək Komissarı, Hərbi Dəniz İşləri Komissarı. Bakı şəhər Sovetinin sədri olub.Onun redaktorluğu ilə "Zəhmət", "Zəhmət sədası", "Füqəra sədası", "Məşəl" qəzet və jurnalı buraxılıb.

**119."Həyati-miləl" (Jizn nasionalnostey) -** həftəlik ictimai - siyasi qəzet. Xalq Milli İşlər Komissarlığının orqanı idi və Moskvada rus dilində 1918-ci il noyabrın 9-dan 1922-ci ilin fevralın 6-dək çap olunub. 1922-ci ilin fevralından eyniadlı jurnala çevrilib və 1924-cü ilin yanvarına qədər nəşr edilib.

**120.Azərbaycan Kommunist Partiyası –** 1920-ci ilin fevralın 20-də 2Hümmət", "Əhrar", "Ədalət" partiyalarının və Bakı bolşeviklərinin bir araya gəlməsi ilə təsis edilib.Mirzə Davud Hüseynov,Qriqori Kaminski,Sergey Kirov,Ruhulla Axundov,Mir Cəfər Bağırov və digərləri müxtəlif illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibləri olub.Fəaliyyətinə 1991-ci ilin 16 sentyabrında xitam verilib.

**121."Yeni Dünya" qəzeti** - 1919-cu ilin dekabrından 1920-ci ilin yanvarınadək 59 sayı çıxıb, nəşri müvəqqəti dayanıb. Qəzet sovet dövründə Azərbaycan K(b)P MK-nın və Bakı şəhər Partiya Komitəsinin orqanı idi.

**122.VÇK (rusca - Vserossiyskaya Çrezvıçaynaya Komissiya). Ümumrusiya Fövqəladə Komissiyası -** 1917-ci ilin dekabrında əksinqilabçılarla mübarizə məqsədi ilə yaradılıb.İlk

sədri Feliks Edmundoviç Dzerjinski olub. Dövlət təhlükəsizliyini qorumaq üçün yaradılan bu təşkilat Sovet hökumətinin və Bolşevik Partiyasının qəddar cəza aparatı olub.Bəzən qısa olaraq "Çeka" da adlanıb.

**123.Semyon Alekseyeviç Pankratov (? -?)** – Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Fövqəladə Komissiyanın sədri(may,1920 – iyun,1920).Azərbaycanda ilk kütləvi qırğınların, repressiyaların təşkilatçılarından biri.

**124. Behbud Ağa Şahtaxtinski (1881-1924) -** 1917-1918-ci illərdə Bakı Soveti İcraiyyə Komitəsinin, Xalq Komissarları Sovetinin Fövqəladə Komissiyasının üzvü, "Hümmət" Təşkilatı MK-nın sədri olub. 1920-ci ilin Aprel işğalından sonra Ədliyyə Komissarı, eyni zamanda Azərbaycan SSR-in RSFSR-də fövqəladə nümayəndəsi idi.

**125.Türkiyə Kommunist Firqəsi (partiyası) -** 1920-ci ildə qurulub.Yaradıcısı Mustafa Sübhidir. 1987-ci ildə fəaliyyətinə xitam verilib.

**126.İran Kommunist partiyası-** 1920 ci ildə yaranıb Məqsədi İrandakı inqilabi qüvvələri birləçdirmək olub.Partiyanın 1920-ci ilin iyununda ənzəlidə keçirilən Birinci qurultayında S.C.Pişəvəri ideoloji işlər üzrə katib seçilib.Baş katib isə Məşrutə inqilabının liderlərindən olan Heydər xan Əmioğlu idi.

**127.Şərq Millətləri Konqresi** – Şərq xalqlarının Birinci qurultayı 1920-ci il 1-7 sentyabrda Bakıda keçirilmişdi.Qurultayda 137 milləti təmsil edən 1891 nümayəndə iştirak etmişdi.

**128.Bela Kun (1886-1938) -** Macar kommunist siyasətçisi. Budapeştdə qəzet yayını ilə məşğul olub. I Dünya savaşında Avstriya - Macarıstan Ordusunda olub. Ruslar tərəfindən əsir

olunub, sonra bolşeviklər tərəfə keçib. Daha sonra Macarıstan Sovet inqilabında iştirak edib.

**129.Bahəddin Şakir (1874- 1922) -** Türkiyədə "Təşkilati Məxsusə"nin yaradıcısı və tibb professoru. Berlində dostu, keçmiş Trabzon valisi Cəmal Əzimlə ailəvi gəzindi zamanında 1922-ci ilin 17 aprelində erməni qatilləri Arşavir Şirakyan və Aram Yerkanyan tərəfindən qətlə yetiriliblər.

**130.Məhəmməd Əmin Yurdaqul (1869-1944) -** tanınmış Türk şairidir. "İttihad və Tərəqqi"nin üzvü idi. 1913-cü ildə Osmanlı Məclisi - Məbusanında Mosul millət vəkili oldu. 1921-ci ildə Milli Mücadiləyə qatıldı. Xalqın və Ordunun mənəvi gücünü artırdı. "Türk şairi", "Milli şair" olaraq çağırıldı. Beş dəfə Türkiyə Millət vəkili oldu. "Türk sözü", "Ey Türk oyan!" "Zəfər yolunda", "Cəngə gedərkən" və s. əsərlərini, şeirlərini yazıb.

**131."Türküstan vilayətinin qəzeti"** – 1870-ci ildə Daşkənddə Rusiya ümumi valisi Kaufmanın əmri ilə çap olunub.

**132."İstiqlal" məcmuəsi** – 1919-cu ildə Azərbaycan İstiqlalının 1 illik yubileyi münasibəti ilə M.Ə.Rəsulzadənin ümumi redaktorluğu ilə bir sayı nəşr edilib.

**133."Azərbaycan" qəzeti -** ilk sayı 1918-ci ilin sentyabrın 15-də Gəncədə çıxıb.5-ci sayından Bakıda yayınlanıb.Azərbaycan və rus dillərində nəşr edilib.C.Hacıbəyli və Ş.Rüstəmbəyli redaktorları olub.Sonradan isə Ü.Hacıbəyli,X.İbrahim də qəzetdə redaktorluq ediblər.1920 ci ilin aprelin 27-də -Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra fəaliyyətini dayandırıb.

**134.İosif Vissarionoviç Stalin (Cuqaşvili) (1879-1953) –** Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının liderlərindən biri, Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi,

1941-ci ildən isə SSRİ Nazirlər Sovetinin sədri, 31 il Sovet dövlətinə başçılıq etmiş şəxs. M.Ə.Rəsulzadə onunla 1904-1905-ci illərdə tanış olub, eyni təşkilatda fəaliyyət göstərib, sonra ideoloji yollarını ayırıblar. M.Ə.Rəsulzadə Stalinin həbsxanadan qaçmasına kömək göstərib, bəzi məlumatlara görə hətta onu bir neçə dəfə həbs olunmaqdan xilas edib. 1920-ci ildə isə Stalin onu Bakıda həbsxanadan azad etdirib özü ilə Moskvaya aparıb.

**135.İvan Qrexelaşvili (Mamiya Dmitriyeviç (1881-1937) -** Sovet dövlət və partiya xadimi. 1917-ci ilin dekabrından Vladiqafqaz Sovetinin sədri, 1920 - 1921-ci illərdə isə Gürcüstan K(b)P MK və İnqilab Komitəsinin sədri olub.

**136. Simon Qurgenoviç Mdivani (1876—1937) -** Gürcüstanın "İnqilabçı Sosial Federalistlər" partiyasının liderlərindən və Gürcüstan Respublikasının rəhbərlərindən biri (1918-1921); 1920-1921-ci illərdə RK(b)P Qafqaz bürosunun üzvü, 1921-ci il iyul ayından Gürcüstanın İnqilab Komitəsinin sədri olub, SSRİ MİK sədrinin müavini vəzifəsində çalışıb.Gürcü mühacirlərinin tanınmış lideri; 1924-1928-ci illərdə "Gürcü Milli Mərkəzi"nin İstanbuldakı nümayəndəsi, publisist.

**137.Qriqori Konstantinoviç Orconikidze (1886-1937) -** Sovet dövlət və partiya xadimi. 1907-ci ildə Bakıya gizli işə göndərilib. Bakı Komitəsinin tapşırığı ilə bir qrup bolşeviklə Cənubi Azərbaycan Milli - Azadlıq hərəkatına (1905-1911) köməyə gedib. XI Qızıl Ordunun rəhbərlərindən olub.

**138.Aleksandr Fyodoroviç Myasnikov (əsl familiyası Miyasnikyan, təxəllüsü - Martuni) (1886-1925) -** 1919-cu ildə əvvəl Belorusiya MİK-in, sonra isə K(b)P MK bürosunun sədri, Ermənistan SSR XKS sədri və Xalq Hərbi İşlər

Komissarı olub. 1922-ci ildə ZSFSR İttifaq Sovetinin sədri vəzifəsində çalışıb.

**139.Vyaçeslav Mixayloviç Molotov (1890-1986) -** 1921 - 1930-cu illərdə ÜİK(b)P MK katibi, 1930 - 1941-ci illərdə isə SSRİ XKS sədri, Xarici İşlər Naziri vəzifəsində çalışıb.

**140. Filipp İyeseyeviç Maxaradze (1868-1941) -** 1913-cü ildə Bakıya gəlib, "Çveni skaro" (Bizim bucaq) qəzetinin redaktoru olub. 1921-ci ildən Gürcüstan İnqilab Komitəsinin, 1922-ci ildən Gürcüstan SSR MİK-in, sonra Gürcüstan SSR XKS-nin və ZSFSR XKS-in sədri olub.

**141.Lev Borisoviç Kamenev(Rozenfeld,1883- 1936)** – Rus inqilabçısı,sovet partiya və dövlət xadimi.V.İ.Leninin yaxın silahdaşı.

**142.Nikolay İvanoviç Buxarin(1888 -1938**) – Rus inqilabçısı,sovet dövlət xadimi.1924-1929-cu illərdə Ümumittifaq Kommunist(Bolşevik) Partiyasını Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü.

**143.Aleksandr Pavloviç Serebrovski(1884- 1938)** – Rus inqilabçısı, 1903-cü ildən RSDFP-nin üzvü,neft mühəndisi,Azərbaycan neft sənayesinin ilk rəhbərlərindən biri.

**144.Sergey Mironoviç Kirov (1886-1934) -** tanınmış kommunist. 1904-cü ildən Rusiya Sosial Demokrat Fəhlə Partiyasının üzvü olub. 1921-ci ildə Azərbaycan Kommunist Partiyasına başçılıq edib. 1926-cı ildən Rusiya Kommunist Partiyası Leninqrad Vilayətinin başçısı olub.

**145."Kommunist" qəzeti -** ilk sayı 1919-cu ilin avqustun 29-da buraxılıb. Gizli olaraq nəşr edilən bu qəzeti Ruhulla Axundov redaktə etmişdi. 1920-ci ildə Azərbaycan işğal edildikdən sonra aprelin 30-dan "Kommunist" qəzeti Əliheydər Qarayevin redaktorluğu ilə leqal şəkildə nəşrinə başladı. Ha-

zırda bu mətbuat orqanı “Xalq” qəzeti adı ilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti tərəfindən çap olunur.

**146.Lloyd Corc (1863-1945) -** ingilis siyasi və dövlət xadimi, Liberallar partiyasının lideri olub. 1916-cı ilin sonundan 1922-ci ilədək Böyük Britaniyada Koalisiya hökumətinin Baş Naziri olub. O, Paris Konfransının (1919-1920) təşkilatçılarından və Versal sülh müqaviləsinin (1919) müəlliflərindəndir. L. Corc Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini müdafiə edib.

**147.Jorc Benyamen Klemanso (1841-1929) -** fransız siyasi və dövlət xadimi idi. İki dəfə (1906 - 1916; 1917 - 1920) Fransa Nazirlər Şurasının sədri (ikinci dəfə həm də Müdafiə Naziri) olub. Paris Sülh Konfransının sədri (1919 - 1920), Versal Sülh Müqaviləsinin (1919) müəlliflərindən biridir.

**148.Məhəmməd Əli Paşa** – II Sultan Mahmud dönəmində Misir qubernatoru olub.Vəhabi üsyanını yatırıb.Hicazı və müqəddəs yerləri azad edib.İngilis və fransızlar Məhəmməd Əli Paşa və digərlərini də Rusiyaya  qarşı hərbə, öz dövlətinə qarşı üsyana çıxmağa təhrik ediblər.

**149.Sultan Mahmud(1786 – 1839)** - Sultan II Mahmud.1808 - 1839 cu illərdə Osmanlı sultanı.

**150.“Dəli Petro” - Məşhur Rus Çarı I Pyotr (1672-1725) -** tarixçilər tərəfindən davranışları səbəbindən “Dəli Petro” deyilird.

## "ƏSRİMİZİN SİYAVUŞU"

***Bu əsər 1920-ci ildə İsmayıllı rayonunun Lahıc qəsəbəsində, müəllifin bolşevik rejimindən qorunaraq, gizli şəraitdə yaşadığı dövrdə yazılıb və 1923-cü ildə İstanbulda çap edilib.***

**1.Tofiq Fikrət (1867-1915) -** osmanlı dövründə yaşamış böyük Türk şairi, pedaqoqu və jurnalisti. Türk ədəbiyyatında "Sərvəti - fünun" və ya "Ədəbiyyati - cədidə" adlanan cərəyanın banisi. Azərbaycan şairlərindən H. Cavid, A. Səhhət, M. Hadi və b. yaradıcılığına ciddi təsir göstərib.

**2. Sistan -** İranın ərazi vahidlərindən, əyalətlərindən biri

**3. Kəyanilər -** yarıməfsanəvi qədim İran sülaləsi. Firdovsininin "Şahnamı"sində onların qəhrəmanlığı və vətənpərvərliyi təsvir edilib.

**4.Huşəng** – ləqəbi Pirdatdır, Pişdadilər dövründə yaşayıb. Atasının adı Siyaməkdir. Dünyanın ilk şahlarından biri sayılır.

**5.Jan de Lafonten(1621 – 1695)** – fransız təmsilçisidir. Fransız ədəbiyyatının görkəmli nümayəndəsidir.

**6.İvan Andreyeviç Krılov(1769 – 1844) –**rus şairi, publisisti və təmsilçisidir. 236-dan çox təmsilin müəllifidir.

**7.Zərdüştlük -** dünyanın ən köhnə etiqadlarından biri olan Zərdüştlük, Güney Azərbaycan ərazisində meydana gəlib. Zərdüşt dini, onun banisi Zərdüştün adı ilə bağlıdır. Zərdüştilərin təlimi onların müqəddəs kitabı "Avesta"da ifadə olunub. Zərdüşt dininin əsas müddəası ondan ibarət idi ki, dünyada daim bir - biri ilə vuruşan iki qüvvə vardır: bunlardan biri xeyir (Hörmüzd - Ahuramazda), digəri isə şərdir (Əhrimən - Anqraman-

yu). Bu təlimdə baş İlahi qüvvə Hörmüzddür ki, onu od təmsil edir. Bu təlimə görə insan ömrünün mənası Əhrimənlə mübarizədə (şərlə) Ahuramazdaya (xeyirə) kömək göstərməkdir.

**8.Yohan Volfqanq Höte (1749-1832) -** alman şair - dramaturqu, mütəfəkkir və naturalist. Tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxil edilib. Yaratdığı iki hissədən ibarət ölməz "Faust" dram - romanı dünya ədəbiyyatının ən gözəl nümunələrindən sayılır.

**9.Vilyam Şekspir(1564 – 1616**) – ingilis şair və dramaturqu.Dünya ədəbiyyatının ən məşhur dramaturqlarından biri, ən azı 17 komediyanın,onlarla tarixi pyesin,11 faciənin,sonetlər silsiləsinin müəllifi.

**10.Makedoniyalı İsgəndər(E.ə 356 – E.ə.323)** – qədim Yunanıstanın Makedoniya çarlığının hökmdarı və Argeadlar sülaləsinin nümayəndəsi(III İsgəndər,İsgəndər Zülqərneyn,Böyük İsgəndər).

**11.Midiyalılar -** e. ə. IX-VII əsr assur mənbələrinə görə İran yaylasının Xəzər dənizindən cənubda - təqribən indiki Zəncan - Həmədan, Qəzvin - Tehran zonasında, həmçinin şərqə və cənub - şərqə doğru uzanan bölgələrdə məskunlaşmış xalq.

**12.Fransua Lenorman(1837 – 1883)** – fransız Şərqşünası. Qədim Şərqin tarixi haqqında ilk geniş araşdırmaların müəllifi.

**13.Tomris(e.ə.570 – eə.520)** – massagetlərdən və saklardan olan məşhur peçeneq qadın sərkərdə.

**14.Fələki Şirvani (1108-1146) -** XII əsrin I yarısında,Şamaxıda yaşamış Azərbaycan şairi, alimi. Dövrünün nüfuzlu münəccimlərindən, məşhur şair və alimlərindəndir.

**15. İmadəddin Nəsimi (1370-1417) -** azərbaycanlı şair, mütəfəkkir. İlk təhsilini  Şamaxıda alıb. Dövrün elmlərini, din-

lərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənib. Filosof şairin poeziyası tez bir zamanda Orta Asiya, Türkiyə və İran xalqları arasında məşhurluq qazanıb.

**16.Jan – Batist Molyer(1662 -1673)** –fransız dramaturqu,klassik komediyanın yaradıcısı.

**17.Henrix Senkeviç(1846 1916) –** Polşa yazıçısı,tarixi romanlar müəllifi.1905 –ci ildə Nobel mükafatı alıb.

**18.Mirzə Əbdülrəhim Tahirzadə(Talıbov) (1837 -1911)** – azərbaycanlı nasir,publicist və maarifçi.Cənubi Azərbaycanda –Təbrizdə doğulub.Azərbaycan ədəbiyyatında uşaqların həyatından bəhs edən ilk kitabın da müəllifidir.

**19. Abbasqulu ağa Bakıxanov (1794-1847) -** Azərbaycan şairi, alim, mütəfəkkir və tərcüməçi. "Gülüstani - İrəm" əsəri ilə Azərbaycan tarixşünaslıq elminin əsasını qoyub. "Qüdsi" təxəllüsü ilə Azərbaycan, ərəb və fars dillərində şeirlərin müəllifidir. XIX əsr Azərbaycan maarifçilərindən biri.

**20.Sultan Səlim və ya Yavuz Sultan Səlim(1470 -1520)** – osmanlı padşahı, eyni zamanda ilk Türk islam xəlifəsi.

**21.Namiq Kamal (1840-1888) -** Türkiyə şairi, naşir, tərcüməçi və ictimai xadim. Tənzimat ədəbiyyatının əsas nümayəndələrindən biri olub. "Gənc Osmanlılar" Cəmiyyətinin yaradıcılarından və rəhbərlərindəndir. O, həm də türk romanının banilərindəndir.

**22. Əbdülhaq Hamid (1852-1937) -** türk ədəbiyyatının nümayəndələrindən biri, şair. O, Qərbin, xüsusilə Fransa ədəbi mühitinin təsiri ilə "Sənət, sənət üçündür" deyir, bu inamla da yazıb yaradırdı.

**23.Ziya Göyalp (1876-1924) -** türkmən əsilli Türk yazarı, filosofu, şair və siyasətçisi. Türkiyə Böyük Millət Məclisində millət vəkili. "Türkçülüyün əsasları" əsərinin müəllifi.

**24.Xristofor Kolumb(1451 -1506)** – Amerika qitəsini kəşf edən məşhur səyyah.

**25.Səməd bəy Mehmandarov(1855 -1931)** – Rusiya imperator ordusunun artilleriya generalı.Azərbaycan Xalq Cümhuriyyəti Hərb Naziri.

**26. Moris Meterinq (1862-1949) -** Belçikalı şair, yazıçı, dramaturq, Nobel mükafatı laueratı.

**27.Mirzə Davud Hüseynov(1894 – 1938)** – Azərbaycan İnqilab Komitəsi sədrinin müavini,Azərbaycanın Xarici İşlər Naziri, Azərbaycan SSR Maliyyə Naziri,Ali İqtisad Şurasının sədri.

**28.Anastas Mikoyan(1895-1978)** – rus inqilabçısı, sovet dövlət və partiya xadimi.1935- 1966 –cı illərdə Sov.İKP MK Siyasi Büronun üzvü. Bakıda bolşevik ideyalarının yayılmasında iştirak edib. 1920-ci ildə XI Qızıl Ordunun Hərbi İnqilab Sovetinin səlahiyyətlisi olaraq Bakıya gəlib.Bakıda çalışdığı illərdə Azərbaycan xalqına qarşı qəddarlıqlar edib.

**29.Fyodor Fyodoroviç Roskolnikov(1892 -1939)** –sovet hərbi və dövlət xadimi,diplomat.

**30.Mixail Levandovski (1890-1938)** – 27 aprel 1920-ci ildə Azərbaycanın işğalını həyata keçirən XI Ordunun komandiri. Mənşəyinə görə polyak idi. 1938 –ci ildə 23 fevralda həbs edilib, ağır işgəncələrdən sonra 29 iyulda güllələnib.

**31. Neron Klavdiy Sezar Avqust Qermanik (37 - 68)** – Roma imperatoru(13 oktyabr 54 – 9 iyun 68).

**32.Nəmrud** – Tövratda və Quranda adı xatırlanan, bütpərəstlərlə birgə İbrahim peyğəmbəri odda yandırmaq istəyən, lakin buna nail olmayan zalım padşah.

**33.İbrahim Peyğəmbər** - Allahın elçisi .Din tarixinə görə İbrahim Peyğəmbər oğlu İsmayılı Mina dağında allaha qurban

kəsmək istəyərkən Həqq-təaladan əvəz olaraq qoç göndərilib və orada heyvan qurban kəsilib.Bu mərasim İslam dinində vacib sayılıb və hər il Həccə gedən zəvvarlar  Mina dağı ətəklərində, eləcə də müsəlmanların yaşadıqları ölkələrdə qurban kəsirlər.

**34.Qalileo Qaliley (1564-1642) -** İtalyan fiziki, riyaziyyatçısı, astronomu və filosofu. Müasir fizika və astronomiya elmlərinin və elmi düşüncənin banilərindən biri.

**35.Musa Peyğəmbər(e.ə.1393 e.ə 1273)** – Allahın elçisi,- Misirdə doğulmuş yəhudi əsilli peyğəmbər.

**36.Sokrat (təqribən e. ə. 469-399) -** qədim yunan filosofu, Platonun müəllimi. Yunan fəlsəfəsinin qurucularındandır. Adı tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxil edilib.

**37.Həzrəti Hüseyn (626-680) -** Hüseyn ibn Əlidir. İmam Hüseyn adı ilə məşhurdur. Şiələrin üçüncü imamı, Kərbəla şəhidi, Əli və Fatimənin ikinci oğlu, Məhəmməd peyğəmbərin nəvəsidir.

**38.Həsən Sabbah(1055 – 1124)** – Ələmut qalasında yaratdığı Nizari İsmaililər dövlətinin ilk hökmdarı(hakimiyyət illəri: 1090-1124).Əsl adı Həsən ibn Əs.Sabbahdır.

## "İSTİQLAL MƏFKURƏSİ VƏ GƏNCLİK"

***Bu əsər "Milli Azərbaycan nəşriyyatı" seriyasının 3-cü sayı olaraq 1925-ci ildə İstanbulda nəşr edilib.M. Ə. Rəsulzadə ilk öncə Türkiyədəki Azərbaycan gəncləri qarşısında bu mövzuda çıxış etmiş və həmin çıxış sonradan kitab kimi çap edilmişdir.***

**1. İsmayıl bəy Qasprinski (1851-1914) -** böyük Krım - tatar maarifçisi, Türk - islam dünyasının tanınmış "Tərcüman" qəzetinin yaradıcısı, Rusiya Müsəlmanlarının I (15 avqust 1905), II 12-23 yanvar 1906) və III (16-21 avqust, 1906) qurultaylarının təşkilatçılarından və "Rusiya Müsəlmanları İttifaqı"-nın rəhbərlərindən biri. "Dildə, işdə, fikirdə birlik" ideyasının müəllifi.

**2."Azərbaycan cüzi-layənfəki İran"** - "Azərbaycan İranın ayrılmaz hissəsidir" (qəzet adıdır). Redaktoru S.Cavadzadə -Pişəvəri idi. Seyid Cəfər Pişəvəri (1892-1947) **-** İran Kommunist Partiyasının təsisçilərindən biri, Azərbaycan Demokrat Firqəsinin sədri. Azərbaycan Milli hökumətinin başçısı (1945-1946), tanınmış publisist.

**3. Noy Jordaniya** (1867- 1953) – Gürcüstanın ilk prezidenti və müstəqil Gürcüstan hökumətinin başçısı. Gürcüstanda doğulan N. Jordaniya Varşavada və İsveçrədə ali təhsil alıb. 1893-cü ilin fevralında gənc marksistlərin ilk dərnəyi olan "Mesame Dase"ni yaradıb. RSDFP-nin Gürcüstanda ilk bölməsini təşkil edib. 1906-cı ildə Rusiyada I Dövlət Dumasının üzvü seçilib. 1918-1921-ci illərdə Müstəqil Gürcüstan dövlətinə başçı-

lıq edib. 1921-ci ilin 19 martında sovet ordusu Gürcüstanı işğal etdikdən sonra Fransaya gedib, mühacirətdə yaşayıb, bolşevik rejiminə qarşı mücadilə edib.

**4.Ovannes Kaçaznuni (1868-1938) -** erməni siyasətçisi və 1918-ci ilin mayından qurulan Ermənistan Cümhuriyyətinin ilk Baş Naziri.

**5.Yohan Lyudviq Runeberq (1804-1877)** - İsveç əsilli fin şairi. Milli - romantik üslubda isveç dilində şeirlər yazıb. Onun yazdığı məşhur "Bizim torpaq" şeiri Finlandiyanın himninə çevrildi.

**6."Kalevala" -** Kareliya-Fin eposu. 50 ronodan ibarətdir**.** Əvvəllər Fin- Kareliya xalqı arasında söylənən dastanlardakı ronolardan ibarət mənzumə.Əsasında Kareliya xalq epik mahnıları dayanır.

**7.Elias Lyonpot(1802 -1884)** –fin dilşünası və həkimi."-Kalevaladakı" folklor materiallarını işləyib hazırlayıb.

**8."Kalevipoter" eposu -** finlandiyalı doktor Fireysvaldın Fin dastan və leyanlarından istifadə edib yaratdığı epos.

## "RUSİYADA SİYASİ VƏZİYYƏT"

***Bu əsər 1926-cı ildə İstanbulda "Amədi" mətbəəsində çap edilib. "Milli Azərbaycan nəşriyyatı" seriyasından 4-cü kitab olaraq nəşr olunub.***

**1."Pravda" (Həqiqət)** - 1912-ci ilin mayın 5-də yayımlanmağa başlayıb. Bolşevik yönümlü qəzet olub. Sovetlər Birliyi dönəmində Kommunist Partiyası Mərkəzi Komitəsinin rəsmi yayım orqanı idi. 1991-ci ilin 22 avqustunda fəaliyyətini dayandırıb. Hazırda Rusiyada bu adla iki qəzet nəşr edilir. Biri özəl media quruluşuna aiddir, digər isə Rusiya Federasiyası Kommunist Partiyasının rəsmi yayın orqanıdır.

**2."Ekonomiçeskaya jizn" (İqtisadi həyat) qəzeti -** əsası 1918-ci ilin noyabrın 6-da qoyulub. Rusiyanın Xalq Təsərrüfatı Ali Şurasının qəzeti olaraq yayınlanmağa başlayıb. 1921-ci ildən qəzet Müdafiə və Əmək Şurasının, 1931-ci ildən isə Dövlət Plan Komitəsinin  və Xalq Maliyyə Komissarlığının orqanına çevrilib. Rusiyada baş verən 1991-ci ilin 19-20 avqust hadisələrindən sonra qəzet "Ekonomiçeskaya jizn" adı ilə nəşrini davam etdirməkdədir.

**3."Cumhuriyyət" qəzeti -** 1924-cü ilin mayın 7-dən Türkiyədə yayınlanan gündəlik qəzet. O illərdə Qurtuluş Savaşını dəstəkləyən ilk qəzet olan "Yeni Gün"ü nəşr edən Yunus Nadi (Abalioğlu), iki ortağı ilə birgə (Həmdi Nəbizadə və Sertel Zəkəriyyə) hazırda "Pəmbə Qonaq" adı ilə tanınan keçmiş "İttihad və Tərəqqi" Partiyasının binasında bu qəzeti yaratdı. Qəzetin ilk Baş redaktoru Zəkəriyyə Ser-

tel oldu. Bu qəzet hazırda Türkiyədə 53 minə yaxın tirajla yayınlanmaqdadır.

**4.Feliks Edmuandoviç Dzerjinski (1877-1926) -** 1917-ci ilin dekabrından 1918-ci ilin iyununa qədər "VÇK"-nın (Ümumrusiya Fövqəladə Komissiyası), 1921-1922-ci illərdə SSRİ QPU-sunun (Xüsusi Dövlət Siyasi İdarəsi) sədri, 1923-1924-cü illərdə RSFSR-in Xalq Daxili İşlər Naziri, 1923-1926-cı illərdə isə Ümumittifaq Fövqəladə Komissiyasının sədri.

**5. "Raboçaya qazeta" (Fəhlə qəzeti) -** Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin orqanı olaraq 1922-ci ilin martın 1-dən 1932-ci ilin 30 yanvarına qədər Moskvada nəşr edilib. Bu qəzet fəhlə - kəndli müxbirlərinin çoxalmasına, fabric - zavod mətbuatının inkişafına kömək edib. Qəzetin nəzdində "Krokodil", "Ekran", "Xoçu vse znat" (Hər şeyi bilmək istəyirəm) kimi jurnallar da çap edilirdi.

**6.Xristian Qriqoryeviç Rakovski (1873-1941) -** Sovet dövlət siyasi xadimi, diplomat. Balkanlarda, Almaniyada, Rusiya və Ukraynada inqilabi hərəkatda iştirak edib. Ukrayna Xalq Komissarları Sovetinin sədri (1919-1923), Ukraynanın Xalq Xarici İşlər Komissarı.

**7.Lev Davidoviç Trotski(1879 -1940)** – inqilabçı,marksizmdə "trotskişilik" cərəyanının ideoloqu.Kominternin ideoloqlarından biri.Sovet dövründə Xarici İşlər üzrə Xalq Komissarı,Hərbi və Dəniz İşləri üzrə Komissar.

**8.Qriqoriy Yakovleviç Sokolnikov (1888-1939) -** 1905-ci ildən RSDFP-nin (Rusiya Demokrat Fəhlə Partiyası) üzvü. 1922-ci ildə RSFSR və SSRİ-nin Xalq Maliyyə Komissarı. SSRİ Dövlət Plan Komitəsinin sədr müavini. 1937-ci ildə 10 il müddətinə həbsdən azad edilib və həbsxanada öldürülüb.

**9. "İzvestiya" (Xəbərlər) -** Rusiyanın və Sovetlər Birliyinin bu ictimai - siyasi qəzeti 1917-ci ilin martından təsis edilib. Sovetlər Birliyi dövründə isə SSRİ Ali Sovetinin orqanı olub. 1991-ci ildə Rusiyada baş verən avqust hadisələrindən sonra müstəqil qəzet olaraq fəaliyyətə başladı və hazırda nəşrini davam etdirir.

**10."Havas" agentliyi -** 1835-ci ildə Garez Lui Havas tərəfindən Fransada əsası qoyulub. 1930-cu illərdə dünyanın əksər bölgələrində nümayəndəlikləri yaranıb. İkinci Dünya müharibəsi illərindən yeni adla - "Frans Press" agentliyi olaraq fəaliyyət göstərir.

**11."Budaqovçuluq" -** 1920-ci illərdə Azərbaycan Kommunist Partiyasında yaranmış cərəyan. Əsas rəhbərləri Mahmud və Eyyub Xanbudaqovlar idi. M. Xanbudaqov (1898-1937) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi idi (1922-1923). E. Xanbudaqov (1893-1937) isə Azərbaycan Fövqəladə Komissiyasının sədri, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin ikinci katibi idi. Onlar (hər iki qardaş) Moskvanın ciddi təsirinə, milli məsələnin həyata keçirilməsinin düzgün aparılmadığına, mədəni quruculuqda nöqsanlara yol verdiyinə və digər məsələlərə etiraz edirdilər.

**12.Lazar Moiseyeviç Kaqanoviç (1893-1991) -** Sovetlər Birliyində önəmli vəzifələrdə çalışıb. Yəhudi əsillidir. Stalinin yaxın silahdaşı olub. 1930-1957-ci illərdə Sov. İKP MK-nın Siyasi Bürosunun üzvü olub.

**13. Vlas Yakovleviç Çubar (1891-1939) -** Sovet dövlət və partiya xadimi. 1907-ci ildən RSDFP(b)-nin üzvü, SSRİ Xalq Komissarları Sovet sədrinin müavini(1934-1938), SSRİ-nin Xalq Maliyyə Komissarı (1937-1938), Ukrayna Xalq KOmissarları Sovetinin sədri (1923-1934).

**14. Kanton hökuməti -** 1927-ci ildə Çinin cənubunda (Quançjonda - Kantonda) Çin kommunistlərinin başçılığı altında

Qomindana qarşı üsyan. Kanton üsyanı məğlubiyyətlə başa çatdı və 1925-1927-ci illərdəki Çin inqilabı zəiflədi.

**15.Stenli Balduin (1867-1947) -** Britaniya siyasətçisi, Böyük Britaniyada Konservatorlar (Mühafizəkarlar) Partiyasının üzvü. Böyük Britaniyada 55, 57 və 59-cu hökumət kabinələrində Baş Nazir.

**16. Leonid Borisoviç Krasin (1870-1926) -** Rusiyada sosial - demokrat hərəkatının iştirakçısı, sovet dövlət və partiya xadimi. RSFRSR-in Xalq Sənaye və Ticarət Komissarı (1918-1920). SSRİ Xalq Xarici Ticarət Komissarı (1923-1925). V. İ. Leninin cəsədinin Moskvadakı Qızıl Meydanda mavzoley yaradılıb, orada saxlanılmasının əsas təşəbbüskarlarından biri. Ömrünün sonlarında SSRİ-nin Böyük Britaniyada səlahiyyətli nümayəndəsi olub.

**17.Raymon Puankare (1860-1954)** - Fransa dövlət xadimi, 3 dəfə Fransanın Baş Naziri və Fransanın Prezidenti(1913-1920-ci illər), Konservatorlar Partiyasının lideri.

**18.Kliment Yefremoviç Voroşilov (1881-1969) -** Sovet dövlətinin tanınmış xadimi, Sovet İttifaqı Marşalı. 1934-1940-cı illərdə SSR Xalq Müdafiə Komissarı, 1953-1960-cı illərdə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, 1926-1952-ci illərdə Ümumittifaq Kommunist(b) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü.

**19.Pavel Nikolayeviç Milyukov (1859-1943) -** Rus siyasi xadimi, tarixçi və publisist. Konstitusiyalı  Demokratiya (Xalq Azadlıq Partiyası, Kadet Partiyası) Partiyasının sədri. 1917-ci ildə (2(15) mart - 5(18) may, 1917) Müvəqqəti Hökumətin Xarici İşlər Naziri.III və IV Dövlət Dumasının deputatı. 1921-1940-cı illərdə Parisdə Rus mühacirətinin mətbuat orqanı olan “Poslednie novosti” (Sonuncu xəbərlər) qəzetinin redaktoru olub.

# MİLLİYYƏT MƏSƏLƏSİNDƏ BOLŞEVİK NƏZƏRİYYƏ VƏ ƏMƏLİYYATIARI

***Bu məqalə ilk dəfə Məhəmməd Əmin Rəsulzadənin redaktəsi ilə 1928-ci ildə İstanbuldakı "Orxaniyyə" mətbəəsinin buraxdığı "Milliyyət və bolşevizm" məqalələr məcmuəsində çap olunub.Qeyd edək ki,bu məcmuə 1929-cu ildə İstanbulda fars dilində də nəşr edilib.***

**1.Mixail Nikolayeviç Pakrovski (1868-1932) -** tanınmı rus Marksist - tarixçisi, sovet siyasi xadimi. SSRİ Elmlər Akademiyasının akademiki, Moskva Hərbi - İnqilab Komitəsində Xarici İşlər üzrə komissar. RSFSR Xalq Maarifi Komissarının müavini, 1921-ci ildə yaradılmış "Qırmızı Professorlar İnstitutu"nun rektoru.

**2.Mixail Tomski(1880-1936)** – sovet partiya və həmkarlar xadimi.

**3.Frank monarxiyası -** Qərbi və Mərkəzi Avropada V- IX əsrlərdə mövcud olan dövlətin şərti adı, Qərbi Roma imperiyası ərazisində yaradılıb. Bu əraziyə III əsrdən başlayaraq franklar köçürülüb.

**4.Mayordomlular hakimiyyəti -** Frank monarxiyasında 687-ci ildə Pipin Qeristalskinin qələbəsi ilə real hakimiyyətə sahib olan, Arnulfinglər nəslinin davamçıları.

**5. Mikado (mənası - Hündür qapılar) -** keçmişdə (indi istifadə edilməyən) Yaponiyanın hökmdarını müəyyən edən titul. Hazırda bu, tenno (imperator) adlanır.

**6.Siyoqan -** Yaponiya tarixində böyük bir dövrdə dövləti idarə edənlər (1192-ci ildən - Meydri dövrünə, yəni 1868-ci ilə qədər).

**7.Benito Mussolini (1883-1949) -** İtaliyanın siyasi və dövlət xadimi. Publisist, Milli Faşist Partiyasının lideri, 1922-1943-cü illərdə İtaliyanın Baş Naziri.8

**8.Abbasilər xilafəti (750-1258) -** Ərəb xilafətində əməvilərdən sonra hakimiyyətə yiyələnmiş Abbasilər sülaləsinin yaratdığı orta əsr feodal - teokratik dövləti. Abbasilər xilafətinin tərkibinə ərəb ölkələri, Qafqaz, Azərbaycan və İran (IX əsrin əvvəllərinə qədər) Orta Asiyanın cənubu, Misir, eləcə də Şimali Afrika (IX əsrə qədər) daxil idi.

**9.Lyüdviq Oskar Frossar -** fransız siyasi xadimi.1920 - ci ildə Fransız Komunist Partiyasını yaradıb və onun birinci katibi olub.

**10. "Voyennıy mısl" (Hərbi fikir) jurnalı -** hərbi - elmi xarakterli bu jurnalın ilk sayı 1921-ci ildə Özbəkistanın Daşkənd şəhərində nəşr edilib.

## "BOLŞEVİKLƏRİN ŞƏRQ SİYASƏTİ"

***Bu məqalə ilk dəfə Məhəmməd Əmin Rəsulzadənin redaktəsi ilə 1928-ci ildə İstanbuldakı "Orxaniyyə" mətbəəsinin buraxdığı "Milliyyət və bolşevizm" məqalələr məcmuəsində çap olunub. Bu məcmuə 1929-cu ildə İstanbulda fars dilində də nəşr edilib.***

**1.İvan Andreyeviç Krılov(1769 – 1844) –** rus şairi,təmsilçisi və publisisti.236-dan çox təmsilin müəllifidir.

**2 "İran" qəzeti -** İranın aparıcı qəzetlərindən biridir. Fars dilində çıxır. Gündəlik qəzetdir. Bu qəzet hazırda əsası 1934-cü ildə qoyulan "İRNA" (İran İslam Respublikasının İnformasiya Agentliyi) agentliyinin təsiri altında nəşr edilir.

**3.Qo Min Dan partiyası** – Çinin milli partiyasıdır.1912-ci ilin avqustunda  Sun Yatse tərfindən yaranıb. 1926-1949 cu illərdə hakim partiya olub.

**4.III İnternasional** – 1919-cu ilin martında Moskvada kommunistlərin beynəlxalq qurultayı keçirildi.Bu qurultay III Beynəlxalq İnternasionalı- bütün ölkələrdə sovet hakimiyyətini qurmaq istəyən dünya fəhlələrinin birliyini yaratdı.

**5."Yeni Qafqasiya**" jurnalı - 1923-1927-ci illərdə Türkiyədə İstanbulda M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr edilib.

**6."Bolşevik" jurnalı -** 1924-cü ildən Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin (sonradan Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının) həftəlik iqtisadi, siyasi (nəzəri) jurnalı olaraq rus dilində çıxır və "Pravda"nın nəşri idi. 1952-ci ildən isə "Kommunist" adı ilə çap olundu.

**7."Milliyyət" qəzeti -** Qurucusu Əli Naci Karacan olan "Milliyyət" qəzeti Türkiyənin əhəmiyyətli gündəlik mətbuat orqanlarındandır. İlk sayı 1950-ci ilin mayın 3-də çıxıb.

**8.Şükru Qaya (1883-1959) -** Qurtuluş Savaşına qatılmış, Türkiyənin Daxili İşlər Naziri (1927-1938), Türkiyənin Xarici İşlər Naziri (1924-1925), Cümhuriyyət Xalq Partiyasının Baş Katibi (1935-1939)  vəzifələrində çalışıb.

# İXTİLALÇI SOSİALİZMİN İFLASI VƏ DEMOKRASİNİN GƏLƏCƏYİ

***Bu əsər M.Ə.Rəsulzadənin iki konfransdakı çıxışı əsasında hazırlanıb və 1928-ci ildə "Milli Azərbaycan Nəşriyyatı"nın 8-ci sayı olaraq İstanbulda "Orxaniyyə" mətbəəsində ayrıca kitab olaraq çap edilib.***

1.**Jan Jak Russo (1712-1778)** – fransız filosofu, XVIII əsr Fransada "Maarifçilik" hərəkatının ən görkəmli nümayəndəsi, 1789-1794-cü illərdə Fransa Burjua inqilabı zamanı onun əsərləri yakobinlərin əsas ideya dayağı olmuşdur.

2. **İmmanuel Kant (1724-1804)** – görkəmli alman filosofu, neoklassik alman fəlsəfəsinin banisi, müasir Avropa fəlsəfə tarixinin ən nüfuzlu nümayəndələrindən, Qərbi Avropada İntibah dövrünün son böyük filosoflarından biri.

3. **Georq Vilhelm Fridrix Hegel (1770-1831)** –obyektiv idealist, klassik alman fəlsəfəsinin nümayəndəsi, "Hüquq fəlsəfəsi", "Fəlsəfə tarixinə dair mühazirələr", "Estetikaya dair mühazirələr", "Tarix fəlsəfəsinə dair mühazirələr" əsərlərinin müəllifi.

4.**Ogüst Kont (1798-1857)** – fransız sosioloqu, pozitivizmin banisi. Sosiologiyanın bir elm kimi formalaşmasında, onun tarix və fəlsəfədən ayrıca fəaliyyət göstərməsində rolu böyükdür.

5.**Herbert Spenser (1820-1903)** – ingilis filosofu və sosioloqu. İngiltərədə sosiologiyanın əsasını qoyanlardan biridir. Pozitivizimin təşəkkülündə əvəzsiz rolu olmuşdur. 1860-1893-cü illərdə yaratdığı Sintetik Fəlsəfə Sistemi ilə məşhurdur.

6.**Karl Marks (1818-1883)** – alman filosofu, siyasətçisi, marksizm-leninizm nəzəriyyəsinin banisi. “Kommunist Manifesti” və “Kapital” əsərlərinin müəllifi.

7. **Platon (bəzən Əflatun kimi tanınır)(E.ə.428 və ya E.ə.427 – E.ə.348 və ya 347)** – qədim yunan idealist filosofu.sokratın tələbəsi,Aristotelin müəllimi.

8.**Robert Ouen (1771-1858)** – ingilis filosof, pedaqoq və utopik sosialisti, XIX əsrin ilk sosial inqilabçılarından biri.

9.**Jozef Furye (1768-1830)** – fransız riyaziyyatçısı və fiziki. Onun “İstiliyin analitik nəzəriyyəsi” əsəri triqonometrik sıralar nəzəriyyəsi və analizin bəzi ümumi məsələlərinin işlənib hazırlanması üçün istinad mənbəyi hesab olunur.

10.**Henri Sen-Simon (1760-1825)** – fransız filosof və sosioloqu, tanınmış sosial inqilabçı, utopik sosializm məktəbinin yaradıcısı.

11.**Pyer Jozef Prudon (1809-1865)** – fransız siyasətçi, iqtisadçı, publisist, filosof və sosioloqu. Fransa parlamentinin üzvü, tarixdə özünü “anarxist” adlandıran ilk şəxs, anarxizm nəzəriyyəçilərindən biri.

12.**Fridrix Engels (1820-1895)** – XIX əsr alman filosofu, marksizmin yaradıcılarından biri, Karl Marksın yaxın dostu, köməkçisi və bir çox əsərlərinin həmmüəllifi.

13.**Adam Smit (1723-1790)** – şotland əsilli Böyük Britaniya filosof və iqtisadçısı. “Əxlaqi münasibətlər nəzəriyyəsi” və “Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktak” əsərlərinin müəllifi. Əsərlərində iqtisadiyyatda və təbiət hadisələrində nizam olduğunu və bunun müşahidə və əxlaq hissi ilə müəyyən oluna biləcəyini qeyd etmişdir.

14.**Şarl Jid (1847-1932)** – fransız iqtisadçı, Nim məktəbi – Fransa kooperativ hərəkatının yaradıcısı.

15.**Fridrix List (1789-1846)** – alman iqtisadçısı, siyasətçisi və publisisti. XIX əsrin birinci yarısında alman burjuaziyasının görkəmli ideoloqu, XIX əsrin 40-cı illərində Almaniyada yaranmış alman siyasi iqtisad tarixi məktəbinin əsasında məhz onun baxışları dururdu.

16.**Avqust Bebel (1840-1913)** – alman sosial-demokratı, Almaniya Sosial-Demokrat partiyasının və II İnternasionalın qurucularından biri.

17.**Ferdinand Lassal (1825-1864)** – alman filosofu, iqtisadçısı, hüquqşünas və siyasi xadimi. "Qazanılmış hüquqlar sistemi" əsərinin müəllifi.

18.**Karl Kautski (1854-1938)** – alman sosial-demokratı, alman iqtisadçısı, tarixçi və publisistidir. "Proletar diktatorluğu" əsərinin müəllifi. Klassik marksizmin nəzəriyyəçisidir. K. Marksın "Kapital" əsərinin IV cildinin redaktorudur.

19.**Eduard Bernşteyn (1850-1932)** – alman sosial-demokratı, reformizm və sosial-reviziyonizmin cərəyanının qurucusu.

20.**Yohan Qotlib Fixte (1762-1814)** – klassik alman fəlsəfəsinin əsas nümayəndələrindən və subyektiv idealizm cərəyanının yaradıcılarından biri.

21.**Karl Libkinext (1871-1919)** – alman və beynəlxalq fəhlə və sosialist hərəkatı xadimi, Almaniya kommunist partiyasının banilərindən biri.

22.**Ceyms Ramsey Makdonald (1866-1937)** – Britaniya siyasətçi və dövlət xadimi, Leyboristlər partiyasının qurucusu və əsas liderlərindən biri. Müxtəlif vaxtlarda Böyük Britaniyanın baş naziri olmuşdur.

23.**Filipp Şeydeman (1865-1939)** – alman siyasət adamı, sosial-demokrat, Veymar Respublikasının ilk baş naziri.

24.**"Döyçland Über Alles"** – Almaniyada milli birliyin əldə edilməsi üçün düstur halına gələn söz, nasistlərin ari irq davası üçün istifadə etdikləri söz; Almaniya Milli Marşı.

25. **Otto fon Bismark(1815 – 1898)** –Almaniya imperiyasının 1-ci kansleri.

26.**Uilyam Layon Makenzi Kinq (1874-1950)** – kanadalı siyasətçi, Kanadanın 10-cu Baş Naziri.

27.**Otto Bauer (1881-1938)** – avstriyalı sosial-demokrat siyasətçi, Avstriya marksizminin nəzəriyyəçilərindən biri.

28.**Alfred Adler (1870-1937)** – avstriyalı həkim, psixoterapevt, neofreydizmin nümayəndələrindən biri, individual psixologiya məktəbinin yaradıcısı.

29.**Le Bon Qustav (1841-1931)** – fransız həkimi, sosioloqu və psixoloqu, sosial psixologiyanın yaradıcılarından biri.

## "QAFQASİYA TÜRKLƏRİ"

***Bu əsər ilk dəfə olaraq böyük türkoloq Yusif Akçuraoğlunun 1928-ci ildə nəşr etdiyi "Türk İli" adlı illik məcmuəsində çap olunub (səhifə 474-552).***

**1.Nikolay Yakovleviç Marr (25 dekabr1864 - 6 yanvar 1865 - 1934) -** rus və sovet şərqşünası, Qafqazşünas, filosof, tarixçi, etnoqraf və arxeoloq, İmperator Elmlər Akademiyasının akademiki, SSRİ Elmlər Akademiyasının vitse - prezidenti.

**2.Herodot (m. ö. 484 - m. ö. 425) -** m. ö. V yüzillikdə yaşamış Yunan tarixçi və antik yazar. Tarixin atası olaraq anılır.

**3. Strabon (m. ö. 64 - m. s. 24 -** yunan tarixçisi, coğrafiyaçı və filosof. Yaşadığı dövrdə bilinən yerlərdə hansı millətlərin yaşadığı haqqında çalışmalar aparması ilə ad qazanıb.

**4.Atilla (406-453) -** Avropa Hun imperatorluğu hökmdarı. Hökmdarlığı boyunca Qərbi və Şərqi Roma imperatorluqlarına səfərlər etmişdir.

**5.II Heraklius (575-641) -** Şərqi Roma imperatoru olub (5 oktyabr 610 - 11fevral 641). Əsil adı belədir - Flavius Heraklius Auqustus.

**6.II Xosrov(570- 628)** – ləqəbi Pərvizdir.Sasanilər imperiyasının şahənşahıdır.

**7.III Yezdəgerd(624 -651)** – İran şahı.Sasanilər sülaləsinin sonuncu şahı.16 iyun 632-651 ci illərdə hökmdarlıq edib.Ərəblərə məğlub olub.

**8.Əmir Buğa(Buğa Əl-Kəbir,Böyük Buğa) –** IX əsrdə Abbasilər zamanı xidmət etmiş terk(xəzər) mənşəli xilafət sərkərdəsi.Sonrala ərəblər tərəfindən edam edilib.

**9. Böyük Səlcuq imperiyası (1038-1157) -** Oğuz türklərinin Qınıq boyundan olan tayfaların XI əsrdə yaratdığı Orta Asiya, İran, Yaxın Şərq, Qafqaz və Anadolu ərazilərini əhatə edən nəhəng Türk dövləti. İlk paytaxtı Nişapur şəhəri idi.

**10.Azərbaycan Atabəylər və ya Eldənizlər dövləti (1136-1225) -** bu günkü Azərbaycan, İraq, Türkiyə, Şimal - qərbi İranı əhatə edən tarixi Azərbaycan dövləti. Dövlətin əsasını Azərbaycan türklərindən qıpçaq boyundan azad olan atabəy Şəmsəddin Eldəniz qoyub.M.Ə.Rəsulzadə qeyd edir ki,bu dövlətin digəri bir adı da Pəhləvanilər adlanırdı.

**11.Xarəzmşahlar dövləti -** İmperiya. 1077-1231 –ci illərdə mövcud olmuş bir Türk dövləti.

**12.Hülakü xan (1217-1265) -** Elxanilərin qurucusudur. Çingiz xanın nəvəsidir. Elxanilər dövlətinin paytaxtı 1265-1306-cı illərdə Təbriz olub.

**13.Elxanilər dövləti (1256-1353) -** dövlətin əsasını Çingiz xanın nəvəsi Hülakü xan qoyub. Bu dövləti Hülakülər də adlandırırlar. Bu dövlətin hakimləri Elxan adlandırıldığına görə "Elxanilər" dövləti də deyilir. "Elxan" adı "tabe olan xanlıq" mənasını verir.

**14.Cəlarilər sülaləsi** - 1336-cı ildən 1432-ci ilə qədər Azərbaycanda.İranda və İraqda iqtidarda olmuşmonqol xanədanı.

**15.Adam Oleari (1599-1671) -** məşhur alman alimi, riyaziyyatçı, coğrafiyaşünas və diplomat. Holşteyn - Qottorp hersoqu III Fridrixin İrana göndərdiyi səfirliyin katibi olub və səyahəti zamanı qələmə aldığı hadisələrin təsvir edildiyi iki kitab çap etdirib. Bu kitablarda Rusiya, Azərbaycan və İran haqqında detallı təsvirlər, həmçinin şəkillər yer alır.

**16.Övliya Çələbi (1611-1682) -** XVII yüzilliyin məşhur səyyahlarındandır. Əlli ilə yaxın Osmanlı torpaqlarını gəzib və gördüklərini "Səyahətnamə" adlı əsərində toplayıb.

**17.Vasili Bartold (1869-1930) -** Rus və sovet tarixçisidir. Orta Asiya və Türkstanla bağlı araşdırmalar aparıb.

**18.Şəddadilər dövləti(951-1174)** – sülalənin banisi Məhəmməd ibn Şəddaddır.Cənubi Qafqazın Gəncə.Naxçıvan,Dvin Ani əmirliklərində hakimiyyət başında olmuşlar.

**19.Şah Abbas(1571-1629)** - Şah I Abbas.Mənşəcə Azərbaycan türklərindən olub.Səfəvilər sülaləsindəndir.1587-1629-cu illərdə hakimiyyətdə olub.

**20.Nadir şah (1688-1747) -** Əfşarlar dövlətinin qurucusu və 1736-1747-ci illərdə İran şahı. İran, Azərbaycan, Hindistanın şimalı və Orta Asiyanın bir hissəsini əhatə edən böyük İran imperatorluğunun yaradıcısı.

**21.Ağa Məhəmməd Şah Qacar (1742-1797) -** Azərbaycan, İran və Qacarlar dövlətinin I Şahı. 1791-ci ildə Ağa Məhəmməd özünü İran şahı elan edib.

**22.Hacı Çələbi xan(1703-1755)** – görkəmli siyasi xadim, sərkərdə, müstəqil Şəki xanlığının yaradıcısı.

**23.Şeyx Şamil (1797-1871) -** Şimali Qafqaz xalqalrının avar əsilli siyasi və dini lideri. Qafqaz savaşında çar Rusiyasına qarşı müqavimət hərəkatının lideri və Dağıstanla Çeçenistanın III İmamı (1834-1859).

**24.Pavel Dmitriyeviç Sisianov (1754-1806) -** gürcü əsilli rus general. Rusiyanın Qafqazdakı qoşunlarının komandanı.

**25.Mehmet Fuad Köprülü (1830-1966) -** türk ordinaryürs professor tarixçi, Türkoloq, Xarici İşlər Naziri olmuş siyasətçi və ədəbiyyat araşdırmaçısı.

**26.Həbibi (1470 və ya 1475-1520) -** məşhur Azərbaycan şairi Füzulinin ustadlarından sayılır. Göyçay qəzasında, indiki Ucar rayonunun Bərgüşad kəndində anadan olub. Şah İsmayıl Xətainin sarayında böyük nüfuz qazanıb.

**27.Mixail Semyonoviç Vorontsov (1782-1856) -** rus dövlət xadimi, general - feldmarşal (1856), Qafqazın ilk canişini (1844-1854).

**28.Mirzə Kazım bəy (rusca Aleksandr Kazımoviç Kazımbek) (1802-1870) -** əsl adı Məhəmməd Əli Kazımbəy olub. Azərbaycan əsilli rus şərqşünası, tarixçi, türkşünas və filoloq. Rusiya Elmlər Akademiyasının ilk azərbaycanlı üzvü.

**29.”Orucov Qardaşları” mətbəəsi (1905-1917)** – mətbuat xadimi,naşir Oruc Orucov( 1878 – 1854) tərəfindən qardaşları Qənbər və Abuzər tərəfindən 1905 –ci ildə yaradılıb.1917 –ci ilə qədər mövcud olan bu mətbəədə 333 kitab və bir neçə qəzet nəşr edilib.

**30.”Səda” qəzeti** - 1909-1911-ci illərdə Haşım bəy Vəzirov tərəfindən yayınlanıb.

**31.Həmdulla Mustovfi Qəzvini**(1281-1346) – Elxanilər dövlətinin vaxtında şair,tarixçi,coğrafiyaçı.

**32.Adil Xan Ziyadxanov**(1872 -1954) – görkəmli dövlət xadimi,alim,diplomat.Moskva Universitetinin hüquq fakültəsini bitirib.AXC dövründə Azərbaycan Xarici işlər nazirinin müavini olub.Azərbaycanın İranda ilk Fövqəladə və səlahiyyətli səfiri işləyib.

**33.Əhməd bəy Pepinov (1893-1938) -** Azərbaycan Xalq Cümhuriyyətinin və Qazaxıstan SSR-in ictimai - siyasi və dövlət xadimi. Azərbaycan Milli Şurasının üzvü, Azərbaycan Parlamentinin üzvü və katibi, 5-ci Nazirlər Kabinetində Əmək və Əkinçilik naziri. Moskva Dövlət Universitetinin Hüquq fakultəsini bitirib. Sovet Azərbaycanında təqib edildiyindən Qazaxıstana köçmüş (1934-cü il) və orada Qazaxıstan SSR Maarif nazirinin müavini işləyib.

**34.Əkbər ağa Şeyxülislamov(1891-1961) -** Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci Əkinçilik və Əmək naziri, Sosialistlər fraksiyasının üzvü.

**35.Firidun Köçərli(1863 -1920)** – görkəmli Azərbaycan maarifçisi,pedaqoq.ədəbiyyatşünas və Azərbaycan alimi.

**36.Salman Mümtaz(1884-1941)** – ədəbiyyatşünas, Azərbaycan alimi.Klassik Azərbaycan ədəbiyyatı nümunələrinin toplanılmasında böyük xidmətləri olub.

**37.Məhəmməd Həsən Baharlı(1896 – 1937)** – AXC dövründə 1919-cu ilin sentyabrın 30-da yaradılmış Azərbaycan Dövlət Bankının ilk müdiri.

**38.Nəcməddin Qotçinski (1859-1925) -** siyasi xadim, Dağıstanda əksinqilabi hərəkatın liderlərindən biri. Milliyyətcə avar. Şimali Qafqazın müftisi, sonradan isə imamı.

**39.Səid Şamil (1901-1981) -** İmam Şamilin nəvəsi, Məhəmməd Səid bəy. Türkiyədə yaşayıb, türkiyə ordusunda general rütbəsinə qədər yüksəlib. 1920-ci ildə Dağıstanda bolşeviklərə qarşı böyük bir üsyanın təşkilatçısı. Sonradan Polşada yaşayıb. "Qafqaz İstiqlal Komitəsi"nin yaradıcılarından biridir.

# SÖZLÜK

## A

Adat – adətlər
Afaqi – perspektiv
Alam – dərdlər, kədərlər
Anarşi – anarxiya
Anqarya – biyar
amal – arzular, diləklər
alud – bulaşıq, bulaşmış
Ari – çılpaq, yalın; mərhum; boş
Arizə – baş verən; əngəl, maneə; bədbəxt hadisə
Asar – əsərlər
Asi – itaət etməyən, üsyançı
Asif – şiddətli ruzgar, fırtına
Aşna – tanış
Ati – gələcək; ön, qabaq
Atil – ətalətli, işsiz
Ayqırı – zidd

## B

Badi-həva – boş yerə
Bakır – mis
Baqqaliyyə – tacir, alverçi
Baqi – daimi, əbədi
Baqiat – əbədilik, həmişəlik
Baliğ – həddi-buluğa çatmış
Bandıra – gəminin hansı dövlətə aid olduğunu göstərən bayraq
Baru – barı, divar; sığınacaq
Bazu – qol, əzəmət
Beyzə – yumurta; dəbilqə
Beynəldüvəl – dövlətlərarası
Bəcayiş – yerdəyişmə
Bəd – sonra
Bədən – sonrasında, axırında
Bədəhü – ondan sonra, bundan sonra
Bədtər – daha pis
Bəhəqq – həqiqətən, doğrudan
Bəhriyyə – dəniz
Bəqər – qaramal
Bəqiyyə – qalıq, artıq qalan
Bəqiyyəti-səlihət – savab, yaxşılıq
Bəlirmək – meydana çıxmaq
Bənam – adlı-sanlı, məşhur
Bəndər – liman
Bəniyə – oğullar
Bərtərəf – dəf etmə, aradan götürmə
Bərvəch – uyğun olaraq; kimi, üzrə
Bəsmələ – “Bismillahir-Rəhma-nir-Rəhim”in yığcam forması
Bətaət – yavaşlıq, sürətsizlik
Bəti – ağır, yavaş, sürətsiz
Bəzl – səxavət, bəxşiş
bəzm – məclis, yığıncaq, eyş-işrət məclisi
Bihudə – boş, mənasız
Bidayət – əvvəl, başlanğıc
Bilabədəl – əvəzsiz, qarşılıqsız

Bilad – ölkələr, şəhərlər
Biləxirə – nəhayət
Bilcümlə – tamamilə, bütünlüklə
Biləks – əksinə
Bilxassə – xüsusilə
Bilfel – işdə, işlə indi,hələ doğrudan
Bin – görən
Binaənileyh – buna görə
Bizzat – özü, şəxsən özü
Buçuq – yarım, yarısı
Bünyə – quruluş, yapı

**C**

Came – toplamaq
Cari – rəvan
Calib – cəlb edən, cəzb edən
Cansipəranə - canından keçərək, sədaqətlə
Caiz – icrasına yol verilən, icazəli
Cəbr – zor işlətmə, nəhəng adam
Cəladət – igidlik
Cələsə – iclas, müşavirə
Cəmad – qeyri-üzvi maddə
Cəmahiri-müctəme – respublikalar birliyi
Cəngicu – militarist
Cərr – özünə doğru çəkmə
Cəsim – iri, gövdəli
Cəvaz – icazə; mümkünlük
Cibal – dağlar
Cibillət – yaradılış, xilqət, təbiət, xasiyyət
Cidal – savaşma, cəng
Cinai – cinayətə aid
Cürm – günah, təqsir, qəbahət
Cüz – qism, hissə, parça
Cüft – qoşa, cüt, yoldaş

**Ç**

Çarçeşmlə – dördgözlə
Çaplin – təyyarə
Çiftlik – əkin sahəsi, ərazi
Çüha – cökə

**D**

Darülmüəllimat – qadın müəllimlər seminariyası
Darülmüəllimin – müəllimlər institutu
Darülfünun – universitet
Dastani-həmasət – igidlik dastanı
Dava – iddia, tələb olma, vuruşma
Delegə – nümayəndə
Demarş – uğraşma, təşəbbüs
Dəxalət – başqasının işinə qarışma
Dəmin – bir anda
Dəni – alçaq, rəzil
Dərbə – zərbə
Dərəkə – uçurumun dibi, aşağı pillə
Dərmiyan – arada, aralıqda
Dəröhdə – bir işi etmək, üzərinə götürmək
Dəstrəs – imkan; nail, müvəffəq
Dəstur – vəzir, müşavir, adət, icazə, fərman

Durəndiş – uzaqgörən
Dövreyi-təşəkkül – təşəkkül illəri
Düşvar – çətin
Düvəl – dövlətlər

**E**

Edadiyyə – orta məktəb
Edinmək – əldə etmək
Elam – bildirmə
Emar – abad etmə
Ehdas – meydana gətirmə
Ehmal – əhəmiyyət verməmə
Ehraz – qazanma, nail olma
Ehsa – sayma, hesablama
Ehtida – başqa bir dindən çıxıb müsəlman olma
Ehtikar – möhtəkirlik
Ehtiva - içinə alma, içində saxlama
Etizal – işdən çıxma, istefa vermə
Ehtimam – çox diqqətlə çalışma, artıq dərəcədə səy göstərmə
Ehya – dirilmə, canlanma
Ehzar – hüzura gətirmə
Ehtifalati-əzimə – böyük mərasimlər
Etilaf - birləşmə
Enerjik – fəal
Etiyad – adət etmə, vərdiş etmə
Erişilmək – çatmaq, yetişmək

**Ə**

Əbniyə – binalar
Əcanib – əcnəbilər
Əcib – əcaib
Əcir – günəmuzd
Ədani – alçaqlar
Əda – tərz; davranış; ödəmə etmə
Ədəm – yoxluq, ölüm, bacarıqsız
Ədd – hesab, say
Ədl – ədalət
Ədyan – dinlər
Əfrad – fərdlər
Əfkar – fikirlər
Əğləb – ən qüvvətli; daha çox
Əğzab – qəzəb
Əhibba – dostlar
Əhli – əhliləşdirilmiş
Əhliyyət – ləyaqət; əhliləşmə
Əhvən – ən az; lap yumşaq
Əksüləməl – cavab, reaksiya
Əqamət – nəticəsizlik, qısırlıq
Əqanim – əsillər
Əqəb – axır, son
Əqəliyyət – azlıq
Əqim – sonsuz; nəticəsiz, səmərəsiz
Əqmişə – qumaşlar
Əqsam – qisimlər, hissələr
Əqd – bağlama, qurma, nikah
Ələləcələ – tələsik
Ələlümum – ümumiyyətlə
Ələm – ağrı, kədər.
Ələnən – açıq, aşkar
Ələni – aşkar, meydanda olan
Əlim – dərd verən, incidən
Əlviyə – hərbi hissə, rayonlar; bayraq
Əlviyəyi-səlasə – üç rayon (*Osmanlı dövründə Batum, Qars və Ərdahanın ortaq adı*)

Əlzəm – ən lazımlı
Əməl – iş; arzu, istək
Əmələ – işçi, fəhlə
Əmin – qorxusuz, təhlükəsiz
Əmniyyət – təhlükəsizlik
Əmri-vaqe – olub bitmiş iş
Əmsal – oxşarlar; formul
Ənasil – nəsillər, əsillər
Ənasir – ünsürlər
Əncümən – məclis, cəmiyyət, şura
Ənqaz – xaraba, viranə
Ənva – növlər
Ənqa – adı olub, özü olmayan şey
Ənhar – çaylar, arxlar
Ənzar – nəzərlər, baxışlar
Əndişənak – dərdli, qayğılı
Ənud – inadcıl, tərs
Ərəq- tər; araq
Ərbab – yiyə, sahib
Ərkan – böyüklər, yüksək şəxslər.
Ərkani-hərb – baş qərargah
Ərqam – rəqəmlər
Əsami – isimlər, adlar
Əsbab – səbəblər
Əsbabi-sərahət – səbəbləri açıq bilmək
Əsəf – təəssüf
Əsğəri – minimum
Əsna – aralıq
Əsnaf – alverçi, ticarətçi
Əsri – müasir
Əşirət – tayfa
Əşxas – şəxslər
Əta – vermə, bağışlama
Ətf – çevirmə, əymə, meyletmə
Ətibba – təbiblər, həkimlər
Ətiq – qədim, əski, köhnə
Əvamil – amillər
Əvamili-mühimmə – mühüm amillər
Əvamir – işlər
Əvariz – təsadüfi hadisələr
Əza – üzvlər
Əzcümlə – o cümlədən
Əzəm – ən böyük, ulu
Əzəmi – maksimum
Əzəmət – böyüklük, ululuq
Əzm – qəti niyyət, məram
Əzimə – getmə, yola düşmə
Əzhan – zehinlər

**F**

Fahiş – həddən artıq; əxlaqa zidd
Faiq – üstün, yüksək
Fail – işləyən
Farə – kiçik siçan, kəsəyən
Fariğ – boş, asudə; rahat
Fariq – ayıran
Fehrist – kitab mündəricatı; siyahı
Fel – hərəkət
Felən – həqiqətən
Fəcaye – faciələr
Fəci – faciəli
Fəhva – məna, anlam
Fəqr – yoxsulluq, kasıblıq

Fəlahat – əkinçilik
Fərarən – qaçaraq
Fərza – fərz edək ki
Fərz – vacib
Fərsudə - köhnəlmiş, əzik, bürüşmüş
Fərtut – çox qoca, əldən düşmüş qoca
Fəzlə – artıq, çox
Fəttan – fitnəkar, araqarışdıran; könül açan, cazibəli
Fiqdan – itki, mərhumiyyət
Filo – flot (dəniz donanması)
Filhəqiqə – həqiqətən
Firar - qaçma, sovuşma
Firəq – firqələr
Fisq - əxlaqsız, mənəvi pozğunluq
Fövr – müvəffəqiyyət, qalibiyyət
Füqəra – yoxsul, zavallı
Fünun – fənnlər
Füruş – satış
Füsul – fəsillər
Füzul – lazımsız, haqsız iş
Füzuli – yersiz danışan; uzunçu

## G

Gərm – hərarət, istilik
Gərd – toz, torpaq; dərd, hüzn; gəzən, dolanan
Giyotin – başkəsən (alət)
Güşad – geniş, açıq
Gərçi – hər nə qədər, isə də
Gözətmək – güdmək, izləmək (mənafe)

## H

Hadd – kəskin, sərt
Haiz – malik olmaq
Hala – indi
Hamil – yüklü, yüklənmiş
Hars – mədəniyyət, kültür
Havyar – kürü
Heyəti-məraqibə – rəqiblər heyəti
Həbl – ip, kəndir
Həddi-zatında – təbiətində; əslində
Hədid – dəmir; şiddətli; isti; acıqlı
Hədsən – güman ki
Həmasət – cəsarət, igidlik
Hənuz – hələ
Hərbi-ümumi – dünya müharibəsi
Hərs – əkinçi
Hərim – məhrəm yer, yaxın adamların gedə biləcəyi yer
Həsbilə – qarşılıqsız; baxımından
Hətk – yarma, şərəfsizlik, rüsvayçılıq
Həvadis – hadisələr
Həvali – ətraf
Həvi – içində saxlamaq, içinə almaq
Həzimət – məğlubiyyət
Həziran – iyun ayı
Həziz - ən aşağı və alçaq yer
Hifzüssihhə – səhhəti qorumaqdan bəhs edən tibb elmi
Himmət – cəhd, səy, qeyrət, çalışma
Hirman – məhrum olma, qovulma
Hilali-Əhmər – qırmızı aypara
Hizmət – xidmət

Hisar – hasar
Hüveyda – bəlli, aşkar, zahir
Hüqqə – qutu, yeşik
Hülul – girmə, daxil olma
Hürrəndiş – azad fikirli
Hüzur – hazır olma
Hüsul – hasil olma, ələ gəlmə

**X**

Xabi-qəflət – qəflət yuxusu
Xak ilə yeksan – torpaqla bərabər etmək; uçurub dağıtmaq
Xatimə – son, axır
Xaif – qorxaq
Xədəmat – hizmətlər, vəzifələr.
Xəfi – gizli
Xəlqiyyat – xalq yaradıcılığı, folklor
Xətərnak – qorxulu, təhlükəli
Xətir – qorxululuq, təhlükəlilik
Xətti-fasil – ayıran xətt
Xəvas – yuxarı təbəqə nəzərdə tutulur
Xunbəha – qanbahası, qanhaqqı
Xunin – qanlı
Xun – ciyər qanı, dərd-qəm, qüssə-kədər
Xüdə – aldatma, hiylə
Xürafə – batil inanc; uydurma hekayə
Xüruc – üsyan etmə, qarşı çıxma
Xüsumət – düşmənçilik, ədavət

**İ**

İadə – geri dönmə, qaytarma
İbqa – olduğu kimi saxlama
İblağ – yetişdirmə, çatdırma
İbraz – təzahür etdirmə
İbrişim – ipək sap; ipək parça
İcab – ehtiyac, zərurət
İcabət – cavab vermə
İctima – bir yerə toplaşma, yığışma
İdamə – davam etdirmə
İfrağ – qəlibə tökmə, qaydaya salma
İftiraq – dağılma; ayrılma
İftitah – açılış; başlanğıc
iffət – namus, mənəvi təmizlik, saflıq
İğbirar – xətrinə dəymə; tozlanma
İğfal – aldatma
İğmaz – böhtan; nəyəsə göz yumma
İğzab – qəzəbləndirmə
İhanət – təhqir, alçaltma
İhsaiyyət – sayımlama, statistika
İhtifal – qeyd etmə, bayram etmə
İxlal – pozma, rəxnə salma
İxtifa – gizlənmə
İxtilaf – uymamaq, düz gəlməmək, uyuşmamaq
İxtilal – qiyam, inqilab, mübarizə
İxtilat – qaynayıb-qarışma, əlaqə
İxtitam – son, axır, nəticə
İktifa – kifayətlənmə
İktisab – qəsbetmə
İqa – atma, vurma
İqna – qənaətləndirmə
İqraz – borc vermə
İqsam – andiçmə
İqtibas – qazanma, kəsbetmə
İqtiham – şiddətli hücum

İqtiran – yaxınlaşma, birləşmə
İqtiza – tələb, lüzum, lazım olma
İlca – məcburiyyət
İlğa – ləğvetmə
İlhaq – birləşdirilmə, qatılma
İltica – sığınma, pənah
İltifat – üzünə baxma, könlünü oxşama
İltihaq – qatılma, birləşmə
İltihat – qızma, qəzəbə gəlmə
İltizam – məsuliyyət, vəzifə, öhdəlik
İmar – yəhər, qoşqu ləvazimatı
İmha – məhvetmə
İmtisal – təqlid etmə; tabe olma
İnfial – xəcalət çəkmə, reaksiya
İnfisax – ləğv olma; xarab olma
İnfirad – ayrılıb tək qalma
İnha – yetişdirmə, çatdırma; bunlar
İnhilal – bir-birindən ayrılma
İnhiraf – dönmə, sapma; qırılma
İnhitat – aşağı düşmə, qüvvədən düşmə
İniqad – bağlanma, təşkil edilmə
İnqilabi-kəbir – böyük inqilab
İnqilabi-səğir – kiçik inqilab
İnqiraz – sonu kəsilmə, məhv olma
İnqisam – bölünmə
İnqita – kəsilmə
İnşad – ifadəli oxuma
İnşiab – qol-budaq vermə
İntiba – nəşr etmə, çap etmə; təəssürat
İntibaq – uyğun gəlmə; tətbiq edilmə
İntiqal – nəql etmə; yerini dəyişmə
İntixab – seçmə
İntisab – təyin etmə; mənsub olma
İntişar – yayılan
İraə – göstərmə
İrfan – bilmə, xəbərdar olma
İrşad – doğru və işıqlı yolu göstərmə
İrtibat – bağlılıq, əlaqə, rabitə
İrtihal – həyatdan köçmə, ölüm
İrtişa – rüşvətxorluq
İrtica – ümid etmə; dala qayıtma, təsirə cavab vermə
İrza – razı salma; süd vermə
İsabət – hədəfə çatma; çox münasib
İsal – çatdırma, yetirmə
İskan – məskən saldırma
İskat – sakitləşdirmə, ayırma
İslav – slavyan
İstecal – tələsmə, tələsik iş görmə
İstehdaf – hədəf alma
İstehlal – nitqin müqəddiməsi; halal etmə, halallaşma
İstemal – işlənmə, işlətmə
İstianə – yardım, kömək
İstical – sonraya bıraxılmasını istəmək
İstida – yalvarıb istəmə
İstidamət – davamlılıq
İstihalə – halını dəyişmə
İstihdaf – hədəf alma
İstixdam – qulluğa götürmə
İstixlaf – birisini öz xələfi hesab edib yerinə qoyma

İstixlas – xilasolma
İstiqbal – gələcək; qarşılaşma
İstilah – xüsusi ifadə; termin
İstilzam – lazım olma
İstim – buxar
İstima – dinləmə, qulaq asma
İstinkaf – rədd etmə, qəbul etməmə
İstirdad – geri alma, geri istəmə
İşaə – şaiyə, yalan xəbər; nəşr etmə
İşkal – müşkül, çətin
İştiğal – məşğul olma
İta – vermə, ödəmə
İtlaf – tələf etmə, öldürmə
İtlas – azad etmə, boşama
İtmam – tamamlama, axıra çatdırma
İttixaz – əxz etmə; qəbul etmə
İttila – xəbərdar olma; xəbər
İzac – narahat olma, həyəcanlanma
İzalə – dəfetmə, rədd etmə
İzhar – ifadə etmə
İzrar – zərər vurma

**J**

Jurnal – danos; gündəlik; jurnal

**K**

Kain – olan, mövcud
Kaffə – hamısı, büsbütün
Kamilən – bütünlüklə, tamamilə
Kan – mədən quyusu, bir şeyin bol olan yeri, mənbə
Kanuni-əvvəl – dekabr ayı
Kanuni-sani – yanvar ayı
Kari – dəyərli, kəsərli, təsirli
Karlı – faydalı
Kəcvac – dolanbac, əyri-üyrü
Kəhanət – gələcəyi xəbər vermə
Kəşidə – çəkilmiş; tire; şapalaq
Kəza – bunun kimi, həmçinin
Kəzzab – yalançı
Kisvə – qiyafə, zahiri görkəm
Kılavuz – bələdçi
Kombinezon – kombinasiya; gediş
Kulübə – daxma
Kundura – başmaq
Kurnaz – hiyləgər, bic
Kutah – qısa, gödək
Külfət – zəhmət, məşəqqət
Küll – bütün, hamısı
Küməl – aləm; burada mədəniyyət küməsi, mədəniyyət aləmi
Künh – bir şeyin sonu, ən son nöqtəsi
Küstax – sayğısız, arsız, həyasız
Kütübi-zəlalə – səhv yol göstərən kitablar
Küul – spirt, alkoqol
Köy – kənd

**Q**

Qadirrəs – bacarığı çatan
Qaid – komandan, çavuş, rəhbər, başçı, oturmuş (adam)
Qail – inanan, söyləyən
Qailə – dərd, bəla, sıxıntı

Qaim – dayanan; möhkəm, dik dayanan.
Qaimməqam – müavin, qəza rəisi
Qare – oxucu
Qate – kəsən, qıran; qəti, möhkəm
Qayət – çox
Qəbih – çirkin, yöndəmsiz; yaramaz
Qədəmə – dərəcə, səviyyə
Qəht – qəhət
Qələyan – qaynama, coşma
Qərib – yaxın
Qərz – borc
Qəta – qəti olaraq
Qətil – öldürülmüş, qətl edilmiş
Qəva – qayda, dekret
Qəvi – qüvvətli, varlı
Qəsəm – and, and içmə
Qəzaən – bilmədən, təsadüfən
Qəziyyə – iş, məsələ
Qıyı – sahil
Qitə – qitə; bölük; parça, hissə, ölkə; iki beytdən ibarət şeir parçası
Qitəat – hissələr, qoşunlar
Qiyab – qaib olma
Qiyas – müqayisə
Qrev – mitinq
Qullanmaq – istifadə etmək
Quyumçuluq – zərgərlik
Qüva – qüvvət
Qüdsi –müqəddəs
Qüdsiyyət – müqəddəslik
Qürun – qərinələr, əsrlrə
Qüruni-vüsta – orta əsrlər
Qüyud – qeydlər, zəncirlər
Qövm – bir nəsildən olan, tayfa

**L**

Laədri – bilinməyən, naməlum
Laik – dünyəvi
Laübali – səhlənkar
Layətənahi – ölməz, tükənməz
Ləfz – söz, kəlmə
Livayi-üsyan – üsyan bayrağı
Linç – tikə-tikə
Lisan – anlaşma, dil
Lisani – çözmə, çözülmə
Lisani-şəkva – şikayətli dillə

**M**

Maəda – başqa, digər, ayrı
Maddətən – maddi olaraq, həqiqətən
Mafövq – yuxarıda göstərilən
Mali – dolu, bol; maliyyə
Malzəmə – material
Mavəra – arxasında, o tayında
Mavərayi-Qafqaz – Cənubi Qafqaz
Məab – sığınacaq
Məbdə – ibtida, başlanğıc
Məbər – keçid; yol, ümumi küçə
Məbhut – döyükmüş, mat
Məbna – bina edilmiş, tikilmiş
Məbus – deputat, elçi
Məbzul – bol, ucuz; bağışlanmış
Məbzuliyyət – bolluq, ucuzluq

Məclub – cəlb olunmuş
Məcmu – toplanmış, yığılmış
Məcul – saxta
Mədar – istinad nöqtəsi, məhvər
Mədfun – dəfn edilmiş
Mədxəl – giriş, girəcək
Mədid – uzun, davam edən
Mədihəxan – qəsidə deyən
Mədyun – minnətdar, borclu
Məfqud – itirilmiş, qeyb olmuş
Məfluc – iflic xəstəliyinə tutulmuş
Məfsədə – fitnə-fəsad törətmə
Məğfur – əfv olunmuş, bağışlanmış
Məhafil – yığıncaqlar, məclislər
Məhfəzə – qutu, mücrü, sandıqca
Məhfil – məclis, yığıncaq yeri
Məhfuz – mühafizə olunmuş
Məhirülüqul – mahir, tədbirli
Məhmayi-imkan – imkan daxilində
Məhruqat – yanacaq
Məhsulati-ziraət – əkinçilik məhsulları
Məhsur – hasarlanmış, mühasirə edilmiş
Məhsus – hiss olunan
Məxəz – mənbə: bir şeyin alındığı, çıxarıldığı yer
Məxtərə – mühüm yığıncaq
Məiyyət – böyük şəxsi müşayiət edənlər
Məkatibi-milliyyə – milli məktəblər
Məkə – keşməkeş
Məkəs – əks olunan yer
Məkus – bir şeyin ziddi, əksi
Məqamat – məqamlar; muğamat
Məqərr – idarə mərkəzi, paytaxt
Məqtəl – qətl yeri
Məqtul – öldürülmüş
Məlcə – sığınacaq yer
Məlhəmə – qəhrəmanlıq dastanı, epopeya; qırğın, qanlı vuruşma
Məlhuz – nəzərə çarpmış
Məluf – alışmış, adət etmiş; yemlənmiş
Məlul – fikirli, qəmli; əlil, şikəst
Məmafih – bununla birlikdə, həmçinin
Məmalik – məmləkət, ölkələr
Məmasaf – uyğunlaşmaq, yola getmək
Məmul – arzu edilən, ümid edilən
Məmurə – şəhər, qəsəbə
Mən – qadağan, saxlama
Mənabe – mənbələr
Mənaqib – istedadlar, təriflər
Mənar – mayak
Mənazifih – mübarizə meydanında
Mənazir – mənzərələr
Mənfa – sürgün yeri
Mənhus – uğursuz, nəhs
Mənqəbə – tərifəlayiq sifət; mədhiyyə
Mənquş – nəqş edilmiş
Mərasid – gözləmələr, baxışlar
Mərbut – bağlı
Mərbutiyyət – bağlılıq

Mərkəziyyət – mərkəzə tabe olma
Mərcə – müraciət olunan yer
Məri – gözlə görünən, riayət edilmiş
Məruf – məşhur, tanınmış
Məsahə – ərazi, sahə
Məsai – çalışma
Məsail – məsələlər
Məsərrət – sevinc, şadlıq
Məshur – sehrlənmiş
Məsih – silinmiş, sürtülmüş; yağlanmış
Məsmum – zəhərlənmiş
Məsud – xoşbəxt
Məsun – toxunulmaz
Məşahid – məşədilər
Məşahir – məşhurlar
Məşbu – doymuş, tox
Məşər – camaat, cəmiyyət
Məşkuk – şübhəli
Məşkur – şükr edilən; yaxşı
Məşrəb – içki içilən yer; adət; həvəs
Məşru – qanuni, leqal; plan, layihə
Məşrut – şərtli, şərt edilmiş
Mətalib – mətləblər
Mətlub – istənilən, tələb edilən şey
Mətuf – əyilmiş
Məvadd – maddələr
Məvaddi-ehraqiyə – yandırıcı maddələr
Məvane – maneələr
Məvaşi – südlük-ətlik heyvanlar
Məvəddət – sevgi
Məvvac – çox dalğalı; tərəddüd edən
Məzalim – zülmlər
Məzbut – tutulmuş, zəbt olunmuş
Məzc – qarışdırma
Məzkur – yuxarıda adı çəkilmiş
Məzruf – bükülmüş, sarınmış
Məzhər – təzahür; nail olma
Məxluq – qarışıq, başqa şeylə qarışmış
Məiyyət – yanında olma, birgəlik, yoldaşlıq
Mihvər – öz ətrafında fırlanan bir şeyin ortasından keçən mil, ox
Mirliva – general-mayor
Miralay – polkovnik
Misaq – sözləşmə, əhd
Miyah – sular
Miyan – orta, ara
Mizah – yumor
Mond – ay
Möbəd – bilikli, alim; zərdüşt dini kahini
Möhlik – öldürücü
Möhtəməl – ehtimal olunan
Mötad – adət edilmiş, vərdiş edilmiş
Mötədil – orta, mülayim
Mötəlif – öyrəşən; uyğun, müvafiq
Mövquf – saxlanmış; bağışlanılmış
Mövqutə – bəlli zaman aralıqları ilə çıxan qəzet və ya jurnal
Mövud – vəd olunmuş

Mövhibə - hədiyyə, bəxşiş, ehsan
Mövze – yer, məkan; vəziyyət, hal
Mövzun – münasib, uyğun
Mucib – səbəb, bais
Mucid – yaradan; ixtira edən
Muğ – atəşpərəst
Mumaileyh – haqqında danışılan
Munid – inadkar
Müaf – əfv olunmuş
Müahidə – müqavilə
Müaxizə – sıxışdırma
Müaqib – əzab verən; təqib edən
Müamilə – rəftar
Müariz – etiraz edən
Mübayiə – satın alma, alver
Mübahat – mübah şeylər; fəxr eləmə, öyünmə
Mübəyyən – bəyan edilən
Mübin – aydınlaşdıran
Mübtəna – tən gəlmək, bərabər olmaq
Mücadilə – çəkişmə
Mücahid – çalışan, səy edən; cihad edən
Mücəhhəz – hazırlanmış
Müchər – açıq, hündürdən danışan
Mücməl – xülasə, icmal
Mücövhərat – cəvahiratla bəzədilmiş şeylər
Mücriyyə – günahkar, təqsirli
Müctəmə – toplanmış
Müddəiyi-ümumi – prokuror
Müdəqqiq – araşdıran, tədqiq edən
Müdərris – müəllim, dərs verən
Müdəvvin – tədvin edən
Müdiran – rəhbərlik
Müərrəb – ərəbləşdirilmiş
Müəbbir – yuxu yozan
Müəbbəd – sonsuz, əbədi
Müəssif – üzücü, üzgünlük verən
Müəssir – təsir edən, iz buraxan; amil
Müəssis – təsis edən
Müəyyəd – sağlam, imdad istəyən
Müəzzəmə – böyük, əhəmiyyətli
Müəzzəz – əziz, hörmətli
Müfariqət – ayrılma, qürbətə köçmə
Müfid – faydalı; mənalı; ibrətli
Müfrəz – ifraz edilmiş; dəstə, hissə
Müfrid – dəf edən, uzaqlaşdıran
Müfrit – həddindən artıq, ifrat
Müfsid – fitnəçi
Müftəxir – öyünən, lovğa, təkəbbürlü
Müğayir – zidd
Mühat – dövrəyə alınmış
Mühəqqəq – tədqiq olunmuş, doğru
Mühərrir – yazıçı, naşir
Mühəyya – hazırlanmış
Mühəyyic – coşdurucu, həyəcan verici
Mühəyyir – heyrətləndirən
Mühill – hiyləgər, fırıldaqçı
Mühəssənat – gözəl işlər, gözəl xasiyyətlər

Müxadinət – dostluq, yoldaşlıq
Müxatəb – xitab olunan şəxs
Müxəffəf – ixtisara salınmış, yüngülləşdirilmiş
Müxəlla – boş, boşaldılmış
Müxərrib – xarab edən, dağıdan
Müxəyyəl – xəyala gətirilən
Müxtəlit – qarışıq
Mükatib – məktublaşan, yazışan
Müktəsəb – qazanılan, əldə edilən
Müqabilə – qarşılıq müqavilə
Müqatilə – bir-birini vurmaq, öldürmək; döyüş
Müqəbbəs – iqtibas olunmuş
Müqəddər – təyin olunmuş; bəxt, tale
Müqərrər – qərarlaşdırılmış
Müqərrib – yaxınlaşdıran
Müqəyyəd – sərbəst olmayan, bağlı
Müqim – oturan, yaşayan, sakin
Müqtədir – qüvvətli, güclü
Müqtəzəyat – lazımi şeylər
Müqtəzi – gərəkli
Mülazimi-əvvəl – baş leytenant
Mülazimi-sani – kiçik leytenant
Müləqqəb – ləqəbli
Mülğa – ləğv edilmiş, qapadılmış
Mülhəqat – əlavələr
Mülhəm – ilhama gəlmiş
Mümaniət – əngəl olma
Mümasil – bənzəyən, andıran
Mümaşat – yoldaşlıq; yalandan öymə
Müməssil – təmsil edən, nümayəndə
Mümtaz – fəqlənən, seçilən; imtiyazlı
Mümzi – imza edən
Münaqilat – nəqliyyat
Münazirə – müzakirə, mübahisə
Mündəmic – daxil olan, yerləşdirilmiş
Münəqid – bağlanmış
Münəqqid – tənqidçi
Münəvvər – işıqlı, nurlu
Münfərid – tək, təkbaşına; subay
Münhəsir – məhdud, hasarlanmış
Münhəsirən – yalnız bir şeyə məxsus olan
Münkər – inkar olunan
Münkəşif – kəşf olunmuş
Münkəsir – qırılmış, sınmış; tutqun, qəmli
Münqəriz – tükənən, nəsli kəsilən
Münqəte – kəsilmiş, üzülmüş
Münsi – unudulmuş
Müntəhi – sona çatan, bitən
Müntəxəb – seçilmiş, bəyənilmiş
Müntəşir – nəşr olunmuş
Müntəzir – gözləmək
Müraqibə – nəzər salma, baxma
Mürəbbe – kvadrat
Mürəccəh – başqalarından üstün tutulan
Mürəxxəs – iznli, icazəli; vəkil
Mürəttəb – nizama salınmış, tərtib olunmuş

Mürəvvic – rəvac verən, dəyərini artıran, yayan
Mürəvvici-əfkar – fikirləri yayan
Mürsəl – göndərilmiş; peyğəmbər
Mürtədd – dönük, məsləkini dəyişən
Müsadif – təsadüf edən, rast gələn
Müsadimə – çarpışma, toqquşma
Müsafirət – səfər, səfərə çıxma
Müsahifə – əlini sıxmaq
Müsahilə – müdaxilə
Müsamihə - səhlənkarlıq; əfv; üzr istəmə
Müsaid – əlverişli
Müsaidat – köməklik
Müsbət – sübut edilmiş
Müsəlləm – təslim edilmiş
Müsəvvədə -mətnin qaralaması
Müsib – haqlı
Müsirranə – israrla
Müslih – islah edən; barışdıran
Müsmir – faydalı; bar verən
Müstəar – götürülmüş, alınmış
Müstəfid – faydalanan, istifadə edən
Müstəhasə – daşlaşmış
Müstəhfiz – mühafizə edən, qoruyan
Müstəhlək – istehlak edilmiş
Müstəhsil – istehsalçı
Müstəhzər – dəvət edilmiş, çağırılmış
Müstəxrəc – bir şeydən çıxarılmış
Müstəqbəl – gələcək
Müstəqərr – qərar tutulan yer
Müstənəd – istinad edilən; sənəd
Müstəşriq – şərqşünas
Müstərr – məcbur, naçar
Müstövli – işğalçı
Müşabihət – bənzərlik, oxşarlıq
Müşarünileyh – haqqında danışılan
Müşəxxəs – tanınmış, seçilmiş
Müşir – marşall
Mütabiq – uyğun, müvafiq
Mütalibə – tələb etmə, iddia
Mütarikə – müvəqqəti barışıq
Mütəaqib – bir-birinin ardınca gələn
Mütəbaqi – artıq qalan
Mütəbariz – qabarıq
Mütəbəqə – eyni
Mütəbəllir – büllurlaşmış
Mütəbəssir – ağıllı hərəkət edən
Mütəcanis – həmcins
Mütəcaviz – təcavüzkar
Mütəqabil – qarşılıqlı, qarşı-qarşıya
Mütədəyyin – dindar
Mütəəddid – çoxlu, saysız
Mütəəlliq – asılı, bağlı
Mütəəssir – məyus
Mütəəssif – heyfslənmək; təəssüf edən
Mütəəzziv – formalaşmış
Mütəfərriq – ayrılmış, dağınıq
Mütəhəssis – hiss edən
Mütəhəşşid – birlikdə hərəkət etmək üçün tolpanmış
Mütəhəyyic – həyəcanlı

Mütəhəbbir – dərin; bilikli adam
Mütəxalif – bir-birinə uyğun gəlməyən
Mütəxasim – qarşılıqlı düşmənçilik
Mütəkamil – təkmilləşmiş
Mütəqabil – qarşılıqlı
Mütəmayiz – seçilən, fərqlənən
Mütəna – bənzədilmiş
Mütənəffiz – nüfuz sahibi, sözü keçər
Mütənəvve – türlü, çeşitli
Mütəntən – təntənəli
Mütəradif – eyni mənalı, sinonim sözlər
Mütərakim – üst-üstə qalanmış
Mütərcəm – tərcümə olunmuş
Mütəsəvvir – təsvir olunan
Mütəşəbbüs – təşəbbüskar
Mütəşəxxis – görkəmli, təşəxxüslü, gözəçarpan
Mütəvəcceh – üz tutan
Mütəvəhhiş – qorxmuş, hürkmüş
Mütəvəkkil – ümid edən; vəkil edilən
Mütəvəqqül – məşğul olan
Mütəvəllid – doğulan, törəyən
Mütəvəssit – orta; vasitəçi
Mütəzərrir – zərər görən
Müttəhid – birləşmiş, birgə
Müvacihə – üzləşmə, üz-üzə gəlmə
Müvaxiz – məzəmmət etmə
Müvasilə – birləşmə, qovuşma
Müvəqqər – hörmət edilən; sayılan
Müvərrix – salnaməçi, tarix yazan
Müvəzzəf – vəzifəsi olan
Müzahir – aşkar edən
Müzahirət – yardım etmə, kömək
Müzahirəti-tammə – tam kömək etmək
Müzəkkirə – nota
Müzəyyən – bəzənmiş, zinətli
Müzil – yox edən, məhv edən
Müzirr – zərərli
Müzmin – köhnəlmiş
Müztərib – qızışmış, həyəcanlanmış

**N**

Nafiz – sözü keçən, nüfuz edən
Naib – canişin
Namüsaid – əlverişsiz, uyğun olmayan
Nədamət – peşmançılıq
Nəfasət – nəfislik, zəriflik
Nəfx – şişirtmə, üfürmə
Nəfis – gözəl
Nəfs – ruh, həyat, insani
Nəfy – sürgün; inkar, danma
Nəhr – çay
Nəkbət – şanssızlıq, talesizlik
Nəqiz – əks, zidd
Nəqz – pozma, ləğv etmə
Nəsb – rütbə alma; qurma; tikmə
Nəşət – inkişaf; hasil olma, törəmə
Nətayic – nəticələr
Nəvadir – nadir şeylər
Nəvis – yazan, yazıçı

Nəxcir – vəhşi keçi, ov, şikar
Nihai – son, yekun
Nihal – cavan ağac, fidan
Nim – yarım
Nisf – yarım, yarı
Növraq – bəzək, yaraşıq, gözəllik
Növzad – yeni doğulmuş
Novin – yeni şey
Nüdəma – nədimlər
Nüqud – nəqd şeylər
Nüfus – əhali

**O**

Obüs bölüyü – top bölüyü
Ovdət – geri qayıtma
Ovqat – vaxtlar
Ovqaf – vəqflər, ümumi istifadə üçün ayrılmış şeylər
Ovham – vahimələr, vəhmlər
Omuz - çiyin

**Ö**

Övdət – qayıtma, geri dönmə
Övham – vahimələr, vəhmlər
Övraq – vərəqələr, sənədlər
Ötəkinə - digər, o birisi

**P**

Payidar – daima, həmişəlik
Peyrəv – birinin ardınca getmək
Pədərşahi – patriaxat
Pirinç – düyü
Pəzir – qəbul edən
Pişrov – qabaqcıl
Plebisit – xalq səsverməsi

**R**

Rabeən – dördüncüsü
Raddə – dərəcə, mərtəbə; təxminən
Rakid – durğun, sakit, hərəkətsiz
Rəbt – bağlama, ilişdirmə
Rəbte-ümid – ümid bağlamaq
Rəhgüzar – yol gedən: keçid
Rəxnə – yıxıq; xələl, zərər
Rəisi-sani – ikinci sədr
Rəkz – yerə sancma
Rəqiq – nazik, incə; rəhmli
Rəmad – kül
Rəsanət – ciddilik; möhkəmlik
Rəşədar – titrək
Rəyasət – rəhbərlik, başçılıq
Rəyüleyn – öz gözü ilə görmə
Rəzm – dava, qovğa
Rəzmgah – dava meydanı
Ribqə – ilmə, kəmənd
Rical – kişilər, ərlər
Ricət – geriləmə, geri çəkilmə.
Risail – məktublar, kitabçalar
Rişteyi-ümur – işlərin idarəsi
Riza – razılıq
Röyət – görmə, nəzarət
Ruzmərrə – hər günkü, hər günlük
Rükn – sütun, görkəmli şəxs
Rüsumat – vergilər
Rüşd – doğru yola getmə
Rümuz – rəmzlər; gizli anlam

**S**

Saiq – sövq edən
Sail – hücumçu; cərəyan edən; dilənçi
Sahir – sehrbaz, cadugər; cəzb edən, məftun edən
Saleh – yaxşı, yararlı; səlahiyyətli
Salifüzzikr – irəlidə deyilmiş
Salisən – üçüncüsü
Saman – dövlət, sərvət
Sancaq – bayraq
Saniyən – ikincisi
Seyd – ov, ovlama
Seydi-mahi – balıq ovu
Seyfiyyə – yaylaq
Seyri-səfayin – gəmi naviqasiyası
Seyri-təbii – adi gediş
Səbəq – yarışda birincilik; dərs, təlim
Səbirülrəşad – doğru yol
Sədəd – niyyət, məqsəd; münasibət
Sədr – ürək, qəlb; başçı
Səfayin – gəmilər
Səfhə – mərhələ
Səkənə – sakinlər
Səkərat – sərxoşluq, keflilik
Səlasə – üç
Səlb – zorla əlindən alma; rədd etmə
Sənai – sənayeyə aid olan; süni
Sənayei-nəfisə – incə sənətlər
Sənduqə – mərmər qəbir daşı
Sərahət – səhihlik, dəqiqlik, aydınlıq
Sərapa – tamamilə
Sərasimə - heyran, valeh, sərsəm
Sərd – ürək sıxan, xoşa gəlməyən
Sərfi-nəzər – vaz keçmə
Sərfiyyat – sərf olunan
Sərh – qəsr, imarət
Səri – tələsik, tez
Sərih – açıq, aşkar
Sərp – sərt, keçilməsi çətin, dik yamac
Sərkeş – baş qaldıran, sözə qulaq asmayan
Sərnəvişt – alın yazısı, müqəddərat, tale
Səmahət – comərd, əliaçıq, səxavət
Səpayə - üç ayaqlı
Səyyal – axan, axıcı, çox axan su
Simsar – dəllal, aralıqçı; gümüşü
Sipahi – hərbi, əsgəri; əsgər, döyüşçü
Sitarə – ulduz
Siva – başqa, qeyri
Softa – bir inanca kor-koranə bağlanan şəxs; mədrəsə tələbəsi
Sövq – səbəb olma, təhrik etmə
Sövqülceyş – əsgəri birliklərin lazımlı nöqtələrə aparılması
Su – nasaz, pis; pislik, yamanlıq; 2)Tərəf
Sur – şəhər divarı, qala divarı; şeypur
Susən –zanbaq
Suzan – yandıran, yaxan, göynəyən
Sui-istemal – öz hüquq və vəzifələrindən başqasının zərərinə qanunsuz istifadə etmə
Sui-təfəhhüm – yanlış anlama

Süfla – alçaq, etibarsız
Sühulət – asanlıq
Süls – üçdə bir
Sünuf – siniflər

### Ş

Şayan – layiq, münasib
Şayani-əsəf – təəssüfedici
Şayanı-təqdir – bəyənilən
Şayanı-diqqət – diqqətə layiq
Şaye – hamıya məlum olan
Şayistə – yaraşan, layiq
Şədid – güclü, qüvvətli
Şifahən – şifahi olaraq
Şiqaq – ayrı-seçkilik
Şiməndifer – dəmiryolu
Şirazə – nizam, intizam
Şoven – ifrat millətçilik; irqçilik
Şühəda – şəhidlər
Şümul – şamil olma; dəlalət etmə
Şüru – başlama
Şüun – şan-şöhrətlər

### T

Tali – ikinci dərəcədə olan, ikinci
Tarac –qarət, soyğun, çapqın
tacdar – taclı, hökmdar, şah
Tammə - tam, tamam
Teyy – sarıma, bükmə
Təaqüb – bir-birini təqib etmə
Təarüf – bir-birini tanıma
Təati – mübadilə, dəyişmə
Təbaüd – uzaqlaşma
Təbcil – ucaltma, tərifləmə
Təbdil – dəyişdirmə
Təbəddül – dəyişmə
Təbəq – bulud, budaqda gül yarpağı
Təbəllür – büllurlaşmaq; açığa çıxmaq
Təbən – tabe olaraq; təbii olaraq
Təbərrö – ianə vermək, ehsan vermək
Təbir – ifadə etmək, anlatmaq
Təbşir – muştuluqlama
Təbyiz – ağartma, surətin çıxartma
Təcdid – təzələtmə, yenilətmə
Təcəlli – əyan olma, görünmə
Təcəmmö – toplanma
Təcəzzi – xırdalanma
Təcviz – mümkün hesab etmə
Təcziyə – cəzalandırma; parça-parça ayırma
Tədabül – qarşılıqlı dəyişmə
Tədad – sadalama
Tədafö – müdafiə, qorunma
Tədhiş – terror, dəhşətə salma
Tədib – tərbiyə vermə; cəza vermə
Tədil – ədalətli iş görmə
Tədiyə – ödəmə, borcu vermə
Tədvin – qanunları sistemə salma
Təəddi – həddi aşma
Təəhhüd – öhdəsinə alma
Təəhhür – gecikmə
Təəmmül – ətraflı düşünmə
Təəmmüm – hamıya aid olma
Təərrüz – sataşma, təcavüz etmə

Təəssür – bir şeyin təsiri altında olma
Təəssüs – özünü alçaldıb yalvarma
Təəzzüv – formalaşma
Təfəhhüs – diqqətlə araşdırma
Təfəvvüq – üstünlük, üstün gəlmə
Təfərrüd- tək olma, misilsiz, özbaşına qalma
Təfrə – sıçrama
Təfriqə – hissə-hissə çap olunan əsər
Təğəllüb – öhdəsindən gəlmə
Təğənni – zənginləşmə; oxuma
Təhcir – bir şeyin ətrafına daşdan hasar çəkmə; köç
Təhəccür – daşlaşma, daşa dönmə
Təhəddüs – üzə çıxma, zahir olma
Təhəkküm – hakim olma; ələ salma
Təhəqqüq – həqiqi olduğu meydana çıxma
Təhəmmül – səbr etmə, dözmə
Təhəssün – yaxşılaşma; çəkilmə
Təhəvvül – dəyişmə, dəyişkənlik
Təhəvvür – ağılsızlıq
Təhəyyüc – həyəcanlanma
Təhi – boş; elmsiz, biliksiz
Təhmil – yükləmə; vergi
Təhrir – yazma, redaktə etmə
Təhrirat – rəsmi kağızlar
Təhrirən – yazılı olaraq
Təhsil – hasil etmə, qazanma
Təhşid – bir yerə cəm etmə, toplama
Təhşidati-əsgəriyyə – əsgərlərin bir yerə yığılması
Təht – alt, aşağı
Təhti-təmin – müdafiədə olma
Təhyic – həyəcan
Təhziz – titrətmə, titrəyiş
Təxəssüs – ixtisaslaşma
Təxfif – yüngüllətmə, asanlaşdırma
Təxrib – viran etmə, xarab etmə
Təxliyyə - boşaltma, boşaldılma
Təxsis – həsr etmə; xüsusiləşdirmə
Təkrim – təzim etmə, hörmət etmək, əzizləmə
Təkəffül – öhdəyə alma, boynuna çəkmə
Təkərrür – təkrarlanma
Təkəvvün – var olma; yaranma
Təqbih – pisləmə, qəbahət sayma
Təqəddüm – irəliləmək
Təqərrür – sabitləşmə, qərarlaşma
Təqrir – yerləşdirmə; bəyan etmə
Təqsim – bölmə, hissələrə ayırma
Təqviyə – qüvvətləndirmə
Təqyid – qeyd etmə
Təlafi-mafat – qisas alıb puç etmə
Təlaqət – səlislik, rəvanlıq
Tələqqi – qiymətləndirmə, almaq
Təlxis – xülasə etmə
Təlif – əsər yazma, kitab tərtib etmə
Təlmih – şeirdən və s. bir hissəni öz əsərinə daxil etmə
Təlvis – çirkləndirmə, murdarlama
Təmayüz – üstün duruma gəlmə, seçkinləşmə

Təmdid – uzatma, çəkmə
Təməkar – tamahkar
Təməllük – yiyələnmə, sahib olmaq
Təmərküz – mərkəzləşmə
Təməssül – oxşama, bənzəmə
Təmiq – təhqiq etmə
Təmil – yerinə yetirmə
Təmim – yayma
Tənəddi – bəsləmə, qidalanma
Tənəvvür – işıldama, parıldama
Tənəvvö – çeşid-çeşid
Təng – bezikmiş; yoxsulluq
Tənkil – rədd etmə
Tənqih – lazımsız hissələri ataraq təmizləmə
Tənmiyə – inkişaf
Tənvir – işıqlandırma
Tənzir – bənzətmə, nəzirə yazma
Təraküm – yığılma; toplanma
Tərcih – üstün tutmaq
Tərd – qovmaq, çıxarmaq
Tərəkə – mirasın varislər arasında bölümü
Tərəssüd – gözləmə
Tərəssüb – dibə çökmə
Tərəttüb – tərtib olunma; sıralanma
Tərhib – rahatlandırma; qorxutma
Təriq – yol, tərz, üsul
Təriz – üstüörtülü; genişlətmə
Tərmiz – səciyyələndirən, rəmzləndirən
Tərsim – rəsm çəkmə, cızma
Tərvic – rəvac vermə
Tərfih – rifah içində yaşama, gen-bol içində yaşamanı təmin etmək
Təsanüd – həmrəylik
Təsavi – bərabərləşmə
Təsəddi – bir işə başlamaq
Təsəllüd – ağalıq etmə, hegemonluq
Təsərrüf – qənaət
Təsfiyə – saflaşdırma
Təshil – asanlaşdırma
Təsxir – istila, zəbt etmə
Təsid – buxarlanma; təbrik
Təsri – sürətləndirmə
Təsrih – açıq söyləmə
Təsviyə – bərabər etmə; ləğv etmə
Təsliyət – təsəlli vermək, ürək vermək
Təşdid – şiddətləndirmə
Təşəttüt – parçalanma, dağılma
Təşəvvüş – qarışma
Təşmil – aid etmə
Təşnə – susamış; arzusunda olan
Təşri – şəriətə aid işləri izah etmə
Təşrini-əvvəl – oktyabr
Təşrini-sani – noyabr
Təşriyyə – şəriət
Təşviq – bir işi görmək üçün həvəsləndirmək
Təşyi – yola salma
Tətəbbö – araşdırma, öyrənmə
Təthir – təmizlənmə
Tətimmə – əlavə olunma
Tətmin – təminat vermə
Tətvic – tac qoyma, taclandırma
Təvafüq – bir-birinə uyma
Təvarüs – varis olma
Təvazi – paralellik
Təvcih – şərh etmə, yönləndirmə

Təvəccöh – üz çevirmə; diqqət
Təvəkkül – Allaha tapşırma; vəkalət
Təvəqqüf – ləngitmə, dayandırma
Təfəvvüq – üstünlük, yüksəklik, üstün olma
Təvəssül – xahiş etmə; yaxın olma
Təvəssüt – ortada ola; orta
Təviq – təxirə salma, yubandırma
Təvil – uzun, çox sürəkli; təfsir etmə
Təvilat – izah etmələr
Təyid – təkid etmə, qüvvətləndirmə
Təzayüd – artma, çoxalma
Təzəbzüb – tərəddüd, qərarsızlıq
Təzəllül – alçalma, müti olma
Təzyin – bəzəmə, zinətləndirmə
Təzyinat – bəzəklər, zinətlər
Təzəkkür – yada salma, xatırlama
Timar – xəstəyə və s. xidmət; keçmişdə əsgərlərə verilən torpaq sahəsi
Tövəm - əkiz, tay, bənzər, uyğun
Tövcih – üz döndərmə
Tövdi – təslim etmə
Tövdiat – əmanətlər
Tövfiqən – uyğunlaşdıraraq
Tövhid – birləşdirmə
Tövkil – vəkil təyin etmə
Tövqif – saxlatma, həbsə alma
Tövlid – doğma; səbəb olma
Tövsi – vüsətləndirmə
Tövzi – bölüşdürmə
Tövzih – izah etmə
Tüfuliyyət – uşaqlıq
Tühəf – təəccüb, heyrət; töhfələr

**U**

Ufak – kiçik
Uğraşmaq – çalışmaq, bir şeyə başı qarışmaq
Uzman – mütəxəssis, bilici

**Ü**

Ücrət – əmək haqqı; icarəyə vermə
Üdəba – ədiblər, yazıçılar
Üqəd – düyünlər
Üqnum – rükn, ünsür
Ümərа – əmirlər
Ünf – şiddət, sərtlik
Ürəfa – ariflər
Ürf – adət, dəb; yaxşılıq, xeyirlik
Üsəra – əsirlər
Ünsür – tərkib, element, bir hissə
Ünas – qadınlar, qızlar
Ülum – elmlər
Üləma – alim, çox bilikli adam.
Üssülhərəkə – əsgəri hərəkatın başlanğıcına əsas olan yer

**V**

Vabəstə – bağlı, asılı; arxa, kömək
Vaqe – olan, baş verən
Vali – qubernator
Vapur – gəmi
Varəstə – qurtulmuş
Vase – geniş, enli
Vasil – yetişən, çatan
Vazeh – açıq, aydın
Vəch – üz, surət, üsul
Vəchi-ati – aşağıdakı surəti

Vədadü-vəfaqi – vəfalı sevgi
Vədd – sevgi, məhəbbət
Vəhid – tək, misilsiz
Vəxim – qorxulu, dəhşətli
Vəqaye – hadisələr
Vəqə – əhvalat, macəra
Vəlov – hətta belə
Vərtə – uçurum; burulğan; təhlükəli
Vəsaiqi – sənədli
Vəsət – orta, ortam
Vəsəti – ortadakı
Vəsi – qəyyum, ölənin vəsiyyətini yerinə yetirməyə məmur olan şəxs
Vəz – öyüd, nəsihət; moizə; qaydasına qoymaq
Vəzaif – vəzifələr
Vəzi-qəvanin – qanunların vəziyyəti
Vəzi-həml – doğmaq, yükünü yerə qoymaq
Vifaq – bir düşüncə ətrafında
Visaq – müqavilə
Visruvalı – canişinlik
Vneştorq – sovet xarici ticarət idarəsi
Vodevil – kiçik komediya janrı
Vüqu – hadisə, vaqiə; əmələ gəlmə
Vüsta – orta
Vüslət – aşiqin sevgilisinə qovuşması, vüsal
Vüzuh – aydınlıq, aşkarlıq

**Y**

Yarai – qüvvətli, cəsarətli
Yavuz – çox sərt; fövqəladə, əla
Yayğaraçı – hay-küy salan, boşboğaz
Yekan – məcmu, yekun
Yekdigər – bir-birini
Yeyicə – yeyin, sürətlə
Yəd – əl, kömək, vasitə, zor, qəribə iş
Yövmi – gündəlik
Yürük – yüyrək, sürətli
Yüzbaşı – kapitan

**Z**

Zabitə – ümumi qayda; intizam; polis
Zadeyi-təlqinat – təsirlərdən yaranma
Zail – fani, yox olan; batan
Zare – əkinçi, rəncbər
Zeyl – əlavə, ətək
Zəbun – qüvvətsiz, zəif; çox az
Zəbərdəst – qüvvətli, qoçaq
Zəf – zəiflik
Zəhab – getmə, yola düşmə
Zəhir – köməkçi, arxa
Zəmimə – əlavə olunmuş şey; cinayət
Zəvat – adamlar
Zəkavət - ağıl, fərasət, qabiliyyət, zirəklik
Ziqiymət – dəyərli, qiymətli
Zimam – cilov, yüyən; idarə etmə
Zində – diri, canlı
Ziraə – əkinçi
Ziraət – əkinçilik
Ziri-əsarət – əsarəti altında
Zirpərdeyi-xəfa – gizlilik pərdəsi altında
Züppə – modabaz
Zükur – erkəklər, kişilər; zikrlər




***1923-cü ildə İstanbulda nəşr edilmiş***
***“Azərbaycan Cümhuriyyəti” kitabı***



ملی آذربایجان نشریاتی : صایی ۲

عصرمزك سیاوشی

آذربایجان داستان نجیمنه عائد بر مقایسه

محرری :

رسولزاده محمد امین

سابق آذربایجان شورای ملیسی رئیسی

فیئاتی ۲۵ غروشدر

استانبول — آمدی مطبعه‌سی

۱۳۳۹ — ۱۳۴۲

***1923-cü ildə İstanbulda nəşr edilmiş***
***“Əsrimizin Siyavuşu” kitabı***


ملی آذربایجان نشریاتی : صایی ۳

استقلال مفکورەسی

وکنجلك

اسباب هزیمتمزه عائد بر مطالعه

( آذری کنجلر اجتماعنده ویرلمش بر قونفرانس )

محرری

رسول زاده محمد امین

استانبول — آمدی مطبعەسی

۱۳٤۱ - ۱۹۲۵

***1925-ci ildə İstanbulda nəşr edilmiş***
***“İstiqlal məfkurəsi və gənclik” kitabı***



ملی آذربایجان نشریاتی : صایی ٤

# روسیه‌ده سیاسی وضعیت

بر مقدمه - اقتصادی بحران - اجتماعی وسیاسی موازنه - قومونیست
فرقه‌سنده اختلاف - ملی مجادله و افتراق حرکتی - بین‌الملل وضعیت روس
عمله‌سی نه‌دیبور؟ - قومونیست نوز، قراسیسی ایله فرقه‌سی - بولشه‌ویکلر ناصل
سقوط ایده‌بیلیر؟ - محتمل حادثات قارشیسنده ملی وظیفه‌لر .

محرری :
رسول زاده محمد امین

قیمتی ١٥ غروش

استانبول — آمدی مطبعه‌سی
١٩٢٦

***1926-cı ildə İstanbulda nəşr edilmiş***
***“Rusiyada siyasi vəziyyət” kitabı***



ملیت و بولشه ویزم

مجموعهٔ مقالات

بنگارنده‌گی

آقای محمد امین رسول زاده

تألیف گردیده است

۱ — رسولزاده محمدامین — نظریات وعملیات بالشه‌ویکها در مسئلهٔ ملیت
۲ — رسولزاده محمد امین — سیاست شرق بالشه‌ویکها
۳ — محمدزاده میرزا بالا — آذربایجان در زیر استیلای شوروی
۴ — آشه‌نبا — بالشه‌ویکها در قفقاز شمالی
۵ — داوید شیراشیدزه — گرجستان وروسیهٔ شوروی
۶ — عبدالقادر — ترکستان در زیر استیلای بالشه‌ویکها
۷ — و. میرسکی — اوکرانی

استانبول

مطبعهٔ اورخانیه

۱۹۲۹

***1929-cu ildə İstanbulda fars dilində nəşr edilmiş “Milliyyət və bolşevizm” kitabı***



ملی آذربایجان نشریاتندن : صایی 8

اختلالجی سوسیالیزمک افلاسی

— و —

دموقراسینک کله‌جکی

رسول زاده محمد امین بك طرفندن

ایکی قونفرانس

فیاتی 15 غروش

استانبول . اورخانیه مطبعه‌سی 1928

***1928-ci ildə İstanbulda nəşr edilmiş***
***"İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi" kitabı***

# توركيلی

1928

تورك اوجاقلری مركز هيئتی طرفندن نشر اولونمشدر

طوپلايان

آقچوره اوغلی يوسف

***1928-ci ildə İstanbulda nəşr edilmiş***
***"Türk ili" illik məcmuəsi***

# MÜNDƏRİCAT

M.Ə.Rəsulzadənin mühacirətdəki əsərlərinin nəşri .......... 3
M.Ə.Rəsulzadənin mühacirətdəki fəaliyyəti - Türkiyə dövrü .......... 7
Azərbaycan Cümhuriyyəti keyfiyyəti-təşəkküli və şimdiki vəziyyəti .......... 33
Əsrimizin Siyavuşu .......... 177
İstiqlal məfkurəsi və gənclik .......... 239
Rusiyada siyasi vəziyyət .......... 263
Milliyyət məsələsində bolşevik nəzəriyyə və əməliyyatıarı .......... 302
Bolşeviklərin şərq siyasəti .......... 325
İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi .... 343
Qafqasiya türkləri .......... 406
İzahlar .......... 517
Sözlük .......... 565

MƏHƏMMƏD ƏMİN
RƏSULZADƏ

# ƏSƏRLƏRİ

## (MÜHACİRƏT DÖVRÜ:
## Türkiyə, 1922-1929)

I CİLD

«Ziya» NPM-də nəşrə hazırlanmışdır.
Direktor: ***Sevda Mikayılqızı***
Dizayn: ***Şamil Qurbanov***
Format: 60x90 1\16
Şərti ç.v.: 37,5
E-mail: ziyamika@mail.ru
Tel.: (+99450) 315 15 22